# Azad Füzuli

**(Xronika AZƏRTAC-ın materialları əsasında tərtib edilir)**

***2024, 16 aprel***
- Füzuli məktəbinin şagirdi buraxılış imtahanında ən yüksək nəticə göstərib
- Füzuli şəhərinə daha 156 ailə köçürüləcək – VİDEO

***2024, 15 aprel***
- ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

***2024, 8 aprel***
- Füzulidə Mirzə Uluqbəyin 630 illiyinə həsr olunan elmi konfrans keçirilib

***2024, 7 aprel***
- Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur
- Füzulidə, Laçında və Zabuxda orta təhsil səviyyəsi üzrə ilk dəfə buraxılış imtahanı keçirilib

***2024, 4 aprel***
- İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur

***2024, 2 aprel***
- Nazir: Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb

***2024, 30 mart***
- Avstriya Teleradiosunda Azərbaycanın işğaldan azad edilmiş əraziləri barədə geniş reportaj yayımlanıb – VİDEO

***2024, 29 mart***
- Füzulidə daha 35 ailəyə mənzillərinin açarları təqdim olunub
- 35 ailədən ibarət növbəti köç karvanı Füzuliyə çatıb
- Füzuli sakini: Gözəl günlərimiz bundan sonra daha çox olacaq
- Keçmiş məcburi köçkün: Düşünürəm ki, artıq bütün şəhidlərimizin ruhu şaddır
- Füzuli şəhərinə növbəti köç karvanı yola salınıb

***2024, 28 mart***
- Naxçıvandan Qarabağa yollanan şəhid ailələri Füzuli rayonunda olublar

***2024, 27 mart***
- Füzulidə daha 35 ailəyə mənzillərin açarları təqdim olunub
- Füzuli şəhərinə daha 35 ailə yola salınıb

***2024, 19 mart***
- Füzuli şəhərində İlaxır çərşənbə qeyd olunub - FOTO VİDEO

***2024, 18 mart***
- Mirzə Uluqbəy adına Füzuli şəhər tam orta məktəbdə Novruz şənliyi
- Füzulidə daha 34 ailəyə mənzillərin açarları təqdim olunub – FOTO
- Sakin: Füzuliyə çatan kimi torpağı öpəcəyəm
- Füzuli sakini: İnanıram ki, şəhid qardaşımın ruhu şaddır
- Keçmiş məcburi köçkün: Xatirələrimə - uşaqlığıma doğru gedirəm
- Füzuli sakini: Ən böyük arzum Novruz bayramını doğma yurdumda qeyd etmək idi
- Füzuli şəhərinə daha 34 ailə yola salınıb

***2024, 15 mart***
- Füzulidə daha 35 ailəyə mənzillərin açarları təqdim olunub
- Füzuliyə qayıdan sakin: Rayonu tərk edəndə 10 yaşım var idi, indi övladım eyni yaşdadır
- Keçmiş məcburi köçkün: Hər birimiz bu günü gözləyirdik
- Qazi: Çox xoşdur ki, uğrunda vuruşduğum, mübarizə apardığım torpaqlar bu gün azaddır
- Füzuli sakini: İntizardayam, oraları yenidən gəzib görmə marağındayam
- Daha 153 nəfər Füzuli şəhərinə yola salınıb

***2024, 14 mart***
- "Füzuli Könüllüləri" qrupuna qəbula start verilib

*2024, 13 mart*

- Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu
- Dövlət Məşğulluq Agentliyi Laçın, Füzuli və Ağdamda peşə kursları təşkil edib
- Professor: Qazaxıstanla qardaşlığımız əbədidir
- Səfir: Qazaxıstan Füzuli rayonunda xəstəxana inşa etməyi planlaşdırır
- **Qazaxısan Prezidentinin Azərbaycana dövlət səfəri xarici mətbuatda da geniş şəkildə işıqlandırılıb**

*2024, 12 mart*

- Adil Əliyev: Füzulidəki Yaradıcılıq Mərkəzi Azərbaycan-Qazaxıstan münasibətlərinin simvoludur
- **Tokayev: Qazaxıstanla Azərbaycan arasında əməkdaşlığın gələcəyinə böyük nikbinliklə baxıram**
- Füzulidə məktəblilərin Yel çərşənbəsi sevinci
- **Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanışlıq – VİDEO**
- **Azərbaycan və Qazaxıstan prezidentləri Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər - VİDEO**
- **Füzuli şəhərinin Baş planı ilə tanışlıq**
- **Azərbaycanda dövlət səfərində olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Füzuli rayonuna gəlib - VİDEO**

*2024, 11 mart*

- Sabah Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olacaq

*2024, 10 mart*

- Buraxılış imtahanı işğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada təşkil edilib
- DİM Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanı keçirir

*2024, 7 mart*

- Nazir müavini: İşğaldan azad olunmuş ərazilərdə 4G şəbəkəsinin əhatə dairəsi 79 faizdir
- DİM ilk dəfə Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanları keçirəcək

*2024, 5 mart*

- İllər sonra Füzulidə keçirilən Od çərşənbəsi maraqlı məqamlarla yadda qalıb – VİDEO

*2024, 1 mart*

- Füzuli şəhərinə köçürüləcək ailələr arasında növbəti püşkatma keçirilib

*2024, 27 fevral*

- Füzulidə 32 ildən sonra ilk Su çərşənbəsi - məktəblilərin sevinci

*2024, 23 fevral*

- Füzuli şəhərində sağlam həyat tərzinə həsr olunan maarifləndirici aksiya keçirilib - VİDEO

*2024, 21 fevral*

- Qarşıdakı iki ayda Füzuli şəhərinə 300-dən çox ailə köçürüləcək
- İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub
- Agentlik: Füzulidə 50 min nəfərin içməli su təchizatı üçün mərkəzi anbarların tikintisi həyata keçirilir

*2024, 19 fevral*

- "Azercell" Füzulidə!

*2024, 10 fevral*

- Füzulidə torpaq uçqunu altında qalan şəxs xilas edilib - VİDEO
- Füzulidə şagirdlərə "Web 2" alətləri ilə işləmək və İKT bacarıqları aşılanıb

*2024, 7 fevral*

- İlham Əliyevin seçkilərdə inamlı qələbəsi Füzuli şəhərində bayram əhvali-ruhiyyəsi ilə qeyd olunur – VİDEO
- İşğaldan azad olunan Füzulidə məskunlaşan sakinlər 3 məntəqədə səs verirlər – VİDEO

*2024, 5 fevral*

- Səhiyyə Nazirliyi işğaldan azad olunan Füzuli şəhərində uşaqların kompleks tibbi müayinəsini təşkil edib

***2024, 4 fevral***
- Yenidən qurulan Füzuli şəhərində 1292 nəfər səs verəcək

***2024, 2 fevral***
- ATƏT/DTİHB-nin müşahidəçiləri Füzuli rayonundakı seçki məntəqələri ilə maraqlanıblar

***2024, 29 yanvar***
- Füzulidə daha 27 ailəyə mənzillərinin açarları təhvil verilib
- Növbəti köç karvanı Füzuliyə çatıb
- Keçmiş məcburi köçkün: Otuz ildir bu xoş günün gələcəyini gözləyirdik
- Füzuli sakini: Uzun illərin həsrəti bitir
- Füzuli sakini: Biz illərdir bu günü gözləyirdik
- Keçmiş məcburi köçkün: Doğma yurduma çatmaq üçün səbirsizlənirəm
- Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb

***2024, 27 yanvar***
- Məftun Ramazanov: Füzulidə səs verməyə hazırlaşan seçici olmaq mənim üçün şərəfdir

***2024, 26 yanvar***
- Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim edilib
- Böyük Qayıdış: Füzuli şəhərinə növbəti köç karvanı yola salınıb
- Füzuliyə köçən sakin: Doğma yurdumuza çox böyük həvəslə qayıdırıq
- Keçmiş məcburi köçkün: Azərbaycan Ordusu şəhidlərimizin qisasını aldı
- Nüşabə Ağayeva: Tamamilə dağıdılmış şəhərlərin, kəndlərin sürətlə bərpası böyük sevinc doğurur

***2024, 24 yanvar***
- Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim olunub - FOTO VİDEO
- Füzuli sakini: Doğma yurdumda hər şey daha gözəl olacaq
- Keçmiş məcburi köçkün: Füzulini yenidən qurub yaradacağıq
- Füzuli şəhər sakini: Doğma yurduma çatmaq üçün səbirsizlənirəm
- Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb

***2024, 22 yanvar***
- ANAMA Füzuliyə köçən sakinlərə maarifləndirmə təlimi keçib
- Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim olunub – FOTO
- SOCAR Füzulidə yeni yanacaqdoldurma stansiyasını istifadəyə verib
- Keçmiş məcburi köçkün: Hamımız bu xoş günün gələcəyinə inanırdıq
- Füzuli sakini: Doğma torpağıma qayıtmağıma görə çox sevincliyəm
- Böyük Qayıdış: Füzuli şəhərinə daha 30 ailə yola salınıb

***2024, 20 yanvar***
- Füzulidə silah-sursat aşkar edilib

***2024, 19 yanvar***
- Füzuliyə köçürülən daha bir qrup şəxsə avadanlıqlar təqdim edilib
- Füzuli sakini: Evimizin bir eyvanından erməni vandalizmini, digərindən isə abad şəhəri görürük – FOTO

***2024, 18 yanvar***
- Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim olunub FOTO
- Füzuli sakini: Doğma yerlərə getdiyim üçün sevincli və bir o qədər də həyəcanlıyam
- Elnur Məmmədov: Füzuliyə qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur
- Keçmiş məcburi köçkün: Uzun illər Füzulinin həsrəti ilə yaşamışam
- Böyük Qayıdış: Füzuli şəhərində 1519 nəfərin daimi məskunlaşması təmin edilib

***2024, 12 yanvar***
- Füzuli şəhərinə köçürüləcək ailələr arasında növbəti püşkatma keçirilib
- QDF: Füzuli Mərkəzi Parkında təmizlik işləri zamanı ağaclar qorunur

***2024, 10 yanvar***
- Prezident İlham Əliyev: Yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının açılışını edəcəyik

***2024, 9 yanvar***

- Füzuli şəhərini içməli su ilə təmin etmək üçün 20 min kubmetr həcmində su anbarları inşa edilir
- Aqrar Xidmətlər Agentliyinin sədri Füzuli rayonunda vətəndaşların ərizə və şikayətlərinə baxıb
- ***2023, 30 dekabr***
- Füzulidə “Bayramınız mübarək, əziz şəhid ailələri” adlı tədbir təşkil edilib
- ***2023, 29 dekabr***
- Aqrar Xidmətlər Agentliyinin sədri Füzulidə vətəndaşları qəbul edəcək
- ***2023, 27 dekabr***
- Otuz il düşmən tapdağında qalan Füzuli torpaqlarından indi ətrafa çal-çağır sədası yayılır – VİDEO
- Şaxta baba Füzulidə balacalara bayram hədiyyəsi paylayıb – FOTO

***2023, 18 dekabr***
- Füzulidə daha 22 ailəyə evlərinin açarları təqdim olunub – FOTO
- Füzuli sakini: Sevincimi sözlə ifadə etməkdə çətinlik çəkirəm
- Sakin: Füzuli rayonunu daha gözəl, abad vəziyyətə gətirəcəyik
- Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb – VİDEO

***2023, 15 dekabr***
- Füzuliyə köçürülən sakinlər ilk dəfə aktivlərlə təmin edilib
- Akademik İsa Həbibbəyli Daşkənddəki Füzuli Tədqiqatlar Mərkəzi ilə tanış olub
- “Füzuli” SES-də 309 milyon kilovat-saat elektrik enerjisi istehsal edib

***2023, 14 dekabr***
- Füzuli Musayev: Ulu Öndərin arzuları Prezident İlham Əliyevin rəhbərliyi altında reallaşdı
- Füzuliyə ümumilikdə 846 ailənin köçürülməsi planlaşdırılır

***2023, 13 dekabr***
- Bu gün Füzuliyə köçən ailələrə evlərinin açarları təqdim olunub – VİDEO
- Füzulidə silah-sursat aşkarlanıb
- Füzuli sakini: Doğma evimizə qayıtmağın sevincini yaşamaqdan xoşbəxtəm
- Füzuli sakini: Bu xoş günləri bizə yaşadan Prezidentimizə minnətdarıq
- Doğma ocağına qayıdan Füzuli sakini: Sevincimizin həddi-hüdudu yoxdur
- Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb – VİDEO

***2023, 7 dekabr***
- Bu gün Füzuliyə köçən ailələrə mənzillərinin açarları təqdim olunub - VİDEO
- Baş Prokurorluq: Füzuli rayonunda mina partlayışı nəticəsində xəsarət alması faktı üzrə araşdırma aparılır
- Füzuli rayonunda traktor minaya düşüb, xəsarət alan var
- Füzuliyə köçən sakin: İndiyədək Binə qəsəbəsindəki yataqxanada yaşayırdıq
- Füzuli sakini: Uzun illər ayrı qaldığımız doğma yurdumuza qayıdırıq
- Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb - VİDEO

***2023, 5 dekabr***
- Özbəkistan parlamentinin nümayəndə heyəti Füzuli şəhərinə səfər edib

***2023, 4 dekabr***
- Füzuli rayon sakini tapdığı avtomat silahı polisə təhvil verib

***2023, 2 dekabr***
- Füzulidə “Nar şirəsi” tamaşası nümayiş olunub

***2023, 30 noyabr***
- Füzulidə yerin təkindən qanunsuz istifadə halı aşkarlanıb

***2023, 28 noyabr***
- Füzulidə ağacəkmə aksiyasında 100 ədəd Eldar şamı və sərv ağacı əkilib
- Füzulidə şəhid Elşad Cəfərovun xatirəsi anılıb
- Eşqi Bağırov: 2024-cü ildə Ağdam, Cəbrayıl, Füzuli rayonlarında yeni məktəb binaları tikiləcək

***2023, 27 noyabr***
- Füzulidə daha 25 ailəyə evlərinin açarları təqdim olunub - VİDEO
- Bu gün Füzuliyə yola salınan daha 25 ailə doğma yurduna çatıb

- Füzuli sakini: Otuz ildən çoxdur bu xoş günün gələcəyini gözləyirdik
- Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb
- Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb

***2023, 24 noyabr***
- Füzuli şəhərinə daha 25 ailə yola salınıb

***2023, 11 noyabr***
- Füzuli rayonu 27 nömrəli tam orta məktəbdə üç sinfə şəhidlərin adları verilib

***2023, 9 noyabr***
- “Azərişiq” ASC Füzuliyə köçürülən sakinləri işlə təmin edir

***2023, 8 noyabr***
- Füzulidə keçirilən bayram tədbiri atəşfəşanlıqla başa çatıb
- Füzuli rayonunun Əhmədbəyli kəndində “Ölümə qənşər-2” filminin təqdimatı keçirilib

***2023, 6 noyabr***
- Xarici səyyahlar Füzulidə minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyiblər

***2023, 18 oktyabr***
- Düşmənin viran qoyduğu Füzuli yenidən qurulur
- Şəhid anası: “Füzulidə bizimlə görüşdə Prezidentin kövrəlməsi mənə çox təsir etdi”
- İşğaldan azad olunan Füzuli rayonunda 2026-cı ilin sonuna qədər 22 min nəfərin yaşaması planlaşdırılır
- Füzulinin Cuvarlı kəndi tarixi ənənələri qorunmaqla müasir üslubda tikiləcək

***2023, 17 oktyabr***
- Milli Məclis sədrinin müavini: Füzulililər doğma evlərindədirlər
- “Füzuli Şəhəri Günü” təntənəli şəkildə qeyd olunub
- Diplomatik korpusun nümayəndələri “Füzuli Şəhəri Günü” tədbirlərində
- Füzulidə Şəhər Günü qeyd olunur
- Füzuli şəhərində 2040-cı ilədək 50 min sakin məskunlaşacaq
- **Prezident İlham Əliyev “Füzuli Şəhəri Günü”ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb: Prezident İlham Əliyevin çıxışı**
- ***2023, 16 oktyabr***
- **Prezident İlham Əliyev Füzuli şəhərində idman kompleksinin təməlini qoyub**
- **Azərbaycan Prezidenti İlham Əliyev Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub**
- **Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməli qoyulub**
- **Prezident İlham Əliyev Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoyub**
- **Füzuli şəhərində inzibati binanın təməli qoyulub**
- **Prezident İlham Əliyev Füzuli rayonunun Cuvarlı kəndinin təməlini qoyub**
- **Prezident İlham Əliyev Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlini qoyub**

***2023, 15 oktyabr***
- Vətən müharibəsinin xronikası: 15 oktyabr

***2023, 14 oktyabr***
- Füzulidə “Qalib ordu –Azad şəhər” adlı sərgi açılıb
- Füzuli şəhərinə qayıdan daha 28 ailəyə evlərinin açarları təqdim olunub

***2023, 13 oktyabr***
- Böyük Qayıdış: Növbəti 22 ailə Füzuliyə yola salınıb

***2023, 12 oktyabr***
- Füzuli şəhərinə köçən növbəti 21 ailəyə evlərinin açarları təqdim olunub

***2023, 10 oktyabr***
- Füzuli şəhərində daha 21 ailəyə evlərinin açarları təqdim olunub
- Füzulinin daha 88 sakini doğma yurduna yola salınıb

***2023, 8 oktyabr***
- Vətən müharibəsinin xronikası: 8 oktyabr

***2023, 3 oktyabr***
- Vətən müharibəsinin xronikası: 3 oktyabr

***2023, 1 oktyabr***

- Vətən müharibəsinin xronikası: 1 oktyabr

***2023, 30 sentyabr***
- Vətən müharibəsinin xronikası: 30 sentyabr

***2023, 29 sentyabr***
- Vətən müharibəsinin xronikası: 29 sentyabr

***2023, 10 sentyabr***
- Füzuli istiqamətində növbəti təxribatın qarşısı alınıb

***2023, 24 avqust***
- Umud Mirzəyev: Füzulidə inşa edilən məktəb Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verəcək
- Füzulidə Mirzə Uluqbəy adına orta məktəbin inşası həmrəylik və dəstək jestidir

***2023, 23 avqust***
- **Füzulinin Baş planı ilə tanışlıq: Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərinin Baş planı ilə tanış olublar**
- **Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Füzuli şəhərində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər**
- **Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı olub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər**
- **Azərbaycanda dövlət səfərində olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Füzuli rayonuna gəlib**

***2023, 31 iyul***
- Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub

***2023, 27 iyul***
- Abdulla Aripov: Füzuli şəhəri Azərbaycanın ən maraqlı və gözəl yerlərindən birinə çevriləcək

***2023, 20 iyul***
- **Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməli qoyulub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub**

***2023, 5 may***
- **Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməli qoyulub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub**
- **Özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa olunan məktəb binasında tikinti işlərinin gedişi ilə tanışlıq: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar**
- **“Azərişıq” ASC-nin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışı olub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**
- **Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməli qoyulub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində iştirak ediblər**
- **MİDA tərəfindən Füzuli yaşayış kompleksində görülən işlərlə tanışlıq: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində görülən inşaat işlərinin gedişi ilə tanış olublar**
- **Füzuli rayonunun Dədəli kəndində birinci mərhələdə 327 ev tikiləcək: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimində iştirak edib**

- **Füzuli-Hadrut avtomobil yolunun açılışı olub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun açılışında iştirak edib**
- **Füzuli rayonunun Pirəhmədli kəndinin təməli qoyulub: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak ediblər**

***2022, 7 noyabr***

- **Prezident İlham Əliyev Füzuli rayonunda Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub**

***2022, 17 oktyabr***

- Çingiz Qənizadə: Füzulinin azad olunması Ordumuzun Zəfər yürüşünə yol açdı
- İki il öncə işğaldan azad olunmuş Füzuli rayonu yeni inkişaf dövrünü yaşayır

***2022, 15 oktyabr***

- Anar Məmmədov: Füzulidə həyat 31 il əvvəlki axarına qayıdaraq yenidən canlanır

***2022, 29 sentyabr***

- Aqiyə Naxçıvanlı: Qaraxanbəyli kəndində şəhidlərimizin şərəfinə ucaldılmış abidə Azərbaycan Ordusunun sarsılmazlığının simvoludur

***2022, 27 sentyabr***

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər: Dövlətimizin başçısı və birinci xanım Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər: Prezident İlham Əliyevin çıxışı**

***2022, 27 avqust***

- Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar Füzuli şəhərində olublar

***2022, 26 avqust***

- Xarici diplomatlar Füzuli rayonunda minaların zərərsizləşdirilməsi prosesini izləyiblər
- Xarici diplomatlar Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu üzərində tikintisi yekunlaşmaqda olan tunellə tanış olublar

***2022, 26 may***

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olublar**
- **Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər**

***2022, 10 may***

- **Füzuli şəhərində 180 çarpayılıq xəstəxananın təməli qoyulub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərində yeni yaradılacaq parkda ağac əkiblər**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa şəhərlərinə səfəri: Füzuli şəhərində Peşə Liseyinin təməli qoyulub**

***2022 28 aprel***

- Xarici beyin mərkəzlərinin nümayəndələri Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar

***2022 21 aprel***

- **Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin, Şuşada inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub**

***2022 16 mart***

- Hikmət Hacıyev: İşğaldan azad edilmiş Ağdam, Füzuli və Cəbrayıl rayonlarında səhra missiyası həyata keçirilib

***2022, 23 fevral***

- Moldova parlamentinin sədri İqor Qrosu Füzuli və Şuşaya səfər edib

***2021, 12 noyabr***

- Prezident İlham Əliyev: Füzuli rayonunda Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcək

***2021, 30 oktyabr***

- Fransa portalı Füzuli Beynəlxalq Hava Limanının açılışından yazıb

***2021, 28 oktyabr***

- Jalə Əliyeva: Füzuli aeroportundan dünyaya mesajlar verdik

*2021, 27 oktyabr*

- Akkan Suver: İki qardaş liderin Füzuli aeroportunu birlikdə açması türk dünyasının birliyi baxımından xüsusi əhəmiyyət daşıyır
- Ukrayna mətbuatında Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi barədə məqalələr dərc edilib
- Səttar Möhbalıyev: Füzuli Beynəlxalq Hava Limanının açılması Qələbəmizin davamıdır

*2021, 26 oktyabr*

- **Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub: Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər**
- Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi Türkiyə telekanallarında canlı yayımlanıb
- Deputat: Türkiyə Prezidentinin Füzuliyə səfəri dünyaya verilən daha bir qardaşlıq mesajıdır
- Hulusi Kılıç: İki qardaş liderin Füzuli aeroportunu birlikdə açması həmrəyliyin nümayişidir
- Füzuli aeroportuna ilk xarici uçuşun Türkiyə Prezidenti tərəfindən həyata keçirilməsi Azərbaycan üçün tarixi əhəmiyyət daşıyır
- Vüqar Rəhimzadə: Qarabağın hava qapısının iki dost ölkənin liderlərinin iştirakı ilə açılışı dünyaya ünvanlanan növbəti qardaşlıq nümunəsidir
- Qazaxıstanın rəsmi informasiya agentliyi Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini işıqlandırıb

*2021, 19 oktyabr*

- Adil Əliyev: Füzulinin işğaldan azad edilməsi Vətən müharibəsində yeni mərhələnin başlanğıcı oldu

*2021, 18 oktyabr*

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar: Prezident İlham Əliyevin çıxışı**
- **Füzuli şəhərində çoxmənzilli yaşayış məhəlləsi salınacaq**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkiblər**
- **Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməli qoyulub**
- **Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıq**
- **Prezident İlham Əliyev Füzuli rayonunun Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlini qoyub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda səfərdə olublar: Füzuli-Ağdam avtomobil yolunun təməli qoyulub**

*2021, 17 oktyabr*

- **Füzuli əməliyyatı ilə Azərbaycan Ordusu mümkünsüzü mümkün etdi**
- **Prezident İlham Əliyev: Füzulidə icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir**

*2021, 8 oktyabr*

- Vətən müharibəsinin xronikası: 8 oktyabr

*2021, 17 sentyabr*

- İsrailli ekspert: Füzuli beynəlxalq aeroportu yeni Qarabağın bərpasında çox mühüm mərhələdir, lakin sonuncu mərhələ deyil

*2021, 12 sentyabr*

- Qazaxıstan parlamentinin nümayəndə heyəti Şuşa və Füzuli şəhərlərində olub

*2021, 8 sentyabr*

- Belarusun xəbər portalı Füzuli Beynəlxalq Hava Limanına ilk uçuş barədə geniş məqalə yayıb

*2021, 7 sentyabr*

- Könül Nurullayeva: Qarabağın hava qapısının açılmasının siyasi, iqtisadi və tarixi əhəmiyyəti var

*2021, 29 avqust*

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olublar**
- Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanışlıq
- Prezident İlham Əliyev Füzuli aeroportunu Qarabağın hava qapısı adlandırıb

*2021, 24 avqust*

- Vüqar Rəhimzadə: Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir

*2021, 17 avqust*

- Prezident: Gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq

*2021, 3 iyul*

- Füzuli və Zəngilan rayonlarında basdırılan minalara dair xəritələr Azərbaycana təqdim edilib

*2021, 14 iyun*

- **Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməlini qoyub**
- **Prezident İlham Əliyev "Füzuli" yarımstansiyasının açılışını edib**
- **Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Zəfər yolunun tikintisi ilə tanışlıq**
- **Prezident İlham Əliyev Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olub**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfərə gəliblər: Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq**

*2021, 16 may*

- Ev əvəzinə minalar

*2021, 6 may*

- Media nümayəndələri "Zəfər yolu"nun və Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi ilə yerində tanış olmaq məqsədilə səfərə yola düşüblər

*2021, 11 aprel*

- Müdafiə Nazirliyi Füzuli rayonunun Aşağı Rəfədinli kəndindən videogörüntülər paylaşıb

*2021, 24 mart*

- Füzuli rayonunun İşıqlı kəndindən videogörüntülər

*2021, 18 mart*

- Müzəffər Ali Baş Komandanın Füzuli və Xocavənd rayonlarına səfəri xalqımızın bayram əhval-ruhiyyəsini daha da yüksəltdi

*2021, 17 mart*

- Qırğızıstan portalında Azərbaycan Prezidentinin Füzuli və Xocavəndə səfəri ilə bağlı material verilib

*2021, 16 mart*

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar: Prezident İlham Əliyevin çıxışı**
- Misir portalı Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə növbəti səfərindən yazıb

*2021, 11 mart*

- Müdafiə Nazirliyi Füzuli rayonunun Saracıq kəndinin videogörüntülərini yayıb

*2021, 9 mart*

- Müdafiə Nazirliyi Füzuli rayonunun Görazıllı kəndinin videogörüntülərini yayıb

*2021, 7 mart*

- Müdafiə Nazirliyi Füzuli rayonunun Qarakollu kəndindən videogörüntülər yayıb

*2021, 6 mart*

- "France 24" televiziya kanalı Qarabağda aparılan quruculuq işlərinə dair reportaj yayımlayıb
- Diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərimizə səfəri başlayıb
- Xarici diplomatlar və hərbi attaşelər Füzuli rayonunun işğaldan azad olunmuş Merdinli kəndində olublar
- Liviyanın müvəqqəti işlər vəkili: Qarabağdakı erməni vəhşiliyinin misli-bərabəri yoxdur
- Diplomatik korpus nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının tikintisinin gedişi ilə tanış olublar
- Misir portalı Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş rayonlara səfərindən yazıb

*2021, 5 mart*

- Müdafiə Nazirliyi Füzuli rayonunun Yuxarı Rəfədinli kəndinin videogörüntülərini yayıb

*2021, 4 mart*

- Azad olunan Qarabağ moldovalı jurnalistlərin gözü ilə
- Müdafiə Nazirliyi Füzuli rayonunun Qaradağlı kəndinin video görüntülərini yayıb

***2021, 2 mart***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Üçbulaq kəndinin video görüntülərini paylaşıb

***2021, 1 mart***
- "Ukrayna 24" telekanalı Azərbaycan Prezidentinin mətbuat konfransı və işğaldan azad olunan ərazilərimiz barədə xüsusi reportaj yayımlayıb

***2021, 16 fevral***
- Horadiz-Ağbənd dəmir yolu nəinki bölgənin, həm də bütün regionun gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır
- Sərhəd tanımayan erməni vəhşiliyi - AZƏRTAC-ın Füzuli rayonundan reportajı

***2021, 15 fevral***
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar: Prezident İlham Əliyevin çıxışı**

***2021, 30 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Yal Pirəhmədli kəndinin videogörüntülərini paylaşıb

***2021, 29 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Cuvarlı kəndinin videogörüntülərini paylaşıb

***2021, 28 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Zərgər kəndinin videogörüntülərini paylaşıb

***2021, 27 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Xələfşə kəndinin videogörüntülərini paylaşıb

***2021, 25 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Kürdlər kəndinin videogörüntülərini paylaşıb
- Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Dövlətyarlı kəndinin videogörüntülərini paylaşıb

***2021, 24 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Aşağı Aybasanlı kəndindən videogörüntülər paylaşıb

***2021, 22 yanvar***
- Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Qarğabazar kəndinin videogörüntülərini paylaşıb
- İşğaldan azad olunmuş Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin videogörüntüləri

***2021, 21 yanvar***
- Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Dördçinar kəndinin videogörüntülərini paylaşıb

***2021, 19 yanvar***
- Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Şəkərcik kəndinin videogörüntülərini paylaşıb

***2021, 18 yanvar***
- Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Merdinli kəndinin videogörüntülərini paylaşıb

***2021, 16 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Mirzəcamallı kəndinin videogörüntülərini paylaşıb

***2021, 15 yanvar***
- **Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub: Prezident İlham Əliyevin çıxışı**

***2021, 14 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Qərvənd kəndinin videogörüntülərini paylaşıb

***2021, 13 yanvar***
- Müdafiə Nazirliyi Füzuli rayonunun Ələsgərli kəndinin videogörüntülərini paylaşıb

***2021, 7 yanvar***

- Azərbaycan Prezidenti: Bu il Füzuli şəhərində, yaxud da o ərazidə beynəlxalq aeroport fəaliyyətə başlayacaq

***2021, 5 yanvar***

- Prezident İlham Əliyev: Füzulidə beynəlxalq aeroport tikiləcək

***2020, 10 dekabr***

- Prezident: Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi
- ANAMA tərəfindən beş rayonda 58 mina aşkarlanıb

***2020, 9 dekabr***

- Almaniyanın "ZDF" kanalında işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb

***2020, 7 dekabr***

- Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib
- ANAMA son üç gün ərzində 102 mina zərərsizləşdirib

***2020, 30 noyabr***

- ANAMA sentyabrın 27-dən noyabrın 30-dək 1543 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirib
- Anadolu Agentliyi Füzuli rayonunun ermənilər tərəfindən məhv edilmiş tarixi abidələrindən reportaj hazırlayıb
- Suqovuşana çəkiləcək avtomobil yolu minalardan təmizlənir

***2020, 29 noyabr***

- Fransanın RFİ radiosu Füzuli haqqında reportaj yayımlayıb
- ANAMA: Füzulidə minaya düşənlərin cəsədləri təhvil verilib

***2020, 28 noyabr***

- Füzuli rayonu ərazisində mülki şəxslər minaya düşərək həlak olublar
- Kanadalı Azərbaycanlılar Şəbəkəsinin üzvləri Kanadanın xarici işlər naziri ilə görüşüblər

***2020, 27 noyabr***

- "France-24" kanalı Füzulidən reportaj hazırlayıb
- Qubadlıda Şərq çinarları əkilib, tut bağı salınıb

***2020, 26 noyabr***

- ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə mina və bombacıqlar aşkarlayıblar

***2020, 25 noyabr***

- "Vətən müharibəsində möhtəşəm Qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!" devizi altında tədbirlər keçirilib
- Prezident: Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir, Azərbaycan zəfər çalmış ölkədir

***2020, 24 noyabr***

- Prezidentə yazırlar: Vətən müharibəsində qalib gəlib torpaqlarımıza qovuşmaq sevincini bizə yaşatdığınız üçün Sizə minnətdarıq
- Özbəkistan portalında Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Füzuliyə səfəri barədə məqalə dərc olunub
- Azərbaycan Prezidenti: Biz qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazanmışıq
- Prezident İlham Əliyev: Müharibənin bütün sirlərini açmaq hələ tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq
- Prezident İlham Əliyev: Biz bütün dünyaya göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır
- ANAMA cəbhəboyu ərazilərdə mina və partlamamış hərbi sursat zərərsizləşdirib

***2020, 22 noyabr***

- Prezidentin köməkçisi: Ermənistan işğalı davam etdirmək üçün hərbi infrastrukturun yaradılmasına böyük sərmayə qoyub
- Polşanın ölkəmizdəki səfiri: Füzulidəki acınacaqlı vəziyyət beynəlxalq ictimaiyyətə çatdırılmalıdır
- "Arabnews" qəzeti : Azərbaycanlılar öz evlərinə qayıdırlar
- Hikmət Hacıyev: Füzulidən dünyaya sülh və dözümlülük müraciəti edirik

- TRT HABER: Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir
- DTX-nın rəisinin Şuşa şəhərinə xidməti səfəri olub
- Azərbaycandakı xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların rəhbərləri və hərbi attaşelərin işğaldan azad olunmuş Füzuliyə səfəri təşkil edilib

***2020, 21 noyabr***

- Məşhur fotojurnalist Reza Deqati yenə Qarabağa tələsir
- Euronews" telekanalı işğaldan azad olunmuş Füzuli şəhərindən reportaj hazırlayıb
- İtaliyanın nüfuzlu "la Repubblica" qəzeti ermənilərin Füzulidə törətdikləri vəhşiliklərdən bəhs edən videreportaj yayıb

***2020, 20 noyabr***

- Füzuli şəhərində Azərbaycan bayrağının sancıldığı "Araz" qəzetinin redaksiya binası 3D formatda bərpa edilib
- "Əl-Cəzirə" kanalı ermənilərin Füzuli şəhərində törətdikləri vandalizmlə bağlı reportaj yayımlayıb
- Baş Prokurorluq: Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibə aparması və terrorçuluq əməlləri ilə bağlı cinayət işi başlanıb
- Prezident: Füzuli-Şuşa yolunun çəkilişinə başlamaqla Qarabağda ilk böyük layihəyə start vermişik
- ANAMA-nın əməliyyat-axtarış tədbirləri uğurla davam etdirilir

***2020, 19 noyabr***

- Sərhəd rayonların işğaldan azad edilməsi İran-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni perspektivlər açıb
- "Əl-Cəzirə" kanalı işğaldan azad edilmiş Füzuli şəhərindən süjet yayımlayıb

***2020, 18 noyabr***

- Xarici jurnalistlər ermənilərin Füzuli şəhərində törətdiyi vəhşilikləri öz gözləri ilə görüblər
- Hikmət Hacıyev: Azərbaycan öz quruculuq siyasəti ilə Ermənistandan fərqini bir daha göstərəcək
- Füzuli rayonunun Alxanlı kəndi ərazisində bir ədəd ağ fosfor tərkibli top mərmisi zərərsizləşdirilib

***2020, 17 noyabr***

- Cəbhəyanı ərazilərdə 40 ədəd partlamamış hərbi sursat aşkar olunub
- Avropa Komissiyasının eksperti ermənilərin Qarabağda törətdikləri dağıntılar barədə məlumatlandırılıb
- Türkiyə KİV-ləri: Prezident İlham Əliyev işğaldan azad olunmuş Füzuli və Cəbrayıla qələbə səfəri edib
- Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
- Prezident İlham Əliyev: Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır
- Prezident İlham Əliyev: Erməni vəhşiliyinin nə demək olduğunu bütün dünyaya göstərəcəyik

***2020, 16 noyabr***

- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar**

***2020, 15 noyabr***

- ARTE telekanalı Qarabağa dönüşlə bağlı reportaj yayımlayıb
- Cəbhəyanı ərazilərdə minlərlə piyada əleyhinə mina, mərmi qalıqları aşkarlanıb
- ANAMA-nın minaya düşən əməkdaşının ayağı amputasiya olunub

***2020, 14 noyabr***

- Baş Prokurorluq: ANAMA-nın əməkdaşı minaya düşüb
- Füzuli rayonunda minaya düşən iki qardaşdan biri həlak olub, digəri ağır yaralanıb

***2020, 13 noyabr***

- İbrahim Məmmədov: Sentyabrın 27-dən Ermənistanın Azərbaycan ərazisinə təcavüzü nəticəsində dəyən ziyanın araşdırılması üçün 11 işçi qrupu yaradılıb

***2020, 12 noyabr***

- "Le Monde" azad olunmuş Füzulinin Mərdinli məscidinin erməni işğalçıları tərəfindən dağıdılmasından yazır
- İşğaldan azad edilmiş ərazilərdə DTX-nin idarə və şöbələri fəaliyyətə başlayır

- İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri
- Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib

***2020, 10 noyabr***

- Misirli professor: Azərbaycanın tarixi Qələbəsi 30 il əvvəl işğal edilmiş torpaqlara qayıdış hüququnun bərpa olunmasıdır
- Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib

***2020, 9 noyabr***

- Beynəlxalq Türk Akademiyasının prezidenti Şuşa zəfəri münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib
- FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin yerli strukturları işğaldan azad olunmuş ərazilərdə fəaliyyətə başlayıb
- İşğaldan azad olunmuş ərazilərdə aparılan ekoloji monitorinqlərin nəticələri: minillik qədim ağaclar məhv edilib
- Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 23 kəndi işğaldan azad edib
- ANAMA tərəfindən ermənilərin atdıqları partlamamış hərbi sursatlar zərərsizləşdirilib

***2020, 8 noyabr***

- Prezidentə yazırlar: Torpaqlarımızın işğaldan azad olunması uğrunda qazanılan zəfərlərlə adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq
- Ermənilərin atdıqları partlamamış hərbi sursatlar, minalar zərərsizləşdirilib

***2020, 7 noyabr***

- Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub
- Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 16 kəndi işğaldan azad edib

***2020, 6 noyabr***

- Hikmət Hacıyev: Füzuli rayonundakı qəbiristanlıqlar ermənilər tərəfindən vandalizm və barbarlığa məruz qalıb
- Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb
- FHN-in yanğınsöndürmə qüvvələri işğaldan azad olunmuş ərazidə ilk yanğınsöndürmə əməliyyatı həyata keçirib

***2020, 5 noyabr***

- Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilən kəndlərinin videogörüntüləri

***2020, 4 noyabr***

- Baş prokuror Kamran Əliyev: Füzulidə bayraq sancmağa yer qalmamışdı
- ANAMA: Ermənistan silahlı qüvvələrinin ərazilərimizə atdıqları fosforlu top mərmiləri, raket zərərsizləşdirilib

***2020, 3 noyabr***

- Düşmən Füzulini “Smerç” ilə atəşə tutur

***2020, 2 noyabr***

- ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə top mərmisi, raket, radiopelenqator və mərmi qalıqları aşkarlayıb

***2020, 1 noyabr***

- Prezident: Ermənistan öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaq
- ANAMA cəbhəyanı ərazilərdə əməliyyat-axtarış işlərini davam etdirir

***2020, 31 oktyabr***

- Prezidentə yazırlar: Yürütdüyünüz müdrik və qətiyyətli siyasət nəticəsində qazandığımız uğurlar bizə qürur hissi yaşadır
- ANAMA: Döyüş başlıqları, top mərmisi və bombacıq aşkarlanıb

***2020, 30 oktyabr***

- ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə top mərmisi, raketlər, tank əleyhinə minaları zərərsizləşdirib

***2020, 29 oktyabr***

- Anar Eyvazov: Azərbaycan Ordusunun qarşısında bir hədəf var: işğal altında qalan bütün torpaqlarımızın azad olunması
- ANAMA: Sentyabrın 27-dən bu günədək Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinə 13 ballistik raket atıb
- Müdafiə Nazirliyi: Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib

***2020, 28 oktyabr***

- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib
- Prezidentin köməkçisi: Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc yaşayış məntəqələrinə hərbi təcavüzü davam edir
- Cəbhədə oktyabrın 28-nə olan son vəziyyət

***2020, 27 oktyabr***

- Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub
- Cəbhədə oktyabrın 27-nə olan son vəziyyət
- ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər

***2020, 26 oktyabr***

- Anar Eyvazov: Azərbaycan Ordusunun bölmələri növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir
- Ermənistan atəşkəs rejimini pozmaqda davam edir: Tovuz və Daşkəsən rayonlarının əraziləri atəşə tutulur

***2020, 25 oktyabr***

- Anar Eyvazov: Hazırda Azərbaycan Ordusunun bölmələri cəbhəboyu döyüşləri davam etdirir
- Azərbaycan Ordusu düşmənə qarşı yüksək dəqiqlikli silahı tətbiq edir
- Cəbhəboyu ərazilərdə raket, top mərmiləri və dronlar zərərsizləşdirilib

***2020, 24 oktyabr***

- Anar Eyvazov: Erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir
- Cəbhədə oktyabrın 24-nə olan vəziyyət
- ANAMA 175 partlamamış hərbi sursat və 2 dron aşkarlayıb

***2020, 23 oktyabr***

- Düşmənin könüllü dəstələri və döyüş texnikaları məhv edildi
- Müdafiə Nazirliyi: Azərbaycan xüsusi təyinatlılarının böyük bir bölməsinin məhv edilməsi barədə Ermənistan tərəfinin yaydığı məlumat xülyadır
- Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir
- Baş Prokurorluq Ermənistanın təxribatları nəticəsində dinc əhaliyə qarşı törədilmiş cinayətlərin son statistikasını açıqlayıb
- Müdafiə Nazirliyi: düşmən fərarilik edərək mövqeləri tərk edir
- Prezidentə yazırlar: Düşmən üzərində qazandığımız qələbələr Sizin cəsarətinizin, uzaqgörənliyinizin və polad iradənizin nəticələridir
- ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər

***2020, 22 oktyabr***

- Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir
- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli rayonunun 3, Cəbrayıl rayonunun 4 kəndini işğaldan azad edib
- Siyəzən, Qəbələ və Kürdəmirə raket hücumu: Düşmən müharibə cinayətləri törətməkdə davam edir
- Düşmən ordumuzun mövqelərini atəşə tutmaqda davam edir
- ANAMA Cəbhəboyu ərazilərdə top mərmisi, müxtəlif raketlər və partlamış mərmi qalıqları aşkarlayıb

***2020, 21 oktyabr***

- Prezident İlham Əliyev: Azərbaycan ordusu Füzuli rayonunun 3, Cəbrayıl rayonunun 5 kəndini işğaldan azad edib
- Anar Eyvazov: Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir
- ANAMA mütəxəssisləri əməliyyat-axtarış işlərini davam etdirirlər

***2020, 20 oktyabr***

- Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib
- Prezident İlham Əliyev: Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad edilib
- ANAMA: Cəbhəboyu ərazilərdə top mərmiləri, dron və partlamış mərmi qalıqları aşkarlanıb
- Cəbhədə son vəziyyət

***2020, 19 oktyabr***

- Cəbhədə ardıcıl məğlubiyyətlər Ermənistanda sosial-siyasi böhranı daha da dərinləşdirib
- Cəbhədə son vəziyyət

***2020, 18 oktyabr***

- Nazir Ceyhun Bayramov Türk Şurasının baş katibini bölgədəki son vəziyyət barədə məlumatlandırıb
- ANAMA: indiyədək cəbhəboyu ərazilərdə düşmən tərəfindən atılmış 11 ədəd "Elbrus" raketinin qalıqları aşkarlanıb
- İşğaldan azad olunan Füzuli şəhərinin mərkəzində Azərbaycan bayrağı qaldırılıb
- Düşmənin döyüş texnikası və silah-sursatı ələ keçirilib
- Anar Eyvazov: Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzda böyük ruh yüksəkliyi yaradıb
- Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin hərbi hissəsi ələ keçirilib
- Cəbhədə son vəziyyət
- ANAMA tərəfindən cəbhəboyu ərazilərdə mərmi qalıqlarının və sursatların zərərsizləşdirilməsi əməliyyatı davam etdirilib

***2020, 17 oktyabr***

- Mülki əhali arasında təbliğat-təşviqat işləri davam edir
- Düşmənin Gəncəyə xain hücumu: Terror aktları gəncəliləri, ümumiyyətlə, Azərbaycan xalqını qorxuda bilməz
- Türkiyə KİV-ləri Prezident İlham Əliyevin xalqa müraciətini geniş işıqlandırıb
- Qoşunlarımız cəbhənin müxtəlif istiqamətlərində irəliləməyə nail olub

***2020, 16 oktyabr***

- MN: Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir
- ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə əməliyyat-axtarışları davam etdirirlər

***2020, 14 oktyabr***

- Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndini işğaldan azad edib
- Azərbaycan Müdafiə Nazirliyi: Ermənistan ordusunun daha bir PUA-sı məhv edilib
- Səhər saatlarından başlayaraq bir sıra yaşayış məntəqələrimiz atəşə tutulur
- ANAMA-nın əməliyyat-axtarış tədbirləri zamanı 12 ədəd partlamış mərmi qalığı aşkarlanıb

***2020, 13 oktyabr***

- ANAMA tərəfindən 374 ədəd bombacıq partlayış yolu ilə zərərsizləşdirilib
- 2020, 11 oktyabr
- Prezident İlham Əliyev: Biz Cəbrayılı təzədən tikəcəyik, bütün kəndləri yenidən quracağıq

***2020, 10 oktyabr***

- ANAMA qadağan olunmuş sursatlar və "TOÇKA-U" taktiki raketi aşkarlayıb
- Prezident İlham Əliyev: Bizim üçün bu, Vətən Müharibəsidir, biz özümüzü müdafiə edirik
- ANAMA-nın mütəxəssisləri cəbhəboyu ərazilərdə operativ əməliyyat-axtarışlarını davam etdirirlər

***2020, 9 oktyabr***

- Baş Prokurorluq: Düşmənin atəşi nəticəsində Füzuli rayonunun Qarabağ kəndində üç mülki şəxs xəsarət alıb
- Cəbhəboyu rayonlarda top mərmiləri, raketlər, patronlar və mərmi qalıqları aşkarlanıb

***2020, 8 oktyabr***

- Füzuli rayonunda Ermənistan silahlı qüvvələrinin atdığı ağ fosforlu tüstülü mərmi aşkarlanıb
- Ermənistan hərbçilərinin qaçarkən döyüş meydanında tərk etdikləri texnikaların videogörüntüsü yayılıb
- Təmas xəttində 3 mərmi və 1 raket aşkarlanıb

***2020, 7 oktyabr***

- Ermənistan ordusu yaşayış məntəqələrimizi yenidən atəşə tutur
- Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur
- ANAMA ötən gün raket, 598 bombacıq və 14 partlamış mərmi qalıqları aşkarlayıb

***2020, 6 oktyabr***

- Polkovnik Vaqif Dərgahlı: Hazırda bütün cəbhəboyu əməliyyat və hərbi üstünlük ordumuzun tərəfindədir

***2020, 5 oktyabr***

- Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir
- ANAMA tərəfindən cəbhəboyu ərazilərdə təxirəsalınmaz əməliyyatlar keçirilib

***2020, 4 oktyabr***

- Dövlət Baxçalı: Ermənistan zülm saçan üzünü bir daha göstərdi
- Xarici İşlər Nazirliyi: Ermənistanın hərbi təxribatı mövcud vəziyyətin şüurlu şəkildə pisləşdirilməsinə yönəlib
- Müdafiə Nazirliyinin mətbuat katibi: Azərbaycan Ordusu düşmənə ağır zərbələr endirir
- Prezidentin köməkçisi Hikmət Hacıyev: Ermənistanın siyasi-hərbi rəhbərliyinin müharibə cinayətləri davam edir
- Müdafiə Nazirliyi: Kəndlərimiz raket və artilleriya atəşinə tutulur

***2020, 3 oktyabr***

- Prezident İlham Əliyev: Bu gün Azərbaycan Ordusu daha bir neçə kəndi işğaldan azad edib
- Azərbaycanın bir sıra əraziləri işğaldan azad olunub
- FHN: Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmaqda davam edir

***2020, 2 oktyabr***

- FHN: Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Horadiz şəhərinin ətrafında yanğın başlayıb
- Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmağa davam edir
- Hikmət Hacıyev: Ermənistan öz ərazisindən yaşayış məntəqələrimizə raket hücumu həyata keçirməklə Cenevrə Konvensiyasını pozur
- Gecə ərzində və səhər saatlarında cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edib

***2020, 1 oktyabr***

- Düşmən Horadiz şəhərini atəşə tutub
- Anar Eyvazov: Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir
- Müdafiə Nazirliyi: Ermənistanın Gorus rayonundan Azərbaycan əraziləri yenidən raket atəşinə tutulub
- Düşmən yaşayış məntəqələrimizi yenidən artilleriya atəşinə tutur
- Ermənistanın Gorus rayonundan Azərbaycan əraziləri raket atəşinə tutulub

***2020, 30 sentyabr***

- Baş Prokurorluq: Düşmənin top atəşi nəticəsində Horadiz şəhərində bir mülki şəxs həlak olub, üçü isə xəsarət alıb
- Ermənistan ordusunun Füzuli istiqamətində yerləşən 4-cü taboru atəşə məruz qalıb

***2020, 29 sentyabr***

- Polkovnik Vaqif Dərgahlı: Düşmənin əks-hücum cəhdi dəf edilib
- Anar Eyvazov: Azərbaycan Ordusu düşmənin çoxlu sayda canlı qüvvəsini, hərbi obyektlərini və döyüş texnikalarını məhv edib
- Füzuli şəhərinin azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edir
- Gecə ərzində gərgin döyüşlər davam edib

***2020, 28 sentyabr***

- Bakı və daha 21 şəhər-rayonda komendant saatı başlayıb

- Düşmənin Tərtərdə əlillər və məcburi köçkünlər üçün tikilmiş binanı atəşə tutması nəticəsində iki nəfər həlak olub və iki nəfər yaralanıb
- Ermənistanın bütün cəbhə xətti boyunca növbəti təxribatı ilə əlaqədar Azərbaycanın Rus İcmasının Bəyanatı

***2020, 27 sentyabr***

- Pakistan XİN Ermənistanın növbəti hərbi təxribatını pisləyən bəyanat yayıb
- Anar Eyvazov: Azərbaycan Ordusu işğal altındakı bir sıra kəndləri azad edib
- XİN: Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür
- Baş Prokurorluq Ermənistan ordusunun mülki əhalini və yaşayış məntəqələrini atəşə tutması ilə bağlı məlumat yayıb
- Anar Eyvazov: Qoşunlarımızın sürətli əks-hücum əməliyyatları davam edir
- Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib
- Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır

**Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır**

[08:35] 27.09.2020

Cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Müdafiəyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hazırda Azərbaycan Ordusu tərəfindən cavab tədbirləri görülür və qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə əlavə məlumat veriləcək.

Əhali arasında təşviş salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

**AZƏRTAC**

## Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu genişmiqyaslı təxribat törədib

[07:46] 27.09.2020

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

Mülki əhali və hərbi qulluqçular arasında itkilər və yaralılar barədə məlumat dəqiqləşdirilir.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə cavab tədbirləri görür.

**Anar Eyvazov: Qoşunlarımızın sürətli əks-hücum əməliyyatları davam edir**

[10:52] 27.09.2020

Sentyabrın 27-də saat 06:00 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub. Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olan və yaralananlar var. Mülki infrastruktur obyektlərinə ciddi ziyan dəyib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 27-də jurnalistlərə açıqlamasında deyib.

A.Eyvazov bildirib ki, cəbhənin ən gərgin Tərtər-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində yerləşən ön xətt hərbi hissələri, raket və artilleriya bölmələri, cəbhə aviasiyası, zirehli texnika və digər qoşun növlərinin qarşılıqlı fəaliyyəti ilə Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri susdurulur və döyüş fəaliyyətinin qarşısı alınır.

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verilib.

Şəxsi heyət və tank bölmələrimiz raket-artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyi ilə Ermənistan silahlı qüvvələrinin ön xətdə və müdafiənin dərinliyində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikasını aşkar edərək məhv edirlər.

Əldə olunan məlumata görə müxtəlif istiqamətlərdə Ermənistan hava hücumundan müdafiə bölmələrinin 12 ədəd "OSA" zenit-raket kompleksi məhv edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin cəbhənin Tərtər istiqamətində bir döyüş helikopteri zədələnib, ekipaj üzvləri xüsusi peşəkarlıq göstərərək helikopteri qoşunlarımızın nəzarət etdiyi əraziyə endirməyi bacarıblar. Canlı itki yoxdur. Qoşunlarımızın sürətli əks-hücum əməliyyatları davam edir.

Əhali arasında ajiotaj və süni çaşqınlıq salmamaq, həmçinin hərbi qulluqçularımızın təhlükəsizliyini təmin etmək məqsədilə sosial şəbəkə istifadəçilərini, elektron media və digər kütləvi informasiya vasitələri nümayəndələrini rəsmi olmayan, dəqiqləşdirilməmiş və qeyri-obyektiv məlumatlardan istifadə etməməyə çağırırıq.

Cəbhəboyu zonada baş verən hadisələrlə bağlı mətbuata və ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcək.

**AZƏRTAC**

**Baş Prokurorluq Ermənistan ordusunun mülki əhalini və yaşayış məntəqələrini atəşə tutması ilə bağlı məlumat yayıb**

[12:32] 27.09.2020

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutması ilə bağlı məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, sentyabrın 27-də səhər saat 06 radələrində Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutub.

Riyakar və qeyri-konstruktiv siyasət aparan təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi, həmçinin təxribatçı əməlləri ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasının qəsdən və hədəflənmiş şəkildə dinc əhalisinin sıx yaşadığı əraziləri artilleriya atəşinə tutmaqla mülki əhaliyə qarşı müxtəlif cinayətlər törədiblər.

Düşmən tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında həlak olanlar və yaralananlar var, o cümlədən çoxsaylı ev və mülki obyektlərə ciddi ziyan dəyib.

Mülki əhali arasında Tərtər rayon sakini 1987-ci il təvəllüdlü Röyal Həsənov, Daşkəsən rayon sakini 1982-ci il təvəllüdlü Cəlal Zalov, Füzuli rayon sakinləri 1960-cı il təvəllüdlü Füzuli Məmmədov, 1995-ci il təvəllüdlü Vüsal Quliyev, Ağdam rayon sakinləri 1961-ci il təvəllüdlü Bəykişi Zeynalov, 1997-ci il təvəllüdlü Eşqin Allahyarov müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər.

Dərin təəssüf hissi ilə bildiririk ki, düşmən təxribatı nəticəsində mülki əhali və hərbi qulluqçular arasında itkilərimiz vardır.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq əməliyyat tədbirləri həyata keçirilir, o cümlədən yaralananların aldıqları xəsarətlərin ağırlıq dərəcəsini, eləcə də mülki infrastruktur obyektlərinə dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə müvafiq ekspertizalar təyin edilib.

Yerlərdə prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşları tərəfindən baş vermiş hadisələrin tam təfərrüatları araşdırıldıqdan sonra məsələyə hüquqi qiymət veriləcək.

Müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq-hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunaraq cəzalandırılmalarını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri sənədləşdirilmə aparılır və sübutların toplanılması həyata keçirilir.

Düşmən hücumunun qarşısını alarkən döyüşdə şəhid olan hərbi qulluqçularımızın qəhrəmancasına göstərdiyi yüksək əzmi və şücaəti hər zaman Azərbaycan xalqının xatirəsində əbədi yaşayacaq.

İctimaiyyətə mütəmadi qaydada məlumatların verilməsi təmin olunacaq.

Kütləvi informasiya vasitələrindən, həmçinin sosial media istifadəçilərindən rəsmi olmayan və dəqiqləşdirilməmiş məlumatların ictimailəşdirilməməsi xahiş edilir.

**AZƏRTAC**

## XİN: Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür

[13:46] 27.09.2020

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çiraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə əl atıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat yayıb.

Bəyanatda deyilir: “Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin məlumatına əsasən, mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananlar var. Çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəyib.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirirlər.

Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyaları və onların əlavə protokollarının kobud şəkildə pozulmasıdır.

27 sentyabr tarixində Ermənistanın Azərbaycana qarşı yeni təcavüz aktı son aylar ərzində Ermənistan tərəfinin təxribatları, o cümlədən 12-16 iyul Tovuz istiqamətində hücum cəhdi, 23 avqust Goranboy istiqamətində diversiya-kəşfiyyat təxribatı, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasətinin aparılması, eləcə də Ermənistan rəhbərliyinin təhrikçi bəyanatları və fəaliyyətinin davamıdır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində qeyri-qanuni mövcudluğunun regionda sülh və sabitliyə ciddi təhlükə olduğuna yaxşı bələd olan və Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçı fəaliyyətinə beynəlxalq hüququn norma və prinsiplərindən irəli gələrək prinsipial mövqe nümayiş etdirən beynəlxalq ictimaiyyət, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini və təxribatçı əməllərini kəskin şəkildə qınamalı və Ermənistanı beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl etməyə məcbur etməlidir.

Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür”.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusu işğal altındakı bir sıra kəndləri azad edib**

[14:07] 27.09.2020

Azərbaycan Ordusunun qoşun növləri və bölmələrinin həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad olunub.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 27-də keçirilən brifinqdə deyib.

A.Eyvazov bildirib ki, hazırkı məlumata görə, cəbhənin Füzuli–Cəbrayıl istiqamətində hərbi əməliyyatlar nəticəsində uzun illər ərzində düşmən işğalındakı Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdurrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib. Bundan əlavə, Ağdərə rayonu istiqamətində və Murovdağı silsiləsindəki hündürlüklərdə yerləşən düşmən postları darmadağın edilərək, bir sıra hakim yüksəkliklər nəzarətə götürülüb. Döyüş əməliyyatı davam edir. Əminliklə bildirirəm ki, biz bundan sonra sizi uğurlu əməliyyatlarımızla sevindirəcəyik. Qələbə bizimlədir.

**AZƏRTAC**

**Pakistan XİN Ermənistanın növbəti hərbi təxribatını pisləyən bəyanat yayıb**

[20:25] 27.09.2020

Pakistan Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində növbəti hərbi təxribatını pisləyən bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Pakistan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir: “Erməni silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycanın Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin mülki əhalisini intensiv atəşə tutmasını qınayırıq və bu, növbəti təxribatdır. Bu, bütün bölgənin sülh və təhlükəsizliyi üçün ciddi təhdiddir. Pakistan qardaş Azərbaycan xalqının yanındadır və onun ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı olan qətnamələrinə əsaslanan mövqeyini dəstəkləyirik”.

**AZƏRTAC**

## Ermənistanın bütün cəbhə xətti boyunca növbəti təxribatı ilə əlaqədar Azərbaycanın Rus İcmasının Bəyanatı

[12:15] 28.09.2020

Sentyabrın 27-də Respublika Rus İcması Şurası Ermənistanın bütün cəbhə xətti boyunca növbəti təxribatı ilə əlaqədar Azərbaycanın etnik rus vətəndaşları adından bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Sentyabrın 27-də səhər saat 06.00 radələrində Ermənistan silahlı qüvvələri irimiqyaslı təxribatlar həyata keçirərək Azərbaycan ordusunun cəbhə xətti boyunca yerləşən mövqelərini və cəbhəyanı zonada yerləşən yaşayış məntəqələrini iriçaplı silahlardan, minaatanlardan və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutublar. Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan ordusunun cəbhə xətti boyunca mövqelərini, Tərtər rayonunun Qapanlı kəndini, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd kəndlərini, Füzuli rayonunun Alxanlı və Şükürbəyli kəndlərini, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini atəşə tutublar. İntensiv atəşlər nəticəsində dinc sakinlər arasında ölənlər və yaralananlar var. Mülki infrastruktur obyektlərinə də ciddi ziyan vurulub.

Ermənistan silahlı qüvvələrinin döyüş fəallığının qarşısını almaq və dinc əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı bütün cəbhə boyunca əks-həmlə əməliyyatına başlamaq barədə qərar qəbul edib. Təsdiqlənmiş məlumata görə, Azərbaycanın Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Yuxarı Əbdürrəhmanlı və Kənd Horadiz, həmçinin Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri azad edilib.

Biz – Azərbaycanın etnik rus əhalisi Ermənistan rəhbərliyinin münaqişənin gərginləşməsinə və suveren Azərbaycan dövlətinin yeni ərazilərini ələ keçirmək cəhdinə yönələn təcavüzkar hərəkətlərini qətiyyətlə pisləyirik.

Ölkənin etnik rus vətəndaşları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cəbhə xəttində vəziyyətlə və bütövlükdə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi ilə bağlı mövqeyini və fəaliyyətini tam dəstəkləyir. Biz ordumuzun, igid hərbi qulluqçularımızın nümayiş etdirdiyi dözüm və rəşadətə görə onlara təşəkkür edirik! Vəziyyətdən asılı olmayaraq, Azərbaycanın rus əhalisi 90-cı illərin əvvəllərində olduğu kimi daim Azərbaycan xalqı ilə, qardaşlarımızla çiyin-çiyinə dayanmağa və Azərbaycan sərhədlərinin möhkəmlənməsi hüququnu qoruyaraq Vətənimizi sonadək müdafiə etməyə hazırdır!

Azərbaycan, onun rəhbərliyi 25 ildən çoxdur ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq birlik tərəfindən tanınan sərhədlər çərçivəsində suverenliyə və ərazi bütövlüyünə hörmət əsasında dinc yolla nizamlamağa çalışır.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, Ermənistan tərəfindən Azərbaycana qarşı davam edən hərbi təcavüz, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində mövcudluğu regionda sülhə və təhlükəsizliyə əsas təhdid mənbəyidir. Beynəlxalq təşkilatlara – BMT, ATƏT və onun Minsk qrupuna, Avropa ictimaiyyətinə, həmçinin bir sıra sülhməramlı təşkilatlara Ermənistan rəhbərliyini bütün danışıqlar prosesinin sabitliyini pozmaq üçün təkrarlanan cəhdlərə görə məsuliyyətə çağırmaq barədə müraciətlər edilib. Ermənistanın bu il iyul ayında Tovuz istiqamətində hərbi təxribatı növbəti dəfə sübut etdi ki, rəsmi Yerevan bütün beynəlxalq razılaşmalara zidd olaraq danışıqlar prosesini pozmağa çalışır və qeyri-qanuni şəkildə erməni işğalı altında olan Dağlıq Qarabağ və ona bitişik 7 rayondan uzaqda yerləşən rəsmi sərhəd istiqamətində hücuma keçərək məqsədli şəkildə münaqişə zonasını genişləndirir.

Əfsuslar olsun ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinə heç bir sərt çağırışlar olmadı və bu gün Ermənistanın növbəti təxribatı irimiqyaslı hərbi əməliyyatların başlanmasına, həm hərbçilərin, həm də dinc sakinlərin ölümünə gətirib çıxardı.

Ermənistanın cinayətkar rəhbərliyi tərəfindən başlanmış silahlı münaqişə müstəqil və suveren Azərbaycan Respublikasının ərazisində artıq 30 ildən çoxdur ki, davam edir. Özlərinin

işğalçı hərəkətlərinə bəraət qazandırmaq və beynəlxalq strukturların gözlərinə kül üfürməklə Ermənistan Dağlıq Qarabağda heç kəs tərəfindən tanınmayan separatçı rejim yaradıb. Nəticədə, yüz minlərlə azərbaycanlı doğma torpaqlarından qovulub, Xocalı şəhərinin faciəsi baş verib, dinc sakinlər vəhşicəsinə qətlə yetirilib, Azərbaycanın milli sərvətləri və tarixi abidələri vəhşicəsinə məhv edilib.

Azərbaycanın rus icması beynəlxalq strukturları ikili standartlar siyasətindən əl çəkməyə və öz hərəkətləri ilə bütün regionun sabitliyini təhlükə altına qoya biləcək təcavüzkar ölkə olan Ermənistana lazımi təzyiq göstərməyə çağırır”.

**AZƏRTAC**

## Düşmənin Tərtərdə əlillər və məcburi köçkünlər üçün tikilmiş binanı atəşə tutması nəticəsində iki nəfər həlak olub və iki nəfər yaralanıb

[20:08] 28.09.2020

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Riyakar və qeyri-konstruktiv siyasət aparan Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Dərin kədər hissi ilə qeyd edirik ki, sentyabrın 28-də saat 19 radələrində Tərtər rayonunun Şıxarx qəsəbəsində yerləşən əlillər və məcburi köçkünlər üçün inşa edilmiş çoxmənzilli yaşayış binasının həyətinə top mərmisinin atılması nəticəsində Tərtər rayon sakinləri 1981-ci il təvəllüdlü Abbasov Xaliq Asif oğlu və onun qardaşı 1987-ci il təvəllüdlü Abbasov Elşən Asif oğlu həlak olub, 1984-cü il təvəllüdlü Məmmədov Seymur Füzuli oğlu, 1989-cu il təvəllüdlü Mahmudov Faiq Malik oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdiriliblər.

Faktla bağlı Tərtər Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 29, 120.2.7-ci (qəsdən iki və ya daha çox şəxsi öldürməyə cəhd) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində döyüş şəraiti nəzərə alınmaqla mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən müxtəlif cinayətlər törətmiş Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunaraq cəzalandırılmalarını təmin etmək məqsədilə zəruri sənədləşdirilmə aparılır və müvafiq qaydada sübutlar toplanılır.

**AZƏRTAC**

**Bakı və daha 21 şəhər-rayonda komendant saatı başlayıb**

[21:07] 28.09.2020

Sentyabrın 28-i saat 21:00-da Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında komendant saatı başlayıb.

AZƏRTAC xəbər verir ki, komendant saatı sentyabrın 29-u saat 06:00-dək davam edəcək.

**AZƏRTAC**

**Gecə ərzində gərgin döyüşlər davam edib**

[07:59] 29.09.2020

Sentyabrın 28-dən 29-na keçən gecə bütün cəbhə boyu gərgin döyüşlər davam edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərib.

Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq düşmənin bütün cəhdlərinin qarşısını dərhal alıb.

Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib.

Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib.

Gərgin döyüşlər davam edir. Düşmən ağır itkilər verərək geri çəkilməyə məcbur edilir.

**AZƏRTAC**

## Füzuli şəhərinin azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edir

[09:11] 29.09.2020

Sentyabrın 29-u səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması uğrunda Azərbaycan Ordusunun hücumu davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səhər saat 07.00-08.00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən məhv edilib.

Hazırda döyüşlər davam edir.

**AZƏRTAC**

## Anar Eyvazov: Azərbaycan Ordusu düşmənin çoxlu sayda canlı qüvvəsini, hərbi obyektlərini və döyüş texnikalarını məhv edib

[12:04] 29.09.2020

İşğal olunan torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda ordumuzun apardığı qətiyyətli əks-hücum əməliyyatı davam edir. Ordumuzun şəxsi heyətinin döyüş əzmi və mənəvi-psixoloji vəziyyəti yüksəkdir. Döyüşlərdə iştirak edən hərbi qulluqçularımız əsl qəhrəmanlıq nümayiş etdirirlər. Azərbaycan Ordusunun apardığı döyüşlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində Ermənistan qoşunlarının çoxlu sayda canlı qüvvəsi, hərbi obyektləri və döyüş texnikaları məhv edilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 29-da keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, səhər saatlarından Ermənistanın Vardenis rayonu ərazisindən Azərbaycanın Daşkəsən rayonunun ərazisi artilleriya atəşinə tutulub. Bununla bağlı Azərbaycan Ordusu tərəfindən adekvat tədbirlər görüləcək. Ermənistan silahlı qüvvələri cəbhənin Füzuli-Cəbrayıl və Ağdərə-Tərtər istiqamətlərində itirdikləri mövqeləri geri qaytarmaq üçün bir neçə dəfə əks-hücum cəhdi göstərsə də, Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri uğurla müdafiə olunaraq, düşmənin bütün cəhdlərinin qarşısını dərhal alıb.

Bildirilib ki, yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilir. Artilleriyamızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilib.

Gecə döyüşlərində cəbhənin Ağdərə istiqamətində düşmənin Madagizdən hərəkət edən zirehli və avtomobil texnikasından ibarət qarışıq kolonu və onların hərəkətinə atəş dəstəyi verən artilleriya batareyası Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri və cəbhənin bu istiqamətdə yerləşən qoşunlarımız tərəfindən məhv edilib. Cəbhənin Füzuli-Cəbrayıl istiqamətində səhər saatlarında yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə məhv edilib. Səhər saat 07.00-08.00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha 4 tankı qəhrəman əsgərlərimiz tərəfindən məhv edilib.

Polkovnik-leytenant Anar Eyvazov deyib ki, Azərbaycan Ordusunun bölmələri düşməni ağır məğlubiyyətə uğratmaqda davam edir. Bölmələrimiz bir neçə dəqiqə əvvəl Xocavənd (Martuni) rayonu istiqamətindəki Ermənistan silahlı qüvvələri bölmələrinin “Uraqan” yaylım atəş sistemini məhv edib.

Azərbaycan Ordusunun dəqiq atəş zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Xocavənd rayonu ərazisində yerləşdirilən 3-cü “Martuni” motoatıcı alayı darmadağın edilib. Nəticədə canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qalan düşmən alayı tam dağıdılıb. Düşmən ordusunun komandanlığı hər kəsə müraciət edərək ölən və yaralıların təxliyə edilməsi üçün nəqliyyat vasitələri ilə kömək edilməsini istəyib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Azərbaycan Ordusunun ard-arda uğurlu döyüş əməliyyatlarından çıxılmaz vəziyyətə düşən Ermənistanın hərbi təbliğat maşını informasiya məkanında genişmiqyaslı təxribata başlayıb. Belə ki, Ermənistan tərəfi həmişə olduğu kimi əvvəlki döyüşlərdən olan köhnə videomaterialları əhalisinə yeni kimi təqdim edir. Məqsəd öz uğursuzluqlarını əhalisinə uğurları kimi təqdim etməkdir.

Onu da qeyd edim ki, səhər saatlarından etibarən Füzuli şəhərinin işğaldan azad olunması istiqamətində Azərbaycan Ordusunun hücumu davam edir. Qələbə bizimlədir.

## Polkovnik Vaqif Dərgahlı: Düşmənin əks-hücum cəhdi dəf edilib

[12:55] 29.09.2020

Füzuli rayonunun işğal altında olan Aşağı Veysəlli kəndi istiqamətindən üzbəüz mövqelərimizə basqın etməyə cəhd göstərən Ermənistan ordusunun hərəkətinin qarşısı bölmələrimiz tərəfindən qətiyyətlə alınıb və düşmən geri çəkilməyə məcbur edilib.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, geri çəkilərkən məhv edilmiş erməni əsgərlərinin meyitləri döyüş meydanında qalıb.

**AZƏRTAC**

**Ermənistan ordusunun Füzuli istiqamətində yerləşən 4-cü taboru atəşə məruz qalıb**

[15:20] 30.09.2020

Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı qüvvələrinin Füzuli istiqamətində yerləşən 4-cü taborunu ağır artilleriya atəşinə məruz qoyub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmən canlı qüvvə və hərbi texnika baxımından xeyli sayda itki verib.

# Baş Prokurorluq: Düşmənin top atəşi nəticəsində Horadiz şəhərində bir mülki şəxs həlak olub, üçü isə xəsarət alıb

[18:31] 30.09.2020

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində sentyabrın 30-da saat 16 radələrində Füzuli rayonunun Horadiz şəhərində yerləşən yanacaq doldurma məntəqələrinin birinin yaxınlığına düşmüş top mərmisinin qəlpələrindən 1990-cı il təvəllüdlü Rüstəmov Murad Tahir oğlu həlak olub, üç nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, məntəqəyə ciddi ziyan dəyib.

Faktla bağlı Füzuli Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 120.2.1-ci (cinayətkar birlik–təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə), 100.2-ci (təcavüzkar müharibəni aparma) və digər maddələri ilə cinayət işi başlanıb.

Eyni zamanda, düşmənin növbəti dəfə ağır artilleriya qurğularından açdığı atəş nəticəsində sentyabrın 30-da saat 15 radələrində Tərtər rayonunun Yenikənd kənd sakini Azərbaycan Respublikasının vətəndaşı Oqorodnik Lyuda Vasilyevnaya məxsus yaşayış evinin həyatinə top mərmisinin düşməsi nəticəsində həyətdə olan yardımçı tikili dağılıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Ordumuza və dinc əhaliyə qarşı cinayətlər törətmiş təxribatçı erməni birləşmələrinin hərbi qulluqçularının beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb olunmaları üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bütün zəruri tədbirlər görüləcək.

**AZƏRTAC**

## Ermənistanın Gorus rayonundan Azərbaycan əraziləri raket atəşinə tutulub

[13:00] 01.10.2020

Oktyabrın 1-də səhər saatlarında Ermənistanın Gorus rayonu ərazisindən Azərbaycan əraziləri atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistandan atılan raketlər Cəbrayıl-Füzuli ərazisindəki cəbhə xəttinə düşüb.

"Ermənistan tərəfindən tələb edirik ki, Azərbaycan ərazisinin atəşə tutulmasını dərhal dayandırsın. Xəbərdarlıq edirik ki, əks təqdirdə adekvat cavab tədbirləri görüləcək", - deyə Müdafiə Nazirliyinin məlumatında qeyd olunub.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi yenidən artilleriya atəşinə tutur**

[13:37] 01.10.2020

Ermənistan silahlı qüvvələri yenidən Azərbaycanın yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy, Tərtər və Ağdam rayonlarının cəbhəboyu kəndləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə məruz qalıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Ermənistanın Gorus rayonundan Azərbaycan əraziləri yenidən raket atəşinə tutulub**

[18:10] 01.10.2020

Oktyabrın 1-də saat 17.28-də Ermənistanın Gorus rayonu ərazisindən Azərbaycan əraziləri yenidən atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistandan atılan raketlər Cəbrayıl-Füzuli ərazisindəki cəbhə xəttinə düşüb.

**AZƏRTAC**

## Anar Eyvazov: Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir

[19:48] 01.10.2020

Azərbaycan Ordusunun apardığı qətiyyətli əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan silahlı qüvvələrinin işğal etdiyi ərazilərdəki düşmən mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 1-də keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistanın ərazisindən cəbhəboyu Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini, Füzuli rayonunun Horadiz şəhərini, Goranboy, Tərtər və Ağdam rayonlarını yenidən artilleriya atəşinə tutub.

Əməliyyatın beşinci gününün sonunadək düşmənin canlı qüvvədə, hərbi və döyüş texnikası baxımından xeyli sayda itkisi var. Düşmən bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi xüsusilə qeyd edib ki, Ermənistan mətbuatında guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması və İran ərazisinə düşməsi barədə yayılan məlumatlar yanlışdır və əsassızdır. Hərbi Hava Qüvvələrimizə məxsus bütün aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

Məlumat verilib ki, ötən müddət ərzində düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatanları, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan artıq avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi sıradan çıxarılıb.

"Dünən məlumat verildiyi kimi, Ermənistan ordusunun alay komandiri və onun müavini Azərbaycan Ordusunun bölmələrinin dəqiq artilleriya atəşi nəticəsində məhv edilib. Alayın köməyinə gələn düşmənin əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib. Əsgəri şərəf, şücaət və şöhrət rəmzi olan döyüş bayrağını döyüş meydanında atıb qaçan düşmən bir daha acizliyini nümayiş etdirib. Döyüş bayrağını qoruya bilməyən ordunun iki yolu var. Ya ərazimizi tərk etməli, ya da yerində məhv olacaq. Qələbə bizimlədir!", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

**AZƏRTAC**

**Düşmən Horadiz şəhərini atəşə tutub**

[18:27] 01.10.2020

Oktyabrın 1-də saat 17.50-də Ermənistan ordusunun bölmələri Füzuli rayonunun Horadiz şəhərinin mülki obyektlərini artilleriya atəşinə tutub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində hazırkı vaxtadək ümumilikdə mülki əhalidən 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, 19 nəfər isə həlak olub.

**Gecə ərzində və səhər saatlarında cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edib**

02.10.2020 [09:12]

Oktyabrın 2-də gecə ərzində və səhər saatlarında cəbhənin müxtəlif istiqamətlərində döyüş əməliyyatları davam edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ağdərə istiqamətində qoşunlarımız Madagiz ətrafındakı hakim yüksəklikləri düşməndən azad edib və bu məntəqəni nəzarətdə saxlayır.

Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib və irəliləməyə nail olub.

Murov dağı istiqamətində də əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

Saat 00:00-dan 07:00-dək düşmənin 5 zirehli və avtomobil texnikası, 3 hərbi infrastruktur obyekti və xeyli sayda şəxsi heyəti məhv edilib.

Əldə edilən digər məlumata əsasən, Ermənistandan işğal olunmuş ərazilərimizə gətirilən erməni könüllüləri döyüşlərin gərginliyi və itkilərinin çox olmasından qorxaraq müxtəlif bəhanələrlə döyüşdən imtina edirlər.

Döyüşlərdə əldə etdiyimiz uğurlar və müxtəlif istiqamətlərdə hakim mövqelərin azad olunması Azərbaycan Ordusunun şəxsi heyəti arasında yüksək döyüş ruhu və qələbə əzmini daha da artırır.

İctimaiyyətə əlavə məlumat veriləcək və videolar təqdim olunacaq.

**AZƏRTAC**

**Hikmət Hacıyev: Ermənistan öz ərazisindən yaşayış məntəqələrimizə raket hücumu həyata keçirməklə Cenevrə Konvensiyasını pozur**

[14:50] 02.10.2020

Ermənistan silahlı qüvvələrinin acizliyi fonunda Ermənistan ərazisindən Azərbaycanın mülki yaşayış məntəqələrinə qarşı raket hücumu həyata keçirilir. Ermənistan bununla Cenevrə Konvensiyasını pozur.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, ilkin olaraq Vardenis rayonu istiqamətindən Daşkəsən rayonuna raket zərbəsi endirilib. Azərbaycan tərəfi həmin atəş hədəfini məhv edib. Dünən Ermənistan Füzuli istiqamətində “Smerç” sistemindən istifadə edərək Cocuq Mərcanlı kəndini atəşə tutub, 20-yə yaxın evə ziyan dəyib. Bu gün Gorusdan “Toçka-U” raketi vasitəsilə Şəmkirə raket atəşi olub. Bir daha xəbərdarlıq edirik ki, Ermənistan tərəfindən açılan bu atəşlə bağlı Azərbaycan Ermənistan ərazisində olan legitim hərbi hədəflərə qarşı tədbirlər görəcək. Ermənistan silahlı qüvvələri istər şəxsi, istər texnika baxımından üzləşdiyi itkiləri bu cür kompensasiya etməyə çalışır. İyirmidən artıq mülki şəxsimiz həlak olub, 50-dən çox mülki şəxsimiz isə yaralanıb.

**AZƏRTAC**

**Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmağa davam edir**

[18:57] 02.10.2020

Beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın mülki əhalisini atəşə tutmağa davam edir. Şanlı ordumuzla döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən düşmən Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfat obyektlərini ağır artilleriya qurğularından atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlət əmlakına ciddi ziyan yetirir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, çirkin əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Tərtər rayonunun mərkəzində vətəndaşa məxsus təsərrüfat obyektində yanğın baş verib. FHN-in hadisə yerinə cəlb edilmiş Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələrinin operativ müdaxiləsi sayəsində yanğın söndürülüb. Obyektin bir hissəsi yanğından mühafizə olunub.

Ağdam rayonunun Xındırıstan kəndinə atılan düşmən mərmisinin təsərrüfat sahəsində səbəb olduğu yanğın yanğınsöndürmə qüvvələri tərəfindən qısa müddətdə söndürülüb. Bundan başqa, Ağgöl Milli Parkının Ağcabədi rayonu ərazisinə, Tərtər rayonunun Şıxarx qəsəbəsinə, Füzuli rayonunun Horadiz şəhərinə atılan mərmilərin törətdiyi yanğınlara müdaxilə edilməsi düşmənin ərazini atəş altında saxlaması səbəbindən mümkün olmayıb.

Həmçinin Ağgöl Milli Parkının Ağcabədi rayonu ərazisinə və Kəbirli kəndinə düşən mərmilərin zərərsizləşdirilməsi ilə əlaqədar yanğınsöndürmə qüvvələrinin növbətçiliyi təşkil edilib.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - qaynar telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

**AZƏRTAC**

**FHN: Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Horadiz şəhərinin ətrafında yanğın başlayıb**

[20:44] 02.10.2020

Azərbaycan Ordusu ilə döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən Ermənistan silahlı qüvvələri əhalinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutmağa davam edir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmi səbəbindən hazırda Füzuli rayonunun Horadiz şəhərinin ətrafında qamışlıq-bataqlıq ərazidə - İran İslam Respublikası ilə həmsərhəd zonada yanğın başlayıb. Yanğının söndürülməsi istiqamətində Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidməti (DYMX) tərəfindən müvafiq tədbirlər görülür. Yanğının ətraf tikintilərə, həmçinin vətəndaşlarımızın həyatına hər hansı təhlükəsi yoxdur.

Bundan başqa, mənfur düşmənin artilleriya atəşi altında saxlaması səbəbindən Tərtər şəhərində təhlükəli və çıxılmaz vəziyyətdə qalan iki nəfər DYMX-nin yanğınsöndürən-xilasediciləri tərəfindən təhlükəsiz əraziyə təxliyə edilib.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - qaynar telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

**AZƏRTAC**

**FHN: Ermənistan silahlı qüvvələri mülki obyektləri atəşə tutmaqda davam edir**

[18:12] 03.10.2020

Ermənistan silahlı qüvvələri beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlət əmlakına ciddi ziyan vurur.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmi nəticəsində Füzuli rayonunun Horadiz şəhərinin ətrafında qamışlıq-bataqlıq ərazidə yanğın baş verib, 20 hektar sahədə qamışlıq, kol-kos və ağaclıq yanıb. Hadisə yerinə cəlb olunan FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən görülən tədbirlər sayəsində yanğının daha geniş əraziyə yayılmasının qarşısı alınıb.

Goranboy rayonunun Tap Qaraqoyunlu kəndinə mərmi düşməsi nəticəsində vətəndaşa məxsus təsərrüfat obyekti yanıb. Yanğın zamanı tövlənin içərisində olan 3 baş iribuynuzlu heyvan çıxarılıb. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.

Düşmənin atdığı mərmi Ağdam rayonunun Evoğlu kəndində vətəndaşa məxsus təsərrüfat obyektində yanğına səbəb olub. Yanğınsöndürmə qüvvələrinin operativ müdaxiləsi sayəsində obyektin bir hissəsi yanğından mühafizə olunub.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 – "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

**Azərbaycanın bir sıra əraziləri işğaldan azad olunub**

[23:59] 03.10.2020

Bu gün bütün cəbhə boyu şiddətli döyüşlər davam edib. Cəbhənin müxtəlif istiqamətlərində yaşayış məntəqələrimiz düşmənin intensiv artilleriya və raket atəşinə məruz qalıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Ordusunun bölmələrinin qətiyyətli cavab tədbirləri nəticəsində yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətlərdə atəş mövqeləri susdurulub, düşmənə sarsıdıcı zərbə endirilib.

Gün ərzində gedən şiddətli döyüşlər zamanı qoşunlarımızın şəxsi heyətinin şücaəti nəticəsində Tərtər rayonunun Suqovuşan və Talış yaşayış məntəqələri, Füzuli rayonunun Aşağı Əbdurrəhmanlı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad olunub.

Madagiz-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb.

Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə qoşunlarımız tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib, şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. 5-ci dağatıcı alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

**AZƏRTAC**

## Prezident İlham Əliyev: Bu gün Azərbaycan Ordusu daha bir neçə kəndi işğaldan azad edib

[22:38] 03.10.2020

Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir.

Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində yazıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Kəndlərimiz raket və artilleriya atəşinə tutulur**

[10:43] 04.10.2020

Düşmən Ermənistan ərazisindən Füzuli rayonunun ərazisini raket atəşinə tutur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğal altında olan ərazilərimizdən isə Ağdam və Tərtər rayonlarının kəndləri artilleriya atəşinə məruz qalıb.

**AZƏRTAC**

**Prezidentin köməkçisi Hikmət Hacıyev: Ermənistanın siyasi-hərbi rəhbərliyinin müharibə cinayətləri davam edir**

[11:15] 04.10.2020

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Gəncə şəhərinə Ermənistan ərazisindən raketlər atılıb. Ermənistan silahlı qüvvələri qəsdən və məqsədli şəkildə Tərtər şəhərini, Füzuli rayonunun Horadiz şəhərini ağır artilleriyadan və raketlərdən istifadə etməklə atəşə tutub.

Bu sözləri Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev AZƏRTAC-a açıqlamasında deyib.

Prezidentin köməkçisi bildirib ki, yenə də Ermənistan ərazisindən Azərbaycanın Füzuli və Cəbrayıl rayonları istiqamətində yaşayış məntəqələrinə raket atılıb. Ermənistanın bu hücumları nəticəsində mülki insanlar arasında həlak olan və yaralananlar var.

Son günlər ərzində Ermənistan tərəfindən insanların sıx şəkildə yaşadığı Azərbaycanın yaşayış məntəqələrinə 10 mindən artıq müxtəlif növ mərmi və raket atılıb, 500-dən çox fərdi ev tam dağılıb və ya ciddi ziyan dəyib.

Hərbi əməliyyatların gedişində kombatantlar və mülki şəxslər, hərbi və mülki obyektlər aydın şəkildə fərqləndirilməlidir. Hər hansı hərbi zərurət olmadan Ermənistan tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin kütləvi şəkildə bombardman edilməsi təsadüfi xarakter daşımayaraq, məqsədyönlü şəkildə həyata keçirilir. Yaşayış məntəqələrinin Ermənistan tərəfindən sistemli şəkildə bombardman edilməsi bu planın əvvəlcədən hazırlandığını və Ermənistan silahlı qüvvələrinin döyüş və atəş hazırlığı proqramına daxil edilməsindən xəbər verir.

Ermənistanın bu əməlləri Azərbaycana qarşı 30 ildən artıq davam edən təcavüz və hərbi işğal siyasətinin tərkib hissəsidir. Bu məqsədlə Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq konvensiyalarla qadağan edilmiş kasetli bombalardan istifadə olunur.

Azərbaycan tərəfi beynəlxalq humanitar hüququ və Cenevrə Konvensiyalarını rəhbər tutaraq aidiyyəti beynəlxalq təşkilatlar vasitəsilə Ermənistanın hərbi rəhbərliyini yaşayış məntəqələrini və mülki insanları artilleriya və raket atəşinə tutmaqdan çəkinmək barədə bir neçə dəfə xəbərdar etmişdi. Onlar tərəfindən buna əməl edilmədi və növbəti dəfə riyakarlıq nümayiş etdirildi. Bu, bir daha açıq şəkildə onu göstərir ki, Ermənistanın məqsədi qəsdən mülki insanları hədəfə almaqdır.

Artilleriya və raket hücumlarının əksəriyyəti Xankəndi şəhəri yaxınlığındakı artilleriya bazalarından həyata keçirilir. Azərbaycan Respublikası silahlı qüvvələri mülki insanların təhlükəsizliyini təmin etmək üçün hədəflənmiş şəkildə və dəqiq atəşlə həmin atəş məntəqələrini sıradan çıxarır və adekvat tədbirlər görür.

Azərbaycan Respublikası dəfələrlə bəyan edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğu regional sülh və təhlükəsizlik üçün böyük təhlükə olaraq qalmaqda davam edir. Ermənistanın siyasi-hərbi rəhbərliyi bütün region üçün təhlükədir.

Regionda davamlı sülhü təmin etmək üçün Ermənistan qoşunları BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın işğal edilmiş ərazilərindən tam şəkildə çıxarılmalıdır.

**AZƏRTAC**

**Müdafiə Nazirliyinin mətbuat katibi: Azərbaycan Ordusu düşmənə ağır zərbələr endirir**

[14:25] 04.10.2020

Azərbaycan Ordusunun əks-hücum əməliyyatı cəbhənin bütün istiqamətlərində uğurla davam edir. Ermənistan tərəfi yenidən guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarələrin, pilotsuz uçuş aparatlarının (PUA) vurulması və bu tipli digər feyk xəbərlər, müxtəlif dezinformasiyalar yayır. Bir daha bildiririk ki, Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus heç bir döyüş təyyarəsi vurulmayıb. Azərbaycanın zərbə PUA-ları düşmənin döyüş texnikalarını darmadağın etməkdə davam edir.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 4-də keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistanın Müdafiə Nazirliyi Azərbaycan Ordusu barədə yalan məlumatlar yaymaqla döyüşlərdəki məğlubiyyətlərini ört-basdır etməyə çalışır. İctimaiyyəti düşmənin dezinformasiyasına uymamağa və yalnız Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəsmi bəyanatlarına istinad etməyə çağırış edirik.

Məlumat verilib ki, əks-hücum əməliyyatları çərçivəsində gedən şiddətli döyüşlər zamanı qoşunlarımızın şəxsi heyətinin şücaəti nəticəsində Tərtər rayonunun Suqovuşan və Talış yaşayış məntəqələri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad olunub. Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı düşmənin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb. Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağ atıcı alayının müdafiə sahəsinə ordumuz tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib. Düşmənin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Həmin alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

Hazırda cəbhədə vəziyyət gərgin olaraq qalır. Müxtəlif istiqamətlərdə düşmənin aktivliyinin qarşısı ordumuz tərəfindən alınır və ona ağır zərbələr endirilir. Canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən Ermənistan silahlı qüvvələri artıq 60-70 yaşlarında olan qocaları da döyüşə göndərir. Belə görünür ki, bu, qadınların ardınca döyüşə ahıl yaşlıları da göndərən düşmənin son ehtiyat qüvvəsi olacaq.

Müdafiə Nazirliyinin mətbuat katibi qeyd edib ki, ötən müddət ərzində bir neçə yaşayış məntəqəmiz düşmənin artilleriya atəşinə məruz qalıb. Belə ki, Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhəri, Tərtərin bir sıra yaşayış məntəqələri, o cümlədən rayonun Səhləbad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara və Hüsənli, Ağdam rayonunun Quzanlı, Əlibəyli, Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı və Təzəkənd, Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri intensiv olaraq raket və artilleriya atəşinə tutulub. Dəfələrlə edilən xəbərdarlıqlara məhəl qoymayan düşmənə qarşı adekvat tədbirlər görülür. Düşmənin guya Gəncədəki hərbi obyektləri vurması barədə yaydığı xəbər təxribat xarakteri daşıyır və tamamilə yalandır.

A.Eyvazov çıxışının sonunda Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bəyanatını diqqətə çatdırıb: “Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir”.

**AZƏRTAC**

**Xarici İşlər Nazirliyi: Ermənistanın hərbi təxribatı mövcud vəziyyətin şüurlu şəkildə pisləşdirilməsinə yönəlib**

[14:19] 04.10.2020

Azərbaycan Respublikasının (XİN) Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsi Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisi və obyektlərinin raket atəşinə tutulmasına dair açıqlama yayıb.

XİN-dən AZƏRTAC-a bildirilib ki, oktyabrın 4-də Ermənistan silahlı qüvvələri raket atəşləri ilə Tərtər şəhəri və Füzuli rayonunun Horadiz şəhərinin mülki əhalisi və obyektlərini hədəfə alıb. Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə Ermənistan ərazisindən raket atəşinə tutulub.

Ermənistan tərəfinin məqsədyönlü atəşləri nəticəsində bu günədək 22 nəfər azərbaycanlı mülki şəxs, o cümlədən 2 məktəbli qətlə yetirilib, 74 nəfər yaralanıb.

Ermənistan tərəfindən mülki əhali və obyektlərin məqsədli şəkildə hədəfə alınması beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Azərbaycan tərəfindən müvafiq beynəlxalq təşkilatlar vasitəsi ilə edilən çoxsaylı xəbərdarlıqlara baxmayaraq, Ermənistan silahlı qüvvələrinin mülki şəxslərə yönəlik hücumlarını davam etdirməsi, günahsız insanların məqsədyönlü şəkildə öldürməsi Ermənistanın təcavüzkar siyasətini davam etdirdiyinin əyani təzahürüdür.

Vurğulayırıq ki, Ermənistanın bu hərbi təxribatı mövcud vəziyyətin şüurlu şəkildə pisləşdirilməsinə yönəlib və Ermənistanın hərbi əməliyyatların əhatə dairəsini genişləndirmək niyyətini nümayiş etdirir. Azərbaycan Silahlı Qüvvələri mülki şəxsləri qorumaq üçün adekvat əks tədbirlər görəcək.

Ermənistanı beynəlxalq hüquq normaları və prinsiplərinə, o cümlədən beynəlxalq humanitar hüquq üzrə öhdəliklərinə tabe olmağa və BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair tələbləri irəli sürən qətnamələrini yerinə yetirməyə çağırırıq. Bölgədəki vəziyyətin pisləşməsinə görə bütün məsuliyyətin Ermənistan rəhbərliyinin üzərinə düşdüyünü bir daha təkrar edirik.

**Dövlət Baxçalı: Ermənistan zülm saçan üzünü bir daha göstərdi**

[18:23] 04.10.2020

Ermənistanın Azərbaycanın ən böyük şəhərlərindən biri olan Gəncəyə xaincə hücum etməsi, dinc və günahsız soydaşlarımızı hədəf alması insanlığa qarşı cinayət, beynəlxalq hüququn açıqca tapdanması və inkar edilməsidir. Ermənistan zülm saçan üzünü bir daha göstərdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı bildirib.

D.Baxçalı deyib: “Bundan əlavə, Füzuli, Ağdam və Tərtərin yaşayış əraziləri Ermənistan tərəfindən artilleriya və raket atəşinə tutulub. Erməni dəstələri Azərbaycan qarşısında sıxışdıqca münaqişə bölgələrini mülki yaşayış məntəqələrinə qədər genişləndirirlər. Qatil erməni zehniyyəti əvvəllər etdiyini bu gün də vəhşicəsinə təkrarlayır. Ermənistan qəddardır, qatildir və töküldüyü qana qərq olacaq.

Cənubi Qafqazdakı sülh və sabitliyin yeganə düşməni Ermənistandır. Beynəlxalq ictimaiyyət artıq mülki vətəndaşlara qarşı qanlı və alçaq hücumlara biganə qalmamalıdır. Buradan şəhidlərimizə Allahdan rəhmət, yaralı soydaşlarımıza şəfa diləyirəm.

Unutmaq lazım deyil ki, Dağlıq Qarabağ türk yurdudur. Bu hüququn haqq sahibi ilə birləşməsi həyat bahasına olsa belə təmin edilməlidir. Qatil və terrorçu bir dövlət olan Ermənistanı nifrətlə qınayıram. İlanın başının mütləq əziləcəyinə inanıram.

Ayrı olan heç nəyimiz yoxdur, uzağımız yaxınımız yoxdur, iki dövlət bir millətik, eyni damarda axan qan, eyni bədəndə döyünən ürəyik. Birik, bərabərik, Türkiyə ilə Azərbaycanıq. Birlikdə biz böyük bir Türk millətiyik”.

**Günel Məlikova,**
AZƏRTAC-ın xüsusi müxbiri, İstanbul

**AZƏRTAC**

**ANAMA tərəfindən cəbhəboyu ərazilərdə təxirəsalınmaz əməliyyatlar keçirilib**

[02:58] 05.10.2020

Oktyabrın 2-dən Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Goranboy, Şəmkir, Xızı, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 67 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 3 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, daxil olmuş 70 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun E.Sadıqov küçəsi, Muğanlı, Diləğanlı, Boyat, Minəxorlu, Rəncbərlər, Poladlı, Cəfərli kəndləri və Hindarx qəsəbəsi, Ağdam rayonu Alıbəyli və Mərzili kəndləri, Füzuli rayonunun Horadiz şəhəri, Alxanlı kəndi və 5-ci Zobcuq qəsəbəsi, Goranboy rayonunun Goran qəsəbəsi və Boluslu kəndi, Şəmkir rayonunun Sabirkənd kəndi, Xızı rayonunun Türkoba kəndi, Tərtər rayonunun İ.İsgəndərov küçəsi, Gəncə, Mingəçevir və Beyləqan şəhərləri ərazisində Daxili İşlər Nazirliyinin və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə 66 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 14 ədəd partlamamış hərbi sursat (2 ədəd 300 mm-lik raket (9M528), 12 ədəd tank əleyhinə idarə olunmayan raket (5 ədəd PQ-22, 3 ədəd PQ-9 və 4 ədəd PQ-7) və 32 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən 3 ədəd raket yerində işarələnib və növbəti iş günü ətrafında əməliyyat-axtarış tədbirləri həyata keçiriləcəkdir.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27–dən oktyabrın 4-dək 200 siqnal (əməliyyat çağırışı) əsasında 194 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 66 ədəd müxtəlif növ partlamamış hərbi sursat (PHS), hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 1 ədəd kamikadze dron (partladıcısı yerində zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxeması və 69 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir**

[11:51] 05.10.2020

Hazırda Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinə qarşı adekvat tədbirlər görülür.

**AZƏRTAC**

**Polkovnik Vaqif Dərgahlı: Hazırda bütün cəbhəboyu əməliyyat və hərbi üstünlük ordumuzun tərəfindədir**

[00:24] 06.10.2020

Hazırda bütün cəbhəboyu əməliyyat və hərbi üstünlük ordumuzun tərəfindədir.

Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

Polkovnik V.Dərgahlı bildirib ki, Ermənistan Müdafiə Nazirliyinin rəsmi nümayəndəsinin Azərbaycan Ordusunun guya 200 nəfərdən artıq canlı qüvvə itirməsi barədə yaydığı məlumat yalandır, heç bir əsası yoxdur və növbəti dezinformasiyadır.

Bildiririk ki, Ermənistan ordusu döyüşlərdə canlı qüvvə və hərbi texnika baxımından ağır itkilər verərək geri çəkilməyə məcbur edilir. İşğal altında olan torpaqlarımız azad olunur. Bu, danılmaz bir faktdır.

Hazırda bütün cəbhəboyu, o cümlədən cəbhənin Cəbrayıl-Füzuli istiqamətində əməliyyat və hərbi üstünlüyümüz davam edir. Ermənistan ordusunun fəlakətdən qurtulmasının yeganə yolu işğal olunmuş torpaqlarımızdan dərhal çıxmasıdır.

**AZƏRTAC**

**ANAMA ötən gün raket, 598 bombacıq və 14 partlamış mərmi qalıqları aşkarlayıb**

[04:40] 07.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) oktyabrın 6-da cəbhəboyu ərazilərdə keçirilmiş təcili təxirəsalınmaz əməliyyatlar barədə məlumat yayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, oktyabrın 6-da agentliyə Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 24 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən bir müraciət daxil olub. Daxil olmuş 25 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hindarx qəsəbəsi və Qaraxanlı kəndi, Ağdam rayonunun Üçoğlan, Böyükbəyli kəndləri və 4 yol qəsəbəsi, Bərdə rayonunun Çəmənli və Xatınçay kəndləri, Beyləqan rayonunun Kəbirli kəndi, Füzuli rayonunun Horadiz şəhəri, Zobcuq qəsəbəsi, Alıxanlı və Kərimbəyli kəndləri, Goranboy rayonunun Qızılhacılı və Balakürd kəndləri, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Yevlax rayonu ərazisindən keçən hissəsinə, Tərtər rayonunun Qazyan, Qarağacı kəndləri və Mehtiyev küçəsi ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 23 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı bir ədəd raket, bir ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 598 ədəd bombacıq və 14 ədəd partlamış mərmi qalıqları aşkar edilib.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən bir ədəd kamikadze dron partlayış yolu ilə zərərsizləşdirilib.

Ümumilikdə agentlik tərəfindən 27 sentyabr – 6 oktyabr tarixlərində 306 siqnal (əməliyyat çağırışı) əsasında 282 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevirdəki İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 68 ədəd partlamamış hərbi sursat (PHS), 598 ədəd bombacıq, 3 ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 2 ədəd kamikadze dron (yerində zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 94 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Ermənistan ordusu yaşayış məntəqələrimizi atəşə tutur**

[10:35] 07.10.2020

Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzuli və Cəbrayıl rayonlarının kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuz tərəfindən adekvat tədbirlər görülür.

**AZƏRTAC**

**Ermənistan ordusu yaşayış məntəqələrimizi yenidən atəşə tutur**

[15:28] 07.10.2020

Tərtər və Füzuli rayonlarının yaşayış məntəqələri Ermənistan ordusu tərəfindən atəşə tutulur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun qətiyyətli və sarsıdıcı zərbələri nəticəsində geri çəkilən və bölmələrimizlə qarşılaşmağa cürət etməyən düşmən yaşayış məntəqələrimizi atəşə tutur.

**AZƏRTAC**

**Təmas xəttində 3 mərmi və 1 raket aşkarlanıb**

[02:31] 08.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Şəmkir, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən - 31 (otuz bir) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən - 2 (iki) müraciət daxil olmuşdur.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 33 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Əfətli, Baharlı, Xındırıstan kəndləri, Ağcabədi rayonunun Qiyaməddinli, Muğanlı, Ağgöl, Böyük Kəhrizli kəndləri və Xan Şuşinski küçəsi, Bərdə rayonunun Şahvəlilər kəndi, Beyləqan rayonunun Şitilçilik qəsəbəsi, M.Ə.Rəsulzadə küçəsi, Füzuli rayonunun Alıxanlı, Aşağı Mollaməhərrəmli kəndləri, Zobcuq qəsəbəsi və Horadiz şəhəri, Goranboy rayonunun Qızılhacılı, Tapqaraqoyunlu kəndləri, Şəmkir rayonunun Sabirkənd kəndi, Tərtər rayonunun Borsunlu kəndi və Şəxarx qəsəbəsi, Gəncə şəhəri Hərbi şəhərcik, B.Əliyev və Ə.Əliyev küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 31 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 152 millimetrlik top mərmisi (OF-45), 1 ədəd 125 millimetrlik top mərmisi (OF-26), 1 ədəd 122 millimetrlik top mərmisi (OF-56-1), 1 ədəd 300 millimetrlik raket (9M528), 1 ədəd raketin təzyiq akkumulyatoru (9D180) (cəmi: 5 ədəd), 3 ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator və 6 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən 56 ədəd 9M525 bombacıqları partlayış yolu ilə zərərsizləşdirilib.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27–dən oktyabrın 7-dək 339 siqnal (əməliyyat çağırışı) əsasında 313 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 73 ədəd partlamamış hərbi sursat (PHS), 598 ədəd bombacıq, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan metroloji radiopelenqator, 2 ədəd kamikadze dron (zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxemi və 100 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

## Ermənistan hərbçilərinin qaçarkən döyüş meydanında tərk etdikləri texnikaların videogörüntüsü yayılıb

[11:55] 08.10.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində Ermənistan ordusu hərbçilərinin qaçarkən döyüş meydanında tərk etdikləri zirehli texnikaların videogörüntüsünü paylaşıb.

AZƏRTAC həmin videogörüntüləri təqdim edir.

**Füzuli rayonunda Ermənistan silahlı qüvvələrinin atdığı ağ fosforlu tüstülü mərmi aşkarlanıb**

[19:20] 08.10.2020

Oktyabrın 8-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qruplarının Füzuli rayonu ərazisində apardıqları əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlanıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) var. Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır.

Sentyabrın 27-dən oktyabrın 8-dək ANAMA tərəfindən 339 siqnal (əməliyyat çağırışı) əsasında 313 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub. Nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İstilik Elektrik Stansiyasının ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 73 ədəd partlamamış hərbi sursat, 598 ədəd bombacıq, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 2 ədəd kamikadze dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 100 ədəd partlamış raket hissələri aşkarlanıb.

**AZƏRTAC**

**Cəbhəboyu rayonlarda top mərmiləri, raketlər, patronlar və mərmi qalıqları aşkarlanıb**

[08:08] 09.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 60 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 60 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Əfətli, Sarıcalı kəndləri, Ergi, Quzanlı, 4 yol qəsəbələri, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli, Minəxorlu, Muğanlı, Arazbar kəndləri, Bərdə rayonunun Əmirli və Meşəçilik kəndləri, Beyləqan rayonunun Şəfəq kəndi və A.Hacıyev küçəsi, Füzuli rayonunun Arayatlı, Kərimbəyli, Əhmədalılar kəndləri, Zobcuq qəsəbəsi və Horadiz şəhəri, Goranboy rayonunun Qaraçinar, Rəhimli, Şahməmmədli kəndləri, Qızılhacılı qəsəbəsi və E.Süleymanov küçəsi, Tərtər rayonunun Həsənli, Ələsgərli və Dəmirçilər kəndlərinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 51 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 152 mm-lik top mərmisi (OF-540), 1 ədəd 122 mm-lik top mərmisi (D-4), 2 ədəd 300 mm-lik raket (9M528), 33 ədəd patron (30 ədəd 5.45 mm-lik və 3 ədəd 7.62 mm-lik) və 9 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Həmçinin agentliyin partlayış qrupu tərəfindən 29 ədəd bombacıq partlayış yolu ilə zərərsizləşdirilib.

**AZƏRTAC**

**Baş Prokurorluq: Düşmənin atəşi nəticəsində Füzuli rayonunun Qarabağ kəndində üç mülki şəxs xəsarət alıb**

[10:57] 09.10.2020

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və silahsızlaşdırılmış zonalar, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektlər, o cümlədən mülki əhalini hədəfə almaqla oktyabrın 9-da səhər saat 08 radələrindən başlayaraq Füzuli rayonunu müxtəlif istiqamətlərdən raket və artilleriya mərmilərindən intensiv atəşə tutub.

Oktyabrın 9-da saat 09 radələrində Füzuli rayonunun Qarabağ kənd sakinləri 1982-ci il təvəllüdlü Əsədov Samir Hidayət oğlu, 1958-ci il təvəllüdlü İbrahimov Nizami Cəfər oğlu və 1968-ci il təvəllüdlü Abbasov Alman Ənvər oğlu yaşadıqları evlərə mərmi düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər. Onların yaşadıqları evlərə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

**ANAMA-nın mütəxəssisləri cəbhəboyu ərazilərdə operativ əməliyyat-axtarışlarını davam etdirirlər**

[04:15] 10.10.2020

Ötən gün Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən - 33 (otuz üç) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 (iki) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 34 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Orta Qərvənd, Xındırıstan, Paşabəyli kəndləri və Quzanlı, Ergi qəsəbələri, Ağcabədi rayonunun Rəncbərlər, Köyük kəndləri və Hindarx qəsəbəsi, Bərdə rayonunun Cəyirli və Həsənqaya kəndləri, Beyləqan rayonunun Yeni Mil qəsəbəsi, Füzuli rayonunun Babı kəndi və Horadiz şəhəri, Goranboy rayonunun Gürzallar, Şahməmmədli, Eyvazlılar, Qızılhacılı kəndləri və Goran qəsəbəsi, Tərtər rayonunun Dəmirçilər və Burcu kəndləri, Gəncə şəhərinin Nizami və Kəpəz rayonları ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 31 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 152 mm-lik top mərmisi (OF-22), 1 ədəd 152 mm-lik top mərmisi partladıcısı, 1 ədəd dron (yerində zərərsizləşdirilmişdir), 1 ədəd dronun partladıcısı, 265 ədəd bombacıq, 1 147 ədəd patron (1 133 ədəd 5.45 mm-lik və 14 ədəd 7.62 mm-lik) və 16 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Bizim üçün bu, Vətən Müharibəsidir, biz özümüzü müdafiə edirik**

[02:39] 10.10.2020

Bizim əsgərlərimiz öz torpağımız uğrunda həlak olurlar. Bizim əsgərlərimiz tarixi və beynəlxalq səviyyədə tanınmış Azərbaycan torpağında həlak olurlar. Erməni əsgərlər hansı torpaqda ölürlər? Onlar Füzulidə ölürlər, Cəbrayılda ölürlər, onlar digər Azərbaycan ərazilərində ölürlər. Onların orada nə işləri var? Siz Paşinyandan soruşmalısınız onun əsgəri orada nə edir?

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikirləri "Sky News" telekanalına müsahibəsində səsləndirib.

Qondarma "Dağlıq Qarabağ ordusu"nun 90 faizinin Ermənistan vətəndaşlarından ibarət olduğunu bildirən Azərbaycan Prezidenti deyib: "Onlar bizim torpağımızdadırlar. Xəritəyə baxmaq kifayətdir. Bizim üçün bu, Vətən Müharibəsidir. Biz özümüzü müdafiə edirik. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik ki, bir milyon köçkünün geri qayıtmasına imkan yaradaq. Bizim etdiyimiz budur. Biz 28 il idi səbirlə inanırdıq ki, danışıqlar irəliləyişə gətirib çıxaracaq. Nəticədə hazırkı vəziyyət yarandı. Biz təcavüzkarı geri oturdub cəzalandıranda, bilirsiniz ki, siyasi cəhətdən hücuma məruz qaldıq. Mən əsas prinsipləri qəbul etdim, Paşinyan isə rədd etdi. Mən Ermənistanla Azərbaycan arasında olan danışıqların formatını qəbul edirəm. Paşinyan isə deyir ki, yox, Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu, təkcə mənim tərəfimdən deyil, Minsk qrupu tərəfindən də qəbuledilməzdir. Beləliklə, hazırda baş verənlərə görə onu günahlandırmaq lazımdır".

**AZƏRTAC**

## ANAMA qadağan olunmuş sursatlar və "TOÇKA-U" taktiki raketi aşkarlayıb

[20:05] 10.10.2020

Oktyabrın 10-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qrupları tərəfindən Goranboy rayonunun Goran qəsəbəsi ərazisində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 1 ədəd bombacıq daşıyan 9M525 raketi aşkar olunub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, aşkar olunmuş raketin içərisində 72 ədəd qəlpəli təyinatlı 9N235 bombacıqları var. Bu bombacıqlar "Kaset sursatlar haqqında konvensiya"ya görə qadağan olunmuş sursatlar sinfinə daxildir.

Həmçinin qeyd olunan tarixdə Füzuli rayonunun Əhmədalılar kəndi ərazisində aparılmış əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış "TOÇKA-U" taktiki raketi (9M79M) aşkar olunub.

Agentlik tərəfindən sentyabrın 27-dən oktyabrın 9-dək 433 siqnal (əməliyyat çağırışı) əsasında 395 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Şəmkir, Hacıqabul, Zərdab rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 79 ədəd partlamamış hərbi sursat (PHS), 863 ədəd bombacıq, 1180 ədəd müxtəlif çaplı patronlar, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 2 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 109 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Biz Cəbrayılı təzədən tikəcəyik, bütün kəndləri yenidən quracağıq**

[17:53] 11.10.2020

Biz köçkünlərimizi öz evlərinə qaytaracağıq. Bu insanların sevincini, Cəbrayıl, Füzuli, Tərtər rayonlarının, Hadrutun təqribən 30 ildən sonra öz torpaqlarına qayıdacaq sakinlərinin sevincini təsəvvür edə bilərsiniz. Budur, azad edilmiş ərazilərdən çəkilmiş videokadrları nümayiş etdiririk. Bu kadrlardan görünür ki, orada hər şey dağıdılıb. Dağıdılmayanların isə hamısı oğurlanıb, qarət edilib. Bu, sadəcə, dövlət siyasəti dərəcəsinə çatdırılmış quldurluqdur.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bunu Rusiyanın RBK telekanalına müsahibəsində bildirib.

Dağıdılmış şəhər və kəndlərin bərpa ediləcəyini vurğulayan dövlətimizin başçısı deyib: "Biz Cəbrayılı təzədən tikəcəyik. Bütün kəndləri yenidən quracağıq. Orada yaşayacaq insanlar tikinti işlərinə cəlb ediləcəklər. Onlar öz evlərini bərpa etmək üçün məvacib alacaqlar. Oraya həyat qayıdacaq, oraya uşaqların gülüşü qayıdacaq. İnsanlar rahat nəfəs alacaq, hiss edəcəklər ki, ləyaqətlərini özlərinə qaytarıblar. İllər boyu azərbaycanlıların bu vəziyyətdə necə yaşamalarını təsəvvür edin. Təmas xəttində binoklla baxanda bizim dağıdılmış şəhərləri görərkən mənim keçirdiyim hissləri təsəvvür edin. Qoy, erməni tərəfi fikirləşsin. O, indi bunun nə demək olduğunu başa düşməyəcək. Lakin əvvəl düşünmək lazım idi, azərbaycanlıların hisslərini təhqir etmək lazım deyildi. Biz xeyirxah, sülhsevər xalqıq. Lakin biz öz ləyaqətimizi tapdalamağa, bizi təhqir etməyə imkan verməyəcəyik. Paşinyan Şuşada, Cıdır düzündə sərxoş halda rəqs edəndə özünə bu gün baş verənlər barəsində hökm imzalamışdı".

**ANAMA tərəfindən 374 ədəd bombacıq partlayış yolu ilə zərərsizləşdirilib**

[01:16] 13.10.2020

Oktyabrın 12-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tovuz, Tərtər rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" xidməti-zəng mərkəzi sistemindən 25 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 27 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Əfətli, Təzəkənd, Alıbəyli, İmamqulubəyli kəndləri, Ağcabədi rayonunun Rəncbərlər, Arazbar, Hacılar kəndləri, Hacıbəyov və Xan Şuşinski küçələri, Bərdə rayonunun Hacılı kəndi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Qazaxlar, Şükürbəyli kəndləri və haramı düzü, Goranboy rayonunun Tapqaraqoyunlu və Aşağı Ağcakənd kəndləri, Tovuz rayonunun Aşağı Mülkülü kəndi, Tərtər şəhərinin F.Qulami, N.İsgəndərov, T.Hüseynov, R.Orucov, V.Həsənov və Ü.Hacıbəyli küçələrinə, Gəncə və Mingəçevir şəhərləri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 25 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 240 mm-lik M24F raketi, 1 ədəd 100 mm-lik top mərmisi (OF-32), 1 ədəd 9M528 raketinin idarəetmə bloku, 24 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 374 ədəd bombacıq partlayış yolu ilə mərkəzi məhvetmə ərazisində zərərsizləşdirilib, Mina Təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 1276 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**ANAMA-nın əməliyyat-axtarış tədbirləri zamanı 12 ədəd partlamış mərmi qalığı aşkarlanıb**

[01:37] 14.10.2020

Oktyabrın 13-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Oğuz, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” xidməti-zəng mərkəzi sistemindən 10 və Dövlət Sərhəd Xidmətindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 11 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Alıbəyli kəndi, Ağcabədi rayonunun Rəncbərlər kəndi və E.Sadıqov küçəsi, Bərdə rayonunun Hacılar, Füzuli rayonunun Horadiz şəhəri, Oğuz rayonunun Xaçmaz kəndi, Tərtər rayonunun Borsunlu, Seydimli kəndləri və Gəncə şəhəri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 10 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 12 ədəd partlamış mərmi qalığı aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 722 ədəd bombacıq, 1 ədəd 152 millimetrlik top mərmisi, 1 ədəd tərkibində 72 ədəd bombacığı olan raket və 1 ədəd dronunun partladıcısı partlayış yolu ilə mərkəzi məhvetmə ərazisində zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəsisslər tərəfindən 1 805 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27-dən oktyabrın 13-dək 537 əməliyyat çağırışı əsasında 489 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Oğuz rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib 88 ədəd partlamamış hərbi sursat, 1 141 ədəd bombacıq, 1 180 ədəd müxtəlif çaplı patron, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 2 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 190 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Səhər saatlarından başlayaraq bir sıra yaşayış məntəqələrimiz atəşə tutulur**

[08:50] 14.10.2020

Oktyabrın 13-dən 14-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalıb.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın edib və görülən tədbirlər nəticəsində itki verərək geri oturdulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd “Osa-AKM” ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**Azərbaycan Müdafiə Nazirliyi: Ermənistan ordusunun daha bir PUA-sı məhv edilib**

[13:55] 14.10.2020

Oktyabrın 14-də günorta saatlarında cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) bölmələrimiz tərəfindən məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndini işğaldan azad edib**

[15:41] 14.10.2020

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində yazıb.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə əməliyyat-axtarışları davam etdirirlər**

[01:00] 16.10.2020

Oktyabrın 15-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Füzuli, Goranboy və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Zəng Xidməti Mərkəzindən 27 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 28 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağdam rayonunun Baharlı, Çəmənli kəndləri və 1-ci Baharlı qəsəbəsi, Ağcabədi rayonunun Arazbar, Bala Kəhrizli, Taynaq kəndləri və Hindarx qəsəbəsi, Füzuli rayonunun Alxanlı, Şükürbəyli və Əhmədalılar kəndləri, Goranboy rayonunun Tapqaraqoyunlu, Qaraçinar, Qızılhacılı, Balakürd, Meşəli kəndləri, Tərtər rayonunun Seydimli, Buruc kəndləri və C.Məmmədquluzadə, N.Nərimanov küçələri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 14 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd tank əleyhinə idarə olunan raketin arxa motor hissəsi, 1 ədəd bombacıq və 16 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssisləri tərəfindən 1805 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27-dən oktyabrın 15-dək 598 siqnal (əməliyyat çağırışı) əsasında 519 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Oğuz rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 92 ədəd partlamamış hərbi sursat (PHS), 1142 ədəd bombacıq, 1180 ədəd müxtəlif çaplı patronlar, 6 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 4 ədəd dron (zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxemi və 219 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

## MN: Düşmən yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir

[13:35] 16.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazilərini atəşə tutmaqda davam edir.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, döyüş meydanında Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyən düşmən beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq yaşayış məntəqələrimizi, mülki şəxsləri hədəfə alır.

**AZƏRTAC**

**Qoşunlarımız cəbhənin müxtəlif istiqamətlərində irəliləməyə nail olub**

[09:00] 17.10.2020

Oktyabrın 16-sı gün ərzində və 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qoşunlarımız düşmənin əvvəlcədən hazırlanmış müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdıraraq çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail olub.

Aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində döyüş təcrübəsi qazanan şəxsi heyətimiz əhəmiyyətli istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri tutur.

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan var.

Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Hərbi vəzifəlilərin də arasında çoxlu sayda ölən və yaralanan var. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək qaçıb. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilir.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina etmə halları qeydə alınıb.

Qoşunlarımız bütün cəbhəboyu düşmənə dəqiq atəşlə zərər vurmaqla əməliyyat üstünlüyünü saxlayır.

**AZƏRTAC**

**Türkiyə KİV-ləri Prezident İlham Əliyevin xalqa müraciətini geniş işıqlandırıb**

[13:25] 17.10.2020

Prezident İlham Əliyevin oktyabrın 17-də Azərbaycan xalqına müraciəti Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş işıqlandırılıb. Bəzi telekanallar müraciəti canlı yayımla təqdim edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhərinin düşmən tapdağından azad olunması barədə verdiyi məlumat Türkiyə KİV-lərində sürətlə yayılıb. O cümlədən dövlətimizin başçısının fikirləri ayrıca xəbərlər kimi ictimaiyyətə çatdırılıb.

Məlumatları Anadolu, İHA, DHA agentlikləri, TRT Haber, Haber Türk, TGRT, A Haber, Haber Global, CNN Türk telekanalları, “Akşam”, “Milliyyət”, “Sabah”, “Yeni çağ”, “Yeni akit” və s. qəzetləri, həmçinin bir sıra xəbər portalları yayıb.

**Sabir Şahtaxtı,**
AZƏRTAC-ın xüsusi müxbiri, Ankara

**AZƏRTAC**

**Düşmənin Gəncəyə xain hücumu: Terror aktları gəncəliləri, ümumiyyətlə, Azərbaycan xalqını qorxuda bilməz**

[16:17] 17.10.2020

Oktyabrın 17-də gecə saatlarında bütün dünya Ermənistan silahlı qüvvələrinin, Paşinyan rejiminin növbəti terror aktının şahidi oldu. İkinci ən böyük şəhərimiz olan Gəncə gecə saat 01:00 radələrində xain düşmənin raket hücumuna məruz qaldı. Cəbhə zonasından kənarda yerləşən Gəncənin raket atəşinə tutulması nəticəsində 13 nəfər həlak olub, 50-dən artıq şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. İnsanların sıx məskunlaşdığı, heç bir hərbi obyektin yerləşmədiyi əraziyə raketlərin atılması əlbəttə ki, cinayətdir, terror aktıdır.

Gecə saatlarında evində yatan dinc sakinlərin, o cümlədən körpələrin, yaşlıların Paşinyanın əmri ilə qətlə yetirilməsinin məqsədi barədə kifayət qədər məlumat verilib. Təbii ki, əsas məqsəd döyüş meydanındakı uğursuzluqları ört-basdır etməkdir. Hər kəs Ermənistanın iqtisadi cəhətdən tənəzzülə uğradığını, bu ölkənin əhalisinin maddi vəziyyətinin acınacaqlı olduğunu bilir. Azərbaycanlılara qarşı törədilən bu terror aktları isə düşmənin mənəvi cəhətdən də kasad olduğunu bir daha bütün dünyaya göstərdi.

Dinc sakinlərə atəş açmağı uzun illərdir özünə rəva bilən Ermənistan ordusu bu gün aciz durumdadır. Böyük iqtisadi qüdrətə malik Azərbaycan dövləti və onun şanlı Ordusu düşmənin dərsini döyüş meydanında verir, onu silahını atıb qaçmağa vadar edir.

Gecə radələrində düşmənin törətdiyi bu vandal aktının cavabı isə dərhal verildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 17-də səhər saatlarında xalqa müraciət etdi, dövlətimizin başçısı müraciətində düşmənə döyüş meydanında layiqli cavab verdiyimizi vurğuladı və Füzuli şəhərinin, rayonun bir sıra kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu, Ermənistana, onun rəhbərliyinin törətdiyi cinayətlərə ən tutarlı cavab oldu. Ardınca isə Azərbaycan Respublikası Müdafiə Nazirliyi döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsinin və hərbi texnikalarının məhv edilməsi anlarını əks etdirən videogörüntüləri yaydı. Bu görüntülər də Gəncə terroru qurbanlarının qanının yerdə qalmadığını bir daha əyani şəkildə göstərir.

Xalqımız isə düşmənin heç bir təxribatından qorxmur və mərd-mərdanə şəkildə ədalətli mübarizəsini davam etdirir. Gəncə əhalisi də düşmənin heç bir təxribatından çəkinmir, nikbindir, torpaqlarımızın azad olunması uğrunda aparılan hərbi əməliyyatların məntiqi sonluğadək davam etdirilməsini istəyir və tələb edir. “Bu cür terror aktları biz gəncəliləri, Azərbaycan xalqını qorxuda bilməz. Cənab Ali Baş Komandan biz Sizi dəstəkləyirik. Hər an Sizin əmirinizlə döyüşə hazırıq. Qarabağ Azərbaycandır”. Bu fikirləri Gəncədə törədilən terror aktı nəticəsində zərər görmüş Gəncə sakini söyləyir. Bu gün bu sözləri nəinki gəncəlilər, bütün Azərbaycan xalqı söyləyir. Hər kəs həmrəydir, hər kəs torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə Ordumuza öz dəstəyini etmək üçün fürsət axtarır: könüllü şəkildə Ordumuzun sıralarına yazılanlar, Silahlı Qüvvələrə Yardım Fonduna ianələr edənlər və s.

Əlbəttə ki, hər birimiz bu günlərdə tam fərqli, qeyri-adi günlər yaşayırıq. Ali Baş Komandan demək olar ki, hər gün xalqımıza yeni-yeni qələbə xəbərlərini çatdırır. Ordumuz hər gün işğaldan azad etdiyi torpaqlara üçrəngli bayrağımızı sancır. Azərbaycanda hər kəs əsgərlərimizlə nəfəs alır, onlar üçün nə isə etməyə çalışır. Bütün bunların fonunda düşmənin bu birliyi sarsıtmağa, uğurlarımıza kölgə salmağa istiqamətlənmiş cəhdləri, əlbəttə ki, iflasa məhkumdur.

Humanizm prinsipinə hörmətsizlik nümayiş etdirən, beynəlxalq hüququ, qanunvericiliyi, Cenevrə konvensiyalarının tələblərini kobud şəkildə pozan Ermənistan rəhbərliyi hərbi cinayətlərə görə cavab verməlidir və verir. Ordumuz döyüş meydanında düşməni aciz vəziyyətə salıb və onu geri çəkilməyə məcbur edib. Əminik ki, bu gün Füzulinin işğaldan azad edilməsi xəbərini alan xalqımız artıq Şuşada, Kəlbəcərdə, Laçında, Xankəndidə və digər işğal altındakı torpaqlarımızda Azərbaycan bayrağı dalğalanır xəbərlərini də bayram edəcək. Bu günlər uzaqda deyil.

**Əsəd Məmmədov,**
AZƏRTAC-ın redaksiya müdiri

**AZƏRTAC**

**Mülki əhali arasında təbliğat-təşviqat işləri davam edir**

[23:58] 17.10.2020

Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin bu gün xalqa müraciətində Füzuli şəhərinin və ətraf bir neçə kəndin azad edilməsi xəbəri operativ şəkildə çap olunmuş bülletenlər və səyyar radioqovşaq vasitəsilə mülki sakinlərə çatdırılır. Hər gün cəbhədən gələn qələbə xəbərləri hər bir azərbaycanlını sevindirir.

Keçirilən tədbirlər cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanır.

**AZƏRTAC**

**ANAMA tərəfindən cəbhəboyu ərazilərdə mərmi qalıqlarının və sursatların zərərsizləşdirilməsi əməliyyatı davam etdirilib**

[02:56] 18.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Samux, Şəmkir rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 40 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş çağırışlar əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Ağgöl, Qaraxanlı, Cəfərbəyli, Kürdlər, Afşar, Qaradolaq, Yeni Qaradolaq, Yuxarı Qiyaməddinli kəndləri və Hindarx qəsəbəsi, Bərdə rayonunun Şahvəlilər, Məmmədli, Nazarlı kəndləri, Füzuli rayonunun Alıxanlı kəndi, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Samux rayonunun Lək kəndi, Şəmkir rayonunun “Mayıs” bağı adlanan ərazisində və Gəncə şəhərinin ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 19 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd dron, 1 ədəd bombacıq, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteroloji radiopelenqator və 14 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 1 ədəd bombacıq, 1 ədəd dron zərərsizləşdirilib, 1 ədəd dron isə işarələnib və növbəti iş günü partlayış yolu ilə zərərsizləşdirilməsi məqsədəuyğun hesab edilib, mina təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 2028 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Cəbhədə son vəziyyət**

[08:40] 18.10.2020

Oktyabrın 17-də gün ərzində yeni humanitar atəşkəs rejimi elan olunanadək cəbhənin Ağdərə və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti nisbətən sabit olub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusu tərəfindən dünən gün ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd S-300 ZRK-nin raket tuşlama stansiyası, 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 “Qrad” YARS, 2 ədəd “Smerç”, 1 ədəd D-20 haubitsa-topu və 1 ədəd KS-19 zenit topları, 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Azərbaycan Müdafiə Nazirliyi: Düşmənin hərbi hissəsi ələ keçirilib**

[12:18] 18.10.2020

Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmən döyüş texnikası, silah-sursat və digər hərbi vasitələri tərk edərək qaçmaq məcburiyyətində qalıb. Bölmələrimiz cəbhə boyu bütün istiqamətlərdə üstünlüyü əldə saxlayır.

**AZƏRTAC**

**Anar Eyvazov: Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzda böyük ruh yüksəkliyi yaradıb**

[16:50] 18.10.2020

Hazırda əməliyyat şəraiti tam olaraq bölmələrimizin nəzarəti altındadır. Düşmənə xəbərdarlıq edirik ki, Ermənistan ordusu humanitar atəşkəs rejiminə məhəl qoymadan əməliyyat bölgəsində yenə gərginlik yaratmaqda davam edərsə, ordumuz tərəfindən daha kəskin şəkildə adekvat cavab tədbirləri görüləcək. Azərbaycan Ordusu düşmənin istənilən təxribatının qarşısını almağa, Ali Baş Komandanın qarşıya qoyduğu istənilən döyüş tapşırığını vaxtında və tam olaraq icra etməyə hazırdır.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 18-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Müdafiə Nazirliyinin mətbuat katibi qeyd edib ki, son sutka ərzində düşmən ağır itkilərə məruz qalıb. Belə ki, düşmənin 2 ədəd S-300 ZRK, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç" yaylım atəşli raket sistemi, beşdən çox tank, bir neçə haubitsa və zenit topları, o cümlədən avtomobil texnikaları və xeyli sayda canlı qüvvəsi bölmələrimiz tərəfindən məhv edilib. Uğurlu əməliyyatlar nəticəsində Füzuli ərazisində düşmənin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib. Bu hərbi hissədə olan bütün texnikalar, döyüş sənədləri hərbi qulluqçularımızın əlindədir.

"Humanitar atəşkəs qətiyyən sülh demək deyil. Ali Baş Komandanımızın göstərişinə əsasən, Azərbaycan Ordusu hazırda əməliyyat ərazisində humanitar atəşkəs rejimini tam təmin etməklə, cəsədlərin toplanılması, eyni zamanda, tərəflərdə olan əsirlərin dəyişdirilməsi üçün lazımi şəraiti yaratmaqdadır. Təəssüf ki, Ermənistan tərəfi humanitar atəşkəs rejiminə məhəl qoymadan işğaldan azad edilmiş əraziləri, o cümlədən Cəbrayıl şəhərini dəfələrlə ağır artilleriya və minaatanlardan atəşə tutur. Həmçinin Azərbaycan-Ermənistan dövlət sərhədinin müxtəlif istiqamətlərində - Tovuz, Daşkəsən rayonlarında Azərbaycan Ordusunun mövqeləri iriçaplı pulemyotlardan atəşə tutulur. Bundan başqa, Ermənistan ordusu humanitar atəşkəs rejiminin yenidən elan olunduğu dövrdən bəri Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl istiqamətində hücuma keçməyə cəhd göstərib. Bütün hallarda Ermənistan ordusunun bölmələri bölmələrimiz tərəfindən qətiyyətlə dəf edilib və düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Ali Baş Komandanın qətiyyətli mövqeyi ordumuzun hərbi qulluqçularında, xüsusilə əsgərlərimizdə böyük ruh yüksəkliyi yaradıb. Hərbi qulluqçularımızın mənəvi-psixoloji vəziyyəti, eləcə də ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Düşmənin döyüş texnikası və silah-sursatı ələ keçirilib**

[18:15] 18.10.2020

Müdafiə Nazirliyi Füzuli istiqamətində gedən döyüşlərdə xeyli sayda canlı qüvvə və texnika baxımından itkilərə məruz qalan düşmənin döyüş meydanında atıb qaçdığı hərbi texnikası və silah-sursatının foto və videogörüntülərini paylaşıb.

AZƏRTAC görüntüləri təqdim edir:

**AZƏRTAC**

**İşğaldan azad olunan Füzuli şəhərinin mərkəzində Azərbaycan bayrağı qaldırılıb**

[19:24] 18.10.2020

İşğaldan azad olunan Füzuli şəhərinin mərkəzində Azərbaycan bayrağı qaldırılıb.
AZƏRTAC həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**

**ANAMA: indiyədək cəbhəboyu ərazilərdə düşmən tərəfindən atılmış 11 ədəd “Elbrus” raketinin qalıqları aşkarlanıb**

[19:22] 18.10.2020

Sentyabrın 27-dən başlayaraq düşmən tərəfindən mülki əhaliyə qadağan olunmuş mərmilər atılıb. Belə ki, oktyabrın 3-dən 4-nə keçən gecə Yevlax, Goranboy və Ağcabədi rayonları ərazisində kaset bombaları və bombacıqları aşkarlanıb. İndiyədək 1142 ədəd belə bombacıq aşkarlanaraq götürülüb.

AZƏRTAC xəbər verir ki, bu faktları oktyabrın 18-də keçirilən brifinqdə ANAMA-nın operativ qərargahının rəisi İdris İsmayılov bildirib. O qeyd edib ki, bu silahların dünyada dinc əhaliyə qarşı istifadə olunması qadağandır.

İdris İsmayılov deyib ki, eləcə də Füzuli rayonunun Arayatlı kəndi ərazisində tərkibində 3,6 kiloqram ağ fosfor olan tüstülü mərmi aşkarlanaraq zərərsizləşdirilib. Bu günədək 11 ədəd “Elbrus” ballistik raketinin qalıqları aşkar olunaraq götürülüb.

Məlumat verilib ki, ANAMA-nın Horadiz bazasındakı əməkdaşı oktyabrın 9-da səhər saatlarında top mərmisinin atılması nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Hazırda onun vəziyyəti yaxşıdır.

Qeyd edilib ki, yerli sakinlərin məlumatlandırılması məqsədilə ANAMA-nın mina maarifləndirmə qrupları düşmənin atdığı mərmilərin, bombacıqların və digər hərbi təyinatlı əşyaların fotoşəkillərini insanların sıx toplaşdığı ərazilərdə paylayır. İndiyədək üç minə yaxın yerli sakin bu barədə məlumatlandırılıb. Maarifləndirmə tədbirləri hazırda da davam etdirilir.

**AZƏRTAC**

# Nazir Ceyhun Bayramov Türk Şurasının baş katibini bölgədəki son vəziyyət barədə məlumatlandırıb

[21:55] 18.10.2020

Oktyabrın 18-də Xarici İşlər naziri Ceyhun Bayramov və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) baş katibi Bağdad Amreyev arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən AZƏRTAC-a bildirilib ki, nazir C.Bayramov baş katibə bölgədəki son vəziyyət barədə məlumat verib və atəşkəsin rəsmi elan olunmasından sonra ikinci dəfə Ermənistan silahlı qüvvələri tərəfindən humanitar atəşkəsin pozulduğunu bildirib. O qeyd edib ki, Azərbaycan mövqelərinin intensiv atəşə tutulması, Füzuli, Cəbrayıl və Hadrut bölgələri istiqamətlərində hücum cəhdləri açıq şəkildə Ermənistanın atəşkəs rejiminə əməl etmədiyini və Azərbaycanın işğal olunmuş ərazilərindəki mövqeləri bərpa etməyi hədəf aldığını göstərir.

Nazir Ermənistanın beynəlxalq hüquq normalarına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə əməl etməli olduğunu vurğulayıb.

Baş katib B.Amreyev Ermənistanın münaqişə zonasından uzaqda yerləşən Azərbaycanın şəhərlərinə və yaşayış yerlərinə hücumlarını pisləyib və Türk Şurasının Azərbaycanla həmrəyliyini qeyd edib. B.Amreyev vurğulayıb ki, Ermənistan mülki əhaliyə qarşı hücumları dayandırmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq qüvvələrini Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalıdır.

Nazir C.Bayramov Türk Şurasının Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan haqlı mövqeyinə verdiyi dəstəyə görə baş katibə təşəkkürünü bildirib.

**AZƏRTAC**

**Cəbhədə son vəziyyət**

[08:02] 19.10.2020

Oktyabrın 18-də gün ərzində və 19-a keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları davam edib. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, bir çox istiqamətlərdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.

İşğal olunmuş ərazilərdə döyüş mövqelərindən qaçan hərbi vəzifəlilərin, könüllülərin, həmçinin Ermənistana köç etmək istəyən 55 yaşına qədər kişilərin qarşısını almaq məqsədilə yollarda komendant postları qurulub. Bu məntəqələrdə avtomobillərin yoxlanılması zamanı çoxlu sayda silah-sursat, hərbi geyim və ləvazimat, eləcə də yataq dəstlərinin döyüş bölgəsindən çıxarılaraq Ermənistana daşındığı məlum olub.

**AZƏRTAC**

**Cəbhədə ardıcıl məğlubiyyətlər Ermənistanda sosial-siyasi böhranı daha da dərinləşdirib**

[13:14] 19.10.2020

Azərbaycan Silahlı Qüvvələri tərəfindən ciddi məğlubiyyətə uğradılaraq Füzuli şəhərini və rayonun bir sıra kəndlərini itirən işğalçı Ermənistan ordusunun müqavimət qabiliyyəti tam tükənib. Düşmən ordusu iflic vəziyyətinə düşüb, şəxsi heyət arasında ruh düşkünlüyü pik həddə çatıb. Ermənistan ordusu bütün cəbhəboyu ağ bayraq qaldıraraq təslim olmaq ərəfəsindədir.

Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, cəbhədə alınan ardıcıl məğlubiyyətlər iqtisadi durumun ağır olduğu və əhalinin ciddi sosial problemlər yaşadığı Ermənistanda siyasi böhranı daha da dərinləşdirib. Heç bir şübhə yoxdur ki, ölkədə Paşinyanın həyata keçirdiyi siyasətə etirazlar artır, əks-qüvvələr revanş götürmək üçün hərəkətə keçirlər. “Artıq Ermənistanın əhalisi dövləti və dövlətçiliyi bataqlığa aparan kriminal hakimiyyətə qarşı çıxmaqdadır. Ermənistan əhalisi kriminal rejimin başçılarını məsuliyyətə cəlb etməyin zamanını gözləyir. Ermənistanda hərbi komissarlıqlarda təşkil olunan mitinqlər onu deməyə əsas verir ki, onlar həqiqəti artıq dərk ediblər və bu cinayətdə iştirak etmək istəmirlər. Erməni xalqının öz cinayətkar xunta rejiminin başçılarını məsuliyyətə cəlb edəcəyi heç kəsdə şübhə doğurmur. Ordunun şəxsi heyəti arasında ciddi itkilər Ermənistan vətəndaşlarının hiddətini daha da artırır. Artıq valideynlər öz övladlarını orduya buraxmır və müxtəlif vasitələrlə hərbi xidmətdən yayındırırlar. Eyni zamanda, əsgərlər arasında kütləvi fərarilik baş alıb gedir, orduda xidmətdən boyun qaçıranları məsuliyyətə cəlb etmək praktikası heç bir nəticə vermir. Hətta Ermənistanda insanlar hərbi çağırış məntəqələrinin qarşısını kəsir, onların fəaliyyətini iflic vəziyyətinə salırlar”, - deyə deputat qeyd edib.

“Ölkədəki və ordudakı mövcud vəziyyət Paşinyan hakimiyyətinə reallıqla barışmaqdan başqa çıxış yolu saxlamayıb” – deyən Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, Paşinyanın Prezident İlham Əliyevə yalvarmaqdan başqa çıxış yolu qalmayıb. O deyib: “Ermənistan siyasi, iqtisadi, sosial və hərbi böhran mərhələsinə qədəm qoyub. Belə bir vəziyyətdə Paşinyan hakimiyyəti çıxış yolunu Azərbaycanla istənilən şərt altında razılaşmaya getməkdə görməlidir. Əks təqdirdə, Ermənistan ordusuz, Paşinyan isə hakimiyyətsiz qalacaq”.

**AZƏRTAC**

**Cəbhədə son vəziyyət**

[07:54] 20.10.2020

Oktyabrın 19-u gün ərzində və 20-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb. Alay komandirinin müavini Hovik Melkumyan, digər vəzifəli şəxs Qor Mirzoyan, həmçinin alayın müdafiə zolağında mövqe tutan xüsusi təyinatlı bölmənin komandiri kapitan Vahab Asetryan da zərərsizləşdirilib.

Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.

5-ci motoatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. Yaralılar arasında bölük komandiri Norik Ağakelyanın da olduğu bildirilir.

18-ci motoatıcı diviziyasının müdafiə zolağında yerləşdirilən muzdlulardan ibarət “Legion” dəstəsi və ehtiyatdan çağırılmış hərbi vəzifəlilər döyüşlərdə iştirak etməkdən imtina edib. Məlum olub ki, ağır itkilərə məruz qalan bu dəstələr onlara tapşırılmış müdafiə sahələrində tab gətirməyərək kütləvi şəkildə fərarilik edir.

Bundan əlavə, 10-cu dağatıcı diviziyanın müdafiə zolağına gətirilmiş kəşfiyyat bölüyü də canlı qüvvə baxımından itkilərə məruz qalıb. Şəxsi heyətin üçdə ikisini itirən bölmə mövqeləri ataraq geri çəkilməyə məcbur edilib.

Füzuli rayonu istiqamətində əks-hücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.

246-ci alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.

**AZƏRTAC**

**ANAMA: Cəbhəboyu ərazilərdə top mərmiləri, dron və partlamış mərmi qalıqları aşkarlanıb**

[02:00] 20.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Kürdəmir, Tərtər rayonları və Gəncə şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 19 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 20 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Şənlik, Nəcəfqulubəyli, Poladlı kəndləri, Ağdam rayonunun Çəmənli, Alıbəyli, Paşabəyli kəndləri və Ergi qəsəbəsi, Bərdə rayonunun Qaradağlı, Soğanverdilər, Təhlə kəndləri, Füzuli rayonunun Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Kürdəmir rayonunun Karrar kəndi, Tərtər rayonunun Seydimli, Əskipara, Ələsgərli kəndləri və H.Aslanov küçəsi və Gəncə şəhəri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 12 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 30 mm-lik zenit top mərmisi (OFZ), 2 ədəd 152 mm-lik top mərmisi (OF-45), 1 ədəd 240 mm-lik top mərmisi (M24F), 1 ədəd dron və 11 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 1 ədəd 9N235 bombacığı zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 2028 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

## Prezident İlham Əliyev: Zəngilan şəhəri və rayonun 6 kəndi, Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının 18 kəndi işğaldan azad edilib

[15:15] 20.10.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində işğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını açıqlayıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı aşağıdakı yaşayış məntəqələrinin azad olunduğunu bildirib:

**Füzuli rayonu:** Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

**Cəbrayıl rayonu:** Sarafşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.

**Xocavənd rayonu:** Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri. Vəng kəndinə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

**Zəngilan rayonu:** Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

**AZƏRTAC**

**Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib**

[17:12] 20.10.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

“Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri əməliyyat-axtarış işlərini davam etdirirlər**

[05:07] 21.10.2020

Oktyabrın 20-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Naftalan və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən - 14 (on dörd) müraciət daxil olmuşdur.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 14 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Şənlik, Avşar, Hacılar kəndləri, Ağdam rayonunun Üçoğlan kəndi, Bərdə rayonunun Qazaxlar, Gərənə kəndləri, Beyləqan rayonunun Xaçın körpüsü, Füzuli rayonunun Alxanlı kəndi və Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu, Zeyvə kəndləri, Naftalan rayonunun Qaşaltı Qaraqoyunlu kəndi, Tərtər rayonunun Cəmilli, Yuxarı Sarıcallı kəndləri, V.Həsənov küçəsi ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 11 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd qaz qumbarası, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 14 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd 152 mm-lik top mərmisi (OF-29), 1 ədəd dron zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 2 357 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Anar Eyvazov: Qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir**

[20:01] 21.10.2020

Ötən müddətdə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində əməliyyatlar davam edib. Düşmən müdafiə mövqelərimizi və Tərtər rayonunun ərazisini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub. Döyüş əməliyyatlarında cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində olan düşmən bölmələri artilleriya bölmələrimiz tərəfindən məhv edilib.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 21-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, düşmənin 5-ci, 6-cı, 7-ci dağatıcı alaylarının və 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və döyüş texnikası sarıdan itkilər verərək geri çəkilməyə məcbur edilib. Tərk edilmiş düşmən mövqeləri bölmələrimizin nəzarətindədir. Ordumuzun apardığı əməliyyatlarda alay komandiri, alayın artilleriya rəisi, tabor və divizion komandirləri daxil olmaqla düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilib. Üç artilleriya qurğusu, bir neçə minaatan və üç yük avtomobili sıradan çıxarılıb. Çoxlu sayda silah-sursat bölmələrimiz tərəfindən ələ keçirilib. Əlavə olaraq, Gəncə, Goranboy, Tərtər, Füzuli və Horadiz istiqamətlərində düşmənin altı pilotsuz uçuş aparatı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, qoşunlarımız bütün cəbhəboyu əməliyyat şəraitinə tam olaraq nəzarət edir. Azərbaycan Ordusunun üstünlüyü barədə düşmənin bu gün etiraf etdiyi həqiqətləri Ali Baş Komandanımız bundan əvvəl vurğulayıb. Azərbaycan Ordusu istifadə etdiyi yüksək texnoloji vasitələrlə düşməni qat-qat üstələyib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi müasir ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Ordusunun birlik və birləşmələrinə müasir hərbi strategiya və taktikaya, hərb elminə dərindən yiyələnmiş komandirlər rəhbərlik edirlər.

Ordumuzun arsenalında olan yüksək dəqiqlikli texnoloji vasitələr və silahlar genişmiqyaslı taktiki təlimlərdə tətbiq olunur, onların imkanlarının əməliyyatlarda birgə taktiki istifadəsi hərbi qulluqçularımız tərəfindən tam olaraq mənimsənilib.

Hazırda ordumuz tərəfindən aparılan əks-hücum əməliyyatında düşmənin otuz illik müddətində qurduğu müdafiə xətti, onların silah və texnikası, cəlb etdikləri muzdlu döyüşçülərin döyüş təcrübəsi heç bir işə yaramır, onların idarəetmə sistemi iflic vəziyyətdədir. Onların bölmələri nizamsız qaydada döyüş meydanından geriyə çəkilir.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, Azərbaycan Ordusunun əsas dayağı güclü dövlət–xalq-ordu birliyidir. Azərbaycan əsgəri Ali Baş Komandanın hər çıxışından sonra daha da cəsarətlənir, irəli atılır, xalqımızın birliyindən və döyüş ruhundan mənəvi güc alır. Vahid komandanlıq altında idarə olunan Azərbaycan Ordusunun bütün bölmələri döyüş meydanında əsl peşəkarlıq, qəhrəmanlıq və böyük fədakarlıq nümayiş etdirir.

“Biz bu münasibətlə hər bir Azərbaycan vətəndaşına minnətdarlığımızı bildiririk. Bir daha əmin edirik ki, Ali Baş Komandanın əmrinə uyğun olaraq işğal altındakı bütün torpaqlarımız tezliklə azad ediləcək. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov bildirib.

**Prezident İlham Əliyev: Azərbaycan ordusu Füzuli rayonunun 3, Cəbrayıl rayonunun 5 kəndini işğaldan azad edib**

[20:21] 21.10.2020

Rəşadətli Azərbaycan ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

**AZƏRTAC**

**ANAMA Cəbhəboyu ərazilərdə top mərmisi, müxtəlif raketlər və partlamış mərmi qalıqları aşkarlayıb**

[02:25] 22.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) oktyabrın 21-də Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Goranboy, Naftalan, Kürdəmir və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 31 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən bir müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 32 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Aran, Arazbar, Hacılar, Kəbirli, Qaradolaq, Şərəfxanlı, Yeni Qaradolaq kəndləri, Ağdam rayonunun Qaradağlı, Ayaq Qərvənd kəndləri, Bərdə rayonunun Lənbəran kəndi, Beyləqan rayonunun 2-ci Aşıqlı, Cəbrayıl rayonunun Daşkəsən kəndi, Füzuli rayonunun Şükürbəyli, Kərimbəyli kəndləri, 1-ci və 5-ci Zobcuq qəsəbələri, Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi və Dəliməmmədli qəsəbəsi, Naftalan rayonunun Qaşaltı kəndi, Kürdəmir rayonunun Şilyan kəndi, Tərtər rayonunun Yuxarı Sarıcalı, Cəmilli, Buruc kəndləri, Cavanşir, Babək, Tağıyev küçələri ərazisində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 25 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı bir ədəd 125 millimetrlik top mərmisi (OF-26), bir ədəd 300 millimetrlik 9M528 raketi, bir ədəd 300 millimetrlik 9M528 raketinin döyüş başlığı, bir ədəd 240 millimetrlik M24F raketi, 3 ədəd hava-yer tipli raket, bir ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 17 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd hava-yer tipli raket zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 3688 mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən 27 sentyabr – 21 oktyabr tarixlərində 755 siqnal (əməliyyat çağırışı) əsasında 624 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Kürdəmir, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Xızı, Oğuz rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, "Mingəçevir" İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 106 ədəd partlamamış hərbi sursat (PHS), 1143 ədəd 9N235 bombacıqları, 1180 ədəd müxtəlif çaplı patronlar, bir ədəd qaz qumbarası, 12 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 6 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 328 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Düşmən ordumuzun mövqelərini atəşə tutmaqda davam edir**

[09:45] 22.10.2020

Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini atəşə tutmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 22-də saat 09.15-dən başlayaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonu ərazisindəki mövqelərimizi reaktiv artilleriya sistemlərindən atəşə tutur.

**AZƏRTAC**

**Siyəzən, Qəbələ və Kürdəmirə raket hücumu: Düşmən müharibə cinayətləri törətməkdə davam edir**

[14:32] 22.10.2020

Azərbaycan Ordusunun sentyabrın 27-də ermənilərin növbəti təxribatından sonra başladığı əks-hücum əməliyyatı uğurla davam edir. Artıq Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri də daxil olmaqla, 120-dən çox yaşayış məntəqəsi düşməndən azad edilib. Əsgərlərimizin böyük qələbə uğrunda mübarizəsi davam edir. Döyüş meydanından qaçan düşmən isə müharibə cinayətlərindən əl çəkmir. Demək olar ki, hər gün yaşayış məntəqələrimiz, dinc sakinlər, mülki obyektlərimiz Ermənistan silahlı qüvvələrinin atəşinə məruz qalır. Məğlub ölkənin, məğlub ordunun çarəsizliyindən irəli gələn bu cinayət əməlləri isə nə xalqımızı, nə də Ordumuzu əsas amaldan yayındıra bilməz.

Ötən günlərdə düşmənin Gəncə, Mingəçevir şəhərləri, Tərtər, Ağdam, Şəmkir, Bərdə, Naftalan, Ağcabədi, Xızı, Füzuli, Cəbrayıl, Beyləqan və digər yaşayış məntəqələrimizə xain hücumlarının şahidi olmuşduq. Bu gün səhər isə Siyəzən, Qəbələ və Kürdəmirin raket atəşinə tutulmasının şahidi olduq. Əsas turizm məkanlarımızdan olan Qəbələnin raket atəşinə tutulması da düşmənin hiyləgər niyyətindən xəbər verir. Qəbələdə 2003-cü il təvəllüdlü Əmirbəyov Murad Ceyhun oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alıb, kənd ərazisində 5 evə ciddi ziyan dəyib. Həmçinin düşmən silahlı qüvvələri Abşeron yarımadasını içməli su ilə təchiz edən və ölkəmiz üçün xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini hədəfə alaraq raket atıb. Lakin raketin Azərbaycan Ordumuzun Hava Hücumundan Müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilməsi nəticəsində onun hissələri su kəmərinin yaxınlığına düşüb.

Müharibə dövründə Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 63 nəfər həlak olub, 292 nəfər isə xəsarət alıb. Yalnız düşmənin hərbi obyektlərini, mövqelərini hədəfə alan Azərbaycan Ordusu məhz döyüş meydanında düşmənə ağır zərbələr endirməklə ermənilərin bu cinayətlərinin qisasını alır.

Azərbaycan xalqı bu cinayətlərə baxmayaraq, Ali Baş Komandanın ətrafında sıx birləşərək Ordumuza dəstəyini ifadə edir. Düşmənin mülki insanlara qarşı bu cinayətlərindən əziyyət çəkən insanlar heç nədən çəkinmədiklərini, baş verənlərin onları qorxutmadığını bildirir və əldə silah torpaqlarımızın müdafiəsinə hazır olduqlarını bildirirlər.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, torpaqlarımızın azad olunması ilə bağlı xəbərləri bir daha bizləri əmin edir ki, dövlətimizin başçısının sarsılmaz iradəsi, Ordumuzun qüdrəti sayəsində bütün torpaqlarımız işğalçılardan azad ediləcək və üçrəngli bayrağımız zəbt olunmuş bütün torpaqlarımızda dalğalanacaq. Bu gün hər kəs bu məqsəd ətrafında sıx birləşib. Evləri, mülki obyektləri dağılan insanlar qətiyyən narahat deyillər, əksinə, bütün əmlaklarını, mülklərini ərazi bütövlüyümüzün bərpası yolunda fəda etməyə hazır olduqlarını vurğulayırlar.

Qeyd edək ki, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1981 ev, 90 çoxmənzilli yaşayış binası və 386 mülki obyekt yararsız vəziyyətə düşüb.

Əlbəttə ki, güclü dövlətimiz tərəfindən bu ziyan tam aradan qaldırılacaq. İnsanlar bundan sonra o ərazilərdə qəhrəman və qalib xalqın nümayəndələri kimi firəvan yaşayacaqlar.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Füzuli rayonunun 3, Cəbrayıl rayonunun 4 kəndini işğaldan azad edib**

[18:34] 22.10.2020

Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuz qələbə əzmi ilə zəfər yoluna davam edir**

[19:58] 22.10.2020

Oktyabrın 21-i gün ərzində və 22-sinə keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonundakı və digər ərazilərdəki müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan, toplardan və reaktiv artilleriya sistemlərindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 22-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmən dinc əhalini və mülki infrastrukturu hədəfə alaraq Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən Siyəzən, Qəbələ və Kürdəmir rayonları istiqamətində 6 ədəd ballistik raket atıb. Nəticədə bir mülki şəxs yaralanıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusu tərəfindən cəbhənin Qubadlı, Xocavənd və Ağdərə istiqamətində keçirilən əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələri şəxsi heyət və döyüş texnikası baxımından ağır itkilər verərək mühüm yüksəkliklərdən və bir sıra mövqelərdən geriyə çəkilməyə məcbur edilib. 155-ci artilleriya alayına, 5-ci dağatıcı alaya və 543-cü alaya vurulan artilleriya zərbələrimiz nəticəsində komandir heyəti daxil olmaqla, çoxlu sayda canlı qüvvə məhv edilib, yaralanıb və itkin düşüb. Düşmənin yeraltı sığınacaqları dağıdılıb. Yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıb, döyüşə girməkdən imtina edib. Əlavə yolların bağlı olması və nəqliyyat vasitələrinin çatışmazlığı səbəbindən düşmən yaralıların təxliyəsində ciddi çətinliklərlə üzləşib.

Qeyd edilib ki, cəbhəni genişləndirmək istəyən düşmənin Naxçıvan Muxtar Respublikasının Sədərək və Şərur rayonları istiqamətində uçuş keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən məhv edilib.

Diqqətə çatdırılıb ki, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev özünün rəsmi “Twitter” hesabında Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayılın Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin işğaldan azad edildiyini bildirib. Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olunub.

“Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuz qələbə əzmi ilə zəfər yolunda irəliləyir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər**

[02:07] 23.10.2020

Oktyabrın 22-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Cəbrayıl, Füzuli, Goranboy, Kürdəmir, Qəbələ və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 33 (otuz üç) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 1 (bir) müraciət daxil olmuşdur.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 34 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Boyat, Kürdlər, Hacılar, Salmanbəyli kəndləri, Ağdam rayonunun Qaradağlı kəndi, Cəbrayıl rayonunun Şəbə kəndi, Füzuli rayonunun Alxanlı, Şükürbəyli, Qazaxlar kəndləri və Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu, Həmənli, Qızılhacılı, Qarasuçu kəndləri, Kürdəmir rayonunun Çöhramlı kəndi, Qəbələ rayonunun Hacalı kəndi, Tərtər rayonunun Cəmilli, Səhləbad, Yuxarı Sarıcalı kəndləri, Şıxarx qəsəbəsi, Ü.Hacıbəyov küçəsi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 30 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 120 mm-lik minaatan mərmisi (OF-843B), 1 ədəd 9N235 bombacığı, 2 ədəd Elbrus/Scut (8K14) raketinin partlamış hissələri və 38 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd 300 mm-lik 9M528 raketi və 1 ədəd 125 mm-lik top mərmisi (OF-26) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 4 913 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezidentə yazırlar: Düşmən üzərində qazandığımız qələbələr Sizin cəsarətinizin, uzaqgörənliyinizin və polad iradənizin nəticələridir**

[10:40] 23.10.2020

Müzəffər Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın ard-arda işğaldan azad edilməsi vətəndaşlarımızda, xaricdə yaşayan soydaşlarımızda, eləcə də qardaş Türkiyədə və digər ölkələrdə yaşayan azərbaycansevərlərdə böyük sevinc hissi yaradıb. Onlar dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə yazdıqları məktublarda bu sevinc hisslərini ifadə edirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Türkiyənin Ankara şəhərindəki qazilər dövlətimizin başçısına yazırlar: "Möhtərəm cənab Prezident, biz Türkiyə üçün hər zaman xainlərə, separatçı qüvvələrə qarşı mübarizə aparan qazilərik. Bu məktubu yazdığımız vaxtda Sizin, Azərbaycan dövlətinin şanlı ordusunun və xalqınızın tarixin ən böyük qəhrəmanlıq dastanlarından birini yazdığınızı görürük. Bu qəhrəmanlıq eposunun yazılmasında hər zaman Sizinlə olduğumuzu bildiririk. Azərbaycan tək deyil, türk dövləti və milləti həmişə olduğu kimi, yenə də Azərbaycanın yanındadır. Biz Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü hədəf alan hər cür cəhd və təxribatına qarşıyıq. Qarabağın işğalının sona çatması üçün Vətən müharibəsini və Azərbaycanın milli mübarizəsini bütün gücümüzlə dəstəklədiyimizi bəyan edirik. Böyük türk milləti, o cümlədən biz qazilər Sizin rəhbərliyinizlə işğalçı Ermənistana qarşı Azərbaycan Silahlı Qüvvələrinin hər bir qələbəsini böyük sevinc və həvəslə qarşılayırıq. Əminik ki, gələcək nəsil türk dünyasının ortaq coğrafiyasını, mədəni, mənəvi dəyərlərinin yaşadılmasını, ümumi tarixi və mədəni dəyərləri qoruyacaq. Bir daha Vətən bildiyimiz Azərbaycanın haqq mübarizəsində yanınızda olmaq üçün hər an Azərbaycana gəlməyə hazır olduğumuzu bildirir, şəhid ailələrinə başsağlığı diləyir, yaralı Azərbaycan qazilərinə şəfa diləyirik".

Moskva şəhərindən Tarix Verdiyev və Yaqut Verdiyeva yazırlar: "Cənab Ali Baş Komandan, hörmətli İlham Heydər oğlu, Moskvada yaşayan biz azərbaycanlılar ordumuzun qələbələrinə sevinir, dinc insanlarımızın həlak olmasına çox kədərlənirik.

Cənab Ali Baş Komandan, mən vaxtilə tank qoşunlarında xidmət etmişəm. Əmr etsəniz, istənilən vaxt Vətənimizə qayıdıb tarixi torpaqlarımızın işğalçılardan azad edilməsi uğrunda döyüşməyə hazırıq. Bizim işimiz haqq işidir! Vətən hər şeydən ucadır!".

Minsk şəhərindən Tatyana Laputskaya və Oruc Orucov yazırlar: "Cənab Prezidentimiz, Belarusdan Orucovlar – Laputskilər ailəsi Sizi salamlayır. Sizin komandanlığınız altında Azərbaycan əsgərlərinin işğalçı erməni terrorçuları üzərində qazandığı qələbələrlə qürur duyuruq. Qarabağ həmişə Azərbaycanın olub və əsrlərboyu da Azərbaycanın olacaq. Azərbaycandan gələn hər bir şad xəbəri uzaq Belarusda səbirsizliklə gözləyir, diqqətlə izləyirik. Haqq-ədalətin zəfərinə Sizinlə, Azərbaycan xalqı ilə birlikdə sevinirik. Ordumuzun qələbələrinə görə Sizin sevinc və qürur hissiniz sanki televiziya ekranından bizlərə də sirayət edir. Allah Sizə güc-qüvvət versin ki, Azərbaycan xalqının mənafeyi naminə müdrik siyasətinizi bundan sonra da davam etdirə biləsiniz. Allah Sizi qorusun!".

Rusiyanın Tümen vilayətindən Füzuli Burcuyev: "Möhtərəm cənab Prezident, Rusiya Federasiyasının Tümen vilayətinin çoxminlik Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımızı bildiririk, Sizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına tam dəstəyimizi ifadə edirik. Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyən, Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün cəsarətlə mübarizə aparan şanlı Azərbaycan Ordusuna hərtərəfli dəstək verən bütün Azərbaycan xalqının ruh və güc birliyindən qürur və sevinc hissi keçiririk. Ölkədə müxtəlif sahələrdə Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar sayəsində Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası yüksək səviyyəyə çatdırılmışdır ki, Sizin Ali Baş Komandan kimi qarşınıza qoyduğunuz bütün vəzifələrin uğurla yerinə yetirilməsindən əminliklə danışmağa imkan verir. Biz, Tümen vilayətinin Azərbaycan diasporunun nümayəndələri olaraq, Azərbaycanın atəş altında olan kəndləri və şəhərlərinin mülki əhalisinin, eləcə də silahlı qüvvələrinin şəxsi heyəti ailələrinin ehtiyacları üçün dərman, qida, zəruri ehtiyaclar şəklində lazımi humanitar yardım göstərməyə mütləq hazır olduğumuzu bildiririk".

Tatarıstandan Ramiz Məmmədovun məktubunda deyilir: "Hörmətli cənab Prezident, Ali Baş Komandan olaraq Sizin qətiyyətli addımlarınız sayəsində Azərbaycanın hərb tarixinə yeni səhifələr yazılır. Məhz buna görə də hazırda dünya azərbaycanlıları çox qürurlu anlar yaşayırlar. Bu sevinci və fərəhi bizlərə bəxş etdiyiniz üçün Tatarıstanda yaşayan soydaşlarımız adından Sizə minnətdarlığımızı bildiririk. Bizlər hər zaman xalqımızla nəfəs alırıq, ürəyimiz Vətənlə döyünür. Sizin "Qarabağ Azərbaycandır!" şüarınızı

rəhbər tutaraq, Qarabağ həqiqətlərini Tatarıstanda qürurla təbliğ edirik. Erməni terrorçularına qarşı mübarizədə iştirak etməyə hər an hazır dayanmışıq və Ali Baş Komandan kimi Sizin əmrinizi gözləyirik. Tanrı Sizi və xalqımızı qorusun!".

Şəki sakini Rauf Ağayev yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, hazırda məhkumluq həyatı yaşayıram. Televiziya vasitəsilə cəbhədə gedən hərbi əməliyyatları davamlı olaraq izləyirəm. Ordumuzun düşmən işğalından azad etdiyi kəndləri, şəhərləri gördükcə çox qürurlanıram. Buna görə Sizə və Ordumuza minnətdaram. Lakin ermənilərin bizim dinc əhaliyə qarşı törətdikləri vəhşilikləri gördükcə, şəhid olmuş günahsız körpələrin, anaların qisasını almaq hissi məni bir an belə rahat buraxmır. Cənab Ali Baş Komandan, bildirmək istəyirəm ki, igid əsgərlərimizlə birlikdə döyüşmək üçün hər an əmrinizə hazıram".

Bərdə sakini Fərman Əkbərli: "Əziz Prezidentim, mənim adım Fərmandır, 12 yaşım var. Bərdə şəhərində yaşayıram. Mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. İnşallah, torpaqlarımız azad ediləcək, çünki bizim igid əsgərlərimiz var. Düşmənlərimiz xain və acgözdürlər. Biz onlara qalib gələcəyik. Qarabağ bizimdir, bizim olacaq! Qarabağ Azərbaycandır!".

Zəngilan sakini Ruslan Şirinov: "Hörmətli Ali Baş Komandanımız, şanlı Azərbaycan Ordusu 29 il həsrətini çəkdiyim, doğma torpağım olan Zəngilan rayonunu mənfur işğalçı düşmənlərdən azad etdi. Ailəm adından Sizə və şanlı Ordumuza minnətdarlığımızı bildirirəm. İnşallah, tezliklə Bayrağımız Qarabağda dalğalansın. Biz Sizinlə fəxr edirik! Uca Tanrı Sizi və Ordumuzu qorusun!".

Ağdam sakini Elbrus Abdullayev: "Möhtərəm cənab Prezident, Cəbrayıl, Füzuli, Zəngilan şəhərlərinin, Hadrut qəsəbəsinin və bir sıra kəndlərimizin işğaldan azad olunması münasibətilə Ağdam rayon əhalisi adından Sizi təbrik edirəm. Torpaqlarımızın azad olunacağına ümidimizi heç vaxt itirməmişdik. Çünki Sizin rəhbərliyinizlə ölkəmizin iqtisadi baxımdan inkişafı, ordumuzun qüdrətlənməsi və onun maddi-texniki bazasının möhkəmləndirilməsi bizi nikbin düşünməyə sövq edirdi. Bu nailiyyətlərin sonda bizi Qarabağa aparacağına tam qəlbimizlə inanırdıq. Nəhayət həmin gün gəlib çatdı. Bu gün biz addım-addım Qarabağa doğru gedirik. "Hər işin başı səbirdir" – deyirlər. Biz 30 il dözdük, səbir etdik, möhkəmləndik və bu da nəticəsi... Cənab Prezident, Sizdən tezliklə Şuşanın, Xankəndinin azad olunduğu xəbərlərini gözləyirik. Ulu Tanrı hər bir işinizdə köməyiniz olsun".

Qusar rayonundan Şahin Ağabalayev dövlətimizin başçısına yazır: "Möhtərəm cənab Prezident, Zəngilan şəhərinin və ətraf kəndlərinin erməni işğalından azad edilməsi haqqında verdiyiniz zəfər soraqlı xoş xəbər bütün xalqımız kimi, qusarlıları da hədsiz sevindirmişdir. Sizin komandanlığınızla şanlı ordumuz tarixin yeni silinməz səhifələrini yazır, mümkünlüyü çətin olan xarüqələr yaradır. Artıq ordumuz qələbənin astanasındadır. Xalqımızın 30 ildir gözlədiyi torpaqlarımızın düşmən tapdağından azad edilməsi arzusu artıq reallığa çevrilir. Düşmən üzərində qazandığımız qələbələr Sizin bilavasitə cəsarətiniz, uzaqgörənliyiniz və polad iradənizin gözəl nəticələridir. Tanrı Sizi qorusun. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!".

Şəki sakini Nicat Qurbanzadə: "Hörmətli cənab Prezident, hamılıqla Qarabağ uğrunda yürütdüyünüz siyasəti dəstəkləyirik. Bu gün mübarizənin ölkəmizin lehinə davam etməsi Sizin uğurlu siyasətinizin və qüdrətli Azərbaycan Ordusunun yüksək döyüşkənlik əzmində olmasının nəticəsidir. İnanırıq ki, tezliklə tarixi torpaqlarımız tam geri alınacaq və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Sizin kimi dəyanətli, qətiyyətli dövlət başçımız, Prezidentimiz olduğu üçün özümüzü çox qürurlu hiss edirik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Zaqatala sakini Hüseyn Qazıxanov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi və bütün Azərbaycan xalqını torpaqlarımızın azad olunması uğrunda erməni qəsbkarları ilə gedən döyüşlərdə qazandığımız uğurlara görə təbrik edirəm.

Hər dəfə televiziya ilə torpaqlarımızın azad olunması barədə verdiyiniz məlumatlar bizi ziyalıları çox qürurlandırır. Sizin uzaqgörən siyasətinizi dəstəkləyirəm. İşğal olunmuş hər bir qarış torpağın azad olunması, Azərbaycanın çiçəklənməsi naminə Sizin ətrafınızda yumruq kimi birləşdiyimizi əminliklə bildirirəm. Cənab Prezident, Azərbaycanda yaşayan bütün millətlərin nümayəndələri kimi biz – saxurlular da Sizinlə fəxr edir, Azərbaycanın xoş gələcəyi naminə Sizə, əsgər və zabitlərimizə cansağlığı arzu edirik. Üçrəngli bayrağımızın Şuşada, Xankəndidə, bütün qalan şəhər və kəndlərdə dalğalanması ümidi ilə Tanrı Sizə yar olsun".

Gəncə şəhərindən Natiq Bayramov yazır: "Hörmətli cənab Prezident, nəhayət illərdir işğal altında qalan torpaqlarımız Sizin qətiyyətiniz, şücaətiniz və uzaqgörən siyasətiniz sayəsində yadelli işğalçılardan azad olunur. Bütün xalq əmindir ki, tezliklə yağı düşmən torpaqlarımızdan qovulacaq, o torpaqlar öz əzəli

və əbədi sahiblərinə qovuşacaq. Mən birinci Qarabağ müharibəsində iştirak etmişəm və Qarabağ veteranıyam. Yenidən könüllü olaraq cəbhəyə getmək üçün rəsmi qeydiyyatdan keçdim. Lakin yaşıma və qismən səfərbərlik olduğuna görə aparmadılar. Cənab Ali Baş Komandan, bir daha öz bilik və təcrübəmi doğma Vətənimin erməni işğalçılarından azad edilməsinə sərf etməyə hazır olduğumu bildirirəm. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Füzuli sakini Mənsur Əliyev: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın azad edilməsi, Vətənimizin bütövləşməsi uğrunda apardığınız müdrik siyasət öz bəhrəsini verir. Bu gün Azərbaycanın üçrəngli bayrağı Füzulidə, Cəbrayılda, Zəngilanda dalğalanır. İnşallah, tezliklə Azərbaycanın digər dilbər guşələri də azad olunacaq. Ulu Tanrı Sizi və Azərbaycanın müzəffər Ordusunu qorusun. Qarabağ bizimdir!".

Naxçıvandan İmaməli Məmmədov: "Cənab Ali Baş Komandan, Vətənimizin bütövlüyü, torpaqlarımızın yağı düşməndən təmizlənməsi uğrunda apardığınız qətiyyətli siyasətiniz hər bir vətəndaşımızın ürəyindən xəbər verir. Sizə və komandanlığınız altında vuruşan igid əsgər və zabitlərimizə bu haqq işində yeni-yeni zəfərlər, qələbə sevincləri arzu edirəm. Bütün naxçıvanlılar kimi, mən də hər an cəbhəyə getməyə, Vətən uğrunda döyüşərək canımdan, qanımdan keçməyə hazıram. Yaxşı ki, Sizin kimi Prezidentimiz var. Hər bir azərbaycanlı Sizinlə qürur duyur. Allahdan Sizə möhkəm cansağlığı, hər zaman ucada olmağı arzu edirəm".

Bakı şəhər sakini Sabir Alışov: "Hörmətli cənab Prezident, üç cəbhədə Azərbaycan xalqı naminə uğur qazandığınıza görə Sizə minnətdaram və Sizi təbrik edirəm. Bəli, Siz, eyni zamanda, 3 cəbhədə vuruşursunuz. Koronavirusla mübarizə, informasiya müharibəsi və hazırda torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər. Böyük və Qadir Allahın köməyi ilə uğurlar əldə edirik. Sizin zəhmətinizi Allah yerdə qoymaz. Mən bir sadə vətəndaş kimi bütün ziyalılarımızdan xahiş edirəm ki, informasiya müharibəsində öz güclərindən maksimum istifadə etsinlər. Ləyaqətli xalqımın ləyaqətli rəhbəri, on milyonluq xalqımın arzusudur ki, Yeni ili Şuşada, Xankəndidə qeyd edək. Haqq-ədalət bizimlədir, Qələbə də bizimlə olacaqdır! Qələbəyə doğru İlhamla irəli!".

Şamaxı sakini Anar Xanaliyev: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bu gün Sizin rəhbərliyinizlə bizim şanlı Ordumuz düşmənə qalib gəlir, bizə qələbə, zəfər əzmini yaşadır və biz bundan qürur duyuruq. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz və Ali Baş Komandanımız var. Siz həmişə xalqa, ölkəmizə qayğı göstərir, çətinlikləri üzərimizdən yox edirsiniz. Ona görə də hər zaman xalq Sizi sevib və Sizə güvənib. Siz xalqın böyük sərkərdəsi, Milli Qəhrəmanımızsınız. "Qarabağ Azərbaycandır!" deyib bizi Qələbəyə doğru apardınız. Mən Sizi çox sevirəm və qürur hiss keçirirəm ki, azərbaycanlıyam, Siz isə Azərbaycanın Prezidentisiniz. Şanlı Ordumuz qazandığı qələbələr məni də böyüyəndə hərbçi olmağa ruhlandırır. Bu zəfəri bizə yaşatdığınız üçün Sizə minnətdaram, cənab Prezident. Mən Sizinlə və şanlı Ordumuzla fəxr edirəm".

Culfadan Nahid Babayev yazır: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Sizi həyata keçirdiyiniz uğurlu siyasət münasibətilə təbrik edirəm. 30 ilə yaxın bir müddətdə ev-eşiyindən didərgin düşmüş 1 milyondan çox məcburi köçkün Sizin və rəşadətli Ordumuzun hünəri sayəsində öz yurd-yuvasına qayıdacaq. Cənab Prezident, Sizin çıxışlarınızı və verdiyiniz müsahibələri dinlədikcə biz daha da qürrələnirik. Fəxr edirik ki, bizim güclü Liderimiz və qüdrətli Ordumuz var. Allah Sizi və hazırda cəbhəboyu inamla irəliləyən qəhrəman əsgərlərimizi qorusun! Allah amanında. Qarabağ Azərbaycandır!".

Füzuli sakini Rəhman Rüstəmov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bütün ailə üzvlərim adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Doğma Füzulimizin hər qarışının artıq azad olunduğunu düşündükcə qəlbimiz dağa dönür.

Hörmətli Ali Baş Komandan, Azərbaycanın işğal olunmuş torpaqlarını murdarlardan təmizlədiyiniz üçün Sizə canımız və qanımızla borcluyuq. Eşq olsun Prezidentimizə!".

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: düşmən fərarilik edərək mövqeləri tərk edir**

[08:25] 23.10.2020

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

Bütün cəbhə boyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Düşmən bölmələrində döyüş texnikası, silah və sursat, ərzaq çatışmazlığı mövcuddur. Düşmən qoşunlarının idarə edilməsi praktiki olaraq itirilib. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir.

Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonundan Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət döyüşlərə girməkdən imtina edir, fərarilik edərək mövqeləri tərk edirlər.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir.

**AZƏRTAC**

**Baş Prokurorluq Ermənistanın təxribatları nəticəsində dinc əhaliyə qarşı törədilmiş cinayətlərin son statistikasını açıqlayıb**

[18:37] 23.10.2020

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 23-ü saat 17:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 4-də, 11-də, 17-də raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 25 nəfər həlak olub, 139 nəfər yaralanıb. Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Goranboy rayonunda 7 nəfər həlak olub, 10 nəfər yaralanıb.

Sentyabrın 27-də saat 18:00 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailənin beş üzvü məhv olub.

Eləcə də Tərtər rayonunda 16 nəfər həlak olub, 50 nəfər yaralanıb. Yaralanmış şəxslərdən biri KİV nümayəndəsidir.

Bərdə rayonunda 2 nəfər həlak olub, 12 nəfər xəsarət alıb. Beyləqan rayonunda 2 nəfər həlak olub, 2 nəfər yaralanıb. Ağcabədi rayonunda 1 nəfər həlak olub, 19 nəfər xəsarət alıb. Füzuli rayonunda 3 nəfər həlak olub, 17 nəfər yaralanıb. Ağdam rayonunda isə 7 nəfər həlak olub, 40 nəfər xəsarət alıb. Yaralanmış şəxslərdən biri KİV təmsilçisidir.

Bundan başqa, Mingəçevir şəhərinə 5, Daşkəsən, Cəbrayıl, Xocalı və Qəbələ rayonlarının hər biri üzrə 1 nəfər yaralanıb.

Ümumilikdə sentyabrın 27-dən oktyabrın 23-dək Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 63 nəfər həlak olub, 298 nəfər isə xəsarət alıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun zəfər yürüşü davam edir**

[19:26] 23.10.2020

Oktyabrın 22-si gün ərzində və 23-nə keçən gecə cəbhənin Ağdərə, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən müdafiə mövqelərimizi, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atıcı silahlardan və artilleriya qurğularından atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 23-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinə ciddi zərbələr vurulub, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb, vacib ərazi və yüksəkliklər azad edilib.

Ağcabədi rayonu və digər istiqamətlərdə uçuş keçirməyə cəhd göstərən düşmənin 3 pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib, 2-si isə xüsusi texniki vasitələrlə yerə endirilib.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bütün cəbhəboyu düşmənin əsas ehtiyatlarına, hərbi infrastrukturuna bərpa olunmayan zərər vurulub. Döyüş texnikası, silah və sursat, ərzaq ehtiyatları azalan düşmən artıq qoşunlarını praktiki olaraq idarə edə bilmir. Məlum olub ki, Ermənistanın Tavuş və Sisian rayonlarından Dağlıq Qarabağa gətirilmiş şəxsi heyət də Azərbaycan əsgərləri ilə döyüşlərə girməkdən imtina edir, mövqeləri qoyub qaçır. Döyüş mövqelərini qorumaq üçün nizami ordu bölmələri çatışmadığından onların əvəzinə məcburi şəkildə toplanan mülki insanlar gətirilir. Düşmənin vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdləri də tam olaraq iflasa uğrayıb.

Diqqətə çatdırılıb ki, bu gün Prezident, müzəffər Ali Baş Komandanımız İlham Əliyev özünün rəsmi "Twitter" hesabında qüdrətli Azərbaycan Ordusunun Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq, Xocavənd rayonunun Dolanlar, Bünyadlı, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərinin işğaldan azad edildiyini bildirib.

"Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər gedir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Ordumuzun zəfər yürüşü davam edir. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Azərbaycan xüsusi təyinatlılarının böyük bir bölməsinin məhv edilməsi barədə Ermənistan tərəfinin yaydığı məlumat xülyadır**

[21:45] 23.10.2020

Ermənistan tərəfinin guya Azərbaycan xüsusi təyinatlılarının böyük bir bölməsinin məhv edilməsi barədə yaydığı məlumat bu ölkənin müdafiə nazirliyinin nümayəndələrinin narahat gecə yuxularının məhsuludur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, düşmənin yaydığı müxtəlif növ dezinformasiyalar döyüşlər zamanı aldığı zərbələrin təsirinə mütənasib olaraq dəyişir.

Qoşunlarımız cəbhənin bütün istiqamətlərində düşmənə ağır zərbələr endirməklə onun müdafiə xəttini darmadağın edib. Bu gün cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin pərən-pərən salınan könüllülərdən ibarət dəstələri və döyüş texnikaları da məhv edilib.

Bir müddət sonra bununla bağlı videosübutlar təqdim olunacaq.

**AZƏRTAC**

**Düşmənin könüllü dəstələri və döyüş texnikaları məhv edildi**

[23:38] 23.10.2020

Müdafiə Nazirliyi cəbhənin Xocavənd və Füzuli istiqamətlərində Ermənistan silahlı qüvvələrinin könüllülərdən ibarət dəstələri və döyüş texnikalarının məhv edilməsi ilə bağlı videogörüntülər yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinə istinadla videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**ANAMA 175 partlamamış hərbi sursat və 2 dron aşkarlayıb**

[04:57] 24.10.2020

Oktyabrın 23-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Naftalan və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Zəng Xidməti Mərkəzindən 38 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 40 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Arazbar, Böyük Kəhrizli, Hacılar, Qaradolaq, Yeni Qaradolaq, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Bəybabalar, Çəmənli, Mahrızlı kəndləri, Bərdə rayonunun Xantorpaq, Əlyanlı kəndləri, Beyləqan rayonunda "Mayak" adlanan əraziyə, Füzuli rayonunun Alxanlı, Böyük Bəhmənli kəndləri və Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu, Şəfəq, Səfibəyli, Hacalı kəndləri, Naftalan rayonunun Qaşaltı kəndi, Tərtər rayonunun Borsunlu, Yuxarı Sarıcalı kəndləri, Qızıloba qəsəbəsi, V.Orucov, H.Hacıyev, V.Hüseynov küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 33 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 175 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 35 ədəd partlamış mərmi qalıqları aşkarlanıb.

Agentliyin partlayış qrupu tərəfindən 1 ədəd raket, 1 ədəd 9N235 bombacığı və 2 ədəd dron zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 9714 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə agentlik tərəfindən sentyabrın 27–dən oktyabrın 23-dək 829 siqnal (əməliyyat çağırışı) əsasında 687 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Kürdəmir, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Xızı, Oğuz, Qəbələ rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Bakı-Tbilisi-Ceyhan Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 282 ədəd partlamamış hərbi sursat (PHS), 1144 ədəd 9N235 bombacıqları, 1180 ədəd müxtəlif çaplı patronlar, 1 ədəd qaz qumbarası, 14 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 6 ədəd dron (zərərsizləşdirilib), 2 ədəd raketin mikrosxemi və 401 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 24-nə olan vəziyyət**

[08:12] 24.10.2020

Oktyabrın 23-ü gün ərzində və 24-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun cəbhənin müəyyən edilmiş istiqamətlərində döyüş fəaliyyətlərini davam etdirib.

Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində mütəşəkkil müqavimət göstərə bilməyən Ermənistan silahlı qüvvələri bölmələrinə atəşlə ciddi ziyan vurulub. Düşmənin silah və sursat, yanacaq ehtiyatları anbarları sıradan çıxarılıb. Bəzi istiqamətlərdə düşmən nizamsız qaydada mövqeləri tərk edərək geri çəkilib. Əhəmiyyətli kommunikasiya xətləri nəzarətə götürülüb, düşmənin bir neçə dayaq məntəqəsi dağıdılıb və vacib yüksəkliklər azad edilib.

Hazırda bütün cəbhə boyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Anar Eyvazov: Erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir**

[20:13] 24.10.2020

Oktyabrın 23-də gün ərzində və 24-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut və Qubadlı istiqamətlərində döyüş əməliyyatları davam edib. Müdafiə mövqelərimizi atıcı silahlardan, minaatanlardan və toplardan atəşə tutan düşmən yaylım atəşli reaktiv sistemlərdən və digər artilleriya qurğularından istifadə edərək, həmçinin Tərtər, Bərdə, Goranboy və Naftalanı atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 24-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, Azərbaycan Ordusunun Laçın və Qubadlı istiqamətlərində həyata keçirdiyi əməliyyatlara qarşı mütəşəkkil müqavimət göstərə bilməyən və döyüş mövqelərini itirərək geri çəkilməyə məcbur edilən düşmən Ermənistanın Gorus və Qafan rayonları ərazisindən raket və artilleriya qurğuları ilə Laçın və Qubadlı ərazilərini güclü atəşə məruz qoyub. Ermənistan tərəfinin bu təxribatı törətməkdə məqsədi Azərbaycan Ordusunu cavab tədbirləri olaraq Ermənistan ərazisinə atəş açmağa təhrik etməkdir.

Bildirilib ki, Azərbaycan Ordusu əməliyyat planına uyğun olaraq cəbhənin müxtəlif istiqamətlərində əks-hücumu davam etdirir. Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin bölmələrinə ciddi atəş zərbələri endirilib, onun silah-sursat və yanacaq anbarları sıradan çıxarılıb. Kommunikasiya xətləri nəzarətə götürülüb, dayaq məntəqələri dağıdılıb. Könüllülərdən ibarət dəstələri və döyüş texnikası məhv edilərək bir neçə vacib yüksəkliklər azad edilib. Sünik-Zəngilan yolunda hücum etməyə cəhd göstərən düşmən bölmələrimizin sərt müqaviməti ilə rastlaşaraq geri çəkilməyə məcbur edilib. Düşmən qüvvələrindən əsir götürülənlər var.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, bundan başqa, Qubadlı istiqamətində Ermənistan hərbi hava qüvvələrinə məxsus döyüş təyyarəsi və Ağdərə rayonu istiqamətində bir pilotsuz uçuş aparatı Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib. Cəbrayıl rayonu istiqamətində düşmənə məxsus "BZEZ" zərbə pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən aşkarlanaraq xüsusi texniki vasitələrlə yerə endirilib və ələ keçirilib.

Hazırda bütün cəbhəboyu döyüşlər davam edir. Qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun əks-həmlə əməliyyatı başlandıqdan sonra döyüş sahəsində aciz qalan düşmən bütün vasitə və resurslardan istifadə etməklə informasiya mühitində dezinformasiya və təxribat xarakterli məlumatlar yayır. Düşmən rəsmiləri guya ordumuzun texnika itirdiyi, xüsusi təyinatlı bölmələrimizə ziyan vurulduğu, bir pilotsuz uçuş aparatının Ermənistan ərazisində vurulması, digərinin isə İran ərazisinə keçdiyi və bu ölkə tərəfindən qoşunlarımıza qarşı atəş açılması kimi feyk məlumatlar verməklə vəziyyətin gedişatına təsir etməyə çalışır. Onlar çoxsaylı feyk foto və videolar yaymaqla, beynəlxalq aləmdə Azərbaycan Ordusu barədə mənfi rəy formalaşdırmağa cəhd edirlər.

Anar Eyvazov deyib: Bildiririk ki, peşəkar Azərbaycan Ordusu yalnız düşmənin silahlı birləşmələrini və legitim hərbi obyektləri hədəfə alır. Bu hədəflər dəqiq atəş zərbələri ilə məhv edilir. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin ictimaiyyətə təqdim etdiyi foto və video görüntülər də buna əyani sübutlardır. Hər bir Azərbaycan əsgəri mülki şəxslərlə, hərbi əsirlərlə və düşmən meyitləri ilə davranış qaydalarını mükəmməl bilir. Onlara qarşı beynəlxalq humanitar hüququn prinsip və normalarına, eləcə də Cenevrə konvensiyalarına və ona əlavə olunmuş protokollara uyğun davranırlar. Buradan döyüşlər gedən istiqamətlərdə məskunlaşan dinc erməni əhalisinə və aldadılaraq Ermənistan ərazisindən işğal olunmuş ərazilərimizə gətirilən əsgər və könüllülərə Azərbaycanın Hərbi Komandanlığının müraciətini çatdırıram.

Azərbaycanın Hərbi Komandanlığı bir daha döyüşlər gedən istiqamətlərdəki dinc əhalini hərbi obyekt və infrastrukturdan uzaq durmağa çağırır. Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən aldadılaraq ölkəmizin işğal olunmuş ərazilərinə gətirilən əsgər və könüllülərə silahı yerə qoyaraq təslim olmağı təklif edir. Azərbaycan tərəfinə keçən mülki əhalinin təhlükəsizliyinin, qida, tibbi yardım və digər ehtiyaclarının təmin edilməsi üçün komandanlıq bütün müvafiq zəruri tədbirləri görməyə hazırdır. Bundan əlavə, beynəlxalq humanitar hüquqa uyğun olaraq hərbi əsirlərin, mülki şəxslərin bütün hüquqları qorunacaq və üçüncü dövlətlərə keçmək istəyən şəxslərə beynəlxalq təşkilatlar vasitəsilə lazımi şərait yaradılacaq.

"Azərbaycan əsgərlərinə qarşı döyüşən erməni hərbçilərinin vaxt itirmədən silahı yerə qoyması və təslim olması tövsiyə edilir. Qələbə bizimlədir!", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Cəbhəboyu ərazilərdə raket, top mərmiləri və dronlar zərərsizləşdirilib**

[02:43] 25.10.2020

2020-ci il oktyabrın 24-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli, Goranboy, Naftalan və Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 34 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 1 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 35 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hacılar, Hüsülü, Muğanlı, Rəncbərlər, Təzəkənd kəndləri, Ağdam rayonunun Alıbəyli kəndi, Quzanlı və Səfərli qəsəbəsi, Bərdə rayonunun Qazaxlar və Təhlə kəndləri, Beyləqan rayonunun Dünyamalılar kəndi, Füzuli rayonunun Alxanlı kəndi, Goranboy rayonunun Təklə kəndi, Naftalan rayonunun Qaşaltı, Tərtər rayonunun Azadqaraqoyunlu, Düyərli, Köçərli, Qazyan, Xoruzlu kəndləri, Şıxarx qəsəbəsi, M.Ə.Sabir və Nizami küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 28 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 9 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 31 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd raket, 8 ədəd top mərmisi və 2 ədəd dron zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 14 min 496 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

## Azərbaycan Ordusu düşmənə qarşı yüksək dəqiqlikli silahı tətbiq edir

[12:20] 25.10.2020

Azərbaycan Ordusu düşmənə qarşı yüksək dəqiqlikli silah növünü tətbiq edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi məlumat yayıb.

Xatırladaq ki, oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda Azərbaycan Ordusunun bölmələri cəbhəboyu döyüşləri davam etdirir**

[19:52] 25.10.2020

Oktyabrın 24-ü gün ərzində və 25-nə keçən gecə cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində döyüş əməliyyatları davam edib. Düşmən əməliyyat sahəsindəki qoşunlarımızı, həmçinin Ağdam, Tərtər, Ağcabədi rayonlarını tanklar, minaatanlar və toplardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 25-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Azərbaycan Ordusunun bölmələri əməliyyat planına uyğun olaraq əsas istiqamətlərdə döyüş fəaliyyətlərini davam etdirib və işğaldan azad edilmiş əraziləri bir qədər də genişləndirib. Qoşunlarımız cəbhənin Xocavənd, Qubadlı və Laçın rayonları ərazisində düşmənə ciddi atəş zərbələri endirərək onun müqavimətini zəiflədib və müxtəlif istiqamətlərdə döyüş mövqelərini düşməndən təmizləyib. Ağdərə və Xocavənd istiqamətlərində yerləşən düşmən bölmələri ordumuzun cavab tədbirləri nəticəsində xeyli sayda canlı qüvvə itirib.

Qeyd edilib ki, artıq Ermənistan tərəfində döyüş sursatının tükəndiyi və artilleriya qurğularının sıradan çıxdığı məlum olub. Qubadlı istiqamətinə gətirilən Ermənistan silahlı qüvvələrinin 543-cü alayının 1-ci taborunun bölmələri canlı qüvvə və hərbi texnika baxımından itkilər verərək geriyə qayıdıb. Ermənistanın Kotayk vilayətinin Tsaxkadzor yaşayış məntəqəsindən Dağlıq Qarabağa göndərilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərin böyük hissəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Hərbi hava qüvvələrimizin döyüş aviasiyası cəbhənin Ağdərə və Ağdam istiqamətlərində düşmənin üç tankını, iki sığınacağını və dörd dayaq məntəqəsini dəqiq zərbələrlə sıradan çıxarıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 3 tankı, 2 piyada döyüş maşını, 6 artilleriya qurğusu, 1 “Qiasint-B” topu, 2 “Qrad”, 1 komanda idarəetmə məntəqəsi, 9 avtomobil texnikası və bir neçə atəş nöqtəsi məhv edilib.

“Hazırda bölmələrimiz cəbhəboyu döyüşləri davam etdirir. Hərbi hava qüvvələrimizin döyüş aviasiyası düşmənin hərbi infrastrukturlarını hədəfə alır. Ümumi olaraq qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən havadan və qurudan darmadağın edilir. Qələbə bizimlədir!”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Ermənistan atəşkəs rejimini pozmaqda davam edir: Tovuz və Daşkəsən rayonlarının əraziləri atəşə tutulur**

[12:07] 26.10.2020

Ermənistan silahlı qüvvələri yeni humanitar atəşkəs rejimini pozmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda Ermənistanın Berd və Vardenis rayonları ərazisindən Azərbaycanın Tovuz və Daşkəsən rayonlarının əraziləri düşmən tərəfindən atəşə tutulur.

Eyni zamanda, Füzuli və Ağdam istiqamətlərindəki yaşayış məntəqələrimiz, habelə Azərbaycan Ordusu bölmələrinin mövqeləri də düşmən tərəfindən atəşə məruz qalır.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun bölmələri növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir**

[19:32] 26.10.2020

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun bölmələri oktyabrın 26-sı saat 08.00-dan qüvvəyə minmiş növbəti humanitar atəşkəs rejiminə bütün cəbhəboyu riayət edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 26-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ermənistan silahlı qüvvələrinin bölmələri yeni humanitar atəşkəs rejimi qüvvəyə mindikdən bir neçə dəqiqə sonra - saat 08.05-dən etibarən onu kobudcasına pozaraq Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Qubadlı və Laçın istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları ərazisindən Tovuz, Gədəbəy və Daşkəsən rayonlarını müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub. Bir qədər əvvəl - saat 18:15-də düşmən "Smerç" yaylım atəşli reaktiv sistemindən Tərtər şəhərini atəşə tutub. Atılan üç raketdən biri hava hücumundan müdafiə bölmələrimiz tərəfindən zərərsizləşdirilib. Ümumilikdə bu gün ərzində Tərtər daxil olmaqla yaşayış məntəqələrimizə 200-dən çox mərmi atılıb.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Xocalı rayonunun Çanaqçı kəndinin guya Azərbaycan Ordusu tərəfindən atəşə tutulması, o cümlədən Ordumuza məxsus zərbə pilotsuz uçuş aparatının cəbhə xəttində guya məhv edilməsi barədə düşmən tərəfindən yayılan məlumatlar yalandır. Əksinə, Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri atıcı silahlardan açılan atəşlə məhv edilib.

"Canlı qüvvə ehtiyatları tükənməkdə olan düşmən döyüşlərə daha çox könüllüləri, muzdlu və əcnəbi terrorçu döyüşçüləri, o cümlədən uşaqları cəlb etməyə çalışır. Belə olan halda isə düşmənin döyüş sahəsində vəziyyətə nəzarət edə bilməsi praktiki cəhətdən mümkün deyil. Nizami ordumuz düşmənin istənilən hücum və təxribatlarının qarşısını almaq üçün döyüşə tam hazır vəziyyətdədir", - deyə Anar Eyvazov vurğulayıb.

**ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə raket və top mərmilərini zərərsizləşdiriblər**

[07:41] 27.10.2020

Oktyabrın 25-26-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonları və Mingəçevir şəhəri ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 49 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş çağırışlar əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Sarıcalı, Salmanbəyli kəndləri və Hindarx qəsəbəsi, Ağdam rayonunun Rzalar, Bəybabalar, Əhmədağalı və Eyvazlı kəndləri, Bərdə rayonunun Təhlə kəndi, Füzuli rayonunun Şükürbəyli, Alxanlı və Arayatlı kəndləri, Goranboy rayonunun Qaraçinar, Meşəli və Tapqaraqoyunlu kəndləri, Tərtər rayonunun Nizami, Axundov, M.Rəsulzadə, H.Cavid və T.Rəhimov küçələri, Mingəçevir şəhərinin Yeni Yaşayış massivi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 45 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd 122 mm-lik top mərmisi (OF-56), 1 ədəd 152 mm-lik top mərmisi (OF-29), 1 ədəd 240 mm-lik raket (M24F), 5 ədəd 9N235 bombacığı, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 54 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd raket, 1 ədəd tank əleyhinə idarəolunmayan raket (PQ-7), 5 ədəd 9N235 bombacığı və 1 ədəd top mərmisi zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 23418 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 27-nə olan son vəziyyət**

[07:50] 27.10.2020

Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 26-sı gün ərzində və 27-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub.

Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilmişdir. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da var.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd “Osa-AKM” ZRK, 1 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Anar Eyvazov: Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub**

[20:18] 27.10.2020

Ötən müddət ərzində humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozan Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, o cümlədən Zəngilan rayonunun Ağbənd kəndi istiqamətindəki ərazilərimizi müxtəlif silahlardan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 27-də Hərbi İnformasiya Mərkəzində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, vəziyyəti daha da gərginləşdirmək istəyən düşmən yaylım atəşli reaktiv sistemlərdən və artilleriya qurğularından istifadə etməklə cəbhəboyu bölgəyə yaxın bir sıra yaşayış məntəqələrimizə də atəş zərbələri endirib. Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində hücum etməyə cəhd edən düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Keçirilən adekvat tədbirlər nəticəsində düşmən diviziyalarından birinin qərargah rəisi daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir tankı, dörd artilleriya qurğusu, “Osa” tipli zenit raket kompleksi, “Qrad” tipli yaylım atəşli reaktiv sistemi, radiolokasiya stansiyası və altı avtomobil texnikası və diviziyasının əsas komanda məntəqəsi bölmələrimiz tərəfindən məhv edilib. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Ermənistan ərazisini guya pilotsuz uçuş aparatı və raket-artilleriya sistemlərindən atəşə tutmağımız barədə düşmənin yaydığı məlumat növbəti dezinformasiyadır. Yeni humanitar atəşkəs rejiminə tam riayət edən bölmələrimiz bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görür.

“Ermənistan cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə hesablanmış təxribatçı hərəkətlərinə son qoymalıdır. Ermənistan rəhbərliyi dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri artıq münaqişə bölgəsi deyil və Azərbaycanın tamhüquqlu suveren ərazilərini müəyyən edən, beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir. Bu baxımdan bir daha bəyan edirik ki, Azərbaycan öz ərazilərinə təhdid edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmək hüququna malikdir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**Cəbhədə oktyabrın 28-nə olan son vəziyyət**

[08:45] 28.10.2020

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb, o, itki verərək geri çəkilib.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var. Onun bir neçə döyüş texnikası məhv edilib. Düşmənin artilleriya bölməsinə atəşlə zərərvurma nəticəsində atəş mövqeyində onun toplarla bir yerdə döyüş sursatları da məhv edilib.

Məlum olub ki, düşmənin avtomobil texnikalarının sayının əhəmiyyətli dərəcədə azalması ön xətdəki bölmələrin ərzaq, silah və sursatla təminatında problemlər yaradıb.

Ermənistandan toplanan hərbi vəzifəlilərin Azərbaycanın işğal olunmuş ərazilərinə göndərilməsi prosesi davam edir. Döyüşlərə cəlb etmək məqsədilə 2000 nəfərdən ibarət heyətin toplanması barədə tapşırığın verilməsinə baxmayaraq cəmi 300 nəfəri toplamaq mümkün olub. Hətta bir çox hərbi müqavilələr və polis əməkdaşları cəbhəyə getməkdən imtina edirlər.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd “Osa” ZRK, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 “Qiasint-B” topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd “Konkurs” tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc yaşayış məntəqələrinə hərbi təcavüzü davam edir**

[15:05] 28.10.2020

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc yaşayış məntəqələrinə hərbi təcavüzü davam edir.

AZƏRTAC xəbər verir ki, bunu oktyabrın 28-də ADA Universitetində səfirlər üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Ermənistan hərbi birləşmələri Azərbaycanın Gəncə şəhərində, Bərdə və digər rayonlarında dinc sakinləri atəşə tutur. Dünən Bərdəyə atılan raket nəticəsində biri uşaq olmaqla 4 nəfər həlak olub, 14 nəfər mülki şəxs yaralanıb. Bu gün Ermənistanın daha bir terrorunun şahidi olduq. Onlar Bərdədə dinc sakinləri yenidən atəşə tutublar. Əsasən şəhərin mərkəzinə raket zərbələri endirilib, ölən və yaralananlar var. Bu dünya bəşəriyyətinə qarşı atılan addımdır.

Hikmət Hacıyev bildirib ki, Ermənistan tərəfi, həmçinin dünyanın mədəni irsinə də təcavüz edir. Beynəlxalq humanitar hüququn normalarında da birmənalı olaraq mədəni irsin qorunmasına dair müddəalar var. Ermənistan bu müddəaları da pozur. Biz, ümumiyyətlə, mədəni irsə qəsdin şahidi oluruq. Ermənistanın davam edən təcavüzkarlığı insanlara dünyasını dəyişən qohumlarının məzarlarını ziyarət etməyə də imkan vermir. Qəbiristanlıqlar, qəbirüstü abidələr atəşə tutulur, dağıdılır. Ermənistan işğal olunan ərazilərdə də mədəni, dini abidələri məhv edib. Şuşadakı məscidin dağıdılması bunun bariz nümunəsidir. Müqəddəs məbədlərdə mal-qara saxlayan Ermənistan təkcə insanlara deyil, həm də mədəni irsə təcavüz edir. Münaqişə başlayandan indiyə kimi Azərbaycan UNESCO-nun mədəni abidələrinin qorunması müddəalarına əməl edir. Mədəni abidələrin qəsdən dağıdılması cinayətdir. Hazırda Azərbaycan Silahlı Qüvvələri sülhməramlı niyyətini həyata keçirir, sülhün bərqərar olunmasını istəyir. Ermənistan isə təcavüzünü davam etdirir. Füzuli, Cəbrayıl, Zəngilan və işğaldan azad olunmuş digər ərazilərdə biz bu faktların şahidi olmuşuq. Dini abidələrdə mal-qara saxlamaq da bir qəsddir.

Prezidentin köməkçisi bildirib ki, Gəncə şəhərindəki məbəd də Ermənistan tərəfindən dağıntıya məruz qalıb. Bunu təəssüf hissi ilə qeyd edirik və dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Azərbaycan tərəfindən heç bir mədəni abidə dağıdılmayıb. Əksinə, həmin abidələrin qorunması üçün əlimizdən gələni əsirgəmirik. Əgər bu, davam edərsə, Ermənistan daha çox abidənin dağıdılmasına səbəb olacaq.

**Prezident İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının 13 kəndini işğaldan azad edib**

[16:34] 28.10.2020

Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz**

[20:05] 28.10.2020

Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində mülki əhalimiz arasında xeyli sayda ölənlər və yaralılar var. Azərbaycan Ordusu ilə üzləşməyi bacarmayan qorxaq düşmən bu dəfə də xaincəsinə mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 28-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Bərdə sakinlərinin qisası yerdə qalmayacaq və döyüş meydanında işğalçılara bundan sonra da layiqli cavab veriləcək. Təkcə Bərdəni deyil, ötən müddət ərzində humanitar atəşkəs rejimini kobud şəkildə pozan düşmən Ermənistanın Berd, Çəmbərək, Vardenis və Gorus rayonları ərazisindən və işğal edilmiş ərazilərdən cəbhənin müxtəlif istiqamətlərində yerləşən bölmələrimizin mövqelərini və cəbhəboyu bölgəyə yaxın yaşayış məntəqələrimizi artilleriya qurğularından, o cümlədən "Smerç" və "Qrad" tipli yaylım atəşli reaktiv sistemlərdən atəşə tutub. Bundan başqa, Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində hücuma cəhd edən düşmən bölmələrimizin qətiyyətli zərbəsi ilə itki verərək geri çəkilməyə məcbur edilib. Nəticədə düşmənin xeyli sayda canlı qüvvəsi, bir neçə döyüş texnikası, o cümlədən "Osa" tipli zenit raket kompleksi, "Konkurs" tipli tank əleyhinə raket kompleksi, 3 "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, 2 "Qiasint" topu, 12 artilleriya topu, minaatan və 6 avtomobil texnikası dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünün rəsmi "Twitter" hesabında qeyd etdiyi kimi, həyata keçirilən tədbirlər nəticəsində Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarının ümumi olaraq 13 kəndi azad olunub.

"Ermənistanda hərbi müqavilələr və polis əməkdaşları Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina edirlər. Düşmənin ordu rəhbərliyi şəxsi heyət çatışmazlığını aradan qaldırmaq üçün 2000 nəfərdən ibarət heyətin toplanması barədə göstəriş verməsinə baxmayaraq, heç 300 nəfəri də yığa bilməyiblər. Eyni zamanda, düşmən bölmələrində ərzaq, silah, sursat və nəqliyyat vasitələrinin çatışmazlığı kəskin olaraq özünü büruzə verib.

"Düşmən bilməlidir ki, Azərbaycanda dövlət–xalq-ordu birliyi sarsılmazdır. Heç bir təxribat qələbə əzmimizə və zəfər yolumuza mane ola bilməz. Humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələri ordumuz tərəfindən darmadağın edilib. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

## Müdafiə Nazirliyi: Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib

[08:03] 29.10.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 28-i gün ərzində və 29-na keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub. Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var.

Dünən gün ərzində və gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif tipli topu, bir neçə dayaq məntəqəsi və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

**AZƏRTAC**

**ANAMA: Sentyabrın 27-dən bu günədək Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinə 13 ballistik raket atıb**

[17:22] 29.10.2020

Oktyabrın 28-də Bərdəyə raket zərbəsi endirilib. Agentliyin əməliyyat-axtarış qruplarının apardıqları əməliyyat tədbirləri nəticəsində iki ədəd “Smerç” raketinin qalıqları aşkarlanıb. Həmin 9M525 kaset tipli raketin içində 72 bombacıq olur. Ümumilikdə Bərdədə 144 bombacıq tapılıb. Onların hər birinin tərkibində isə 330 qram partladıcı maddə və 456 qəlpə yerləşir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA) direktoru Qəzənfər Əhmədov Bərdədə təşkil edilən brifinqdə deyib.

O bildirib ki, oktyabrın 27-də Bərdəyə endirilən zərbədə də həmin raketdən istifadə olunub. Bundan əvvəl də Goranboy, Tərtər, Ağcabədi də mülki əhaliyə qarşı istifadəsi beynəlxalq konvensiyalara görə qadağan olunmuş kaset tipli raketlərin qalıqları və bombacıqları ANAMA tərəfindən aşkarlanıb. Eyni zamanda, Füzuli rayonunda ağ fosfor tərkibli partlamamış sursat aşkarlanaraq zərərsizləşdirilib.

ANAMA-nın direktoru qeyd edib ki, ümumiyyətlə, sentyabrın 27-dən bu günədək Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinə 13 ədəd ballistik “Skad” tipli raketlərlə zərbələr endirilib. Həmin raketlərdən ikisi Gəncəyə, biri Mingəçevirə, biri Qəbələyə, biri Kürdəmir ərazisinə düşüb. Bundan başqa Füzuli rayonu ərazisində bir ədəd partlamamış “Toçka-U” raketi aşkarlanıb. Bu gün aparılan əməliyyatlar zamanı da kaset tipli “Smerç” raketinin bombacıqlarını zərərsizləşdiririk.

Eləcə də agentlik tərəfindən sentyabrın 27-dən 24 saat ərzində fəaliyyət göstərən 28 mobil əməliyyat-axtarış qrupları yaradılıb. Agentlik yerli əhalinin təhlükəsizliyi üçün zəruri tədbirləri görməyə davam edir.

**AZƏRTAC**

**Anar Eyvazov: Azərbaycan Ordusunun qarşısında bir hədəf var: işğal altında qalan bütün torpaqlarımızın azad olunması**

[19:50] 29.10.2020

Humanitar atəşkəs rejimini kobudcasına pozaraq şəhər və rayonlarımızda dinc əhalini və mülki infrastrukturu atəşə tutan düşmən bölmələrini Azərbaycan Ordusu cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində gedən döyüşlərdə darmadağın edib. Dəqiq atəş zərbələrinə tab gətirə bilməyən düşmən itki verərək qaçmağa və geriyə çəkilməyə məcbur edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 29-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, ümumilikdə düşmənin ordu korpusunun və diviziyasının yüksək rütbəli zabitləri daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 14 ədəd müxtəlif artilleriya qurğusu, 6 ədəd avtomobil texnikası və bir neçə dayaq məntəqəsi bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib. Döyüş meydanında məhv olan bölmələrinə dəstək üçün gələn düşmənə məxsus iki “Su-25” tipli hücum təyyarəsi hərbi hava hücumundan müdafiə bölmələrimiz tərəfindən havada məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, düşmənin bir neçə istiqamətdə hücum etmək cəhdinin qarşısı qətiyyətlə alınıb. Ermənistan ordusu Bərdə, Goranboy və Tərtər rayonlarında yaşayış məntəqələrimizi və mülki infrastrukturlarımızı raket və artilleriya silahları ilə atəşə tutmaqla növbəti müharibə cinayətlərinə əl atıb.

Özbaşınalığın hökm sürdüyü Ermənistan ordusunda könüllülər və nizami bölmələrinin şəxsi heyəti arasında açıq qarşıdurmalar, tabesizlik, bir-birilərinə qarşı silah tətbiq etmə, döyüşə girməkdən imtina, əmr olmadan mövqelərdən geri çəkilmə və kütləvi fərarilik halları baş alıb gedir. Təşviş və xaos bürümüş ordusunun uğursuzluğunu gizlətmək məqsədilə feyk foto və videomaterialların, saxta məlumatların da faydasız olduğunu görən Ermənistan rəhbərliyi düşdükləri ağır vəziyyətlə barışmağa məcbur edilir.

“Beynəlxalq humanitar hüququn normalarını kobudcasına pozaraq dinc sakinləri və mülki infrastrukturu hədəfə almaqla Ermənistan silahlı qüvvələri müharibə cinayətlərini davam etdirir. Azərbaycan Ordusunun qarşısında bir hədəf var: mülki insanlara ziyan vurmadan, yalnız legitim hərbi hədəfləri dəqiq atəşlə məhv edərək işğal altında qalan bütün torpaqlarımızın azad olunması. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə top mərmisi, raketlər, tank əleyhinə minaları zərərsizləşdirib**

[01:08] 30.10.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər rayonları ərazisinə mərmilərin düşməsi barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 58 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 3 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 61 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hacılar, Palıdlı, Qaraxanlı, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Çəmənli, İkinci Yüzbaşlı, Alıbəyli, Əfətli, Təzəkənd, Ayaq Qərvənd, Üçoğlan kəndləri, Bərdə rayonunun B.Hacıyev, Bakı, Koroğlu, Natavan, Ü.Hacıbəyov küçələri, H.Əliyev prospekti, Mirzalıbəyli kəndi, Cəbrayıl rayonunun Soltanlı kəndi, Füzuli rayonunun Əhmədalılar, Alxanlı, Arayatlı kəndləri, Goranboy rayonunun Tapqaraqoyunlu, Qızılhacılı kəndləri, Tərtər rayonunun Buruc, Düyərli, Köçərli, Ələsgərli kəndləri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 50 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 122 mm-lik top mərmisi (OF-56), 1 ədəd 9N235 bombacığı, 2 ədəd 122 mm-lik raket (9M22U), 225 ədəd tank əleyhinə TM-62P2 minası, 224 ədəd MVP-62 partladıcısı və 44 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd raket, 1 ədəd 9N235 bombacığı zərərsizləşdirilib, mina təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 36 045 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**ANAMA: Döyüş başlıqları, top mərmisi və bombacıq aşkarlanıb**

[07:00] 31.10.2020

Oktyabrın 30-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər, Xocavənd rayonları və Mingəçevir şəhəri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən – 26 (iyirmi altı) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən – 1 (bir) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 27 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Minəxaorlu, Rəncbərlər kəndləri, Ağdam rayonunun Xındırıstan, Üçoğlan kəndləri, Bərdə rayonunun Qarayusifli, Yeni Daşkənd kəndləri, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, Füzuli rayonunun Şükürbəyli kəndi, Haramı düzü adlanan ərazi, Horadiz şəhəri, Goranboy rayonunun Şahməmmədli, Meşəli kəndləri, Tərtər rayonunun Kəbirli, Seyidimli kəndləri, Narlıq qəsəbəsi, Axundov, E.Səfərov küçələri, Xocavənd rayonu ərazisi və Mingəçevir şəhəri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 24 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 122 millimetrlik top mərmisi (OF-56), 2 ədəd mərminin döyüş başlığı, 1 ədəd 9N235 bombacığı, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 24 ədəd partlamış mərmi qalıqları aşkarlanıb.

Agentliyin partlayış qrupu tərəfindən 1 ədəd 9N235 bombacığı zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 min 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**Prezidentə yazırlar: Yürütdüyünüz müdrik və qətiyyətli siyasət nəticəsində qazandığımız uğurlar bizə qürur hissi yaşadır**

[19:30] 31.10.2020

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından məktublar ünvanlanmaqda davam edir.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Türkiyənin Ankara şəhərindən Ali Aras yazır: “Hörmətli cənab Prezident, Sizə Türkiyədən yazaraq eyni kökə, eyni Vətənə malik olduğum üçün fəxr etdiyimi bildirirəm. Sizin haqlı və qürurlu mübarizənizi, maneələri dəf edərək sürətlə irəliləməyinizi qürurla izləyirəm. Azərbaycanla həmrəy, əl-ələ olmağı bildirmək mənim üçün kifayət deyil, mən ikinci Vətənim üçün daha çox şey etmək istəyirəm. Buna görə Sizə müraciət edərək maddi və mənəvi dəstəyə, əlimdən gələn hər şeyi etməyə hazır olduğumu, ehtiramımı bildirirəm”.

Balakən rayonunun sakini Alvina Cumayeva: “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, mən Balakən gəncləri adından yazaraq Sizin siyasətinizi dəstəklədiyimizi bildirirəm. Qəbul etdiyiniz düzgün qərarlar nəticəsində ölkəmizin inkişafı və çiçəklənməsi biz gəncləri də çox sevindirir. Yürütdüyünüz müdrik və qətiyyətli siyasət nəticəsində dövlətimizin qazandığı uğurlar, rəşadətli Ordumuzun zəfərləri, düşmənlərimizə verilən layiqli cavablar bizə qürur hissi yaşadır. Allah Sizi və müzəffər Ordumuzu qorusun! Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!”.

Qazax rayon sakini Bəhlul Yusifov yazır: “Əziz Ali Baş Komandanımız İlham Əliyev, ilk öncə Sizə cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzu edirik. Biz qazaxlılar Sizin müdrik siyasətinizi dəstəkləyirik və daim Sizinlə birlikdəyik. Bütün alınan torpaqlara görə çox-çox minnətdarıq. Cənab Prezident, əminik ki, Sizin Ordumuza dəstəyiniz sayəsində əsgərlərimiz Qarabağ torpaqlarını işğaldan tam azad edərək öz sahiblərinə qaytaracaqlar. Biz Sizə və Ordumuza güvənirik. Yaşasın Ali Baş Komandanımız! Yaşasın Azərbaycan Ordusu!”.

Göyçay rayon sakini Rəşad Allahverdiyev: “Möhtərəm cənab Prezident, bu gün Vətənimizdə gedən bu ağır döyüşlərdə qazanılan uğurlar bir azərbaycanlı kimi məni çox sevindirir. Mən azərbaycanlı olmağımla, Sizin kimi Prezidentimizin olması ilə fəxr edirəm. Bu, həqiqətdir ki, dünyanın bir çox ölkələrinin vətəndaşları Sizin kimi Vətənini sevən, xalqını sevən bir Prezidentlərinin olmasını çox istəyərlər. Sizə bu yolda uğurlar, nailiyyətlər arzulayıram. Daim zirvələrdə olasınız. Sizə sonsuz təşəkkürümü bildirirəm. Qarabağ Azərbaycandır!”.

Füzuli rayon sakini Zaur Səfərovun məktubunda deyilir: “Hörmətli cənab Prezident, 30 ilə yaxındır ki, qəlbimizdə çəkdiyimiz ağrılı-acılı Vətən həsrətimizə son qoyduğunuz üçün Sizə ailəm və öz adımdan dərin təşəkkürümü bildirirəm. Sizə və Azərbaycan Ordusunun hər bir əsgərinə cansağlığı və yeni-yeni uğurlar arzulayıram. İnanıram ki, Sizin rəhbərliyiniz altında qüdrətli ordumuz qələbə qazanacaq və bu qələbə çox yaxındadır. Allah bu haqq yolunda Sizin və xalqımızın yar və yardımçısı olsun. Allah Sizi, xalqımızı və Ordumuzu qorusun! Qarabağ Azərbaycandır!”.

Bakı şəhər sakini Seynur Əsgərli: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, sentyabrın 27-dən indiyədək torpaqlarımız uğrunda gedən döyüşlərdə qazandığınız uğurlara, bu yolda göstərdiyiniz cəsarət və fədakarlığa görə Sizə minnətdarlığımı bildirirəm. Fəxrimizsiniz, cənab Prezident. Sizinlə və Ordumuzla qürur duyuram. Bir əsgər olaraq hər zaman əmrinizə hazıram. Azərbaycan Ordusunun tezliklə qələbə bayrağını Şuşada dalğalandıracağı, tarixi ədalətin bərpa ediləcəyi günü səbirsizliklə gözləyirik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Qubadlı sakini Zaur Cəfərov: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Qubadlı şəhərinin və ətraf kəndlərin işğaldan azad edilməsi xəbərinə o qədər sevindim ki, heç idman sahəsində qazandığım uğurlara görə bu qədər sevinib, qürurlanmamışdım. 2019-cu ildə Finlandiyada ermənilərin də iştirak etdiyi dünya çempionatında ən yüksək nəticə göstərərək qalib oldum, əlimdə üçrəngli müqəddəs Azərbaycan bayrağı ilə fəxri kürsüdə məğlub etdiyim erməni ilə üz-üzə gəldim. Sözün bitdiyi an idi. Gözlərim dolmuşdu, bir tərəfdən uğur qazanmağımın sevinci, digər tərəfdən yaralı Qarabağımız. Bir gözümlə ağlayır, bir gözümlə gülürdüm. Ermənıyə dedim ki, bu qisas qiyamətə qalmayacaq. Siz ermənilər hər sahədə bizə məğlub olmusunuz. Biz Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyirik. Nəhayət əmr verildi, biz onlara yerlərini göstərdik. Cənab Prezident, dildə ifadə edə bilməyəcəyimiz sevinclərə görə Sizinlə fəxr

edirik. Son nəfəsimizə kimi bizim Ali Baş Komandanımız, Prezidentimizsiniz. Yaşasın Azərbaycan! Yaşasın İlham Əliyev! Yaşasın Mehriban Əliyeva! Qarabağ Azərbaycandır!".

Füzuli sakini Tehran Heydarov dövlətimizin başçısına yazır: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, mən bu müharibənin ağırlığını öz çiyinlərində daşıyan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün əsgərlərinə, həmin əsgərləri döyüşə qaldıran komandirlərimizə, açıq döyüş meydanında canlı qüvvə və hərbi texnikaların hərbi nizamnaməyə uyğun idarə olunmasında xüsusi xidməti olan zabit və generallarımıza, Ermənistan silahlı qüvvələrinin mühəndis istehkam xəttinin yarılmasında xidməti olan ordumuza və ən əsası Ermənistanın dövlətçiliyini beynəlxalq aləmin gözü qarşısında heçə endirməyi bacaran Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevə təşəkkür və minnətdarlığımı bildirirəm. Mən əminəm ki, yüksək döyüş qabiliyyətinə malik olan rəşadətli Ordumuz tezliklə işğal altında olan Ağdamda, Şuşada, Laçında, Kəlbəcərdə, Xocalıda və Xankəndidə ay-ulduzlu üçrəngli bayrağımızı dalğalandıracaqlar. Vətənini, Bayrağını, dövlətini və xalqını sevən Azərbaycan Ordusunun əsgərləri açıq döyüş meydanında erməni əsgərlərini tərksilah etməklə onları Azərbaycan xalqı qarşısında diz çökdürəcəklər və Ermənistanın bayraqlarını Azərbaycan xalqının ayaqları altına atmaq kimi müqəddəs bir işin öhdəsindən layiqincə gələcəklər. Allah Sizi və müzəffər Ordumuzu qorusun!".

Göygöl rayon sakini Ayaz Yolçuyev: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bütün xalq Sizin apardığınız siyasəti bəyənir və sonuna kimi arxanızdayıq. Cənab Prezident, ehtiyatda olan gizir kimi Sizdən xahiş edirəm ki, mənim yenidən Silahlı Qüvvələrimizin əsgərləri ilə birlikdə döyüşə getməyimə kömək edəsiniz. Sizin etimadınızı doğruldacağıma söz verirəm. Qələbə bizimdir, zəfər bizimlədir! Qarabağ Azərbaycandır!".

Qubadlı rayon sakini Nərmin Məmmədova: "Müzəffər Ali Baş Komandan, 28 ildir həsrət qaldığımız doğma yurdumuz Qubadlı rayonu Sizin və rəşadətli ordumuzun qətiyyəti sayəsində düşmən tapdağından azad edilmişdir. Bu yolda göstərdiyiniz qətiyyətə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Sevimli Prezidentimiz, döyüş meydanındakı bugünkü zəfərlərin təməli Sizin tərəfinizdən qoyulmuş və rəhbərliyinizlə bu təməl üzərində möhkəm xalq-dövlət birliyi ucaldılmışdır. Bu sarsılmaz milli birlik düşmənin başını əzməkdə davam edir. Cənab Prezident, çox təəssüf ki, həqiqətə kor olmuş dünya gücləri, ermənipərəst dairələr son günlər bütün güclərini ölkəmizə qarşı yönəldərək Sizi haqq işinizdən döndərməyə, qətiyyətli qərarlarınıza təsir etməyə çalışırlar. Amma onların unutduğu, hesaba almadıqları bir vacib nüans vardır. Unudurlar ki, xalq birliyindən güc alaraq haqq-ədaləti təmin edən, milləti qarşısında andına sadiq qalıb Vətənimizin ərazi bütövlüyünü bərpa edən Sərkərdəni, Ali Baş Komandanı qətiyyətindən heç bir qüvvə döndərə bilməz. Sizinlə fəxr edirik, qürur duyuruq. Uca Tanrı Sizi və Ordumuzu qorusun. Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!".

Bakı şəhər sakini Nürəddin Həşimov: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, bu gün bu məktubu Sizə bir Kəlbəcər sakini kimi yazıram. Hələ 1996-cı ilin iyun ayında Rusiya Federasiyasında yaşadığım dövrdə Allah-Təala mənə dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevlə Stavropol vilayətinin Kislovodsk şəhərində diasporumuzun ən fəal bir üzvü kimi görüşməyi nəsib etmişdir. Həmin görüşdə Qarabağ torpaqlarının işğalda olması barədə geniş müzakirələrimiz olmuşdu. Ulu Öndər hələ o zaman görüşdə belə söyləmişdi: "Harada yaşamağımızdan asılı olmayaraq, nə dilimizi, nə də dinimizi unutmayaq. Vahid bir yumruq kimi, hər bir zaman Azərbaycanın yanında olaq". İkinci bir xoşbəxtliyi Allah mənə nəsib etdi, 2014-cü ilin aprel ayında Sizinlə Stavropol vilayətindən gəlmiş nümayəndə heyətinin tərkibində olan bir şəxs kimi Bakı Ekspo Mərkəzində görüşdüm. Bu görüşdə əyani olaraq Sizin nə qədər alicənab, humanist, uzaqgörən bir siyasətçi olduğunuza bir daha əmin oldum. Cənab Ali Baş Komandan, 27 il ərzində bütün varlığımla inanmışam ki, Siz Qarabağ torpağını bu erməni faşistlərindən azad edəcəksiniz. Cənab Prezident, bu sevinci Azərbaycan xalqına yaşatdığınıza görə Sizi səmimi qəlbdən təbrik edirəm, Sizə uzun ömür və möhkəm cansağlığı arzulayıram. Allah Sizə yar olsun. Eləcə də bütün əsgərlərimizi, zabitlərimizi təbrik edirəm. Allah Sizləri qorusun. Şəhidlərimizə Allahdan rəhmət diləyirəm, valideynlərinə başsağlığı verirəm. Şəhidlərimiz bizim hər birimizin, bütövlükdə Azərbaycan xalqının övladlarıdır. Cənab Prezident, mən də Sizin bir əsgəriniz kimi hər bir an torpaqlarımızın azad edilməsi uğrunda ön cəbhədə vuruşmağa, eləcə də işğal altındakı rayonlarımızın azad olunandan sonra yenidən qurulmasında bir fərdi sahibkar, iş adamı kimi iştirak etməyə hazıram. Ən sonunda Azərbaycan xalqına və dövlətinə içimdən gələn bir təklifim var: Ali Baş Komandan cənab İlham Əliyevi ömürlük Azərbaycan Respublikasının Prezidenti elan etmək, Qarabağ torpağında işğaldan azad olunmuş rayonlarımızın hər birində qızıldan büstünü qoymaq!".

Bakı şəhər sakini Nicat Ağayev: “Sevimli Prezidentimiz, mən fəxr edirəm ki, Sizin kimi Prezidentimiz var. Sizin sayənizdə torpaqlarımız işğaldan azad olunur. Siz fövqəladə mükəmməl lider, uzaqgörən və qətiyyətli rəhbərsiniz. Dünya liderlərinin Sizdən öyrənəcəyi çox şey var. Ulu Tanrı Sizi və ailənizi qorusun! Yaşasın Ali Baş Komandan! Yaşasın Azərbaycan Ordusu! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Paytaxtın daha bir sakini Söhbət Bağırov yazır: “Hörmətli Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Siz Azərbaycan tarixində yeni şanlı səhifələr açırsınız. Azərbaycanın tarixi torpaqları olan Qarabağı və onun ətrafında olan əraziləri işğaldan azad edirsiniz. Mən əmin idim ki, biz bir gün mütləq o torpaqlara qayıdacağıq. O gün bu gündür! Sizə gördüyünüz işlərdə uğurlar arzu edirəm. Qələbə bizimdir!”.

Ağcabədi sakini Təzəgül Rəcəbova: “Hörmətli cənab Prezident, mən sadə və zəhmətkeş bir ailədə anadan olmuşam. Atanız məhrum ulu öndər Heydər Əliyevin gördüyü gözəl işlərin şahidi olmuşam. Onun müdrik siyasətini layiqli şəkildə davam etdirdiyinizə görə Sizə təşəkkür edirəm. Əziz Prezidentim, Sizə həmişə duaçıyam. Uca Allahdan Sizə kömək diləyirəm. Allah yardımçınız olsun. Elimiz-obamız Sizin dayağınızdır. Şəhid anaları Sizi öz övladı bilir. Bu müqəddəs yolda Sizə uğurlar diləyirəm”.

**ANAMA cəbhəyanı ərazilərdə əməliyyat-axtarış işlərini davam etdirir**

[06:29] 01.11.2020

Oktyabrın 31-də Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Tərtər və Yevlax rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 25 (iyirmi beş) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən – 1 (bir) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 26 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Arazbar, Hacılar, Kəbirli, Mahrızlı kəndləri, Ağdam rayonunun Xındırıstan, Əhmədağalı, Üçoğlan kəndləri və Qarqar çayının sahili, Bərdə şəhəri Vaqif küçəsi, Füzuli rayonunun Şükürbəyli, Babı, Alxanlı kəndləri və Horadiz şəhəri, Tərtər rayonunun Qaynaq, Yuxarı Qapanlı kəndləri, Şıxarx qəsəbəsi, Bağırov küçəsi, Yevlax rayonunun Kolanı kəndi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 24 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 100 mm-lik top mərmisi (OF-412), 1 ədəd 120 mm-lik minaatan mərmisi (OF-843), 1 ədəd tank əleyhinə idarə olunmayan RPQ-18 silahı (PQ-18 raketi ilə), 1 ədəd tank əleyhinə idarə olunmayan RPQ-26 silahı (PQ-26 raketi ilə), 1 ədəd tank əleyhinə idarə olunan 9K111 silahı (9M111 raketi ilə), 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 25 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Mütəxəssislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezident: Ermənistan öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaq**

[14:47] 01.11.2020

Əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir. Mən hər həftə azad edilmiş yeni şəhərlər və kəndlər haqqında məlumat verirəm və ümid edirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşdə söyləyib.

"Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur. Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəboyu ərazilərdə top mərmisi, raket, radiopelenqator və mərmi qalıqları aşkarlayıb**

[03:24] 02.11.2020

Noyabrın 1-də Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Füzuli, Goranboy və Tərtər ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 14 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş çağırışlar əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Qaradolaq, Hacılar kəndləri, Füzuli rayonunun Arayatlı, Alxanlı, Şükürbəyli kəndləri və Horadiz şəhəri, Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Tərtər rayonunun Buruc kəndi, Şah, Şıxarx, Narlıq qəsəbələri və Ş.İ.Xətai küçəsi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 17 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 1 ədəd 125 mm-lik top mərmisi (OF-26), 1 ədəd idarə olunan raket, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 41 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**Düşmən Füzulini "Smerç" ilə atəşə tutur**

[12:38] 03.11.2020

Ermənistan silahlı Qüvvələri Füzuli şəhərini və ətraf kəndləri "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər.

**AZƏRTAC**

**ANAMA: Ermənistan silahlı qüvvələrinin ərazilərimizə atdıqları fosforlu top mərmiləri, raket zərərsizləşdirilib**

[02:01] 04.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli və Tərtər ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 24 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 1 müraciət daxil olub

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 25 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Minəxorlu kəndi, Ağdam rayonunun Əfətli kəndi, Bərdə rayonu, Füzuli rayonunun Alxanlı kəndi, Tərtər Köçərli, Qaynaq, Qazyan, Səhləbad, Yenikənd kəndləri, Ə.İsmayılov, H.Aslanov, T.Rəhimov küçələrinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 23 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 2 ədəd 122 mm-lik D-4 ağ fosfor (P-4) tərkibli top mərmisi, 1 ədəd 300 mm-lik raket (9M528), 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 25 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd 122 mm-lik D-4 ağ fosfor (P-4) tərkibli top mərmisi, 1 ədəd 300 mm-lik raket (9M528) zərərsizləşdirilib, mina təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

## Baş prokuror Kamran Əliyev: Füzulidə bayraq sancmağa yer qalmamışdı

[11:28] 04.11.2020

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev noyabrın 3-də Böyük Britaniyanın "Reuters" İnformasiya Agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı Baş prokuror Azərbaycan Qoşunlarının Füzuliyə daxil olarkən bayraq sancmağa salamat bina tapa bilmədiyini deyib: "Hərbçilərimiz orada bayraq sancmağa bir yer tapmadı, çünki salamat bina yox idi. SSRİ dövründə böyük bir şəhər olan Füzulidən geriyə yerlə yeksan edilmiş şəhər qalmışdı. Zəngilanda isə yeganə dağıdılmamış bina hərbi qulluqçuların uşaqları üçün nəzərdə tutulmuş məktəb binası idi…".

"Reuters"ə Ermənistanın Azərbaycanın dinc sakinlərinə qarşı törətdiyi cinayətlər barədə ətraflı məlumat verən Baş prokuror, həmçinin bölgədəki 700 tarixi bina və abidələrin əksəriyyətinin dağıdılması faktı ilə bağlı cinayət işi açıldığını qeyd edib.

https://uk.reuters.com/article/uk-armenia-azerbaijan-idUKKBN27J1P7

**AZƏRTAC**

**Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilən kəndlərinin videogörüntüləri**

[17:39] 05.11.2020

Müdafiə Nazirliyi Füzuli və Xocavənd rayonlarının işğaldan azad edilən kəndlərinin videogörüntülərini yayıb.
AZƏRTAC həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**

**FHN-in yanğınsöndürmə qüvvələri işğaldan azad olunmuş ərazidə ilk yanğınsöndürmə əməliyyatı həyata keçirib**

[11:50] 06.11.2020

Noyabrın 5-də düşməndən azad edilmiş Füzuli şəhərində inzibati binanın yaxınlığında açıq sahədə məişət tullantıları yanıb.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, yanğın əraziyə dərhal cəlb olunmuş nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən qısa müddətdə söndürülərək alovun inzibati binaya keçməsinin qarşısı alınıb. Yanğın nəticəsində 50 kvadratmetr sahədə məişət tullantıları yanıb.

Qeyd edək ki, bu, FHN qüvvələrinin işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirdiyi ilk yanğınsöndürmə əməliyyatıdır.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb**

[19:09] 06.11.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla videogörüntüləri təqdim edib.

**AZƏRTAC**

**Hikmət Hacıyev: Füzuli rayonundakı qəbiristanlıqlar ermənilər tərəfindən vandalizm və barbarlığa məruz qalıb**

[20:47] 06.11.2020

Füzuli rayonundakı qəbiristanlıq ermənilər tərəfindən yerlə bir edilib. Qəbiristanlıqlar vandalizm və barbarlığa məruz qalıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabında bildirib.

"Ermənistanın törətdikləri barədə daha çox faktlar və hərbi cinayətlər işğal altındakı torpaqlara baxış zamanı ortaya çıxacaq. Ermənistan Azərbaycanın bütün izlərini silməyə çalışıb", - deyə Prezidentin köməkçisi qeyd edib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 16 kəndi işğaldan azad edib**

[12:31] 07.11.2020

Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” hesabında bildirib.

**AZƏRTAC**

**Anar Eyvazov: Ordumuzun əməliyyatları nəticəsində xeyli itki verən düşmən geri çəkilməyə məcbur olub**

[19:10] 07.11.2020

Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində və Ermənistan ərazisindən Qubadlıda yerləşən bölmələrimizin mövqelərini, o cümlədən Tərtər, Ağdam və Ağcabədi rayonları daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinin susdurulması üçün ordumuz tərəfindən yalnız sərhədlərimiz çərçivəsində adekvat tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 7-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə məlumat verib.

Anar Eyvazov bildirib ki, düşmənin Ağdərə istiqamətində müdafiə olunan 5-ci dağatıcı alayının xeyli sayda şəxsi heyəti, avtomobil texnikası və minaatanları ordumuzun atəş zərbələri ilə məhv edilib. Bu istiqamətdə atış mövqelərinə çıxarılan D-30 haubitsasının şəxsi heyəti bölmələrimizin dəqiq atəşi ilə zərərsizləşdirilib.

Ordumuzun həyata keçirdiyi digər əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının bir taborunun şəxsi heyəti arasında itkin düşənlər var, artilleriya divizionunda isə bir batareyanın topları sıradan çıxarılıb.

Döyüşlər başlayandan indiyədək canlı qüvvə baxımından ağır itkilərə məruz qalan, buna görə də bir müddət əvvəl yerli sakinlər və Ermənistandan cəlb edilən könüllülərlə gücləndirilmiş düşmənin 022-ci xüsusi təyinatlı hərbi hissəsinin şəxsi heyəti bölmələrimiz tərəfindən mühasirəyə alınaraq darmadağın olunub. Qalan xüsusi təyinatlılar tutduqları mövqeləri tərk edərək geri çəkilməyə məcbur ediliblər. Döyüşlərə cəlb olunan Ermənistan silahlı qüvvələrinin 178-ci əlahiddə kəşfiyyat taborunda şəxsi heyətin bir hissəsi bölmələrimiz tərəfindən məhv edilib.

Mətbuat katibi qeyd edib ki, əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə xeyli sayda şəxsi heyət və hərbi texnika itkisi verən düşmən bir qədər də geriyə çəkilməyə məcbur edilib.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocalı və Xocavəndin ümumilikdə 16 kəndi ordumuz tərəfindən işğaldan azad olunub.

“Zəngilanda və işğaldan azad edilmiş digər ərazilərə baxış zamanı əldə olunan sənədlər və digər kəşfiyyat materialları təsdiqləyir ki, Azərbaycan Ordusu təkcə Ermənistan silahlı qüvvələri ilə deyil, həmçinin muzdlu əcnəbilərdən ibarət hərbi qruplaşmalarla da mübarizə aparır. Düşmən bilməlidir ki, nə əcnəbi döyüşçülər, nə də ki hansısa könüllü dəstələr Azərbaycan əsgərini dayandıra bilməz. Sağ qalmaq üçün onların bir yolu var: vaxt itirmədən silahı yerə qoyaraq döyüş meydanını tərk etmək.

Hazırda əməliyyat şəraiti ordumuzun nəzarətindədir. Cəbhənin bütün istiqamətlərində döyüşlər davam edir. Qələbə bizimlədir”, - deyə mətbuat katibi vurğulayıb.

**AZƏRTAC**

**Ermənilərin atdıqları partlamamış hərbi sursatlar, minalar zərərsizləşdirilib**

[07:37] 08.11.2020

Noyabrın 5-dən 7-dək Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Goranboy, Füzuli, Şəmkir, Tərtər rayonları, Gəncə, Naftalan və Yevlax şəhərləri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 94 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 96 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Hacılar, Qaraxanlı, Şənlik, Avşar, Aşağı Avşar, Minəxorlu, Hüsülü kəndləri, Tofiq İsmayılov küçəsi, Ağdam rayonunun Orta Qışlaq, Əfətli, Kolqışlaq, Mirəşelli, Çəmənli, Baharlı, Böyüklü, Sarıcalı, Zəngişalı kəndləri, Baharlı-2 qəsəbəsi, Bərdə rayonunun Yeni Əyricə, Zümürxan, Otuzikilər, İmamqulubəyli, Ərəblər, Nazırlı, Quşçuluq, Əyricə kəndləri, Nüşabə küçəsi, Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndi, Füzuli rayonunun Şükürbəyli, Yuxarı Veysəlli kəndləri, 3-cü və 5-ci Zobcuq qəsəbələri, Şəmkir rayonunun Aşağı Seyfəlli kəndi, Tərtər rayonunun Azad Qaraqoyunlu, Düyərli, Ələsgərli, Qaynaq, Sarıcalı, Yuxarı Sarıcalı, Yenikənd, Köçərli, Keçəlli, Səhləbad, Güyərli, Əskipara kəndləri, Naxır qəsəbəsi, E.Səfərov, H.Aslanov, Vaqif küçələri, Gəncə şəhəri Kəpəz rayonu və Yevlax şəhərinin Aran qəsəbəsində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 77 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 8 ədəd partlamamış hərbi sursat (PHS), 3 ədəd 9N235 bombacığı, 3 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 45 ədəd partlamış mərmi qalıqları aşkarlanıb.

Agentliyin partlayış qrupu tərəfindən 3 ədəd partlamamış hərbi sursat (PHS), 3 ədəd 9N235 bombacığı, mexaniki minatəmizləmə qrupu tərəfindən 25 ədəd piyada əleyhinə mina (24 ədəd PMN və 1 ədəd PMD-6) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezidentə yazırlar: Torpaqlarımızın işğaldan azad olunması uğrunda qazanılan zəfərlərlə adınız Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq**

08.11.2020 [19:29]

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar göndərməkdə davam edirlər. Onlar rəşadətli ordumuzun uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı sevinc hisslərini bölüşür, dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Rusiyanın Krasnoyarsk şəhərindən Afiq Ağayev yazır: "Möhtərəm cənab Prezident, mən Füzuli rayonunda anadan olmuşam. Hazırda Rusiya Federasiyasında, Krasnoyarsk şəhərində yaşayıram. Azad olunan torpaqlara görə Sizə ürəkdən minnətdarlığımı bildirmək istəyir, uzun ömür, cansağlığı, əsgər və zabitlərimizə isə cəsarət və qələbə arzulayıram. Vətəndən uzaqda olsaq da qəlbimiz xalqımızın və Sizin yanınızdadır. Qarabağ Azərbaycandır!"

Özbəkistanın Daşkənd şəhərindən Akif Ağatalıbov: "Müzəffər Ali Baş Komandan, Siz Azərbaycan Respublikasının Prezidenti olaraq Ermənistanı dəfələrlə təxribatçı hərəkətlərə son qoymağa çağırdınız və hər zaman münaqişənin sülh yolu ilə həllinə çalışdınız. Pandemiyaya baxmayaraq, 2020-ci ilin 27 sentyabrından Ermənistan BMT-nin atəşkəsə qarşı qlobal çağırışını pozaraq müstəqil Azərbaycan dövlətinə hücum edib və cəbhə boyu yenidən təxribatlar törədib. Ermənistan silahlı qüvvələrinin məqsədi sülh prosesini pozmaq və Azərbaycanı müharibəyə cəlb etmək idi. Özbəkistanda yaşayan soydaşlarımız da Ermənistanın Azərbaycana qarşı bu təcavüzkar siyasətini həmişə pisləyib. Ali Baş Komandan olaraq Sizin qətiyyətli çıxışlarınızdan və qələbəyə doğru atdığınız addımlardan mənəvi güc alırıq. Dağlıq Qarabağın işğaldan azad olunması uğrunda zəfər qələbənizlə adınız Azərbaycan tarixinə qızıl hərflərlə düşəcək. Bu gün dünya azərbaycanlılarına qələbə daddıran lider olaraq bizə böyük sevinc yaşadırsınız. Dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı Sizi özünə lider bilir. Möhtərəm Prezident, 30 ildən artıq Özbəkistanda yaşayan diaspor rəhbəri olaraq əminliklə bildirirəm ki, soydaşlarımız Sizin daxili və xarici siyasətinizi dəstəkləyirlər. Biz istər Özbəkistan, istərsə də digər Orta Asiya respublikalarında Azərbaycanla bağlı müxtəlif tədbirlər keçirib ölkəmizin həqiqətlərini Orta Asiya respublikalarına çatdırmışıq. Özbəkistanda Azərbaycan həqiqətlərinin yerli ictimaiyyətə çatdırılması, azərbaycançılıq ideyasının, milli-mədəni irsimizin təbliği, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı çox mühüm işlər görmüşük. Bu gün də Vətənim Azərbaycan üçün əlimizdən gələni etməyə çalışırıq. Şəxsən mənim 62 yaşım olmasına baxmayaraq, Sizin Ali Baş Komandan olaraq əmrinizlə Qarabağ uğurunda savaşa gedib Vətənimi qorumağa hazıram".

Bakı şəhərindən Səfa Ağamaliyev: "Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyiniz altında Ordumuzun Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını və digər torpaqlarımızı erməni faşistlərindən azad etməsi bizə qürur verir. Bu sevincli günləri bizə bəxş etdiyiniz üçün Sizə sonsuz minnətdarlığımı və təşəkkürümü bildirirəm. Bu haqq yolunda uğurlarınız bol olsun. Qarabağ Azərbaycandır!"

Ağdam sakini Şakir Məhərrəmov: "Hörmətli cənab Prezident, həmişə namərdcəsinə hücum edən ermənilər bu dəfə layiqli cavab aldılar. Sizin dünya səviyyəli siyasətçi kimi illərdən bəri möhkəmləndirdiyiniz ordu, iqtisadiyyat və xalq birliyi bu əks-hücumu Vətən müharibəsinə çevirdi. Xalqını, ölkəsini çox sevən Prezidentimiz, Siz hamımızın sevimlisisiniz. Layiqli sərkərdəliyiniz sayəsində şanlı Ordumuz işğal altında olan torpaqların xeyli hissəsini azad edib və bu müqəddəs işi davam etdirir. Əminik ki, qətiyyətiniz və əzminiz sayəsində bütün torpaqlarımız azad olunacaq. Ağdamın da cəbhə xəttində yerləşən kəndlərinin sakinləri bu günləri gözləyir. Allah Sizi və əsgərlərimizi qorusun!".

Naftalan şəhərindən Kubra Məmmədova: "Əziz Prezidentim, Müzəffər Ali Baş Komandanım, mən hər zaman Azərbaycan vətəndaşı olmağımla fəxr etmişəm. İndi bizləri zəfərlərə aparmağınız isə daha çox qürurvericidir. Sizin kimi qəhrəman bir sərkərdənin Prezidentimiz olması ilə fəxr edirik. Sizin rəhbərliyinizlə müzəffər Ordumuzun son günlər bizlərə yaşatdığı sevinc anlarını sözlə ifadə etmək mümkün deyil. Sizin sayənizdə tarixi torpaqlarımıza qovuşuruq. Tezliklə bütün Qarabağı düşmən tapdağından azad edəcəyinizə əminik. İnşallah, Azərbaycanın müqəddəs üçrəngli bayrağı o torpaqlarda əzəmətlə dalğalanacaq. Allah Sizi və Ordumuzu qorusun!".

Göygöl rayonundan Səidə Əlizadə: "Cənab Prezidentimiz, hörmətli İlham Əliyev, xalqımızın bu çətin günlərində bizə verdiyiniz mənəvi gücə görə Sizə təşəkkür edirəm. Ailəmizlə birlikdə səbirsizliklə

torpaqlarımızın azad olunma xəbərini Sizdən eşitməyi gözləyirik. Torpaqlarımızın azad olunduğu bu günlərdə keçirdiyimiz fərəh hissi və sevinc göz yaşları əvəzolunmazdır, müqəddəsdir. Bu hissləri bizə yaşatdığınız üçün Sizə çox minnətdarıq. Azərbaycan Respublikasının vətəndaşı olaraq demək istəyirəm ki, Sizin siyasətinizi dəstəkləyirik və hər zaman yanınızdayıq. Allah qüdrətli Ordumuzu və Sizləri qorusun. Allaha əmanət olun cənab Prezident!".

Beyləqan sakini Ramiz Ağayev: "Hörmətli Prezident, müzəffər Ali Baş Komandan, mən öz Prezidenti ilə fəxr edən 63 yaşlı dəmiryolçuyam. Qürur duyuram ki, Azərbaycanımızın Sizin kimi Ali Baş Komandanı var. Uzun illərdir, xalqımızın gecə-gündüz xəyal etdiyi Qarabağ torpaqlarının işğaldan azad edilməsi arzusunu öz cəsarətiniz sayəsində məhz Siz həyata keçirirsiniz. Bu müqəddəs işinizə görə bütün Azərbaycan Sizinlə fəxr edir. Erməni faşistlərindən xalqımızın intiqamını almaqla və tarixi ərazilərimizi qaytarmaqla adınızı tarixə qızıl hərflərlə yazırsınız. Siz Qələbə gününü xalqımıza elan edən günə Allah yolunda qurban demişəm. Allah Sizə ömür versin və müzəffər Ordumuzu qorusun!".

Gəncə şəhərindən Məhbubə Tahirova: "Hörmətli cənab Prezident, Sizin yürütdüyünüz müdrik siyasət öz bəhrəsini verir. Heç vaxt münaqişənin sülh və danışıqlar yolu ilə həllində maraqlı olmayan ermənilər hazırda cəbhədə apardığımız müharibədə dövlətimizin, xalqımızın, ordumuzun gücünə bələd olurlar. Özlərinin bizim qarşımızda nə qədər aciz və zəif olduqlarını yaxşı başa düşürlər. Sizin uzaqgörən siyasətiniz nəticəsində dövlətimizin siyasi və iqtisadi baxımdan inkişafı ordumuzun da güclənməsinə səbəb oldu. Vətən müharibəmizdə müzəffər Ali Baş Komandanımızın və güclü ordumuzun sayəsində biz qalib gəlirik. İnşallah, işğal altındakı bütün torpaqlarımızı, Qarabağımızı tezliklə düşməndən geri alacağıq. Hörmətli Prezidentimiz, Siz Azərbaycanımızın baş tacısınız. Azərbaycan xalqı Sizinlə fəxr edir, hər zaman Sizin arxanızdadır. Bu haqlı savaşımızda bizə mənəvi dəstək olduğu üçün Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana da təşəkkür edir, qarşısında baş əyirəm. Cənab Prezident, bir vətəndaş kimi Sizdən xahişim var, istərdim ki, erməni vandalları tərəfindən Gəncədə, Bərdədə və digər bölgələrimizdə raket hücumu nəticəsində dağıdılmış yaşayış yerlərində erməni terrorunun qurbanlarının xatirəsini əbədiləşdirmək üçün park salınsın və abidə ucaldılsın. Bizdən sonra gələn gənc nəsil də erməni terrorunu daim xatırlasın. Əziz Prezidentim, mən Sizinlə qürur duyuram. Siz Azərbaycanın fəxrisiniz. Vətənimiz, xalqımız üçün yorulmaz fəaliyyətinizə görə Sizə öz təşəkkürümü bildirirəm, qarşınızda baş əyirəm. Qələbə bizimdir! Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!".

Şəkidən Rafiq Əskərov: "Müzəffər Ali Baş Komandan, mən yeritdiyiniz məqsədyönlü siyasət, xalqımıza yaşatdığınız bu gözəl günlər üçün qarşınızda baş əyirəm. Cənab Prezident, mən 1992-ci ildə 15 yaşım olarkən evdən qaçıb Füzuli istiqamətində gedən döyüşlərə qatılmışam. Günü bu gün də hərbiyə gedərək son damla qanımadək vuruşub, şəhidlik zirvəsinə çatmağı özümə borc bilirəm. Vətən tarixinin şanlı səhifələrini mən də qanımla yazmaq və bu şərəfli Vətən müharibəsində iştirak etmək istəyirəm. Qaydasız döyüşlə məşğul oluram. Düşmənin genində mərdlik nişanəsi heç zaman olmayıb. Erməni vandallarını torpağımızdan qovmaq mənim ən böyük arzumdur. Sizinlə fəxr edirik!".

Gəncə şəhərindən Nəvai Kərimov: "Hörmətli Prezidentimiz, Müzəffər Ali Baş Komandan, bizə uzun illərdən sonra qalib ölkə vətəndaşı hissini yaşatdığınız üçün Sizə şəhid ailələri adından dərin minnətdarlığımı bildirirəm. Bu haqq-ədalət mübarizəsində Sizə və Ordumuzun qəhrəman zabit və əsgərlərinə cansağlığı və böyük uğurlar arzu edirik. Çox yaxında Sizdən böyük qələbə xəbərini eşidəcəyimizə əminik. İnanırıq ki, bütün şəhidlərimizin intiqamını alacaq, onların qanını yerdə qoymayacaqsınız. Tanrı Azərbaycanın müdrik Ali Baş Komandanını və rəşadətli Ordusunu qorusun!".

Ağstafa rayonundan Aygün Dilbozova: "Çox hörmətli cənab Prezident, mən və işlədiyim Qazax Suvarma Sistemləri İdarəsinin kollektivi bir vətəndaş olaraq bu çətin və şərəfli günlərdə Sizə təşəkkür etməyi özümüzə borc bilirik. Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən müharibədə apardığınız müdrik və qətiyyətli siyasətiniz nəticəsində Ali Baş Komandanı olduğunuz rəşadətli Ordumuz düşmənə layiqincə cavab verir. Sizə dərin təşəkkürümüzü bildiririk. Əziz Prezidentimiz, Allah Sizi xalqımızın üstündən əskik etməsin, var olasınız. Uca Tanrı Sizi Azərbaycan xalqına çox görməsin. Sizin yürütdüyünüz daxili və xarici siyasəti ürəkdən bəyənirik, Sizi hər zaman dəstəkləyirik. Azərbaycan xalqı xoşbəxtdir ki, Sizin kimi Prezidenti var. Əminik ki, tezliklə cəbhədən gələn sevindirici qələbə xəbərlərini bizə çatdıracaqsınız. Torpaqlarımız tez bir zamanda işğaldan azad olunacaq və üçrəngli bayrağımız Qarabağda dalğalanacaq. Qarabağ Azərbaycandır!".

Tovuzdan Çingiz Səfərov: "Möhtərəm cənab Prezident, Ulu Öndərin layiqli davamçısı, müzəffər Ali Baş Komandan, Azərbaycan xalqının əbədi xilaskarı, məğlubedilməz liderimiz, biz həmişə Sizinlə fəxr etmişik. Azərbaycan dövlətinin Sizin kimi qürurlu, yenilməz bir sərkərdəsi var. Azad edilmiş torpaqlarda

Azərbaycan bayrağının dalğalanması barədə kadrları izlədikcə ürəyimiz qürurla dolur. Zəfər xəbərləri xalqımızı yeni qələbələrə ruhlandırır. Mən hər gün Sizin üçün dua edirəm. Allahdan Sizi qorumasını diləyirəm. Bugünkü qələbələr Sizin illərdən bəri yürütdüyünüz müdrik siyasətinizin nəticəsidir. Mən Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmişəm, Qarabağ müharibəsi veteranıyam. 1992-ci ildən 2007-ciillədək Azərbaycan Respublikası Silahlı Qüvvələrində xidmət etmişəm. Kəlbəcərdə, Ağdərədə, Ağdamda, Füzulidə gedən döyüşlərdə torpaqlarımız uğrunda mübarizə aparmışam. Bu gün ehtiyatda olan hərbçi (gizir) kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmək üçün Tovuz Rayon Hərbi Komissarlığına və Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciət etmişəm. Vətənim üçün vuruşmağa hər an hazıram. Düşmən tapdağındakı torpaqlarımız azad edildikcə biz qürurlanırıq. İnşallah, tezliklə xalqımız böyük qələbə sevincini yaşayacaq. Biz Sizə inanırıq və sona qədər düşmənlə mübarizə aparmağa hazırıq. Bütün xalqımız bu qələbələrin davamlı olacağına, üçrəngli bayrağımızın Şuşa qalası üzərində dalğalanacağına əmindir. Gün o gün olsun ki, Azərbaycan Ordusunun təntənəli hərbi keçidini Laçında, Şuşada, Xankəndidə izləyək. Xalqımızın rifahı naminə Sizə və ailənizə cansağlığı, yeni-yeni uğurlar arzulayıram. Yaşasın Azərbaycan!”.

Qobustan sakini Gülrux Qabulova: “Çox hörmətli Prezident, 70 yaşlı xəstə, əlil qadın olsam da Sizdən işğaldan azad olunmuş yerlərin adlarını eşidən zaman ürəyim dağa dönür, hətta fərəhdən bütün ağrı-acımı unuduram. Siz 30 ildir torpaq həsrəti ilə solmuş kədərli gözlərə nur, sevinc verdiniz. Sizin rəhbərliyiniz altında Ordumuz düşmənin başına od yağdırır. Bu tarixi günlərdə silsilə çıxışlarınızı heyranlıqla dinləyir və fəxarət hissi keçirirəm. Nə yaxşı ki, bizim Sizin kimi qüdrətli Prezidentimiz, Ali Baş Komandanımız var. Möhtərəm Prezidentimiz, hər bir azərbaycanlı Sizinlə fəxr edir, çünki Siz şanlı tarix yazırsınız. Bu haqq işinizi sona çatdırmaqda Tanrı yardımçınız olsun, var olun! Allah Sizi və Vətənin müdafiəsində şücaət göstərən Ordumuzu qorusun!”.

Füzuli sakini: Ənvər Əliyev: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, mən Füzuli rayonunun düşmənlə təmas xəttində yerləşən Alıxanlı kənd orta məktəbində riyaziyyat müəllimi işləyirəm. Sizin də qeyd etdiyiniz kimi artıq təmas xətti yoxdur. Artıq biz məcburi köçkün deyilik. Biz füzulililər Sizə və Milli Ordumuza güvənib illərlə burada yaşadıq. Bu gün Siz yeni tarix yazırsınız. Həm də ən şərəfli, ən gözəl yeni tarix. Biz də şagirdlərimizdə vətənpərvərlik hissi oyadaraq, onları Vətənə layiqli bir övlad kimi yetişdirməyə çalışırıq. Lazım gələrsə qələmi silaha dəyişməyə, Sizin rəhbərliyiniz altında döyüşməyə həmişə hazırıq. Uca Yaradan Sizi, qüdrətli Ordumuzu qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Ağdaş rayon sakini İlham Beydullayevin məktubunda deyilir: “Çox hörmətli cənab Prezident, Dağlıq Qarabağda işğal altında olan torpaqlarımızın qəddar düşməndən azad edilməsi uğrunda Sizin rəhbərliyiniz altında Azərbaycan Ordusunun ard-arda qazandığı qələbələr hər birimizi sevindirir, bizdə böyük ruh yüksəkliyi yaradır. Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi Ağdaş rayon şöbəsinin veteranları hər an Sizin yanınızdadır. Ana Vətənimiz üçün hər cür fədakarlığa hazırıq və bundan şərəf duyuruq. Təki doğma Vətənimizin işğal altında olan torpaqları erməni vandallarından azad olunsun. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti olaraq Siz ümummilli liderimiz Heydər Əliyevin “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, işləri sizin köməyinizlə və dəstəyinizlə İlham Əliyev başa çatdıracaq. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” sözlərinə sadiq qalaraq, ərazi bütövlüyümüzün bərpası yolunda, xalqımızın bu günü, gələcəyi üçün yorulmadan çalışırsınız. İnanırıq ki, Sizin və güclü Ordumuzun sayəsində Azərbaycanın işğal olunmuş əraziləri tezliklə azad olunacaq, həsrətlə gözlədiyimiz Böyük Qələbəni alqışlarla qeyd edəcəyik. Sizə və qəhrəman əsgərlərimizə minnətdarlığımızı bildiririk. Allah Sizlərə bu çətin və şərəfli işinizdə yardımçı olsun. Qələbə bizimlədir! Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan xalqı və onun Prezidenti!”.

Qəbələ sakini Əlibala Məmmədov: “Müzəffər Ali Baş Komandan, şanlı ordumuzun cəbhədə əldə etdiyi qələbələr münasibətilə Sizi və əsgərlərimizi təbrik edirəm. Allah Sizi və döyüşçülərimizi qorusun. Sizin gördüyünüz işlər sayəsində Azərbaycan sürətlə inkişaf edərək hazırkı qüdrətli səviyyəsinə gəlib çatmışdır. Belə Ordunun formalaşdırılması sözsüz ki, böyük müdriklik, zəhmət və vəsait tələb edir. Ölkəmizin bu günü və parlaq gələcəyi Sizin adınızla bağlıdır. Sizə hər zaman uğurlar arzulayıram”.

Samuxdan İxtiyar Ağazadə: “Möhtərəm Prezident, Siz hər dəfə xalqımızın qarşısında çıxış etdikdə insanlarda gələcəyə inam yaradırsınız. Biz bütün dünyaya haqlı və güclü olduğumuzu sübut edirik. Sizin rəhbərliyinizlə ordumuz ölkəmizin ərazi bütövlüyünü təmin etməkdədir. Buna görə Sizə və qəhrəman

əsgərlərimizə təşəkkür edirəm. Sizə cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”.

Tərtərdən Yeganə Sultanova: “Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizi Tərtər şəhərindən salamlayır, Ordumuzun ardıcıl qələbə nailiyyətləri münasibətilə təbrik edir, haqq savaşında Sizə davamlı uğurlar arzulayırıq. İnanırıq ki, çox yaxında Sizin iştirakınız ilə doğma Qarabağımızın hər bir guşəsində qələbəmizi təntənəli şəkildə qeyd edəcəyik. İnşallah! Sizə, əsgər və zabitlərimizin hər birinə cansağlığı, yeni-yeni müvəffəqiyyətlər arzu edirəm. Biz Sizinləyik, Sizin daima yanınızdayıq. Eşq olsun Ali Baş Komandana, Eşq olsun müzəffər və rəşadətli Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”.

**AZƏRTAC**

**ANAMA tərəfindən ermənilərin atdıqları partlamamış hərbi sursatlar zərərsizləşdirilib**

[07:37] 09.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Cəbrayıl, Füzuli, Goranboy, Tərtər, Xocavənd rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 19 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş çağırışlar əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Avşar, Mirəşelli, Taxtakörpü, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Əfətli, Üçoğlan kəndləri, Beyləqan rayonunun Milabad kəndi, Cəbrayıl rayonunun Mehdili kəndi, Füzuli rayonunun Alxanlı, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Kərimbəyli kəndləri və Horadiz şəhəri, Goranboy rayonunun Meşəli kəndi, Tərtər rayonunun Yenikənd, Çaylı, Seyidimli kəndləri və Şıxarx qəsəbəsi, Xocavənd rayonunun Ağoğlan qəsəbəsi ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 29 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 19 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd piyada əleyhinə mina, 296 ədəd tank əleyhinə mina, 21 ədəd tank əleyhinə minanın partladıcısı, 168 qram qara barıt, 903 ədəd müxtəlif çaplı patronlar, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 21 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 2 ədəd partlamamış hərbi sursat (PHS), 1 ədəd 9N235 bombacığı, mexaniki minatəmizləmə qrupu tərəfindən 1 ədəd piyada əleyhinə mina (PMN) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəsislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Müzəffər Azərbaycan Ordusu daha 23 kəndi işğaldan azad edib**

[13:48] 09.11.2020

Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

**AZƏRTAC**

**İşğaldan azad olunmuş ərazilərdə aparılan ekoloji monitorinqlərin nəticələri: minillik qədim ağaclar məhv edilib**

[16:47] 09.11.2020

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə yaradılmış Əməliyyat qərargahlarında təmsil olunan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlərə başlayıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, Arazboyu ərazilərdə aparılan monitorinq və müşahidələr göstərib ki, bütün evlər, binalar, tarixi abidələr, qəbristanlıqlar tamamilə dağıdılıb, yolların kənarındakı tut, qovaq, çinar, şam və meyvə ağacları kəsilib, bəzi yerlərdə isə tamamilə yandırılıb.

Meşələrdə və yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilib.

Erməni vandallığını sübut edən faktlardan biri də, keçmiş Sovet dövründən xüsusi qorunma statusu olan unikal təbiət abidələri siyahısına daxil edilmiş minillik qədim ağacların qəsdən kəsilməsi və zəngin təbiət tarixinin bilərəkdən silinməsinə şərait yaradılmasıdır. Belə ki, bir neçə gün ərzində aparılan monitorinqlərin nəticələrinə görə, Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarlarının məhv edildiyi müəyyən olunub. Bu ağacların yerində bitən 2 metrə qədər pöhrələr bu qədim çinarların bir neçə il əvvəl kəsildiyini təsdiq edir.

**AZƏRTAC**

**FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin yerli strukturları işğaldan azad olunmuş ərazilərdə fəaliyyətə başlayıb**

[17:24] 09.11.2020

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (FHN) işğaldan azad edilmiş ərazilərimizdə müvafiq strukturlarının təşkilinə başlayıb.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, artıq nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin Füzuli rayon Dövlət Yanğından Mühafizə Hissəsi Füzuli şəhərində fəaliyyətə başlayıb. Həmçinin Xocavənd rayonunun Hadrut qəsəbəsində FHN Dövlət Yanğından Mühafizə Xidmətinin yerli strukturunun xidməti təşkil olunub. Hər iki məntəqə xidmətin yüksək səviyyədə həyata keçirilməsi üçün müvafiq texnika və avadanlıqlarla təchiz edilib.

**Beynəlxalq Türk Akademiyasının prezidenti Şuşa zəfəri münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib**

[22:42] 09.11.2020

Beynəlxalq Türk Akademiyasının Prezidenti Darxan Kıdıralı qədim Şuşa şəhərinin işğaldan azad olunması və Azərbaycanın Dövlət Bayrağı Günü münasibətilə xüsusi məqalə hazırlayıb. Məqalədə Darxan Kıdıralı Azərbaycan Prezidenti İlham Əliyevi və xalqımızı təbrik edib.

AZƏRTAC məqaləni təqdim edir:

"Qələbəniz mübarək, qalib Prezident!

Böyük xalqlar dünyaya dahi şəxsiyyətlər bəxş edir, dahilər isə tarixi yaradır. Türk xalqları tarix boyunca dünya sivilizasiyasına, onun inkişafına istiqamət verən nəhəng şəxsiyyətlər qazandırmışdır. Bu baxımdan, Azərbaycan xüsusi olaraq seçilib, türk dünyasında bir çox ilklərə imza atmışdır.

Şərqlə Qərb, Şimalla Cənub arasında körpü rolunu oynayan, tarixi İpək Yolunun önəmli kəsişmə nöqtələrindən biri olan Azərbaycanda ədəbiyyat, elm, sənət və sənətkarlıq yüksək səviyyədə inkişaf etmişdir. Həm Orta əsrlərin İntibah dövrü, həm də son 200 ildə cədidçilik və maarifçilik hərəkatının meydana çıxması və yayılmasında bu türk dövlətinin əvəzsiz rolu olmuşdur. Bu da öz növbəsində milli düşüncənin, idarəçilik təfəkkürünün inkişafında əhəmiyyətli rol oynamışdır.

Hələ XIX əsrdə əlifba islahatları ideyasının ortaya çıxması, bütün müsəlman Şərqində ilk demokratik respublikanın yaradılması, müasir musiqinin, Şərqdə ilk opera və baletin, teatrın əsasının Azərbaycanda qoyulması, neft bumu nəticəsində sənayenin sürətli inkişafı qonşu ölkələrin də həyatına ciddi təsir etmişdir.

Tarixi şərait və coğrafi üstünlüklərdən böyük məharətlə faydalanan Azərbaycan xalqı nəticə etibarilə inkişafın davamlılığını və sistemliliyini təmin edə bilmişdir. Bütün bunların nəticəsidir ki, bu gün Azərbaycan dövləti yenə də tarix səhnəsindədir və yeni ilklərə, qələbələrə imza atmaqda davam edir. Heç şübhəsiz ki, bu uğurların mənbəyi xalq, memarı isə Prezidentdir.

Bu tarixi günlərdə qardaş Azərbaycanda baş verənlər bütün türk dünyası tərəfindən böyük həyəcan və maraqla izlənməkdədir. Azərbaycan dövləti öz sərkərdəsi, Ali Baş Komandanının rəhbərliyi ilə yeni tarix yaradır. Amma bu tarix adi bir tarix deyil. Bu, illərdir gözlədiyimiz bir qalibiyyətin tarixi, ədalətin təntənəsidir.

Azərbaycandan aldığımız xoş xəbərlər, 30 ildir işğal altında inləyən müqəddəs torpaqların, şəhər və kəndlərin bir-birinin ardınca azad olunması, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı zəfərlərinin Şuşa şəhərinin işğaldan qurtarılması ilə taclandırılması böyük Qələbənin müjdəsi oldu. Bütün türk dünyasının musiqi beşiyi, Azərbaycanın mədəniyyət paytaxtı, Qafqazın incisi tarixi Şuşa şəhərinin işğaldan azad edilməsi ilə xalqın milli-mənəvi dəyərlərinin məhv olmasının qarşısı alındı, millət yenidən mənəvi istiqlalına qovuşdu.

Təbii ki, bu qələbə asan başa gəlmədi. Minlərlə igid oğul və qızlarımızın həyatını qurban verdiyi bu yolda dövlət başçısının nə qədər böyük əzm nümayiş etdirdiyini gördük. Azərbaycanın 30 ilə yaxınlaşan müstəqillik dövrünün, xüsusilə İlham Əliyevin prezidentlik müddətinin təhlili dövlət başçısının bu qalibiyyət üçün nə qədər böyük səbir, yüksək iradə, böyük müdrikliklə çalışdığını göstərir. Prezident İlham Əliyev inanılmaz peşəkarlıq nümunəsi ortaya qoymuş, bütün məqamları incəliklə hesablamış, nəinki özünü, bütün xalqı böyük Qələbəyə həm fiziki, həm psixoloji həm də mənəvi cəhətdən hazırlamışdır.

Bu böyük Qələbə Prezident İlham Əliyevin yorulmaz əməyinin, illər boyu müdrikcəsinə formalaşdırdığı xarici siyasət və diplomatiyanın, sarsılmaz daxili harmoniyanın, Azərbaycan xalqının birlik və bərabərliyinin məhsuludur.

Əcdadlarımız təsadüfən deməyiblər ki, "Həqiqət incələr, amma qırılmaz". Ortaq tariximizdə milli kimliyimizi, suverenliyimizi və torpaqlarımızı qoruyan, ədaləti təmin edən Bilgə xaqanlar, atatürklər hər zaman olmuşdur və bu gün Prezident İlham Əliyevin timsalında bundan sonra da olacağına şahidlik etməkdəyik. Azərbaycan dövləti ortaya qoyduğu qətiyyətlə yalnız müqəddəs torpaqları düşmən tapdağından qurtarmadı, haqsızlıqların, ikili standartların hökm sürdüyü dünyada həqiqəti, ədaləti də tamamilə ölməkdən, yox olmaqdan xilas etdi!

Dövlət başçısının yüksək əzmi sayəsində qardaş Azərbaycan xalqı tarixinin ən böyük zəfərlərindən birinə şahidlik etmiş oldu. Prezident İlham Əliyev bu addımı ilə atası, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək xalqın qəlbinin fatehi oldu, tarixə qalib Prezident kimi düşdü! Əminəm ki, tarix onun xidmətlərini heç zaman unutmayacaq.

Beynəlxalq Türk Akademiyası olaraq bu tarixi günlərdə biz də qardaş Azərbaycan xalqı ilə birlikdə olmaqdan fəxarət hissi duyuruq. Çünki Azərbaycanın məsələsi bütün türk dünyasının məsələsidir. Füzuli şəhərinin azad olunduğu gün – oktyabrın 17-də və Azərbaycanın Dövlət Müstəqilliyi Günü məhz Türk Akademiyasının təşəbbüsü ilə Qazaxıstanın paytaxtı Nur-Sultanın mərkəzindəki ən böyük ekranda Azərbaycan bayrağı nümayiş etdirildi. Gəncə və Bərdə kimi mülki yaşayış yerlərinə xain hücumları qınadıq. Qarabağ, onun tarixi, mədəniyyəti, təbiəti ilə bağlı məlumatların, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul olunan sənədlərin yer aldığı kitab-fotoalbom nəşr edən ilk beynəlxalq təşkilat olduq. Müqəddəs Şuşa şəhərinin dünya mədəniyyətinə bəxş etdiyi onlarca böyük şəxsiyyətdən Üzeyir Hacıbəylinin 135, Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyləri Beynəlxalq Türk Akademiyasının fəaliyyət planına daxil olundu. Təbii ki, yuxarıda qeyd edilənlər, sadəcə, Azərbaycan dövlətinin, xalqının böyük Qələbə sevincinə şərik olmağa çalışmağımızın göstəricisidir.

Beləliklə, türklər yalnız tarix yaratmır, həm də tarixi yazırlar. Bu gün qardaş Azərbaycan xalqı bunun əyani örnəyini ortaya qoymaqdadır. Qəhrəman Azərbaycan xalqını bu önəmli gün, tarixi zəfər, eyni zamanda, Dövlət Bayrağı Günü münasibətilə təbrik edir, ölkənin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərin ruhunu ehtiramla yad edir, onlara Allahdan rəhmət, yaralılara şəfa diləyirəm. Qoy, ədalətli qələbəmiz daimi olsun, Azərbaycan bayrağı ölkənin hər yerində dalğalansın!”.

**AZƏRTAC**

**Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib**

[06:39] 10.11.2020

Noyabrın 9-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, İmişli, Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən – 18 (on səkkiz) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən – 1 (bir) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 19 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Göyük, Hacılar, Yuxarı Qiyaməddinli kəndləri, Ağdam rayonunun Şükürağalı, Xındırıstan, Zəngişalı kəndləri, Beyləqan rayonunun Milabad kəndi, Füzuli rayonunun Alxanlı, Əhmədalılar, Əhmədbəyli kəndləri, İmişli rayonunun Xəlfəli kəndi, Tərtər rayonunun Azad Qaraqoyunlu, Düyərli, Seydimli, Yuxarı Sarıcalı kəndləri, Şıxarx qəsəbəsi, Axundov və Cavanşir küçələri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 32 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 131 ədəd partlamamış hərbi sursat (PHS), 65 ədəd bombacıq, 249 ədəd tank əleyhinə mina, 252 ədəd tank əleyhinə minanın partladıcısı, 8647 ədəd müxtəlif çaplı patronlar, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 36 ədəd boş avtomat darağı, 2 ədəd dron və 58 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 130 ədəd partlamamış hərbi sursat (PHS), 65 ədəd bombacıq zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 min 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Misirli professor: Azərbaycanın tarixi Qələbəsi 30 il əvvəl işğal edilmiş torpaqlara qayıdış hüququnun bərpa olunmasıdır**

[21:23] 10.11.2020

Mən Azərbaycan Prezidenti İlham Əliyevi, doğma Azərbaycan xalqını tarixi Qələbə münasibətilə təbrik edirəm. Bu qələbə azərbaycanlıların Ermənistan tərəfindən 30 il əvvəl işğal olunmuş torpaqlara qayıdış hüququnun bərpasıdır.

Bu sözləri AZƏRTAC-ın müxbirinə müsahibəsində Misirin Həlvan Universitetinin professoru, politoloq Adel Dərviş söyləyib.

O bildirib: "Mən hələ iyulda sizə verdiyim müsahibədə qeyd etmişdim ki, hərbi təxribatlara əl atan Ermənistan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı deyil. Onu da bildirmişdim ki, COVID-19 pandemiyası dövründə dərin böhran keçirən Ermənistanın baş naziri bu təxribatlarla öz xalqının diqqətini yayındırmaq istəyir. Lakin hər şeyin sonu olduğu kimi, bu təhlükəli oyunların da axırı gəlməli idi. Ermənistanın sentyabrın 27-də hərbi təxribatından sonra başlayan döyüşlər işğalçı ölkənin təslim olması ilə başa çatdı. Mən Şuşa, Füzuli, Zəngilan, Cəbrayıl şəhərlərinin, 300-dən çox yaşayış məntəqəsinin cəmi 40 gün ərzində işğaldan azad edilməsini böyük hərbi zəfər hesab edirəm. Ümidvaram ki, Dağlıq Qarabağda nəhayət ki, sülh və təhlükəsizlik bərqərar olacaq. Doğma Azərbaycan xalqına öz torpaqlarında sülh və əmin-amanlıq arzu edirəm".

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**

**Cəbhəyanı ərazilərdə xeyli sayda partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib**

[05:18] 12.11.2020

Noyabr 10-11 tarixlərində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 125 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 127 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Ağcabədi rayonunun Arazbar, Boyadı, Əhmədağalı, Göyük, Hacılar, Paşabəyli, Qaradolaq, Yuxarı Qiyaməddinli kəndləri və Hindarx qəsəbəsi, Ağdam rayonunun Orta Qərvənd, Əfətli, Evoğlu, Kolqışlaq, Mahrızlı, Mərzili, Mirəşelli, Zəngişalı kəndləri, Bərdə rayonunun Təhlə kəndi və S.Vurğun küçəsi, Beyləqan rayonunun Qəhrəmanlı, Milabad kəndləri, Füzuli rayonunun Əbdürrəhmanlı, Qarakollu kəndləri və 4-cü Zobcuq qəsəbəsi, Goranboy rayonunun Yenikənd, Tapqaraqoyunlu kəndləri, Tərtər rayonunun Azad Qaraqoyunlu, Düyərli, Ələsgərli, Əskipara, Güləbatlı, Hüsənli, Köçərli, Qaynaq, Qazyan, Yenikənd, Yuxarı Sarıcalı kəndləri, M.Hüseynov, E.Hüseynov, Ş.İ.Xətai, N.İsgəndərov, N.Nərimanov küçələri ərazisinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 68 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 4 ədəd partlamamış hərbi sursat (PHS), 143 ədəd bombacıq, 212 ədəd tank əleyhinə mina, 96 ədəd tank əleyhinə minanın partladıcısı və 83 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 142 ədəd bombacığı, mexaniki minatəmizləmə qrupu tərəfindən 3 ədəd PMN minası zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**İşğalın Dağlıq Qarabağ və ətraf rayonların fitosanitar vəziyyətinə təsiri**

[14:12] 12.11.2020

Bitki mühafizəsinin əsas vəzifələrindən biri də müxtəlif vasitələrlə fərqli zoocoğrafi ərazilərdən təsadüfən yeni əraziyə keçmiş invaziv zərərli orqanizmləri tədqiq etmək və ehtiyac olduğu təqdirdə lazımi mübarizə tədbirləri tətbiq etməkdən ibarətdir. Bu məqsədlə respublikamızın müxtəlif rayonlarına daxil olan fərqli ekosistemlərdə vaxtaşırı monitorinqlər aparılır və bitki sağlamlığı istiqamətində lazımi tədbirlər həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi İnstitutunun Elmi-tədqiqat və risklərin qiymətləndirilməsi departamentinin Bitki sağlamlığı şöbəsinin mütəxəssisləri Camal Quliyev və Gülnar Qəhrəmanovanın hazırladığı məqalədə deyilir.

Müəlliflər daha sonra yazırlar: Təəssüf ki, uzun illər erməni işğalına məruz qalan ərazilərimizdə bu cür tədbirlər planı həyata keçirmək mümkün olmayıb. Belə ki, ölkəmizdə karantin zərərvericiləri, xəstəlik və alaq otlarının yayılması haqqında 1997-ci il yanvarın 2-nə aid hesabatda göstərilən məlumatlar işğaldan əvvəlki son illərə aiddir.

İşğaldan əvvəl həmin ərazilərdə Kolorado kartof böcəyi, filloksera, komstok yastıcası, sitrus ağqanadlısı, sürünən kəkrə, qızılsarmaşıq kimi karantin tətbiq edilən zərərli orqanizmlər qeydə alınıb. Ağdərə rayonunda 292 hektar, Xocavənd rayonunda 114 hektar, Xocalı rayonunda 293 hektar, Şuşa rayonunda isə 39 hektar sahədə Kolorado kartof böcəyinin yayıldığı müəyyən edilib. Bundan başqa, Qubadlıda 8 hektar, Zəngilanda 0,1 hektar, Ağdamda 2 hektar, Füzulidə 15,1 hektar ərazidə Kolorado böcəyinə rast gəlinib.

Filloksera zərərvericisi Ağdərə rayonunda 3000 hektar, Xocalı rayonunda 600 hektar, Xocavənd rayonunda 3750 hektar ərazidə qeydə alınıb. İşğal altında olan Ağdam rayonunda isə 2834 hektar ərazini əhatə edən üzüm sahəsində zərərvericinin yayıldığı məlumdur.

Komstok yastıcasına Ağdərə rayonunda 45 hektar, Xocavənd rayonunda 6 hektar, Xocalıda 14 hektar ərazidə rast gəlinib. İşğala məruz qalmış digər rayonlarımızdan Ağdamda 32 hektar, Zəngilanda 8 hektar, Tərtərdə 5 hektar, Füzulidə 6,9 hektar sahədə komstok yastıcası aşkar edilib.

Ərazidə həşəratlarla yanaşı, kənd təsərrüfatı sahələrinə ciddi ziyan vuran və karantin tətbiq edilən qızılsarmaşıq, sürünən kəkrə kimi alaq otları da qeydə alınıb. Qızılsarmaşığa Ağdam rayonunda 601,5 hektar, Zəngilan rayonunda 72 hektar, Laçın rayonunda 121 hektar, Füzuli rayonunda 1003 hektar, Ağdərə rayonunda 1500 hektar, Xocavənd rayonunda 2400 hektar, Xocalıda 1400 hektar, Şuşada isə 200 hektar ərazidə rast gəlinib. Bundan başqa, Ağdam rayonunda 300 hektar ərazidə sürünən kəkrə də yayılıb.

Lakin işğala məruz qalan ərazilərimizdəki fitosanitar vəziyyət haqqında sonralar heç bir məlumat toplamaq mümkün olmayıb.

Həmin zərərli orqanizmlərin vaxtaşırı monitorinqinin və onlara qarşı fitosanitar tədbirlərin aparılmaması onların kütləvi artımına və areallarının işğal olunmayan digər Azərbaycan ərazilərinə doğru genişlənməsi ilə nəticələnib. Digər tərəfdən, həmin ərazilərdə həyata keçirilən hərbi əməliyyatlar zamanı tətbiq edilən dağıdıcı vasitələr, yaşıllıqların, meşə və kənd təsərrüfatı sahələrinin yandırılaraq və ya digər üsullarla məhv edilməsi, kənd təsərrüfatına yararlı ərazilərə çirkab sularının axıdılması, aqrosenozların yerində narkotik xassəli bitkilərin əkilməsi, müəyyən məqsədlər üçün meşələrin qırılaraq daşınması və s. həmin ərazilərin flora və fauna tərkibinin dəyişməsi fonunda zərərli orqanizmlərin də növ tərkibinin və populyasiya sıxlığının dəyişməsinə səbəb olub.

Ekoloji terror - konkret ölkə tərəfindən və ya şəxs tərəfindən digər ölkənin flora və faunasına zərər yetirməklə, təbii sərvətlərini məhv etməklə, bilərəkdən vurulan ziyandır.

Ermənistan tərəfindən həyata keçirilən ekoloji terrorlardan biri də işğala məruz qalmış Azərbaycan torpaqlarında məqsədyönlü şəkildə törədilmiş yanğınlar və deqradasiyadır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına əsasən, respublikamızın meşə fondu sahəsi 1213,7 min hektar olmaqla ümumi ərazinin 14 faizini təşkil edir. Təəssüflə qeyd olunmalıdır ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyan dəyib. Belə ki, Kəlbəcər, Laçın, Zəngilan, Xankəndi, Şuşa, Xocavənd, Ağdərə meşə təsərrüfatlarının 261 min hektardan artıq sahəsi qırılaraq məhv edilib. Orada yetişən çox qiymətli palıd, fıstıq, vələs, ağcaqayın, ayı findığı, qoz, Şərq çinarı kəsilərək Ermənistan ərazisinə daşınıb. 25-26 faizi meşə olan işğal altındakı torpaqların məhv edilməsi,

həm də regiondakı heyvan və bitki növlərinin zərər görməsi deməkdir. Aparılan hesablamalara görə, meşə sahələrinin təqribən 8-10 faizi məhv edilib.

Məlumdur ki, 261 min hektar meşə, o cümlədən 13197,5 hektar qiymətli meşə sahələri, hündürlüyü 45, diametri 6-8 metrədək, yaşı 120 ildən 2 min ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət abidələri işğal edilmiş ərazilərdə qalıb. Böyük əhəmiyyətə malik olan bu təbiət abidələrinin əksəriyyəti həmin ərazilərdə məskunlaşmış ermənilər tərəfindən məhv edilib.

Ermənistan ordusunun əsgərləri və orada məskunlaşan gəlmə əhali tərəfindən mütəmadi olaraq qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv edilib, torpağın üst münbit qatı yararsız hala düşüb. Müxtəlif vaxtlarda ermənilər işğal etdikləri ərazilərin geniş hissəsində (Xocavənd, Ağdam, Qubadlı, Zəngilan) yanğınlar törədiblər. Qeyd edək ki, yanğınlar zamanı ətraf mühitə təxminən 300 milyon manat məbləğində ziyan dəyib. Yanğın nəticəsində torpağın üst qatı və bitki örtüyü, ərazidə olan qiymətli ağac və kollar məhv edilib. Orada olan fauna və floradan əsər-əlamət qalmayıb, təbiətə xeyli ziyan vurulub. Həmin yanğınlar ekoloji tarazlığın pozulmasına, heyvanat aləminin və bitki örtüyünün tələf edilməsinə, atmosferin çirklənməsinə səbəb olub.

Lakin törədilən yanğınların fəsadları bununla bitmir. Belə ki, təbii ekosistemlərin və aqrosenozların məhv edilməsi orada məskunlaşan zərərli orqanizmlərin qida bitkilərinin müxtəlifliyinin artmasına təkan verən amillərdəndir. Biçənəklərin və əkin sahələrinin yandırılması bir çox təhlükəli zərərvericilərin, xüsusən də ev siçanı, çöl siçanı, adi çöl siçanı, qırmızıquyruq qum siçanı, kiçik Asiya qum siçanı, boz siçan, boz siçovul və s. kimi siçanabənzər gəmiricilərin, Mərakeş çəyirtkəsi, Asiya çəyirtkəsi, İtaliya çəyirtkəsi kimi sürü halında köç edən zərərvericilərin kütləvi şəkildə sərhədboyu yaşayış ərazilərinə doğru yayılmasına və xüsusilə taxıl sahələrinin kütləvi məhvinə səbəb olub. Gəmiricilər kənd təsərrüfatına ziyan vurmaqla yanaşı, insanlara və kənd təsərrüfatı heyvanlarına bir çox xəstəliklər yoluxdurub.

Qeyd edək ki, son illər işğal altında olan ərazilərdən ölkə ərazisinə Mərakeş çəyirtkəsinin və siçanabənzər gəmiricilərin miqrasiyası fitosanitar vəziyyəti mürəkkəbləşdirən başlıca amillərdən biridir. Rəşadətli ordumuz tərəfindən işğal altında olan ərazilərimizin azad edilməsi həmin sahələrdə fitosanitar sabitliyin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə şərait yaradıb.

**AZƏRTAC**

**İşğaldan azad edilmiş ərazilərdə DTX-nin idarə və şöbələri fəaliyyətə başlayır**

[14:10] 12.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli Fərmanına uyğun olaraq, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Cəbrayıl, Zəngilan, Füzuli, Qubadlı rayonlarında və Xocavənd rayonunun Hadrut qəsəbəsində yerli şöbələri xidmətə başlayıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Şuşa şəhərinin strateji əhəmiyyəti nəzərə alınaraq, DTX-nin Şuşa şəhər idarəsi təsis edilib və yaxın günlərdə onun fəaliyyəti təmin olunacaq.

**AZƏRTAC**

**“Le Monde” azad olunmuş Füzulinin Mərdinli məscidinin erməni işğalçıları tərəfindən dağıdılmasından yazır**

[20:06] 12.11.2020

Gənc zabit Natiq, tövləyə çevrilən Mərdinli məscidinə diqqəti çəkərək deyir: “Ermənilər orada donuz saxlayıblar”. Sonra Mərdinli müsəlman qəbiristanlığına işarə edir. Qəbirlər «erməni işğalçıları» tərəfindən dağıdılaraq alt-üst edilib. Minalandığına görə bu sahəyə yaxın getməmək məsləhət görülür.

“Bütün bu dağıntılara, qazılmış çuxurlara baxın. Yalnız xarabalıq qalmışdır. Əgər burada heç kim olmayacaqdısa, niyə bizi buradan didərgin salmışdılar”,-deyə gənc azərbaycanlı zabit Natiq ritorik sual verir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər “Le Monde” qəzetində dərc olunmuş “ Dağlıq Qarabağ: 1993-cü ildən tərk edilmiş Füzulidə Azərbaycan xarabalıq və bunkerlərə sahib çıxır” adlı məqalədə yazılıb.

Jurnalist şəhərdə bütün tikililərin darmadağın edildiyini yazır. Hətta uçuntuları qalan məbədin hansı dinə aid olduğunu müəyyən etməyin çətinliyini diqqətə çatdırır. Rastlaşdığı uçuntular içərisində bir məbədin hansı dinə aid olduğu, hətta adı dəqiq bilinmədiyini yazaraq, bunun səbəbi kimi 1993-cü il avqustun 23-dən Fizulidə heç kimin yaşamadığını göstərir.

Bildirir ki, 1989-cu ildə son siyahıyaalmaya görə 17 min sakini olmuş şəhər Dağlıq Qarabağdakı erməni qüvvələri tərəfindən işğal edilmiş və onun sakinləri evlərindən didərgin salınmışdır.

Məqalədə 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Füzuli rayonunun Azərbaycan ordusu tərəfindən azad olunması haqqında məlumat verilib.

Azad olunmuş Füzuli təsvir olunaraq yazılır: “Yenidən fəth etdiyi ərazilərdə Azərbaycan ordusu ruhların dolaşdığı şəhər, mərmi qırıntılarından qazılmış torpaqlar, dağıdılmış qəbiristanlıqlar və minalanmış sahələrlə üzləşir”.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**

**İbrahim Məmmədov: Sentyabrın 27-dən Ermənistanın Azərbaycan ərazisinə təcavüzü nəticəsində dəyən ziyanın araşdırılması üçün 11 işçi qrupu yaradılıb**

[18:55] 13.11.2020

Noyabrın 6-da Azərbaycan Respublikası Prezidentinin “2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında” Sərəncamı ilə Dövlət Komissiyası yaradılıb.

AZƏRTAC xəbər verir ki, bunu sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə hücumları nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasına həsr olunmuş brifinqdə Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib.

Dəymiş ziyanla bağlı məlumat bazasının yaradılacağını qeyd edən İbrahim Məmmədov deyib: “Prezidentin sərəncamına əsasən, proses şəffaf olmalıdır. Beynəlxalq ictimaiyyət və xalqımız bununla bağlı davamlı məlumatlandırılacaq, bu brifinq də bu məqsədə xidmət edir”.

Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri qeyd edib ki, artıq Dövlət Komissiyasının işçi qrupları yaradılıb. Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Tərtər, Füzuli və Cəbrayıl, Goranboy və Naftalan, Gəncə, Mingəçevir rayon və şəhərləri üzrə 11 işçi qrupu yaradılıb. Tərtər rayonu üzrə dəymiş ziyanın miqyasını nəzərə alaraq 3 işçi qrupu formalaşdırılıb.

“Ermənistanın təcavüzü nəticəsində ziyan dəymiş obyektlər arasında fərdi yaşayış evləri, yardımçı tiklilər, çoxmənzilli yaşayış evləri, istehsal, ictimai-iaşə obyektləri, məscidlər və kilsələr, tarixi abidələr, su təchizat obyektləri və tələf olmuş mal-qara var”, - deyən İbrahim Məmmədov diqqətə çatdırıb ki, dəymiş ziyan qısa müddətdə araşdırılacaq və nəticələr dövlətimizin başçısına təqdim olunacaq.

**AZƏRTAC**

**Füzuli rayonunda minaya düşən iki qardaşdan biri həlak olub, digəri ağır yaralanıb**

[18:25] 14.11.2020

Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində geri çəkildikcə əraziləri minalayaraq növbəti təxribat əməllərinə yol verməklə, artıq yeni üsul və metodlardan istifadə edərək dinc sakinlərimizə qarşı cinayət əməllərini davam etdirirlər.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 14-də saat 17 radələrində Azərbaycan Respublikasının vətəndaşları 1984-cü il təvəllüdlü Əhmədov Yasin Ələsgər oğlu və onun qardaşı 1989-cü il təvəllüdlü Əhmədov Asif Ələsgər oğlu Füzuli rayonunun işğaldan azad olunmuş ərazisində minaya düşüblər. Nəticədə Yasin Əhmədov həlak olub, Asif Əhmədov isə ağır dərəcəli bədən xəsarəti alıb.

Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən intensiv istintaq hərəkətləri həyata keçirilir.

**AZƏRTAC**

**Baş Prokurorluq: ANAMA-nın əməkdaşı minaya düşüb**

[20:15] 14.11.2020

Ermənistanın silahlı qüvvələri Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində geri çəkildikcə əraziləri minalayaraq növbəti təxribat əməllərinə yol verməklə, artıq yeni metodlardan istifadə edib dinc sakinlərimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, noyabrın 14-də saat 19 radələrində partlamamış, silah-sursatın axtarışı ilə bağlı Füzuli rayonuna ezam olunmuş, Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əməkdaşı 1979-cu il təvəllüdlü Xudiyev Asif Mürsəl oğlu minaya düşməsi nəticəsində “sol ayağın topuqdan aşağı ətrafının travmatik amputasiyası” xəsarəti alıb.

Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış, keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

**AZƏRTAC**

**ANAMA-nın minaya düşən əməkdaşının ayağı amputasiya olunub**

[00:44] 15.11.2020

Dünən saat 16:30 radələrində Füzuli rayonunun işğaldan azad olunmuş Alxanlı kəndində mülki əhalinin girişi qadağan olunan təhlükəli ərazidə 1984-cü il təvəllüdlü Əhmədov Yasin Ələsgər oğlu və onun qardaşı 1989-cu il təvəllüdlü Əhmədov Asif Ələsgər oğlu mal-qara otararkən piyada əleyhinə minaya düşüblər.

ANAMA-nın Mətbuat Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, partlayış nəticəsində Əhmədov Yasin Ələsgər oğlu həlak olub, Əhmədov Asif Ələsgər oğlu isə ağır dərəcəli bədən xəsarəti alıb.

Mülki vətəndaşların təxliyə olunması üçün agentliyin minaaxtaranları əraziyə cəlb olunub. Təxliyə əməliyyatı zamanı Əhmədov Asif Ələsgər oğlu ərazidən çıxarılıb, Əhmədov Yasin Ələsgər oğlunun təxliyəsi zamanı isə agentliyin minaaxtaranı, 1979-cu il təvəllüdlü Xudiyev Asəf Mürsəl oğlu düşmən tərəfindən basdırılmış piyada əleyhinə minaya düşüb, nəticədə sol ayağı topuq nahiyəsindən amputasiya olunub və çoxsaylı qəlpə yarası alıb.

Xudiyev Asəf Mürsəl oğlu Füzuli rayon Diaqnostika Mərkəzində cərrahiyyə əməliyyatı edilib, vəziyyəti sabit ağırdır.

“Bir daha bildiririk ki, qeyd olunan ərazilər işğaldan azad olunmuş torpaqlardır və təhlükəsizlik səbəbindən həmin ərazilərə mülki şəxslərin girişi qəti qadağandır”,- deyə məlumatda vurğulanır.

**AZƏRTAC**

**Cəbhəyanı ərazilərdə minlərlə piyada əleyhinə mina, mərmi qalıqları aşkarlanıb**

[07:16] 15.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Cəbrayıl, Füzuli, Goranboy və Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 251 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 5 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 251 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 106 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 46 ədəd partlamamış hərbi sursat (PHS), 2 574 ədəd piyada əleyhinə mina, 906 ədəd tank əleyhinə minanın partladıcısı və 295 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 7 ədəd partlamamış hərbi sursat (PHS), mexaniki minatəmizləmə qrupu tərəfindən 7 ədəd PMN minası zərərsizləşdirilib, mina təhlükəsinə dair maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 42 777 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Agentliyin minaaxtaranı 1979-cu il təvəllüdlü Xudiyev Asəf Mürsəl oğlu öz xidməti vəzifəsini yerinə yetirərkən düşmən tərəfindən basdırılmış piyada əleyhinə minaya düşüb, nəticədə sol ayağı topuq nahiyəsindən amputasiya olunub və çoxsaylı qəlpə yaraları alıb.

**AZƏRTAC**

**ARTE telekanalı Qarabağa dönüşlə bağlı reportaj yayımlayıb**

[14:27] 15.11.2020

Fransa və Almaniyanın birgə televiziya kanalı olan ARTE "Qarabağa dönüş" adlı reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, azərbaycanlı uşaqların Dövlət Himnimizi oxuması ilə başlayan reportajda şəhər sakinlərinin Qələbəni böyük sevinclə qeyd etdiyi bildirilir.

Vurğulanır ki, Azərbaycanın qazandığı Qələbənin sevincini yaşayanlar arasında 27 il əvvəl erməni silahlı qüvvələri tərəfindən doğma yurdlarından didərgin salınmış Füzuli sakinləri də var.

Rayonlarının azad olunduğunu eşidən füzulililər sevinclərini sözlə ifadə edə bilmədiklərini, bu günün onların həyatında ən xoşbəxt gün olduğunu deyirlər. Qeyd edirlər ki, 27 ildir paytaxt Bakıda yaşamaqlarına baxmayaraq, onların ürəyi həmişə Füzuli ilə döyünüb.

Telekanalın jurnalistləri Füzulidən olan ailənin qonağı da olurlar. Söhbət zamanı ailənin üzvü Qarabağa, doğma evlərinə qayıtmağı gözlədiklərini bildirib. Əminliklə qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Füzulidə bütün infrastruktur bərpa olunacaq. Diqqətə çatdırılıb ki, həyatının ən gözəl günlərini məhz Füzulidə keçib.

Reportajda işğaldan azad olan Füzulinin 27 il ərzində xarabalığa çevrildiyi, orada evlərin, eləcə də bütün infrastrukturun dağıdıldığı göstərilib.

Qeyd edək ki, Avropa Televiziya Assosiasiyası - ARTE televiziya kanalı Fransa və Almaniyanın birgə hazırladığı ictimai kanaldır və 1992-ci ildən fəaliyyət göstərir.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar**

[18:30] 16.11.2020

Xəbər verdiyimiz kimi, noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış oldular.

**Prezident İlham Əliyev** dedi:

- Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir.

Şuşa işğaldan azad olunandan sonra artıq düşmən dərk etdi ki, bundan sonra bizə qarşı müqavimət göstərmək heç bir əhəmiyyət kəsb etməyəcək. Şuşa işğaldan azad olunandan bir gün sonra qəhrəman Azərbaycan Ordusu daha 70-dən çox yaşayış məntəqəsini işğalçılardan azad edib və əslində, bu, düşmənə vurulan son zərbə idi. Təsadüfi deyil ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir.

Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək.

İkinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizdir, işğal edilmiş torpaqlar işğalçılardan azad edilib. Düşmən tərəfindən vurulmuş ziyan hazırda hesablanır və dəqiq hesablanacaq. Zərərçəkmiş bütün insanlar dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu işləri biz planlı şəkildə aparacağıq - ilk növbədə, ziyanın hesablanması, dəqiq uçotun aparılması, ondan sonra bərpa-yenidənqurma işləri.

Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. İndi bütün dünya bunu görəcək. Bütün dünya görəcək ki, biz hansı vəhşi düşmənlə üz-üzə qalmışdıq.

Hazırda münaqişənin siyasi həlli mərhələsidir. Bu mərhələdə də Azərbaycan istədiyinə nail olur və olacaq. Münaqişənin hərbi mərhələsi başa çatıb. Şuşanın azad edilməsi və noyabrın 9-da daha 70-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi münaqişənin hərbi mərhələsinə son qoyub. Mən münaqişənin və İkinci Qarabağ müharibəsinin əvvəlində demişdim, bu gün də bunu böyük qürur hissi ilə bir daha deyirəm ki, məsələnin hərbi-siyasi həll yolları var idi və Azərbaycan bunu döyüş meydanında sübut edib. Biz düşməni məcbur etdik ki, kapitulyasiya aktına imza atsın və beləliklə, bizim bu günə qədər işğal altında qalan Ağdam, Laçın və Kəlbəcər rayonları da yaxın günlərdə Azərbaycana qayıdır. Amma baxın, görün, mənfur düşmən hansı vəhşiliklər törədir – evləri yandırırlar, məktəbləri yandırırlar, ağacları qırırlar, elektrik xətlərini qırırlar. Bütün dünya bunu görür, bütün aparıcı beynəlxalq kanallar bunu göstərir. Nə vicdan var, nə utanmaq var, nə əxlaq var. Ona görə İkinci Qarabağ müharibəsində qazanılmış qələbə böyük tarixi əhəmiyyətə malikdir. Bu, təkcə Azərbaycanın öz doğma torpaqlarının işğalçılardan azad edilməsi məsələsi deyil. Bu, eyni zamanda, bütün dünyaya, bütün işğalçılara göstərir ki, onların sonu bax, belə ola bilər. İşğalçıların, qəsbkarların sonu belə olacaq.

Bu gün bu gözəl təməlqoyma mərasimi böyük rəmzi məna daşıyır. Biz işğaldan azad edilmiş Füzuli şəhərindən və ona qədər olan kəndlərdən Füzuli şəhərinə qədər və Füzuli şəhərindən Şuşa şəhərinə yeni yol çəkirik. Bu yol heç vaxt olmayıb. Azərbaycan vətəndaşları yəqin bilirlər ki, Şuşaya sovet vaxtında yol Ağdam ərazisindən gedirdi - Ağdam-Xankəndi-Şuşa yolu. İndi bu yoldan istifadə etmək hələ ki, mümkün deyil.

Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yol işçiləri ilə xatirə şəkli çəkdirdilər.

**x x x**

Qeyd edək ki, Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar həyata qaynayıb, bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıblar. Ancaq ermənilər tərəfindən torpaqlarımızın işğala məruz qalmasından sonra azərbaycanlılar öz dədə-baba torpaqlarından qovulublar, erməni vandalları tərəfindən evlər yerlə yeksan edilib. Onlar daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar. Bunlar ermənilərin əməllərinin nəticəsidir.

Dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəldilər.

Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırdı. Bu görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindəndir. Müzəffər Ali Baş Komandan qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı qaldırdı.

**Prezident İlham Əliyev** dedi:

-Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Dağıdıblar, evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur. Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

Mənfur düşmən Füzulinin adını da dəyişdirib, bir eybəcər ad qoyubdur. Füzuli bizim dahi, böyük şairimiz Məhəmməd Füzulinin adını daşıyır. Biz bu adı bərpa etmişik. Dağıdılmış Füzuli şəhəri erməni faşizminin canlı şahididir. Bütün dünya bunu görməlidir və səssiz qalmamalıdır, necə ki, 30 il səssiz qalıb, 30 il biganə qalıb. O biganəlik faktiki olaraq erməni işğalını möhkəmləndirirdi. Bizi sanki bu vəziyyətlə barışmağa sövq edirdilər, sülh yolu ilə məsələ həll olunsun, ildən-ilə, 30 il ərzində biz eyni sözləri eşidirdik – münaqişənin hərbi həlli yoxdur, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Amma biz sübut etdik ki, münaqişənin həlli var, o cümlədən hərbi həlli var. Bizim qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına biz bunu bütün dünyaya sübut etmişik, münaqişənin hərbi həlli var və biz buna nail olmuşuq. Əgər bu hərbi həll olmasaydı, düşmən kapitulyasiya aktını imzalamazdı. Müharibənin ilk günlərindən mən deyirdim, Ermənistan rəhbərliyi, Ermənistanın ali baş komandanı, - əgər o adama, ümumiyyətlə, bu adı aid etmək mümkündürsə, - bəyan etməlisiniz, cədvəl verməlisiniz, nə vaxt hansı rayondan çıxırsınız. Ondan sonra biz müharibəni dayandırarıq. Əks-təqdirdə sona qədər gedəcəyik və getdik də. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd azad edildi, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi azad edildi, düşmənin beli qırıldı, düşmən diz çökdü və məcbur oldu noyabrın 10-da o kapitulyasiya aktına imza atdı, məhz bizim gücümüz hesabına. Biz düşməni məcbur etmişik, biz düşmənə yerini göstərmişik, biz Azərbaycan xalqının böyüklüyünü göstərmişik.

Otuz il ərzində həm Ermənistan rəhbərliyi, həm onların havadarları, ermənipərəst, azərbaycanafob qüvvələr tərəfindən ortalığa müxtəlif uydurmalar atılırdı ki, bəli, Ermənistanın güclü ordusu var, erməni xalqı döyüşkən xalqdır, Azərbaycan xalqı döyüşə bilmir. Məhv etmişik bu uydurmanı, göstərmişik ki, kim döyüşkən xalqdır, göstərmişik ki, kim müzəffər xalqdır. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. Ona görə

torpaqlar əldən getdi. İndi bax, Ermənistan əhalisi Azərbaycan əhalisinin yaşadığı illəri - 1992-ci illəri yaşayır.

Azərbaycan xalqı o mənfur hakimiyyəti bir ildən sonra yox etdi, süpürüb atdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq, onlar bizim qabağımızda diz çöküblər və onlar bundan sonra bu damğa ilə yaşayacaqlar, rəzalət damğası ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi.

Bu 44 gün ərzində demək olar ki, müntəzəm surətdə müxtəlif mənbələrdən, müxtəlif ünvanlardan müxtəlif təzyiqlər, təhdidlər olurdu, sifarişlər, mesajlar, siqnallar göndərilirdi. Mən demişdim ki, heç kim bizim qabağımızda dura bilməz, sona qədər gedəcəyik. Mənfur düşmən şərtlərimizi qəbul etməlidir, dəqiq tarix göstərməlidir və məcbur olub göstərdi də. Ona görə bu günlərdə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları möhtəşəm Qələbəmizi böyük qürur hissi ilə qeyd edir. Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi. Onu göstərdi ki, heç vaxt Azərbaycan bu vəziyyətlə barışmayacaq. Mən 17 il ərzində ölkə Prezidenti və Ali Baş Komandan kimi dəfələrlə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz sözlərimi demişdim. Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli, çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar. Dağlıq Qarabağın separatçı rəhbərləri qorxaqdırlar. Onların qorxaqlığını orada yaşayan ermənilər görüblər, Ermənistanda yaşayan ermənilər görüblər. Nə qədər adam fərarilik edib. Onların o xunta başçısı bunkerdə gizlənmişdi, burnunu belə bayıra çıxara bilmirdi. Bəs hanı sənin hünərin, cəsarətin?!

Biz Ermənistan ordusunu çökdürdük və eyni zamanda, Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlara da dərs verdik. Paşinyan son iki il ərzində öz ölkəsini məhv edib və indi, sadəcə olaraq, fikirləşir ki, öz canını erməni xalqının qəzəbindən necə qurtarsın?! Biz Koçaryan-Sarkisyan ordusunu məhv etdik. Onlar bizim torpaqlarımızı dağıdıblar. Onlar bu dəfə qorxaqcasına heç burunlarını soxa bilmədilər Dağlıq Qarabağ ərazisinə. Bəs hanı sizin qəhrəmanlığınız? Döşünüzə taxmısınız saxta "qəhrəman" ordenlərini, çıxardın atın eşiyə o dəmir-dümürləri, sizi biz məğlub etmişik. Paşinyan heç kimdir. Koçaryan və Sarkisyan, Azərbaycan xalqının cəlladları, Xocalı cəlladları, sizi biz məğlub etmişik, sizin ordunuzu məhv etmişik. Əgər kapitulyasiya aktı Ermənistan tərəfindən imzalanmasaydı, özləri bilirlər nə ilə qurtaracaqdı bu müharibə. Bax, budur bizim gücümüz, budur bizim birliyimiz. Dəmir yumruq sizin başınızı əzdi və bundan sonra artıq heç kim bizimlə ultimatum dili ilə danışmayacaq. O cümlədən rəzil vəziyyətdə olan Paşinyan, bizə yeddi şərt irəli sürdü, başına vurduq bütün o şərtləri. Nə oldu o şərtlər? Mənim bir şərtim var idi, rədd ol, çıx get və o şərtə əməl edildi. Güc hesabına, birlik hesabına, igidlərimiz hesabına, şəhidlərimiz hesabına. Burada, işğaldan azad edilmiş Füzuli şəhərində bir daha bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm, onların valideynlərinə təşəkkürümü bildirirəm ki, dövlətimiz üçün, xalqımız üçün belə igidlər yetişdiriblər. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Bütün yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm, əminəm ki, onlar tezliklə normal həyata qayıdacaqlar, onlar daim diqqət mərkəzində olacaqlar.

Bizim bütün hərbçilərimiz, Füzuli və işğaldan azad edilmiş başqa torpaqlarda yaşamış sakinlər bilməlidirlər ki, biz bütün bu yerləri bərpa edəcəyik. Mən demişdim, Füzulidə bir dənə də bina tapılmadı ki, orada Azərbaycan bayrağı ucaldılsın. Amma biz bərpa edəcəyik. İndi müvafiq göstərişlər verildi, planlı şəkildə bunu edəcəyik, beynəlxalq ekspertləri dəvət etmişik, onlar da gələcəklər. Bütün dəymiş ziyanı birlikdə hesablayacağıq. Ondan sonra şəhərsalma üzrə mütəxəssisləri - həm Azərbaycan mütəxəssislərini, həm xarici mütəxəssisləri dəvət edəcəyik. Onlar da gələcəklər, yeni bir şəhərsalma planı qurulacaqdır.

Kəndlərin, şəhərlərin, infrastrukturun, ekologiyanın bərpası – bütün bu planlar var. Hamısını icra edəcəyik, İnşallah, hamısını! Allahın köməyi ilə hamısını icra edəcəyik. Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**x x x**

Dövlətimizin başçısı sükan arxasında yolda gedərkən yol kənarına toplaşan insanları gördü və avtomobili saxlayaraq onlarla görüşdü.

**x x x**

Cəbrayıla gedərkən avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:

-Cəbrayıl rayonu. Gedirik Xudafərin körpüsünün yanına. Xudafərin körpüsü qabaqdadır.

Bu da Azərbaycan vətəndaşlarının vəhşi düşmən tərəfindən dağıdılmış evləridir.

Araz çayı, Azərbaycan-İran sərhədi. Dostluq sərhədidir.

Yol boyunca düşmənin dağıtdığı kəndləri görərkən bir daha şahidi oluruq ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Bunları gördükcə bir daha adam əmin olur ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz yırtıcı düşməni məhv etmişik. Dünyada bir çox müharibələr olub, bu gün də gedir. Bu gün də bəzi yerlərdə işğal davam edir. Amma inanmıram ki, kimsə bu qədər qəddar, bu qədər qeyri-insani bir düşmənlə üz-üzə qalsın.

Bizim tarixi qələbəmiz erməni faşizmi üzərində əldə edilmiş qələbədir. Bizim zəfərimiz haqqın, ədalətin bərpasıdır. Bu gün, noyabrın 16-sı mənim həyatımda xüsusi tarix olaraq qalacaq. Çünki bir neçə dəqiqədən sonra biz qədim memarlıq abidəmiz olan Xudafərin körpüsünə yaxınlaşacağıq.

Bu dağlar artıq bizimdir, həmişə bizim olub. Ancaq 30 ilə yaxın düşmən bu dağlarda, bu torpaqlarda, bizim dədə-baba torpaqlarımızda oturub, bizə meydan oxuyub.

Vəhşi düşmən tərəfindən dağıdılmış evlərin hamısını bərpa edəcəyik.

Bu da Xudafərin su anbarıdır.

Bizdən aşağıda Araz çayıdır. İndi tunelə giririk. O tərəf qonşu dövlət İran İslam Respublikasıdır.

**x x x**

Dövlətimizin başçısı və birinci xanım Xudafərin körpüsünə gəldilər. Bu anlar da tariximizin səhifələrinə qızıl hərflərlə yazılacaq.

Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırdı. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəzdilər, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdirdilər.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Cəbrayıl şəhərinə yola düşdülər.

Cəbrayıl şəhərinə gedən yolun ətrafı da eyni vəziyyətdədir. Budur, erməni işğalçılarının çirkin üzü. Bu, erməni vandallarının əsl mahiyyətini ortaya qoyur, onların kimliyini göstərir.

**Prezident İlham Əliyev**: Cəbrayıl şəhərinə giririk. Düşmən burada özü üçün hərbi hissələr yaradıb. Şəhərdə hərbi hissələrdən başqa bir şey yoxdur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də işğaldan azad edilmiş Cəbrayıl şəhərinə gəldilər.

Xalqımızın uzun illər həsrətində olduğu anları yaşadıq. Dövlətimizin başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırdı.

**Prezident İlham Əliyev**: Cəbrayıl şəhəri işğaldan azad edilib, Azərbaycanın Dövlət Bayrağı ucaldılıb. Bütün Azərbaycan xalqını təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Gedək baxaq bəzi binalara.

Bura düşmənin polis idarəsi olub. İndi Azərbaycan polisi keşik çəkir.

Baxın, mənfur düşmən Cəbrayıl şəhərini nə günə salıb. Bütün dünya bunu görsün. Görsün və bilsin ki, biz hansı yaramaz düşmənlə üz-üzəyik. Bütün binaları dağıdıblar, talan ediblər. Onların məqsədi var idi

ki, bundan sonra burada heç vaxt azərbaycanlı insanlar yaşamasınlar. Yaşayacağıq, əbədi yaşayacağıq. Hamısını bərpa edəcəyik, hamısını. Baxın nə günə qoyublar. Otuz il ərzində bu barədə hansısa bir beynəlxalq qurum bir məsələ qaldırıbmı? Burada monitorinq aparılıbmı? İndi bütün dünya görəcək Cəbrayıl şəhərini nə günə salıblar.

Bura Cəbrayıl şəhərinin mərkəzidir. Bir dənə də salamat bina yoxdur. Bir dənə də salamat bina qoymayıblar. Yalnız orada özləri üçün hərbi hissə tikiblər. Bütün qalan infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısı düşmən tərəfindən sökülüb.

Cavab verəcəklər. Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir daha demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək.

Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda, Cəbrayıl şəhərində. Bütün buraları bərpa edəcəyik.

Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq.

Yenə də Azərbaycan vətəndaşları burada yaşayacaqlar, quracaqlar, yaradacaqlar. Amma bugünkü tarix heç vaxt silinməyəcək. Erməni vəhşiliyinin canlı şahidləridir, bax, bu dağılmış evlər. Bu evlərdə Azərbaycan vətəndaşları yaşayıb, mülki vətəndaşlar yaşayıb. Mənfur düşmən gəlib onları öz torpaqlarından didərgin salıb, onların binalarını dağıdıb, onların əmlakını mənimsəyib, talayıb. Düşmən oğru, əxlaqsız, vicdansız bir düşməndir. Mən bir daha demək istəyirəm ki, bizim parlaq Qələbəmiz təkcə ölkəmizin ərazi bütövlüyünün bərpası deyil. Bu, şərlə xeyir qüvvələrinin mübarizəsidir. Şər qüvvələri məğlub olub, amma biz qalib gəlmişik. Çünki biz qurub yaradanıq. Ermənilər isə bax, bunları ediblər, dağıdıblar.

Bərpa edəcəyik bunları, hamısını bərpa edəcəyik. Azərbaycan xalqı bir daha öz böyüklüyünü göstərəcək. Bir daha bütün dünyaya sübut edəcəyik ki, biz böyük xalqıq. Biz qayıtmışıq, vuruşa-vuruşa qayıtmışıq. Heç kim bizə bu torpaqları bağışlamayıb. Heç bir beynəlxalq təşkilat təcavüzkara təzyiq göstərməyib. Heç kim onlardan tələb etməyib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etsin. Sadəcə olaraq, nə hərb, nə sülh, hər şeyi dondurulmuş vəziyyətdə saxlamaq, işğalı əbədiləşdirmək, bizim tarixi torpaqlarımızın tarixi irsini silmək, torpaqlarımızı erməniləşdirmək, şəhərlərimizə, kəndlərimizə eybəcər erməni adları vermək və bu məsələni Azərbaycan xalqının yaddaşından silmək idi onların məqsədi. Amma səhv etdilər. Dəfələrlə demişəm ki, biz bu işğalla heç vaxt barışmayacağıq. Hər bir cəbrayıllı bir arzu ilə yaşayırdı ki, öz dədə-baba torpağına qayıtsın.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu zəfər çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Erməni vəhşiliyinin nə demək olduğunu bütün dünyaya göstərəcəyik**

[14:19] 17.11.2020

Füzuli şəhəri işğalçılardan azad edilib. Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb. Biz Füzuliyə qayıtmışıq. Ancaq indi yol boyunca dağıdılmış kəndləri və Füzuli şəhərini dağılmış vəziyyətdə görəndə adamın ürəyi ağrıyır. Vəhşilər bizim şəhərimizi nə günə salıblar?! Evləri dağıdıblar, bütün infrastrukturu dağıdıblar, bir dənə də salamat bina yoxdur.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad olunmuş Füzuli şəhərində Azərbaycan bayrağını qaldırdıqdan sonra çıxış edərkən bildirib.

Dövlətimizin başçısı deyib: “Bütün dünya görməlidir erməni vəhşiliyi nə deməkdir və bütün dünyaya biz bunu göstərəcəyik. Təkcə Füzuli yox, Ağdam şəhəri nə gündədir, başqa şəhərlər. Sanki bu torpaqlardan bir vəhşi qəbilə keçib. Hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Çünki biz gəlməli idik, qayıtmalı idik. Gəlmişik və qayıtmışıq. Düşməni qovmuşuq torpaqlarımızdan, Azərbaycanın Dövlət Bayrağını ucaltmışıq. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb”.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır**

[13:54] 17.11.2020

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür, tarixi bir gündür. Bu gün Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulur. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu yolun çox böyük əhəmiyyəti var. Çünki bu yol bizi Qarabağın tacı olan Şuşa şəhərinə aparır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Füzuli-Şuşa avtomobil yolunun təməlqoyma mərasimində səsləndirib.

"Son illər ərzində ölkəmizdə bir çox yollar inşa edilib. Deyə bilərəm ki, 2004-cü ildən bu günə qədər 16 min kilometrdən çox avtomobil yolu çəkilibdir və yollar keyfiyyətlidir. Bu göstəriciyə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Ancaq bu yolun xüsusi əhəmiyyəti var. Dediyim kimi, bu yol bizi Şuşaya aparır. Eyni zamanda, bu layihə işğaldan azad edilmiş torpaqlarda icra edilən birinci layihədir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

## Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

[19:37] 17.11.2020

Qarabağ bölgəsində erməni təcavüzünə məruz qalmış bütün torpaqlarımız, o cümlədən Qarabağın tacı olan Şuşa 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsinin Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatması nəticəsində işğaldan azad edilmişdir.

27 il müddətində işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmış, təbii sərvətlər talan edilmiş, tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuş, fərdi və çoxmənzilli yaşayış evləri yerlə-yeksan edilmişdir.

Dədə-baba yurdlarından didərgin salınmış insanların işğaldan azad olunmuş ərazilərə qayıdaraq məskunlaşmasının, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələrinin tərtibi, sənaye və kənd təsərrüfatı müəssisələrinin, sosial təyinatlı obyektlərin inşası, habelə əhalinin mənzil-məişət məsələlərinin həlli ilə bağlı müvafiq təkliflər hazırlanır və artıq bir sıra yaşayış məntəqələrində bu sahələrdə zəruri işlərin həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bu istiqamətdə aparılan işlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Ümumi uzunluğu 101,5 kilometr olan Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 50,0 (əlli) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Türkiyə KİV-ləri: Prezident İlham Əliyev işğaldan azad olunmuş Füzuli və Cəbrayıla qələbə səfəri edib**

[19:42] 17.11.2020

Türkiyə kütləvi informasiya vasitələri (KİV) noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərinə səfərləri barədə geniş məlumatlar yaymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mətbuatı dövlətimizin başçısının yerlərdə xalq tərəfindən böyük coşqu ilə qarşılanması, səmimi ünsiyyəti, çıxışlarında işğaldan azad olunan torpaqlarda həyatın normala dönməsi ilə bağlı səsləndirdiyi fikirlər əsas xəbərlər kimi yayıb.

Türkiyə mediası, həmçinin Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqlarda olmasını Qarabağa qələbə səfəri kimi dəyərləndirib. Telekanallar da bu səfərlə bağlı geniş reportajlar yayıb. Müzəffər Ordunun qazandığı qələbədən sonra Azərbaycanda ruh yüksəkliyi və işğalçı Ermənistandakı ictimai-siyasi gərginlik müqayisəli şəkildə təhlil olunur.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Avropa Komissiyasının eksperti ermənilərin Qarabağda törətdikləri dağıntılar barədə məlumatlandırılıb**

[19:34] 17.11.2020

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları üzrə Direktoratlığının eksperti Nikolas Qovartla onlayn görüş keçirib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə Ermənistanın işğalçılıq siyasətinin nəticələri və ölkəmizin humanitar ehtiyacları müzakirə olunub.

F.Hüseynov Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusunun sentyabrın 27-dən noyabrın 10-dək apardığı əks-həmlə əməliyyatı haqqında məlumat verib. Bildirilib ki, bu əməliyyat nəticəsində Azərbaycan özünün ərazi bütövlüyünü bərpa edib. Eyni zamanda, qeyd edilib ki, hərbi əməliyyatlar zamanı Ermənistan silahlı birləşmələrinin ölkəmizin cəbhə zonasından uzaq yaşayış məntəqələrini artilleriya və raket atəşinə məruz qoyması nəticəsində mülki şəxslər, o cümlədən məcburi köçkünlər arasında ölənlər və yaralananlar var. Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə istifadəyə verilmiş qəsəbələr də daxil olmaqla, 300-dən çox müvəqqəti məskunlaşma obyekti qismən, yaxud tamamilə dağıdılıb. Mütəmadi atəşə tutulan Ağdam, Tərtər, Goranboy, Füzuli, Bərdə və Cəbrayıl rayonlarında məskunlaşmış köçkünlər digər rayonlara təxliyə olunub. Bu ailələrin ərzaq, qeyri-ərzaq, tibbi yardım və digər ləvazimatlara ehtiyacı var.

Bundan başqa, diqqətə çatdırılıb ki, 30 ilə yaxın işğal altında saxlanılan rayonlar tamamilə dağıdılıb, yaşayış üçün yararsız hala salınıb. Ermənilər indi də vandalizm əməllərindən əl çəkmirlər. Azərbaycan, Ermənistan və Rusiya rəhbərlərinin bu il noyabrın 10-da imzaladıqları bəyanata uyğun olaraq, Kəlbəcər rayonunu tərk edən ermənilər evləri, məktəbləri, meşələri yandırır, ağacları kəsib aparırlar. Halbuki, azərbaycanlılar doğma yurdlarını tərk edən zaman özləri ilə heç nə apara bilməmişdilər.

Qeyd olunub ki, Azərbaycan 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərinə dəyən zərərin qiymətləndirilməsinə ekspertlər cəlb edəcək. Dövlət məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün bütün zəruri tədbirləri görəcək.

Avropa Komissiyasının Mülki Müdafiə və Humanitar Yardım Əməliyyatları üzrə Direktoratlığının eksperti Nikolas Qovart bildirib ki, missiyanın məqsədi Avropa İttifaqı (Aİ) ilə Azərbaycan arasında humanitar əməkdaşlığı müzakirə etmək, həmçinin Aİ tərəfindən edilə biləcək yardımların formasını, eyni zamanda, Qarabağda gələcəkdə nəzərdə tutulan bərpa və quruculuq işlərində dəstəyini müəyyənləşdirməkdir. Missiya məcburi köçkünlərin, eyni zamanda, hərbi əməliyyatlar zamanı zərər görmüş mülki şəxslərin ehtiyaclarını öyrənəcək və Avropa İttifaqının bu ailələrə necə dəstək verəcəyini müəyyən edəcək.

Onlayn görüşdə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas da iştirak edib.

**AZƏRTAC**

**Cəbhəyanı ərazilərdə 40 ədəd partlamamış hərbi sursat aşkar olunub**

[23:57] 17.11.2020

2020-ci il 15-17 noyabr tarixlərində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Bərdə, Füzuli, Goranboy, Yevlax, Tərtər rayonları və Gəncə şəhəri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 141 (yüz qırx bir) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən – 9 (doqquz) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 150 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 66 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 40 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd bombacıq, 1 ədəd tank əleyhinə minanın partladıcısı və 79 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 40 ədəd partlamamış hərbi sursat (PHS) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 45 687 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

Ümumilikdə Agentlik tərəfindən 27 sentyabr – 17 noyabr 2020-ci il tarixlərində 1 806 siqnal (əməliyyat çağırışı) əsasında 1 345 operativ və təxirəsalınmaz əməliyyat çıxışı olub ki, nəticədə Ağdam, Ağdaş, Ağcabədi, Bərdə, Beyləqan, Biləsuvar, Cəbrayıl, Goranboy, Naftalan, Kürdəmir, Füzuli, Tərtər, Tovuz, Şəmkir, Hacıqabul, Zərdab, Xızı, Xocavənd, Oğuz, Qəbələ rayonları, Gəncə və Mingəçevir şəhərləri ərazisində ev və həyətyanı sahəyə, neft kəmərinin yaxınlığına, Mingəçevir İES-in ərazisinə, Cənubi Qafqaz Boru Kəmərinin yaxınlığına, əkin və otlaq sahələrinə, yol kənarına, meşə massivinə, məktəbə baxış keçirilib, 566 ədəd partlamamış hərbi sursat (PHS), 4 228 ədəd piyada əleyhinə mina, 1 033 ədəd tank əleyhinə mina, 1 736 ədəd tank əleyhinə minanın partladıcısı, 76 ədəd detonator, 1 387 ədəd 9N235 bombacıqları, 10 730 ədəd müxtəlif çaplı patronlar, 2 ədəd qaz qumbarası, 168 qram qara barıt, 26 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator, 7 ədəd dron (zərərsizləşdirilmişdir), 2 ədəd raketin mikrosxemi və 1 334 ədəd partlamış raket hissələri aşkar olunub.

**AZƏRTAC**

**Füzuli rayonunun Alxanlı kəndi ərazisində bir ədəd ağ fosfor tərkibli top mərmisi zərərsizləşdirilib**

[15:35] 18.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) qrupları dünən axşam saatlarında Füzuli rayonunun Alxanlı kəndi ərazisində bir ədəd tüstülü ağ fosfor tərkibli 122 millimetrlik top mərmisi aşkarlayıblar. Həmin mərmi bu gün zərərsizləşdirilib.

AZƏRTAC xəbər verir ki, bu barədə ANAMA-nın direktoru Qəzənfər Əhmədov bildirib.

Qəzənfər Əhmədov qeyd edib ki, bu, Ermənistan silahlı qüvvələri tərəfindən atılan ağ fosfor tərkibli sursatdır. Ermənistan tərəfindən birinci dəfə oktyabrın 8-də Füzuli rayonu ərazisinə ağ fosfor tərkibli sursat atılmışdı. Biz onu aşkar etmişdik. Daha sonra Tərtər rayonunun Səhləbad kəndinə noyabrın 4-də və 5-də iki ədəd ağ fosfor tərkibli sursat atılmışdı. Bundan əvvəl isə 2016-cı ilin mayında Tərtərin Əskipara kəndində bir ədəd ağ fosfor tərkibli 122 millimetrlik mərmi aşkarlanmışdı.

**AZƏRTAC**

**Hikmət Hacıyev: Azərbaycan öz quruculuq siyasəti ilə Ermənistandan fərqini bir daha göstərəcək**

[19:28] 18.11.2020

Beynəlxalq jurnalistlərin Füzuliyə səfərində dünyanın aparıcı media orqanlarının nümayəndələri iştirak edirdilər. Onlar ermənilərin törətdikləri vəhşilikləri gördülər, sənədləşdirdilər.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Füzuli şəhərində jurnalistlərə bildirib.

Hikmət Hacıyev deyib ki, bir Azərbaycan vətəndaşı kimi hər birimiz üçün bu, həm kədərli, həm də sevincli haldır. Kədərli o mənada ki, bu cür dağıntıların, vəhşiliklərin şahidi olursan. Bu, insan həyatıdır. Ermənilər insanların həyatını məhv ediblər. Füzuli şəhəri işğaldan əvvəl 100 mindən çox insanın yaşadığı bir şəhər idi. Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biri idi. Amma ermənilər tərəfindən dağılıb, məhv edilib. Bu vəhşiliklərlə Ermənistan özünün əsl simasını göstərir. Budur Ermənistanın əsl mahiyyəti.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirdi ki, Azərbaycan Füzuli şəhərinə yenidən həyat gətirəcək. İşğaldan azad olunmuş bütün ərazilərimizə yenidən həyat gətiriləcək. Füzuli şəhərindən yenə də gülüş və sevinc səsləri eşidiləcək. Azərbaycan öz quruculuq siyasəti ilə Ermənistandan fərqini bir daha göstərəcək.

Prezidentin köməkçisi qeyd edib ki, Füzuli, eyni zamanda, Azərbaycan mədəniyyətində, xalqımızın maddi-mədəni irsində öz rolu olan bir rayon idi. Burada olan maddi-mədəniyyət abidələri də erməni vandalizmi nəticəsində tamamilə darmadağın edilib. Bugünkü səfər zamanı beynəlxalq media nümayəndələrinin Füzuli şəhərindəki tarixi abidələrimizə, məscidlərimizə də baş çəkmək imkanı oldu. Burada orta əsrin memarlıq inciləri olan hamam kompleksləri var idi. Mədəniyyət Nazirliyində bütün bu abidələrin inventarı var. İnventar üzrə onların hər birinin qiymətləndirilməsi aparılacaq. Ali Baş Komandanın dediyi kimi, işğal olunmuş ərazilərimizdəki bütün bu maddi-mədəni zərərin hamısının kompleks qiymətləndirilməsi aparılacaq. Buraya beynəlxalq ekspertlər də cəlb olunacaq. Ermənistan bu cür əməllərinə görə beynəlxalq hüquq və humanitar hüquq əsasında məsuliyyət daşıyır. Ermənistan uzun illər bu məsuliyyətini gizlətməyə çalışırdı. Amma bu məsuliyyətdən heç yerə qaça bilməz. Azərbaycan bütün bu halları sənədləşdirdikdən sonra aidiyyəti üzrə beynəlxalq səviyyədə addımlarını atacaq.

Hikmət Hacıyev vurğulayıb ki, bugünkü səfər Azərbaycan Prezidentinin tapşırığı əsasında həyata keçirilib, beynəlxalq media nümayəndələrinin iştirakı ilə bu dağıntılar, vəhşiliklər sənədləşdirilib. Sonra bunlar sistemli şəkildə konkret sahələr üzrə vahid hesabat formasına salınacaq.

"İşğaldan azad edilmiş torpaqlarımızda olduğumuz üçün qürur hissi keçiririk. Bu hissləri bizə yaşatdığına görə Ali Baş Komandanımıza təşəkkür edirik. Əsgər və zabitlərimizə təşəkkürümüzü bildiririk. Şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların ruhu qarşısında baş əyirik, yaralı əsgərlərimizə Allahdan tezliklə şəfa diləyirik", - deyə Prezidentin köməkçisi bildirib.

**AZƏRTAC**

## Xarici jurnalistlər ermənilərin Füzuli şəhərində törətdiyi vəhşilikləri öz gözləri ilə görüblər

[21:41] 18.11.2020

Noyabrın 18-də bir qrup yerli və xarici jurnalist Ermənistanın işğalından azad olunmuş Füzuli şəhərinə səfər edib.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, jurnalistlər Füzuli şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə tanış olublar. Onlar Füzuli şəhərində ermənilərin 27 il ərzində törətdikləri vəhşilikləri, vandalizmi öz gözləri ilə görüblər. Jurnalistlərə məlumat verilib ki, ermənilər Füzulidə yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıdıblar.

Səfərdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, bir Azərbaycan vətəndaşı kimi hər birimiz üçün bu, həm kədərli, həm də sevincli haldır. Kədərlidir o mənada ki, bu cür dağıntıların, vəhşiliklərin şahidi olursan. Bu, insan həyatıdır. Ermənilər insanların həyatını məhv ediblər. Füzuli işğaldan əvvəl 100 mindən çox insanın yaşadığı bir rayon, Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri idi. Amma ermənilər tərəfindən dağılıb, məhv edilib. Bu vəhşiliklərlə Ermənistan özünün əsl simasını göstərir. Budur Ermənistanın əsl mahiyyəti.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bildirib ki, Azərbaycan Füzuli şəhərinə yenidən həyat gətirəcək. İşğaldan azad olunmuş bütün ərazilərimizə yenidən həyat gətiriləcək. Füzuli şəhərindən yenə də gülüş və sevinc səsləri eşidiləcək. Azərbaycan öz quruculuq siyasəti ilə Ermənistandan fərqini bir daha göstərəcək.

Prezidentin köməkçisi qeyd edib ki, Füzuli, eyni zamanda, Azərbaycan mədəniyyətində, xalqımızın maddi-mədəni irsində öz rolu olan bir rayon idi. Burada olan maddi-mədəniyyət abidələri də erməni vandalizmi nəticəsində tamamilə darmadağın edilib. Bugünkü səfər zamanı beynəlxalq media nümayəndələrinin Füzuli şəhərindəki tarixi abidələrimizə, məscidlərimizə də baş çəkmək imkanı oldu. Burada orta əsrin memarlıq inciləri olan hamam kompleksləri var idi. Mədəniyyət Nazirliyində bütün bu abidələrin inventarı var. İnventar üzrə onların hər birinin qiymətləndirilməsi aparılacaq. Ali Baş Komandanın dediyi kimi, işğal olunmuş ərazilərimizdəki bütün bu maddi-mədəni zərərin hamısının kompleks qiymətləndirilməsi aparılacaq. Buraya beynəlxalq ekspertlər də cəlb olunacaq. Ermənistan bu cür əməllərinə görə beynəlxalq hüquq və humanitar hüquq əsasında məsuliyyət daşıyır. Ermənistan uzun illər bu məsuliyyətini gizlətməyə çalışırdı. Amma bu məsuliyyətdən heç yerə qaça bilməz. Azərbaycan bütün bu halları sənədləşdirdikdən sonra aidiyyəti üzrə beynəlxalq səviyyədə addımlar atacaq.

Hikmət Hacıyev vurğulayıb ki, bugünkü səfər Azərbaycan Prezidentinin tapşırığı əsasında həyata keçirilib, beynəlxalq media nümayəndələrinin iştirakı ilə bu dağıntılar, vəhşiliklər sənədləşdirilib. Sonra bunlar sistemli şəkildə konkret sahələr üzrə vahid hesabat formasına salınacaq.

“İşğaldan azad edilmiş torpaqlarımızda olduğumuz üçün qürur hissi keçiririk. Bu hissləri bizə yaşatdığına görə Ali Baş Komandanımıza minnətdarıq. Əsgər və zabitlərimizə təşəkkürümüzü bildiririk. Şəhidlərimizə Allahdan rəhmət diləyirik, onların ruhu qarşısında baş əyirik, yaralı əsgərlərimizin tezliklə sağalmasını arzulayırıq”, - deyə Prezidentin köməkçisi bildirib.

Ermənilərin Füzuli şəhərini darmadağın etdiyini söyləyən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev deyib ki, erməni terroru nəticəsində rayonun 105 min əhalisi pərən-pərən düşüb: “Gördüyünüz kimi Füzulidə yararlı bina qalmayıb. İctimai binalar, evlər, zavodlar, fabriklər, məktəblər, uşaq bağçaları yerlə-yeksan edilib. Ali Baş Komandanın dediyi kimi, Füzulinin gözəlliyi yenidən bərpa olunacaq, şəhər qurulub tikiləcək. İnanırıq ki, xarici ölkələrin media nümayəndələri erməni vəhşiliyini bütün dünyaya çatdıracaqlar”.

Öz evinin qarşısında dayandığını söyləyən Füzuli şəhər sakini Şadiyyə Qəhramanova Müzəffər Ali Baş Komandana, əsgərlərimizə, şəhidlərimizin analarına dərin təşəkkürünü və minnətdarlığını bildirərək deyib: “Otuz ilə yaxın bir müddət keçdikdən sonra yenə mən öz həyatimi, uçuq divarları olsa da, öz evimi görürəm. Media təmsilçilərindən xahiş edirəm ki, bizim haqq işimizi dünya ictimaiyyətinə çatdırsınlar”.

Füzuli şəhər sakini Vəliyev Vaqif deyib: “Bu gün sevincimizin həddi-hüdudu yoxdur. Çünki işğaldan azad olunmuş Füzuli şəhərində evlərimizi görürük. Prezident İlham Əliyev bizim qürurumuzu özümüzə qaytardı. Prezidentimizin dediyi kimi, hər şey öz yerini alacaq, bütün binalar bərpa olunacaq. Mən Ali Baş

Komandana və Azərbaycan Ordusuna füzulililər adından minnətdarlığımı bildirirəm. Eşq olsun Ali Baş Komandana, Azərbaycan Ordusuna!”.

**AZƏRTAC**

**“Əl-Cəzirə” kanalı işğaldan azad edilmiş Füzuli şəhərindən süjet yayımlayıb**

[15:51] 19.11.2020

Noyabrın 18-də xarici jurnalistlər işğaldan azad olunmuş Füzuli şəhərinə səfər zamanı orada Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə tanış olublar. Media nümayəndələri arasında “Əl-Cəzirə” kanalının müxbiri də olub.

AZƏRTAC xəbər verir ki, kanal Füzuli şəhərindən süjet yayımlayıb.

Süjetdə bildirilir ki, demək olar bütün Füzuli şəhəri dağıntılar içindədir. Azərbaycan hökuməti dəymiş ziyanı qiymətləndirmək üçün xarici ekspertləri dəvət edəcəyini və törətdiyi müharibə cinayətlərinə, vandalizm aktlarına görə Ermənistanı beynəlxalq məhkəməyə verəcəyini bildirib.

Süjetdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə müsahibə də yer alıb.

Prezidentin köməkçisi bildirib ki, bu dağıntılar Ermənistanın Füzuli şəhərini vandalizmə məruz qoymasının nəticəsidir. Füzuli işğaldan əvvəl Azərbaycanın ən gözəl şəhərlərindən biri idi. Azərbaycan artıq şəhərsalma işlərinə başlayıb. Daha sonra biz Füzuliyə və işğaldan azad olunmuş digər ərazilərə məcburi köçkünləri qaytaracağıq. Beynəlxalq ictimaiyyət bununla da Ermənistanla Azərbaycan arasındakı fərqi görəcək. Hamı Ermənistanın dağıdıcı fəaliyyətinin və Azərbaycanın quruculuq işlərinin bir daha şahidi olacaq. Təbii ki, Ermənistan vandalizm və insanlığa qarşı müharibə cinayəti əməllərinə görə məsuliyyət daşımalıdır. Biz beynəlxalq məhkəmələrə müraciət edəcəyik.

Hikmət Hacıyev işğaldan azad edilmiş ərazilərdə heç bir infrastrukturun qalmadığını, hətta bir binanın belə olmadığını bildirib. O, bütün bu ərazilərin ermənilər tərəfindən minalandığını diqqətə çatdırıb.

**AZƏRTAC**

**Sərhəd rayonların işğaldan azad edilməsi İran-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni perspektivlər açıb**

[15:11] 19.11.2020

İranın IRNA xəbər agentliyinin saytında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş rayonlarının azad edilməsi və hərbi əməliyyatların başa çatması ilə bağlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə regionun gələcək inkişafına toxunulub. Diqqətə çatdırılıb ki, regionun bir dövləti olaraq İran sərhədlərində sülhün və əmin-amanlığın hökm sürməsində maraqlıdır. İran hərbi əməliyyatların yekunlaşmasını region üçün əməkdaşlıq və inteqrasiya imkanlarının yaranması kimi dəyərləndirir.

Qeyd olunub ki, işğaldan azad edilən Füzuli, Cəbrayıl və Zəngilan rayonları İran ilə 130 kilometrlik sərhədə malikdir. Artıq bu rayonlar Azərbaycanın nəzarətindədir. Yaxın gələcəkdə bu ərazilərdə İran ilə Azərbaycan arasında gömrük-keçid məntəqələri yaradılacaq ki, bu da iqtisadi-ticarət əlaqələrinin inkişafına səbəb olacaq. Bu fakt hər iki qonşu dövlətin qarşılıqlı faydalı əməkdaşlığı üçün yeni perspektivlər vəd edir.

**Rabil Kətanov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tehran**

**AZƏRTAC**

**ANAMA-nın əməliyyat-axtarış tədbirləri uğurla davam etdirilir**

[02:02] 20.11.2020

Noyabrın 18-19-da Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonları və Mingəçevir şəhəri ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 61 (altmış bir) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən – 5 (beş) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 66 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 65 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 55 ədəd partlamamış hərbi sursat (PHS) və 119 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 12 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd bombacıq zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəsisslər tərəfindən 52 247 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

## Prezident: Füzuli-Şuşa yolunun çəkilişinə başlamaqla Qarabağda ilk böyük layihəyə start vermişik

[12:13] 20.11.2020

Əslində, bizim bərpa işlərimiz artıq başlanıb. Füzulidən Şuşaya yeni yolun çəkilişi ilə bağlı bütün müvafiq göstərişlər verilib, Prezidentin ehtiyat fondundan ilkin olaraq 50 milyon manat vəsait ayrılıb. Ancaq bu vəsait kifayət etməyəcək. Gələn il əlavə vəsait ayrılacaq.

AZƏRTAC xəbər verir ki, bunu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 20-də xalqa müraciətində bildirib.

Dövlətimizin başçısı deyib: "Mənim göstərişimlə Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu bir neçə hissəyə bölünüb. Göstəriş vermişəm, bir neçə şirkət cəlb edilsin ki, biz vaxt itirmədən və qısa müddət ərzində bu yolu çəkək. Çünki Azərbaycan vətəndaşları bilirlər ki, əvvəllər Şuşaya gedən yol Ağdam-Xankəndi yolu idi, indi isə hələlik bu yoldan istifadə etmək mümkün deyil. Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq, o cümlədən hesab edirəm ki, Ağdam-Xankəndi-Şuşa avtomobil yolu da müəyyən müddətdən sonra açılacaqdır. Hesab edirəm ki, kommunikasiyaların açılması, eyni zamanda, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyalar gələcəkdə bölgədə uzunmüddətli sülhə də öz töhfəsini verəcəkdir".

Prezident qeyd edib ki, bu işlər planlı şəkildə öz həllini tapacaq. "Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır", - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

**Baş Prokurorluq: Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibə aparması və terrorçuluq əməlləri ilə bağlı cinayət işi başlanıb**

[14:58] 20.11.2020

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər görülməkdədir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən döyüşlərin son mərhələsində Azərbaycan Ordusunun rəşadəti nəticəsində geri çəkilən Ermənistan silahlı qüvvələri yeni metodlardan istifadə edərək növbəti cinayət əməlləri törədib.

Araşdırmalarla müəyyənləşdirilib ki, 2020-ci il 8 oktyabr, 3, 4 və 8 noyabr tarixlərində Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, habelə Ermənistan Respublikasının ərazisində yerləşən hərbi birləşmələrinə rəhbərlik edən şəxslər və onların yaratdığı cinayətkar birliklər "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq genişmiqyaslı dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, habelə BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasının əsas təməl prinsiplərini pozaraq ətraf mühitə qəsd edən geniş, uzun sürən və ciddi ziyan vurmaq, insanları qəsdən öldürmək məqsədilə Füzuli rayonunun Arayatlı, Alxanlı, Tərtər rayonunun Səhləbad kəndinə və Şuşa şəhərinin ərazisində yerləşən Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələrə hər birinin içərisində 3,6 kiloqram P-4 kimyəvi tərkibli (ağ fosfor) olan D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmisi ilə atəş açaraq həmin ərazilərdə yerləşən təbii sərvətləri qəsdən yandırmaqla xüsusilə külli miqdarda ziyan vurub, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılıb və aparılıb, habelə terrorçuluq cinayəti törədilib.

Bununla bağlı Baş Prokurorluqda ətraflı araşdırmalar aparılmaqla, noyabrın 20-də faktla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 214.2-ci (terrorçuluq) və digər maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda cinayət işi üzrə zəruri və intensiv istintaq tədbirləri aparılmaqla müvafiq sənədləşmə işləri aparılır və sübutlar toplanılır.

Baş Prokurorluq tərəfindən təqsirli şəxslərin müəyyənləşdirilərək beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi üçün mümkün olan bütün tədbirlər görüləcək.

**“Əl-Cəzirə” kanalı ermənilərin Füzuli şəhərində törətdikləri vandalizmlə bağlı reportaj yayımlayıb**

[15:23] 20.11.2020

İşğaldan azad edilmiş Füzuli şəhərinə səfər edərək orada Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır fəsadları ilə tanış olan xarici jurnalistlər arasında “Əl-Cəzirə” kanalının müxbiri də olub.

AZƏRTAC xəbər verir ki, kanal ermənilərin Füzuli şəhərində törətdikləri vəhşiliklərlə bağlı reportaj yayımlayıb.

Reportajda qeyd edilir ki, Füzuli 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub və şəhər demək olar bütünlüklə xarabalığa çevrilib. On minlərlə Füzuli sakini məcburi köçkünə çevrilmişdi.

Reportajda Füzuli sakinlərinin bir neçəsinin fikirlərinə də yer verilib. Onlar evlərinin, məscidlərinin ermənilər tərəfindən dağıdıldığını bildirirlər. Qeyd edilir ki, Füzulidəki ən qədim binalardan biri də 100-dən çox yaşı olan teatr binası idi. İndi həmin bina tanınmaz haldadır.

Reportajda Ermənistanın Azərbaycana qarşı ağ fosfor tərkibli silahlardan istifadə etməsindən də bəhs olunur. Qeyd edilir ki, fosfor tərkibli silah insan orqanizmində ciddi fəsadlar yaradan və istifadəsi qadağan edilmiş silahdır. Azərbaycan rəsmiləri Ermənistanın bu silahdan mülki əhaliyə qarşı istifadə etdiyini bildirib.

Diqqətə çatdırılır ki, Füzulidəki Qorqan postunda yeraltı bunkerlər və səngərlər yerləşib. Geri çəkilməyə məcbur olan Ermənistan silahlı qüvvələri silah-sursatlarını burada qoyub.

Reportajda qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyev azad edilmiş ərazilərdə artıq quruculuq işlərinə başlanıldığını bildirib. Füzulidən Şuşaya çəkiləcək yolun tikinti işlərinə başlanılıb. Dövlət başçısı ermənilərin törətdikləri əməllərə görə beynəlxalq məhkəmələrdə cavab verəcəklərini qeyd edib.

Müxbir deyir ki, bu şəhərdəki dağıntılara baxanda burada vaxtilə on minlərlə insanın yaşadığını təsəvvürə gətirmək çox çətindir. Bu gün həmin sakinlər öz rayonlarına qayıtmağa hazırdırlar.

Süjetdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirləri də yer alıb.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan vandalizm və insanlığa qarşı müharibə cinayəti əməllərinə görə məsuliyyət daşıyır. Bu ərazilərdə qiymətləndirmə aparıldıqdan sonra Azərbaycan müvafiq beynəlxalq təsisatlara, məhkəmələrə müraciət edəcək.

**AZƏRTAC**

## Füzuli şəhərində Azərbaycan bayrağının sancıldığı "Araz" qəzetinin redaksiya binası 3D formatda bərpa edilib

[18:55] 20.11.2020

"Virtual Qarabağ" İKT Gənclər İctimai Birliyi işğaldan azad edilən Füzuli şəhərində Azərbaycan bayrağının sancıldığı "Araz" qəzetinin redaksiya binasını 3D formatda bərpa edib.

İctimai birlikdən AZƏRTAC-a verilən məlumata görə, 2013-cü ildən fəaliyyətə başlayan "Virtual Qarabağ" İKT Gənclər İctimai Birliyi ənənəvi olaraq işğal olunmuş rayonların tarixi, memarlıq və dini-mədəni abidələrinin, müasir binalarının 3D formatında bərpasını həyata keçirir. Bu günədək ictimai birlik tərəfindən Şuşa, Kəlbəcər, Laçın, Ağdam, Qubadlı, Cəbrayıl, Zəngilan və Füzuli rayonlarının abidələri 3D formatında bərpa edilib, hər bir rayona aid “virtual səyahət” 3D qrafik təsvirli filmlər hazırlanıb.

**AZƏRTAC**

**İtaliyanın nüfuzlu "la Repubblica" qəzeti ermənilərin Füzulidə törətdikləri vəhşiliklərdən bəhs edən videreportaj yayıb**

[10:00] 21.11.2020

Noyabrın 20-də İtaliyanın nüfuzlu və çoxsaylı oxucu kütləsinə malik "la Repubblica" qəzetinin veb səhifəsində həmin qəzetin Azərbaycana ezam olunmuş müxbiri Pietro del Renin hazırladığı "Müharibədən sonra Azərbaycana səfər: dağılmış kəndlər və partlamamış bombalar arasında" adlı videoreportajı yayımlanıb.

AZƏRTAC xəbər verir ki, videoreportajı Füzuli rayonu ərazisinə Ermənistan ordusu tərəfindən döyüş əməliyyatları zamanı atılan qadağan olunmuş fosforlu bombanın zərərsizləşdirilməsi kadrları ilə başlayan jurnalist Azərbaycan Ordusu tərəfindən azad olunmuş ərazilərə səfər edərkən sonsuz kilometrlərlə uzanan dağıntılarla dolu dəhşətli bir mənzərənin şahidi olduğunu bildirir.

Jurnalist deyir: "Biz Füzulidəyik, daha doğrusu şəhərin qalıqlarında. Burada yaşayan on minlərlə azərbaycanlının Ermənistan qoşunları tərəfindən qovulmasından 30 il sonra. 1990-cı illərin əvvəllərində Dağlıq Qarabağ uğrunda müharibə çoxsaylı etnik təmizlənmə ilə yadda qalıb. Burada hər şey dağıdılıb".

Daha sonra irəlilədikcə qarşılaşdığı mənzərəni "Qafqazın Anqkor Vatı" (Angkor Wat) adlandıran jurnalist qədim kxmerlərin paytaxtı olan Anqkor Vat kimi bu ərazilərin də baxımsızlıqdan ot örtüyünə büründüyünü qeyd edib. "Burada heç bir şey qalmayıb. Nə bir bina, nə bir ev, nə də bir məscid salamat deyil. Yolboyu biz digər dağıdılmış, yalnız ruhların dolaşdığı kəndləri görürük. Dağıdılmış müsəlman məzarlıqları, döyüşlərdə məhv edilmiş tanklar...".

Reportajı daha sonra Füzulidə işğal dövründə erməni silahlı qüvvələrinə məxsus olmuş postlardan birində davam etdirən jurnalist erməni əsgərləri tərəfindən silah-sursatlarını ataraq tələsik bir formada tərk edildiyi təəssüratını yaradan mənzərə ilə qarşılaşdığını bildirib.

Jurnalist Füzulinin iki həftə öncə azad edildiyini diqqətə çatdırır.

Reportajında 67 il əvvəl burada doğulduğu evinin dağılmış qalıqları arasında olan Füzuli şəhər sakini Fadiyə Qəhrəmanovanın müsahibəsinə yer verən jurnalist qeyd edir ki, son 10 illiklər ərzində Bakıdan kənarda sığınacaqda məcburi köçkün həyatı yaşayan F.Qəhrəmanova Füzuliyə ilk dəfə qayıdır. Qadın bildirir ki, ermənilər qızıl dişləri götürmək məqsədilə yerli məzarları açıblar. Onun arzusu bu ərazilərə qayıtmaqdır. Daha sonra qadın Azərbaycan xalqına qarşı törədilmiş soyqırımından bəhs edir və Azərbaycan Ordusunun qalib gəlmək əzmini həm də bununla əsaslandırır.

Reportajında, həmçinin ermənilərin yaşadıqları evləri azərbaycanlılara verməmək üçün yandıraraq tərk etdiyini bildirən jurnalist bu addımın torpaqları tərk edən ermənilər tərəfindən Azərbaycana qarşı nifrət əlaməti kimi dəyərləndirildiyini vurğulayır.

Reportajında 3 gün əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Füzuliyə səfərinə toxunan jurnalist Prezidentin sözlərinə istinadən qısa zaman ərzində Füzuli rayonunun yenidən bərpa ediləcəyini və 1993-cü ildə Ermənistan qoşunları tərəfindən qovulmuş on minlərlə məcburi köçkünün qayıtması üçün lazımi şəraitin yaradılacağını bildirir.

**Elgün Niftəli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Roma**

**AZƏRTAC**

**Euronews" telekanalı işğaldan azad olunmuş Füzuli şəhərindən reportaj hazırlayıb**

[11:35] 21.11.2020

"Euronews" telekanalı Azərbaycanın işğaldan azad olunmuş Füzuli şəhərindən reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan əsgərləri tərəfindən Füzuli şəhəri azad ediləndən sonra Azərbaycan bayrağını ucaltmaq üçün bircə salamat bina tapmaq mümkün olmadığı qeyd edilir. Buna görə də bayrağı dağıdılmış mədəniyyət evinin fasadı üzərində ucaltmalı olublar.

Reportajda bildirilir ki, işğaldan əvvəl sıx məskunlaşmış və günbəgün firavanlaşan Füzuli şəhəri 27 il bundan əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və qarət edilib. İndi bu ərazi apokaliptik film üçün dekorasiyaya oxşayır.

Vurğulanır ki, şəhərdə yalnız azərbaycanlı hərbi qulluqçuların müşayiəti ilə və əsas yollarla hərəkət etmək mümkündür. Əsgərlərin sözlərinə görə, hər yer minalanıb. Buna görə də 30 il bundan əvvəl Füzulidə yaşamış insanlar indi yalnız öz evlərinin xarabalıqlarına uzaqdan baxa bilərlər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Euronews"un müxbirinə bildirib ki, bu, Ermənistan tərəfindən Azərbaycana və xüsusən Füzuliyə qarşı törədilmiş vandalizm aktıdır. İşğaldan əvvəl Füzulidə 100 min insan yaşayırdı. Bu şəhər günbəgün firavanlaşırdı, lakin erməni işğalçıları onu yerlə-yeksan ediblər. Hikmət Hacıyev deyib ki, Azərbaycan ermənilərin dağıtdığı şəhəri bərpa edəcək, Füzuliyə həyat qayıdacaq və o, yenə firavanlaşan Azərbaycan şəhərinə çevriləcək.

Füzulidən olan məcburi köçkün Arzu Şəfiyeva qeyd edib ki, təqribən 30 il bundan əvvəl onun ailəsi buradan qaçmağa məcbur olanda evləri tamam başqa görkəmdə idi. O deyib: "Biz heç nə götürə bilmədik, hər şeyi qoyub getdik. Evimizin qapısını bağlamışdıq, düşünürdük ki, oraya qayıdacağıq. İnanıram ki, buraya qayıdacağıq, təzə ev tikəcəyik, onun şəklini çəkəcəyik və indiki vəziyyətlə onun fərqini göstərəcəyik".

Reportajın sonunda vurğulanır ki, bu şəhəri özlərinin evi adlandıran 10 minlərlə insan Füzuliyə qayıtmağı və onu bərpa etməyi səbirsizliklə gözləyir.

**AZƏRTAC**

## Məşhur fotojurnalist Reza Deqati yenə Qarabağa tələsir

[13:32] 21.11.2020

**"Ermənistanın Fransadakı səfirinə dedim ki, siz 500 min nəfər deyil, lap 500 milyon olsanız da mən haqq sözünü söyləyəcəyəm"**

**Reza Deqatiyə bir neçə dəfə zəng etdik. Telefonu məşğul idi. Sonra özü zəng vurdu. Dedi ki, yol üstəyəm, Qarabağa gedirəm. Razılaşdıq ki, suallarımızı "WhatsApp"la cavablandırsın...**

Vətən müharibəsinin taleyüklü günlərində Parisdən Azərbaycana gələn dünya şöhrətli fotojurnalist Reza Deqati, həmişə olduğu kimi, Qarabağ həqiqətlərini dünyaya sənətinin dili ilə anladır. Deyir ki, Fransa KİV-ləri üçün Azərbaycana fotomüxbir göndərmək maraqlı deyil. Hətta ona deyiblər ki, Ermənistana get, fotolarına nə qədər lazımdır pul verərik. Əslən Təbrizdən olan azərbaycanlı fotojurnalist öz puluna təyyarə bileti alıb ölkəmizə gələrək yaşadığımız tarixi günləri fotokamerasının yaddaşına köçürür. Bu gün onun çəkdiyi fotolar ölkəmizdə telekanallar, informasiya agentlikləri, xəbər saytları və portallar tərəfindən yayılır. Reza Deqati Qarabağda və ölkəmizin digər yerlərində müharibə vaxtı və sonra yaşanılanları fotolara həkk edir, KİV-lərə müsahibələr verir, telekanallara dəvət olunur. Necə deyərlər, bir dəqiqə belə boş vaxtı yoxdur. Suallarımızı da Füzuliyə gedərkən yolda cavablandırdı. Dedi ki, AZƏRTAC "Instagram" səhifəmdən nə qədər istəsə, fotolar götürüb saytında yerləşdirə bilər.

**- Bir aydan çoxdur ki, Azərbaycandasınız. Haralara getdiniz, nələri lentə aldınız?**

- Mən bu günlər iki istiqamətdə işləyirdim: həm işğaldan azad edilən ərazilərdə, həm də Ermənistan tərəfindən kasetli bomba hücumlarına məruz qalan Bərdə, Tərtər, Gəncə və digər yerlərdə. Əsgərlərimiz irəlilədikcə, mən də onların arxasınca gedirdim...

Reza Deqati Xudafərindən çəkdiyi yeni fotoları "Instagram" səhifəsində belə bir qeydlə paylaşır: "Cəbrayıllı köçkünlər bu yerləri 27 ildən sonra ilk dəfə görə biləcəklər".

Tərtər rayon sakini 16 yaşlı Orxan İsmayılzadənin dəfnindən fotolar paylaşan Reza Deqati yazır: "Orxan bağlarında nar yığarkən Tərtər şəhərinin Ermənistan tərəfindən atəşə tutulması nəticəsində həlak olub. Narın qırmızı rəngi onun axan qanını bizə kədərlə xatırladır".

Bərdənin bombalanması zamanı həlak olan 7 yaşlı Aysu İsgəndərovanın dəfninə aid fotoları belə bir şərhlə təqdim edir: "Bombardman baş verən zaman kiçik bacısı ilə birlikdə çiçək yığırdı"...

**- Dağıdılmış şəhərləri, kəndləri, tarixi abidələri görəndə nə kimi hisslər keçirirsiniz?**

- Bilirsiniz, mən əslində memaram və bunlara memar gözü ilə baxıram. Getdiyim kəndlərdə bir salamat evə rast gəlmədim. İki məscid nisbətən salamat qalıb. Qubadlının Məmər və Füzulinin Alxanlı kəndində olan qədim məscidlərdə donuz, mal-qara saxlayıblar. Bunların hamısının fotosunu çəkmişəm...

Fotojurnalist "Donuz tövləsinə döndərilmiş məscid" qeydi ilə paylaşdığı fotolara bu şərhi verir: "Mən məscidə girdim, ətrafa baxdım, döşəmə nəcislə örtülmüşdü, qoxu ağır idi. Mən heyvanlara su verilən iki qab gördüm. Əsgərlər mənə dedilər ki, onlar məscidə daxil olanda ora donuzla dolu idi".

Füzulinin Alxanlı kəndindəki məscidə dair paylaşımında Reza Deqati yazır: "Burada gördüyüm mənzərə əvvəlki yerlərdən heç də fərqlənmirdi. Belə görünür ki, ermənilərin məscidləri tövləyə çevirmək kimi adəti var. Bu, onların müsəlmanların ibadət yerlərinə münasibətini göstərir".

Müsahibimiz deyir ki, eşitdiyinə görə, işğaldan azad edilmiş şəhər və kəndlərimiz vaxtilə çox gözəl olub. Bu yerlər bərpa ediləndə modern memarlığa deyil, ənənəvi üsluba üstünlük verilməsi daha yaxşı olar. Məsələn, İtaliyada, Fransada, İspaniyada qədim kəndlər saxlanılıb, oralara milyonlarla turist gedir. Qarabağ bölgəsi də belə ola bilər.

Reza Deqati Qarabağda və Azərbaycanın digər guşələrində çəkdiyi minlərlə fotonu hazırda sosial şəbəkələrdə paylaşır. Qeyd edək ki, "National Geographic", "Time Photo" və digər populyar jurnallar onun əsərlərinə yer ayırır, fotoları "PixPalace" platformasında yerləşdirilir.

Fotojurnalist 20 Yanvar faciəsinin, Xocalı soyqırımının şahidləri ilə, qaçqın və məcburi köçkünlərlə görüşüb, erməni faşistlərinin vəhşiliyini əks etdirən səhnələri, doğmalarını itirdiyinə görə iztirab çəkən insanları lentə alıb. Hər kəsin anladığı dillə - fotoların dili ilə Azərbaycan həqiqətlərindən bəhs edən Reza Deqatinin əsərləri Avropanın bir çox ölkələrində sərgilənib.

**- Siz erməni lobbisinin güclü olduğu Fransada yaşayırsınız. Təzyiqlər, təqiblər, maneələr olurmu?**

- Qırx ildir Fransada yaşayıram, bu dövlətin vətəndaşıyam. 1992-ci ildən Xocalı faciəsini, məcburi köçkünlər məsələsini dünyaya anlatmağa çalışdım və elə o vaxtdan erməni lobbisinin hədəfinə çevrildim. Məsələn, sərgilərimə gələrək oradakı fotoları cırırlar. Bir dəfə sərgimin açılışından bir neçə saat əvvəl bütün şəkillərə təhqiramiz sözlər yazmışdılar. Elə olub ki, konfranslarda çıxış etdiyim zaman qışqıraraq deyiblər ki, bu, Azərbaycan hökumətinin adamıdır. İnternetdə də əleyhimə çox yazırlar. Bir dəfə Ermənistanın Fransadakı səfiri Parisdə məni söhbət etməyə çağırmışdı. Bu ölkədə bir qayda olaraq nazirlər, diplomatlar, səfirlər başqa millətlərdən olan sənət adamlarına hörmətlə yanaşırlar. Yəni elə vaxt olub ki, məsələn, bir tədbirdə Fransa Prezidenti nahar zamanı məni öz yanında əyləşməyə dəvət edib. Ermənistanın Fransadakı səfiri də məni yeməyə dəvət edəndə ondan nə barədə söhbət edəcəyini soruşdum. Dedi ki, fotolarımdan xoşu gəlir. Həmin günlərdə Parisdə parlament binasının yanında mənim böyük sərgim keçirilirdi. O sərgidə Xocalı haqqında məşhur fotom – qadının oğlunun və ərinin cəsədini tapdığını və onların gözlərinin çıxarıldığını deyərək fəryad qopardığı məqamda çəkdiyim foto da var idi. Ermənistan səfiri Fransada ermənilərin 500 min, mənim isə tək olduğumu söyləyərək məni qorxutmağa və tutduğum yoldan döndərməyə çalışdı. Hətta dedi ki, axı Siz əslən Təbrizdənsiniz. Ermənistanın İranla, iranlılarla çox yaxşı münasibəti var, Siz də bizimlə işləyin.

Mən etiraz etdim. Bir fotojurnalist olaraq gördüklərimi dünyaya çatdırmaq üçün məsuliyyət daşıdığımı, o cümlədən Ermənistanın Xocalıda törətdikləri qətliamdan fotolarım olduğunu bildirdim. Dedim ki, siz 500 min nəfər deyil, 5 milyon, lap 500 yüz milyon olsanız, mən haqq sözünü deyəcəyəm və durub getdim. Sabahısı bunlar adam göndərdilər, sərgidə həmin məşhur fotonu cırdılar. Mən o fotonun yerini boş saxladım, yazdım ki, hər kəsin fikrini açıq söylədiyi Parisdə məni sərgi keçirməyə qoymurlar. Ona görə də mən bu fotonu mən veb-saytıma qoymuşam və hər kəs baxa bilər. Həmçinin veb-saytıma digər fotoları qoydum. Erməni lobbisi məni məhkəməyə çəkmək üçün vəkil də tutmuşdu... Digər bir təzyiq də maliyyə məsələsindədir. Bu illər ərzində 20-30 layihəmin həyata keçməsinə mane olublar. Məsələn, Fransada hər hansı muzey fotolarımı sərgiləmək istəyir. Bu zaman həmin muzeyə təzyiqlər göstərilir. Beləliklə, sərgi baş tutmur.

Reza Deqati 40 ildən çoxdur dünyanı gəzib dolaşır. Otuzdan çox kitabın müəllifidir. Bir sıra beynəlxalq mükafatlar alıb. Missuri Universitetinin "Şərəf" medalına layiq görülüb, Parisin Amerika Universitetinin fəxri doktorudur. Fransa hökuməti onu Milli Cəngavərlik Ordeni ilə təltif edib. Parisdə "Mühacirin düşüncələri", "Kəsişən talelər", Vaşinqtonda "Bir dünya, bir tayfa", Normandiyada "Müharibə+Sülh" və Dohada "Ümid" adlı sərgiləri təşkil olunub. Fotoqraf ümumilikdə 250 sərginin iştirakçısı olub.

**AZƏRTAC**

**Azərbaycandakı xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların rəhbərləri və hərbi attaşelərin işğaldan azad olunmuş Füzuliyə səfəri təşkil edilib**

[12:00] 22.11.2020

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığı əsasında ölkəmizdə akkreditasiya olunmuş xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların rəhbərləri, diplomatlar və hərbi attaşelərin işğaldan azad olunmuş Füzuliyə səfəri təşkil olunur.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabında yazıb.

Prezidentin köməkçisi bildirib ki, səfərdə 120-dən çox diplomat iştirak edir.

**AZƏRTAC**

**DTX-nın rəisinin Şuşa şəhərinə xidməti səfəri olub**

[10:44] 22.11.2020

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə işğaldan azad olunmuş Şuşa şəhərinin təhlükəsizliyinin gücləndirilməsi, şəhərdə hərbi və hüquq-mühafizə orqanları arasında koordinasiya işinin təşkili məqsədilə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Əli Nağıyevin noyabrın 19-20-də Şuşa şəhərinə xidməti səfəri olub.

Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, səfər çərçivəsində Xidmət rəisi, həmçinin Füzuli şəhəri və Hadrut qəsəbəsində DTX-nin yeni fəaliyyətə başlamış yerli şöbələrinin təchizat məsələləri və iş şəraiti ilə tanış olub, Müdafiə Nazirliyinin və digər strukturların əməkdaşları ilə görüşlər keçirib, qarşıda duran birgə vəzifələr müzakirə edilib.

**TRT HABER: Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir**

[14:54] 22.11.2020

Türkiyənin "TRT Haber" televiziya kanalı Ermənistan işğalından xilas edilən Ağdam rayonundakı tükürpədici vəziyyətlə bağlı geniş reportaj yayıb.

AZƏRTAC xəbər verir ki, talan edilən, qapı və pəncərələrinə, divarlarına qədər sökülüb aparılan evlərin dəhşətli mənzərəsini canlı yayımla tamaşaçılara çatdıran aparıcı real mənzərənin rayon mərkəzi də daxil olmaqla, bölgənin 27 il işğalda saxlanıldığını deyil, sanki əsrlər əvvəl dağıdılıb məhv edilməsi barədə acı təəssürat yaratdığını vurğulayıb. Ağdamdakı dəhşətli mənzərə Ermənistanın vəhşiliyinə daha bir nümunədir. Ağdamda da eynilə Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlıda qarşılaşdığımız acınacaqlı vəziyyətin şahidi olduq.

Diqqətə çatdırılıb ki, artıq Ağdam Cümə məscidinin işıqlandırılıb, hərbi birliklər rayonun minalardan təmizlənməsini davam etdirir.

Qeyd edək ki, Azərbaycanın işğal altındakı torpaqlarını düşməndən azad etmək üçün Silahlı Qüvvələrimizin rəşadətli Qələbəsi ilə nəticələnən möhtəşəm zəfər və təcavüzkar Ermənistanın təslim olması Türkiyənin kütləvi informasiya vasitələri tərəfindən ən əsas mövzu kimi diqqət mərkəzində saxlanılmaqdadır.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Hikmət Hacıyev: Füzulidən dünyaya sülh və dözümlülük müraciəti edirik**

[17:15] 22.11.2020

Füzuli şəhərinin Ermənistan tərəfindən dağıdılmış Mədəniyyət Mərkəzinin qarşısındayıq. Musiqinin gücü ilə dünyaya sülh və tolerantlıq mesajlarımızı göndəririk.

AZƏRTAC xəbər verir ki, bu barədə xarici diplomatlarla, hərbi attaşelərlə Füzuli rayonuna səfər edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Tvitter" hesabında yazıb.

Ermənilər tərəfindən dağıdılmış mədəniyyət mərkəzinin qarşısında 27 il sonra skripka ilə mahnı ifa edilib.

Qeyd edək ki, ölkəmizdəki diplomatik korpusun nümayəndələri, o cümlədən səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri Ermənistan silahlı qüvvələrinin işğalından azad olunmuş Füzuli şəhərinə səfər ediblər.

Səfərin məqsədi diplomatları və hərbi attaşeləri Füzuli şəhərində Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşiliklər, cinayət izləri ilə yerindəcə tanış etməkdir.

**AZƏRTAC**

**“Arabnews” qəzeti : Azərbaycanlılar öz evlərinə qayıdırlar**

[15:23] 22.11.2020

Səudiyyə Ərəbistanının ingilis dilində nəşr edilən nüfuzlu “Arabnews” qəzetində “Azərbaycanlılar öz evlərinə qayıdırlar” sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Ordusunun 27 il işğal altında qalan torpaqları azad etdiyi və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtdıqları qeyd olunur. Diqqətə çatdırılır ki, ötən əsrin 90-cı illərinin əvvəlində 1 milyona yaxın azərbaycanlı torpaqların Ermənistan tərəfindən işğalı nəticəsində öz evlərini tərk etmək məcburiyyətində qalmışdı. Sentyabrın 27-də başlayan və 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan Ordusu tərəfindən 300-dən çox yaşayış məntəqəsi azad edilib. Noyabrın 10-da Ermənistan baş nazirinin kapitulyasiya bəyanatını imzalamasından sonra Ağdam, Laçın və Kəlbəcər rayonlarının da Azərbaycana təhvil verilməsi prosesinə başlanılıb.

Məqalədə vurğulanıb ki, azərbaycanlılar işğaldan azad edilmiş Ağdam və Füzuli şəhərlərində dəhşətli mənzərə, dağıdılmış binalar, yollar və digər infrastrukturla qarşılaşıblar. Vaxtilə 50 mindən çox sakini olan Ağdam şəhəri xarabalığa çevrilib.

Müəllif Cəbrayıl sakini Adil Şərifovun ailəsinin 27 ildir Bakıda məcburi köçkün həyatı yaşadığını, onun torpaqlarımızın azad edilməsi ilə bağlı sevinc hisslərini də diqqətə çatdırıb. Qeyd edib ki, azərbaycanlı ailə Cəbrayıl şəhərinin erməni işğalçıları tərəfindən dağıdıldığı barədə danışıb. O bildirib ki, ailə üzvləri ilə birlikdə öz doğma yurdundakı evini yenidən tikəcək.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri. Qahirə**

**AZƏRTAC**

**Polşanın ölkəmizdəki səfiri: Füzulidəki acınacaqlı vəziyyət beynəlxalq ictimaiyyətə çatdırılmalıdır**

[19:31] 22.11.2020

Biz bu gün Füzulidə tamamilə dağılmış ərazilər gördük.

AZƏRTAC xəbər verir ki, bu sözləri bu gün işğaldan azad olunmuş Füzuli rayonunda səfərdə olan Polşanın Azərbaycandakı səfiri Rafal Poborski bildirib.

Səfir qeyd edib ki, bu, bir ölkə üçün acınacaqlı vəziyyətdir və beynəlxalq ictimaiyyətə çatdırılmalıdır: "İnanıram ki, tez bir zamanda Azərbaycan dövləti buranı gözəl məkana çevirəcək".

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan işğalı davam etdirmək üçün hərbi infrastrukturun yaradılmasına böyük sərmayə qoyub**

[17:29] 22.11.2020

Diplomatik korpus nümayəndələrinin Ermənistanın işğalından azad edilmiş Füzulidəki ən güclü hərbi mövqelərindən birinə səfəri. Əsasən bu mövqedən Azərbaycanın dinc əhalisinə hücum etdilər.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabında yazıb.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan işğalı davam etdirmək üçün bu lazımsız hərbi infrastrukturun yaradılmasına böyük sərmayə qoyub.

**AZƏRTAC**

**ANAMA cəbhəboyu ərazilərdə mina və partlamamış hərbi sursat zərərsizləşdirib**

[02:25] 24.11.2020

Noyabrın 20-23-də Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinə (ANAMA) Ağcabədi, Ağdam, Cəbrayıl, Füzuli, Xocavənd, Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng mərkəzi sistemindən 83 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 8 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 91 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 58 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 16 ədəd partlamamış hərbi sursat (PHS), 27 ədəd tank əleyhinə mina, 2 ədəd tank əleyhinə minanın partladıcısı, 1 ədəd piyada əleyhinə mina, 2 ədəd bombacıq, 1 ədəd hərbi məqsədlər üçün istifadə olunan meteoroloji radiopelenqator və 119 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 31 ədəd mina və partlamamış hərbi sursat (PHS), 2 ədəd bombacıq zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 72 min 355 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Biz bütün dünyaya göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır**

[11:23] 24.11.2020

Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirib.

Dövlətimizin başçısı sözünə davam edərək deyib: “Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər”.

Prezident qeyd edib ki, Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. “Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin”, - deyə Prezident İlham Əliyev əlavə edib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Müharibənin bütün sirlərini açmaq hələ tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq**

[11:18] 24.11.2020

Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikirləri Ağdam məscidinin qarşısında çıxışı zamanı deyib.

"Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar mələyə-mələyə, sürünə-sürünə, onun-bunun dabanlarını yalaya-yalaya torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik, amma, bax, buradan yox, arxa tərəfdən", - deyə Müzəffər Ali Baş Komandan bildirib.

Müharibənin bütün sirlərini açmağın hələ tez olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi".

**AZƏRTAC**

**Azərbaycan Prezidenti: Biz qəhrəman əsgər və zabitlərimizin hesabına qələbə qazanmışıq**

[11:14] 24.11.2020

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq, bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu barədə işğaldan azad edilmiş Ağdam şəhərində olarkən bildirib.

Ağdama gələrkən ən azı üç müdafiə xətti gördüyünü söyləyən dövlətimizin başçısı deyib: "Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq".

Prezident qeyd edib ki, təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil. "Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**

**Özbəkistan portalında Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin Füzuliyə səfəri barədə məqalə dərc olunub**

[12:06] 24.11.2020

Özbəkistanın "interfax.uz" portalında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən Azərbaycandakı diplomatik korpusun nümayəndələri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərlərinin Ermənistanın işğalından azad olunmuş Füzuliyə səfəri barədə məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə bu haqda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin özünün "Twitter" hesabında yazdığı bildirilir.

Prezidentin köməkçisinə istinadla qeyd olunub ki, səfərdə 120-dən çox diplomat iştirak edib.

Bildirilib ki, Füzulinin bütün yaşayış məntəqələri, tarix və mədəniyyət abidələri, qəbiristanlıqlar dağıdılıb.

**Qulu Kəngərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Daşkənd**

**AZƏRTAC**

**Prezidentə yazırlar: Vətən müharibəsində qalib gəlib torpaqlarımıza qovuşmaq sevincini bizə yaşatdığınız üçün Sizə minnətdarıq**

[19:12] 24.11.2020

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc və qürur hissləri ifadə olunan məktublarda dövlətimizin başçısına minnətdarlıq bildirilir, Zəfər təbrikləri çatdırılır.

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Özbəkistanın Cizak şəhərində yaşayan Günel Əliyeva yazır: “Hörmətli cənab Prezident, Özbəkistanda yaşayan azərbaycanlılar adından Sizi və bütün Azərbaycan xalqını möhtəşəm Qələbə münasibətilə səmimi qəlbdən təbrik edirəm. Erməni təcavüzü nəticəsində şəhid olan bir neçə qohumumuz var. Onların ruhu bu gün şaddır. Vətən yolunda şəhid olanlara Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Uca Tanrı Sizi və xalqımızı qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Almaniyanın Frankfurt şəhərində yaşayan Ernad Deni Çomaqa: “Hörmətli cənab Prezident, Qarabağda suverenliyinizin bərpa olunması münasibətilə Bosniya diasporu adından Sizi təbrik edirəm. Bosniya xalqı Azərbaycan xalqının vəziyyətini yaxşı anlayır və onunla eyni çətinlikləri yaşayıb. Biz də yalnız müsəlman olduğumuz üçün təcavüz, zülm və soyqırımına məruz qalmışıq. Azərbaycanın qələbəsini ədalətin zəfəri kimi görməkdən məmnun olduq. Bu, bizə bir daha sübut etdi ki, xalq öz istəyi ilə azadlıq uğrunda səy göstərməsə, heç kim onun yerinə bunu etməyəcək. Azanın Şuşa və Ağdam məscidlərindən əbədi səslənməsini, həmçinin Bosniya xalqı ilə Azərbaycan xalqının qardaşlığının daimi olmasını arzu edirik”.

Masallıdan Yavər İsmayılov: “Möhtərəm Prezident, cənab İlham Əliyev, Sizi, xalqımızı, Ordumuzu möhtəşəm Qələbə münasibətilə Masallı rayonuLəngan kənd sakinləri adından ürəkdən təbrik edirik. Cənab Prezident, Sizin komandanlığınızla bu müqəddəs hissləri bizə yaşadan Müzəffər Ordumuza dərin minnətdarlığımızı bildiririk. Sizin rəhbərliyinizlə doğma Azərbaycanımız ildən-ilə daha da çiçəklənəcək, xalqımızın rifahı daha da artacaq. Bütün xalqımız Sizə Azərbaycanın Milli Qəhrəmanı fəxri adının verilməsi təklifini dəstəkləyir. Uca Tanrıdan Sizə, ailənizə, sevdiklərinizə uzun ömür, cansağlığı arzu edirik”.

Gəncədən Gülnar Salahova: “Çox hörmətli liderimiz, əvvəla Sizi əldə etdiyiniz Qələbə münasibətilə ailəmiz adından ürəkdən təbrik edirik. Siz ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq xalqımızın xilaskarı oldunuz. Allah hər zaman yolunuzu açıq etsin! Cənab Prezident, bu günlərdə sevincimizin həddi-hüdudu yoxdur. Əminik ki, geri qaytarılmış torpaqlarımızda Sizin sayənizdə azad yaşayacağıq. Evimizin ağsaqqalı ilə birlikdə biz Sizin hər bir çıxışınızı diqqətlə izləyir və verdiyiniz Qələbə xəbərlərini sevinc göz yaşları ilə qarşılayırıq. Cənab Prezident, Sizə olan inamımız, güvənimiz sonsuzdur. Vətənimiz uğrunda şəhid olmuş oğullarımızın ruhu qarşısında baş əyərək, Vətən sağ olsun deyirik! Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun!”.

Naxçıvandan Məmməd Məmmədov: “Qəhrəman Prezidentimiz, Qarabağ torpaqlarının düşməndən alınması münasibətilə bütün naxçıvanlılar adından və ailəm adından Sizi təbrik edirik. Allah Sizi, Ordumuzu və Qarabağımızı və bütün xalqımızı qorusun. Naxçıvanlılar Sizinlə fəxr edir. Qarabağ Azərbaycandır!”.

Şirvan sakini Lyudmila Qribova: “Hörmətli cənab Prezident, biz Qələbəyə ürəkdən inanırdıq və o gün gəldi! Qələbə! Sonsuz sevinc və göz yaşları bir-birinə qarışdı. Ümummilli liderimiz Heydər Əliyevin layiqli oğlunun - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi altında bizim şanlı Ordumuz çoxdan həsrət qaldığımız Qarabağ torpaqlarını özümüzə qaytardı. Qəlbimiz sevinc və qürurla doludur ki, xalqımız yenilməzdir! Mən Şirvan şəhərində doğulub boya-başa çatmışam, hazırda 13 nömrəli orta məktəbin müəllimiyəm. Ailəm də artıq 6-cı nəsildir ki, bu bərəkətli torpaqlarda yaşayıb, yaşayır və yaşayacaq. Bizim başqa Vətənimiz yoxdur! Çünki bu Vətən mənə pulsuz təhsil verib, yaxşı tərbiyə verib, iş verib. Mən şəhər partiya komitəsində də işləmişəm, məktəb direktoru da olmuşam və heç kəs mənə deməyib ki, “sən russan”. Altı nəsil az deyil. Hər zaman sevincdə də, kədərdə də öz xalqımızla birlikdə olmuşuq və nə qədər ki, ürəklərimiz döyünür - belə də olacaq! Respublikamızın ən çətin günlərində - 1993-1997-ci illərdə mənim neftçi-mühəndis və ehtiyatda olan zabit həyat yoldaşım Silahlı Qüvvələrdə xidmətə çağırılıb, kapitan rütbəsində şərəflə öz torpaqlarını qoruyub. Mənim övladlarım və nəvəm burada

böyüyüb, Azərbaycan Respublikasının layiqli vətəndaşları olaraq yetişmişlər. Hörmətli Prezidentimiz, Sizə, ailənizə xoşbəxtlik, bütün xalqımıza səmimi-qəlbdən rifah arzulayıram. Yaşasın Azərbaycan!".

Balakən sakini Kərimət Əliqayeva: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın azadlığı uğrunda qazandığımız Qələbəyə, Zəfərə görə Sizi ailəmiz adından, şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Çox şükürlər olsun ki, bundan belə biz şəhid analarının gözlərindən yaş axmayacaq, şəhid oğullarımızın qanı yerdə qalmadı, daha qan tökülməyəcək, ah-nalələr göyə ucalmayacaq. Bir şəhid anası olaraq ən böyük arzum 21 il öncə şəhid olmuş oğlumun qanı tökülən yeri ziyarət etməkdir. Bu imkanı bizə bəxş etdiyiniz üçün Sizə minnətdaram, ey böyük Sərkərdəmiz!".

Füzuli sakini Mədəd Hacıyev: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, apardığınız məqsədyönlü siyasəti dəstəkləyir və bu ağır Vətən müharibəsində dövlətimizin qalib olub öz torpaqlarına qovuşmağı sevincini bizə yaşatdığınız üçün Sizə öz dərin minnətdarlığımı bildirirəm. Sizin sayənizdə Azərbaycan xalqı tarixə şanlı hərflərlə Qələbə sözünü yazdı. Bütün Füzuli camaatı adından Sizə təşəkkür edirəm. Allah şəhidlərimizə rəhmət eləsin. Allah Sizi və Ordumuzu qorusun! Yaşasın müstəqil Azərbaycan!".

Gədəbəydən Elsevər Nağıyev: "Müzəffər Ali Baş Komandan, bu gün ölkəmiz naminə həyata keçirilən tədbirlərə, görülən işlərə görə Sizə minnətdarlığımı bildirirəm. Torpaqlarımızın azadlığı uğrunda əldə edilmiş Qələbə münasibətilə Sizi təbrik edir, Sizə xoş arzularımı bildirirəm. Biz gənclər daim Sizə güvənərək Sizin ətrafınızda sıx birləşmişik. Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram".

Ağdam sakini Vüsalə Bağırova: "Hörmətli cənab Prezident, Sizin Vətənimizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizəni dəstəkləyirik. Çünki Siz bu mübarizə ilə tarix yazırsınız. Ən yeni tarix, o tarix ki, Azərbaycan əbədi bir dövlət olduğunu sübut edir. Biz Sizin siyasətinizi ailəliklə alqışlayırıq. Qarabağ Azərbaycandır".

Masallıdan Pərvanə Məmmədova: "Cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını erməni vandallar üzərində qazanılmış bu möhtəşəm Qələbə münasibətilə təbrik edirəm və əmin-amanlıq arzulayıram. Sağ olsun, mənim rəhbərim. Uca Allahdan bu müqəddəs yolda canlarından keçən qəhrəman Azərbaycan övladlarına rəhmət, yaralılarımıza şəfa diləyirəm. Yaşasın Azərbaycan!".

Bakı sakini Gülşən İsmayılova: "Hörmətli cənab Prezident, ölkənin yenilməz sərkərdəsi, mənim 65 yaşım var. Özüm Qarabağlı olsam da 17 yaşından Bakı şəhərində yaşayıram. Kəlbəcər, Laçın və Şuşanı görən, gəzən adam kimi yenidən həmin yerləri görmək nisgili ilə yaşayırdım. Siz isə Qarabağ nisgilini ürəyimizdən sildiniz, bizi göylərə qaldırdınız. Şəhid ailələrinin qarşısında baş əyir, onlara səbir arzulayır, şəhidlərimizə rəhmət, yaralılara şəfa diləyirəm. Siz bizim ölkəmizi inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandansınız. Siz xalqımızın adil rəhbəri, müdrik atasısınız. Sizin qızıldan heykəliniz qoyulmalıdır. Allah Sizə kömək olsun! Rəbbim Sizi qorusun! Allah Sizi bədnəzərdən qorusun!".

**Prezident: Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir, Azərbaycan zəfər çalmış ölkədir**

[13:22] 25.11.2020

Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllini hər an dayandıra bilərik və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Deməlidir ki, nə vaxt bizim torpaqlarımızdan çıxır. Bu olan kimi, mən bizim hücum əməliyyatlarımızı dayandırıram.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə xalqa müraciətində müharibənin nəticələrindən danışarkən bildirib.

“O, artıq cəzasını alıb. Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi”, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident sözünə davam edərək deyib: “Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı”.

Azərbaycan Prezidenti xalqa müraciətini bu sözlərlə tamamlayıb: “Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!”

**AZƏRTAC**

**“Vətən müharibəsində möhtəşəm Qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!” devizi altında tədbirlər keçirilib**

[17:12] 25.11.2020

Vətən müharibəsinin od-alovundan keçərək qələbə bayrağımızı zirvələrə ucaltmış mübariz döyüşçülərlə Müdafiə Nazirliyinin təşkilatçılığı ilə görüşlər keçirilib, incəsənət ustalarının çıxışları təşkil olunub, ədəbi-bədii kompozisiyalar təqdim edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı, Zəngilan rayonlarında və Şuşa şəhərində “Vətən müharibəsində möhtəşəm qələbəyə görə sağ ol, Azərbaycan əsgəri!” devizi altında keçirilən vətənpərvərlik tədbirlərində əvvəlcə ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Layihənin müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlardan, ordu ilə xalqın sağlam mənəvi birliyindən, döyüşlərdə yeni tarix yazan qüdrətli sərkərdəmizin və mərd oğullarımızın fədakarlıqlarından iftixarla söhbət açıb.

Xalq artisti Samir Cəfərov, Əməkdar artist Cahangir Qurbanov və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı qrupunun iştirakı ilə Müzəffər Ali Baş Komandanı, rəşadətli Azərbaycan Ordusunu və qələbəni tərənnüm edən vətənpərvərlik mahnıları, hərbi marşlar səsləndirilib.

Bəstəkar Azad Zahidin A.Qurbaninin sözlərinə yazdığı “Qələbəyə gedən yollar”, “Qalib Sərkərdə”, “Müzəffər Ordumuz”, “Qələbə müjdəsi”, “Biz gəlmişik, Qarabağ” mahnılarını döyüşçülər alqışlarla qarşılayıblar.

Şuşada klassik Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin, böyük sənətkarımız Bülbülün ev muzeyləri, görkəmli şair Molla Pənah Vaqifin məzarı, eləcə də Gövhər Ağa məscidi, Şuşa qalası, Cıdır düzü və dağıdılmış digər tarixi memarlıq abidələrimiz ziyarət olunub.

Bülbülün ata ocağında iməcilik keçirilib. Bülbülün repertuarından “Sənsiz”, “Sevgili canan” romansları və “Koroğlu” operasından parçalar ifa edilib.

Tədbirin təşkilatçıları əminliklə bildiriblər ki, xalqımızın xilaskar oğlu, qalib sərkərdəmiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən bütün bölgələrimizdə, o cümlədən Şuşada tezliklə böyük quruculuq işləri aparılacaq, köçkünlər öz doğma yaşayış məntəqələrinə qayıdacaq, Azərbaycan əsgəri bundan sonra da əzəli və əbədi torpaqlarımızın müdafiəsində mərdliklə dayanacaq.

Vətənpərvərlik tədbirləri Ağdam, Laçın və Kəlbəcər rayonlarında davam etdiriləcək.

**AZƏRTAC**

**ANAMA mütəxəssisləri cəbhəyanı ərazilərdə mina və bombacıqlar aşkarlayıblar**

[00:07] 26.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Beyləqan, Füzuli, Goranboy, Göygöl, Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən 38 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 7 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 45 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 28 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 71 ədəd partlamamış hərbi sursat (PHS), 2 ədəd tank əleyhinə mina, 42 ədəd piyada əleyhinə mina, 4 ədəd bombacıq və 40 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 26 ədəd mina və partlamamış hərbi sursat (PHS), 4 ədəd bombacıq zərərsizləşdirilib, mütəxəssislər tərəfindən 80 141 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**Qubadlıda Şərq çinarları əkilib, tut bağı salınıb**

[12:28] 27.11.2020

Növbəti ağacəkmə aksiyası işğaldan azad olunmuş Qubadlı rayonunun Qaralar kəndi ərazisində, erməni işğalçıları tərəfindən məhv edilmiş yaşı 300 ildən artıq olan Şərq çinarı təbiət abidəsinin yerləşdiyi ərazinin yaxınlığında keçirilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən xəbərə görə, nazirliyin və Qubadlı Rayon İcra Hakimiyyətinin əməkdaşlarının iştirakı ilə baş tutan aksiyada karantin rejiminin tələblərinə əməl olunmaqla 50-dən çox Şərq çinarı əkilib, yol kənarındakı kəsilmiş tut ağaclarının yerinə isə 400 tut ağacı əkilməklə tut bağı salınıb.

Bununla da erməni işğalçıları tərəfindən Qarabağ bölgəsində məhv edilmiş yaşıllıqların yenidən bərpasına töhfə verilib.

Qeyd edək ki, respublika ərazisində həyata keçirilən payız ağacəkmə kampaniyası çərçivəsində işğaldan azad olunmuş Füzuli, Zəngilan və Ağdam rayonlarının ərazilərində də ağacəkmə aksiyaları keçirilib.

**AZƏRTAC**

**“France-24” kanalı Füzulidən reportaj hazırlayıb**

[12:33] 27.11.2020

“France-24” kanalı Azərbaycanın erməni işğalından azad edilmiş Füzuli rayonundan reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, kanalın Füzuliyə ezam olunmuş müxbiri ətrafda boş, kədərli, müharibə dağıntıları ilə dolu mənzərənin göründüyünü deyir. O bildirir ki, ətrafda minalar, tərk edilmiş kazarma, yol boyunca erməni tankları var. Hər tərəfdə döyüş izləri, döyüş texnikası görünür. Onlardan bəziləri təzə, bəziləri isə əvvəlki döyüşlərdən qalanlardır.

Bildirilir ki, erməni silahlı qüvvələri Füzuli rayonunu işğal etməmişdən əvvəl burada 200 minə yaxın azərbaycanlı yaşayıb.

Reportajda Füzuli azad olunandan sonra doğma yurdlarına gedən rayon sakinlərinin fikirlərinə də yer verilib.

Füzuli sakini Hafiz Tahirov rayona gəldiyini və dağıntılarla rastlaşdığını, ermənilərin hər tərəfi minaladığını bildirir.

Rayonun digər sakini Ramilə Məmmədova deyir: “Bura mənim atamın evi olub. İndi heç nə yoxdur. Erməni vandallarının bizə qarşı bu vəhşiliyini heç vaxt unuda bilmərik. Gənc nəslə nə isə deməyə ehtiyac yoxdur. Onlar hər şeyi özləri görür. Bunları unutmaq olmaz”.

Reportajda qeyd edilir ki, 1988-1994-cü illər müharibəsi nəticəsində Füzuli rayonunun mərkəzi ruhlar şəhərinə çevrilib. Ona görə də indi Füzulinin bərpası üçün vaxt lazımdır.

Reportajda o da vurğulanır ki, Azərbaycanın müharibədə qələbəsi bu torpaqları azad etməyə imkan verdi, ancaq insanlar buralara gələrkən doğma yurdlarının dağıntıları ilə üzləşirlər.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**

**Kanadalı Azərbaycanlılar Şəbəkəsinin üzvləri Kanadanın xarici işlər naziri ilə görüşüblər**

[12:23] 28.11.2020

Kanadalı Azərbaycanlılar Şəbəkəsinin üzvləri Kanadanın xarici işlər naziri Fransua-Filip Şampeyn ilə görüşüblər. Videokonfrans formatında keçirilən görüş Kanadalı Azərbaycanlılar Şəbəkəsinin təşəbbüsü ilə baş tutub.

AZƏRTAC xəbər verir ki, görüşün əsas məqsədi sentyabrın 27-də Ermənistanın təxribatı ilə başlayan və noyabrın 10-da Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsi barədə məlumatları xarici işlər nazirinə çatdırmaq olub. Görüş zamanı bildirilib ki, Kanadalı Azərbaycanlılar Şəbəkəsi Kanadanın münaqişəyə dair mövqeyini yaxından izləyir. Kanada vətəndaşları olaraq bu ölkənin siyasətinin formalaşmasında azərbaycanlıların da fikirlərinin eşidilməsi Kanadanın xarici siyasətinin daha ədalətli və qərəzsiz olmasına xidmət edir.

Nazir Fransua-Filip Şampeyn məlumatları dinləyib, baş vermiş müharibədə insan həyatının itirilməsini fəlakət adlandırıb. O, müharibə başlayan ilk gündən etibarən hərbi əməliyyatların dayandırılması üçün səy göstərdiyini bildirib. Nazir, eyni zamanda, kanadalı azərbaycanlıların sözügedən münaqişə barədə fikirlərinə hörmətlə yanaşdığını və bu görüşün onun üçün məlumat əldə etmək baxımından çox faydalı olduğunu deyib.

Görüşdə Kanadalı Azərbaycanlılar Şəbəkəsinin Vankuver, Edmonton, Kalqari, Toronto, Ottava və Montreal-dan olan üzvləri iştirak ediblər. Görüş iştirakçıları arasında şəbəkənin işğaldan azad edilmiş Füzuli və Şuşadan olan üzvlərinin olması da nazirin diqqətinə çatdırılıb. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərin reabilitasiyası və minalardan təmizlənməsi işlərində Kanadanın yardım etməsinin mümkünlüyünə baxılması nazirdən xahiş edilib.

Kanadalı Azərbaycanlılar Şəbəkəsi Kanadanın Azərbaycan əsilli əhalisini narahat edən məsələlər barədə bu günədək Kanada parlamentinin üzvləri və senatorlar, əyalət parlamentinin üzvləri və yerli hökumət nümayəndələri ilə sıx təmasda olub və intensiv görüşlər keçirib.

Şəbəkə Kanadada yaşayan azərbaycanlıların Kanada cəmiyyətində və siyasi həyatında maraqlarının təmsil edilməsi məqsədilə bir sıra icma təşkilatları və fərdlər tərəfindən yaradılıb.

**AZƏRTAC**

**Füzuli rayonu ərazisində mülki şəxslər minaya düşərək həlak olublar**

[16:49] 28.11.2020

Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində geri çəkildikcə əraziləri minalayaraq növbəti təxribat əməllərinə yol verməklə, artıq yeni üsul və metodlardan istifadə edərək dinc sakinlərimizə qarşı cinayət əməlləri törədiblər.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 28-də saat 15:20-də Azərbaycan Respublikasının vətəndaşları Hacıyev Şakir Məhərrəm oğlu, Hacıyev Firudin Məhərrəm oğlu, Hüseynov Zülfüqar Adışirin oğlu, Hacıyeva Elminaz Məhərrəm qızı və Adilzadə Zibeydə Şakir qızı Füzuli rayonunun işğaldan azad olunmuş Aşağı Seyidəhmədli kəndi ərazisində 90-BL-558 dövlət qeydiyyat nişanlı "Toyota" markalı avtomobillə hərəkətdə olarkən ilkin ehtimala görə tank əleyhinə minaya düşmələri nəticəsində həlak olublar.

Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə və meyitlərə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6-ci (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən intensiv istintaq hərəkətləri həyata keçirilir.

**AZƏRTAC**

**ANAMA: Füzulidə minaya düşənlərin cəsədləri təhvil verilib**

[02:43] 29.11.2020

Noyabrın 28-də saat 15:10 radələrində Füzuli rayonunun işğaldan azad olunmuş Aşağı Seyidəhmədli kəndində mülki əhalinin girişi qadağan olunan təhlükəli ərazidə mina hadisəsi baş verməsi barədə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik Agentliyiə (ANAMA) məlumat daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, Agentliyin mütəxəssislərindən ibarət əməliyyat-axtarış qrupu dərhal həmin əraziyə göndərilib, aparılmış xilasetmə əməliyyatı zamanı xüsusi təhlükəsizlik zolağı açılaraq Hacıyev Şakir Məhərrəm oğlu, Hacıyev Firuddin Məhərrəm oğlu, Hüseynov Zülfüqar Adışirin oğlu və Adilzadə Zibeydə Şakir qızının cəsədləri ərazidən götürülərək aidiyyəti üzrə təhvil verilib.

Agentliyin mütəxəssisləri tərəfindən ərazidə aparılmış tədqiqat zamanı 90-BL-558 dövlət qeydiyyat nişanlı "Toyota" markalı avtomobilin 2 ədəd tank əleyhinə minaya düşdüyü məlum olub.

Agentlik tərəfindən bir daha bildirilib ki, işğaldan azad olunmuş ərazilər mina və partlamamış hərbi sursatlardan (PHS) təmizlənməmiş həmin ərazilərə təhlükəsizlik səbəbindən mülki şəxslərin girişi qəti qadağandır.

**AZƏRTAC**

**Fransanın RFİ radiosu Füzuli haqqında reportaj yayımlayıb**

[14:23] 29.11.2020

Fransanın beynəlxalq radiosu "RFİ" Azərbaycanın Ermənistan işğalından azad edilən Füzuli rayonundan reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda 1990-cı illərin əvvəllərində ermənilərin işğal etdiyi Dağlıq Qarabağ ətrafındakı 7 rayondan biri olan Füzuli heç bir evin, kiçik ticarət mərkəzinin, hətta fermanın belə olmadığı diqqətə çatdırılır. Qeyd edilir ki, 30 ildir erməni işğalı altında qalan Füzuli boş səhranı xatırladır. Bildirilir ki, indi yalnız müharibə izlərinin göründüyü rayon bu il oktyabrın 17-də Azərbaycan silahlı qüvvələri tərəfindən işğaldan azad edilib.

Müəllif vurğulayır ki, Füzulidə Azərbaycan Ordusu tərəfindən məhv edilmiş erməni hərbi texnikası sovet dövrünə aiddir. Əvəzində isə Azərbaycanın son illərdə hərbi sahəyə kifayət qədər büdcə ayırıb və ordunu müasir texnika ilə təmin edib.

Eyni zamanda, qeyd olunub ki, doğma evlərinə qayıtmaq istəyi ilə yaşayan Füzuli sakinləri bu yerlərin minalardan təmizlənməsi, eləcə də burada yaşayış infrastrukturunun yaradılması üçün bir neçə il gözləməli olacaqlar.

Reportajda, həmçinin bildirilib ki, burada uzun müddət heç kim yaşamayıb və şəhər yalnız dağıntılardan ibarətdir.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**Suqovuşana çəkiləcək avtomobil yolu minalardan təmizlənir**

[07:22] 30.11.2020

26-29 noyabr tarixlərində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin ″102″ Xidməti-Zəng mərkəzi sistemindən – 49 (qırx doqquz) və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən – 4 (dörd) müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 53 çağırış əsasında Agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 47 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 19 ədəd partlamamış hərbi sursat (PHS), 48 ədəd tank əleyhinə mina, 59 ədəd piyada əleyhinə mina, 5 ədəd tank əleyhinə minanın partladıcısı və 42 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Tərtər rayonundan Suqovuşan kəndinə çəkiləcək avtomobil yolunun mina və partlamamış hərbi sursatlardan (PHS) təmizlənilməsi əməliyyatı davam edir, 76 ədəd tank əleyhinə mina, 118 ədəd piyada əleyhinə mina, 6 ədəd tank əleyhinə minanın partladıcısı, 6 ədəd partlamamış hərbi sursat (PHS) (cəmi: 206 ədəd) aşkar edilərək zərərsizləşdirilib.

Agentliyin partlayış qrupu tərəfindən 64 ədəd mina və partlamamış hərbi sursat (PHS) zərərsizləşdirilmiş, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 80 141 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Anadolu Agentliyi Füzuli rayonunun ermənilər tərəfindən məhv edilmiş tarixi abidələrindən reportaj hazırlayıb**

[11:52] 30.11.2020

Türkiyənin Anadolu Agentliyi Azərbaycanın işğaldan azad edilmiş Füzuli rayonu haqqında reportaj hazırlayıb.

AZƏRTAC xəbər verir ki, “Qarabağın məşhur memarı Qarabağinin Füzulidəki məscidindən sadəcə minarə qalıb” sərlövhəli reportajda təcavüzkar Ermənistanın işğalçılıq siyasətinin əsl mahiyyəti, erməni vandalizminin iç üzü oxuculara çatdırılır.

Bildirilir ki, Ermənistanın təcavüzkar siyasətinin əsl mahiyyəti Füzulidəki real mənzərə ilə özünü təsdiq edir. Füzulinin işğal edilmiş bütün yerlərində soyqırımı həyata keçirilib. Evlər dağıdılıb, talan olunub, məscid və qəbiristanlıqlar, tarixi və mədəni abidələr məqsədli şəkildə məhv edilib. Qarabağın və Azərbaycan memarlığının görkəmli simalarından biri olan Kərbəlayi Səfixan Qarabağinin inşa etdirdiyi Hacı Əli Əkbər Məscidi də şəhərin bir çox memarlıq abidəsi kimi ermənilər tərəfindən dağıdılıb. Onun yalnız dağılmış minarə və sütunları qalıb.

Reportajda qeyd edilir ki, indi Azərbaycan bu əraziləri özünə qaytarıb, öz bayrağını ucaldıb.

Reportajda Füzuli rayonu haqqında ətraflı məlumat verilib.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**ANAMA sentyabrın 27-dən noyabrın 30-dək 1543 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirib**

[14:40] 30.11.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik (ANAMA) 2020-ci il sentyabrın 27-dən noyabrın 30-dək 2061 siqnal (əməliyyat çağırışı) əsasında 1543 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirib. Nəticədə 727 ədəd partlamamış hərbi sursat (PHS), 4330 ədəd piyada əleyhinə mina, 1110 ədəd tank əleyhinə mina, 1643 ədəd partlamış raket hissələri aşkarlanaraq zərərsizləşdirilib.

AZƏRTAC xəbər verir ki, bu barədə ANAMA-nın direktoru Qəzənfər Əhmədov noyabrın 30-da təşkil olunan mətbuat konfransında deyib.

Q.Əhmədov qeyd edib ki, noyabrın 14-də saat 16:30 radələrində Füzuli rayonunun işğaldan azad olunmuş Alxanlı kəndində mülki əhalinin girişi qadağan olunan təhlükəli ərazidə Azərbaycan Respublikası vətəndaşları Əhmədov Yasin Ələsgər oğlu və onun qardaşı 1989-cu il təvəllüdlü Əhmədov Asif Ələsgər oğlu mal-qara otararkən piyada əleyhinə minaya düşüblər. Partlayış nəticəsində Yasin Əhmədov həlak olub, Asif Əhmədov isə ağır dərəcəli bədən xəsarəti alıb. Mülki vətəndaşların təxliyə olunması üçün Agentliyin minaaxtaranları əraziyə cəlb olunub. Təxliyə əməliyyatı zamanı Asif Əhmədov çıxarılıb, Yasin Əhmədovun təxliyəsi zamanı isə Agentliyin minaaxtaranı, ANAMA-nın əməkdaşı Xudiyev Asəf Mürsəl oğlu düşmən tərəfindən basdırılmış piyada əleyhinə minaya düşüb, nəticədə sol ayağı topuq nahiyəsindən amputasiya olunub və çoxsaylı qəlpə yarası alıb.

Bundan başqa, noyabrın 28-də saat 15:10 radələrində Füzuli rayonunun işğaldan azad olunmuş Aşağı Seyidəhmədli kəndində mülki əhalinin girişi qadağan edilən təhlükəli ərazidə mina hadisəsi baş verib. Nəticədə Hacıyev Şakir Məhərrəm oğlu, Hacıyev Firudin Məhərrəm oğlu, Hüseynov Zülfüqar Adışirin oğlu və Adilzadə Zibeydə Şakir qızı hadisə yerində həlak olublar. Bu barədə ANAMA-ya məlumat daxil olan kimi, əməliyyat-axtarış qrupu dərhal həmin əraziyə göndərilib. Təhqiqat zamanı “Toyota” markalı avtomobilin tank əleyhinə iki minaya düşdüyü məlum olub. Aparılmış xilasetmə əməliyyatı zamanı xüsusi təhlükəsizlik zolağı açılaraq cəsədlər aidiyyəti üzrə təhvil verilib.

**AZƏRTAC**

**ANAMA son üç gün ərzində 102 mina zərərsizləşdirib**

[06:46] 07.12.2020

Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) 03-06 dekabr tarixlərində Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 33 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş 35 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 30 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılan əməliyyat-axtarış tədbirləri zamanı 178 ədəd partlamamış hərbi sursat, 13 ədəd tank əleyhinə mina, 25 ədəd piyada əleyhinə mina, 6700 ədəd müxtəlif çaplı patronlar, 12 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 102 ədəd mina və partlamamış hərbi sursat zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 80141 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: İşğaldan azad olunmuş ərazilərin bərpasında iştirakla bağlı İtaliya tərəfinə təkliflər verilib**

[16:15] 07.12.2020

İndi ölkəmizin yeni dövrü başlayır, biz bütün o bölgələri yenidən quracağıq. Artıq ilkin addımlar atılır, ilkin infrastruktur layihələrinə start verilib. Sizin Ağdamda gördüyünüz mənzərə azad edilmiş bütün torpaqlarda müşahidə olunur. Füzuli şəhərində də bir dənə salamat bina qalmayıb. Cəbrayıl, Zəngilan, Qubadlı eyni vəziyyətdədir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə İtaliya Deputatlar Palatasının sədr müavini Ettore Rosatonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə danışıb.

Gəncəyə və Ağdama səfər etdiklərinə görə qonaqlara minnətdarlığını bildirən dövlətimizin başçısı deyib: "İndi bərpa dövrü başlayır, genişmiqyaslı quruculuq işləri aparılacaq. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik. Mən çox istərdim ki, İtaliya şirkətləri bu işlərdə, yəni, bərpa, yenidənqurma işlərində fəal iştirak etsinlər. İtaliya tərəfinə artıq bu təkliflər verildi. Yaxın günlərdə videokonfrans vasitəsilə ilkin təmaslar olacaq".

Prezident İlham Əliyev qeyd edib ki, əsl dostluq özünü çətin anlarda göstərir. "Bizim üçün də bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Biz dostluğu qiymətləndirən xalqıq. Sizin Azərbaycana səfəriniz bir daha onu göstərir ki, İtaliya doğrudan da Azərbaycanın əsl dostudur", - deyə dövlətimizin başçısı vurğulayıb.

**AZƏRTAC**

**Almaniyanın "ZDF" kanalında işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb**

[17:50] 09.12.2020

Almaniyanın "ZDF" telekanalında Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarından reportaj yayımlanıb.

Kanalın Qarabağ bölgəsinə ezam olunmuş müxbiri Yörq Braze Azərbaycanın 1990-cı illərdə itirdiyi əraziləri bu yaxınlarda geri qaytardığını qeyd edir. Ağdam və Füzuli rayonlarında yerli sakinlərlə söhbət edən müxbir bildirir ki, getdikcə daha çox azərbaycanlı bu regiona qayıdır. Həmin sakinlərdən biri, hələ Birinci Qarabağ müharibəsində iştirak etmiş Hamlet İbrahimov ermənilərin bu ərazilərdə törətdiyi vəhşiliklərdən və Vətən müharibəsinin gedişindən bəhs edir. "Bu dəfə biz qələbə qazana bildik", - deyən Hamlet qənimət götürülmüş iki erməni tankını fəxrlə göstərir. İyirmi səkkiz il bundan əvvəl Qarabağda ermənilərə qarşı döyüşən və həmin müharibəni uğursuzluqla başa vuran Hamletin indiki məmnuniyyəti göz qabağındadır. O deyir: "Baxın, mərmilər də içəridədir, biz tankları bütün sursatı ilə birgə ələ keçirmişik. Ermənilər nələri var idisə, atıb qaçıblar".

Reportajda Ağdam şəhərinin dağıntıları da göstərilir. Jurnalist qeyd edir ki, razılaşmaya əsasən Azərbaycanın döyüşsüz nəzarətə götürdüyü üç rayondan biri olan Ağdamın şəhər mərkəzi "ruhlar şəhəri" təəssüratını yaradır. Bura 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmiş, yerli əhalisi tərk etdikdən sonra talan olunmuş və indiyədək kimsənin yaşamadığı bir ərazidir. Bu şəhəri, həmçinin "Qafqazın Xirosiması" adlandırırlar.

Reportajda vurğulanır ki, 27 ildən sonra geri qayıdan şəhər sakini Məryəm İsmayılova da qürurludur. O, məscidin minbərindən öz yaşadığı məhəlləsini göstərir və evlərinin tamamilə dağıdıldığını söyləyir. Bildirir ki, şəhərdə yeganə salamat qalan tikili məsciddir. M.İsmayılova göz yaşları içində deyir ki, vaxtilə Ağdam çox gözəl şəhər olub, lakin indi həmin gözəllikdən əsər-əlamət qalmayıb. O qeyd edir ki, ermənilər şəhərə hücum edəndə evlərindən heç nə götürə bilməyib, bütün əşyalarını orada qoyaraq canlarını xilas etməyə çalışıblar. Qardaşı və həyat yoldaşı həmin vaxt yaralanaraq itkin düşüblər, onlardan indiyədək heç bir xəbər yoxdur. Onlar minlərlə itkin düşəndən yalnız ikisidir: "O vaxt bizi niyə öldürürdülər, mənim həyat yoldaşımın günahı nə idi? Oğlum mənə ermənilərin əsirləri qətlə yetirdikləri videoları göstərir. Haradan bilim, bəlkə mənim də həyat yoldaşımı o cür işgəncələrə məruz qoyub və qətlə yetiriblər?".

Reportajda deyilir ki, 1990-cı illərə aid digər bir "ruhlar şəhəri" olan Füzulidə Hamlet dağıdılmış məscidin xarabalığı arasında gəzişir. O, alman jurnalistə vaxtilə Ağdam məscidi böyüklükdə olan Füzuli məscidinin yerini və həmin məsciddən qalan minarənin qalığını göstərir: "Bu, məscidin minarəsi də Ağdam məscidinin minarəsi kimi hündür olub. Lakin ermənilər onu məhv ediblər. Füzuli məscidi böyük olub, lakin ona qarşı edilənlərin nəticəsi budur, daş-daş üstündə qalmayıb".

Hamlet onu da bildirdi ki, Azərbaycan Prezidentinin dediyi kimi, ermənilər bizimlə bizim ölkəmizdə bizim dövlətin vətəndaşı kimi bizim bayrağımızın altında və bizim pasportla yaşaya bilərlər.

Sonda müxbir hələ müharibənin acısının təzə olduğunu və ətrafda dağıntıların çox olduğunu qeyd edir.

**Elgün Niftəli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Vyana**

**AZƏRTAC**

**ANAMA tərəfindən beş rayonda 58 mina aşkarlanıb**

[08:32] 10.12.2020

Son iki gündə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA) Ağdam, Ağcabədi, Bərdə, Füzuli və Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 28 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən 2 müraciət daxil olub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, daxil olmuş 30 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 25 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib. Aparılmış əməliyyat-axtarış tədbirləri zamanı 20 ədəd partlamamış hərbi sursat (PHS), 1 ədəd bombacıq, 18 ədəd tank əleyhinə mina, 40 ədəd piyada əleyhinə mina, 54 ədəd tank əleyhinə minanın partladıcısı və 21 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Agentliyin partlayış qrupu tərəfindən 9 ədəd mina və partlamamış hərbi sursat (PHS) zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 80 141 nəfər mülki şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**AZƏRTAC**

**Prezident: Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi**

[15:37] 10.12.2020

Vətən müharibəsinin hər gün bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişdik. Bu istehkamlar elə qurulmuşdur ki, Azərbaycan oradan keçə bilməsin, əsgərimiz oradan keçə bilməsin. Eyni zamanda, Dağlıq Qarabağ ərazisinin coğrafi relyefi də Ermənistan tərəfi üçün daha əlverişli idi.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında çıxışı zamanı hərbçilərimizin göstərdiyi qəhrəmanlıqdan danışarkən bildirib.

“Azərbaycan əsgər və zabiti böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda, Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizin yekunu da Şuşa şəhərində vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad olunan sonuncu şəhər oldu”, – deyə dövlətimizin başçısı vurğulayıb.

Şuşanın azad edilməsini tarixi hadisə kimi dəyərləndirən Azərbaycan Prezidenti deyib: “Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalar vasitəsilə dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşündə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad ediləndən sonra Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilər tərəfindən uzun illər yaratdıqları mifi darmadağın etdik. Onlar öz ordusu haqqında yalan məlumat ötürərək mif yaratmışdılar, sanki Ermənistan ordusu yenilməz ordudur. Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü göstərdi, öz qüdrətini göstərdi”.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Füzulidə beynəlxalq aeroport tikiləcək**

Mənim göstərişimlə Füzulidə beynəlxalq aeroport tikiləcək. Artıq göstəriş verilib və indi yerlər seçilir. Minalardan təmizləmə işləri aparılacaq. Mən göstəriş vermişəm, bu il Füzulidə beynəlxalq hava limanı yaradılmalıdır, hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir. Oradan Şuşaya məsafə də yaxındır.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar qəbul edərkən çıxışında bildirib.

Dövlətimizin başçısı deyib: "Vaxtilə sovet dövründə Şuşaya ya gərək Xankəndidən gedəydin, ya da ki, Laçın dəhlizi ilə. İndi isə biz yeni yol açırıq. Əlbəttə, o yollar da var və bizim vətəndaşlar, bu gün orada təmir-bərpa işlərini aparanlar bu yollardan istifadə edirlər - Ağdam-Xankəndi-Şuşa yolu və Laçın dəhlizi. Yəni, bu yollar bizim üçün açıqdır. Biz nə vaxt istəsək oraya getməliyik, gəlməliyik və elə də olacaq. Ancaq Füzuli beynəlxalq aeroportunun tikilməsi xarici qonaqların Şuşaya dəvət edilməsi üçün imkanlar yaradacaq. Çünki oraya gəlib ondan sonra qısa müddət ərzində Şuşaya getmək mümkün olacaqdır".

Prezident İlham Əliyev azad edilmiş torpaqlarda bütün mədəni obyektlərin siyahısının hazırlanması barədə tapşırıq verərək deyib: "Onlar onsuz da var idi, amma indi onlara yerində baxmalıyıq, onların vəziyyətinə baxmalıyıq ki, onları sonra bərpa edək. Ancaq, ilk növbədə, əlbəttə ki, onların təftişi, kvalifikasiyası aparılmalı və beynəlxalq şirkətləri dəvət etməklə onların bütün siyahısı tərtib edilməlidir. Deyə bilərəm ki, azad edilmiş torpaqlarda bütövlükdə dağıntılar siyahıya alınır. Bu dağıntıları törədənlərə qarşı biz hüquqi müstəvidə öz addımlarımızı atacağıq".

**AZƏRTAC**
**2021, 5 yanvar**

**Azərbaycan Prezidenti: Bu il Füzuli şəhərində, yaxud da o ərazidə beynəlxalq aeroport fəaliyyətə başlayacaq**

Füzuli şəhərində beynəlxalq hava limanının tikintisinə artıq az vaxt qalıb. Göstəriş verilib, yaxın gələcəkdə artıq inşaat başlanacaq və bu il Füzuli şəhərində, yaxud da ki, o ərazidə beynəlxalq aeroport fəaliyyətə başlayacaq. Bu, həm Qarabağ bölgəsinin inkişafı üçün lazımdır, çünki bütün növ təyyarələr enə biləcək - həm Füzulidə, həm Kəlbəcər-Laçın zonasında. Eyni zamanda, Şuşaya gəlmək istəyən xarici qonaqlar rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedəcəklər.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə deyib.

Prezident bildirib ki, aeroportun tikintisi ilə paralel olaraq artıq Füzuli şəhərindən beynəlxalq uçuşların təşkili ilə bağlı ilkin araşdırmalar aparılmalıdır. Beynəlxalq aeroport beynəlxalq uçuşlar təşkil etməlidir. İlk növbədə, bizim aviaşirkətimiz "AZAL" bu məsələ ilə bağlı ciddi işləsin ki, aeroport açılandan sonra dərhal bizim qonşu ölkələrin bəziləri ilə hava nəqliyyatı təmin edilsin.

"Hesab edirəm ki, iki beynəlxalq aeroport Qarabağ zonasını bərpa etmək, yüklərin daşınması, turizmin inkişafı üçün bizə kömək göstərəcək. Eyni zamanda, insanlar oraya qayıdandan sonra onların rahatlığı üçün də bunun böyük əhəmiyyəti olacaqdır", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**
**2021, 7 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Ələsgərli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Ələsgərli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Ələsgərli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 13 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Qərvənd kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Qərvənd kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-də Qərvənd kəndini işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 14 yanvar**

**Prezident İlham Əliyev Füzuli rayonunda Füzuli-Şuşa yolunun və hava limanının təməllərini qoyub, Şuşa şəhərində səfərdə olub**
*(14 yanvar 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub.
AZƏRTAC xəbər verir ki, sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olublar.
Şuşaya gedərkən avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:
-Səhər tezdən yola çıxmışıq. İstiqamət Şuşa şəhəridir.
Azad edilmiş torpaqlara keçirik. Şanlı Azərbaycan Ordusu bu istiqamətdən hücum edərək düşməni qova-qova torpaqlarımızdan çıxardı.
Füzuli rayonunun ermənilər tərəfindən dağıdılmış Qaraxanbəyli kəndi.
Füzuli-Şuşa yolunun yeni işlənmiş layihəsinə körpü və tunellərin inşası daxildir. Yəni, çətin relyefə malik olan ərazilərdə dolama yolların yerinə körpü və tunellərin tikintisi nəzərdə tutulur. Yeni yol Füzuli hava limanı ilə əlaqələndiriləcək və bu yoldan İsa bulağına yeni yol çəkiləcək.
Dövlətimizin başçısı və birinci xanım yolun təməlini qoydular.
**Prezident İlham Əliyev:** Füzuli-Şuşa yolunun təməlini qoyduq. İndi isə Füzuli hava limanının təməlini qoyacağıq və bu il hava limanının hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir.
Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda beynəlxalq hava limanının təməlini qoydular.
Uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq hava limanı beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.
**Prezident İlham Əliyev** dedi:
- Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Füzuli Beynəlxalq Hava Limanı bu il istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı bu il istifadəyə verilməlidir. Hava limanının binası isə ola bilər bu il, ola bilər gələn il istifadəyə veriləcək. Bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Nəzərə alsaq ki, bu gün Füzuli-Şuşa dördzolaqlı və bəzi yerlərdə altızolaqlı yeni avtomobil yolunun təməli qoyulub, xarici qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək, çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.
Şuşa şəhəri mənim tərəfimdən Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Şuşa şəhərinin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildi. Bütövlükdə müharibədən cəmi iki ay vaxt keçib, ancaq böyük quruculuq işlərinə start verildi. Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanı Kəlbəcər və ya Laçın rayonlarının ərazisində inşa ediləcək. İndi yer seçilir və beləliklə, iki beynəlxalq hava limanının tikintisi yaxın zamanlarda təmin edilməlidir.
Böyük qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, - cəmi 44 gün ərzində, - bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik.
Qarabağ Azərbaycandır!

**XXX**

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə yola düşdülər.
**Prezident İlham Əliyev:** Füzuli Beynəlxalq Hava Limanının təməlini qoyduq. Bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilməlidir. Hər halda uçuş-enmə zolağı istifadəyə verilməlidir ki, bu ildən başlayaraq artıq vətəndaşlar, xarici vətəndaşlar və xaricdə yaşayan azərbaycanlılar Şuşaya təyyarə ilə rahat gələ bilsinlər. Bununla paralel olaraq, göstəriş verildi ki, Füzuli Beynəlxalq Hava Limanından beynəlxalq uçuşların təşkil edilməsi istiqamətində də işlərə başlanılsın. Eyni zamanda, Azərbaycanın digər

şəhərlərindən - Lənkərandan, Naxçıvandan, Gəncədən buraya gəlib, Şuşaya rahat gedə bilərlər. İndi isə istiqamət Şuşa şəhəridir və yol boyunca əlavə məlumat veriləcəkdir.
Füzulidən Xocavənd rayonuna gedirik. Ondan sonra da Şuşa şəhərinə gedəcəyik. Qarşımızda gözəl mənzərə açılır, gözəl, vüqarlı dağlar, dağların başında qar, gözəl Azərbaycan diyarımızdayıq. Bu isə Şəkərcik kəndidir. Şəkərcik kəndi Füzuli şəhərinə bitişik olan kənddir. Füzuli şəhəri azad olunanda Şəkərcik uğrunda da şiddətli döyüşlər gedib. Baxın, düşmən işğal dövründə bütün bu əraziləri yerlə-yeksan edib. Biz artıq Füzuli şəhərində olmuşuq. O dəhşətli mənzərəni Azərbaycan xalqı görüb, bütün dünya görüb və görməlidir. Ona görə göstəriş verildi ki, xarici qonaqları Azərbaycana dəvət edib və bu bölgələrə gətirib, onlara erməni vəhşiliyi, əməlləri göstərilsin. Artıq bütün dünya görür ki, biz hansı vəhşi düşmənlə müharibə aparmışıq və hansı vəhşi düşməni məhv etmişik. Bu dağlar bizimdir.
Bura Xocavənd rayonunun Böyük Tağlar kəndinin ərazisidir. Baxın, bizim ölkəmiz necə də gözəldir. Bütün bu ərazini işğalçılardan qəhrəman Azərbaycan Ordusu azad edib.
Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla burada xatirə şəkli çəkdirdilər.

**XXX**

**Prezident İlham Əliyev:** Yolumuza davam edirik. Baxın, Günəş də çıxdı. Günəş də bizi salamlayır, yolumuzu işıqlandırır. Biz gedirik Şuşaya, azad edilmiş Şuşaya. Bu yolun tikintisi aparılır. Əminəm ki, ölkəmizin ən gözəl yollarından biri olacaq. Təbii ki, ən yüksək keyfiyyətlə tikiləcək. Eyni zamanda, mənzərəli yoldur, tarixi yoldur, Qələbəyə aparan yoldur.
Bu yol heç vaxt olmayıb. Qəhrəman hərbçilərimiz bu ərazilərdən keçib. Biz isə cəmi iki ay ərzində bu yolu açmışıq. Sonra, əlbəttə ki, yol genişləndiriləcək və asfalt döşənəcək. Azərbaycan vətəndaşları Şuşaya rahat gedəcəklər.
Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərinə gəldilər.
Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.
Dövlətimizin başçısı hərbçilərlə görüşdü və çıxış etdi.

## Prezident İlham Əliyevin
### çıxışı

-Əziz hərbçilər, noyabrın 8-i xalqımızın tarixində əbədi qalacaq. Noyabrın 8-də qədim Şuşa şəhərimizi düşməndən azad edərək Azərbaycan parlaq qələbə qazandı. Şuşanın işğaldan azad edilməsi böyük qəhrəmanlıq, peşəkarlıq, milli ruh tələb edirdi. Azərbaycan hərbçiləri bütün bu ülvi xüsusiyyətləri nümayiş etdirmişdir.
Mən Şuşaya Qələbə yolu ilə gəlmişəm. O yol indi açılıbdır, yol yox idi. Dağlardan, meşələrdən, dərələrdən keçərək, onlarla kilometr məsafəni qət edərək qəhrəman Azərbaycan hərbçiləri yol boyunca kəndləri, qəsəbələri düşməndən azad edib, Şuşa şəhərinə yaxınlaşıb, Daşaltı kəndini azad edib və ondan sonra Şuşanı işğalçılardan azad edib.
Əminəm ki, Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır. Artıq məndə məlumat var ki, inkişaf etmiş bir çox ölkələrin mütəxəssisləri 44 günlük Vətən müharibəsinin hər bir gününü təhlil edirlər. Çünki 44 günlük müharibənin hər bir günü qələbə, zəfər günüdür. Şuşanın işğaldan azad edilməsi düşmənə vurulan ən böyük zərbə idi. Çünki düşmən hesab edirdi ki, Şuşanı azad etmək mümkün deyil və yəqin ki, müəyyən dərəcədə haqlı idi. Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir. 1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilər öz dırnaqarası əməliyyatına bir ad vermişdilər – dağlarda toy. Halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı. O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular – dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır.

Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Bax, bu gün gəldi. Xatırlayıram, erməni separatçı rejiminin bəzi dırnaqarası nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan "Dağlıq Qarabağ respublikası"nı tanısa və Azərbaycan Dağlıq Qarabağda öz səfirliyini açsa. Görün, nə qədər iyrənc, nə qədər təkəbbürlü ifadələr işlədilib. İndi siçan kimi oturublar, dillərini qoyublar qarınlarına. Bir kəlmə də söz deyə bilmirlər. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq. Bütün dünya bizim Qələbəmizdən danışır. Bütün dünyanın aparıcı media orqanları Azərbaycanın parlaq qələbəsi haqqında yazırlar, reportajlar hazırlayırlar. İndi analitik məqalələr dərc edilir, kitablar da yazılacaq.

Bizim şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə demişdim ki, o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır və belə də oldu, 44 günlük müharibənin hər bir günü zəfər günü idi. Hər gün biz qabağa gedirdik. Bir gün belə geri addım atmadıq. Bu, müharibələrdə çox nadir hallarda müşahidə edilən bir mənzərədir. Müharibələrdə hücumlar olur, geriyə çəkilmə olur, manevrlər olur, biz isə hər gün qabağa gedirdik. Hər həftə onlarla yaşayış məntəqəsini işğalçılardan azad edirdik. Nəticədə düşmənə sarsıdıcı zərbələr endirərək 300-dən çox yaşayış məntəqəsini və Şuşanı azad etdik. Onları məcbur etdik və cəmi 20 gün ərzində Ağdam, Laçın və Kəlbəcər rayonlarından qoşunlarını çıxardılar, rədd oldular bizim torpaqlarımızdan və biz qayıtmışıq. Müharibə başlayan gündən mən deyirdim ki, rədd olun bizim torpağımızdan, dərhal öhdəlik götürün. Özü də demişdim ki, bu öhdəliyi Ermənistan rəhbərliyi götürməlidir, deməlidir, tarix verməlidir ki, filan tarixdə mən torpaqlardan çıxıram, mən də müharibəni dayandırıram. Əks-təqdirdə, sona qədər gedəcəyik. Bütün təzyiqlərə, bütün telefon zənglərinə, bütün təhdidlərə baxmayaraq, dedim ki, sona qədər gedəcəyik, düşməni torpaqlarımızdan qovacağıq. Etdik də, getdik də, qovduq da və düşmən məcbur olub noyabrın 10-da kapitulyasiya aktını imzaladı və beləliklə müharibəyə son qoyuldu.

Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah onların yaxınlarına səbir versin! Bütün şəhid ailələri dövlət tərəfindən qayğı ilə əhatə olunub. Bütün şəhid ailələrinə dövlət tərəfindən mənzillər, evlər veriləcəkdir. Artıq bu ildən başlayaraq göstəriş verildi. Şəhid ailələri üçün müavinət 300 manatdan 500 manata qaldırıldı və daim o ailələr diqqət mərkəzində olacaqlar. Birinci Qarabağ müharibəsində həlak olmuş 9 min şəhidin ailəsinə dövlət artıq mənzillər, evlər vermişdir. Yaralı hərbçilərimiz dövlət tərəfindən qayğı ilə əhatə olunub. Əlil olmuş hərbçilərin reabilitasiyası, onların müasir protezlərlə təmin edilməsi məsələsi öz həllini tapacaq. Müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçi mənim tərəfimdən yüksək orden və medallarla təltif edilib. "Vətən Müharibəsi Ordeni" Azərbaycanın ən ali hərbi ordenidir. "Zəfər" ordeni, "Qarabağ" ordeni. Bütün bu ordenlərin adlarını mən özüm təklif etmişəm. Qəsəbələrimizin, şəhərlərimizin azad edilməsi işində fərqlənmiş hərbçilərə o rayonların adlarını daşıyan medallar verilib. Ordumuz Şuşaya qədər qələbə yolu ilə, uğurla gedərək Cəbrayıl, Füzuli, Xocavənd rayonlarını, Suqovuşan, Hadrut qəsəbələrini, Murovdağ silsiləsini, Laçın rayonunun cənub hissəsini, Qubadlı, Zəngilan rayonlarını azad edib və noyabrın 8-də Şuşa şəhərini azad edib. Noyabrın 9-da düşmən təslim olub, ağ bayraq qaldırıb, diz çöküb və öz məğlubiyyətini etiraf edib.

Biz qalib xalqıq. Mən Şuşaya son dəfə 39 il bundan əvvəl gəlmişəm. 39 il bundan əvvəl iki dəfə gəlmişəm və birinci dəfə yanvarın 14-də gəlmişəm. Bax, bu gün, yanvarın 14-də yenə də buradayıq. Bu dəfə müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq! Biz Şuşanı və dağıdılmış bütün başqa şəhər və kəndlərimizi bərpa edəcəyik. Dağıdılmış bütün tarixi abidələrimizi bərpa edəcəyik. Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı, bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə

üçün bütün binaları dağıtdılar? Görün, nə gündədir bu şəhər?! Daş üstə daş qalmayıb 30 il ərzində, ancaq özləri üçün villalar tikdiriblər, özləri üçün şərait yaradıblar.
Biz bu şəhəri bərpa edəcəyik. Mənim göstərişimlə böyük bir qrup ezam edildi, bütün təhlil aparıldı. Dünən mənə ilk dəfə olaraq məruzə edildi, artıq müvafiq göstərişlər verilibdir. Yaxın zamanlarda biz Şuşanın bərpasını planlı şəkildə təmin edəcəyik. Əlbəttə ki, bundan sonra biz Şuşanı göz bəbəyi kimi qorumalıyıq. Bizim hərbçilərimiz, bizim qəhrəman övladlarımız Şuşanı qoruyacaqlar ki, düşmən heç bu tərəfə baxmağa özündə cəsarət tapmasın. Mən demişəm ki, əgər kimsə Ermənistanda revanş haqqında düşünürsə, o, bizim dəmir yumruğumuzu bir daha görəcək. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, cavabımız çox sərt olacaq, çox peşman olacaqlar və yenə də acı məğlubiyyətlə üzləşəcəklər. Heç kim bizim qabağımızda dura bilməz. Bundan sonra həmişə belə olacaq. Azərbaycan Ordusu, xüsusi təyinatlılar, bizim qəhrəman övladlarımız, hərbi birləşmələrin döyüşçüləri Şuşanı və azad edilmiş bütün torpaqları göz bəbəyi kimi qorumalıdırlar ki, düşmən bir daha belə cəhd etməsin. Cəhd edərsə, axırı lap pis olacaq.
Noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına Şuşanın azad edilməsi müjdəsini verərkən çıxışımın sonunda demişdim: Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Bu gün eyni sözləri təkrarlayıram. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

**XXX**

Hərbçilərlə xatirə şəkli çəkdirildi.

**XXX**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa şəhərindəki Saatlı məscidini ziyarət etdilər.
Dövlətimizin başçısı məscidə "Qurani-Şərif" hədiyyə etdi.
**Prezident İlham Əliyev** dedi:
-Saatlı məscidini ziyarət etdik, dualarımızı etdik, Məkkədən gətirilmiş "Qurani-Şərif"i Saatlı məscidinə hədiyyə etdim. Sonra Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərində olacağıq. Oraya da müqəddəs Məkkədən gətirdiyim "Qurani-Şərif"i bağışlayacağam. Düşmən bizim azad edilmiş torpaqlardakı dini abidələrimizi işğal dövründə məhv edib, 67 məscidi dağıdıb, yaxud da ki, belə yararsız vəziyyətə salıb. Şuşa işğaldan azad olunandan sonra bizim vətəndaşlar əl gəzdirib, məscidi təmizləyib və müəyyən təmir işlərini görüblər. Ancaq, əlbəttə ki, məscidin əsaslı təmiri bundan sonra aparılacaq, bütün müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu missiyanı öz üzərinə götürüb. Mehriban xanım bu barədə açıqlama verib və biz bütün tarixi-dini abidələrimizi bərpa edəcəyik.
Bildirməliyəm ki, ziyarət etdiyim Ağdam Cümə məscidinin əsaslı təmiri və bərpası işlərinə start verildi. Artıq mütəxəssislər oraya ezam edildi və yaxın zamanlarda təmirlə bağlı təkliflər veriləcək. Eyni zamanda, Şuşa şəhərinin məscidləri də bərpa ediləcək. Minarənin dağıdılması düşmənin islamofob xislətini göstərir. Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin. Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox. Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz. Bu, riyakarlıqdır və Ermənistanı dost ölkə kimi qəbul etmək də riyakarlıqdır, Allahsızlıqdır. Bunu dağıdanla müsəlman ölkələrinin liderləri necə dost ola bilərlər? Cavab versinlər buna. Mənə yox, öz xalqlarına cavab versinlər. Məscidləri dağıdan, oraya inək salan müsəlman ölkələri ilə dost ola bilər? Qoy, onların xalqları buna cavab versinlər.
Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib. Bütün dinlərin abidələri bizdə qorunur – kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur,

təmir edilib. Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Əfsuslar olsun ki, bir ölkənin şirkəti bu çirkin əməllərdə onlarla şərik olub. Əlbəttə ki, Yuxarı Gövhərağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb.
Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Şuşanı erməniləşdirmə cəhdlərinə son qoyulub. Otuz il onlar çalışırdılar ki, Şuşanı erməniləşdirsinlər, nail ola bilmədilər. Bu, onlar üçün yad şəhərdir, öz şəhəri saysaydılar, bu günə qoymazdılar. Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

**XXX**

Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev çıxışlarının birində demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Dövlətimizin başçısının bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Bununla bağlı keçirilən tədbirdə çıxış edən **Prezident İlham Əliyev** dedi:
-Bu gün Şuşaya gələrkən 30 ilə yaxın Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan dahi şəxsiyyətlərimizin – Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin və Bülbülün büstlərini gətirmişəm. Bu yerdə Mədəniyyət Evi yerləşirdi və Üzeyir bəyin, Bülbülün büstləri məhz bu yerdə qoyulmuşdu. Mənfur düşmən Şuşa Mədəniyyət Evini dağıdıb və dahi şəxsiyyətlərimizin büstlərini güllələbaran edib.
Xurşidbanu Natəvanın büstünü Heydər Əliyev özü şəxsən açmışdır, 1982-ci ilin yay aylarında. Mən də o vaxt atamla birlikdə burada idim. Bax, buradan bir qədər aralı bir yerdə Xurşidbanu Natəvanın büstü qoyulmuşdu. Ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Görün nə qədər alçaq keyfiyyətli insan olmalısan ki, tarixi şəxsiyyətlərin xatirə büstlərini güllə ilə vurasan, təhqir edəsən, sonra aparıb bunu əritmək istəyəsən. O vaxt Polad Bülbüloğlu bundan xəbər tutmuş və ulu öndər Heydər Əliyevə müraciət etmişdi. Görülmüş tədbirlər nəticəsində bu büstlər ermənilərdən alındı. Onu da açıq deməliyəm, pulla alındı. Satdılar onlar. Necə ki, hər şeyi satıblar ömrü boyu. Büstləri də biz pulla almışıq. O vaxt gətizdirdik və onlar İncəsənət Muzeyinin həyətində yerləşdirildi.
Sonra müxtəlif vaxtlarda bəzi insanlar mənə müraciət etmişdilər ki, bəlkə bu büstləri Bakının hər hansı bir yerində qoyaq, orada olsun. Dedim ki, yox. Onları biz ancaq Şuşanı düşməndən azad edəndən sonra gətirib öz yerlərində qoyacağıq və öz yerlərində də qoyduq.
Dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbəmizin rəmzidir. Onların ruhu şaddır. Onlar doğma Vətənə qayıdıblar. Biz qaytarmışıq onları, düşməni qova-qova, düşməni məhv edərək, torpaqlarımızdan rədd edərək, Şuşanı geri alaraq, azad edərək qaytarmışıq. Burada duracaq, Şuşaya gələn hər bir insan yaxından görəcək erməni vəhşiliyini.
Tarixi ədalət bərpa olunur. Biz tarixi ədaləti bərpa edirik - güc hesabına, əzm, iradə hesabına, cəsarət, mətanət hesabına, milli ruh hesabına! Natəvan, Üzeyir bəy, Bülbül milli ruhumuzun təcəssümüdür. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayıb və əbədi yaşayacaqdır. Qarabağ Azərbaycandır!

**XXX**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Şuşa Rayon Partiya Komitəsinin binasında oldular.
**Prezident İlham Əliyev:** Mənfur düşmən burada özü üçün "meriya" adlı bir qurum yaratmışdı. Bu, Şuşa şəhərinin xunta başçısının qəbul otağı olub. Bu da keçmiş, batmış, gorbagor olmuş qondarma "Dağlıq Qarabağ respublikası"nın "Şuşi" şəhərinin "icra başçısı"nın otağı idi. "Şuşi" yox, Şuşa. Unutmasınlar, dəmir yumruq yerindədir. Bu otaqda isə quldurlar istirahət ediblər. Bu da onların kitablarıdır, baxın. Bunların yeri zibilxanadır. Hamısı muzey eksponatları olacaq. Kondisioneri söküb aparıblar. Şuşadan qaçanda o qaça-qaçda vaxt tapıb kondisioneri də aparıb oğrular. Buradan meydana mənzərə açılır. Sınmış şüşələr, eyni zamanda, büstlər də buradan görünür.

**XXX**

Ermənilər Şuşanı tərk edərkən inzibati binalarda da kütləvi oğurluq və talançılığa yol veriblər. Məsələn, bu binadakı bütün kondisionerlər və istilik sistemi avadanlıqlarını söküb aparıblar. Bu, şübhəsiz ki, acgözlüyün, amma həm də oğru xislətinin təzahürüdür. Bu, həm də 30 illik işğal dövründə Azərbaycan xalqının mədəniyyətini vandalizmə məruz qoyanların rəzil aqibətinin göstəricisidir.

**XXX**

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Natəvan bulağı ilə tanış oldular.
**Prezident İlham Əliyev:** 1982-ci ildə atamla birlikdə burada idik, Natəvan bulağının önündə. 39 ildən sonra müzəffər ordunun Ali Baş Komandanı kimi qayıtmışam. Şuşa yenə bizimdir! Şuşa yenə Azərbaycandır!
Dövlətimizin başçısı Şuşa şəhərinin su və elektrik enerjisi təchizatı ilə maraqlandı.
Bildirildi ki, indi şəhər su ilə də, işıqla da normal şəkildə təchiz olunur.
Prezident İlham Əliyev sovet dövründə uşaq sanatoriyası kimi fəaliyyət göstərən, işğaldan sonra ermənilər tərəfindən dağıdılan Natəvan sarayının xan qızının evi kimi bərpa ediləcəyini bildirdi.
Dövlətimizin başçısı və ailə üzləri Natəvan sarayının önündə xatirə şəkli çəkdirdilər.

**XXX**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bülbülün dağıdılmış ev-muzeyinə də baxdılar.
Bülbülün dağıdılmış büstünü göstərən Prezident İlham Əliyev dedi:
-Ermənilərin növbəti vandallığı, növbəti düşmənçiliyi. Görün, dahi Bülbülün büstünü, evini nə günə qoyublar. Cavabını artıqlaması ilə alıblar. Biz onların cavabını döyüş meydanında verdik, bütün şəhidlərimizin qisasını aldıq, onların qanları yerdə qalmadı. Xocalı soyqırımını, mədəni soyqırımı törədən mənfur düşmən döyüş meydanında məğlub oldu, məhv oldu. Əminəm ki, Polad gəlib atasının evini bərpa edəcəkdir.

**XXX**

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Aşağı Gövhərağa və Yuxarı Gövhərağa məscidlərini də ziyarət etdilər.
Prezident İlham Əliyev bu məscidlərə də "Qurani-Şərif" bağışladı.

**XXX**

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşadakı Qazançı kilsəsində oldular.

**XXX**

Şuşa şəhərində erməni vandalizminə məruz qalan abidələrdən biri də XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksidir. Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci ildə Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı olub.
Şuşa şəhərinin məşhur yerində - Cıdır düzünə yaxın bir ərazidə böyük şairin məzarı üstündə inşa edilən məqbərə dördkünc quruluşa malikdir və mərmərlə bəzədilmişdi. Burada Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid səksənə yaxın eksponat da sərgilənirdi. 1992-ci ilin may ayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən eksponatlar məhv edilib.
Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva vaxtilə Molla Pənah Vaqifin büstünün olduğu yerə gəldilər.
**Prezident İlham Əliyev:** Bu da tarixi şəkildir. Heydər Əliyev Vaqifin büstünün önündə. Şəkildə məscidin minarələri də görünür. Vaqifin büstü ermənilər tərəfindən dağıdılıb. Onun yerində belə bir eybəcər dükan tikiblər. Bu, erməni vandalizminin növbəti təzahürüdür, növbəti cinayətdir.
Dövlətimizin başçısı və ailə üzvləri Vaqifin dağıdılmış məqbərəsinə baxdılar.
Məqbərənin qarşısında çıxış edən **Prezident İlham Əliyev** dedi:
- Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl - 1982-ci il yanvarın 14-də açılışı olmuşdur. Bu tarixi gün mənim yadımdadır. Çünki o vaxt atamla bərabər, bax, bu yerdə mən də durmuşdum. Bu, tarixi videokadrlar da var. Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü ulu öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı.
Xanın vəziri olan insanın şərəfinə o vaxt - sovet dövründə məqbərə ucaltmaq qeyri-adi bir hadisə idi. İndi buna hər kəs təbii hadisə kimi baxa bilər, amma o vaxt - sosializm dövründə xanın vəzirinin şərəfinə məqbərə ucaltmaq doğrudan da fövqəladə bir hadisə idi. Məhz Heydər Əliyevin təkidi və cəsarəti nəticəsində o vaxt Azərbaycan buna nail ola bildi və bu yer də təsadüfən seçilmədi. Molla Pənah Vaqifin qəbri buradadır. Bu məqbərənin yaradılması və açılışı bir tərəfdən Azərbaycan Respublikasının öz tarixinə, Azərbaycan xalqının öz dahi şəxsiyyətlərinə olan hörmətin əlaməti idi. Digər tərəfdən bu məqbərənin Şuşada açılması bir daha təsdiq edirdi ki, Şuşa Azərbaycan şəhəridir.
Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanı bu vilayətin tərkibinə salmaqla güdülən məqsəd də aydın idi ki, yavaş-yavaş, tədricən burada Azərbaycan izi silinsin, bu ərazi erməniləşdirilsin və azərbaycanlılar öz respublikasının bu ərazisində azlıq təşkil etsinlər. Məqsəd bu idi. Ulu öndər Heydər Əliyevin dövründə - 1969-1982-ci illərdə onun səyləri nəticəsində, siyasəti nəticəsində, o cümlədən Yevlaxdan, Ağdamdan Xankəndiyə dəmir yolunun çəkilişi, Dağlıq Qarabağda müəssisələrin yaradılması və bu müəssisələrə Azərbaycanın müxtəlif yerlərindən mütəxəssislərin gəlməsi burada milli tərkibin Azərbaycan xalqının xeyrinə xeyli dəyişmişdi və 1982-ci ildə azərbaycanlılar Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin 25 faizini təşkil edirdi. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda qalsaydı, növbəti 10 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətində azərbaycanlılar əksəriyyət təşkil edəcəkdilər və beləliklə, heç vaxt burada hər hansı bir münaqişə, yaxud da ki, separatizm meydana çıxa bilməzdi, separatizm baş qaldıra bilməzdi.
Ulu Öndərin uzaqgörənliyi, doğma xalqına bağlılığı, doğma ədəbiyyatına, mədəniyyətinə olan sevgisi, bax, bu məqbərənin tikintisində özünü göstərib. Bir daha demək istəyirəm ki, sovet rəsmi ideologiyasında xanlıqlar antimilli qurum kimi qələmə verilirdi, xanlar ictimaiyyətə düşmən kimi təqdim edilirdi. Sovet dövlətinin rəsmi ideologiyası elə idi ki, sanki Azərbaycan ərazisində mövcud olan xanlıqlar insanları yalnız istismar edirdi. Azərbaycan xalqı sanki gözləyirdi ki, bu xanlıqlar ləğv edilsin və sovet hakimiyyəti yaradılsın. Təbii ki, bu, cəfəngiyatdır, Azərbaycan xalqı əsrlərboyu azadlıq, müstəqillik eşqi ilə yaşamışdır. Əfsuslar olsun ki, tariximizin böyük əksəriyyəti müstəmləkəçilik formatında keçib. Biz başqa dövlətlərin tərkibində yaşamışıq. Bizi buna məcbur ediblər, zorla, öz xoşumuzla yox.
Ulu Öndər sovet dövründə də milli ruhun yüksək səviyyədə olması üçün çox böyük işlər görürdü. Bu məqbərənin açılışı tarixi hadisə idi. Mən o günü çox yaxşı xatırlayıram. Mən təxminən orada, kənarda durmuşdum, burada atam və görkəmli mədəniyyət xadimləri. Yadımdadır, Azərbaycan və erməni şairləri şeirlər deyirdilər. Hətta erməni şairləri Azərbaycan dilində şeirlər deyirdilər. Bu, bir dostluq bayramı, dostluq tədbiri idi və heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş

qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bizim tarixi şəhərimizi əlimizdən alacaqlar, tarixi abidələrimizi, məscidlərimizi, bu məqbərəni bu günə salacaqlar, Azərbaycan xalqının çoxəsrlik irsini Qarabağ diyarından silməyə çalışacaqlar. Heç kimin ağlına gələ bilməzdi. Mən dəfələrlə demişəm və bir daha deyirəm, əgər Heydər Əliyev 1982-ci ildə Bakıdan Moskvaya getməsəydi, əgər onu Moskvaya təyin etməsəydilər, heç vaxt imkan verməzdi ki, burada separatizm baş qaldırsın, heç vaxt. Ancaq Heydər Əliyev hakimiyyətə gələndə artıq Şuşa işğal altında idi, Kəlbəcər işğal altında idi, Laçın işğal altında idi, Daşaltı işğal altında idi, bütün ətraf bölgələr işğal altında idi və Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaradılmışdı.

Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar. Şuşa kimi alınmaz qalanı düşmənə təslim etdilər ki, Azərbaycandakı o vaxtkı hakimiyyəti yıxsınlar və hakimiyyətə gəlsinlər. Belə də oldu. Şuşanın əldən getməsi o vaxtkı hakimiyyətin süqutuna gətirib çıxardı. Xalq Cəbhəsi bundan istifadə edib Şuşa əldən gedəndən sonra və Laçın düşmənə təhvil veriləndən sonra hakimiyyətə gəldi. Hər kəs bu tarixi görə bilər, bu, yaxın tarixdir. Xalq Cəbhəsi-Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət törədib. Sonra nə edib? Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər. Ermənistan kim idi ki, biz onlara məğlub olaq? Kim idi? Xalq Cəbhəsi-Müsavat, antimilli ünsürlər Şuşanı düşmənə verdilər, özləri də qaçıb gizləndilər.

Ondan sonra erməni vandalları bizim bütün şəhərlərimizi yerlə-yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün dünya görməlidir. Məscidlərimizi, qəbirlərimizi, tarixi abidələrimizi, bütün binalarımızı yerlə bir ediblər. Bu məqbərəni də yadelli düşmənlər dağıdıblar. Məqbərənin bu hissəsində naxışlar var idi, indi tarixi şəkillər var, hamısı sökülüb talan edilib, məqbərə dağıdılıb.

Onların ürəyində nə qədər düşmənçilik hissi olmalı idi ki, bax, bu vəhşiliyi törətsinlər. Bunu törədən Sarkisyan-Koçaryan cütlüyüdür. Bizim şəhərlərimizi bu günə salan Sarkisyan-Koçaryan cütlüyüdür. Quldurları, Xocalı cəlladlarını, özündən yalançı qəhrəman düzəldənləri biz məhv etmişik. Onların ordusunu biz məhv etmişik. Şuşanı onların ordusunun əlindən biz geri almışıq, qəhrəmanlıq göstərərək, sıldırım qayalardan qalxaraq. Yüngül silahlarla, bıçaqlarla toplara, tanklara qarşı vuruşaraq məhv etdik onların ordusunu. Harada idilər onlar? Qaçıb gizlənmişdilər İrəvanda. Biri burnunu soxmuşdu buraya. Amma beş gündən sonra dovşan kimi buradan qaçdı. O birisi, ümumiyyətlə, heç səsini çıxarmırdı. Üçüncüsü də var, müharibə cinayətkarı - Ohanyan, özü də burada doğulub, bizim torpağımızda. Müharibə dövründə guya Şuşanı müdafiə etməyə gəlmişdi. İti qovan kimi qovduq onu. İndi yenə sülənir Ermənistanda. Ağzını açıb çirkin sözlər deyir. Bizə sataşanın aqibəti nə oldu, onu hər kəs gördü. Heç kim unutmasın bu dəmir yumruğu. Düşmənin belini qırdıq. Lazım olarsa, bir daha qırarıq. Koçaryan-Sarkisyan, Azərbaycan xalqının düşmənləri, siz buranı bu günə saldınız. Mən müzəffər Ordunun Baş Komandanı kimi gəlmişəm və burada durmuşam, öz torpağımda durmuşam. Sizin iziniz də, tozunuz da rədd olub buradan və bir daha olmayacaq, heç vaxt olmayacaq.

Bu gün Dağlıq Qarabağda özünü siyasətçi adlandıran bəzi ünsürlər yenə də baş qaldırmağa çalışırlar. Unutmasınlar, bizim səbrimizlə oynamasınlar, 44 günlük müharibə onların yadından çıxmasın. Yoxsa ordu qurub torpaqları geri alacaq? Gəlin, alın. Gəlin bura, siz buradasınız, yaxındasınız. Gəlin alın, görüm necə alırsınız? İti qovan kimi qovmuşuq sizi, rədd etmişik, cəhənnəmə göndərmişik.

Vaqif Poeziya Günləri bərpa ediləcək. Mən artıq göstəriş vermişəm, bu il keçiriləcək. "Xarı bülbül" festivalı bu il keçiriləcək. Biz artıq Şuşanın bərpasını başlayırıq. İndi baş plan hazırlanır. Bütün binaların təftişi aparılıbdır. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir. Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

**XXX**

Şuşaya səfər çərçivəsində Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə də olublar.

Cıdır düzü tarixən cıdır yarışlarının keçirildiyi və Qarabağ xanlığı dövründən yerli əhalinin Novruz bayramını keçirdiyi ərazidir. Bu ərazidə bir çox milli xalq oyunları keçirilirdi. Bu oyunların qalibinə bəzən qızıl pullar, bəzən isə taxıl, buğda, məişət əşyaları verilirdi. Bu düzdə güləş, qaçış, oxatma və sair oyunlar keçirilirdi. Sonralar həmin ərazidə at yarışları, çövkən oyunları keçirildiyinə görə bu ərazini Cıdır düzü adlandırıblar.

**Prezident İlham Əliyev:**

-Bura Cıdır düzüdür. Hər birimiz üçün əziz, doğma Cıdır düzü. Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toy-bayram olacaq.

Bir müddət bundan əvvəl işğalçı qüvvələr bizim üçün müqəddəs olan bu yerdə heysiyyətimizə toxunmaq, Azərbaycan xalqını təhqir etmək üçün eybəcər hərəkətlər etmişlər, - bütün dünya artıq bundan xəbərdardır, - “Yallı” getmişlər. İzi-tozu da qalmayıb burada, rədd etmişik. İndi Cıdır düzü də, Şuşa da, Qarabağ da azaddır. Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, əllərində bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi Qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik Qələbəmizin əsas amilinə çevrildi.

Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi. Gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bütün etnik qrupların nümayəndələri, bütün dinlərin nümayəndələri bir yumruqtək birləşib. Qələbəmizin rəmzi təsadüfən yumruq seçilməyib. Mən demişəm, burada - Cıdır düzündə bir daha demək istəyirəm ki, bu yumruq, həm gücdür, həm birlikdir. Onsuz da bizdə birlik kifayət qədər yüksək səviyyədə idi, bundan sonra daha da güclü olacaq. Birliyi olan ölkələr qələbə qazanırlar. İradəli olan liderlər qələbə qazanırlar. Heç nəyə baxmayan, heç kimdən çəkinməyən, milli maraqları müdafiə edən liderlər qələbə qazanırlar. Azərbaycanın timsalında bunu hər kəs gördü.

Biz Qələbə qazanmışıq, Ermənistan məğlub olub. Biz, eyni zamanda, haqlıyıq. Bizim davamız haqq davasıdır. Ermənistanın davası işğalçılıq davasıdır. Haqq-ədalət zəfər çaldı, güc hesabına, iradə hesabına, siyasət hesabına, birlik hesabına! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

**XXX**

İşğal dövründə ermənilər qondarma “Dağlıq Qarabağ respublikası”nın “parlamentini” Şuşa şəhərinə köçürmək üçün burada bina tikməyə başlamışdılar. Ancaq şanlı Azərbaycan Ordusu düşmənin bu niyyətini puç etdi. Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad olundu. Qondarma rejimin “parlamenti” binasının inşası yarımçıq qaldı.

**Prezident İlham Əliyev** dedi:

-Qondarma rejim bəyan etmişdi ki, “Dağlıq Qarabağ respublikası”nın “parlamentini” Şuşa şəhərinə köçürəcək. Beləliklə, Şuşa şəhərini erməniləşdirmək üçün növbəti cəhd edilməli idi. Bax, bu binanı onlar “Dağlıq Qarabağ respublikası”nın “parlament” binası kimi inşa etməyə başlamışdılar. Ancaq çatdıra bilmədilər. Biz gəldik, bu torpağın sahibləri gəldi, onları buradan qovdu və beləliklə, onların bu çirkin əməlləri həyata keçmədi. “Parlament” də gorbagor oldu, status da gorbagor oldu, cəhənnəmə getdi. Qarabağ Azərbaycandır!

**XXX**

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva erməni vandalizminin qurbanı olmuş Şuşa Realnı Məktəbinin dağıdılmış binası ilə tanış oldular.

**Prezident İlham Əliyev:** Dünyada onlar kimi saxtakar millət yoxdur. Bu bina da bərpa olunacaq.

Qeyd edək ki, Şuşa Realnı Məktəbi dövrünün nümunəvi maarif ocağı sayılırdı. Məşhur Azərbaycan yazıçıları Əbdürrəhim bəy Haqverdiyev və Yusif Vəzir Çəmənzəminli bu məktəbin məzunu olmuşlar.

1992-ci ilin may ayında Şuşa şəhəri işğal edildikdən sonra erməni vandalları Realnı Məktəbini yandıraraq xarabazara çeviriblər.

**XXX**

Yanvarın 15-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yenidən Cıdır düzünə gəldilər.
**Prezident İlham Əliyev** dedi:
-Bu gün yanvarın 15-də səhər tezdən yenə Cıdır düzünə gəldik. Artıq Şuşadan Bakıya yola düşürük. Getməmişdən əvvəl də istədik gələk bu müqəddəs, tarixi yerə, bir daha bu gözəlliyi seyr edək, Şuşaya "Çox sağ ol", "Gələn görüşlərədək" deyək. Biz qayıtmışıq öz doğma torpağımıza, Şuşanı azad etmişik. Bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaq.
Dünən Şuşada bütün tarixi abidələri ziyarət etdik, müqəddəs məscidlərimizi ziyarət etdik. Ürək ağrısı ilə deyə bilərəm ki, burada olan dağıntılar hər bir Azərbaycan vətəndaşının qəlbini incidir. Ancaq Şuşanı dağılmış, amma, eyni zamanda, əyilməmiş, əzəmətli görmək bizi hədsiz dərəcədə qürurlandırır. Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib. Biz Şuşanın bütün yaralarını sağaldacağıq. Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.
Biz dünən gecə Şuşada qalmağa qərar verdik, halbuki Bakıya qayıtmalı idik. Ancaq mən hesab etdim ki, mütləq gecə Şuşada qalmalıyıq. Çünki Azərbaycan Prezidenti ilk dəfədir ki, Şuşaya gəlib. Bizim müstəqilliyimizin təxminən otuz yaşı var. Ancaq bu otuz il ərzində birinci dəfə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Şuşaya gəlib, Şuşada qalıb və sözün düzü, Şuşadan getmək istəmir.
Şəhərin nadir memarlığı, relyefi, təbiəti, havası, aurası təkrarolunmazdır. Mən dünən qeyd etdiyim kimi, Şuşada iki dəfə 1982-ci ildə olmuşam. O vaxt burada bir neçə kütləvi tədbir keçirilmişdir. Yəni, Şuşanı dünənki kimi, bugünkü kimi, bu formada görmək mənə nəsib olmamışdı. Bir daha gördüm ki, bu şəhərin nadir aurası, təbiəti, memarlığı bizim böyük sərvətimizdir.
Bu gecə cəmi beş saat yatmışam. Saat 5-də oyanmışam, bilmirəm nəyə görə. Bəlkə dünənki gün çox həyəcanlı idi. Çünki Şuşanı görmək, Şuşaya qayıtmaq təkrarolunmaz bir hissdir. Ola bilər, Şuşanın səfalı təbiəti, havası kifayət edir ki, insan heç çox yatmaq da istəmir. Bakıya dönməzdən əvvəl yenidən gəlmişəm buraya, Cıdır düzünə, Şuşanın tarixi yerinə ki, bir daha Azərbaycan xalqına öz sözümü deyim. Deyim ki, biz xoşbəxt xalqıq, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Xoşbəxt xalqıq ki, özümüzü müstəqil dövlət kimi təsdiq etmişik. Bir daha deyim ki, Şuşa bizimdir! Qarabağ Azərbaycandır!

**X X X**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cıdır düzündə çay süfrəsinə qonaq oldular.
**Prezident İlham Əliyev:** Cıdır düzündə armudu stəkanda çay, paxlava ilə. Dostlarımız sevinsin, düşmənlərin gözü kor olsun!

**AZƏRTAC**
**2021, 15 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Mirzəcamallı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Mirzəcamallı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 16 yanvar**

**Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Merdinli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Merdinli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Bir çox tədqiqatçının fikrinə görə, kənd Merdinli nəslinə mənsub ailələr tərəfindən salındığına görə belə adlandırılıb. Kəndin 1750-ci ilə qədərki adı Qarabulaq olub. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Merdinli kəndi Azərbaycan Ordusunun Vətən müharibəsində Şanlı Qələbəsindən sonra noyabrın 9-da işğaldan azad edilib.

**AZƏRTAC**
**2021, 18 yanvar**

**Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Şəkərcik kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Şəkərcik kəndinin videogörüntülərini yayıb.

**AZƏRTAC**
**2021, 19 yanvar**

**Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Dördçinar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Dördçinar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Köndələnçayın sahilində düzənlikdə yerləşən Dördçinar kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu oktyabrın 20-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 21 yanvar**

**İşğaldan azad olunmuş Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin videogörüntüləri**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad olunmuş Füzuli rayonunun Yuxarı Əbdürrəhmanlı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Yuxarı Əbdürrəhmanlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu oktyabrın 20-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 22 yanvar**

**Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Qarğabazar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Qarğabazar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qarğabazar kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu oktyabrın 20-də kəndi işğaldan azad edib.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Füzuli şəhərindən iki kilometr məsafədə düzənlik ərazidə yerləşən Şəkərcik kəndi 1993-cü il avqustun 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 22 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Aşağı Aybasanlı kəndindən videogörüntülər paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun Aşağı Aybasanlı kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 24 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Dövlətyarlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Dövlətyarlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Dövlətyarlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 25 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Kürdlər kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Kürdlər kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Kürdlər kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbə vuran rəşadətli Azərbaycan Ordusu oktyabrın 20-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 25 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Xələfşə kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Xələfşə kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Füzuli rayon mərkəzindən 6 kilometr cənub-qərbdə yerləşən Xələfşə kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 27 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Zərgər kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Zərgər kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Zərgər kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi oktyabrın 21-də işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 28 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Cuvarlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Cuvarlı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Cuvarlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi oktyabrın 17-də işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 29 yanvar**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Yal Pirəhmədli kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Yal Pirəhmədli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Yal Pirəhmədli 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu kəndi noyabrın 9-da işğalçılardan azad edib.

**AZƏRTAC**
**2021, 30 yanvar**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar**
*(14 fevral 2021-ci il)*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəldi.

Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Dövlətimizin başçısı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.

XXX

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində olublar.

**Zəngilana gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev dedi:**

-Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlamışdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi düşmən tərəfindən demək olar tamamilə dağıdılmışdır. Bir neçə ev qalmışdır. Burada onların hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gələn ermənilər, burada qanunsuz yaşayan ermənilər. Zəngilanı, bax, bu günə qoyub mənfur düşmən.

Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım.

Zəngilan rayonunda birinci “ağıllı kənd” layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir.

Dövlətimizin başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq “ağıllı kənd” layihəsi barədə məlumat verildi.

Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələridir.

Qeyd edək ki, Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevriləcəyini dəfələrlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlətimizin başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.

Dövlətimizin başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

XXX

Daha sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Laçın rayonuna yola düşdülər.

Yol boyunca Qubadlı rayonunun işğaldan azad edilən kəndləri barədə danışan Prezident İlham Əliyev dedi:

-Bura Qubadlı rayonunun Xəndək kəndidir. Burada da şiddətli döyüşlər gedib. Ordumuz düşməni buradan qovaraq, məhv edərək bu əraziləri də azad etmişdir. Düşmən burada da qanunsuz olaraq məskunlaşmışdı. Çox ağır şəraitdə yaşayıblar. Baxın, görün, onların yaşadıqları evlər it damından artıq deyil. Mən deyəndə ki, o vaxt işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, bunu nəzərdə tuturdum. Aclıq, səfalət, qanunsuzluq hökm sürürdü. Belə bərbad yollardan istifadə edirdilər. Bu işıq dirəklərini biz torpaqları azad edəndən sonra quraşdırdıq.

Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın, nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları. Bu da onların traktorudur.

Bala Soltanlı kəndi. Burada evlərin böyük hissəsi dağıdılıb, amma bəzi evlərdə düşmən qanunsuz məskunlaşma aparmışdı. Bu da hərbi cinayət sayılır. Bütün bu cinayətlərə görə düşmən artıq öz payını alıb, cavabını verib, beynəlxalq müstəvidə də cavabını verəcəkdir. Bizim şanlı ordumuz, bax, bu yolla Laçın rayonuna keçmişdir və Laçın rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. O cümlədən Güləbird kəndi də ordumuz tərəfindən işğalçılardan azad edilmişdir. Bura Laçın rayonunun cənub hissəsidir. Ordumuz işğalçılardan azad etmişdir. Şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra bizə qaytarıldı.

Bu da Padar kəndidir.

Qubadlı rayonunun Yusifbəyli kəndi. Bu kənd də düşmən tərəfindən tamamilə dağıdılıb. Biz indi Laçın rayonuna gedirik. Laçın rayonunun Güləbird kəndinə. Zəngilan rayonunun İkinci Ağalı kəndində olduq, kəndin inkişafı ilə bağlı təqdimat edildi. Bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi “ağıllı kənd” konsepsiyası əsasında qurulacaq. Eyni zamanda, Birinci və Üçüncü Ağalı kəndlərinə qayıdacaq soydaşlarımız da eyni imkanlardan istifadə edəcəklər.

İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.

Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün, nə gözəl çaydır? Çayımızı da düşmən istismar etmişdir, təbiətimizi də istismar etmişdir. Biz buna son qoyduq, düşməni rədd etdik.

Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı və çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

-Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçirilir. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri arasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başlamışıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verilmişdir və birinci mərhələ başa çatıb. “Azərişıq” artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün “Azərenerji” Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və Şuşa şəhərində elektrik yarımstansiyası inşa edir.

Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində Su Elektrik Stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş – ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

Kəlbəcər-Laçın zonasında su elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində - dekabrın 1-nə qədər demək olar ki, bütün bu su elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da dağıdıb. O cümlədən Güləbird Su Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks-təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün

biz 8 meqavat gücündə Güləbird Su Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası var. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu, çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpaolunan enerji növlərinin bu bölgədə çox böyük potensialı var. Onların arasında ən böyük potensiala “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyaları malik olacaqdır. Bu stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaqdır. Yəni, biz bir neçə ildən sonra 120 meqavat “Xudafərin” və “Qız Qalası” stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı su elektrik stansiyalarından alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpaolunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot “ağıllı kənd” layihəsi də məhz bərpaolunan enerji ilə təchiz ediləcəkdir.

Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar “yaşıl enerji” zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı “yaşıl enerji” zonasına çevirəcəyik.

Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə - bax, orada gördüyünüz Güləbird Su Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız var. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verildi. Bu gün Horadizdə Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa var. Artıq bu işlərə start verildi. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir - biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq önəmli sənədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o Bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və eyni zamanda, bu yoldan bütün bölgə ölkələri istifadə edə bilərlər. Bölgə ölkələri bu yolun tikintisinə də böyük maraqla yanaşırlar. Demək olar ki, bizim bölgəmizdə yerləşən ölkələr bu layihəyə öz müsbət qiymətini vermişlər.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir götürəcək, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir görəcəklər.

Onu da bildirməliyəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək yüklər daşınmağa başlamışdır. Görün, biz nə qədər böyük uzaqgörənlik göstərmişdik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolları bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Çünki biz etibarlı tranzit ölkəsi kimi bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti var.

Bu, eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, Ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında Qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdi. Danışıqlarda razılığa gəlməməsinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, beş rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim.

Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək, bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən - Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat apara bilmişik. Laçın rayonunun, bax, bu cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edilmişdir. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdır. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olub, insanların əmlakı dağıdılıb, insanlar öz dədə-baba torpaqlarından didərgin salınıb. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada -

Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

XXX

Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasının açılışında iştirak etdi.

Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın ediblər. Dövlətimizin başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilən bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.

Prezident İlham Əliyev “Güləbird” Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edək ki, “Güləbird” Su Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunan rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək.

XXX

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Zəngilan rayonundakı Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəldilər.

Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıb. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulub.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər.

Sonra dövlətimizin başçısı, birinci xanım və qızları Bəsitçaya balıq buraxdılar.

Prezident İlham Əliyev: Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik.

Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir.

XXX

Sonra dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.

Prezident İlham Əliyev: Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa

edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etmişik və 7 min hektarda əkin işləri aparılmışdır. O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20-25 min hektarda əkin işləri aparılacaq. Yəni, biz vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Əlbəttə ki, azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlirlər əldə etmişdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcək.

Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.

**AZƏRTAC**
**2021, 15 fevral**

**Sərhəd tanımayan erməni vəhşiliyi - AZƏRTAC-ın Füzuli rayonundan reportajı**

Faşist xislətli erməni terrorçuları təkcə insanlığa qarşı deyil, tarixi abidələrimizə, qəbiristanlıqlarımıza və məscidlərimizə də qənim kəsiliblər. Otuz ildən sonra erməni işğalından azad olunan Füzuli rayonundakı evləri, tarixi tikililəri dağıdan terrorçular hətta məzarları belə talayıblar. Nəhayət, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Qarabağdan erməni quldurlarının qanlı əllərini kəsib atmağa müvəffəq olub.

AZƏRTAC erməni vandalizminə məruz qalmış ərazilərimizdən bir olan Füzuli rayonundan reportajı təqdim edir.

**AZƏRTAC**
**2021, 16 fevral**

**Horadiz-Ağbənd dəmir yolu nəinki bölgənin, həm də bütün regionun gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır**

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara mütəmadi səfərləri xalqımız tərəfindən çox maraqla qarşılanır, eyni zamanda, hər birimizi ruhlandırır. Bu ərazilərdə artıq böyük inkişafın təməlləri atılmaqdadır. Məqsəd yalnız ölkə səviyyəsində deyil, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq səviyyələrdə inkişafı təmin etməkdir. Otuz ildən çox müddətdə erməni vandalizminə məruz qalan torpaqlarımızda tezliklə canlanmanın və məskunlaşmanın şahidi olacağıq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı Eldəniz Səlimov bildirib.

E.Səlimov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərə budəfəki səfəri bir sıra mühüm işlərə start verilməsi və əhəmiyyətli layihələrin reallaşması ilə yadda qaldı. Prezident İlham Əliyev, ilk növbədə, Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Bu hadisənin əhəmiyyəti olduqca böyükdür. Bu dəmir yolu xətti nəinki bölgənin, həm də bütün regionun gələcək inkişafı üçün strateji əhəmiyyət daşıyır. Ümumi uzunluğu 100 kilometr olan bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad edilmiş torpaqlara rahat gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq. Ən mühümü isə odur ki, bu infrastruktur Türkiyəyə qədər uzanmaqla Bakı-Tbilisi-Ceyhandan sonra Azərbaycanı qardaş ölkə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi olacaq. Həmçinin Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin yaranmasına böyük töhfə verəcək.

Deputatın sözlərinə görə, Azərbaycanın uzun illər təhlükəsiz tranzit ölkə kimi qazandığı nüfuz və maliyyə resursları ona növbəti mərhələyə keçmək imkanı verəcək. Digər tərəfdən, bu infrastruktur bütün Türk dünyasını birləşdirməklə yaxın gələcəkdə regionun türkdilli dövlətləri arasında dərin iqtisadi-siyasi birliyin qurulmasına da töhfə verə bilər. Bu isə böyük bir regionda Azərbaycanın strateji əhəmiyyətini artıracaq, o cümlədən iqtisadi potensialına təkan verəcək. “Dövlətimizin başçısının işğaldan azad edilən bütün şəhərlərin baş planlarının hazır olmasını bildirməsi yaxın gələcəkdə bu ərazilərdə ciddi şəhərsalma fəaliyyətinə start veriləcəyinin və yerli yol-nəqliyyat infrastrukturunun qurulacağının anonsu kimi qiymətləndirilə bilər. Prezident İlham Əliyev həm də bərpa olunacaq ərazilərdə müasir iqtisadi və texnoloji innovasiyaların tətbiqi barədə öz fikirlərini bölüşdü. Bu isə dövlətimizin başçısı tərəfindən xalqımızın Qarabağın “ağıllı region” kimi inkişafı ilə bağlı istəklərinə cavab verməsi deməkdir. Bu istiqamətdə Zəngilan rayonunun Ağalı kəndində birinci “ağıllı kənd” layihəsinin icrasına başlanılması da xüsusi əhəmiyyətə malikdir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq. Bu yolla ölkəmiz daha geniş aspektdən alternativ enerjinin tətbiqini reallaşdırmış olacaq. Ümumilikdə isə layihənin spektri çox geniş olmaqla yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji kimi bir sıra zəruri sahələri əhatə edir”, - deyə deputat bildirib.

E.Səlimov qeyd edib ki, “ağıllı” şəhər və kəndlərin fəaliyyəti smart cihazlardan əldə olunan məlumatlar üzərində qurulur. Bu cihazlar telefonlar və ya avtomobillərdəki sensorlar da ola bilər. Smart cihazlar vasitəsilə kifayət qədər məlumat əldə edildikdə isə məsul şəxslər şəhərin ehtiyaclarını müəyyənləşdirə və lazımi infrastruktur işlərinə start verə bilərlər. Hazırda bir çox “ağıllı şəhər”lərin bütün evlərində yalnız günəş enerjisindən istifadə olunur. Əsas nəqliyyat vasitələri isə elektriklə işləyən avtomobillərdir. Bu şəhərlərdə sudan az istifadə olunur. Küçələr sensorlu işıqlandırma sistemləri ilə təchiz edilib. Zəlzələ və digər fövqəladə hadisələr zamanı “ağıllı” şəhər və kəndlər özlərini 3 gün ərzində təmin edə bilirlər. Bunun isə əhəmiyyəti böyükdür.

Onun sözlərinə görə, zamanla “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının bütün ölkə üzrə reallaşdırılması daha yüksək yaşam standartlarının tətbiqinə, kənd təsərrüfatında və istehsalatda yeni innovasiyalar sayəsində ciddi inkişafa, bütövlükdə isə enerji resurslarından səmərəli istifadəyə gətirib çıxara bilər. Bu məqsədlə Qarabağ bölgəsində həyata keçirilən faktiki layihələr gələcəkdə bütün ölkə üçün pilot layihə kimi baza rolunu oynaya bilər.

Ermənistanda baş qaldırmağa çalışan revanşist qüvvələrdən də danışan deputat bildirib ki, ölkəmizin geosiyasi əhəmiyyətinin və iqtisadi gücünün artması bölgədə sülhün, sabitliyin təmin edilməsi üçün də böyük əhəmiyyətə malikdir. Bu güc Ermənistanda baş qaldırmağa çalışan revanşist qüvvələrin önünü kəsmək üçün də zəruridir. Ermənistan Azərbaycanı növbəti təxribatlarla, yeni müharibə ilə hədələməyə çalışır. Bu cür revanşist və faşist yanaşmalar artıq öz əhəmiyyətini itirməyə başlayıb. Zamanla regional layihələr icra edildikcə Ermənistan belə münasibətdən əl çəkməli, öz məğlubiyyətini qəbul etməlidir. Çünki

artıq Ermənistan ordusu yoxdur, məhv edilib. Digər tərəfdən isə Ermənistanın artıq iqtisadi və sosial potensialı da qalmayıb.

"Regionda bu potensiala sahib olan və tranzit əlaqələri təmin edən ölkə Azərbaycandır. Bütün iqtisadi maraqlar Azərbaycanın ərazisində kəsişdiyinə görə burada bütövlükdə regionun təhlükəsizliyi məsələsi önəm daşıyır. Ermənistanın bu cür münasibəti bütün region üçün təhdid deməkdir və bu yolu seçməklə növbəti dəfə öz dezinteqrasiyasının mənfi nəticələrini görəcək. Ermənistanda artıq anlamalıdırlar ki, erməni faşizminin mövcud şəraitdə - regional maraqlar və təhlükəsizlik çərçivəsində bir daha baş qaldırması qeyri-mümkündür, belə addımların nəticəsi onlar üçün daha acınacaqlı ola bilər", - deyə Eldəniz Səlimov fikirlərinin yekunlaşdırıb.

**AZƏRTAC**
**2021, 16 fevral**

**“Ukrayna 24” telekanalı Azərbaycan Prezidentinin mətbuat konfransı və işğaldan azad olunan ərazilərimiz barədə xüsusi reportaj yayımlayıb**

Ukraynanın nüfuzlu “Ukrayna 24” telekanalı Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı və işğaldan azad olunan Ağdam və Füzuli rayonlarından xüsusi reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda dövlətimizin başçısının Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə uğurlu hərbi əməliyyatları, Ermənistanın diversiya qrupunun törətdiyi cinayətləri, ərazilərin minalardan təmizlənməsi, məcburi köçkünlərin qaytarılması qrafiki, işğaldan azad olunan ərazilərimizin bərpası və yenidən qurulması barədə sitatları yer alıb.

Ukraynalı jurnalist tamaşaçılara Ağdam şəhərindən görüntülərini təqdim edərək tarixi, dini abidələrin, yaşayış binalarının ermənilər tərəfindən necə məhv edildiyini göstərir. Həmin ərazilərdə minalanmış sahələrdən başqa heç nəyin qalmadığını qeyd edir. Reportajda Ağdamdan olan məcburi köçkünlərin ermənilərin törətdiyi vəhşiliklər barədə fikirləri də yer alıb.

Reportajda, həmçinin ərazilərin minalardan necə təmizlənməsi barədə görüntülər də yer alıb. Bundan başqa Füzuli rayonunda beynəlxalq hava limanının inşası barədə məlumat verən ukraynalı jurnalist Azərbaycanın işğaldan azad olunan ərazilərində 3 aeroportun inşa ediləcəyini vurğulayır. Şuşa və Laçına yeni magistral yolun çəkilişləri barədə məlumat verib.

Emil Hüseynli
AZƏRTAC-ın xüsusi müxbiri
Kiyev

**AZƏRTAC**
**2021, 1 mart**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Üçbulaq kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Üçbulaq kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 2 mart**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Qaradağlı kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Qaradağlı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qaradağlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 14-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 4 mart**

## Azad olunan Qarabağ moldovalı jurnalistlərin gözü ilə

Moldovanın nüfuzlu “noi.md” xəbər portalında “Azad olunan Qarabağ moldovalı jurnalistlərin gözü ilə” sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə bu günlərdə Azərbaycanda səfərdə olan xarici jurnalistlərin işğaldan azad olunmuş ərazilərdə olduğu qeyd edilib. Bildirilir ki, xarici jurnalistlər gözəl Qarabağ diyarının ermənilər tərəfindən necə dağıdıldığının, məhv edildiyinin şahidi olublar. Tarixi, dini və mədəni abidələrin məhv edilməsi, meşələrin qırılmasını gözləri ilə görüblər. Ağdam şəhərinin ermənilər tərəfindən tamamilə məhv edildiyini müşahidə ediblər. Mütəxəssislər, erməni işğalının nəticələrini Xirosimadakı atom bombasının partlaması ilə müqayisə edirlər. Məqalədə qeyd olunur ki, bütün təhlükələrə rəğmən Ermənistan tərəfindən minalanmış ərazilərin xəritəsi təqdim olunmur.

Məqalədə bütün bunlara baxmayaraq, artıq Füzuli rayonunda böyük infrastruktur layihələrə başlandığı, o cümlədən beynəlxalq hava limanının, magistral yolların tikildiyi də vurğulanır.

Emil Hüseynli
AZƏRTAC-ın xüsusi müxbiri
Kişineu

**AZƏRTAC**
**2021, 4 mart**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Yuxarı Rəfədinli kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Yuxarı Rəfədinli kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Yuxarı Rəfədinli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 22-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 5 mart**

**Misir portalı Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş rayonlara səfərindən yazıb**

Misirin "Aldiplomasy" portalında Azərbaycandakı diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş Füzuli, Qubadlı və Laçın rayonlarına səfərindən bəhs edən material yerləşdirilib.

AZƏRTAC-a istinadla yayılan xəbərdə qeyd olunub ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında məlumat verib. Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyevin göstərişi əsasında diplomatik korpus nümayəndələrinin Azərbaycanın azad edilmiş Füzuli, Qubadlı və Laçın rayonlarına səfəri başlayıb. "Səfirlərə, beynəlxalq təşkilatların rəhbərlərinə və hərbi attaşelərə bu səfərdə bizə qoşulduqlarına görə minnətdarıq", - deyə Prezidentin köməkçisini qeyd edib.

Oqtay Bayramov
AZƏRTAC-ın xüsusi müxbiri
Qahirə

**AZƏRTAC**
**2021, 6 mart**

**Diplomatik korpus nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının tikintisinin gedişi ilə tanış olublar**

Diplomatik korpus nümayəndələri Füzuliyə səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının tikintisinin gedişi ilə tanış olublar.

AZƏRTAC-ın məlumatına görə, diplomatlara Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yenicə əsası qoyulmuş hava limanında görüləcək işlər barədə məlumat verib. Bildirilib ki, tikinti işlərinə Azərbaycanın xarici tərəfdaşları da fəal surətdə cəlb olunub.

**AZƏRTAC**
**2021, 6 mart**

**Liviyanın müvəqqəti işlər vəkili: Qarabağdakı erməni vəhşiliyinin misli-bərabəri yoxdur**

Qarabağdakı erməni vəhşiliyinin misli-bərabəri yoxdur. Merdinli kəndində müsəlmanların ibadət yerini - məscidi tövlə kimi istifadə ediblər. Bu, əsl vandalizm aktıdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli rayonunun işğaldan azad olunan Merdinli kəndinə səfər edən Liviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Əşrəf Adəm deyib.

“Mən məscidə daxil olanda onun divarlarında təhqiramiz şəkillər gördüm. Bu addım bütün müsəlmanların dini hisslərini təhqir edir. Nəhayət ki, haqq öz yerini tapdı, Azərbaycan torpaqları işğaldan azad olundu. Mən bütün müsəlmanları buradakı dini abidələrin bərpasına yardıma dəvət edirəm", - deyə diplomat qeyd edib.

**AZƏRTAC**
**2021, 6 mart**

**Xarici diplomatlar və hərbi attaşelər Füzuli rayonunun işğaldan azad olunmuş Merdinli kəndində olublar**

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, martın 6-da ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfəri təşkil edilib. Səfərin məqsədi Ermənistan silahlı qüvvələrinin qədim yurd yerlərimizdə törətdiyi vəhşiliklər və cinayət əməlləri ilə tanış olmaqdır.

AZƏRTAC xəbər verir ki, diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev və başqaları müşayiət ediblər.

Azərbaycandakı diplomatik korpusun rəhbərləri, hərbi attaşelər və jurnalistlər Ermənistan işğalından azad olunmuş Füzuli rayonunun Merdinli kəndinə gəlib, buradakı məscidin hazırkı vəziyyəti ilə tanış olublar.

Erməni vəhşiliyi barədə məlumat verən Prezidentin köməkçisi Hikmət Hacıyev qeyd edib ki, Merdinli kəndinə səfərin əsas səbəblərindən biri bu kəndin dağıdılması ilə yanaşı, kənddəki tarixi məscidin məhv edilməsini göstərməkdir: “Digər işğal edilmiş ərazilərdə şahid olduğumuz kimi, burada da görürük ki, bu məsciddən də heyvanların, donuzların saxlanması üçün istifadə edilib. İndiyə qədər səfər edilən kəndlərdə yaşayış yerlərində də görmüsünüz, daş-daş üstündə qalmayıb. Bütün bunlar vandalizmin göstəricisidir. Məscidin dağıdılması ilə yanaşı, onun təhqir edilməsi bütün dinlərdə qəbuledilməzdir. Bu, Azərbaycan xalqına, həmçinin müsəlmanların hisslərinə təhqirdir".

Prezidentin köməkçisi əlavə edib ki, digər ərazilər kimi, bu kəndin ərazisi də piyadalar və tank əleyhinə minalarla kütləvi şəkildə çirkləndirilib: "Bu ərazilərin təmizlənməsi üçün ANAMA tərəfindən iş aparılır, lakin 10 noyabr bəyanatından bu günə kimi 50-dən çox azərbaycanlı mülki şəxs və hərbçi bu minaların qurbanı olub".

**AZƏRTAC**
**2021, 6 mart**

**Diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərimizə səfəri başlayıb**

Diplomatik korpus nümayəndələrinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri başlayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında məlumat verib.

Hikmət Hacıyev bildirib ki, Prezident İlham Əliyevin göstərişi əsasında diplomatik korpus nümayəndələrinin Azərbaycanın azad edilmiş Füzuli, Qubadlı və Laçın rayonlarına səfəri başlayıb: "Səfirlərə, beynəlxalq təşkilat rəhbərlərinə və hərbi attaşelərə bu səfərdə bizə qoşulduqlarına görə minnətdarıq".

**AZƏRTAC**
**2021, 6 mart**

**“France 24” televiziya kanalı Qarabağda aparılan quruculuq işlərinə dair reportaj yayımlayıb**

“France 24” televiziya kanalında “Dağlıq Qarabağa bələdçi ilə səfər: mina təmizləməsi, tikinti və kommunikasiya” adlı reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan hökuməti tərəfindən onlarla jurnalistdən ibarət qrup üçün İkinci Qarabağ müharibəsində azad edilmiş ərazilərimizə bələdçi ilə turun təşkilindən söz açılıb. “France 24” kanalının ölkəmizdəki xüsusi müxbirinin də turda iştirak etdiyi bildirilir. Qeyd edilir ki, kommunikasiyanın məqsədi tur vasitəsilə bölgənin inkişafında hökumətin iradəsini göstərmək olub.

Reportajda İkinci Qarabağ müharibəsində azad edilmiş Füzuli rayonunda aparılan quruculuq işləri ilə tanış olmaq üçün onlarla jurnalistin dəvət olunduğu göstərilib. Jurnalist qrupu üçün təşkil edilmiş turun ilk mərhələsi ərazilərin minalardan təmizlənməsini göstərmək olub. Mina təmizləmə işlərinə məsul şəxs Mədəd Məmmədov minadan təmizləmə işlərinin beynəlxalq mediada işıqlandırılmasının əhəmiyyətinə toxunaraq, ermənilərin mina xəritəsini vermədiyini bildirib. Qeyd edib ki, mina təmizləmə işlərində üzləşdikləri əsas problemlər məhz ermənilər tərəfindən mina xəritəsinin verilməməsidir. Xəritə olmadığı üçün minasız yerlər də minalı kimi qəbul edilir və minatəmizləmə işləri çox vaxt aparır.

Həmçinin reportajda Füzulidə aeroport tikinti sahəsini əks etdirən videogörüntülər yayımlanıb və dövlət tərəfindən büdcə ayrıldığı, gələn payıza qədər aeroportun istismara verilməsinin planlaşdırıldığı diqqətə çatdırılıb. Yeni aeroportun tikintisinin Azərbaycan Prezidenti İlham Əliyevin qərarı ilə tikildiyi bildirilərək, aeroportun regionun turistik, eləcə də logistik potensialına böyük töhfə verəcəyi vurğulanıb. Qeyd edilib ki, aeroportu azad edilmiş digər rayonlarla birləşdirən avtomobil yolu tikilməkdədir. Bu tikintilərdə Azərbaycan və türk şirkətlərinin çalışdığı bildirilib. Eyni zamanda, Füzulini Qarabağın mərkəzində yerləşən Şuşa şəhəri ilə birləşdirəcək ən qısa avtomobil yolunun da tikilməkdə olduğu vurğulanıb.

Şəhla Ağalarova
AZƏRTAC-ın xüsusi müxbiri
Paris

**AZƏRTAC**
**2021, 6 mart**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Qarakollu kəndindən videogörüntülər yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Qarakollu kəndindən videogörüntülər yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 7 mart**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Görazıllı kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Görazıllı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Tarixi XVIII-XIX əsrlərə gedib çıxan Görazıllı kəndi 1993-cü il iyulun 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 9-da kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 9 mart**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Saracıq kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş Saracıq kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Saracı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu noyabrın 9-da kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 11 mart**

**Misir portalı Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə növbəti səfərindən yazıb**

Misirin "Əl Diplomasi" informasiya portalında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Füzuli və Xocavənd rayonlarına səfərindən bəhs edən xəbər yerləşdirilib.

AZƏRTAC-a istinadla yerləşdirilən xəbərdə, həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində işğaldan azad olunmuş ərazilərə səfərdən yaydığı görüntülər də yer alıb.

Oqtay Bayramov
AZƏRTAC-ın xüsusi müxbiri
Qahirə

**AZƏRTAC**
**2021, 16 mart**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar**
*(16 mart 2021-ci il)*

Xəbər verildiyi kimi, martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, **Prezident İlham Əliyev dedi**:

- Yenə işğaldan azad edilmiş torpaqlardayam. Bu gün Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyacağam. Bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Bu, birinci layihə deyil. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Azad edilmiş torpaqların bərpası başlamışdır. Füzulidən Şuşaya yol çəkilir - Zəfər yolu çəkilir. Eyni zamanda, Bərdə-Ağdam yolunun çəkilişi yaxın gələcəkdə icra ediləcəkdir. Horadizdən Zəngilana qədər yol çəkiləcək. Bir sözlə, müharibədən dörd ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri başlamışdır.

Yenə də azad edilmiş torpaqlarda olarkən, bu dağıntıları görərkən bir daha görürük ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmişdir, bizim tarixi irsimizi silmək istəmişdir. Amma buna nail ola bilmədi. Biz bu torpaqlara qayıtmışıq. Qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıtmışıq. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bu gün azad edilmiş torpaqlara gələrkən Qaraxanbəyli kəndindən keçdik. Qaraxanbəyli kəndi müharibənin ilk günündə - sentyabrın 27-də azad edildi. Bax, biz məhz buradan, o istiqamətdən öz şərəfli missiyamızı icra etməyə başladıq və düşməni torpaqlarımızdan qovduq. İndi isə quruculuq işləri ilə məşğuluq. İndi isə həyatımızın yeni dövrü başlayır – quruculuq, inkişaf, torpaqlarımızın bərpası dövrü.

**X X X**

Prezident İlham Əliyev səfər çərçivəsində Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yol boyunca avtomobil körpüləri inşa ediləcək.

**X X X**

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşdülər.

Prezident İlham Əliyev: Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik. İşğaldan azad edilmiş Xocavənd rayonuna gedirik. Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Müharibə dövründə - Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb.

Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. İşğal dövründə gəlib bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar, oğru kimi, talançı kimi. Bunlar, Füzuli şəhərinin qalıqlarıdır. Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?!

Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı-daş üstündə qoymayıb. Görün, yollar nə gündədir. Otuz il ərzində bu yollar asfalt görməyib. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırdılar, dırnaqarası “Artsax dövləti” – cəhənnəmə getdi. “Dövlət” idisə, bəs, niyə daş-daş üstə qoyulmayıb? Çünki bilirdilər ki, bu torpaq onların deyil. Bu torpaq azərbaycanlıların torpağıdır.

Bura işğaldan azad edilmiş Xocavənd rayonudur.

Durduğumuz yer Xocavənd rayonunun Edilli kəndidir. Bura da Ağbulaq kəndidir. Qəhrəman Azərbaycan Ordusu qədim Azərbaycan torpağını işğalçılardan azad edib. Burada döyüşlər gedib. Vuruşaraq, döyüşərək düşməni öz doğma torpaqlarımızdan qovmuşuq.

Bura da işğaldan azad edilmiş keçmiş Hadrut rayonunun Düdükçü kəndidir. Görün, necə gözəl mənzərədir.

X X X

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı və çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı, mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir – oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik.

Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı – Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.

Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz

dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!

**X X X**

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yol boyunca avtomobil körpüləri tikiləcək.

**X X X**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında oldular.

Dövlətimizin başçısı dedi: Bu bina keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasıdır. Qanunsuz rejim burada özləri üçün administrasiya yaratmışdı. Bu bina Azərbaycan vəsaiti hesabına tikilmişdir və onu biz qaytarmışıq. Hadrut bizimdir!

Bu sözlər köhnə əlifba ilə yazılıb: “Kolxozların torpaqlardan əbədilik faydalanması üçün”. Bu, 1939-cu ilə qədər yazılıb. 1939-cu ildə əlifbamızı dəyişdirdilər. Bu, tarixi sənəddir.

**X X X**

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış olublar.

**Prezident İlham Əliyev dedi:**

-Bura qədim Alban məbədidir, Alban kilsəsidir, Hünərli kəndində yerləşir. Ermənilər bu kilsəni də erməniləşdirmək istəmişlər və burada erməni dilində yazılar yazmışlar, ancaq buna nail ola bilməmişlər. İndi əgər bu, erməni kilsəsi olsaydı, bunu belə vəziyyətdə qoyardılarmı? Tövləyə oxşayır, elə bil ki, tövlədir, zibilxanadır. Bu, bizim qədim tarixi abidəmizdir, udi qardaşlarımızın məbədidir. Onlar buraya da gələcəklər. Ermənilər necə ki, bizim məscidlərimizi təhqir ediblər, qədim Alban məbədini də təhqir etmişlər. Amma biz bərpa edəcəyik. Bütün bu yazılar saxta yazılardır, sonradan yazılmış yazılardır. Onlar bizim qədim torpaqlarımızda özləri üçün saxta tarix yaradıblar. Amma buna nail ola bilməyiblər, biz onları ifşa etmişik. Bu kilsənin – alban məbədinin bu vəziyyətdə olması bir daha erməni saxtakarlığını göstərir. Erməni kilsəsi olsaydı, bunu təmir etdirərdilər. Sonra da bəziləri bizə irad tuturlar ki, biz xristian abidələrinə yaxşı baxmırıq. Bunu ermənilər bu günə salıblar.

İndi gəlsinlər, baxsınlar Azərbaycanın müxtəlif yerlərində xristian abidələri necə qorunur. Bu qədim Alban kilsəsini görərlər bir müddətdən sonra biz necə təmir etdirəcəyik. Azərbaycan ərazisində bütün dinlərin məbədləri dövlət tərəfindən qorunur, dövlət tərəfindən tikilir və bütün dünya bunu bilir. Ermənilərin vəhşiliyini dünya bilməlidir, görməlidir bizim məscidlərimiz nə gündədir. Azad edilmiş

torpaqlarda 67 məscid var idi, cəmi ikisi qalıb, yarıdağılmış. Özü də onlardan müxtəlif məqsədlər üçün istifadə ediblər. Alban kilsəsini də bu günə qoyublar. Bəlkə burada da heyvan saxlayıblar, burada da dəmir-dümür saxlayıblar, orada o dəmir-dümürlərin bir hissəsi qalıb. Ona görə hər kəs bunu görməlidir, bilməlidir. Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki, bu günə qədər alıb.

Baxın, buraya baxın, erməni kilsəsi olsaydı, bunları yazardılar? Yazardılar bunları? “Kamo”, “Artur”, nə bilim, “Marta”. Öz kilsələrini belə təhqir edərdilər? Bax, bu daşların hamısı saxtadır. Bu, erməni saxtakarlığıdır. İçəridə də, gəlin buraya, əgər bu, erməni kilsəsi olsaydı, bunu yazardı – “İqor”, “Aşa”? Uçurublar, dağıdıblar, qapını da yandırıblar.

**X X X**

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində oldular.

Prezident İlham Əliyev: Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

Birinci xanım Mehriban Əliyeva: Budur məktəbin binası?

Prezident İlham Əliyev: Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq.

Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görsənir.

Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar.

Görün, Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik.

Dövlətimizin başçısı və xanımı Tuğda Alban məbədində oldular.

Prezident İlham Əliyev: Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur.

Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da erməniləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq.

**X X X**

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azıx kəndinə yola düşdülər.

Dövlətimizin başçısı: Tuğ kəndindən çıxdıq, indi gedirik Azıx kəndinə. Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir.

Azıx kəndinə yaxınlaşırıq. Qarabağın gözəl mənzərəsi. Bura Azıx kəndinin ərazisidir.

Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır.

Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.

Buradan isə gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Bax, buradan daha yaxşı çəkmək olar. Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: “Azıx Azərbaycandır!”, “Qarabağ Azərbaycandır!”.

**AZƏRTAC**
**2021, 16 mart**

**Qırğızıstan portalında Azərbaycan Prezidentinin Füzuli və Xocavəndə səfəri ilə bağlı material verilib**

Qırğızıstanın “turktoday.info” portalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın Füzuli və Xocavənd rayonlarına getmələri ilə bağlı AZƏRTAC-ın materialını verib.

Materialda Prezident İlham Əliyevin səfər çərçivəsində Füzuli-Hadrut, Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoyması, Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırması və çıxış etməsi əks edilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasına getmələri, Hünərli kəndindəki Alban məbədi ilə tanış olmaları, Tuğ və Azıx kəndinə baş çəkmələri ilə bağlı da məlumat verilir.

Portal öz səhifəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsində Füzuli və Xocavənd rayonlarına səfərlə bağlı videogörüntüləri də paylaşıb.

Qulu Kəngərli
AZƏRTAC-ın xüsusi müxbiri
Bişkek

**AZƏRTAC**
**2021, 17 mart**

**Müzəffər Ali Baş Komandanın Füzuli və Xocavənd rayonlarına səfəri xalqımızın bayram əhval-ruhiyyəsini daha da yüksəltdi**

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin mart ayının 15-də Füzuli və Xocavənd rayonlarına səfəri xalqımızın bayram əhval-ruhiyyəsini daha da yüksəltdi və hər birimizə qürur hissi yaşatdı. Azad edilmiş ərazilərdəki böyük quruculuq işləri və infrastruktur layihələrinin həyata keçirilməsi artıq Böyük Qayıdışın günbəgün yaxınlaşdığının bariz göstəricisidir. Səfər zamanı Prezident Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu. Biz artıq Qarabağda belə təməlqoyma mərasimlərinin sayının artdığını müşahidə edirik. Vətən müharibəsindən 4 ay keçməsinə baxmayaraq, böyük quruculuq işləri aparılır. Təbii ki, yol infrastrukturunun qurulması azad edilmiş ərazilərin bərpası üçün çox önəmlidir. Artıq bir neçə yol layihəsi icra edilməkdədir. Füzulidən Şuşaya yol çəkilir, necə deyərlər, "Zəfər yolu" çəkilir. Eyni zamanda, Bərdə-Ağdam avtomobil, Horadiz-Zəngilan dəmir yolları çəkiləcək.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı Tamam Cəfərova bildirib.

"Vətən müharibəsi XXI əsrin müharibəsidir", - deyən T.Cəfərova qeyd edib ki, Azərbaycan Ordusu müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Azərbaycan Ordusu yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad edib. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi nailiyyətlərə imza atdı.

Deputat deyib: "Hadrut qəsəbənin işğaldan azad olunması Vətən müharibəsində əldə olunan qələbədə böyük rol oynayıb. Belə ki, Hadrutun azad edilməsi böyük əhəmiyyət daşıyırdı. Çünki Cəbrayıl rayonundan sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olub. İlk növbədə, ətraf dağlar nəzarətə götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət ordumuzun əlinə keçdi və qəsəbənin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Beləliklə, Azərbaycan Ordusu yüksək peşəkarlıqla, müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdi. Beləliklə də, Azərbaycan Ordusu əzəli, əbədi Azərbaycan torpağı olan Şuşa şəhərinə düşmənin gözləmədiyi istiqamətdən yaxınlaşmış oldu".

T.Cəfərova vurğulayıb ki, Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Müzəffər Azərbaycan Ordusu dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq Şuşanı işğalçılardan azad etdi. Ona görə bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir.

Azərbaycanın dünya hərb elminə öz strategiyası ilə yeniliklər gətirməklə yanaşı, XXI əsrdə dünyada və regionda siyasi münasibətlərin inkişaf etdirilməsi baxımından da yeni reallıqlar gətirdiyini deyən deputat qeyd edib: "30 ilə yaxın davam edən işğal dövründən sonra Azərbaycan öz tarixi torpaqlarında həyata keçirdiyi infrastruktur layihələri ilə regiona yeni bir nəfəs və eyni zamanda, yeni bir inkişaf dinamikası gətirir. İşğalçı Ermənistanın həyata keçirdiyi vandalizm siyasətindən sonra Azərbaycanın başlatdığı quruculuq siyasəti qonşu və dost dövlətlər üçün əməkdaşlıq baxımından yeni istiqamətlər və imkanlar yaradır.

Bu gün Azərbaycanın qarşısında duran ən vacib məsələ işğaldan azad olunan torpaqlarımızda quruculuq işlərinin həyata keçirilməsi, həmin ərazilərin də digər regionlarımız kimi çiçəklənməsidir. Əminik ki, Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasət və Azərbaycan xalqının birliyi, həmrəyliyi nəticəsində tezliklə qarşıya qoyulan hədəflər qət ediləcək. Azərbaycan Prezidentinin Azıx mağarasının qarşısında olarkən dediyi kimi, biz bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. "Qarabağ Azərbaycandır!".

**AZƏRTAC**
**2021, 18 mart**

**Füzuli rayonunun İşıqlı kəndindən videogörüntülər**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad edilmiş İşıqlı kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

İşıqlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu oktyabrın 17-də kəndi işğaldan azad edib.

**AZƏRTAC**
**2021, 24 mart**

**Müdafiə Nazirliyi Füzuli rayonunun Aşağı Rəfədinli kəndindən videogörüntülər paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Füzuli rayonunun Aşağı Rəfədinli kəndindən videogörüntülər paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 11 aprel**

**Media nümayəndələri “Zəfər yolu”nun və Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi ilə yerində tanış olmaq məqsədilə səfərə yola düşüblər**

Mayın 6-da Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin təşkilatçılığı ilə Füzulidə "Zəfər yolu"nun və Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikinti işləri ilə yerində tanış olmaq məqsədilə media nümayəndələri səfərə yola düşüblər.

AZƏRTAC xəbər verir ki, jurnalistlərə Şuşanın düşməndən azad edilməsinin mənəvi rəmzi olan “Zəfər yolu”nun və Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun inşası barədə ətraflı məlumat veriləcək.

**AZƏRTAC**
**2021, 6 may**

## Ev əvəzinə minalar

“Ev əvəzinə minalar. Azərbaycanlılar Qarabağa qayıdacaqlarmı?”. RİA Novosti Agentliyinin müxbiri, Azərbaycanın işğaldan azad edilmiş regionlarında olmuş Qaliyyə İbrahimovanın reportajı bu başlıqla dərc edilib.

AZƏRTAC həmin materialı öz oxucularına təqdim edir.

**X X X**

“Yoldan bir addım da kənara çıxmayın! Hər yer minalanıb. Yalnız iz salınmış cığırlarla gedin. Füzuli şəhərinin girəcəyində nəzarət-buraxılış məntəqəsində hərbçilər jurnalistlərlə çox ciddi rəftar edirlər.

Maşınımız aşağı sürətlə şəhərə daxil olur. Yarım il əvvəl burada döyüşlər gedirdi. Füzuli haqqında yalnız xatirələr qalıb. İndi burada yalnız minalanmış sahələr var. Otuz il əvvəl bu yerləri tərk etmiş Sevinc adlı azərbaycanlı xanım deyir: “Bütün gəncliyim köçkün həyatı kimi keçib”. Uşaqlıqda onun ən yaxşı rəfiqəsi Ramella adlı erməni qızı olub.

Ehtiyatlı olun: minalar!

Qara adlı sürücü bizi Füzuliyə aparır. Hey deyinir ki, yollar bərbad gündədir. Qara çox narazıdır. O deyir: “Belə getsə benzin çatmayacaq. Əlavə yanacaq doldurmaq lazım gələcək”. Təxminən 10 kilometr gəlmişik, amma şəhər hələ də görünmür. Ətrafda meyvə ağacları, qırmızı və sarı rəngli lalələr, yam-yaşıl dağlar görünür. Bəzi yerlərdə dağıdılmış divarların qalıqları diqqəti cəlb edir. Jurnalistləri müşayiət edən bələdçi və politoloq Nicat Hacıyev deyir: “Füzuli kabus şəhərə çevrilib. Bizim hərbçilər Azərbaycan bayrağını sancmaq üçün bircə salamat bina tapmayıblar. Bayrağı hərbi hissənin salamat qalmış bir tikilisi üzərində sancmalı olublar”.

Yolun kənarlarında üçbucaq şəkilli qırmızı rəngli nişanlarda insan kəllələri şəkli və “Ehtiyatlı olun, minalar!” yazıları var. Təbii mənzərə bu qədər cəlbedici olduğu halda ətrafda qoyulmuş belə nişanlar yersiz görünür. İnanmaq çətindir ki, bu gözəlliyin arxasında təhlükəli tələlər var. Qarabağ müharibələri dövründə ermənilər bu ərazini xaotik şəkildə minalayıblar.

Növbəti nəzarət-buraxılış məntəqəsinə yaxınlaşdıq. Buradakı hərbçi bizə xəbərdarlıq etdi: “İkinci Qarabağ müharibəsindən sonra iyirmiyə yaxın mülki şəxs minaya düşüb partlayıb. Rusiyalı sülhməramlılar arasında da həlak olanlar var. Erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə vermirlər. Zarafat deyil! Bircə addım sağa və ya sola atsanız...”.

Çala-çuxurlu döngədə sürücü kəskin hərəkətlə əyləci basdı. Mavi rəngli uniformalı iki nəfər yolu kəsmişdi. Onların sifəti görünmürdü. Əllərində mina axtaran qurğu var idi. “İstehkamçılardır!” – deyə sürücü qışqırır, amma yoluna davam edir.

Kənardan baxanda düşünmək olar ki, burada Çernobıl qəzası haqqında film çəkilir, əyinlərində qoruyucu kostyumlar olan adamlar isə qəza nəticələrini aradan qaldıranlardır. Yolun kənarında tankların paslanmış qalıqları, qırılmış elektrik xətləri, tank əleyhinə “kirpilər” – bütün bunlar çox cansıxıcı təsir bağışlayır. Bələdçimiz deyir: “Bunlar ermənilərin hərbi texnikasıdır. Döyüş meydanında qalıb”.

Təhlükəsizlik buferi

Füzulinin mərkəzinə çatmağa iki kilometr qalıb. Bələdçimiz sovet dövründə bu şəhərin nələrlə məşğul olmasından danışır: kənd təsərrüfatı, heyvandarlıq. Rayonun əsas sərvəti isə Füzuli üzümü olub.

Sürücü söhbətə qarışır. O, sovet dövrünü yaxşı xatırlayır: “Ağdam portveyni bütün İttifaqda məşhur idi, amma çoxları bilmir ki, bu şərab Füzuli üzümündən çəkilirdi. Qonşu Ağdamın məşhurlaşması, Füzulinin isə yaddan çıxarılması yeni sakinlərə toxunurdu. Azərbaycanın cənubundan ən dadlı meyvələr Moskvaya göndərilirdi”.

Birinci Qarabağ müharibəsindən sonra, 1993-cü ildə erməni tərəfi Füzulini və Azərbaycan Sovet Sosialist Respublikasının daha altı rayonunu Dağlıq Qarabağın qondarma təhlükəsizlik zolağına daxil etmişdi. Bakı bu əraziləri işğal olunmuş hesab edirdi. Keçən il payızda Azərbaycan bu əraziləri döyüş yolu ilə özünə qaytardı.

**Şuşanı mühasirəyə almalı**

"Bura Füzulinin mərkəzidir. Gəlib çatmışıq", - bələdçi yorğun halda deyir. Beş saat yol gəlmiş jurnalistlər maşından çıxıb ətrafa baxırlar. Şəhərdən əsər-əlamət qalmayıb. Çala-çuxur yollar, minalar barədə xəbərdarlıq edən üçbucaq şəkilli qırmızı lövhələr. Lakin burada böyük tikinti işləri gedir.

Çınqıl və qumla dolu, yükünü özü boşaldan maşınlar bir-bir yaxınlaşır, fəhlələr həmin maşınlarda gətirilən materialları dərhal bölüşdürürlər. Traktorlar yolu hamarlayır.

Traktorçu Anar deyir: "Zəfər yolu" çəkirik. Bu yol Füzuli və Şuşa şəhərlərini birləşdirəcək. Yolun uzunluğu 48 kilometrdir. Bir hissənin eni 29 metr, hərəkət zolaqlarının sayı 6, qalan hissənin eni 21 metr, hərəkət zolaqlarının sayı 4 olacaq".

Bələdçimiz bu məlumatı dəqiqləşdirir: "Oktyabr ayında Azərbaycan ordusu Qarabağın cənubundan hücuma keçdi. Döyüşçülərimiz dağ kəndlərindən keçərək Şuşaya çıxdılar. Yeni yol Füzulidən və Hadrutdan keçəcək. Qoşunlarımız burada cığırlarla irəliləyiblər".

Ərazidə ölçü işləri aparan Nurlan adlı inşaatçı-mühəndis söhbətə qoşulur: "Şuşa Dağlıq Qarabağın tərkib hissəsidir. Bu şəhəri Azərbaycanın digər rayonları ilə bağlayan Hadrut-Qırmızı Bazar yolu hazırda Rusiyalı sülhməramlıların nəzarətindədir. Oraya getmək üçün icazə almaq lazımdır. Yeni magistral Azərbaycan üçün alternativ yol açacaq".

Füzulidə beynəlxalq hava limanı da tikilməsi nəzərdə tutulur.

Dağ iqlim kurortu olan həmişə turistləri cəlb edirdi. İndi bu şəhər Azərbaycanın mədəni paytaxtı elan edilib. Lakin dağlıq relyefə görə Şuşada aeroport tikilməsi mürəkkəb işdir. Şuşaya ən yaxın rayon Füzulidir. Turistlər təyyarə ilə Füzuliyə gələndən sonra təzə yolla qısa müddətdə Şuşaya çatacaqlar.

Jurnalistlərdən biri tikinti meydançasından kənara çıxmağa hazırlaşanda ona yenə xəbərdarlıq edildi: "Qayıdın, oraya getmək olmaz! Ora minalanıb!" Bu xəbərdarlıqdan sonra hamı reallığa qayıtdı. İstehkamçılar ərazini təmizləməyincə orada təsadüfən minaya düşüb partlamaq qorxusu qalır.

**Evə gedən uzun yol**

"Teatr, kitabxana, park. Evimiz haradasa buralarda olmalıdır. Məktəbin qarşısında Füzulinin heykəli vardı, heykəlin arxasında isə bizim evimiz, həyətimiz və üzümlüyümüz". Bizimlə eyni maşında gəlmiş qadın gərgin vəziyyətdə ətrafa baxır, sanki nə isə axtarır.

Bələdçimiz deyir: "Bu qadın Sevinc Turabovadır. Birinci Qarabağ müharibəsinə qədər Füzulidə yaşayıb. Oraya jurnalistlərin aparıldığını biləndə onu da götürməyimizi xahiş edib. Qrupdan geri qalmayacağına söz verib. Ehtiyatlı olun, minalar!".

Bu dəfə qadın özü jurnalistlərə müraciət edir: "Heç olmasa evimizin yerini tapaydım. Düşünürdüm ki, uçurulmuş divarları qalıb, amma heç nə yoxdur. Eh, nə deyim... Amma hər halda şadam ki, uzun illərdən sonra ilk dəfə buraya gəldim".

Füzuli uğrunda döyüşlər gedəndə Azərbaycanda ciddi karantin rejimi qüvvədə idi. Lakin Qələbə xəbəri yayılanda evdə oturmaq mümkün deyildi: Sevincin həmyerliləri bu uğuru qeyd etmək üçün şəhərə çıxdılar. Ertəsi gün o özü kiçik vətənindəki evi üçün ərzaq məhsulları, təsərrüfat malları, bəzi mebel əşyaları almaq məqsədilə mağazaya getdi. Əri onu fikrindən daşındırırdı. O başa düşürdü ki, köçkünlər dərhal buraya qayıda bilməyəcəklər. Sevinc isə sözündən dönmürdü: "Ətrafdakılar məni ağılsız hesab edirdi. Füzulidə hərbçilər hələ yerində idi, mən isə pəncərə pərdələri və qab-qacaq seçirdim".

**"Siyasətçilərə inanır və gözləyirdik"**

Birinci Qarabağ müharibəsi dövründə Füzuli uğrunda döyüşlər Sevincin yadındadır. Hər şey qəflətən baş verdi. Adamlar özləri ilə heç nə götürmədən çıxıb gedirdilər. Sevincin atası həyat yoldaşını və uşaqları köhnə "Moskviç" maşınına yerləşdirib şəhərdən çıxdı. Qonşuların evlərinin necə dağıdıldığını Sevinc öz gözü ilə gördü. Onların ailəsi bir təhər şəhərdən çıxdı və dərhal şəhərə hücum başlandı.

"RİA Novosti"nin müsahibi fikirli halda deyir: "1993-cü il avqustun 24-də mənim 20 yaşım tamam oldu. O vaxt Füzulini artıq bombalamışdılar. Bir sözlə, bütün gənclik illərim müharibə və köçkün həyatı barədə xatirələrdən ibarətdir".

Qohumları onların ailəsinə sığınacaq verdilər. İki ildən sonra Bakıya köçdülər. Paytaxtda da işləri asan deyildi. Tikintisi başa çatmamış bir binada işıqsız, susuz, istiliyi olmayan bir mənzildə məskunlaşdılar. Lakin tezliklə Füzuliyə qayıdacaqlarına şübhə etmirdilər.

Sevinc deyir: “Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə ATƏT-in Minsk qrupunun iclaslarını televizorda tez-tez göstərirdilər. Siyasətçilər vəd edir, biz də onlara inanırdıq. Heç kəsin ağlına da gəlməzdi ki, təqribən 30 il gözləməli olacağıq”.

İllər keçirdi. Bu müddətdə Sevincin bir oğlu, sonra bir qızı dünyaya gəlib. Onlar elə həmin şəraitsiz evdə yaşayırdılar. Sonra Bakıda onlara mənzil verdilər. Uşaqlardan haralı olduqlarını soruşanda “Füzulidənik” deyə cavab verirlər.

Sevincin anası artıq kiçik vətənlərini görməyəcək, bir neçə il bundan əvvəl vəfat edib. Sevinc deyir: “Amma atam sağdır, onun “Moskviç” maşını da saz vəziyyətdədir. Elə həmin maşında geri qayıtmağa hazırlaşır”.

**“Cücələri xilas etməli”**

Neçə illərdir ki, Sevinc Dağlıq Qarabağ uğrunda müharibənin mənasını dərk etməyə çalışır. Özü etiraf edir: “Bunu anlamaq ağlasığmaz dərəcədə çətindir”.

Doğrudan da onilliklər boyu Qafqazda yanaşı yaşamış azərbaycanlıları və erməniləri müharibəyə sövq edən nə olub? – Sevinc bunu başa düşə bilmir. O deyir: “Uşaqlıq illərimi xatırlayanda ermənilərin və azərbaycanlıların şən toy məclisləri yadıma düşür. Ramella Xaçaturyan mənim ən yaxşı rəfiqəm idi. Biz birlikdə dərs oxuyur, həyətdə bir yerdə oynayırdıq. Valideynlərimiz də mehriban idilər. Onun atası bizim evdə həmişə hörmətli qonaq kimi qarşılanırdı. Heç kəs dostları və qonşuları millətlərə bölmürdü”.

Ötən əsrin 80-ci illərində Sevinc valideynləri ilə birlikdə Ermənistanın kurort şəhəri Cermukda istirahət edib. Sevinc o dövrü xatırlayaraq deyir: “Oranın gözəl təbiəti var. Şəlalələr inanılmaz dərəcədə gözəldir. Lakin ən başlıcası səmimi və həssas yerli sakinlər. Əgər o vaxt xalqlar arasında düşmənçilik olsaydı biz ora gedərdikmi?”.

Müsahibimiz etiraf edir ki, iki Qarabağ müharibəsindən sonra ermənilərlə azərbaycanlılar arasında uçurum yaranıb. Lakin sonra əlavə edir ki, xalqlar təmas nöqtələri axtarmalı olacaqlar: “Hamı müharibələrdən yorulub, təngə gəlib. Yetər!”

Sevinc yaxşı başa düşür: Füzuli ərazisi minalardan təmizlənməyincə adamlar oraya qayıda bilməyəcəklər. Lakin nikbindir: “Füzulidə təzədən tikilmiş evimizdə hökmən toyuq hini olacaq. Birinci Qarabağ müharibəsi dövründə bu mənim ən böyük arzumdur. Biz qaçanda xatırlamışdım ki, toyuq hininin qapısını açıq qoymağı unutmuşam. Orada balaca sarı cücələr var idi. Atama yalvardım ki qayıdaq, lakin artıq gec idi”.

Sevinc tez-tez yuxuda görür ki, bu cücələrin qapısını açıb sərbəst buraxır. O, sonda fikirli halda deyir: “İstənilən halda həmişəlik Füzuliyə qayıdacağam”.

**AZƏRTAC**
**2021, 16 may**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfərə gəliblər**
**Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanışlıq**
*(14 iyun 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonuna səfərə gəliblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyevə hava limanında görülən işlər barədə məlumat verildi.

"AzVirt" MMC-nin baş direktoru **Kamil Əliyev:** Cənab Prezident, Füzuli Beynəlxalq Hava Limanının tikintisinə yanvar ayında başlanmışdır. Bu plakatda 3 min metr uzunluğunda, 60 metr enində uçuş-enmə zolağı əks olunub. Təyyarələrin enişi iki tərəfdən də təmin olunur. Bu günə biz uçuş-enmə zolağının və perronun tikintisində torpaq işlərini bitirmişik. İndi biz yol geyiminin tikintisi ilə məşğuluq.

**Prezident İlham Əliyev:** Görürəm, yola artıq asfalt vurursunuz.

**Kamil Əliyev:** Bizim proqramımıza əsasən, sentyabrın 5-də burada birinci sınaq uçuşu yerinə yetiriləcək. Biz bu tikintini aparmaq üçün burada - Quruçayda iki asfalt zavodu quraşdırmışıq, üç daşqıran qurğu da var.

**Prezident İlham Əliyev:** Burada olan materiallardan istifadə edirsiniz?

**Kamil Əliyev**: Həm burada, həm də Zəfər yolunun tikintisində, 17 kilometr yolda istifadə edirik. Perronun ölçüləri 60 min kvadratmetrdir, təxminən 8 ədəd A-320 tipli təyyarə yerləşə bilər. Bir də avtomobil dayanacağı olacaq, 170 avtomobillik.

**Prezident İlham Əliyev:** Bu, Füzuliyə gedən yolla əlaqələndirilib.

**Kamil Əliyev:** Füzuliyə gedən yolla birləşməsi bu hissədədir. Həm Zəfər yolu ilə birləşəcək, həm də əsas o dördzolaqlı magistral yolla.

Binanın tikintisində beton işləri demək olar, 80 faiz yekunlaşıb.

**Prezident İlham Əliyev:** Buradadır?

**Kamil Əliyev**: Bəli, buradadır. Dam örtüyü İtaliyadan gətirilib və artıq Bakıdadır. Türkiyədən fasad materialları gətirilib.

**Prezident İlham Əliyev:** Bu aerovağzal kompleksi təxminən nə vaxt hazır olacaq?

**Kamil Əliyev:** Aerovağzal kompleksi bu ilin sonuna kimi tam istifadəyə verilə bilər. İşlər bu sürətlə getsə.

**Prezident İlham Əliyev**: Qüllə də tikilir?

**Kamil Əliyev**: Bəli, qüllə tikilir, aeronaviqasiya, tikinti işləri aparılır. İşıq-siqnal sistemini türk şirkəti işləyir. Yarımstansiya tikilib, işlər hər istiqamətdə aparılır.

Sonra Prezident İlham Əliyev uçuş-enmə zolağında görülmüş işlərlə tanış oldu.

**Prezident İlham Əliyev:** Böyük hissəsi artıq hazırdır?

**Kamil Əliyev**: 800 metr. Zəngilanda da artıq torpaq işlərinə başlamışıq.

**Prezident İlham Əliyev:** Orada da başlamısınız?

**Kamil Əliyev:** Bəli. Bir də Laçın rayonunda aeroportun tikiləcəyi yerə də getdik, layihədə harada yerləşir, onu da müəyyən etdik. Torpaq işi böyük həcmdədir.

**Prezident İlham Əliyev**: Bilirəm, orada dağlar kəsilməlidir. Bu iş də nəzərdə tutulur. Nə vaxt başlayacaqsınız?

**Kamil Əliyev:** Biz artıq mobilizasiya olunuruq. Orada ofisimiz var, artıq texnika aparmışıq.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Avtomobil yolunda işlər necə gedir?

**Kamil Əliyev:** Cənab Prezident, Füzuli-Şuşa yolunun 17 kilometrlik hissəsidir, bir də bizdə Füzuli-Hadrut yolunun 10 kilometridir. Biz bu yaxınlarda Ağbənd yolunun tikintisi ilə bağlı müqavilə də imzaladıq.

**Prezident İlham Əliyev:** Bəli, onu demişəm. Horadiz-Ağbənd yolunun yarısını siz inşa edirsiniz.

**X X X**

Onu da deyək ki, hazırda Füzuli, Zəngilan və Laçın hava limanlarına uçuşların beynəlxalq standartlara uyğun təmin edilməsi üçün yeni beynəlxalq hava dəhlizlərinin tətbiqi üzrə işlər davam etdirilir.

**AZƏRTAC**
**2021, 14 iyun**

**Prezident İlham Əliyev Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olub**
*(14 iyun 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına su anbarının texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, ümumi tutumu 9,5 milyon kubmetr olan bu su mənbəyi 62 min hektar sahəni suvarmağa imkan verirdi. 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal ediləndən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün olub. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, daşqınlar zamanı, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq ciddi problemlər yaradırdılar.

**Prezident İlham Əliyev** dedi:

-Bura Köndələnçay su anbarıdır. Uzun illər düşmənin əlində idi. Uzun illər biz bu sudan məhrum idik. İkinci Qarabağ müharibəsindən sonra artıq bizim əlimizdədir və bundan sonra Azərbaycan xalqının maraqlarına xidmət edəcək. Bu su anbarı ulu öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində inşa edilmişdir. Bunun əsas məqsədi Füzuli rayonunda kənd təsərrüfatının inkişafı idi və minlərlə hektar torpaq bu anbar vasitəsilə suvarılırdı. Biz Vətən müharibəsindən sonra həm Suqovuşan su anbarını nəzarətə götürdük, həm də Köndələnçay su anbarı bizim əlimizdədir. Artıq bu anbarların gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verildi.

Azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanır. Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız - bu sərvətimiz indi bizim əlimizdədir. Bu sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verildi və geniş proqram icra edilməyə başlanmışdır.

Köndələnçay su anbarına mən bir müddət bundan əvvəl bir heyət göndərmişdim. Bu anbarın vəziyyəti araşdırıldı və həyat bu bölgəyə qayıdandan sonra əlbəttə ki, biz bu sudan istifadə edəcəyik. İşğal dövründə mənfur düşmən bizi sudan məhrum etmişdi. Sərsəng su anbarı, Suqovuşan su anbarı düşmənin əlində olduğuna görə 100 min hektar torpaq susuz qalmışdı və bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusu qazılmışdır. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyundan məhrum edilmişdi. Mənə bu yaxınlarda verilən məlumata görə, Vətən müharibəsindən sonra 30 min hektardan çox sahəyə Suqovuşan su anbarından su verilməyə başlanmışdır. Eyni zamanda, Ağdam rayonunda Xaçınçay su anbarı da bizim nəzarətimizdədir, işğaldan azad edilib və o su anbarı bu su anbarından həcm baxımından daha böyükdür. Bir daha demək istəyirəm ki, bizim bütün su ehtiyatlarımız araşdırılır, təhlil edilir və gələcəkdə bizə böyük üstünlük verəcəkdir.

Biz doğma torpaqlarımıza qayıtmışıq, Füzuliyə qayıtmışıq, Köndələnçay su anbarı bizim əlimizdədir və əbədi bizim əlimizdə olacaq.

**AZƏRTAC**
**2021, 14 iyun**

**Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və Zəfər yolunun tikintisi ilə tanışlıq**
*(14 iyun 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına avtomobil yollarında tikinti işlərinin gedişi barədə məlumat verildi.

Bildirildi ki, 4 və 6 hərəkət zolaqlarından ibarət Əhmədbəyli-Füzuli-Şuşa yolunun uzunluğu 81 kilometr, Zəfər yolunun uzunluğu isə 101 kilometr olacaq. Hər iki yol boyunca tunellər, körpülər inşa ediləcək, bütün zəruri infrastruktur yaradılacaq.

**AZƏRTAC**
**2021, 14 iyun**

**Prezident İlham Əliyev "Füzuli" yarımstansiyasının açılışını edib**
*(14 iyun 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də yeni tikilən "Füzuli" yarımstansiyasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına 110/35/10 kilovoltluq yarımstansiyada görülən işlər barədə məlumat verildi.

Qeyd edək ki, Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib. İnşa edilən yeni aeroportun və Şuşa yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla, Füzuli şəhəri və ətraf kəndlərdə inşa ediləcək bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Bildirilib ki, yarımstansiya, o cümlədən yeni İdarəetmə Mərkəzi ən müasir tələblərə cavab verən avadanlıqla təchiz olunub və komplektləşdirilib. İdarəetmə Mərkəzində texniki imkanlarla yanaşı, əməkdaşların səmərəli çalışmaları və istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Dövlətimizin başçısı "Füzuli" yarımstansiyasını işə saldı.

Yarımstansiyanın işinə real vaxt rejimində nəzarət olunması və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub.

Sonra Prezident İlham Əliyev yenidən qurulan 110/35/10 kilovoltluq "Şükürbəyli" yarımstansiyasının da məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə açılışını etdi.

Bildirildi ki, işğaldan azad edilən ərazilərin böyük hissəsinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün "Şükürbəyli" yarımstansiyası genişləndirilərək tam yenidən qurulub. Bu məqsədlə yarımstansiyanın gücü artırılmaqla yanaşı, 110 kilovoltluq açıq paylayıcı qurğu sökülərək daha müasir formada yenidən tikilib. Burada yeni avadanlıqla komplektləşdirilmiş mühafizə və avtomatika sistemləri ilə təchiz edilən İdarəetmə Mərkəzi yaradılıb və lokal mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.

Diqqətə çatdırılıb ki, işğaldan azad edilən digər rayonlarda tikiləcək yarımstansiyaların Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün yenidən qurularaq genişləndirilən "Şükürbəyli" yarımstansiyasına İmişli yarımstansiyasından 51 kilometr məsafədə 110 kilovoltluq xətt çəkilib. Eyni zamanda, "Şükürbəyli" yarımstansiyasından Şuşaya 75 kilometrlik ikidövrəli 110 kilovoltluq xətt çəkilib və həmin xətt Füzuli şəhərində yeni tikilən 110 kilovoltluq yarımstansiya ilə əlaqələndirilib. Paralel olaraq hazırda "Şükürbəyli" yarımstansiyasından Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yeni tikilən 110/35/10 kilovoltluq yarımstansiyalara ikidövrəli 110 kilovoltluq yüksək gərginlikli elektrik veriliş xətti çəkilir.

**AZƏRTAC**
**2021, 14 iyun**

**Zəfər yolu üzərində körpünün inşası ilə tanışlıq**
*(14 iyun 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına körpünün texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, Quruçay üzərində inşa olunan üçaşırımlı körpünün uzunluğu 86 metr olacaq. İşğaldan azad edilən ərazilərimizdə görülən bütün bərpa və yenidənqurma işləri kimi, burada da tikinti yüksək sürətlə aparılır və yol istismara verilənədək bu körpü də hazır olacaq.

**AZƏRTAC**
**2021, 14 iyun**

**Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa olunacaq tunelin təməlini qoyub**

*(14 iyun 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına tunelin texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, burada ümumilikdə iki tunel tikiləcək və onların hər biri ikizolaqlı olacaq. Tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr olacaq.

**AZƏRTAC**
**2021, 14 iyun**

**Füzuli və Zəngilan rayonlarında basdırılan minalara dair xəritələr Azərbaycana təqdim edilib**

Ermənistan işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırdığı təqribən tank və piyada əleyhinə 92 min minaya dair xəritələri iyulun 3-də Rusiya Federasiyasının təşəbbüsü ilə Azərbaycan tərəfinə təqdim edib.

Mina xəritələrinin alınması üzrə humanitar təşəbbüsün həyata keçirilməsində göstərdiyi vasitəçilik xidmətlərinə görə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlı kontingentinin komandanı Rüstəm Muradova təşəkkürümüzü ifadə edirik.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mina xəritələrinin əldə edilməsi on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını təhlükədən xilas edəcək və işğaldan azad edilmiş ərazilərimizdə Prezident İlham Əliyev tərəfindən əsası qoyulan tikinti və yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışı prosesini sürətləndirəcək.

Humanist addım olaraq Azərbaycan tərəfi məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilmiş və təyin edilmiş cəza müddəti bitmiş 15 nəfər erməni əsilli şəxsi Ermənistana təhvil verib.

**AZƏRTAC**
**2021, 3 iyul**

**Prezident: Gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq**

Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq. Zəngilan hava limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Laçında hava limanının təməlqoyma mərasimində çıxışında deyib.

Müharibə başa çatandan sonra Kəlbəcər və Laçın rayonlarında beynəlxalq hava limanları tikilməsi üçün yer axtarılacağını bildirdiyini qeyd edən dövlətimizin başçısı vurğulayıb ki, yerin axtarışı, əlbəttə, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, - düz yol, düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Vüqar Rəhimzadə: Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir**

Ötən ilin noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə start verildi. Öncə diqqət yetirilən əsas məsələlərdən biri infrastrukturun yenilənməsi və bərpası oldu. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin cari ilin yanvarında Qarabağın tacı olan Şuşamıza səfəri çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının təməli qoyulmuşdur. Bu addımı azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihə kimi dəyərləndirən ölkə Prezidenti uçuş-enmə zolağının cari ildə istifadəyə veriləcəyini bildirmişdir. Artıq eniş-uçuş zolağı hazır olan Füzuli Beynəlxalq Hava Limanında ilk sınaq uçuşu həyata keçirilib.

Bu fikirləri "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Füzuli Beynəlxalq Hava Limanı regionda ən qısa zamanda inşa edilən aeroportlardan biridir: "Cari ilin əvvəlində təməli qoyulan hava limanında artıq növbəti ay ilk uçuşların həyata keçirilməsi nəzərdə tutulur. Digər iki hava limanı isə Zəngilanda və Laçında inşa ediləcək. Prezident İlham Əliyev hər iki hava limanının təməlqoyma mərasimində iştirak edib. Atılan bu addımlar artıq Böyük Qayıdışın başlandığının təsdiqidir. Ölkə Prezidenti İlham Əliyev bu əminliyi ifadə edir ki, necə düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik. Qarabağ Azərbaycandır!"

Baş redaktor bildirib ki, işğaldan azad olunan ərazilərdə 3 hava limanının fəaliyyət göstərməsi iqtisadi baxımdan kifayət qədər səmərəli olacaq: "Qeyd etdiyimiz kimi, Füzuli Hava Limanı Qarabağa getmək istəyən yerli və xarici turistlər üçün cəlbedici olacaq. Bu hava limanı Zəfər Yoluna, Zəngilan Hava Limanı Zəngəzur dəhlizinə, Zəngəzur dəhlizinin də Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacağı nəzərə alınaraq həm sərnişin, həm də beynəlxalq yük daşımaları baxımından Zəngilanda da hava limanına ehtiyacın olduğu önə çəkildi. İşğaldan azad edilmiş ərazilərimiz öz potensial imkanları ilə diqqətdədir. İnfrastrukturun beynəlxalq standartlara uyğunlaşdırılması, yenidən bərpası bu potensialdan səmərəli istifadəyə geniş imkanlar açacaq. Eyni zamanda, bu fakt da inkaredilməzdir ki, işğaldan azad edilmiş torpaqlarımız yerli və xarici turistlər üçün diqqətçəkəndir. Bu ərazilərimizdə üç Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi qət olunacaq məsafənin azaldılmasına, bununla, həmçinin turist axınının sürətləndirilməsinə də öz böyük təsirini göstərəcək".

Baş redaktor üçüncü hava limanının Laçında inşa edilməsinin vacibliyini də diqqətə çatdırıb: "Laçının strateji əhəmiyyətini nəzərə aldıqda beynəlxalq standartlara uyğun infrastrukturun formalaşdırılması çox vacib idi. İnşa edilən hava limanlarının hər birinin bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanında olmaları onların strateji əhəmiyyətini göstərən amillərdəndir. Dövlət başçısı İlham Əliyev Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilərkən bu məqamı da xüsusi qeyd edib ki, Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Seçilən yerdə yenə də böyük torpaq işlərini aparmaqla hava limanının tikintisi mümkündür. Dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir".

V.Rəhimzadə vurğulayıb ki, azad edilmiş bölgələrin-Şərqi Zəngəzurun, Qarabağın bərpası, vətəndaşlarımızın bu regiona qayıtmaları üçün yeni imkanlar yaranır: "Kəlbəcər-Laçın zonasında hava limanının tikintisi çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Dövlət başçısı "Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir" söyləyərək bu işlərin görülməsi üçün texniki, maliyyə imkanlarımızın və güclü iradəmizin mövcudluğunu bir daha diqqətə çatdırır. Bir sözlə, Füzuli, Zəngilan, Laçın Beynəlxalq Hava limanlarının inşa edilməsi və istismara verilməsi regionun inkişafı üçün strateji əhəmiyyətə malikdir".

**AZƏRTAC**
**2021, 24 avqust**

**Prezident İlham Əliyev Füzuli aeroportunu Qarabağın hava qapısı adlandırıb**

Füzuli aeroportu Qarabağın hava qapısıdır.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfər zamanı Füzuli Beynəlxalq Hava Limanı barədə danışarkən bildirib.

Birinci vitse-prezident Mehriban Əliyevanın Füzuli Beynəlxalq Hava Limanına gedərkən çəkdiyi videogörüntüdə dövlətimizin başçısı deyir: "Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır".

**AZƏRTAC**
**2021, 29 avqust**

**Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanışlıq**
*(29 avqust 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Zəfər yolunun tikintisi başa çatmaq üzrədir. İki-üç hərəkət zolaqlı yolun uzunluğu 101 kilometrdir. Artıq yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınıb. Digər hissələrdə isə işlər davam etdirilir. Yolda körpülər və yeraltı keçidlər inşa edilib.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə etdikləri cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolu dövlətimizin başçısı tərəfindən Zəfər yolu adlandırılıb.

**AZƏRTAC**
**2021, 29 avqust**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olublar**
*(29 avqust 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Birinci xanım Mehriban Əliyeva Füzuli Beynəlxalq Hava Limanının videogörüntüsünü paylaşıb. Paylaşımda bu sözlər qeyd olunur: “İşğaldan azad olunmuş ərazilərə növbəti səfərimiz. Şuşaya gedərkən”.

Avtomobildə çəkilən videogörüntüdə Prezident İlham Əliyev deyir: “Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum, indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır”.

Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunur. Baqaj konveyerlərinin, qeydiyyat və digər sistemlərin işə salınması nəzərə alınmaqla, sentyabr ayının sonuna qədər sərnişin terminalının istismara verilməsi işləri tam başa çatdırılacaq.

Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Aeroport istənilən tip hava gəmisini qəbul etməyə imkan verəcək. Burada perron da inşa edilib. Avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatdırılıb. Bunun sayəsində Füzuli hava limanına ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq.

Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə terminalın qarşısında 150 avtomobil üçün nəzərdə tutulmuş dayanacaq inşa olunub. Bundan başqa, Füzuli Beynəlxalq Hava Limanına giriş üçün yolun tikintisi, həmçinin aeroportun ərazisində yaşıllaşdırma işləri aparılır.

Prezident İlham Əliyevin tapşırığı ilə Füzuli rayonunda belə bir qısa müddətdə bu cür ən müasir standartlara cavab verən Beynəlxalq Hava Limanının inşasının həyata keçirilməsi sözün əsl mənasında misli görünməmiş hadisədir və bu bir daha Azərbaycan Prezidentinin mənfur düşməndən azad olunmuş torpaqlarımızda böyük yenidənqurma və tikinti işlərinin aparılması barədə fikirlərinin bariz nümunəsidir.

**AZƏRTAC**
**2021, 29 avqust**

**Könül Nurullayeva: Qarabağın hava qapısının açılmasının siyasi, iqtisadi və tarixi əhəmiyyəti var**

Füzuli Beynəlxalq Hava Limanının qısa müddətdə inşası işğaldan azad olunmuş ərazilərdə bərpa prosesinin sürətlə getdiyini bir daha təsdiqləyir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilk gündən Füzuli hava limanını Qarabağın hava qapısı adlandırıb. Bu qapının açılmasının həm siyasi, həm iqtisadi, həm də təbii ki, böyük tarixi əhəmiyyəti vardır.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.

Deputatın sözlərinə görə, bu hadisənin tarixi və siyasi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan azad olunmuş ərazilərə qayıtdığı kimi, Qarabağın hava məkanında da artıq sərbəst və təhlükəsiz şəkildə uçuşlar etməkdədir.

“Bu gün biz həm də Qarabağda hava məkanının təhlükəsizliyini təmin etmək gücündəyik. Hava limanlarının inşası bu ərazilərdə nəqliyyat infrastrukturunun kompleks həllinin tərkib hissəsidir. Nəzərə alsaq ki, Füzuli hava limanı beynəlxalq statuslu hava limanıdır və burada həm sərnişindaşıma, həm də yükdaşımaların həyata keçirilməsi gələcəkdə bölgənin iqtisadi baxımdan dirçəlməsi üçün geniş imkanlar açır. Aeroportun uçuş-enmə zolağı Beynəlxalq Mülki Aviasiya Təşkilatının bütün tələblərinə uyğun olaraq müvafiq avadanlıqlarla təchiz olunub. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcək”, - deyən K.Nurullayeva Kəlbəcər-Laçın bölgəsində də unikal hava limanının inşa olunduğunu diqqətə çatdırıb: “Relyefin mürəkkəbliyinə və tələb olunan maliyyə vəsaitinin çoxluğuna baxmayaraq, Azərbaycan Füzuli Beynəlxalq Hava Limanının inşasını reallaşdırmaqla həm ilk təcrübə yaradır, həm də təbii ki, bölgənin bərpasını sürətləndirmiş olur. Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi təbii ki, həm bu bölgədə yaşayan insanların rifahını təmin edəcək, həm də bölgənin turizm imkanlarını artıracaq. Nəticə etibarı ilə Qarabağ səmərəli nəqliyyat qovşağına çevriləcək”.

Deputat vurğulayıb ki, ümumiyyətlə, azad olunmuş ərazilərdə aparılan bərpa prosesi böyük qayıdışın təmin olunmasına hesablanıb. Soydaşlarımız bərpa işlərindən sonra azad edilən ərazilərə qayıdaraq, öz dədə-baba yurdlarında təhlükəsiz şəraitdə yaşayacaqlar.

**AZƏRTAC**
**2021, 7 sentyabr**

**Belarusun xəbər portalı Füzuli Beynəlxalq Hava Limanına ilk uçuş barədə geniş məqalə yayıb**

Belarusun xəbər portalında işğaldan azad olunmuş Qarabağın ilk aeroportuna - Füzuli Beynəlxalq Hava Limanına Bakıdan uçan "Azərbaycan Hava Yolları"na məxsus ən böyük "Airbus A340-500" tipli sərnişin təyyarəsinin enişi barədə məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, "belprauda.com" xəbər portalında dərc olunan məqalədə Füzuli Beynəlxalq Hava Limanına sərnişin təyyarəsinin sınaq reysi həyata keçirdiyi qeyd olunur. Bildirilir ki, bu, işğaldan azad olunmuş Qarabağın ilk hava limanına eniş kimi də tarixə düşüb. Qeyd olunub ki, həmin təyyarə "Qarabağ" adını daşıyır. Bakı-Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə uçuş müddəti 35 dəqiqə olub.

Məqalədə, həmçinin avqustun 29-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olmaları barədə də ətraflı məlumat verilib.

Emil Hüseynli
AZƏRTAC-ın xüsusi müxbiri
Minsk

**AZƏRTAC**
**2021, 8 sentyabr**

**Qazaxıstan parlamentinin nümayəndə heyəti Şuşa və Füzuli şəhərlərində olub**

Ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Parlamenti Məclisinin Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin sədri Aygul Kuspanın başçılıq etdiyi parlament nümayəndə heyəti sentyabrın 12-də Şuşa və Füzuli şəhərlərində olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətini Milli Məclis sədrinin müavini, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Adil Əliyev və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov müşayiət ediblər.

Şuşada qonaqlar Qala divarları, Molla Pənah Vaqifin məqbərəsi, Yuxarı Gövhərağa məscidi ilə tanış olub, Bülbülün ev muzeyinə, Xalça muzeyinə baş çəkib, Cıdır düzündə və İsa bulağında olublar. Qonaqlara məlumat verilib ki, Şuşa şəhəri işğaldan azad olunduqdan sonra bu abidələr Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarətləri altında bərpa edilib.

Həmin gün Qazaxıstan parlament nümayəndə heyətinin üzvləri Füzuli şəhərinə gəliblər. Onlar burada yeni istifadəyə verilmiş Füzuli Hava Limanında olublar. Qonaqlara məlumat verilib ki, qısa müddətdə tikilmiş hava limanına bu günlərdə ilk sınaq uçuşları keçirilib və hava limanı həm yük, həm də sərnişin təyyarələrini qəbul etmək imkanına malikdir.

Füzuli şəhərində yeni 110/35/10 kilovoltluq yarımstansiya ilə tanışlıq zamanı qonaqlara məlumat verilib ki, yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına əsasən tikilib. Bu yarımstansiya hava limanı da daxil olmaqla Füzuli şəhəri və ətraf kəndlərdə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

**AZƏRTAC**
**2021, 12 sentyabr**

**İsrailli ekspert: Füzuli beynəlxalq aeroportu yeni Qarabağın bərpasında çox mühüm mərhələdir, lakin sonuncu mərhələ deyil**

"Bu yaxınlarda Azərbaycana səfərim zamanı Qarabağ bölgəsində Füzuli beynəlxalq aeroportunun yaradılması ilə bağlı tikinti işlərinin şahidi oldum. Füzuli Birinci Qarabağ müharibəsi dövründə dağıdılmış və məhv edilmiş şəhərlərdən biri olub. Erməni ordusu işğal illərində bu ərazidə çox geniş tank tunellərindən və saysız-hesabsız minalardan başda heç nə qoymayıb".

AZƏRTAC xəbər verir ki, israilli xanım jurnalist Raxel Avraam bu sözləri beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri Arye Qut ilə Amerika-İsrail nüfuzlu "The Jewish Press" mediaplatforması üçün müsahibəyə giriş kimi yazır.

Arye Qut deyib: "Azərbaycan hava yollarına məxsus A340-500 nömrəli Airbus təyyarəsinin Bakıdan havaya qalxması və Füzulidə yerə enməsi əlamətdar və tarixi hadisədir.

Azərbaycan KİV-nin məlumatına görə, bu təyyarəyə "Qarabağ" adı verilib. "Silk Way Airlines" aviaşirkətinə məxsus "Boing 747-499" təyyarəsi də Füzuli beynəlxalq hava limanında yerə enib. Hazırda bu təyyarə Azərbaycanın işğaldan azad olunmuş və bərpa edilən Qarabağ regionuna müntəzəm reyslər etməyə başlayıb.

İsrailli ekspert deyib: "İşğaldan azad edilmiş ərazidə bircə salamat bina, uşaq bağçası və ya məktəb, kitabxana və muzey salamat qalmayıb. İşğalçı erməni ordusu qarət və vandalizmlə məşğul olub, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan kimi şəhərləri yer üzündən silib. Erməni işğalçıları 28 il ərzində kütləvi vandalizm, ekoloji və mədəni soyqırımı törədərək Azərbaycanın bu gözəl regionunu viran qoyublar. Arye Qutun sözlərinə görə, Füzulidəki aeroportun ətrafındakı ərazi hələ də ermənilərin basdırdığı mina və mərmilərlə doludur.

İsrailli jurnalistlər 1350 kilometrlik azad edilmiş ərazidə işğal, vandalizm mənzərələrini görüblər. İsrailli ekspert ritorik sual verir: "Əgər ermənilər bu əraziləri "özlərininki" adlandırırlarsa, nəyə görə bu ərazilər məhz erməni işğalından sonra belə kabus-şəhərlərə oxşayır?!"

İsrailli ekspert vurğulayıb: "Füzulidə aeroportun açılması yeni Qarabağın bərpasında, bu regionun inkişaf etmiş infrastruktura və iqtisadiyyata malik çiçəklənən diyara çevrilməsində çox mühüm mərhələdir, lakin sonuncu mərhələ deyil. Gələcəkdə Füzuli beynəlxalq aeroportu Qarabağın mərkəzi nəqliyyat qovşağına çevriləcək, Azərbaycanla həmhüdud dövlətlərlə yanaşı bir sıra başqa ölkələrdən sərnişin və yük daşınması xidmətləri göstərəcək".

Qutun sözlərinə görə, Füzuli beynəlxalq aeroportunda uzunluğu 3000 metr və eni 60 metr olan uçma-enmə zolağı salınıb. Aeroport instrumental minik və naviqasiya sistemləri, işıqlandırmanın idarə edilməsi, habelə İKAO-nun bütün tələblərinə uyğun ilkin və ikinci radiolokasiya sistemləri ilə tam təchiz olunub. Sahəsi 60 min kvadratmetr olan aeroport istənilən tipli təyyarələri qəbul edə biləcək.

Arye Qut müsahibəsinin sonunda deyib: "Hava hərəkətinin idarə edilməsi üçün avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş qüllənin tikintisi başa çatıb. Bundan əlavə, Füzuli beynəlxalq aeroportunu Şuşa şəhəri ilə birləşdirən avtomobil yolu çəkilir".

**AZƏRTAC**
**2021, 17 sentyabr**

**Vətən müharibəsinin xronikası: 8 oktyabr**

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

AZƏRTAC Vətən müharibəsinin xronikasını təqdim edir.

Müharibənin 12-ci günü

• Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına bölmələrimiz tərəfindən artilleriya zərbələri endirilib. Yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikasından ibarət hərbi kolonu dəqiq artilleriya atəşi ilə sıradan çıxarılıb. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin 10-dək tankı, 6 ədəd "D-20" topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində Ermənistan ordusu hərbçilərinin döyüş meydanında qoyub qaçdıqları zirehli texnikaların videogörüntüsünü paylaşıb.

• "Azərkosmos" ASC işğaldan azad olunmuş Cəbrayıl şəhərinin "Azersky" peykindən əldə edilmiş təsvirini yayıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində 8 oktyabr saat 13:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 31-ə, xəsarət alanların sayı isə 154-ə çatıb, 928 ev, 133 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb.

• Düşmən ordusu cəbhənin Füzuli istiqamətində dinc əhaliyə qarşı qadağan olunmuş fosforlu bombalardan istifadə edib.

• Ermənistan silahlı qüvvələri Bərdə şəhərini növbəti dəfə artilleriya atəşinə tutub.

**AZƏRTAC**
**2021, 8 oktyabr**

**Prezident İlham Əliyev: Füzulidə icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir**

Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Dövlətimizin başçısı deyib: "Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib. Bu gün hazır hava limanı ilə tanış olarkən mən bir daha gördüm ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir".

Prezident qeyd edib ki, Füzulidən Şuşaya elektrik xətləri çəkildi. Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyuldu.

**AZƏRTAC**
**2021, 17 oktyabr**

**Füzuli əməliyyatı ilə Azərbaycan Ordusu mümkünsüzü mümkün etdi**

Vətən müharibəsinin gedişində 2020-ci ilin oktyabr ayının 17-də Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən işğaldan azad olundu. Füzuli əməliyyatı ilə Azərbaycan Ordusu mümkünsüzü mümkün etdi. Sirr deyil ki, Füzuli uğrunda aparılmış döyüşlər Vətən müharibəsi zamanı ən ağır döyüşlərdən olmuşdu. Ali Baş Komandan İlham Əliyevin çıxışlarında bildirdiyi kimi 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdu və bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyildi. Hətta, ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq. Heç şübhəsiz ki, çox böyük peşəkarlıq, məharət, şücaət və fədakarlıq tələb etmiş bu döyüşlər haqqında kitablar yazılacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov deyib.

O bildirib ki, Füzulinin azad edilməsi Vətən müharibəsinin gedişatında strateji əhəmiyyət kəsb edirdi: "Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması Azərbaycana strateji üstünlüklər verdi. Azərbaycan Ordusu peşəkarlığı və mərdliyi ilə düşməni qorxuya salmışdı. Füzuli uğrunda döyüşlərdə Ordumuzun şücaəti qarşısında düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur".

"Düşmən və bütün dünya artıq Azərbaycanın gücünü görüb və etiraf edir ki, döyüş meydanında göstərdiyimiz gücün mənbəyi Azərbaycan xalqının iradəsidir" ,– deyən Ramil Vəlibəyov əlavə edib ki, qələbəni görən, bu hissləri yaşayan Azərbaycan xalqı əmindir ki, ölkənin inkişafı, cəmiyyətin rifahı və milli maraqların qorunması naminə bütün lazımi işlər görülüb və görüləcək: "Artıq Qarabağın bütün ərazisində olduğu kimi Füzulidə də bərpa işləri həyata keçirilir. Müzəffər Ali Baş Komandan İlham Əliyev azad olunmuş Füzuliyə səfərləri çərçivəsində Azərbaycan bayrağını qaldırıb, Füzuli-Şuşa avtomobil yolunun – "Zəfər yolu"nun təməlini qoyub, o cümlədən Füzuli Beynəlxalq Hava Limanının, Horadiz-Ağbənd dəmir yolu xəttinin, Füzuli-Hadrut avtomobil yolunun təməlini atıb, Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında yaradılan şəraitlə tanışlıq və "Füzuli" yarımstansiyasının açılışı olub. Əlavə olaraq dağıntı və ziyanın müəyyənləşdirilməsi üçün İşçi Qrup tərəfindən qiymətləndirmə işləri aparılır. Erməni hərbi birləşmələrinin təxribatı nəticəsində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə, habelə sahibkarlıq subyektlərinə dəyən ziyanın qiymətləndirilməsi üçün bütün lazımi tədbirlər görülür. Yerli və xarici ekspertlərin iştirakı ilə aparılan bu işlər nəticəsində erməni vandalizminə adekvat qiymət veriləcək".

**AZƏRTAC**
**2021, 17 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunda səfərdə olublar**
**Füzuli-Ağdam avtomobil yolunun təməli qoyulub**
*(17 oktyabr 2021-ci il)*

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunda səfərdə olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Füzuli-Ağdam avtomobil yolunun tikintisi barədə məlumat verildi.

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirdi ki, yolun tikintisi Prezident İlham Əliyevin bu ilin avqustunda imzaladığı Sərəncamla təsdiq olunmuş “İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi” çərçivəsində həyata keçiriləcək. Uzunluğu 64,8 kilometr, eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olacaq. Layihəyə uyğun olaraq yolboyu körpülərin, avtobus dayanacaqlarının və digər yol infrastrukturunun inşası nəzərdə tutulur. Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yolun inşası Bərdədən Füzuliyədək insanların rahat gediş-gəlişini təmin edəcək.

Dövlətimizin başçısı Füzuli-Ağdam avtomobil yolunun təməlini qoydu.

Onu da qeyd edək ki, Bərdə-Ağdam, Əhmədbəyli-Füzuli-Şuşa, Zəfər yolu və Füzuli-Hadrut yollarında aparılan işlər də davam edir.

**AZƏRTAC**
**2021, 18 oktyabr**

**Prezident İlham Əliyev Füzuli rayonunun Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlini qoyub**
*(17 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunun Dövlətyarlı kəndində yeni salınacaq "Ağıllı kənd" layihəsi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına və birinci xanıma layihə haqqında məlumat verdi. Yaşıl və alternativ enerjinin, "ağıllı idarəetmə" sisteminin tətbiq ediləcəyi "Ağıllı kənd" layihəsinə əsasən üç, dörd və beşotaqlı olmaqla, ümumilikdə ilkin mərhələdə 450 evin inşası nəzərdə tutulub. Burada, həmçinin məktəb və uşaq bağçası tikiləcək, kəndin mərkəzində meydan salınacaq, bazar yaradılacaq. Kəndin ətrafında isə "Ağıllı kənd" təsərrüfatı sahəsi olacaq. Beləliklə, sakinlərin rahat yaşaması və kənd təsərrüfatı ilə məşğul olması üçün bütün zəruri işlər həyata keçiriləcək.

Prezident İlham Əliyevə kəndə yatırılacaq özəl investisiyalar və məşğulluq layihələri ilə bağlı da məlumat verildi. Bildirildi ki, burada xarici investisiya əsasında alternativ enerji həlləri məqsədilə günəş paneli tarlası salınacaq. İnvestisiya layihəsinin gücü 50 meqavat olacaq. Tarlada 20 daimi iş yeri yaradılacaq.

Kənddə biznes layihələri də icra olunacaq. Burada kartofçuluq dəyər zənciri üzrə müəssisələrin yaradılması planlaşdırılır. Bu müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq.

Kənddə Köndələnçay su anbarı əsasında ağıllı akvakultura sistemlərinin tətbiqi hesabına ixracyönümlü balıqçılıq təsərrüfatının qurulması da nəzərdə tutulub. Burada quşçuluq təsərrüfatı da yaradılacaq, ilkin mərhələdə 85 daimi iş yeri olacaq.

Ağıllı turizm həllərinin tətbiqi vasitəsilə kənd turizm infrastrukturunun formalaşdırılması və otel infrastrukturunun yaradılması nəzərdə tutulub.

Prezident İlham Əliyev Dövlətyarlı kəndində yeni salınacaq "Ağıllı kənd"in təməlini qoydu.

**AZƏRTAC**
**2021, 18 oktyabr**

**Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanışlıq**
*(17 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma Füzuli Beynəlxalq Hava Limanında görülən işlər barədə məlumat verildi. Bildirildi ki, bütün tikinti və ətraf ərazinin abadlaşdırılması işləri başa çatdırılıb. Hava limanında görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

Hava limanında istənilən tip hava gəmisini qəbul etməyə imkan verən, uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Burada baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VIP zalların, mağazaların, restoranların və digər məntəqələrin işə salınması nəzərə alınmaqla, saatda ən azı 200 sərnişinin buraxılışına imkan verən terminalın tikintisi başa çatdırılıb.

**AZƏRTAC**
**2021, 18 oktyabr**

**Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməli qoyulub**
*(17 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma tədbirində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına və birinci xanıma Mərkəz haqqında məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə yaradılan Rəqəmsal yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Cənubi Qafqazda ilk dəfə tətbiq olunan bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Diqqətə çatdırıldı ki, Rəqəmsal Yarımstansiyadan qidalanan istehlakçılar hər hansı bir texniki fasilənin yaranması haqda məlumatları online qaydada əvvəlcədən ala bilirlər. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi Rəqəmsal Yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal Yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-birilə koordinasiyasını tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir, daimi işçi heyətə ehtiyac olmur.

Prezident İlham Əliyev Mərkəzin təməlini qoydu.

Qeyd edək ki, dövlətimizin başçısının "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamından sonra "Azərişıq" ASC tərəfindən paylayıcı şəbəkələrin yaşıl enerji zonası tələbləri üzərində qurulmasına start verilib və "ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb.

**AZƏRTAC**
**2021, 18 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkiblər**
*(17 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkiblər.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma yaradılacaq yeni park barədə məlumat verdi.

Bildirildi ki, burada şəhər sakinləri və qonaqlar üçün 21 hektarlıq böyük meşə parkı salınacaq. Ərazidə 5000-dən çox Eldar şamı, həmişəyaşıl sərv, zeytun, Şərq çinarı, ağcaqayın və digər növ ağaclar əkiləcək. Bununla yanaşı, sakinlərin asudə vaxtının maraqlı təşkili məqsədilə istirahət guşələri, müxtəlif tədbirlər üçün amfiteatr zonası, kempinq və istirahət yerləri, uşaq və gənclərin yaş qruplarına uyğun əyləncə zonaları, ekstrim velosiped sahəsi və digər guşələr yaradılacaq.

Parkda salınacaq su hövzəsi kafe və restoranlarda dincələn sakinlər üçün fərqli mənzərə yaradacaq. Ərazidə 8,2 kilometr uzunluğunda velosiped və 7,5 kilometr uzunluğunda piyada yollarının salınması planlaşdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda ağac əkdilər.

**AZƏRTAC**
**2021, 18 oktyabr**

**Füzuli şəhərində çoxmənzilli yaşayış məhəlləsi salınacaq**
*(17 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma yeni yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, 17,8 hektar ərazini əhatə edəcək yaşayış məhəlləsi mərhələli şəkildə tikilib istifadəyə veriləcək. İlk mərhələdə 1, 2, 3 və 4 otaqlı mənzillərdən ibarət 65 mənzilli 4-5 mərtəbəli yaşayış binaları inşa ediləcək. Məhəllədə çoxfunksiyalı binalar da olacaq. Ümumilikdə məhəllədə 2860 nəfərin yaşaması nəzərdə tutulur.

Həyət tipli plan quruluşlarına malik yaşayış məhəlləsinin inşasında ənənəviliklə müasirlik vəhdət təşkil edəcək. Bu kompleks şəhərin gələcək memarlıq simasının müəyyənləşməsinə təkan verəcək.

Məhəllədə, həmçinin iş mərkəzlərinin, ticarət, ictimai iaşə, mədəniyyət və məişət-kommunal obyektlərinin yerləşməsi nəzərdə tutulur. Ərazi yaşıllıq sahələri ilə əhatə olunacaq, hovuzlar və fəvvarələr quraşdırılacaq, velosiped yolları salınacaq. Yaradılacaq şərait doğma yurdlarına qayıdacaq rayon sakinləri üçün rahat şəhər mühitinin təşkilində mühüm rol oynayacaq.

Prezident İlham Əliyev Füzuli şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlini qoydu.

**AZƏRTAC**
**2021, 18 oktyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar**
*(17 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.

**Prezident İlham Əliyevin**
**çıxışı**

-Əziz dostlar, əziz füzulililər, sizi səmimiyyətlə salamlayıram, "Füzuliyə xoş gəlmisiniz" deyirəm. Biz azad edilmiş torpaqlarda bu gün Füzulinin işğaldan azad olunmasının birinci ildönümünü qeyd edirik. Düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusu Füzuli şəhərini və bir neçə kəndi işğalçılardan azad edib, Azərbaycan bayrağı qaldırılıb və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövləti bu ərazilərdə öz suverenliyini təmin edib. Bu, tarixi hadisədir. Həmin an - 17 oktyabr günü Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi yer tutacaq. Çünki məhz oktyabrın 17-də bizim böyük şəhərimiz Füzuli işğalçılardan azad edildi. İkinci Qarabağ müharibəsində şəhid olmuş bütün şəhidlərimizə Allahdan bir daha rəhmət diləyirəm. Onların fədakarlığı, qəhrəmanlığı sayəsində biz tarixi ədaləti bərpa etdik. Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibə zamanı əsl vətənpərvərlik və qəhrəmanlıq göstərmişdir. Azərbaycan Ordusu düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək tarixi ədaləti bərpa etdi və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi.

Müharibə zamanı Füzulinin azad olunmasının çox böyük əhəmiyyəti var idi, çünki böyük yaşayış məntəqəsi idi. Cəbrayıldan, Hadrutdan sonra üçüncü böyük yaşayış məntəqəsi işğalçılardan azad edildi. Füzuli uğrunda çox şiddətli döyüşlər gedirdi, bir neçə gün ərzində şəhərin ətrafında çox ciddi əməliyyatlar aparılırdı. Düşmən müqavimət göstərirdi, amma buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirdi. Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz.

Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti, eyni zamanda, bu şəhərin strateji yerləşməsi ilə bağlıdır. Füzuli nəzarətimizə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün daha geniş imkanlar açıldı. Bir daha demək istəyirəm ki, Ermənistan tərəfi burada çox güclü istehkamlar qurmuşdu, bir neçə xətt istehkamdan ibarət müdafiə xətti qurulmuşdu. Otuz il ərzində düşmən burada möhkəmlənirdi və bu istehkamları yarmaq, keçmək xalqımızın bir daha böyük qəhrəmanlığını, fədakarlığını göstərmişdir. Təbii ki, bunu görən düşmənin gözü qorxdu. Gördülər ki, bizim əsgər-zabitlərimiz doğma torpaqları azad etmək üçün ölümə getməyə hazırdırlar. Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər-zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü bir daha göstərdi. Təsadüfi deyil ki, Füzuli azad olunandan sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldı. Düşmən gördü ki, bizim qabağımızda dura bilməyəcək, düşmən gördü ki, artıq bizim önümüz açıldı, digər şəhər və rayonlarımızın azad edilməsi məsələsi qaçılmazdır.

Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi. Azərbaycan Silahlı Qüvvələri bundan sonra böyük əzmkarlıq göstərərək xilaskarlıq missiyasını uğurla davam etdirdi. Füzuli azad olunandan 3 gün sonra Zəngilan şəhəri azad edildi, ondan beş gün sonra Qubadlı, ondan sonra biz Laçın dəhlizinə çıxdıq və beləliklə, müharibənin taleyi heç kəs üçün sirr deyildi.

Biz öz torpaqlarımızı azad etməli idik. Mən işğal dövründə bu məsələ ilə bağlı Azərbaycan xalqına dəfələrlə müraciət edərək və keçmiş köçkünlərlə görüşlər əsnasında deyirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad etməliyik. Onu da deyirdim ki, əgər lazım olsa, biz güc tətbiq etməklə öz torpaqlarımızı geri qaytaracağıq. Belə də oldu. Həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bütün bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya sübut etdik ki, "yenilməz Ermənistan ordusu" nəyə qadirdir və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik. Bu şanlı Qələbə çoxəsrlik Azərbaycan tarixində əbədi yaşayacaqdır.

Onu da deməliyəm ki, bizim uğurlu əməliyyatlarımız məhz Füzuli rayonundan başlamışdır. Müharibənin ilk günündə - sentyabrın 27-də Füzulinin Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri və Cəbrayılın Böyük Mərcanlı və Nüzgar kəndləri azad edildi. Yəni, biz öz Zəfər missiyamızı məhz Füzuli rayonundan başlamışıq.

Bu gün Füzulidə olarkən hər kəs erməni vəhşiliyinin təzahürlərini görür. Çünki Füzuli ən çox dağıntılara məruz qalmış rayondur. Bir dənə salamat kənd yoxdur, bir dənə salamat bina yoxdur. Füzuli şəhəri tamamilə yerlə-yeksan edilib. Siz yaxşı xatırlayırsınız, Azərbaycan xalqı yaxşı xatırlayır, Füzuli azad olunandan sonra bir bina tapılmadı ki, biz oraya bayrağımızı sancaq. Bayrağımız hərbi hissənin həyətində dirəkdə qaldırılmışdı. Buraya gələn hər bir insan erməni vəhşiliyini, erməni vandallığını görür və bunu artıq heç kim inkar edə bilməz. Təsadüfi deyil ki, ermənilər işğal dövründə buraya heç kimi buraxmırdılar, hətta beynəlxalq təşkilatların nümayəndələrini də buraxmırdılar. Düzdür, işğal dövründə Minsk qrupunun nümayəndələri iki dəfə faktaraşdırıcı missiya ilə bu bölgələrə gəlmişdilər və müvafiq məruzələr hazırlanmışdı. O məruzələrdə göstərilirdi ki, düşmən burada böyük vandallıq törədib. Ancaq bu dərəcədə dağıntıları heç kim təsəvvür edə bilməzdi. Bu, erməni faşizminin eybəcər üzüdür, bütün dünya bunu görür və görməlidir. Artıq minlərlə insan, həm Füzuli sakinləri, eyni zamanda, xarici diplomatlar, siyasətçilər, jurnalistlər azad edilmiş torpaqlara gəlib ilə erməni vəhşiliyini öz gözləri görürlər.

Biz Füzuli şəhərini və Füzuli rayonunun kəndlərini bərpa edəcəyik. Ötən bir il ərzində bu istiqamətdə böyük işlər görülüb. Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar. Bu bir il ərzində biz çox genişmiqyaslı quruculuq işləri ilə, eyni zamanda, şəhər və kəndlərimizin bərpası ilə də məşğul olmuşuq. Bu proses çox mürəkkəbdir. Burada düzgün planlaşdırma aparılmalı, minalardan təmizləmə işləri görülməlidir. Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur - yüz mindən çox mina basdırılıb. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıbdır. Birinci infrastruktur layihələri də məhz Füzulidə başlamışdır.

İşğal dövründə mən Füzuli rayonunun bizdə olan hissəsinə, ərazilərinə dəfələrlə gəlmişdim, 12 dəfə Füzuli rayonunda olmuşdum. Rayonun inkişafı ilə bağlı çox böyük işlər görüldü. Horadiz qəsəbəsinə şəhər statusu verildi və Horadiz Füzuli rayonunun qeyri-rəsmi mərkəzi müəyyən edilmişdir. Böyük sosial infrastruktur layihələri icra edildi - 24 məktəb, 2 xəstəxana, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, Tarix-Diyarşünaslıq Muzeyi, Muğam Mərkəzi tikildi. İnfrastrukturla bağlı çox böyük işlər görülmüşdür. Fərdi evlərin bərpası işləri görülmüşdür. Yəni, Füzuli rayonunun inkişafı ilə bağlı çox genişmiqyaslı işlər aparılırdı. Qeyd etdiyim kimi, 12 dəfə Füzulidə olmuşam. Burada köçkünlərlə görüşərək hər zaman onlara deyirdim ki, Füzuli şəhəri və rayonun qalan hissəsi azad olunandan sonra biz daha yaxşı evlər tikəcəyik, daha gözəl şərait yaradacağıq və siz qayıdacaqsınız. Bu gün artıq bunu hər kəs görə bilir. Çünki Füzuli rayonunda artıq icra edilən layihələr bizim həm niyyətimizi, həm potensialımızı göstərir. Cəmi 8 ay ərzində Füzuli Beynəlxalq Hava Limanı inşa edilib. Bu gün hazır hava limanı ilə tanış olarkən mən bir daha gördüm ki, bəlkə də dünya praktikasında, dünya tarixində bu qısa müddət ərzində, minalanmış ərazidə beynəlxalq hava limanları tikilməmişdir. Biz Füzulidən Şuşaya elektrik xətləri çəkmişik. Çünki Şuşa azad olunandan sonra mənfur düşmən bütün elektrik xətlərini kəsib, hətta su xəttini də partlatmışdır və Şuşa işıqsız qalmışdır, özü də qış aylarında. Ona görə çətin şəraitdə Füzulidən Şuşaya elektrik xətləri çəkildi. Füzulidə yarımstansiya açıldı və ikinci yarımstansiyanın təməli bu gün qoyulmuşdur.

Yollarla bağlı. İndi siz gələndə yeni yoldan istifadə etdiniz. Görürsünüz, biz bu yolları qısa müddət ərzində çəkdik. Biz hətta Şuşaya qədər Zəfər yolunu çəkdik və indi Füzuli-Şuşa magistral yolunun çəkilişi gedir. Hazırda Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Füzuli-Ağdam yollarında işlər gedir. Bu gün Füzuli-Ağdam istiqamətində yeni yolun təməli qoyuldu. Eyni zamanda, Ağdama gedən qonaqlar, vətəndaşlar Füzuli Beynəlxalq Hava Limanından istifadə edə bilərlər. Yəni, Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır.

Bütün bu işləri görərək biz bir məqsədi güdürdük ki, keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytaraq. Bu gün təməl daşının qoyulması mərasimlərində iştirak edərkən biz artıq bu günü də böyük dərəcədə yaxınlaşdırmışıq. Bu gün Dövlətyarlı kəndinin inkişaf konsepsiyası təsdiq edildi, təməli qoyuldu. “Ağıllı kənd” konsepsiyası əsasında Dövlətyarlı kəndində böyük yaşayış məntəqəsi yaradılacaq. Beş kəndi birləşdirən bu layihə, ümid edirəm ki, gələn ilin sonuna qədər keçmiş köçkünlərin sərəncamına veriləcək. Birinci mərhələdə 450 evin tikintisi nəzərdə tutulur. Ondan sonra əlavə 300 evin tikintisi nəzərdə tutulur və bu, Füzuli rayonunda birinci yaradılacaq yaşayış mərkəzi olacaqdır.

Bu gün Füzuli şəhərinin baş planı təqdim ediləcək. Artıq mənə bu baş plan təqdim edildi. Bu gün bərabər bu plana baxarıq. Bizim mütəxəssislərimiz bu plan üzərində uzun aylar ərzində işləyiblər. Bu gün biz hamımız bu layihə ilə bir daha tanış olarıq. Zəfər muzeyinin, İşğal muzeyinin təməli qoyulacaq.

Füzuliyə həyat qayıdır və qayıdacaq. Əminəm ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək. Biz azad edilmiş ərazilərdə ən müasir texnologiyaları tətbiq edirik. Bu, artıq reallıqdır. Bunu mən müharibə başa çatandan dərhal sonra bəyan etmişdim və bunu bu gün hər kəs görə bilir. Zəngilanda birinci kəndin inşası başa çatmaq üzrədir. Ağdam şəhərinin baş planı təsdiqləndi, işlərə start verildi. Cəbrayılın baş planı təsdiqləndi. Artıq göstəriş verildi və vəsait ayrıldı, digər şəhərlərimizin – Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Bütün bu işləri biz görəcəyik. Bildiyiniz kimi, heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.

Bu işləri görmək üçün əlbəttə ki, biz uzun illər işləmişik. Uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün şərait yaratmışıq, imkanlar yaratmışıq - texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları. Bu gün Azərbaycan iqtisadiyyatı pandemiya böhranından sonra dirçəlir. Artıq mənə verilən məlumata görə, doqquz ayın rəqəmləri müsbətdir, iqtisadiyyat təxminən 5 faiz artıb, sənaye də artıb, qeyri-neft sənayesi isə təxminən 20 faiz artıb. Ancaq hər kəs bilməlidir ki, bütün bu bərpa işləri böyük vəsait tələb edir. Yenə də deyirəm, Azərbaycan heç kimdən heç bir yardım, bir qəpik də yardım almayıb və almayacaq. Bu günə qədər almayıbsa, bundan sonra da almayacaq. Bunu öz imkanlarımız çərçivəsində edəcəyik. Mən tam əminəm ki, bütün planlarımız maksimum qısa müddət ərzində həyatda öz əksini tapacaq, Qarabağ və Şərqi Zəngəzur nəinki Azərbaycanın, dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir.

Sabah – oktyabrın 18-i tarixi gündür. Otuz il bundan əvvəl Azərbaycan dövlət müstəqilliyini elan etmişdir. Bildiyiniz kimi, mənim təşəbbüsümlə milli bayramlarımızla bağlı Azərbaycan Milli Məclisi düzəlişlər edib. Mən hesab edirəm ki, bu düzəlişlər tarixi həqiqətə və tarixi ədalətə tam uyğundur. Bizim üçün əsas müstəqillik bayramı 28 May günüdür, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günüdür. Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində birinci demokratik respublika məhz Azərbaycan xalqı tərəfindən yaradılmışdır. Biz bu gün müstəqil ölkə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin varisiyik. Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. 1991-ci il oktyabrın 18-də isə müstəqillik bərpa edildi. Edilən düzəlişlər məhz bu uyğunsuzluğa son qoydu və bunu hər kəs bilməlidir.

Onu da bildirməliyəm ki, hesab edirəm, o vaxt Azərbaycan rəhbərliyi müstəqilliyi elan edərkən çox əsassız vaxt itkisinə yol verib. Çünki müstəqillik daha əvvəl, daha tez elan oluna bilərdi. Bunu da hər kəs bilməlidir. Biz tarixə ədalətli yanaşmalıyıq. Biz ermənilərdən fərqli olaraq heç bir mifologiya yaratmamalıyıq. Tarixi olduğu kimi bilməliyik və qiymət verməliyik. Çünki 1991-ci ilin oktyabrında bir çox keçmiş müttəfiq respublikalar artıq öz dövlət müstəqilliyini elan etmişdir. Məndə siyahı var, mən həm sizə, həm də Azərbaycan xalqına bu məlumatı vermək istəyirəm, çoxları bəlkə də bilmir.

Birinci keçmiş sovet müttəfiq respublikaları arasında öz müstəqilliyini Litva elan etmişdir - 11 mart 1991-ci ildə. Ondan sonra Gürcüstan – 9 aprel 1991-ci il, Latviya – 4 may, Belarus – 27 iyul, Estoniya – 20 avqust, Ukrayna - 24 avqust, Moldova - 27 avqust, Qırğızıstan - 31 avqust, Özbəkistan - 1 sentyabr, Tacikistan - 9 sentyabr, Ermənistan - 21 sentyabr, Türkmənistan - 27 sentyabr, Azərbaycan - 18 oktyabr. Bu qədər gözləməyin səbəbi nə idi? Bilirsiniz, mən bu suala cavab bilirəm. Bu, ritorik sualdır. Ona görə, 18 oktyabr gününü böyük təmtəraqla qeyd etmək, yaxud da ki, kiməsə buna görə minnətdar olmaq tamamilə yersizdir. Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi. Rusiya çıxdı, Ukrayna çıxdı, bütün qalan respublikaları çıxdı. Azərbaycan rəhbərliyi nəyi gözləyirdi, kimi gözləyirdi? Bilirsiniz, ona görə, bu tarixi bilmədən düzgün təsəvvür formalaşdırmaq çətindir. Gələcəkdə düzgün addımların atılması üçün də bu vacibdir və gənc nəsil də bunu bilməlidir. Tarixi həqiqət belədir. Amma, eyni zamanda, bizim o ildə digər tarixi həqiqət var – o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, "Sovet Sosialist" sözləri o addan götürüldü, sadəcə, Naxçıvan Muxtar Respublikası adlandırıldı. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. Bu tarixi videolar var. Eyni zamanda, Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırıldı ki, oxşar addımı Azərbaycan Ali Soveti də etsin. Ancaq bunu etmədi. Əksinə, 1991-ci ilin yazında Sovet İttifaqı çərçivəsində keçirilmiş

referendumda, Sovet İttifaqının saxlanmasına dair referendumda ovaxtkı Azərbaycan rəhbərliyi xalqın iradəsinə zidd olaraq o referendumun nəticələrini saxtalaşdıraraq Sovet İttifaqının saxlanmasına səs verdi.

Ancaq Heydər Əliyev qoymadı ki, Naxçıvanda bu referendum keçirilsin. İndi baxın, müstəqilliyə aparan addımlar hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib? Ona görə 18 oktyabrla bağlı sabah mənim Azərbaycan xalqına təbrikim dərc ediləcək. Ancaq, eyni zamanda, mən istərdim ki, hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi.

Bu gün bu tarixə toxunarkən, sadəcə olaraq, öz mövqeyimi, öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istəyirəm. Sabah digər tarixi gün qeyd olunacaq - Xudafərin qəsəbəsinin azad olunması. Oktyabrın 18-də Azərbaycan Silahlı Qüvvələri Xudafərin körpüsünə çıxdı və Xudafərin körpüsü üzərində Azərbaycan bayrağını qaldırdı. Xudafərin körpüsü Azərbaycan xalqının milli sərvətidir, Azərbaycan xalqının istedadının sübutudur. Biz Azərbaycan xalqına məxsus olan bu möhtəşəm memarlıq əsəri ilə haqlı olaraq fəxr edirik.

Müharibə artıq tarixdə qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı, biz gələcəyə baxmalıyıq. Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq. Əminəm ki, bütün planlarımız, - bu günə qədər bəyan edilən bütün hədəflər necə təmin edilmişdisə, - növbəti dövr üçün nəzərdə tutulmuş hədəflər də təmin ediləcək. Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq. Bir daha sizi təbrik edirəm və yeni uğurlar, cansağlığı arzu edirəm. Sağ olun.

**X X X**

**Milli Məclisin deputatı Vüqar Bayramov dedi:**

- Möhtərəm, cənab Prezident, çox hörmətli Mehriban xanım.

Füzuli sakinləri Sizi salamlayır, belə möhtəşəm tarixi günü onlara qismət etdiyinizə görə Sizə dərin minnətdarlıqlarını bildirirlər. Cənab Prezident, bu gün Füzuli rayonunun tarixində ən parlaq, ən qürurverici gündür. Çünki Sizin də qeyd etdiyiniz kimi, bir il öncə 27 illik erməni işğalına son qoyuldu. Bütün bunlar, möhtərəm Prezident, Sizin heç də hər bir dövlət başçısına, siyasətçisinə qismət olmayan siyasi təmkininiz, beynəlxalq arenada böyük diplomatik nüfuzunuz və təbii ki, hərb meydanında qəbul etdiyiniz cəsarətli qərarlar sayəsində mümkün oldu.

Möhtərəm Prezident, Ümummilli Liderimizin ən böyük arzusu torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyümüzün bərpası idi. Qarabağı və bu gün Sizin rəhbərliyinizlə təməli qoyulacaq Füzuli şəhərini işğaldan azad edən gənclər ümummilli liderimiz Heydər Əliyev məktəbinin davamçıları və Sizin idarəçiliyinizin yetirmələridir. Cənab Prezident, Siz çox haqlı olaraq tarixi məqamlara toxundunuz, Ümummilli Liderimizin yenidən hakimiyyətə qayıtması füzulililərin taleyində həlledici rol oynadı. Məhz Ulu Öndərimizin inamı, eyni zamanda, böyük qətiyyəti nəticəsində 1994-cü ildə Füzuli rayonunun 21 kəndi, eləcə də strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsi işğaldan azad olundu. Daha sonra Sizin də qeyd etdiyiniz kimi, Horadiz qəsəbəsi şəhər statusu aldı və bu gün Horadiz Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən biridir.

Cənab Prezident, Füzuli sakinləri hər zaman Sizi Prezident və Ali Baş Komandan olaraq dəstəkləyib və Sizin rəhbərliyinizlə torpaqlarımızın işğaldan azad olunacağına inanıblar. Bu gün xoşbəxtik ki, biz məğlub xalqdan qalib xalqa çevrildik. Füzuli sakinləri hər zaman, möhtərəm Prezident, Sizin, eyni zamanda, çox hörmətli Mehriban xanımın diqqət və qayğısını hiss edib və qiymətləndiriblər. Sizin qeyd etdiyiniz kimi, işğaldan azad olunmuş ərazilərimiz - illər boyu həsrətlə baxdığımız və nisgilliklə xatırladığımız bu ərazilər artıq yeni quruculuq mərhələsinə qədəm qoyub. Cənab Prezident, Sizin rəhbərliyinizlə Füzuli rayonunda da bərpa və yenidənqurma mərhələsi başlayıb. Artıq Füzuli Beynəlxalq Hava Limanının inşası başa çatıb və yaxın vaxtlarda istifadəyə veriləcək. Bizim beynəlxalq hava limanı dünyada ən qısa müddətdə inşa edilən beynəlxalq hava limanlarından biridir. Bütün bunlar ondan xəbər verir ki, Sizin rəhbərliyinizlə işğaldan azad olunmuş ərazilərimizə çox qısa zamanda həyat gələcək. Sizin də qeyd etdiyiniz kimi, Qarabağ tezliklə cənnətə çevriləcək.

Cənab Prezident, cənnət Qarabağ bizimdir, cənnət Qarabağ Azərbaycandır. Cənnət Qarabağ, cənab Prezident, Sizin və çox hörmətli Mehriban xanımın rəhbərliyi ilə hər zaman bizim olacaq.

Təşəkkür edirəm.

X X X

**AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində postkonflikt ərazilərin bərpası elmi mərkəzinin rəhbəri Akif Musayev dedi:**

- Möhtərəm cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

Füzuli əhalisi Sizi Füzulidə salamlayır, hörmət və ehtiramını bildirir. Bu gün Füzuli əhalisi, eyni zamanda, azad olunmuş Füzuli torpağı sevinc içindədir.

Cənab Prezident, mən elm adamıyam. Keçən əsrin 90-cı illərində mən sovet dönəmi Azərbaycan Respublikasının iqtisadi inkişafını təhlil etmişdim və bu dövrü üç mərhələyə bölmüşdüm - 69-cu ilə qədər olan dövr, 69-83-cü illər və 83-cü ildən sonrakı dövr. Sovet respublikalarının iqtisadi inkişafı ilə Azərbaycanın o dövrdəki iqtisadi inkişafını müqayisəli şəkildə təhlil edərək nəticələri ilə bağlı seriya məqalələrlə çıxış etmişdim. Həmin məqalələr "Azərbaycan iqtisadiyyatında Heydər Əliyev fenomeni" adlanırdı. Mən 69-83-cü illəri əhatə edən iqtisadi inkişafı Azərbaycan iqtisadiyyatının qızıl dövrü adlandırmışdım.

Bu gün də Sizin rəhbərliyinizlə Azərbaycan dövlətçiliyi və Sizin Ali Baş Komandanlığınızla Azərbaycan Ordusu özünün qızıl dövrünü yaşayır.

Cənab Prezident, xalqımızın dəstəyi, Sizin Ali Baş Komandanlığınızla müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan oğulları torpaqlarımızın azad olunması naminə şəhid oldular. Biz şəhidlərin ruhu qarşısında baş əyirik, qazilərimizə Allahdan şəfa diləyirik.

Cənab Prezident, Sizin Ali Baş Komandanlığınızla Azərbaycan Ordusu zəka müharibəsi apardı və müharibəni qələbə ilə başa çatdırdı. Bu, dünya hərb tarixində yeni bir səhifə açdı. Eyni zamanda, Siz indiyə qədər Azərbaycana qarşı haqsız olaraq formalaşmış ədalətsizliyə son qoyaraq informasiya müharibəsində qələbə qazandınız. Həmçinin diplomatiya sahəsində qalib gəldiniz və erməni faşizminin havadarlarının nə dərəcədə ədalətsiz mövqe tutduğunu dünyaya bəyan etdiniz.

Müharibədən, Qələbədən bir ilə yaxın vaxt keçib. Bu müddətdə burada görülən işlərin miqyası, intensivliyi, sürəti onu göstərir ki, çox yaxın vaxtlarda bu strateji hədəfə də Sizin ali rəhbərliyinizlə nail olunacaq, əhali öz doğma yurdlarına qayıdacaq. Nəhayət Qarabağ ruhu, Qarabağ mədəniyyəti Qarabağ torpağına qayıdacaq.

Cənab Prezident, Sizin tapşırığınıza əsasən, repatriasiya potensialının proqnozlaşdırılması və effektiv təşkili ilə bağlı araşdırmalar aparılır. İlkin nəticələrə görə, bütün əhalimizin çox böyük əksəriyyəti qayıtmaq əzmindədir və bu prosesi səbirlə gözləyirlər. Əmin ola bilərsiniz ki, bu insanlar Qarabağda aparılan quruculuq işlərində yaxından iştirak edərək Azərbaycanın sosial-iqtisadi inkişafına öz töhfələrini verəcəklər.

Cənab Prezident, Füzuli əhalisi həmişə dövlətçiliyin, öz Prezidentinin yanında olub, bundan sonra da yanında olacaq. Füzuli əhalisi də bu quruculuq prosesində yaxından iştirak edərək öz töhfəsini vermək arzusundadır və bu, belə də olacaq.

Mən kiçik bir kənddə - Qorqan kəndində anadan olmuşam və o, təmas xəttində idi. Mən ildə bir dəfə yaz vaxtı övladlarımla, nəvələrimlə gəlib o kəndə binoklla baxırdım. Belə fikirləşirdim ki, nə vaxtsa o torpağa qayıtmaq və anadan olduğum o kəndi görmək mənə qismət olacaqmı? Bir dəqiqə də olsun, ümidimizi itirməmişdik. Amma mən yaşda olan insanların bir nigarançılığı vardı ki, birdən ömür vəfa verməz o torpaqları görüm.

Cənab Prezident, çox sağ olun. Sizə minnətdarıq. Azərbaycan dövlətinə, Azərbaycan xalqına, Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə, Azərbaycan zabitinə minnətdarıq ki, bu sevinci bizə yaşatdı.

Allah Sizi qorusun, Allah Sizin ailənizi qorusun. "Dəmir yumruq" da öz yerində. Sağ olun.

X X X

**Azərbaycan Milli Konservatoriyasının dosenti, Xalq artisti Elçin Həşimov dedi:**

- Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandanımız və çox hörmətli Mehriban xanım.

Sizi bu müqəddəs Qarabağ torpağında, Füzuli rayonunda görməkdən çox sevincli və qürurluyuq. Qarabağ torpağı, həmçinin Füzuli rayonu Azərbaycan mədəniyyətinə, musiqi mədəniyyətinə çox böyük simalar bəxş edib: xanəndələr, musiqiçilər, ifaçılar, bəstəkarlar. Təkcə bir insanın adını qeyd etmək kifayət

edər ki, bax, bu gün tədris olunan Azərbaycan muğam proqramının müəllifi, ustad sənətkarımız Seyid Şuşinski məhz bu rayonun, Füzuli rayonunun övladıdır. Biz də gözümüzü açıb elə bu muğam musiqisini, xalq musiqisini eşitmişik və bu mühitdə formalaşmışıq. Əlbəttə ki, bu gün bizim muğamımız çox böyük nailiyyətlər əldə edir. Bu da Sizin və təbii ki, Mehriban xanımın muğamımıza xüsusi qayğısı ilə mümkün olub. Biz bunu daim hiss edirik və bu danılmaz bir faktdır. Hələ torpaqlarımız işğal altında olarkən Qarabağda muğam mərkəzləri tikildi. Füzulinin yoxluğu zamanı Horadizə şəhər statusu verildi, orada, həmçinin Ağdamda, Ağcabədidə muğam mərkəzlərinin tikilməsi böyük rəmzi məna daşıyır. Bu, muğam ifaçılığına, muğam sənətinə, eyni zamanda, yeni muğam ifaçılarına çox böyük stimul verdi. Mən bir də ona görə qürurluyam ki, Sizin tapşırığınıza əsasən tikilən Zəfər yolu mənim anamın, atamın doğulduğu kəndlərdən - məhz Əhmədbəyli, Mahmudlu kəndlərindən başlayır. Çox sevinirəm, hər zaman, hər yerdə deyirəm ki, mənim uşaqlığım burada keçib, buralarda çox gözəl günlər görmüşük və bundan sonra da gözəl günlər görəcəyik. Biz buna inanırıq, necə ki, həmişə Sizə inanmışıq.

Çıxışımın sonunda, cənab Prezident, bir məsələyə toxunmaq istəyirəm. Bu yaxınlarda Siz bizim qardaş Türkiyə kanallarının birinə müsahibə verərkən söylədiniz ki, mən o torpaqlara, işğaldan azad olunmuş torpaqlarımıza gedərkən, gözlərimin önünə o bölgələrdə yaşamış insanlar gəlirdi. Çünki onlar buraları görmürlər, onlar bizim gözlərimizlə onu görməlidirlər.

Siz dediniz ki, hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər. Bu sözlər hamımızı çox duyğulandırdı və eyni zamanda, qürurlandırdı.

Biz fəxr edirik ki, bizim Sizin kimi liderimiz, Ali Baş Komandanımız var. Azərbaycan xalqı, Qarabağ camaatı Sizinlə qürur duyur. Füzulililər Sizinlə fəxr edir və qürur duyurlar. Bu gün Füzuli torpağında olmağımızın, onun işğaldan azad olunmasının bir illiyini qeyd etməyimizin səbəbkarı Sizsiniz və heç zaman unudulmayacaq şəhidlərimizdir, qəhrəman qazilərimizdir. Buna görə Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun, var olun. Allah Sizi qorusun. Qarabağ Azərbaycandır!

**X X X**

ADA Universitetinin tələbəsi **Aysel Cəfərli** dedi:

- Möhtərəm Prezident və hörmətli Mehriban xanım.

Bu gün Sizin qarşınızda bir tələbə kimi, xüsusilə də Zəfər çalmış ölkənin tələbəsi kimi çıxış edirəm. Bu, çox şərəfli və qürurvericidir. Doğma yurdumun adını yüksəklərə qaldırmaq, nəinki mənim, hər birimizin vətəndaşlıq borcudur, xüsusən də ağır pandemiya dövründə. Bilirik ki, bu xəstəlik qlobal bir problemdir və Azərbaycan onunla ən yüksək səviyyədə mübarizə aparır. Mən inanıram ki, biz bu xəstəliyə qalib gələcəyik. Çünki biz İkinci Qarabağ müharibəsinin qalibləriyik. O müharibənin ki, 44 gün ərzində öz şücaətimizi, qəhrəmanlığımızı bütün dünyaya göstərdik və burada "biz də varıq" dedik.

Düzdür, Qarabağı görməsəm də, səsini-sorağını çox eşitmişəm. Tarixə nəzər salsaq, oranın necə möhtəşəm yerlər olduğunu və buna görə də basqınlara məruz qaldığının şahidi olarıq. Məsələn, 1993-cü ilin sonlarında Qarabağın çox hissəsi ermənilər tərəfindən zəbt olunmuşdu. Lakin ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın həm daxili, həm də xarici həyatında mühüm irəliləyişlər oldu. Buna 1994-cü ilin yanvarında baş tutmuş Horadiz əməliyyatını nümunə göstərsək, məncə, tam yerinə düşər. Çünki Horadizin bugünkü gözəlliyi bütün hər kəsi valeh edir.

Azərbaycan sürətlə inkişaf edirdi və eləcə də digər ölkələr arasında tanınmağa başlayırdı. Əfsuslar olsun ki, 2003-cü il dekabrın 12-də biz Ümummilli Liderimizi itirdik və xalqımız dərin kədərə qərq oldu. Lakin cənab Prezident, Siz Prezident seçiləndən sonra xalqımız yenidən dirçəlməyə başladı, Azərbaycan yenidən inkişaf etməyə başladı. Mən əminəm ki, qəlbimizdə yaşatdığımız Ümummilli Liderimiz əgər hazırda Azərbaycanı görsəydi, necə sürətlə inkişaf etdiyinin, əmin əllərdə olduğunun və ən əsası, Qarabağımızı aldığımızın şahidi olar və sevinib, fərəhlənərdi. Təbii ki, bunlar Sizin düzgün mövqeyinizin və uzaqgörən siyasətinizin nəticələridir. Unutmaq olmaz ki, torpaq su ilə qarışanda palçıq olur, qanla qarışanda Vətən. Buna görə Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa və digər əsgərlərimizə uzun ömür diləyirəm.

Sizə çox təşəkkür edirəm ki, bu sevinci bizə yaşatdınız. Eyni zamanda, şəhid ailələrinə və qazilərə göstərdiyiniz dəstəyə görə də Sizə minnətdarlığımı bildirirəm. Bunu da vurğulamaq istəyirəm ki, məcburi köçkün ailələrinə göstərdiyiniz dəstək də danılmazdır. Çünki neçə-neçə tələbənin ödənişinin qarşılamağınızın şahidiyik və o tələbələrdən biri də mənəm. İllərdir xəyalını qurduğum yüksək təhsil imkanına malik ADA Universitetinə bu il qəbul olmuşam və eyni zamanda, Prezident təqaüdünə layiq

görülmüşəm. Bunun üçün Sizə çox təşəkkür edirəm. Məqsədim gələcəkdə üzünü görmədiyim, azad olunmasını eşidəndə kövrəlib ağladığım Füzuli rayonunda hüquqşünas kimi fəaliyyət göstərməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

X X X

Füzuli rayon Ağsaqqallar Şurasının sədri **Zülfüqar Əliyev** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Azərbaycan xalqına ilk Qələbə sevincini ulu öndər, fenomen şəxsiyyət Heydər Əliyev Ali Baş Komandan olduğu dövrdə yaşatdı. İkinci Qələbə sevincini də yenə Füzuli cəbhəsində, hörmətli Prezidentimiz, Siz yaşatdınız. Üçüncü Qələbə sevinci də yenə Füzulidən başladı. Bu sevinci də Siz bizə XXI əsrin müharibəsini apararaq yaşatdınız. Buna görə də Sizə "çox sağ olun, ömrünüz uzun olsun" deyirik.

Bu tərəfə uçan quşlara həmişə biz həsəd aparardıq. İndi Sizin saldığınız o Zəfər yolu ilə - o şüşə kimi yolla biz Şuşaya gedirik, Füzuliyə gəlirik. Şuşada festivallar keçiririk, Xarıbülbül festivalını, Vaqifin poeziya günlərini, Üzeyir Hacıbəylinin musiqi festivalını keçiririk. Mehriban xanımın dəstəyi ilə Heydər Əliyev Fondunun hesabına bizim oradakı müqəddəs məscidlərimiz – Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri, Saatlı məscidi, habelə Xalça muzeyi, Rəsm qalereyası təmir olunub, vətəndaşların istifadəsinə verilib. Bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk, möhtərəm Prezidentimiz.

Siz beynəlxalq hava limanı tikdirməklə Füzuli rayonu ilə Bakı arasındakı məsafəni 30 dəqiqəyə endirmisiniz. Çox sağ olun, bu hava limanı mən deyərdim ki, Füzulinin simvoludur, Füzulinin açarıdır. Füzulililər Sizi çox sevir.

Möhtərəm cənab Prezident, 2003-cü ildə füzulililər öz qəti sözünü deyib, yekun qərarını verib. Siz bizim əbədi Prezidentimizsiniz. Biz o vaxtı düzgün seçim etməsəydik, bu gün burada görüşə bilməzdik.

Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin. Azərbaycanın gələcəyi naminə Sizə uğurlar arzulayırıq. Çox sağ olun.

X X X

**Prezident İlham Əliyev dedi:**

-Çox sağ olun, əziz dostlar, xoş sözlərə görə sizə minnətdaram. Təkcə bir şeyi əlavə etmək istərdim ki, bu, bizim hamımızın Qələbəsidir. Çünki Azərbaycan xalqı yorulmadan bu Qələbəyə doğru addımlayırdı. Hər birimiz, hərə öz yerində öz töhfəsini ümumi Qələbəmizə, ümumi inkişafımıza verərək bu günü, bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təsadüfi deyil ki, İkinci Qarabağ müharibəsi bizdə Vətən müharibəsi adlandırılır. Çünki hər birimiz, hər bir Azərbaycan vətəndaşı bu günü nəinki səbirsizliklə gözləyirdi, bu günə inanırdı, eyni zamanda, öz əməyi ilə bu günü yaxınlaşdırırdı. Bizim üçün, xalqımız üçün torpaqlarımızın azad olunmasından daha vacib məsələ heç vaxt olmamışdır. Mən hesab edirəm ki, Qələbəmizin əsas amillərindən biri də məhz budur. Çünki biz Qarabağı unutmadıq, biz o vəziyyətlə barışmadıq. Halbuki bizə deyilirdi ki, artıq reallıqla gərək hesablaşasınız, siz birinci müharibədə, yəni, 1990-cı illərdə məğlubiyyətə uğramısınız. Siz indi gərək bu vəziyyətlə barışıb ermənilərlə kompromisə gedəsiniz, dil tapasınız. Mənim mövqeyim bəllidir. Mən bu mövqeyi həm ölkə daxilində, həm beynəlxalq tədbirlərdə bütün kürsülərdə çıxış edərkən bəyan edirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Mənə güc verən məhz xalqımızın əzmkarlığı idi. Çünki xalqımız barışmadı və görün, bu torpaqları görməyən cavan qız hansı sözləri deyir. Bu torpaqları görməyən cavanlarımız bu torpaqlar uğrunda ölümə gedirdilər. Bu, xalqımızın böyüklüyünü bir daha göstərir. Tarixdə müharibələr çox olub, münaqişələr olub, elə hallar olub ki, xalqlar istila ilə, işğalla barışmış olublar, boyunlarını büküb əyilmiş olublar. Amma bizim xalqımız həmişə başını dik tutub. Biz həmişə bir arzu ilə, bir fikirlə yaşamışdıq ki, gün gələcək, ədaləti bərpa edəcəyik, xalqımızın üstündən "məğlubedilmiş" sözünü atacağıq, qürurlu xalq kimi, müzəffər xalq kimi yaşayacağıq və bu gün gəldi. Əgər xalqımız buna inanmasaydı, əgər cəmiyyətimiz bizim o sahədəki siyasətə dəstək olmasaydı, müharibəni bu nəticələrlə başa vurmaq çox çətin olardı. Ona görə, bu, bizim hamımızın qələbəsidir, hamımızın təntənəsidir.

Əlbəttə ki, bir çox amillər var. Bu haqda artıq danışılıb. Bu Qələbəmizi şərtləndirən amillər nəzərə alınaraq kitablarda, məqalələrdə, elmi araşdırmalarda yazılacaq. Amma hesab edirəm ki, bunların arasında ən başlıcası məhz əyilməz ruhumuz və vətənpərvərliyimizdir. Məhz bu bölgədə bizim cavanlarımız, cavan

əsgər və zabitlərimiz ölümə gedirdilər. Bütün o mövqelərdə, o dağlıq mövqelərdə ermənilər yerləşmişdilər. Onlar orada 30 il yerləşmiş, istehkamlar, bunkerlər, uzunmüddətli atəş nöqtələri qurmuşdular. Biz isə, düzənlik olan yerdən o təmas xəttini keçərək, o istehkamları yararaq gedirdik, bizim gənclər ölümə gedirdilər. Ona görə, birinci amil vətənpərvərlik, Vətənə olan sevgi, məhəbbətdir. Bu amil bizim xalqımızı bundan sonra da yenilməz xalq kimi yaşadacaq.

Əsas vəzifəmiz, - əlbəttə, torpaqlarımızın qurulması, bərpası öz yerində, - gəncləri bu vətənpərvərlik ruhunda böyütməkdir. Çünki bu olmasa, onda bizim arzularımız yarımçıq olacaq. Vətənpərvərlik olsa, Vətənə bağlılıq olsa, heç bir qüvvə bizim qabağımızda dura bilməz.

Bizi həm müharibədən əvvəl, həm müharibə zamanı, həm də bəziləri müharibədən sonra hədələməyə çalışırdılar və çalışırlar. Amma bütün bu səylər puça çıxdı. Çünki heç kim bizim iradəmizi əyə bilməz. Biz öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik. Bunu hər kəs bilsin. Bizi hədələməyə çalışanlar indi haradadırlar, hər kəs bilir. Hamı üçün dərs olmalıdır, ibrət olmalıdır. Azərbaycanla diktat dili ilə, hədə-qorxu dili ilə heç kim danışa bilməz.

Mən bir daha sizi bu müqəddəs gün münasibətilə - Füzulinin azad olunması günü münasibətilə təbrik edirəm, sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, biz tezliklə bu gözəl diyarı quraq, bərpa edək. Sizinlə burada hələ çox-çox görüşəcəyik. Bir daha sağ olun.

**X X X**

**Prezident İlham Əliyev:** İşlər gedir?

**Sakin:** Bəli, işlər gedir, bəlkə mindən çox texnika var.

**Prezident İlham Əliyev:** Orada indi işlər yaxşı gedir.

**Sakin:** Çox yüksək səviyyədə, cənab Prezident.

**Prezident İlham Əliyev:** Milli qəhrəmanlarla görüşüm.

**Polkovnik Hüseynov:** Cənab Ali Baş Komandan, polkovnik Hüseynov.

**Mayor Səfərov:** Cənab Ali Baş Komandan, mayor Səfərov.

**Prezident İlham Əliyev:** Gəlin, baş planla tanış olaq, sonra Zəfər muzeyinin də təməlini bərabər qoyaq.

**Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev:** Möhtərəm Prezident, hörmətli Mehriban xanım, Füzuli Memorial Kompleksi şəhərin mərkəzi hissəsində yaradılacaq. Durduğumuz məkanda, 5 hektarlıq ərazidə İşğal muzeyi, Memorial Kompleks və ona bitişik Zəfər parkı salınacaq. Həmçinin yüksək bir məkanda Bayraq meydanı yaradılacaq. İcazənizlə kiçik bir film nümayiş etdirmək istərdik.

Film nümayiş olunur.

**Anar Quliyev:** Cənab Prezident, videoda da göründüyü kimi, Bayraq meydanı şəhərin ən yüksək nöqtəsində salınacaq və Füzulinin yeni simvolu olacağına inanırıq. Xüsusən də axşam vaxtı işıqlandırma effektləri ilə hər tərəfdən görünəcək. Muzey 6 əsas zaldan ibarət olacaq. Hər zal bir mövzuya həsr olunacaq, Füzulinin və Qarabağın strateji əhəmiyyətindən bəhs edəcək. Muzeyin alt qatında erməni işğalçıları tərəfindən qurulmuş istehkamlar təqdim olunacaq. Bununla yanaşı, Füzulini azad edərkən bizim hərbçilərimizin mükəmməl qurduğu strategiyaya həsr olunmuş bir zal da olacaq. Həmçinin Füzuli işğaldan azad olunduqdan sonra onun görkəmi, bugünkü vəziyyəti və təbii ki, şəhidlərimizin xatirəsinə həsr olunmuş ayrıca bir ekspozisiya da təşkil olunacaq. Muzey böyük bir parkda yerləşəcək. Parkda, həmçinin Zəfər abidəsi qurulacaq. İcazənizlə, abidənin müəllifi Rəşad Mehdiyevi təqdim edim.

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə.

**Rəşad Mehdiyev:** Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, mənim əsərimə dəyər verdiyinizə görə Sizə təşəkkür edirəm. Bu abidə üç hissədən ibarətdir. Podium, sonra lövhə və sütunlar. Lövhədə Füzulidə ağır döyüşlərdə qəhrəmancasına həlak olmuş igidlərin adları əks olunacaq. Abidənin davamında 44 sütun olacaq ki, ümumi 44 simvolunu əks etdirəcək.

**Prezident İlham Əliyev:** Səmadan da görsənəcək?

**Rəşad Mehdiyev:** Yuxarıdan da, bütün hər tərəfdən görsənəcək. Orada elə bir instalyasiya yaranacaq ki, bu 44 simvolu havada kimi görünsün.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Çox təsirli əsərdir. Bu dağıntılar açıq səma altında da olacaq.

**Anar Quliyev:** Bəli, növbəti hissədə Zəfər parkı ilə yanaşı 5 hektarda İşğal muzeyi və park təşkil ediləcək. Dağıntılar bu gün həmin ərazidədir, olduğu kimi konservasiya olunub saxlanılacaq.

**Prezident İlham Əliyev:** Azad edilmiş hər bir şəhərdə biz belə bir yer saxlayırıq, dağıntılar qalsın ki, camaat görsün, gənclər görsün, xarici qonaqlar gəlib görsünlər.

**Sakinlər:** Qarabağ bölgəsi həm abidələri ilə məşhurdur, həm də kəhrizləri ilə məşhur olub. Böyük mədəniyyətdir. Ümumiyyətlə, kəhriz mədəniyyətinin Qarabağda çox böyük şəbəkəsi var. Bizim kənddə Şah Abbas tərəfindən vurulmuş kəhriz var idi.

**Prezident İlham Əliyev:** Hansı kənddir sizinki?

**Sakinlər:** Qarğabazar.

**Prezident İlham Əliyev:** Bəli, Qarğabazar məşhur kənddir. O, azad olunanda biz çox sevinirdik. Çünki o, böyük kənddir.

**Sakin:** O, azad olunanda o qədər ağladım ki... Ən qədim məktəb də oradadır.

**Prezident İlham Əliyev:** Kəhrizlər baş planda nəzərdə tutulur?

**Anar Quliyev:** Həm bulaqlar var burada, cənab Prezident, bəziləri artıq açılıb və müayinə olunub.

**Prezident İlham Əliyev:** Əlbəttə, bunu nəzərə alın.

**Anar Quliyev:** Kəhrizlərə də mütləq bir-bir baxacağıq.

**Prezident İlham Əliyev:** Ümumiyyətlə, inşaat zamanı gərək Füzuli ictimaiyyəti ilə siz sıx əlaqədə olasınız, həm burada, həm də Bakıda. Bu müzakirədə də onlar iştirak etsinlər.

**Qadın sakin:** Cənab Prezident, mən də Sizi salamlayıram, öz evinizdə salamlayıram, hamımız bir yerdə. Deyilən bütün sözlərin hamısına mən də şərikəm. Bu illər ərzində Siz bütün övladlarımızı, keçmiş məcburi köçkün uşaqlarının hamısını oxutmusunuz. Çünki onların təhsil haqqını dövlət ödəyib. Hər il bizim 500-600 şagirdimiz ali məktəblərə qəbul olur. Ulu Öndər təməlini qoydu və bu gün də Siz onu davam etdirirsiniz.

**Sakinlər:** Allah Ulu Öndərimizə rəhmət eləsin.

**Digər qadın sakin:** Mən də cənab Prezident, Sizi salamlayıram öz doğma evinizdə. Yaralılar birinci bizə - Sizin Sərəncamınızla tikilən Müalicə Diaqnostika Mərkəzinə, mərkəzi xəstəxanalara gəlirdilər. Azərbaycanın həkimləri, professorları, alimləri bizi tək qoymadılar, biz Füzuli həkimlərinə birinci gündən köməyə gəldilər. Bu könüllü proses bizim ürəyimizi dağa döndərdi, riqqətə gətirdi. Yəni, əsgərlərə qulluq etməyimizə, onlara yardım göstərməyimizə çox kömək oldular. Biz onların təcrübəsini öyrəndik. Yəni, hər bir əsgərin, - mən indi hörmətli Mehriban xanıma da söylədim, - sinəsində, ürəyinin başında Azərbaycan bayrağı var idi. Hamısı istəyirdi ki, o şərəfli bayrağı aparıb Şuşada ucaltsın. Bu, bizi daha da riqqətə gətirirdi. Biz həkimlər bütün günü onların qayğısına qalırdıq, onlara qardaş kimi, övlad kimi kömək göstərirdik, xidmət edirdik. Bu Zəfəri, bu Qələbəni bizə yaşatdığınıza görə Sizə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Mən sizə, bütün həkimlərə təşəkkür edirəm. Sağ olun.

**Qadın sakin:** Mən çox fəxr edirəm ki, biz azərbaycanlıyıq, bizim dünya miqyasında olan hörmətimizi Siz daha da ucaltdınız. Sizin sayənizdə biz bundan sonra həmişə başıuca gəzəcəyik. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Təşəkkür edirəm.

**Sakin:** Cənab Prezident, mən tez-tez BMT-nin baş ofisində tədbirlərə qatılıram. Mən Sizin orada ilk gündən çıxışlarınızı qürurla izləmişəm. Yəni, o duruşunuzla, o qamətinizlə bu 44 gündə də o mesajları dünyaya verdiniz. Sizin o mesajlarınız ölkəmizi beynəlxalq aləmdə bir daha tanıtdırdı. Həm də ölkəmizlə bağlı çox böyük bir təbliğat getdi. Yəni, Siz 30-dan çox müsahibə verdiniz.

**Prezident İlham Əliyev:** Ermənilər artıq uzun illər bizim haqqımızda olmazın yalanlarını uydururdular, öz şəbəkələri vasitəsilə də bunu yayırdılar. Bizim beynəlxalq mediaya çıxmağa o dərəcədə imkanımız yox idi. Ona görə bu imkandan istifadə etdik və müharibə dövründə hiss olunurdu ki, fikir daha çox reallığa əsaslanır.

**Sakin:** Cənab Prezident, Siz bizim xilaskarımızsınız. Bütün gənclərdən tutmuş mənim kimi yaşlı insanlara qədər Sizi xilaskar bilirik.

**Prezident İlham Əliyev:** Mənim borcum idi, vəzifəm idi. Həmişə hiss edirdim ki, xalq arxamdadır. Mənə güc, inam verən o idi. Bizi Qələbəyə aparan ürəyimizdəki inam oldu.

**Sakin:** Cənab Prezident, mən üç əsas faktı qeyd etmək istəyirəm – birincisi, o "Dəmir yumruq" siyasətiniz, ikincisi, xalqın Sizin ətrafınızda möhkəm birləşməsi, üçüncüsü, şanlı Ordumuzun Qələbəsi. Ordumuzun bu şanlı Qələbəsinin özülü 1993-cü ildə qoyulmuşdur.

**Prezident İlham Əliyev:** Ordu məsələləri həmişə birinci sırada idi mənim üçün. Ona görə təsadüfi deyil ki, bizim dövlət büdcəmizdə həmişə birinci xərclər həcminə görə ordu xərcləri idi. Bəli, görülmüş işlərlə bağlı ictimaiyyətə vaxtaşırı məlumat verilirdi, paradlar keçirilirdi, mənim müxtəlif görüşlərim

işıqlandırılırdı. Amma biz görülmüş bütün işləri təqdim edə bilmirdik. Çünki bunlar, əlbəttə, məxfi xarakter daşıyırdı. Amma müharibə zamanı göstərdik.

**Futbolçu:** Hamımız təşəkkür edirik. Hamımız çalışırdıq xidmət edək, hərbçi kimi olmasa da, idmançı kimi çalışdıq ki, Qarabağa xidmət edək. Biz beynəlxalq oyunlarda həmişə bir az məğlub kimi idik, amma indi fərqli çıxış etməyə çalışırıq.

**Prezident İlham Əliyev:** Əlbəttə, artıq biz bundan sonra qalib xalq kimi əbədi yaşayacağıq.

**Anar Quliyev:** Cənab Prezident, Füzuli şəhərinin işğaldan əvvəl məskunlaşma ərazisi bu xəritədə tünd rənglə göstərilib. İndi artıq 397 hektar təşkil edir. Yeni baş plana görə artıq bu sarı rənglərlə göstərilmiş ərazi, o cümlədən hava limanı daxil olmaqla, 1936 hektar təşkil edəcək. Şəhər, ümumiyyətlə, 50 min nəfər üçün planlaşdırılır. Yəni, hesabat dövrünə - 2040-cı ilə 50 min nəfərlik şəhər olacaq.

**Prezident İlham Əliyev:** Torpaq da yaxşı, münbit torpaqdır. İndi aparılan şum, səpin, əkin o məqsədi güdür ki, vaxt itirməyək, bu torpağı artıq diriliyə gətirək. Ona görə camaat qayıdandan sonra əlbəttə ki, yenidən bölgü aparılacaq. Bir də ki, burada həyətyanı torpaqlar da nəzərdə tutulur, mənə məruzə edildi. Kəndlərdə hər bir evin təqribən ən azı 12 sot torpağı olacaq.

**Anar Quliyev:** "Ağıllı şəhər" yanaşması təbii ki, burada həm ağıllı idarəetməni, həm də müasir texnologiya üzrə peşəkar kadrlar hazırlanmasını nəzərdə tutur. Ağıllı cəmiyyət, sağlam ətraf mühit, həyat tərzi, nəqliyyat və rabitə, rəqəmsal əsaslı şəbəkələr qlobal miqyasda yeni yanaşmadır. Çalışacağıq burada sağlam ətraf mühit, parklar, çoxlu yaşıllıq olsun.

**Prezident İlham Əliyev:** Burada ictimai zonalar - gəzinti, velosiped yolları çox olacaq.

**Anar Quliyev:** Bəli, cənab Prezident. Burada az və ortamərtəbəli çoxmənzilli binalar inşa ediləcək. Daha sonra həyətyanı bağ sahələri olan fərdi evlər tikiləcək. Şimal hissədən nəqliyyat dəhlizi, avtomobil yolları, dəmir yolları çəkiləcək, aeroport artıq tikilib. Ona görə yaşayış hissəsini biz şəhərin sol tərəfinə daha çox yerləşdirdik və aeroporta yaxın ərazilər daha çox məşğulluq yerləri olacaq. Burada sənaye parkı, logistika parkı var. Şəhərdə, həmçinin ekopark yaradılacaq. Şəhər ətrafında çox böyük ərazidə meşə zolaqları da olacaq. Avtovağzal, dəmir yolu vağzalı şəhərin girəcəyində yerləşəcək. Gələcəkdə böyük bir idman zonasının yaradılması, stadionun tikilməsi planlaşdırılır.

Məşğulluğa gəldikdə burada nəqliyyat-logistika əsas sahə olacaq. Əsasən sənaye, yüngül sənaye və təbii ki, turizm.

**Sakin:** Cənab Prezident 500-dən artıq iş yeri yaradılıb.

**Prezident İlham Əliyev:** Daimi?

**Sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Bu işlərə Füzulidən olan gənclər, insanlar cəlb edilsin.

**Anar Quliyev:** Avtomobil yolları 46 kilometr təşkil edəcək. Piyada, velosiped yolları 85 kilometr. Məsələn, avtomobil yolları tamamilə ayrılacaq, ayrıca zolaqla ancaq piyada, velosipedlə hərəkət üçün şərait təmin olunacaq.

**Prezident İlham Əliyev:** Ekoloji, təmiz şəhər nəqliyyatı.

**Anar Quliyev:** Bəli, bu, prioritetlərimizdən birincisidir.

**Prezident İlham Əliyev:** İndi böyük xəstəxananın layihəsi hazırlanır. Yaxın həftələrdə mənə təqdim ediləcək.

**İdmançı:** İnşallah, Füzulidə böyük idman kompleksləri olacaq.

**Prezident İlham Əliyev:** Sözsüz. Olimpiya İdman Kompleksi mütləq yaradılacaq.

**İdmançı:** Çox təşəkkür edirik, sağ olun.

**X X X**

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının təməl daşını qoyublar.

**X X X**

Sonda xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**
**2021, 18 oktyabr**

**Adil Əliyev: Füzulinin işğaldan azad edilməsi Vətən müharibəsində yeni mərhələnin başlanğıcı oldu**

Oktyabrın 17-də xalqımız Füzuli rayonunun işğaldan azad olunmasının birinci ildönümünü qeyd edib.

Bu tarixi günə nəzər salarkən, deyə bilərik ki, Füzulinin işğaldan azad olunması bir sıra əlamətdar xüsusiyyətlərə malikdir. Çünki bu rayon Hadrut və Cəbrayıldan sonra işğaldan azad edilmiş üçüncü böyük yaşayış məntəqəsi olmaqla yanaşı, həm də ermənilərin məğlubedilməzliyi barədə yaradılmış mifin mərkəzində dayanan Ohanyan səddinin keçdiyi və bir neçə cərgə güclü istehkam və müdafiə xətlərinin olduğu bir ərazi idi. Məhz bu səbəbdən də Füzulinin işğaldan azad olunması erməni ordusunun sıralarında fərariliyin və ruh düşkünlüyünün vüsət almasına səbəb oldu və Azərbaycan Ordusunun daha da qətiyyətlə irəliləməsi ilə nəticələndi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev deyib.

O bildirib ki, Füzulinin işğaldan azad edilməsindən danışarkən, bir simvolik məqama da diqqət yetirilməlidir. Belə ki, bu rayonun Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə azad edilməsini ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ilin dekabrı və 1994-cü ilin yanvarında həyata keçirilmiş uğurlu Horadiz əməliyyatının məntiqi davamı hesab etmək olar. Yeri gəlmişkən, Horadiz qəsəbəsinə şəhər statusu verilib və işğal dövründə bu qəsəbə qeyri-rəsmi olaraq Füzuli rayonunun mərkəzi olub.

“Füzulinin azad edilməsi ilə Azərbaycan Ordusunun Şuşaya və digər işğal altında olan torpaqlara doğru böyük zəfər yürüşünün yeni mərhələsi başladı. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Füzuli-Şuşa yolunu Zəfər yolu adlandırıb. Bu Zəfər yolunun tikintisi Azərbaycanın Qarabağda və işğaldan azad edilmiş digər ərazilərimizdə başladığı sürətli və geniş vüsətli bərpa, yenidənqurma və nəhəng tikinti işlərinin ilk müjdəçisi oldu. Belə bir çətin şəraitdə, sıx minalanmış ərazilərdə və keçilməz dağlıq relyefdə bu yolun bir il ərzində inşa edilməsi Azərbaycan dövlətinin qüdrətinin göstəricisidir. Eyni zamanda, cəmi 8 ay ərzində Füzulidə müasir standartlara uyğun və böyük təyyarələri qəbul etməyə imkan verən beynəlxalq hava limanının tikintisi isə dünya təcrübəsində nadir hadisə hesab oluna bilər. Artıq Füzulinin azad olunmasından keçən 1 ildə görülən bu nəhəng işlər bu ərazinin tezliklə regionun aparıcı rayonlarından birinə çevriləcəyinə şübhə yeri qoymur”, - deyə Milli Məclis sədrinin müavini vurğulayıb.

A.Əliyevin sözlərinə görə, Füzuli həm də o səbəbdən önəmlidir ki, bu bölgənin işğaldan azad olunması ilə Azərbaycan özünün cənub sərhədlərinə də nəzarəti tam bərpa etdi və bu da ölkəmizin müstəqilliyinin əsas atributlarından biri kimi dəyərləndirilməlidir.

**AZƏRTAC**
**2021, 19 oktyabr**

**Qazaxıstanın rəsmi informasiya agentliyi Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini işıqlandırıb**

Qazaxıstanın “Kazinform” informasiya agentliyi Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini işıqlandırıb.

AZƏRTAC-a istinadən agentlik bildirib ki, Füzuli Beynəlxalq Hava Limanının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər.

Xəbərdə qeyd edilib ki, Azərbaycan və Türkiyə prezidentləri hava limanının açılışını bildirən lenti kəsiblər. Prezidentlərə Füzuli Beynəlxalq Aeroportunun rəmzi açarları təqdim olunub və dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.

İlahə Əhmədova
AZƏRTAC-ın xüsusi müxbiri
Nur-Sultan

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Vüqar Rəhimzadə: Qarabağın hava qapısının iki dost ölkənin liderlərinin iştirakı ilə açılışı dünyaya ünvanlanan növbəti qardaşlıq nümunəsidir**

Qarabağın hava qapısının iki dost ölkənin liderlərinin iştirakı ilə açılışı dünyaya ünvanlanan növbəti qardaşlıq nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bunu Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

O, bu gün dünyanın diqqət mərkəzində olan Türkiyə-Azərbaycan dostluğundan, qardaşlığından bəhs edərək bildirib ki, iki dost, qardaş ölkəni biri-birinə tarixi köklər bağlayır. Türkiyə ilə Azərbaycan hər zaman bir-birinin yanında olduqlarını istər sevincli, istərsə də kədərli anlarında təsdiqləyirlər Böyük öndər Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, ümummilli lider Heydər Əliyevin “Bir millət, iki dövlət” tezisləri bütün dövrlər üçün öz aktuallığını qorumaqla yanaşı, perspektivlərin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Bu gün həmin siyasət Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən uğurla davam etdirilir. Dünyaya nümunə olan bu birlik və həmrəylik 44 günlük İkinci Qarabağ savaşında özünü bir daha göstərdi. Dünyaya “Azərbaycan tək deyil!” mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan siyasi və mənəvi dəstəyi ilə Azərbaycanın, dövlətimizin başçısı İlham Əliyevin yanında oldu.

V.Rəhimzadə qeyd edib ki, Zəfər yürüşümüzün başlandığı andan bu günədək hadisələrin xronologiyasına diqqət yetirdikdə Türkiyənin Qələbəmizi bizimlə birgə yaşadığı, hər bir tarixi hadisənin reallaşdığı zaman Prezident İlham Əliyevin yanında olduğu özünü qabarıq şəkildə büruzə verir. Azərbaycanın Qələbəsinin dünyaya təqdimatında əhəmiyyətli rol oynayan Zəfər paradının keçirilməsindən bu günə, yəni, Qarabağın dünyaya açılan hava qapısı kimi dəyərləndirilən Füzuli Beynəlxalq Hava Limanının açılışına qədər iki dahi lider bütün dünyaya dostluq, qardaşlıq nümunəsini nümayiş etdirirlər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan işğaldan azad edilmiş ərazilərimizə, Qarabağın tacı, musiqi beşiyimiz Şuşaya ilk səfər edən dövlət başçısıdır. Oktyabrın 26-da bu ənənə davam etdirilərək ilk olaraq Füzuli Beynəlxalq Hava Limanına qardaş ölkənin təyyarəsinin enişi, ən əsası Türkiyə Prezidentinin aeroportun açılış mərasiminə qatılması qürurvericidir. 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Türkiyə Prezidentinin çıxışında səsləndirdiyi bu fikirləri yada salmaq istərdim: “Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir”.

“Oktyabrın 26-da Türkiyə Prezidentinin iştirakı ilə keçirilən möhtəşəm tədbir dostluğumuzun, qardaşlığımızın dünyaya növbəti mesajı oldu”, - deyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, bu mühüm hadisə, həmçinin Rəcəb Tayyib Ərdoğanın Zəfər paradında söylədiyi fikirlərin reallıqda təsdiqidir: “İşğaldan azad edilmiş ərazilərimizdə ilk mühüm, iqtisadi və strateji əhəmiyyəti ilə dünyanın diqqətində olan Füzuli Beynəlxalq Hava Limanının azərbaycanlı və türk mühəndislərinin birgə səyləri nəticəsində tikilib istifadəyə verilməsi bu tipli layihələrin davamlılığından xəbər verir. Şuşanın şahidlik etdiyi, iki dövlətin müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsində perspektivlər öz əksini tapıb. Qardaş ölkənin Prezidentinin Qarabağımıza növbəti səfəri Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlinin qoyulması ilə də tarixə yazıldı. Yazılan hər bir tarix qardaşlığımızın, dostluğumuzun təqdimatı, dünyaya ünvanlanan birlik, həmrəylik nümunəsidir. Rəcəb Tayyib Ərdoğanın ötən il Zəfər paradında iştirakla bağlı səfəri çərçivəsində imzalanan sənədlərlə bağlı qeyd etdiyi kimi, atılacaq daha çox imzalar var”.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Füzuli aeroportuna ilk xarici uçuşun Türkiyə Prezidenti tərəfindən həyata keçirilməsi Azərbaycan üçün tarixi əhəmiyyət daşıyır**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak etməsi və aeroporta ilk xarici səfərin qardaş ölkə tərəfindən gerçəkləşməsi Azərbaycan üçün böyük tarixi əhəmiyyət daşıyır. Həmçinin Türkiyə də bu tarixi hadisədə əsas rollardan birini oynadı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri region dövlətlərinə bir mesaj idi. Bu səfər, ilk növbədə, Azərbaycan və Türkiyənin birlikdə olduğunu nümayiş etdirdi. Bu, eyni zamanda, Azərbaycanın Türkiyəyə yönələn vəfa davranışıdır. Çünki 44 günlük savaşda müddətində Azərbaycana ən çox mənəvi dəstək verən ölkə Türkiyə idi.

Bunu AZƏRTAC-a açıqlamasında Böyük Qurtuluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa bildirib.

Fazil Mustafa deyib: “Azərbaycanın quruculuq işlərində, bölgənin dirçəlməsində önəm verdiyi əsas ölkənin yenə də Türkiyə olduğunu göstərməsi baxımından bu səfər olduqca mühümdür. Digər tərəfdən, həm də Zəngilanda “Ağıllı şəhər” və “Ağıllı kənd” layihələrinin həyata keçirilməsi, Türkiyə şirkətlərinin bu proseslərdə iştirakı münasibətlərin çoxşaxəli olmasının əyani sübutudur. Türkiyənin işğaldan azad olmuş ərazilərimizdə infrastrukturun qurulmasında, yol tikintisində önəmli rol alması onu göstərir ki, bölgədə əsas hərbi təhlükəsizlik, siyasi birlik baxımından yaxınlıqdan əlavə, həm də iqtisadi cəhətdən birlikdə koordinasiyalı şəkildə addımlar atılır. Bu istiqamətdə atılan addımlar Türkiyənin işğaldan azad edilmiş ərazilərimizin yenidən canlanmasında böyük rolu olacağını göstərir. Bu, həm də Zəngəzur dəhlizinin açılmasına yönələn ilk addımıdır”.

Deputat qeyd edib ki, Füzuli Beynəlxalq Hava Limanı bütövlükdə bölgə üçün çox böyük əhəmiyyət daşıyır. Kommunikasiyaların açılması və işğaldan azad olunmuş ərazilərin yenidən qurulması Türkiyənin özü üçün də çox faydalı olacaq. Çünki bölgədə bilavasitə məsafənin yaxınlaşması və xüsusilə Azərbaycanın Qarabağla bağlı layihələrinin həyata keçirilməsinin asanlaşması baxımından bu, olduqca faydalı addımdır. Qısa müddətdə, 8 ay ərzində Azərbaycan minalanmış ərazini təmizləyərək Füzuli Beynəlxalq Hava Limanını inşa etməklə həm də öz gücünü göstərdi. Şuşa Bəyannaməsindən sonra bu, Türkiyənin atdığı çox önəmli diplomatik addımdır. Bu, hər bir dosta, hər bir düşmənə , hər bir bədxaha da çağırışdır ki, Azərbaycan tək deyil. Azərbaycan Türkiyə ilə bundan sonra da bütün prosesləri uğurla irəli aparacaq.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Hulusi Kılıç: İki qardaş liderin Füzuli aeroportunu birlikdə açması həmrəyliyin nümayişidir**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycana səfəri və Prezident İlham Əliyevlə birlikdə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirakı bütün dünyaya verilən birlik və qardaşlıq mesajıdır. Azərbaycan böyük Zəfərin ildönümü ərəfəsində Füzuli Beynəlxalq Hava Limanını istifadəyə verməklə nələrə qadir olduğunu hər kəsə aşkar şəkildə göstərdi. Qırx dörd günlük ağır müharibədən çıxan Azərbaycan işğaldan azad etdiyi ərazilərdə bir il ərzində gördüyü işlərlə bütün dünyaya quruculuq, yenidənqurma mədəniyyəti göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirib.

Füzuli Beynəlxalq Hava Limanının Avrasiya məkanında xüsusi əhəmiyyətə malik ərazidə yerləşdiyini, buranın tezliklə bütün türk dünyası üçün səmərəli aviasiya mərkəzinə çevriləcəyindən əminliyini bildirən Hulusi Kılıç deyib: “Prezident İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Füzuli Beynəlxalq Hava Limanının açılışına dəvət etməsi özündə təkcə dostluq və qardaşlıq nümunəsini deyil, eyni zamanda, ölkələrimiz və xalqlarımızın möhkəm birliyini nümayiş etdirir. Bu birliyin təməlində mənəvi dəyərlər və tarixi köklər dayanır”.

İki qardaş liderin Füzuli Beynəlxalq Hava Limanını birlikdə açmasını bütün dünyaya həmrəyliyin nümayişi kimi qiymətləndirən səfir Hulusi Kılıç deyib: Prezident Rəcəb Tayyib Ərdoğanı müşayiət edən Türkiyə nümayəndə heyətinin tərkibi onu deməyə əsas verir ki, Azərbaycan işğaldan azad olunan ərazilərində, sözün əsl mənasında, xariqələr yaratmaqda davam edəcək və Türkiyə hər zaman olduğu kimi, bütün bu prosesdə də qardaşı ilə çiyin-çiyinə olacaq”.

Sabir Şahtaxtı
AZƏRTAC-ın xüsusi müxbiri
Ankara

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Deputat: Türkiyə Prezidentinin Füzuliyə səfəri dünyaya verilən daha bir qardaşlıq mesajıdır**

Füzuli Beynəlxalq Hava Limanının rəsmi açılış mərasimində iştirak üçün qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərə gəlməsi tarixi hadisədir. Bu səfər bir daha Azərbaycan-Türkiyə qardaşlığının, birliyinin göstəricisidir. Məlum olduğu kimi, Füzuli Beynəlxalq Hava Limanı qısa zaman ərzində, cəmi 8 aya inşa edilib. Bu hava limanının regionun inkişafında mühüm rolu olacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Cavid Osmanov söyləyib.

Deputat vurğulayıb ki, qardaş Türkiyə hər zaman Azərbaycanın yanındadır. Vətən müharibəsi başalayan ilk saatlardan da biz Türkiyə dövlətinin, şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın siyasi dəstəyinin şahidi olduq. Bu, artıq Prezident Rəcəb Tayyib Ərdoğanın Füzuliyə ikinci səfəridir. İlk səfəri zamanı Füzuli rayonunda olan qardaş ölkənin başçısı Şuşa şəhərinə getmiş orada tarixi sənəd olan Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi imzalanmışdı. Hər iki səfər öz siyasi və tarixi əhəmiyyəti ilə seçilir. Bugünkü səfər isə özlüyündə bir ilkə imza atmağın göstəricisidir.

Qardaş ölkənin Prezidenti təyyarə ilə məhz Füzuli Beynəlxalq Hava Limanına endi və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qarşılandı. Prezidentlər hava limanının rəsmi açılışını bildirən qırmızı lenti kəsdilər. Bütün bunlar dünyaya verilən qardaşlıq, birlik, həmrəylik mesajlarıdır. Eyni zamanda, bu Azərbaycan dövlətinin gücünün, sülh və təhlükəsizliyin bərqərar olmasında maraqlı olduğunun göstəriciləri hesab edilməlidir.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi Türkiyə telekanallarında canlı yayımlanıb**

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfəri qardaş ölkənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC verir ki, "TRT Haber", "Haber Global" telekanalları Prezident Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanında qarşılanma mərasimini və aeroportun açılışını canlı yayımlayıb.

Səfərin əhəmiyyəti və vacibliyini xüsusi qeyd edən Anadolu agentliyinin xəbərləri ölkənin əsas media qurumları tərəfindən geniş yayılıb.

İnformasiyalarda diqqətə çatdırılıb ki, Füzuli Beynəlxalq Hava Limanına səfər edən ilk xarici dövlət başçısı Rəcəb Tayyib Ərdoğanı Azərbaycan Prezidenti İlham Əliyev qarşılayıb və liderlər səmimi görüşləri ilə bütün dünyaya növbəti dəfə qardaşlıq mesajı veriblər.

Sabir Şahtaxtı
AZƏRTAC-ın xüsusi müxbiri
Ankara

**AZƏRTAC**
**2021, 26 oktyabr**

**Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub**
**Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər**
*(26 oktyabr 2021-ci il)*

Oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər.

Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular.

AZAL-ın prezidenti Cahangir Əsgərov dövlət başçılarına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

O da qeyd olundu ki, hazırda Zəngilan və Laçında beynəlxalq hava limanları tikilir və onların inşası ilə regionun nəqliyyat imkanları daha da genişləndiriləcək.

Daha sonra dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə məlumat verildi. “Cocuq Mərcanlının İnkişafı” Fondu, “TÜİB” və “TİKA”nın maliyyə dəstəyi ilə yaradılacaq müəssisədə Cocuq Mərcanlı kəndinin 25 sakini işlə təmin olunacaq. Burada hədiyyəlik saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər məhsullar istehsal ediləcək. Müəssisənin tikintisinə dövlət də öz dəstəyini verib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin operatorluğu ilə şirkət təsis olunub, istehsal avadanlıqları alınıb və istehsalın təşkili üçün Türkiyədən mütəxəssislər cəlb edilib. Bundan əlavə, “TİKA”nın dəstəyi ilə 15 istixana yaradılıb. 15 ailənin çalışdığı istixanalarda lavanda və bibəriyyə bitkiləri, tərəvəz yetişdiriləcək.

Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, nəinki Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

Daha sonra dövlət başçıları söhbət etdilər.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm. Yaxından çəkin. Əziz qardaşım mənə bu gözəl saatları hədiyyə edib. “Xarıbülbül” təsviri də üstündə.

**Prezident Rəcəb Tayyib Ərdoğan**: Şuşaya gəlmişdik. Buradan Şuşa yaxındır. “Xarıbülbül” də Şuşanın simvoludur.

**Prezident İlham Əliyev:** Bəli, çox sağ olun, təşəkkür edirəm.

**AZƏRTAC**
**2021, 26 oktyabr**

## Səttar Möhbalıyev: Füzuli Beynəlxalq Hava Limanının açılması Qələbəmizin davamıdır

Müzəffər Ali Baş Komandanın qətiyyətli siyasəti, Azərbaycan xalqının sarsılmaz birliyi və yenilməz Ordumuzun qəhrəmanlığı sayəsində qazandığımız parlaq Qələbə bizi növbəti uğurlara daşımaqdadır. Vaxtilə utopik görünən arzularımız indi realdır. İşğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işləri sürətlə və keyfiyyətli şəkildə davam etdirilir. Artıq bir sıra iri layihələrin icrası tamamlanıb. Ötən gün Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanının açılmasına bütün dünya şahid oldu. Qısa müddətdə - cəmi 8 ay ərzində müasir tələblərə tam cavab verən belə bir aeroportun inşa edilməsi dövlətimizin dayanıqlı iqtisadi qüdrətinin bariz nümunəsidir. Bu hava limanı bölgəni nəqliyyat-logistika mərkəzinə çevirəcək, turizm potensialını artıracaq, iqtisadi inkişafına təkan verəcək.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev söyləyib.

Qarabağda beynəlxalq aeroportun inşa edilməsinin Vətən müharibəsində qazandığımız Qələbənin uğurlu nəticələrindən olduğunu vurğulayan AHİK-in sədri deyib: “Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılış mərasimində iştirak etməsi bu hadisənin nə qədər əhəmiyyətli və tarixi xarakter daşıdığını göstərir. Türkiyə və Azərbaycan hər zaman bir-birinin yanında olub. Bu gün qardaş ölkə ilə bütün sahələrdə əlaqələr davamlı yüksələn xətt üzrə inkişaf edir, keyfiyyətcə yeni müstəviyə keçməkdədir. Vətən müharibəsi başlayan ilk saatlardan Türkiyə Prezidenti Azərbaycanla həmrəyliyini ifadə etdi. Bu, Azərbaycanın haqq işinə müdaxilə etmək iddiasında olan Ermənistanın havadarlarına bir mesaj idi. Qardaş ölkənin bütün dövlət strukturları Azərbaycanın Qələbəsi üçün bütün sahələrdə böyük əzmkarlıq göstərdilər, beynəlxalq təzyiqlərə baxmayaraq, qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədilər. Ötən gün baş tutan açılış mərasimində qardaş ölkənin liderinin iştirak etməsi bu həmrəyliyin məntiqi davamıdır”.

Milli Məclisin deputatı bildirib ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Zəngəzur dəhlizi - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu bölgə ilə yanaşı, bütün region ölkələri üçün əhəmiyyətli olacaq, iqtisadi əlaqələrin inkişafına mühüm töhfələr verəcək.

**AZƏRTAC**
**2021, 27 oktyabr**

**Ukrayna mətbuatında Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi barədə məqalələr dərc edilib**

Ukraynanın nüfuzlu informasiya agentlikləri və portalları Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimindən məqalələr dərc ediblər.

AZƏRTAC xəbər verir ki, “Ukrinform”, “RBC-Ukrayna” informasiya agentlikləri, Azadlıq radiosunun Ukrayna Redaksiyası, “Lb.ua”, “koresspontent.net”, “unn.ua” və digər portallarında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimindəki iştirakı barədə materiallar verilib.

Oxuculara təqdim olunan materiallarda Azərbaycan və Türkiyə prezidentlərinə Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarlarının təqdim olunması barədə məlumatlar yer alır. Həmçinin vurğulanır ki, Azərbaycan 44 günlük müharibədən sonra 8 ay ərzində Füzuli Beynəlxalq Aeroportunu tikərək təhvil verib.

Məqalələrdə aeroportun göstəriciləri barədə ətraflı məlumat yer alıb.

Emil Hüseynli
AZƏRTAC-ın xüsusi müxbiri
Kiyev

**AZƏRTAC**
**2021, 27 oktyabr**

**Akkan Suver: İki qardaş liderin Füzuli aeroportunu birlikdə açması türk dünyasının birliyi baxımından xüsusi əhəmiyyət daşıyır**

İşğaldan azad olunan Füzulidə çox qısa zamanda inşa edilən yeni hava limanına enən ilk xarici təyyarənin məhz Türkiyəyə məxsus olması, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuliyə gəlməsi Türkiyə-Azərbaycan münasibətlərinin növbəti qardaşlıq nümunələrindən biridir.

Bunu AZƏRTAC-a açıqlamasında "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suver bildirib.

İki qardaş ölkə liderinin hava limanının açılışını bərabər etməsinin türk dünyasının birliyi baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayan professor deyib: "Bu tarixi görüntülər birliyimizin, həmrəyliyimizin misli görülməyən, qürurverici nümunələrindəndir. Füzuli Beynəlxalq Hava Limanının açılışı ilə yanaşı, uzun illər ermənilər tərəfindən dağıdılaraq viran qoyulan Qarabağın müxtəlif bölgələrində yeni layihələrin təməllərinin bərabər qoyulması ölkələrimiz, eyni zamanda, bölgə üçün çox mühüm hadisədir. Zəngəzur dəhlizi tarixi salamlamaq üzrədir ki, bu da ölkələrimizlə yanaşı, regionun inkişafına töhfə verəcək.

Türkiyə Prezidentinin Azərbaycana bu səfəri birliyimizin yeni və daha iri addımlarla irəliləməsinin daha bir nümunəsidir".

Günel Məlikova
AZƏRTAC-ın xüsusi müxbiri
İstanbul

**AZƏRTAC**
**2021, 27 oktyabr**

**Jalə Əliyeva: Füzuli aeroportundan dünyaya mesajlar verdik**

2021-ci il oktyabrın 26-sı Azərbaycanın və Türkiyənin, türk dünyasının tarixinə qızıl hərflərlə yazılacaq yeni bir tarix, yeni bir zəfər oldu. Həmin gün yaşanan sevincimizə, zəfərimizə yenə dostlarımız sevindi, düşmənlərimiz kor oldu. Həmin gün Füzuli Beynəlxalq Hava Limanının açılışı, nəinki Azərbaycan, bütövlükdə region üçün böyük əhəmiyyət daşıyacaq, gücə güc, inkişafa inkişaf qatacaq Zəngəzur dəhlizinin təməlinin qoyulması kimi tarixi hadisələr yaşandı. Özü də hər zaman yanımızda olan qardaş Türkiyənin Prezidenti Rəcən Tayyib Ərdoğanın iştirakı ilə.

Torpaqlarımızın işğalına son qoyulmasından, tarixi Zəfərimizin qazanılmasından sonra Prezident Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş torpaqlarımıza ikinci gəlişi dünyaya bir mesaj, həm də birlik, bərabərlik, sarsılmazlıq və həmrəylik nümayişi oldu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, filologiya elmləri doktoru, professor Jalə Əliyeva söyləyib.

Deputat deyib: “Dünya bir daha gördü və eşitdi ki, Azərbaycanla Türkiyə həmrəydir, Azərbaycan-Türkiyə dostluq və qardaşlığı sarsılmazdır, əbədidir. Azərbaycanla Türkiyə iki dövlət, bir millətdir. Azərbaycanın sevinci Türkiyənin sevinci, kədəri isə kədəridir və əksinə. Artıq kədər tarixlərinə də birlikdə son qoyulur, sevincli anlar, sevinc tarixləri birə yazılır və yaşanır”.

“Sizin səfərinizin çox böyük önəmi var. Siz işğaldan azad edilmiş torpaqlara ikinci dəfədir ki, səfər edirsiniz. Dörd ay bundan əvvəl Sizinlə bərabər Şuşa şəhərində olmuşuq, bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu Bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır”, - deyən Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin bəyan etdiyi kimi, Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirak bir daha bizim birliyimizi göstərir, gücümüzü nümayiş etdirir. Bu, Türkiyə ilə Azərbaycanın iki qardaş ölkə kimi hər zaman bir-birinin yanında olduğunun növbəti isbatıdır. Füzuli Beynəlxalq Hava Limanının inşasının cəmi səkkiz ay davam etdi. Bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etdilər. Yəni, bu, bizim birgə uğurumuzdur.

Eyni zamanda, Zəngilan rayonunda birinci özəl sərmayə layihəsinin təməli qoyuldu ki, bu layihə də Türkiyə və Azərbaycanın birgə layihəsidir. Yəni, bu, bir daha onu göstərir ki, bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də biz çiyin-çiyinə bir yerdə irəliləyirik.

“Bəli, Prezident İlham Əliyevin vurğuladığı kimi, Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq. Adətən rəsmi mərasimlər paytaxtlarda keçirilir. Ancaq bu rəsmi mərasimlər bölgədə keçiririk. Həm Şuşada, həm də bu gün Zəngilanda rəsmi mərasimlərin keçirilməsi, Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səslənməsi, atılan birgə addımlar tarixdə əbədi qalacaq. Ölkələrimiz bu tarixi birlikdə yazır, - deyə J.Əliyeva diqqətə çatdırıb.

Deputat deyib ki, həmçinin “Biz İkinci Qarabağ savaşının birinci ildönümünü yaşayırıq. Dünən Qubadlı şəhərinin azad olunmasının birinci ildönümünü qeyd edirdik. İki həftə bundan sonra Şuşanın azad olunmasını qeyd edəcəyik, böyük Zəfər bayramı kimi qeyd edəcəyik”, - söyləyən Ali Baş Komandanımız onu da qeyd etdi ki, İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin elə ilk saatlarında Azərbaycana dəstək göstərdi, bütün dünyaya bəyan etdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu, bizə çox böyük siyasi və mənəvi dəstək, əlavə güc verdi.

Eyni zamanda, dövlətimizin başçısı “Əziz qardaşım, bu gün Azərbaycan xalqı haqlı olaraq Sizə öz təşəkkürünü bildirir. Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz” deyərək bəyan etdi ki, bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Bu, həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik, bizim birliyimiz sarsılmazdır və əbədidir.

Prezident Ərdoğan isə öz növbəsində bəyan etdi ki, növbəti səfər zamanı Azərbaycanın işğaldan azad edilən bölgələrinin qısa müddət ərzində həqiqətən necə dirçəldiyi, necə sürətlə inkişaf etdiyi açıq-aydın göründü. “Bu, hər igidin, hər siyasətçinin işi deyil. Bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq, bu işləri həyata keçirmək, inanıram ki, doğma yurdundan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarım üçün buradan bir müjdə vermək imkanı yaradır. Çünki azərbaycanlı qardaşlarım ayrıldıqları torpaqlara, inanıram ki, ən qısa vaxtda son dərəcə gözəl şəkildə inşa edilən, canlandırılan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər. Burada qarşımızdakı binaya, sol tərəfimizdəki binalara baxırıq. Bu binalar orijinal, tarixi

üslubda son dərəcə gözəl bir şəkildə inşa edilir", - deyən Türkiyə Prezidenti bildirdi ki, Füzulini bir tərəfdən Şuşa, digər tərəfdən cənub sərhədi boyunca Ağbənd, gələcəkdə isə Naxçıvan ilə birləşdirəcək yolların inşası bütövlükdə bölgədə çoxtərəfli daşımaların əsasını təşkil edəcək.

Bütövlükdə görülən işlər həm Azərbaycan, həm də regionumuz üçün qürurverici və ümidvericidir.

Prezident Rəcəb Tayyib Ərdoğan, eyni zamanda, Ermənistana mesajlar da verdi. Dedi ki, qarşı tərəf Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün bir maneə qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək. Dünyanın bu gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək, əlbəttə ki, mümkündür. Bəli, biz yenə birlikdə öz həmrəyliyimizi, sarsılmazlığımızı nümayiş etdirdik, biz yenə birlikdə öz mesajımızı verdik. Söz, addım, seçim isə artıq qarşı tərəfindir. Hansı addım atılacaqsa, anında da ona müvafiq adekvat cavabı, qarşılığı olacaq.

J.Əliyeva, həmçinin vurğulayıb: "Bəli, biz kimsəyə, heç nəyə fikir vermədən birik, bərabərik, birgə Qələbə və Zəfərlərə imza atırıq, bundan sonra da bir olacaq, birlikdə yeni Qələbə və Zəfərlərə imza atacağıq.

Birliyimiz, Qələbə və Zəfərlərimiz mübarək olsun!".

**AZƏRTAC**
**2021, 28 oktyabr**

## Fransa portalı Füzuli Beynəlxalq Hava Limanının açılışından yazıb

Fransanın "Musulmans en France" www.musulmansenfrance.fr xəbər portalında Azərbaycanın yeganə fransızdilli mətbu orqanı "Le Carrefour" (Yol qovşağı) qəzetinin təsisçisi, jurnalist Zeynab Kazımovanın "Füzuli Hava Limanının açılış mərasimi" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılışından söz açan jurnalist mərasimdə prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirak etdiklərini bildirib, bunun Türkiyə Prezidentinin Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsindən sonra Qarabağa ikinci səfəri olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan hava limanının tikintisi işlərini 8 ay ərzində başa çatdırıb. Bu il sentyabrın 5-də aeroportda sınaq uçuşu həyata keçirilib. Xatırladıb ki, Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə bu il iyunun 15-də Şuşa şəhərində Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsi haqqında Şuşa Bəyannaməsini imzalanıb.

Qeyd olunub ki, Azərbaycan və Türkiyə prezidentləri, eyni zamanda, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikinti işlərinin gedişi ilə tanış olub, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməl daşının qoyublar. Yazıda Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər barədə də prezidentlərə məlumat verildiyi vurğulanıb.

Prezidentlərin Zəngilan rayonunun Ağalı kəndində təkbətək görüşünə və mətbuata birgə bəyanatlarına toxunan müəllif Prezident İlham Əliyevin çıxışında Zəngəzur dəhlizi ilə bağlı söylədiyi fikirlərə diqqət çəkib.

Zeynab Kazımova bildirib ki, siyasi şərhçilər Ordumuzun 44 günlük müharibədə Qələbəsindən sonra Türkiyə Prezidentinin Qarabağa ikinci səfərini Azərbaycan-Türkiyə münasibətlərində yeni dövrün başlanğıcı kimi qiymətləndirirlər. Gələn ay Azərbaycanın Türk Şurasına sədrliyini Türkiyəyə təhvil verəcəyini qeyd edən müəllif mətbuat konfransında çıxış edən dövlətimizin başçısından bu sitatı təqdim edib: "Türkdilli dövlətlər arasında əməkdaşlıq və qardaşlıq əlaqələri daha da möhkəmlənəcək, bununla da bütün türk dünyası üçün yeni imkanlar açılacaqdır".

Müəllif yazıb ki, Füzuli Beynəlxalq Hava Limanının açılışı ilə yanaşı, uzun illər ermənilər tərəfindən dağıdılmış Qarabağın müxtəlif bölgələrində yeni layihələrin təməlinin qoyulması həm iki ölkə, həm bölgə, həm də dünyanın digər dövlətləri üçün çox mühüm hadisədir. Zəngəzur dəhlizi təkcə iki ölkə arasında münasibətlərin deyil, həm də regionun inkişafına töhfə verəcək.

Z.Kazımova, həmçinin yazıb ki, Azərbaycan və Türkiyə prezidentlərinin Zəngilanda verdikləri bəyanatlar Şuşada səsləndirilən fikirlərin davamıdır. Onlar regionun sabitliyindən, qonşu dövlətlər, o cümlədən Türkiyə, Azərbaycan, Gürcüstan, Rusiya, İran və təbii ki, Ermənistanla münasibətlərdən danışdılar. Çünki bölgədə yeni vəziyyət yaranıb. Azərbaycan ərazi bütövlüyünü bərpa edib və sülhün bərqərar olmasına çalışır. Bu, Ermənistan üçün də maraqlı olmalıdır. Çünki sülh sazişi çərçivəsində regional əməkdaşlıq, nəhayət, inkişaf edə və Ermənistan bu prosesdə iştirak edə bilər. Ona görə də Ermənistanın Azərbaycanla problemlərini həll etmək üçün səmimi istək nümayiş etdirməsi vacibdir. Türkiyə Prezidentinin vurğuladığı kimi: "Azərbaycan üçün səmimi iradə olarsa, Türkiyənin Ermənistanla münasibətlərinin normallaşmasına heç bir maneə olmayacaq... Bir daha vurğulayıram ki, Türkiyə eyni konstruktiv anlayışla davamlı sülhə doğru hər addımı müsbət atacaq".

Sonda 1991-ci il oktyabrın 18-də Azərbaycanın müstəqilliyini bərpa etməsinə toxunan jurnalist vurğulayıb ki, Fransa ölkəmizin müstəqilliyini tanıyan ikinci ölkə olub. Rəsmi Paris 1992-ci ilin fevralında Bakıda öz səfirliyini açıb. Həmin il martın 2-də isə Azərbaycan müstəqil dövlət kimi Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilib.

**Prezident İlham Əliyev: Füzuli rayonunda Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcək**

Füzuli rayonunda Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı deyib: "Mən Şavkat Miramanoviç Mirziyoyevə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Şəxsən onun təşəbbüsü ilə Füzuli rayonunda Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəb inşa ediləcəkdir. Məktəbin layihəsi bizə təqdim edildi və bu, növbəti həmrəylik, dostluq, qardaşlıq addımıdır və Azərbaycan xalqı bunu çox qiymətləndirir".

**AZƏRTAC**
**2021, 12 noyabr**

**Moldova parlamentinin sədri İqor Qrosu Füzuli və Şuşaya səfər edib**

Fevralın 23-də Moldova parlamentinin sədri İqor Qrosunun rəhbərlik etdiyi nümayəndə heyətinin işğaldan azad olunmuş Füzuli və Şuşa şəhərlərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyətinə Füzulidə ermənilər tərəfindən törədilmiş dağıntılar, dini-mədəni abidələrin yerlə-yeksan edilməsi, həmçinin rayon işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən burada aparılan yenidənqurma işləri, həyata keçirilən layihələr barədə məlumat verilib.

Moldova parlamentinin nümayəndə heyəti Füzulidən sonra Şuşaya səfər edib. Qonaqlar əvvəlcə Şuşa qala divarları ilə tanış olublar. Onlara məlumat verilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Sonra moldovalı parlamentarilər qonaqlar Yuxarı Gövhərağa və Aşağı Gövhərağa məscidlərində olublar. Məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Nümayəndə heyətinin üzvləri Cıdır düzün də olublar. Bildirilib ki, Cıdır düzü dağlar qoynunda yerləşən şəhərin yeganə və ən böyük hamar ərazisidir. Bu səbəbdən ta qədimdən burada Qarabağ igidlərinin cıdır yarışları, çövkən oyunları, Novruz və digər el şənlikləri keçirilib. Cıdır düzü bütün zamanlarda şuşalıların və Şuşaya təşrif buyuran qonaqların ən sevimli məkanı, seyrəngahı olub. Buradan açılan heyrətamiz mənzərə insanı valeh edir.

Daha sonra Vaqifin məqbərəsini ziyarət edilib. Onlara məlumat verilib ki, bütün digər tarixi abidələrimiz kimi, Vaqifin məqbərəsi də erməni vandalizminə məruz qalıb. Məqbərə tam bərpa edilib və 2021-ci ilin avqustunda abidənin açılışı olub.

Moldovalı parlamentarilərin Şuşaya səfəri Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin ziyarət olunması ilə başa çatıb. Muzeyin fəaliyyəti və tarixi barədə qonaqlara məlumat verilib.

Bununla da Moldova parlamentinin sədri İqor Qrosunun rəhbərlik etdiyi nümayəndə heyətinin Füzuli və Şuşaya səfəri başa çatıb.

**AZƏRTAC**
**2022, 23 fevral**

**Hikmət Hacıyev: İşğaldan azad edilmiş Ağdam, Füzuli və Cəbrayıl rayonlarında səhra missiyası həyata keçirilib**

Aİ, BMT və Dünya Bankının birgə "Bərpa və sülh quruculuğunun qiymətləndirilməsi" komandası ilə səmərəli müzakirələr apardıq.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter səhifəsində etdiyi paylaşımda bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, səhra missiyası işğaldan azad edilmiş Ağdam, Füzuli və Cəbrayıl rayonlarında həyata keçirilib. Azərbaycan Hökumətinin münaqişədən sonrakı yenidənqurma gündəliyinin səylərinə beynəlxalq ictimaiyyətin dəstəyi vacibdir.

**AZƏRTAC**
**2022, 16 mart**

**Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin, Şuşada inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub**

*(21 aprel 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Füzuli rayonunda Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri, Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası, Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, işğaldan azad olunmuş ərazilərin bərpasını öz maliyyə imkanları hesabına həyata keçirən Azərbaycan bu sahədə də öz standartlarını yaradıb. Mina problemi, eyni zamanda, pandemiyanın yaratdığı çətinliklərə rəğmən, bərpa və yenidənqurma işləri bütün istiqamətlər üzrə sürətlə və planlı şəkildə aparılır. Su anbarlarının gələcək istismarı, hidroehtiyatların ölkənin su təsərrüfatı sisteminə inteqrasiyası da bərpa prosesinin və Böyük Qayıdışın tərkib hissəsidir.

Prezident İlham Əliyev Köndələnçay su anbarlarında aparılacaq təmir-bərpa işləri ilə tanış oldu.

Bildirildi ki, işğal dövründə on minlərlə hektar əkinəyararlı torpaq sahələrinin suvarılmaması faktiki olaraq bu sahələrin təsərrüfat dövriyyəsindən çıxarılmasına səbəb olub. Mövcud su anbarlarının qəsdən məhv edilməsi isə Ermənistanın Qarabağda aqrar sahədə dağıdıcı fəaliyyətinin nəticəsidir. Köndələnçay su anbarı buna bariz misaldır. Ümumi sistemə daxil olan "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarının bərpası ilə Füzuli rayonu ərazisində 6200 hektar əkin sahəsinin suvarılması mümkün olacaq.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 9 su anbarı tikilir və ya təmir olunur. Qarabağın zəngin su ehtiyatlarının düzgün və səmərəli idarə olunması bütövlükdə regionun iqtisadi inkişafını sürətləndirəcək.

İşğaldan azad olunan ərazilərin kənd təsərrüfatı sahəsində potensialı ölkə iqtisadiyyatı üçün mühüm drayverlərdən birinə çevriləcək. Su ehtiyatlarının düzgün idarə edilməsi və səmərəli istifadəsi isə Qarabağda aqrar sahənin inkişafına töhfə verəcək. Hazırda bərpası nəzərdə tutulan su anbarlarının istifadəyə verilməsi ilə bu məsələ həllini tapacaq.

İşğal dövründə Ermənistan məqsədli şəkildə su ehtiyatlarından təzyiq vasitəsi kimi istifadə edirdi. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin strateji kursuna əsasən, bərpa prosesi zamanı sudan məqsədyönlü istifadə üçün infrastruktur imkanları təkmilləşdirilir. Bu, eyni zamanda, keçmiş məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğun artırılması, ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına hesablanıb.

**X X X**

Sonra dövlətimizin başçısı Şuşa rayonunun Daşaltı kəndində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və bu yolun üzərindəki tunellərin inşası ilə tanış oldu.

Qeyd edək ki, Qarabağın dirçəlişinə aparan Böyük Qayıdış proqramının əsas tərkib hissələrindən biri yol infrastrukturunun qurulmasıdır. Şuşaya çəkilən Zəfər yolunun cığırı qəhrəman əsgər və zabitlər tərəfindən açılıb. Hazırda bu yolda işlər davam etdirilir – məqsəd Şuşaya avtomobillə daha tez və rahat çatmaqdır. Cəmi 10 ay əvvəlki vəziyyətlə hazırkı mərhələni müqayisə etdikdə mübaliğəsiz demək olar ki, dünyada bu sürət və keyfiyyətdə görülən işlərə rast gəlmək mümkün deyil.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun digər önəmi onun Zəngəzur dəhlizinin magistralı ilə birləşməsindədir.

Məlumat verildi ki, yolun uzunluğu 81,6 kilometr, hərəkət zolaqlarının sayı 4-6, hərəkət zolağının eni isə 3,5 metrdir. Yolboyu 7 tunelin tikintisi aparılır. Bir neçə tuneldə qazma işləri artıq tamamlanıb, digərlərində isə qazma, partlatma və qırma üsulları ilə qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam edir. Bundan başqa, tunellərdə havalandırma və izolyasiya sistemləri də quraşdırılır.

Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tunellərin inşası ilə yanaşı, yolboyu müxtəlif hissələrdə torpaq yatağının, körpülərin, yeraltı keçid və suötürücü boruların tikintisi də layihəyə uyğun şəkildə icra olunur.

Prezident İlham Əliyev avtomobili tuneldə idarə etdi.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan yol-nəqliyyat infrastrukturu işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır.

**X X X**

Daha sonra Prezident İlham Əliyev Şuşa şəhərinə gəldi.

Məlum olduğu kimi, aparılan kompleks işlər çərçivəsində Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması üçün bərpa-quruculuq işləri sürətlə davam etdirilir.

Dövlətimizin başçısı əvvəlcə Şuşa şəhərində tullantıların idarə olunması poliqonunda gedən işlərlə tanış oldu.

Bildirildi ki, burada məişət tullantıları Avropa standartlarına uyğun xüsusi yeraltı konteynerlərdə yerləşdiriləcək. Poliqonda 4 çeşid üzrə 600 ədəd SMART yeraltı konteyner və 11 ədəd xüsusi texnika nəzərdə tutulub. Ərazidə söküntü materiallarının çeşidlənməsi də aparılacaq. Şəhərin su təchizatı sisteminin dayanıqlığının təmini də iki mərhələdə paralel layihələrlə həyata keçiriləcək.

Sonra Prezident İlham Əliyev Şuşa şəhərində inzibati binanın əsaslı təmiri və konfrans zalının tikintisi ilə tanış oldu.

Məlumat verildi ki, hazırda binada işlər tamamlanmaq üzrədir. Şəhərin arxitekturasına uyğun tikilən binada hər cür şərait yaradılacaq.

**AZƏRTAC**
**2022, 21 aprel**

**Xarici beyin mərkəzlərinin nümayəndələri Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar**

Şuşada keçiriləcək konfransda iştirak etmək üçün Azərbaycanda səfərdə olan bir sıra ölkələrin beyin mərkəzlərinin nümayəndələri aprelin 28-də Füzuli Beynəlxalq Hava Limanı ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlara beynəlxalq hava limanı haqqında məlumat verilib.

Bildirilib ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub və ona hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

Sonra nümayəndə heyətinin üzvləri Füzuli rayonunda minaların zərərsizləşdirilməsi prosesini izləyiblər.

**AZƏRTAC**
**2022, 28 aprel**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa şəhərlərinə səfəri**
**Füzuli şəhərində Peşə Liseyinin təməli qoyulub**
*(10 may 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuli rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli şəhərində inşa olunacaq Peşə Liseyinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

Təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleks barədə məlumat verdi.

Bildirildi ki, Peşə Liseyinin ərazisi 3,2 hektar sahəni əhatə edəcək. Kompleksdə tədris, laboratoriya təcrübələri, idman binaları və meydançası yaradılacaq. Burada, həmçinin avtomobil təmiri emalatxanası, avadanlıq və texnika, təsərrüfat anbarları, təsərrüfat qurğusu, praktik təlimlər qurğusu da inşa ediləcək. Kompleksin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün transformator yarımstansiyası da quraşdırılacaq. Füzuli şəhər Peşə Liseyinin inşası zamanı yaşıllıq zolaqlarının yaradılması xüsusilə diqqətdə saxlanılıb. Belə ki, yaşıllıq sahəsi bu kompleksin ərazisinin 43,7 faizini təşkil edəcək. Burada yaradılacaq idman meydançasının sahəsi 540 kvadratmetr olacaq.

Dövlətimizin başçısı Füzuli şəhər Peşə Liseyinin təməlini qoydu.

Qeyd edək ki, XXI əsrin çağırışlarına və yeni trendlərinə müvafiq olaraq ölkəmizdə təhsil sahəsində islahatlar çərçivəsində peşə təhsili sisteminin müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bu sahədə peşəkar tədris prosesinin qurulması, əmək bazarının, o cümlədən işəgötürənlərin tələbatlarına uyğun ixtisaslar üzrə kadr hazırlığının təmin olunması qarşıda duran əsas vəzifələrdən biridir. Son dövrlər paytaxt Bakı ilə yanaşı, bölgələrdə də yeni peşə təhsili müəssisələri qurulur. Füzuli şəhərində Peşə Liseyinin təməlinin qoyulması da bu istiqamətdə həyata keçirilən layihələrdən biridir. Lisey ildə 800-yə yaxın tələbə qəbul etməklə yanaşı, 1000-dək tələbə üçün qısamüddətli kurslar və ömürboyu təhsil proqramları təmin etmək imkanında olacaq.

Bu sahədə həyata keçirilən tədbirlər gənclərin müvafiq peşələrə yiyələnərək məşğulluğunun təmin olunmasına, eləcə də müəssisə və təşkilatların ixtisaslı kadrlarla təminatına əhəmiyyətli təsir göstərir. Prezident İlham Əliyevin 2016-cı il aprelin 20-də imzaladığı Fərmanla Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ölkəmizdə peşə təhsilinin səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması baxımından mühüm addım oldu. İki il əvvəl Təhsil Nazirliyinin tabeliyində Peşə Təhsilinin İnkişafı Fondunun yaradılması, peşə təhsili sahəsində bir sıra normativ hüquqi aktların qəbul olunması, peşə təhsili müəssisələrinin birləşdirilməsi və müəyyən ixtisaslaşmış peşə təhsili mərkəzlərinin yaradılması yolu ilə müasir standartlara cavab verən pilot peşə təhsili müəssisələrinin qurulması da Yol Xəritəsində qarşıya qoyulan mühüm vəzifələrdəndir.

**AZƏRTAC**
**2022, 10 may**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərində yeni yaradılacaq parkda ağac əkiblər**

*(10 may 2022-ci il)*

İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri bu yerlərə yenidən həyat verir, ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələri aradan qaldırılır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verdi.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə, digər quruculuq işləri kimi, ekoloji tarazlığın bərpası istiqamətində də ciddi addımlar atılır. İşğalçı Ermənistan tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin bərpası məqsədilə ağacəkmə tədbirləri davam etdirilir. İşğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Füzuli rayonunu da əhatə edir. Füzulidə yeni yaradılacaq park kompleksi də şəhərdə ekoloji tarazlığın qorunması işinə mühüm töhfə verəcək.

**AZƏRTAC**
**2022, 10 may**

**Füzuli şəhərində 180 çarpayılıq xəstəxananın təməli qoyulub**
*(10 may 2022-ci il)*

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov görüləcək işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, bu tibb müəssisəsində əsasən üç bölmənin – inzibati, stasionar və ambulator xidmət bölmələrinin yaradılması nəzərdə tutulub. Stasionar xidmət bölməsindəki qəbul mərkəzində 40 çarpayılıq terapiya, o cümlədən kardiologiya və nevrologiya şöbələri fəaliyyət göstərəcək. Xəstəxanada, həmçinin cərrahiyyə, travmatologiya-ortopediya, LOR, əməliyyat bloku, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya və hemodializ şöbələri yaradılacaq. Ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq.

Prezident İlham Əliyev xəstəxananın təməlini qoydu.

Məlumat verildi ki, müalicə ocağı maqnit rezonans tomoqrafiya və digər ən müasir tibbi avadanlıqla təmin olunacaq. Xəstəxana binasının zirzəmisi zəruri hallarda sığınacaq və hərbi hospital təyinatına malik strukturda inşa ediləcək.

Qeyd edək ki, gələcəkdə Füzuli rayonunda digər səhiyyə müəssisələrinin də tikintisi nəzərdə tutulub. Belə ki, rayonda Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası (hər növbədə 4 briqada olmaqla), Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası da inşa ediləcək.

Bu ilin fevralında Ağdamda, indi isə Füzuli rayonunda ən müasir tələblərə cavab verən səhiyyə ocaqlarının inşası işğaldan azad olunan ərazilərin dirçəldilməsi istiqamətində həyata keçirilən kompleks abadlıq-quruculuq işlərinin mühüm tərkib hissələrindən biridir. İşğaldan azad edilən ərazilərdə tibbi xidmətlərin təşkili işləri sürətlə həyata keçirilir. Fizuli Rayon Mərkəzi Xəstəxanası burada yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində mühüm infrastruktur layihələrindən biridir. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə işinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə səhiyyə sisteminin təkmilləşdirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülür. Son illərdə ölkəmizdə 750-dən çox tibb müəssisəsi tikilib və ya əsaslı təmir edilib. Bu sahədə aparılan ardıcıl islahatlar səhiyyə sisteminin yeni, müasir mərhələyə qədəm qoymasına hərtərəfli zəmin yaradıb. Səhiyyə sahəsinin inkişafı ilə bağlı icra olunan layihələr respublikanın bütün bölgələrini əhatə edir. Yeni tibb müəssisələrinin ən son texnoloji yeniliklərə əsaslanan avadanlıq və qurğularla təchiz olunması ölkəmizin ümumi inkişafının göstəricisidir. İstər infrastruktur, istər tibbi sığorta sisteminin tətbiqi, istərsə də digər inzibati tədbirlər həm də sosial siyasətdə mühüm yer tutan səhiyyə islahatlarının uğurla və məqsədyönlü şəkildə davam etdirildiyini təsdiqləyir.

**AZƏRTAC**
**2022, 10 may**

**Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər**

*(26 may 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olub, Cəbrayıl rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının və “Azərenerji” ASC-nin 330/110 kV-luq “Cəbrayıl” enerji qovşağının təməlqoyma mərasimində iştirak ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonuna gəldilər.

Dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanının və “Paşa Holding” MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olunub.

**AZƏRTAC**
**2022, 26 may**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olublar**

*(26 may 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır.

Qeyd edək ki, hazırda yolun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra edilir. Yolun genişləndirilərək profilə salınması, birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası və paralel olaraq asfalt örtüyünün salınması həyata keçirilir. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

**AZƏRTAC**
**2022, 26 may**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər**
**Dövlətimizin başçısı və birinci xanım Anım Günü ilə əlaqədar Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər**
*(27 sentyabr 2022-ci il)*

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 Sentyabr – Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar.

Azərbaycan Prezidenti burada çıxış edib.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Bu gün Azərbaycanda Anım Günüdür. Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq.

Şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb. Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edilmişdir. Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı - Füzuli rayonunun kəndləri və Cəbrayıl rayonunun kəndləri - Böyük Mərcanlı və Nüzgar kəndi müharibənin ilk günündə azad edilmişdir. İlk şəhidləri biz məhz burada, bu yerdə vermişik. Bu abidənin yanında düşmənin səngəri yerləşirdi. Bu istiqamətdə beş-altı müdafiə xətti mövcud idi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Sözün əsl mənasında, ölümə gedirdi, öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt işğal altında olan digər bütün torpaqlarda dalğalansın. Öz canını fəda edirdi ki, Azərbaycan xalqı ləyaqətini bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Bu istiqamətdən düşmənin birinci müdafiə xəttini yararaq bizim Zəfər yürüşümüz başlamışdır. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəliyə gedirdi. Dayanmadan, durmadan, usanmadan hər gün qan tökərək, şəhidlər verərək irəliyə gedirdi, Zəfərə doğru gedirdi. Bir gün belə dayanmadı, bir gün belə geriyə addım atmadı, ancaq irəli getdi, düşməni qova-qova döyüş meydanında tarixi Zəfər çaldı. 44 gün ərzində 300-ə yaxın şəhər və kənd düşməndən azad edilmişdir. Düşmən məcbur olub kapitulyasiya aktını imzalayaraq məğlubiyyətini qəbul etdi və o vaxt hələ işğal altında olan torpaqlardan çıxmağa məcbur olmuşdur.

Biz xoşbəxt nəsilik ki, bu şərəfli missiya bizim üzərimizə düşüb. Xoşbəxt nəsilik ki, biz bu tarixi hadisənin həm şahidləriyik, həm də iştirakçılarıyıq. Bizdən sonra gələn nəsillər həmişə bu şanlı tarixlə fəxr edəcəklər. Biz fəxr edirik ki, bu torpağın övladlarıyıq. Fəxr edirik ki, döyüş meydanında öz haqqımızı bərpa etdik, düşməni məğlub etdik və bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi əbədi yaşayacağıq.

Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır.

Bir daha şəhidlərimizə rəhmət diləyərək qeyd etməliyəm, bildirməliyəm ki, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

**x x x**

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Anım Günü ilə əlaqədar saat 12.00-da Vətən müharibəsi şəhidlərinin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

**AZƏRTAC**
**2022, 27 sentyabr**

**Xarici diplomatlar Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu üzərində tikintisi yekunlaşmaqda olan tunellə tanış olublar**

Avqustun 26-da Türkiyədə fəaliyyət göstərən və Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, o cümlədən xarici ölkələrin səfirləri və beynəlxalq təşkilatların nümayəndələri Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu üzərində tikintisi yekunlaşmaqda olan tunellə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin nümayəndəsi Əyyub Hüseynov xarici diplomatlara Zəfər yolunun qısa müddət ərzində tikilməsi, həmçinin Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, avtomobil yolu 1-ci texniki dərəcəyə uyğun olaraq 4-6 hərəkət zolaqlı olmaqla inşa edilir. Belə ki, yolun ilk 48 kilometrlik hissəsi 6, 48-81,6 kilometr arası isə 4 hərəkət zolağından ibarətdir. Müvafiq olaraq yol yatağının eni 29,5 və 21,5 metr təşkil edir.

Yol boyu 30 yeraltı keçid, 7 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Tunellər şərti olaraq T1A (3 303m), T1 (351,5 m), T2 (550m), T3 (681,5 m), T4 (570m), T5 (478,5m) və T6 (526m) adlandırılıb.

Diqqətə çatdırılıb ki, artıq T4, T5 və T6 tunelləri üzrə tikinti işləri son mərhələdə icra edilir. Belə ki, qeyd olunan tunellərdə qazıntı, püskürtmə beton, kəmər betonu, drenaj və kabel boruların inşası işləri tamamlanıb. Hazırda tuneldaxili, həmçinin tunellərin giriş və çıxış yollarında yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur.

Həmçinin diqqətə çatdırılıb ki, hazırda işğaldan azad olunan ərazilərdə 18 avtomobil yolu layihəsi həyata keçirilməkdədir.

**AZƏRTAC**
**2022, 26 avqust**

**Xarici diplomatlar Füzuli rayonunda minaların zərərsizləşdirilməsi prosesini izləyiblər**

Avqustun 26-da Türkiyədə fəaliyyət göstərən və Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, o cümlədən xarici ölkələrin səfirləri və beynəlxalq təşkilatların təmsilçiləri Füzuli rayonunun Dövlətyarlı kəndi ərazisində minatəmizləmə əməliyyatlarını izləyiblər.

AZƏRTAC xəbər verir ki, iştirakçılara Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib. Bildirilib ki, bu kənddə 38 ədəd partlamamış hərbi sursat aşkar olunub. Evlərin mütləq əksəriyyəti dağıdılıb ki, bu dağıntılar altında da ermənilər tərəfindən partlamamış hərbi sursatlar aşkarlanıb. Kənd ərazisinin bu gün tamamilə təmizləndiyi, şəhərsalma üçün təhvil verildiyi qeyd edilib.

Sonra xarici diplomatlar minaların zərərsizləşdirilməsi prosesini izləyiblər.

Daha sonra xarici səfər iştirakçıları Füzuli şəhərində olublar. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov xarici diplomatlara şəhərin tarixi barədə məlumat verib. Səfər iştirakçılarına işğal zamanı Ermənistan silahlı birləşmələri tərəfindən törədilən vandalizmin nəticələri və dağıntılar göstərilib. Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan yenidənqurma işləri haqqında ətraflı məlumat verilib.

**AZƏRTAC**
**2022, 26 avqust**

**Azərbaycanda akkreditə olunmuş xarici diplomatlar Füzuli şəhərində olublar**

Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, o cümlədən xarici ölkələrin səfirləri və beynəlxalq təşkilatların nümayəndələri avqustun 27-də Füzuli şəhərində olublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov xarici diplomatlara şəhərin tarixi barədə məlumat verib.

Səfər iştirakçılarına işğal zamanı Ermənistan silahlı birləşmələri tərəfindən törədilən vandalizmin nəticələri və dağıntılar göstərilib.

Həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan yenidənqurma işləri haqqında ətraflı məlumat verilib.

**AZƏRTAC**
**2022, 27 avqust**

**Aqiyə Naxçıvanlı: Qaraxanbəyli kəndində şəhidlərimizin şərəfinə ucaldılmış abidə Azərbaycan Ordusunun sarsılmazlığının simvoludur**

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər edərək Vətən müharibəsinin ilk günündəcə azad edilmiş Qaraxanbəyli kəndinin yaxınlığında, qəhrəman Azərbaycan əsgərinin bu müqəddəs savaşda öz canını fəda etdiyi ilk məkanlardan birində şəhidlərimizin ölməz xatirəsini yad ediblər. Burada bütöv qaya parçasından şəhidlərimizin şərəfinə ucaldılmış abidə Azərbaycan Ordusunun sarsılmazlığının simvoludur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı deyib.

Deputat bildirib ki, Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəyə aparan şanlı Zəfər yolu da məhz bu ərazilərdən başlayıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 44 günlük Zəfər yolunda ilk tarixi qələbəsini də məhz bu yerdə qazanıb. Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndlərini, eləcə də Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərini Vətən müharibəsinin ilk günündə azad etməklə Azərbaycan Ordusu Zəfər yürüşünə başladı. Dövlətimizin başçısının və birinci xanımın önünə gül dəstələri qoyduqları abidənin yaxınlığında isə Azərbaycan İkinci Qarabağ savaşında ilk şəhidlərini verdi. Həmin bu yerdən erməni işğalçılarının illər ərzində qurduqları beş-altı səviyyəli müdafiə xətti keçirdi. Abidənin bilavasitə yanında isə düşmən səngəri yerləşirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bu müdafiə xəttini və bundan sonrakı müdafiə xətlərini yarmaq üçün ölümə gedirdi. Ali Baş Komandanın dediyi kimi, Azərbaycan əsgəri öz canını fəda edirdi ki, üçrəngli Bayrağımız Şuşada və o vaxt hələ işğal altında olan digər bütün torpaqlarda dalğalansın, Azərbaycan xalqı ləyaqətini və qürurunu bərpa etsin, ədaləti bərpa etsin və xalqımız öz torpaqlarına qayıtsın.

Aqiyə Naxçıvanlı 44 günlük Vətən müharibəsinin şanlı tariximizin ən şərəfli səhifələrindən olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan xalqı bütün gücünü səfərbər edib Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovub. Bu Qələbənin qazanılmasında bütün Azərbaycan cəmiyyəti birlik və iradə nümayiş etdirib. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradır, şəhərlərimizi, kəndlərimizi bərpa edir, həmçinin şanlı Zəfərimizlə qürur duyuruq. Şanlı Ordumuz xalqımızın 30 ilə yaxın bir zaman kəsiyi ərzində düşmən tərəfindən oğurlanmış, təhqir olunmuş qürurunun geri qaytarıldığını müjdələdi. Azərbaycan torpaqları işğal altında olan dövlət statusunu qalib ölkə, qalib dövlət statusuna dəyişdi. Ölkəmiz təkcə öz torpaqlarını deyil, bütün Cənubi Qafqazı bəlkə də son iki yüz ildə bəşəriyyətin qarşılaşdığı, lakin düzgün qiymətləndirə bilmədiyi ən təhlükəli bəlalardan birindən – erməni faşizmindən xilas etdi.

“Biz bu yolda çox qurbanlar verdik, çox məşəqqətlərdən keçdik. Azərbaycan öz haqqını dünyaya sübut edənə qədər ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş saysız-hesabsız terror və təxribatları, qırğın və qətliamları yaşamalı oldu. Dünya birliyi bu vəhşiliklərin qarşısını almaq, cinayətkarları cəzalandırmaq üçün heç bir addım atmadı. Əksinə, sərsəm erməni ideoloqlarının “böyük Ermənistan” adlı uydurmaları sanki reallaşdırıla biləcək ideya kimi ortaya atıldı. Əzəli və əbədi Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılması məqsədilə qanlı oyunlara başlandı. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış siyasi destabillikdən və hərc-mərclikdən yararlanan Ermənistanın silahlı qüvvələri xarici havadarlarının dəstəyi ilə Azərbaycan ərazilərinin 20 faizini zəbt etdilər və 30 il işğal altında saxladılar. Bu illər ərzində Azərbaycan nəticəsi olmayacaq məqsədsiz danışıqlara cəlb olundu, xalqımıza yalançı vədlər verildi. Amma Azərbaycan nə bu vədlərə aldanmadı, nə də işğal faktı ilə barışmadı. Zamanı gəlib çatdıqda bütün dünya kimin kim olduğunu gördü, xalqımızın, dövlətimizin öz haqqını heç kimsədə qoymayacaq gücə-qüdrətə sahib olduğunun şahidi oldu”, - deyə Aqiyə Naxçıvanlı fikirlərini tamamlayıb.

**AZƏRTAC**
**2022, 29 sentyabr**

## Anar Məmmədov: Füzulidə həyat 31 il əvvəlki axarına qayıdaraq yenidən canlanır

Oktyabrın 17-də xalqımız Füzuli rayonunun işğaldan azad edilməsinin ikinci ildönümünü qeyd edəcək. Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərindən idi. Füzuli Vətən müharibəsinin ilk günündən son gününədək ərazisi uğrunda döyüşlərin gərgin aparıldığı rayonlardandır. Müzəffər Ali Baş Komandanın xilaskarlıq missiyası nəticəsində 44 gün ərzində Füzulinin şəhər mərkəzi ilə yanaşı, 53 kəndi erməni işğalından azad edildi. Uğurlu Füzuli əməliyyatı ilə, həmçinin Cəbrayıl və Xocavənd rayonunun da bir sıra yaşayış məntəqələri Ordumuzun nəzarəti altına keçdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il oktyabrın 17-də xalqa müraciəti zamanı Füzulinin böyük hərbi peşəkarlıq nəticəsində işğalçılardan azad edildiyini bildirdi. Vətən müharibəsinin gedişində strateji əhəmiyyət kəsb edən Füzuli əməliyyatı ilə qədim yaşayış məskənimiz işğaldan azad olundu. Azərbaycan Ordusu döyüş meydanında xalqımızın qisasını aldı və həlak olanların qanı yerdə qalmadı. Bir məsələni də xüsusi qeyd etməliyik ki, Ermənistan Füzuli istiqamətində cəbhə xəttini olduqca gücləndirmişdi, bir neçə mərhələli müdafiə mövqeləri yaratmışdı. Lakin qəhrəman Azərbaycan əsgərinin gücü və əzmi qarşısında bu mövqelər tab gətirə bilmədi və elə ilk həmlədə ələ keçirildi. Füzulinin azad edilməsi ilə ordumuz yeni tarix yazdı, öz gücünü, döyüş əzmini bir daha nümayiş etdirdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Anar Məmmədov bildirib.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə, o cümlədən Füzuli rayonunda da bərpa, tikinti-quruculuq işləri yüksək səviyyədə həyata keçirilməkdədir. Qısa müddət ərzində təhvil verilən layihələrdən biri də Füzuli Beynəlxalq Hava Limanıdır. Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə 2021-ci il oktyabr ayının 26-da açılışı baş tutan Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olundu. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Təbii ki Qarabağın hava qapısının - Füzuli Beynəlxalq Hava Limanının açılış mərasiminin keçirilməsi tarixi hadisə kimi dəyərləndirilməlidir. Bu hadisə, eyni zamanda, Azərbaycan və Türkiyə qardaşlığının, həmrəyliyin nümayişi baxımından region dövlətlərinə bir mesaj idi.

A.Məmmədov qeyd edib ki, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın tam şəkildə yekunlaşması üçün önəmli məsələlərdən biri olan yol infrastrukturunun inşası da artıq yekunlaşmaq üzrədir. Belə ki, başlanğıcını M6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən 81,6 kilometr uzunluğa malik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun beynəlxalq magistral normalarına uyğun tikintisi sürətlə davam etdirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 2024-cü ildə başa çatdırılması planlaşdırılır. Bununla yanaşı, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun (Zəngəzur dəhlizi) tikintisi 57 faiz icra olunub. Avtomobil yolu başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürməklə layihələndirilib və I texniki dərəcəli olaraq beynəlxalq magistral normalara uyğun inşa edilir.

“Beləliklə, dağıdılmış Füzulidə həyat 31 il əvvəlki axarına qayıdaraq yenidən canlanır. Prezident İlham Əliyevin də dediyi kimi, biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq. Əminik ki, tezliklə Füzuli rayonu da ən qısa müddətdə bərpa ediləcək və öz sakinləri ilə firavan günlərinə qovuşacaq”, - deyə Anar Məmmədov vurğulayıb.

**AZƏRTAC**
**2022, 15 oktyabr**

**İki il öncə işğaldan azad olunmuş Füzuli rayonu yeni inkişaf dövrünü yaşayır**

Vətən müharibəsinin gedişində 2020-ci il oktyabrın 17-də Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən işğaldan azad olundu. Füzuli əməliyyatı ilə Azərbaycan Ordusu mümkünsüzü mümkün etdi.

Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov deyib.

O bildirib ki, Füzuli uğrunda aparılmış döyüşlər Vətən müharibəsi zamanı ən ağır döyüşlərdən olub. Ali Baş Komandan İlham Əliyevin çıxışlarında bildirdiyi kimi, 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdu və bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta, ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq. Lakin Azərbaycan Ordusu böyük şücaəti, yüksək peşəkarlığı, məharəti, vətənpərvərliyi və fədakarlığı nəticəsində Füzulini işğaldan azad etdi, bütün deyilən fikirlərin əksini isbatladı. Onu da qeyd etmək lazımdır ki, 2020-ci il noyabrın 26-da “Füzulinin azad olunmasına görə” medalı təsis edilib və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25301 hərbi qulluqçusu “Füzulinin azad olunmasına görə” medalı ilə təltif olunub.

Füzulinin azad olunmasının Vətən müharibəsinin gedişatında strateji əhəmiyyət kəsb etdiyini deyən Ramil Vəlibəyov əlavə edib ki, bu rayonun təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması Azərbaycana strateji üstünlüklər verdi. Azərbaycan Ordusu peşəkarlığı və mərdliyi ilə düşməni qorxuya salmışdı. Füzuli uğrunda döyüşlərdə Ordumuzun şücaəti qarşısında düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Hərbi mütəxəssislər artıq açıq-aydın bildirirdilər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur. Düşmən və bütün dünya artıq Azərbaycanın gücünü görüb və etiraf edir ki, döyüş meydanında göstərdiyimiz gücün mənbəyi Azərbaycan xalqının iradəsidir. Qələbəni görən, bu hissləri yaşayan Azərbaycan xalqı əmindir ki, ölkənin inkişafı, cəmiyyətin rifahı və milli maraqların qorunması naminə bütün lazımi işlər görülüb və görüləcək. Artıq Qarabağın bütün ərazisində olduğu kimi Füzulidə də bərpa işləri həyata keçirilir. Bu gün artıq demək olar ki, Füzuli rayonu yeni inkişaf dövrünü yaşayır.

**AZƏRTAC**
**2022, 17 oktyabr**

**Çingiz Qənizadə: Füzulinin azad olunması Ordumuzun Zəfər yürüşünə yol açdı**

Yaxın vaxtlarda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun işğalçı Ermənistan üzərində qazandığı şanlı Qələbəmizin ikinci ilini qeyd edəcəyik. Düşmən üzərində qazandığımız tarixi Qələbə Azərbaycan tarixinə şanlı səhifə yazdı. Bu Qələbə Azərbaycanın dünya birliyindəki mövqeyini daha da möhkəmləndirdi, reytinqini yüksəltdi. Azərbaycan Silahlı Qüvvələrinin hər bir üzvü yüksək peşəkarlığa, qibtə olunacaq Vətən sevgisinə malik olduqlarını bütün dünyaya əyani şəkildə nümayiş etdirdi və işğal altında olan torpaqlarımızı öz qüvvəsi ilə azad etdi. İndi həmin ərazilərdə əzəmətli Azərbaycan bayrağı dalğalanır. Bu gün Füzuli rayon sakinləri üçün iki qat sevinclidir. Axı, iki il əvvəl məhz bu gün – oktyabrın 17- də Füzuli rayonunun 27 illik işğalına son qoyuldu. Füzulinin azad olunması Ordumuzun Zəfər yürüşünə yol açdı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib.

Hüquq müdafiəçisi deyib ki, bu gün hər bir soydaşımız Azərbaycan bayrağının Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalanmasından qürur hissi keçirir. Müharibə başlanan gündən, demək olar ki, hər gün qəhrəman ordumuz irəliyə getdi, bir-birinin ardınca yaşayış məntəqələrimizi düşməndən azad etdi. Prezident, Müzəffər Ali Baş Komandan hər gün xalqımızı ordumuzun torpaqlarımızı düşməndən azad etməsi müjdəsi ilə sevindirirdi. 2020-ci il oktyabrın 17- də rəşadətli Ordumuz Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhərini düşməndən azad etdi.

Ç.Qənizadə Füzuli şəhəri və rayonun böyük hissəsinin 1993-cü il avqustun 23-də erməni silahlı qüvvələri tərəfindən işğal olunduğunu xatırladıb. Bildirib ki, Ermənistanın silahlı qüvvələri ilə mübarizədə rayon sakinlərindən 400 nəfərədək əlil, 663 nəfər şəhid olub, 181 nəfər əsir və itkin düşüb. Ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə - 1994-cü il yanvarın 5-də Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatı nəticəsində Füzuli rayonunun 22 yaşayış məntəqəsi işğaldan azad olunub.

Hüquq müdafiəçisi Füzuli uğrunda aparılmış döyüşlərin Vətən müharibəsi zamanı ən ağır döyüşlərdən olduğunu vurğulayıb. Deyib ki, Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması Azərbaycana strateji üstünlüklər verdi: "Otuz il ərzində düşmən təmas xəttində möhkəm istehkam qurmuşdu. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idilər ki, Füzulini işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq. Ancaq Füzuli uğrunda döyüşlərdə rəşadətli Ordumuzun şücaəti qarşısında düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur. Bunu dünyanın tanınmış hərbi ekspertləri də etiraf edirlər. Vətən müharibəsində düşmən və bütün dünya artıq Azərbaycanın gücünü görüb və bunu etiraf edib".

Füzuli uğrunda döyüşlərdə iştirak edənlərin qəhrəmanlığının möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdıran komitə sədri deyib ki, 2020-ci il noyabrın 26-da "Füzulinin azad olunmasına görə" medalı təsis edildi. Dövlət başçımızın sərəncamları ilə Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25 min 301 hərbi qulluqçusu "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunub.

Ç.Qənizadə bildirib ki, Vətən müharibəsi başa çatandan bir həftə sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilk səfəri məhz Füzuli rayonuna etdilər və bununla da genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işlərinə start verildi: "Səkkiz ay ərzində Füzuli Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi və ilk sərnişinini-qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanı qəbul etməsi dünya ictimaiyyətini də heyrətləndirdi. Füzulidən Şuşaya çəkilən "Zəfər yolu", daha bir Füzuli – Şuşa yolu, kommunikasiya və elektrik xətlərinin bərpası artıq başa çatıb. Hazırda yeni yaşayış binalarının, məktəblərin, səhiyyə müəssisələrinin, həmçinin Dövlətyarlı "ağıllı kənd"nin tikintisi sürətlə davam etdirilir.

Ümumiyyətlə, rayon ərazisində aparılan tikinti-bərpa işlərini saymaqla qurtaran deyil. Yaxın vaxtlarda Böyük Qayıdışın sevincini füzulilər də yaşayacaqlar. Gözünüz aydın, əziz füzulilər!".

**AZƏRTAC**
**2022, 17 oktyabr**

**Prezident İlham Əliyev Füzuli rayonunda Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub**
*(7 noyabr 2022-ci il)*

Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstəsi qoydu, burada ağac əkdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi şəhərciyin qərargah binası ilə tanış oldu.

Dövlətimizin başçısı hərbçilərlə birgə foto çəkdirdi, onları 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik etdi.

Hərbi şəhərcikdə görülən işlər barədə məlumat verən nazir Zakir Həsənov bildirdi ki, şəxsi heyətin xidməti və məişət şəraitinin təmin edilməsi məqsədilə əsaslı təmir olunmuş hərbi şəhərcik ərazisində qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanaları, hamam-camaşırxana, avtomobil parkı, müxtəlif təyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektləri mövcuddur. Burada döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, döyüş əməliyyatları zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş idarəetmə mərkəzi, rabitə qovşağı və digər xidməti otaqlar var.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi şəhərcikdə əsgər yataqxanası, əsgər yeməkxanası və idman zalı ilə tanış oldu.

Diqqətə çatdırıldı ki, şəhərcikdə hərbi qulluqçular və onların ailələri üçün yeni istifadəyə verilmiş iki və üçmərtəbəli yaşayış binaları, məktəb və uşaq bağçası mövcuddur. Hərbi qulluqçuların səmərəli istirahəti üçün müasir standartlara uyğun şərait yaradılıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyev mənzillərdə yaradılmış şəraitlə də tanış oldu.

**AZƏRTAC**
**2022, 7 noyabr**

**Füzuli rayonunun Pirəhmədli kəndinin təməli qoyulub**
*(5 may 2023-cü il)*

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonunun Pirəhmədli kəndinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Pirəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 178 hektardır. Kəndə 2 min 369 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 565 fərdi ev tikiləcək və hər bir evin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 70,3 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 280 fərdi evin tikilməsi nəzərdə tutulur.

Kənddə çoxfunksiyalı inzibati binanın, mehmanxana və kafe-restoranın, məscid və mərasim evinin, yanacaqdoldurma məntəqəsinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 480 yerlik orta məktəbin, 80 yerlik 2 uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, bazarın, rabitə qovşağının tikintisi planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Pirəhmədli kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 5 may**

**Füzuli-Hadrut avtomobil yolunun açılışı olub**
*(5 may 2023-cü il)*

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Ümumi uzunluğu 12,3 kilometr olan yol birinci texniki dərəcəlidir. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Füzuli-Hadrut avtomobil yolu dörd hərəkət zolaqlıdır. Yolun hərəkət hissəsinin eni 14 metrdir.

Layihəyə əsasən yolun 6,7 kilometrliyində "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində biraşırımlı avtomobil körpüsü inşa olunub. Körpünün uzunluğu 18 metr, eni isə 21 metrdir.

**AZƏRTAC**
**2023, 5 may**

**Füzuli rayonunun Dədəli kəndində birinci mərhələdə 327 ev tikiləcək**
*(5 may 2023-cü il)*

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonunun Dədəli kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, kəndin layihələndirilən ümumi ərazisi 314 hektardır. Bu kənddə 4495 nəfərin (1129 ailə) məskunlaşması nəzərdə tutulub. Tikiləcək 1050 fərdi evin hər birinin həyətyanı sahəsi 1200 kvadratmetr olacaq. Qeyd edildi ki, birinci mərhələdə Dədəli kəndində 1373 nəfərin yaşayacağı 327 fərdi ev tikiləcək.

Kənddə çoxfunksiyalı inzibati bina, məscid və mərasim evi, yanacaqdoldurma məntəqəsi, aptek, idman klubu, tibb mərkəzi, 840 yerlik orta məktəb, 100 yerlik iki uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyektləri, bazar fəaliyyət göstərəcək.

Məlumat verildi ki, Dədəli kəndi də tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət məqsədilə bu kənddə də alternativ enerjidən istifadə, istilik tutumlu evlərin layihələndirilməsi nəzərdə tutulub. Bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq. Kənddə tikinti işlərinin 2025-ci ilin noyabrında başa çatdırılması planlaşdırılır.

Prezident İlham Əliyev Dədəli kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 5 may**

**MİDA tərəfindən Füzuli yaşayış kompleksində görülən işlərlə tanışlıq**
*(5 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) tərəfindən Füzuli yaşayış kompleksində görülən inşaat işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına və birinci xanıma tikinti işlərinin gedişi barədə məlumat verdi.

Qeyd olundu ki, ümumi sahəsi 8,9 hektar olan yaşayış kompleksi 38 binadan ibarətdir. Dördmərtəbəli, beşmərtəbəli, altımərtəbəli və yeddimərtəbəli binalarda ümumilikdə 846 mənzil olacaq. Onların 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur. İkiotaqlı mənzillərin sahəsi 54-68 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 71-109 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 92-108 kvadratmetr təşkil edəcək.

Hazırda kompleksin inşası sürətlə və keyfiyyətlə davam etdirilir. Tikinti işlərinin 2023-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Kompleksdə bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Bütün binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin ediləcək.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

**AZƏRTAC**
**2023, 5 may**

**Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməli qoyulub**
*(5 may 2023-cü il)*

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlinin qoyulması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma şəbəkə barədə məlumat verildi.

Bildirildi ki, şəhərdaxili yolların ümumi uzunluğunun 87 kilometrdən çox olması nəzərdə tutulub. İlkin mərhələdə 18,5 kilometr yolun tikintisi planlaşdırılır. Birinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 44, ikinci dərəcəli ümumşəhər əhəmiyyətli prospektlərin eni 34, ümumşəhər əhəmiyyətli küçə və yolların eni 24, yerli əhəmiyyətli küçə və yolların eni isə 20 metr olacaq.

Şəhərdaxili yollarda piyadaların rahat hərəkətini təmin etmək üçün piyada yolları, ətraf mühitə dəyən zərəri azaltmaq üçün yaşıllıq zolaqları, sağlamlığa faydalı vərdişləri artırmaq üçün velosiped yolları, ictimai nəqliyyat üçün xüsusi hərəkət zolaqları yaradılacaq. Prospektlərin dördzolaqlı, küçə və yolların isə ikizolaqlı olacağı planlaşdırılır.

Füzuli şəhərində daxili yol-küçə şəbəkə sxemi və kommunikasiya xətlərinin layihəsi vahid işçi qrupu tərəfindən bütün qurumların rəyi alınmaqla hazırlanıb. Şəhərdaxili yollar inşa olunarkən piyada səkilərinin altından keçəcək elektrik, qaz, su, rabitə, kanalizasiya və yağış sularının axıdılması xətləri ilə birlikdə həyata keçiriləcək. Bu isə həm vaxta, dövlət vəsaitinin qənaətinə, işlərin optimallaşdırılmasına və yüksək səviyyədə əlaqələndirilməsinə imkan yaradacaq, habelə kommunikasiya şəbəkələrinin paralel çəkilməsi zamanı yarana biləcək problemlərin aradan qaldırılmasına imkan verəcək.

Prezident İlham Əliyev Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin təməlini qoydu.

Sonra dövlətimizin başçısına və birinci xanıma Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi barədə də məlumat verildi.

**AZƏRTAC**
**2023, 5 may**

**“Azərişıq” ASC-nin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışı olub**
*(5 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Füzuli Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Ölkənin elektroenergetika sektorunda texnoloji innovasiyaların tətbiqi və infrastrukturun rəqəmsal transformasiyasının sürətləndirilməsi istiqamətində inşa edilən Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin təməli 2021-ci il oktyabrın 17-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

Bildirildi ki, mərkəzin elektrik təchizatı üçün 110/35/10 kV-luq “Füzuli” yarımstansiyasından ikidövrəli yeraltı kabel xətləri çəkilib. Mərkəzin birinci mərtəbəsində birinin gücü 2500 kVA olan iki güc transformatoru, 35 və 0,4 kV-luq qapalı paylayıcı qurğular, ikinci mərtəbədə isə rəqəmsal idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Prezident İlham Əliyev Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzini işə saldı.

Qeyd olundu ki, rəqəmsal şəbəkələrin təməl elementi olan Rəqəmsal Yarımstansiya elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Yeni nəsil yarımstansiya bütün ölçülərin yüksək dəqiqliyini, vahidliyini təmin edir, avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri azaltmağa imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır.

Rəqəmsal yarımstansiyadan qidalanan istehlakçılar elektrik enerjisi verilişində fasilələrin yaranması barədə məlumatları onlayn qaydada əvvəlcədən ala bilirlər. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası prosesi rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Rəqəmsal yarımstansiya alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə əlaqələndirilməsini tam təmin edir. Bundan əlavə, əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılmasını, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyətini, “yaşıl enerji” mənbələrinin şəbəkəyə inteqrasiyasını da həyata keçirir. Yarımstansiya qapalı tiplidir, istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirilir.

**AZƏRTAC**
**2023, 5 may**

**Özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa olunan məktəb binasında tikinti işlərinin gedişi ilə tanışlıq**
*(5 may 2023-cü il)*

Mayın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən 960 şagird yerlik məktəb binasında tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma inşaat işlərinin gedişi barədə məlumat verildi.

Bildirildi ki, ötən il başlanılan tikinti işlərinin bu ilin dekabrında başa çatdırılması planlaşdırılır. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, akt zalı, idman zalı, yeməkxana, kitabxana yaradılacaq. Məktəbin ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa ediləcək. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilir.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin “Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır” sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

**AZƏRTAC**
**2023, 5 may**

**Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməli qoyulub**
*(5 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına layihə haqqında məlumat verdi.

Bildirildi ki, layihə 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində 15 subartezian quyusunun qazılması, uzunluğu 10,7 kilometr olan magistral su kəmərinin, tullantı sutəmizləyici qurğunun inşası, eyni zamanda, ümumi uzunluğu 103 kilometr olan su şəbəkəsinin qurulması və digər işlərin görülməsi nəzərdə tutulur.

Birinci mərhələdə 17 min kubmetr tutumu olan su anbarının inşası planlaşdırılıb. Bu anbar şəhər əhalisinin təxminən 80 faizini içməli su ilə təmin edəcək. İkinci mərhələdə isə Füzuli şəhərinin əhalisinin qalan 20 faizinə xidmət göstərən, tutumu 5 min kubmetr olan su anbarı inşa ediləcək.

**AZƏRTAC**
**2023, 5 may**

**Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub**
*(20 iyul 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Füzuli rayonunda olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.

Məlumat verildi ki, layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

**AZƏRTAC**
**2023, 20 iyul**

**Abdulla Aripov: Füzuli şəhəri Azərbaycanın ən maraqlı və gözəl yerlərindən birinə çevriləcək**

Füzuli şəhəri yaxın illərdə Azərbaycanın ən maraqlı və gözəl yerlərindən birinə çevriləcək.

AZƏRTAC xəbər verir ki, bunu Özbəkistanın Baş naziri Abdulla Aripov Azərbaycana səfərinin nəticələri ilə bağlı Baş nazir Əli Əsədova ünvanladığı məktubunda bildirib.

Məktubda vurğulanıb ki, səfər zamanı Özbəkistan nümayəndə heyəti uğurla həyata keçirilən dəyişikliklər sayəsində Azərbaycanın bütün sahələrdə inkişaf etdiyinin şahidi olub.

Həmçinin nəqliyyat və logistika, energetika, sənaye kooperasiyası, kənd təsərrüfatı, mədəni-humanitar əməkdaşlıq və digər sahələrdə əldə edilmiş razılıqların iki qardaş xalqın rifahı naminə ardıcıl həyata keçiriləcəyinə əminlik ifadə olunub.

**AZƏRTAC**
**2023, 27 iyul**

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub**

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Sənədə əsasən, 26 avqust – Laçın şəhəri günü, 4 oktyabr – Cəbrayıl şəhəri günü, 17 oktyabr – Füzuli şəhəri günü, 20 oktyabr – Zəngilan şəhəri günü, 25 oktyabr – Qubadlı şəhəri günü, 8 noyabr – Şuşa şəhəri günü, 20 noyabr – Ağdam şəhəri günü, 25 noyabr – Kəlbəcər şəhəri günü kimi hər il təntənəli şəkildə qeyd olunacaq.

Sərəncamda vurğulanır ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

"Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı", - deyə sənəddə qeyd olunub.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun hazırda yenidən qurulduğunun, ərazilərin minalardan təmizləndiyinin, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparıldığının vurğulandığı Sərəncamda deyilir: "Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir".

**AZƏRTAC**
**2023, 31 iyul**

**Azərbaycanda dövlət səfərində olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Füzuli rayonuna gəlib**

*(23 avqust 2023-cü il)*

Azərbaycan Respublikasında dövlət səfərində olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev avqustun 23-də Füzuli rayonuna gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşıladılar.

**AZƏRTAC**
**2023, 23 avqust**

**Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı olub**
*(23 avqust 2023-cü il)*

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları və xanımları əvvəlcə yeni dərs ilində bu məktəbdə təhsilə başlayacaq şagirdlərlə və burada işləyəcək müəllimlərlə görüşüb söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salam uşaqlar, necəsiniz?

**Uşaqlar:** Salam, yaxşıyıq.

**Qadın sakin:** Xoş gördük, cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Prezident Şavkat Mirziyoyev:** Salaməleyküm.

**Qadın sakin:** Salam, xoş gəlmisiniz.

**Birinci xanım Mehriban Əliyeva:** Güllər var, çiçəklər var, salam balalar, salam.

**Qadın sakinlər:** Salam, xoş gördük, Mehriban xanım.

**Prezident İlham Əliyev:** Uşaqlar, bu məktəbi mənim qardaşım, hörmətli Şavkat Miromonoviç Füzuli şəhərinə hədiyyə edib. Xahiş edirəm ki, mənim qardaşımı səmimiyyətlə salamlayaq.

**Məktəbin direktoru Həcər Mahmudova:** Cənab prezidentlər, mən də icazənizlə, Sizi burada olan müəllimlərimiz, şagirdlərimiz, valideynlərimiz adından salamlayıram. Sizləri bu möhtəşəm məktəbdə görməkdən qürur duyuruq. Otuz il öncə 26 yaşında bu şəhəri tərk edən sakini kimi mən demək olar ki, eyni tarixlərdə, - bir gün fərqi var, - buraya qayıtmışam. Bu anları bizə yaşatdığınıza görə Sizə təşəkkür edirik, qalib Ordumuza minnətdarıq. Bu gözəl məktəbi tikib bizə bəxş etdiyinə görə Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyevə və onun timsalında Özbəkistan xalqına minnətdarıq. Cənab Mirziyoyevdən xahiş edirik ki, bizim Füzuli sakinlərinin bu minnətdarlığını öz xalqına, özbək xalqına çatdırsın.

**Prezident Şavkat Mirziyoyev:** Çox sağ olun.

**Həcər Mahmudova:** Biz pedaqoji kollektivin üzvləri birlikdə sizləri əmin edirik ki, bu məktəbdə təhsil alacaq şagirdlərin gələcəkdə yüksək bilik-bacarığa, eyni zamanda, milli-mənəvi dəyərlərə sahib bir vətəndaş olaraq yetişməsində var qüvvəmizlə çalışacağıq. Sizə minnətdarıq, bir daha çox sağ olun.

**Prezident Şavkat Mirziyoyev:** Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Məktəbə Mirzə Uluqbəyin adı verilib.

**Həcər Mahmudova:** Bəli, Əmir Teymurun nəvəsi.

**Prezident İlham Əliyev:** Bəli, Əmir Teymurun nəvəsi, özbək xalqının böyük oğlunun adı verilib. Bu məktəb Özbəkistan-Azərbaycan dostluğunun, qardaşlığının bir mərkəzi olacaq.

**Həcər Mahmudova:** Biz buna çalışacağıq. Təşəkkür edirik Özbəkistan Prezidentinə, təşəkkür edirik özbək xalqına, minnətdarıq.

**Prezident Şavkat Mirziyoyev:** Sağ olun.

**x x x**

Dövlət başçıları məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.

**x x x**

**Prezident İlham Əliyev:** Xeyirli, uğurlu olsun.

**Prezident Şavkat Mirziyoyev:** İnşallah, uğurlu olsun.

Sonra xatirə şəkli çəkildi.

Daha sonra dövlət başçılarına və xanımlarına məktəbdə yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Ötən il başlanılan tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və

keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib.

Sonra görülən işlərlə bağlı məktəbin akt zalında videoçarx nümayiş etdirildi.

Qeyd edək ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır" sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib.

**AZƏRTAC**
**2023, 23 avqust**

**Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Füzuli şəhərində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər**
*(23 avqust 2023-cü il)*

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, sakinləri təbrik edən **Prezident İlham Əliyev** dedi:

-İlk növbədə, sizi təbrik edirəm, öz vətəninizə xoş gəlmisiniz. Otuz il Vətən həsrəti ilə yaşamış insanlar artıq öz dədə-baba torpağına qayıdıblar və burada yaşayırlar. Beş gün bundan əvvəl birinci qrup Füzuli sakinləri Füzulidə yerləşdi, gözəl evlərdə yerləşdi və bundan sonra burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz.

Mən bu gün əziz qardaşım Şavkat Miromonoviç ilə birlikdə sizinlə görüşə gəlmişəm. Bildiyiniz kimi, hörmətli Prezidentin əmri ilə Füzulidə Mirzə Uluqbəyin adını daşıyan gözəl məktəb inşa edildi. Sizin uşaqlarınız, nəvələriniz artıq sentyabrın 15-dən başlayaraq bu məktəbdə oxuyacaqlar. Bu gözəl hədiyyəyə görə sizin adınızdan əziz qardaşıma bir daha təşəkkür edirəm.

Sizi bir daha ürəkdən təbrik edirəm. Burada rahat, xoşbəxt yaşayın!

**x x x**

Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** dedi:

-Əziz dostum və qardaşım İlham Əliyev ilə Qarabağa, Füzuliyə səfərim ürəyimdəki böyük arzularımdan biri idi. Bu Qələbə üçün qardaşımın çiyninə çətin vəzifələr düşdü. Amma bu vəzifələr onun ədaləti və həqiqəti bərpa etmək üçün göstərdiyi bütün səylərin nəticəsidir ki, qardaşım Qarabağda Qələbə qazandı. Bu Qələbəni ancaq Vətəninin böyük övladı, xalqını sevən belə müdrik Prezident qazana bilər. Belə bir Prezident qardaşımızın varlığından qürur duyuruq.

Bizim böyük Qarabağda əsrlər boyu davam edən birliyimiz var. Babamız Əmir Teymurdan başlayan münasibətlərimiz indi də çox yaxşıdır. Qardaşımın Qələbəsindən sonra iki xalqın böyüklüyü, gələcəkdə də bir-biri ilə dostluğunu davam etdirməsi üçün bir məktəb tikdirmək arzusunda idim. Bu gün arzum gerçəkləşdi. Mən sizləri qayıdışınız və Qələbəniz münasibətilə təbrik edirəm. Sizlərin gələcək həyatınızın firavanlığı üçün qardaşım İlham Heydər oğlu Azərbaycanın dünya birliyində ildən-ilə nüfuzunu artırır. Görülən işlər gözəl nümunədir və biz bu xəbərləri eşitməkdən, bu möhtəşəm işləri görməkdən ancaq xoşbəxtik.

Bu məktəb səmimi dostluğumuzun gələcəyinə bir abidə olacaq desəm, doğru olardı. Fürsətdən istifadə edərək, bu məktəbdə təhsil alan uşaqlarımızı ildə iki dəfə Uluqbəyin vətəninə, Özbəkistana, Səmərqəndə dəvət etdim. Qardaşımdan bir daha xahiş edirəm, uşaqlar valideynləri ilə gəlsələr, daha çox məmnun olaram.

Bizdə çox gözəl bir məsəl var ki, sevgi gözdədir. Bir-birimizi görə bildikcə sevgi artır. Birliyimiz səmimi, dostluğumuz əbədi olacaq. Bu, mənim istəyimdir. Mən sizi görməyimdən çox məmnunam. Bundan sonra sizə yalnız sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram. Sağ və salamat qalın.

**x x x**

Füzuli rayon sakini **Elnur Nərimanzadə** dedi: Möhtərəm cənab prezidentlər, Sizi Füzuli şəhərinin sakinləri adından salamlayırıq.

1993-cü il avqustun 23-də, - mənim 3 yaşım var idi, - bu torpaq işğal olundu. Bu gün biz öz doğma yurdumuza qayıtmışıq. Cənab Prezidentimizin göstərişi ilə bu gözəl evlər tikilib, biz bu gözəl evlərə köçmüşük. Hazırda buradayıq, öz torpağımızdayıq, öz yurdumuzdayıq. Buna görə cənab Prezidentimizə təşəkkür edirik.

Bu gün, cənab Prezident Mirziyoyev, Sizə təşəkkür edirik ki, bizim üçün, övladlarımızın təhsil almaları üçün belə gözəl bir məktəb tikdirmisiniz. Çox sağ olun, minnətdarıq.

**Prezident Şavkat Mirziyoyev**: Sağ olun.

**Sakin:** Dostluğunuz, qardaşlığınız əbədi olsun! Sizi təbrik edirəm, çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm.

**Sakinlər:** Sağ olun. Allah Sizdən razı olsun. Çox minnətdarıq.
**Prezident İlham Əliyev:** Təşəkkürlər, sağ olun.
**Sakinlər:** Sağ olun.

**x x x**

Sonra dövlət başçılarına və xanımlarına Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən tikilmiş yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 8,9 hektar olan kompleks 38 yaşayış binasından ibarətdir. Binalar 4, 5, 6 və 7 mərtəbəlidir. Bu binalarda ümumilikdə 846 mənzil olacaq ki, onlardan 318-nin ikiotaqlı, 430-nun üçotaqlı, 98-nin isə dördotaqlı olması nəzərdə tutulur.

Hazırda kompleksin inşası sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Altı bina və 144 mənzildən ibarət birinci məhəllənin tikintisi cari il avqustun sonlarında başa çatdırılacaq. Altı bina və 123 mənzildən ibarət ikinci məhəllə isə sentyabrda təhvil veriləcək. Ümumilikdə 579 mənzildən ibarət daha 26 binanın tikintisi bu ilin sonlarında başa çatdırılacaq.

Burada bütün mənzillər tam təmirli, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz olunaraq sakinlərin istifadəsinə veriləcək. Bütün binalar mərkəzləşdirilmiş qazanxana vasitəsilə istilik və liftlə təmin ediləcək.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, giriş və çıxış pandusları, istirahət guşələri, uşaq oyun və idman meydançaları da yaradılacaq.

**x x x**

Sonda xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**
**2023, 23 avqust**

**Füzulinin Baş planı ilə tanışlıq**
*(23 avqust 2023-cü il)*

Avqustun 23-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərinin Baş planı ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə, xanımı Ziroatxon Mirziyoyevaya Füzulidə görülən və görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq.

Yaşayış ərazilərinin sıxlığının müəyyənləşdirilməsində proqnozlaşdırılan əhali sayı ilə yanaşı, təklif edilən digər şəhər xidmətlərinin yerləşməsi də nəzərə alınıb. Məşğulluğun və sosial xidmətlərin təmini üçün şəhərdə 9 ümumi və orta təhsil müəssisəsi, 13 məktəbəqədər təhsil müəssisəsi, peşə təhsili müəssisəsi, internat tipli musiqi məktəbi, xəstəxana, idman və sağlamlıq mərkəzi, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman kompleksinin inşası, Qələbə və Memorial park, 6 məhəllə parkı və şəhər meydanının, ərazisi 150 hektardan çox olan ekoparkın salınması planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, Baş planda Füzuli şəhərinin dayanıqlı inkişafı, ağıllı həllər əsasında qurulması və insanların sağlam həyatını təmin etmək üçün ən müasir şəhərsalma yanaşmaları tətbiq edilib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və xanımı Ziroatxon Mirziyoyevaya işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları barədə də məlumat verildi.

**AZƏRTAC**
**2023, 23 avqust**

## Füzulidə Mirzə Uluqbəy adına orta məktəbin inşası həmrəylik və dəstək jestidir

Şavkat Mirziyoyevin Özbəkistan Prezidenti seçilməsindən sonra ilk dövlət səfərini məhz Azərbaycana etməsi xalqlarımızın dostluq və qardaşlıq münasibətlərinin göstəricisidir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Səfər çərçivəsində səmərəli görüşlər keçirildiyini və görüşlər zamanı qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsi istiqamətində bütün nailiyyətlərin ətraflı təhlil edildiyini diqqətə çatdıran deputat bildirib ki, bütün sahələrdə - beynəlxalq platformalarda birgə fəaliyyətdən, beynəlxalq təşkilatlarda üzvlük çərçivəsində qarşılıqlı fəaliyyətimizin möhkəmlənməsindən başlayaraq, energetika, nəqliyyat, qarşılıqlı iqtisadi fəaliyyət, humanitar məsələlərədək münasibətlərimizin gələcək inkişaf yolları müəyyən olundu.

S.Fətəliyevanın sözlərinə görə, səfər çərçivəsində imzalanan mühüm sənədlərdən biri də Ali Dövlətlərarası Şuranın yaradılması barədə müqavilədir. Bu sənədin imzalanması ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin, qardaşlıq münasibətlərinin, eləcə də gündəliyin kifayət qədər geniş olmasının göstəricisidir.

"Görüşlər zamanı iki ölkə arasında enerji sahəsində də səmərəli əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğu vurğulandı. Eləcə də, nəqliyyat-logistika sahəsində yük axınının artması bu istiqamətdə əməkdaşlıq potensialının genişlənməsini özündə ehtiva edir. Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın böyük tarixi əsasları mövcuddur. Xalqlarımız arasında qardaşlıq münasibətləri çoxəsrlik tarixə malikdir, bütün bu dövrlərdə biz dost və qardaş ölkələr kimi birgə olmuşuq və bir-birimizi dəstəkləmişik", - deyə S.Fətəliyeva qeyd edib.

Deputatın sözlərinə görə, diqqət çəkən əsas məqamlardan biri də ali qonağın işğaldan azad edilmiş Qarabağa səfəridir. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin şəxsi təşəbbüsü ilə Füzulidə orta məktəbin istifadəyə verilməsi qardaşlıq, həmrəylik və dəstək jestidir. İnşa olunmuş məktəb özbək xalqının dahi oğlu Mirzə Uluqbəyin adını daşıyır və bu, təkcə təhsil ocağı deyil, eləcə də bizim dost və qardaşlığımızın daha bir mərkəzi olacaq. Dövlət başçıları və birinci xanımlar həmin məktəbin açılışını etdilər və Füzuli sakinləri ilə görüşdülər. Qarabağın incisi olan Şuşaya daha bir türk dövlətinin başçısının səfər etməsi, məşhur Cıdır düzünü ziyarət etməsi həqiqətən də qürurvericidir.

"Bütövlükdə, Azərbaycan və Özbəkistan arasında münasibətlər yüksələn xətlə inkişaf edir və bu səfər də dövlətlərimiz arasında qardaşlıq münasibətlərinin göstəricisidir", - deyə Sevinc Fətəliyeva vurğulayıb.

**AZƏRTAC**
**2023, 24 avqust**

**Umud Mirzəyev: Füzulidə inşa edilən məktəb Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verəcək**

Xəbər verdiyimiz kimi, avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.

Qardaşın qardaşa dəstəyi lazım olanda dəvət gözləməz. Bu da qardaşlığın ən yüksək nümunəsidir. Özbəkistan bunu ən gözəl şəkildə sərgilədi. Belə bir məktəb Daşkənddə də var. Sevindirici haldır ki, işğaldan azad edilən ərazilərin bərpası işlərində dost Özbəkistan dövləti də yaxından iştirak edir. Füzuli şəhərində Özbəkistan hökuməti tərəfindən hədiyyə olaraq orta məktəb inşa olunub. Bu tarixi hadisə Azərbaycan və Özbəkistan arasında dostluq, qardaşlıq münasibətlərini daha da möhkəmləndirəcək.

Bu barədə AZƏRTAC-a açıqlama verən Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) prezidenti Umud Mirzəyev bildirib ki, Füzulidə inşa olunan təhsil müəssisəsi Azərbaycandakı ən böyük məktəblərdən biri olacaq.

"Özbəkistanla münasibətlərimiz dərin tarixə malikdir. İşğaldan azad edilən torpaqlarımızda həyat yenidən, yavaş-yavaş geri qayıdır. Bu gün Azərbaycan üçün mühüm, tarixi günlərdən biridir. İkitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu baxımdan Prezident İlham Əliyevin varislik prinsipləri əsasında həyata keçirdiyi siyasət iki ölkə arasında münasibətlərin daha da genişləndirilməsini şərtləndirir", - deyə BAMF prezidenti vurğulayıb.

U.Mirzəyev qeyd edib ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin “Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır” sözlərinin təsdiqi olan bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan və Özbəkistan liderlərinin siyasi iradəsinin nəticəsində ölkələrimiz arasında münasibətlər də inkişaf etdirilib, yüksək səviyyəyə çatdırılıb və bundan sonra daha da zirvələrə qalxacaq. Füzulidə tikilən Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb Füzulilər, Nəsimilər, Nizami Gəncəvilər yetişdirəcək. Özbəkistan dövləti ilə əməkdaşlıq həm ölkələrimizin və xalqlarımızın, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verəcək.

**AZƏRTAC**
**2023, 24 avqust**

**Füzuli istiqamətində növbəti təxribatın qarşısı alınıb**

Sentyabrın 10-da saat 09:45 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Ordumuzun Füzuli rayonu istiqamətində yerləşən mövqeləri qarşısında yeni səngərlər qazmağa cəhd göstəriblər.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ordumuzun bölmələri tərəfindən görülən tədbirlər nəticəsində aparılan işlər dayandırılıb.

**AZƏRTAC**
**2023, 10 sentyabr**

**Vətən müharibəsinin xronikası: 29 sentyabr**

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.***

***AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.***

**Müharibənin 3-cü günü**

•Səhər saatlarında cəbhənin Füzuli-Cəbrayıl istiqamətində yerdəyişmə etmək istəyən düşmənin 1 tankı, 1 avtomobil texnikası və 10 nəfərədək şəxsi heyəti artilleriya zərbəsi ilə sıradan çıxarılıb. Saat 07.00-08.00 radələrində cəbhənin Füzuli-Cəbrayıl istiqamətində Ermənistan qoşunlarının daha dörd tankı vurulub. Düşmənin Xocavənd rayonu ərazisində yerləşdirdiyi 3-cü "Martuni" motoatıcı alayı darmadağın edilib. Bu barədə Müdafiə Nazirliyində keçirilən brifinqdə məlumat verilib.

• Almaniya Kansleri Angela Merkel Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlətimizin başçısı bildirib ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət İrəvanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

• Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında Vətən müharibəsi ilə bağlı sualları cavablandırıb.

• Baş Prokurorluq Azərbaycan əhalisinin sıx yaşadığı ərazilərin düşmən tərəfindən atəşə tutulması nəticəsində 12 mülki şəxsin həlak olması, 35 nəfərin xəsarət alması ilə bağlı məlumat yayıb.

**AZƏRTAC**
**2023, 29 sentyabr**

**Vətən müharibəsinin xronikası: 30 sentyabr**

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.

AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.

Müharibənin 4-cü günü

• Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüb.

• Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Prezident İlham Əliyevə telefonla zəng edib. Şarl Mişeli Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təxribatı ilə bağlı vəziyyət barədə məlumatlandıran dövlətimizin başçısı bildirib ki, Azərbaycan Ordusu buna cavab olaraq əks-hücum əməliyyatları həyata keçirir.

• Azərbaycan Ordusu müharibənin dördüncü günü qətiyyətli əks-hücum əməliyyatını davam etdirib. Müdafiə Nazirliyinin məlumatına görə, əks-hücum əməliyyatının başlandığı dörd gün ərzində düşmənin ümumilikdə 2300-dən çox canlı qüvvəsi məhv edilib. Bundan başqa, Ermənistan ordusunun 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dən çox hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 50-dən artıq tank əleyhinə vasitələr, 55-dən çox avtomobil texnikası sıradan çıxarılıb. Təkcə sentyabrın 30-da Ermənistan ordusunun 8 ədəd “Qrad” yaylım atəşli reaktiv sistemi məhv edilib.

• Düşmənin artilleriya atəşi nəticəsində Horadiz şəhərində bir mülki şəxs həlak olub, üç nəfər isə xəsarət alıb. Bununla da Ermənistan silahlı qüvvələrinin xain hücumları zamanı həlak olan mülki şəxslərin sayı 15-ə, xəsarət alanların sayı isə 49-a çatıb. Bu barədə Azərbaycan Baş Prokurorluğu məlumat yayıb.

**AZƏRTAC**
**2023, 30 sentyabr**

**Vətən müharibəsinin xronikası: 1 oktyabr**

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.***

***AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.***

***Müharibənin 5-ci günü***

• Vətən müharibəsinin beşinci gününün sonunadək düşmən bütün cəbhə boyunca tutduğu mövqelərdən və ərazinin mühüm sahələrindən geri çəkilməyə məcbur edilib. Ermənistan ordusunun müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən dəqiq atəşlə məhv edilib. Vətən müharibəsi başladığı gündən düşmənin 200-dək tank və digər zirehli texnikası, 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatanları, 30 ədəd hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 5 silah-sursat anbarı, 110-dan çox avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi sıradan çıxarılıb.

Bu barədə hərbi informasiya mərkəzində keçirilən brifinqdə məlumat verilib.

• Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyevə telefonla zəng edib və Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurma ilə bağlı yaranmış vəziyyətlə maraqlanıb. Dövlətimizin başçısı Belarus Prezidentini Ermənistan tərəfinin törətdiyi təxribatlar və buna cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatları barədə məlumatlandırıb.

• Ermənistan silahlı qüvvələri Azərbaycanın yaşayış məntəqələrini növbəti dəfə ağır artilleriyadan atəşə tutub. Nəticədə mülki əhali arasında həlak olanların sayı 19-a, xəsarət alanların sayı 55-ə çatıb. Bu barədə Azərbaycan Respublikası Baş Prokurorluğu məlumat yayıb.

• Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayaraq əks-hücum əməliyyatları nəticəsində işğaldan azad etdiyi ərazilərdən ilk görüntülər yayılıb. Görüntülərdə Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinin həmin ərazilərdə möhkəmləndiyi əks olunub. Kadrlardan görünür ki, ərazilərdə məhv edilən düşmənin xeyli sayda texnikası, silah-sursatı qalıb.

• AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbirləri xəbər verib ki, Ermənistan ordusunun bölmələri Tərtər şəhərini, Ağdamın Gül Baharlı kəndini, Füzulinin Horadiz şəhərini və Arayatlı kəndini, Goranboy rayonunun Tapqaraqoyunlu kəndini, Aşağı Ağcakənd qəsəbəsini və digər yaşayış məntəqələrini ağır silahlardan atəşə tutublar. Bu müharibə cinayətləri nəticəsində onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud ziyan çəkib.

**AZƏRTAC**
**2023, 1 oktyabr**

**Vətən müharibəsinin xronikası: 3 oktyabr**

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.***

***AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.***

**Müharibənin 7-ci günü**

• "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan Bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!". Bu barədə Prezident, Ali Baş Komandan İlham Əliyev özünün rəsmi tviter səhifəsində **bildirib**.

• Dövlətimizin başçısı Azərbaycan Ordusunun Tərtər rayonunun Talış, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq və Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndlərini azad etməsi barədə **məlumat** verib.

• Prezident İlham Əliyev işğaldan azad olunan Madagizin tarixi adını bərpa edərək onun **Suqovuşan** adlandırıldığını elan edib.

• Müdafiə Nazirliyi müharibənin ilk həftəsi ərzində düşmənin ümumi itkilərinin sayını **açıqlayıb**: 230-dək tank və digər zirehli texnika, 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 38 ədəd hava hücumundan müdafiə vasitələri, 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 7 silah-sursat anbarı, 130-dan çox avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi.

• Baş prokurorun **məlumatına** görə, sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində 19 mülki şəxs həlak olub, 63 dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ermənistan silahlı qüvvələrinin dinc əhaliyə qarşı törətdiyi cinayətlərlə bağlı Baş Prokurorluq tərəfindən 12 cinayət işi başlanıb.

• Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdən **videogörüntülər** yayılıb.

• Azərbaycanın Müdafiə Nazirliyi düşmənin **ağır itkilər verməsini** və hərbi texnikasına **sarsıdıcı zərbələr endirilməsini** əks etdirən yeni görüntülər paylaşıb.

• Müdafiə Nazirliyi: Gecə ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin **qarşısı alınıb**.

• Ermənistan ordusunun bölmələri Naftalanın **Qaşaltı Qaraqoyunlu** kəndini, Tərtər rayonunda məcburi köçkünlər üçün salınmış **yaşayış kompleksini**, Ağcabədi rayonunun **Hindarx** qəsəbəsini və digər yaşayış məntəqələrini ağır silahlardan və artilleriya qurğularından atəşə tutub. Onlarla ev və infrastruktur obyekti dağılıb, yaxud ziyan çəkib.

Bu barədə AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbirləri xəbər verib.

**AZƏRTAC**
**2023, 3 oktyabr**

**Vətən müharibəsinin xronikası: 8 oktyabr**

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.***

***AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.***

**Müharibənin 12-ci günü**

• Bölmələrimiz tərəfindən Ermənistan silahlı qüvvələrinin hərbi hissəsinin qərargahına, infrastrukturuna və silah-sursat anbarlarına artilleriya zərbələri endirilib. Yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikasından ibarət hərbi kolonu dəqiq artilleriya atəşi ilə sıradan çıxarılıb. Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan ordusuna məxsus 10-dək tank, 6 ədəd "D-20" top, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və düşmənin xeyli sayda canlı qüvvəsi məhv edilib. Bu barədə Müdafiə Nazirliyi **məlumat** yayıb.

• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində Ermənistan ordusu hərbçilərinin döyüş meydanında qoyub qaçdıqları **zirehli texnikaların**, düşməndən əldə olunan **hərbi qənimətlərin** videogörüntülərini paylaşıb.

• "Azərkosmos" ASC işğaldan azad olunmuş Cəbrayıl şəhərinin "Azersky" peykindən əldə edilmiş **təsvirini** yayıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində oktyabrın 8-i saat 13:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 31-ə, xəsarət alanların sayı isə 154-ə çatıb, 928 ev, 133 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluğun **məlumatında** bildirilib.

• Azərbaycan Ordusunun bölmələri düşmənin **zirehli texnikasını** məhv etməyə davam edir.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbirləri düşmənin xain hücumuna məruz qalmış yaşayış məntəqələrində - **Goranboy**, **Ağdam**, **Gəncə**, **Bərdə** və **Füzulidə** çəkilişlər aparıblar.

**AZƏRTAC**
**2023, 8 oktyabr**

**Füzulinin daha 88 sakini doğma yurduna yola salınıb**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 10-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə - 88 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinə böyük ehtiram duyduqlarını dilə gətiriblər.

Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Füzuli şəhərində 165 ailənin, yəni, 602 nəfərin daimi məskunlaşması təmin ediləcək.

**06:30**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC xəbər verir ki, Böyük Qayıdış proqramı çərçivəsində oktyabrın 10-da növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 21 ailə - 88 nəfər köçürülür.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb.

Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində Azərbaycan dövləti tərəfindən yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da, Böyük Qayıdış proqramı çərçivəsində Füzuli şəhərində 165 ailə, yəni 602 nəfərin daimi məskunlaşması təmin ediləcək.

**AZƏRTAC**
**2023, 10 oktyabr**

**Füzuli şəhərində daha 21 ailəyə evlərinin açarları təqdim olunub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Səhər saatlarında növbəti köç karvanı ilə Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən yola salınan 21 ailə Füzuliyə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yenidən çiçəklənən Füzuli doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 21 ailə, o cümlədən 88 nəfər Füzuli sakini doğma yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük coşqu ilə qarşılanıb.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər. Füzuliyə qayıdan ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alıblar.

Bununla da Füzuli şəhərində 165 ailə olmaqla, 602 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 10 oktyabr**

**Füzuli şəhərinə köçən növbəti 21 ailəyə evlərinin açarları təqdim olunub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu gün 21 ailə olmaqla, 88 nəfər Füzuli sakini doğma yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük coşqu ilə qarşılanıb.

Onlar doğma yurduna qayıdışın sevincini yaşayıb, daha əvvəl Füzulidə məskunlaşan həmyerliləri ilə görüşərək vətənə qovuşmağın sevincini paylaşıblar.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Füzuliyə qayıdan ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alıblar.

Bununla da Füzuli şəhərində 208 ailə olmaqla, 749 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 12 oktyabr**

**Böyük Qayıdış: Növbəti 22 ailə Füzuliyə yola salınıb**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 13-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 22 ailə - 62 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü olaraq, təhlükəsiz şəkildə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Abadlaşan və daha da gözəlləşən Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkürünü bildirib, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinə böyük ehtiram duyduqlarını dilə gətiriblər.

Qeyd edək ki, köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Füzuli şəhərində 230 ailənin, yəni, 811 nəfərin daimi məskunlaşması təmin ediləcək.

**AZƏRTAC**
**2023, 13 oktyabr**

**Füzuli şəhərinə qayıdan daha 28 ailəyə evlərinin açarları təqdim olunub**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu gün 28 ailə olmaqla, 117 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük coşqu ilə qarşılanıb. Onlar daha öncədən Füzulidə məskunlaşan həmyerliləri ilə görüşərək sevinc hisslərini paylaşıblar.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov mənzillərin açarlarını ailələrə təqdim edib.

Bununla da Füzuli şəhərində 258 ailə olmaqla, 928 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 14 oktyabr**

**Füzulidə "Qalib ordu –Azad şəhər" adlı sərgi açılıb**

Füzulidə "Qalib ordu –Azad şəhər" adlı tədbir-sərgi keçirilib. Sərgi Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə gerçəkləşib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə Füzuli Rayon İcra Hakimiyyətinin nümayəndəsi, şəhid ailələri, veteran və qazilər, Füzuli rayon Mədəniyyət işçiləri, Füzuli rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları, məktəblilər və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Ordumuzun gücü sayəsində əldə olunan Qələbədən danışıblar. Bildirilib ki, Vətən uğrunda canlarını fəda edən şəhidlərimiz öz qəhrəmanlıqları ilə gələcək nəsillərə örnək olmaqla əbədi yaddaşlara həkk olunub və onların xatirəsi hər zaman anılır. Həmçinin qeyd edilib ki, Füzuli rayonu şəhidlərinə məxsus olan 493 ədəd əşya muzeyin əsas fonduna daxil edilib. Bu əşyalar hər ilin əlamətdar günlərində sərgi şəklində ziyarətçilərə nümayiş etdirilir. Növbəti il üçün isə II Qarabağ müharibəsi şəhidlərinə məxsus daha 82 ədəd əşyanın qəbulu və yeni əşyaların toplanması nəzərdə tutulur. Daha sonra sərgiyə baxış keçirilib. Muzeyin əsas fondunda yer alan Füzulinin işğaldan əvvəlki görüntülərini əks etdirən fotolardan və işğaldan azad edilmiş ərazilərimizdən tapılan maddi-mədəniyyət nümunələrindən ibarət, eyni zamanda, Füzulinin azadlığı uğrunda canlarından keçən şəhidlərimizin şəxsi əşyaları, sənədləri və fotoları nümayiş olunub. Həmçinin Füzuli rayonunun işğaldan sonrakı görüntülərini əks etdirən "Azad Füzuli" adlı videoçarx təqdim edilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 14 oktyabr**

**Vətən müharibəsinin xronikası: 15 oktyabr**

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. İgid döyüşçülərimiz 44 gün dayanmadan irəlilədilər və otuz il işğal altında qalan torpaqlarımızı azad edərək qəhrəmanlıq dastanı yazdılar.***

***AZƏRTAC 44 günlük Vətən müharibəsinin gedişini xronoloji ardıcıllıqla təqdim edir.***

**Müharibənin 19-cu günü**

• Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndlərini işğaldan azad edib. Prezident İlham Əliyev bununla bağlı rəsmi tviter səhifəsində **paylaşım** edib.

• Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin **NTV televiziyasına** və Rusiyanın **Ria Novosti agentliyi** üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

• Ermənistan silahlı qüvvələri Tərtər şəhər qəbiristanlığını dəfn mərasimi zamanı qəsdən ağır artilleriyadan intensiv atəşə tutub. Bu xain hücum zamanı üç nəfər həlak olub, beş nəfər xəsarət alıb. Beləliklə, düşmənin mülki əhalini atəşə tutması nəticəsində həlak olanların sayı 46-ya, xəsarət alanların sayı 223-ə çatıb. Bu barədə Baş Prokurorluq **məlumat** yayıb.

• Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram hesabında düşmən ordusunun Tərtər qəbiristanlığını dəfn mərasimi zamanı qəsdən atəşə tutması ilə bağlı **paylaşım** edərək dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıb, həlak olanların ailələrinə və doğmalarına başsağlığı verib.

• Müdafiə Nazirliyinin **məlumatına** görə, Azərbaycan Ordusu cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsini, 2 ədəd T-72 tankını, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksini, 4 ədəd BM-21 "Qrad" YARS qurğusunu, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd "D-1" haubitsa topunu, bir neçə PUA-sını və avtomobil texnikasını məhv edib. Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub.

• Döyüşlərdə yüksək şücaət göstərən Ordumuzun hər bir əsgəri ona verilən tapşırığı böyük qürurla və layiqincə icra edir, döyüş meydanında üçrəngli bayrağımızı şərəflə zirvədən-zirvəyə daşıyırlar - AZƏRTAC-ın **fotoları**.

• Ermənistanın müharibə cinayətləri davam edir. AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbirləri düşmənin ağır artilleriya qurğularından atəşə tutduğu Tərtər rayonunun **Düyərli** kənd orta məktəbində, **Tərtər** qəbiristanlığında, Ağdam rayonunun **Birinci Baharlı** qəsəbəsində çəkilişlər aparıblar.

**AZƏRTAC**
**2023, 15 oktyabr**

**Prezident İlham Əliyev Füzuli şəhərində idman kompleksinin təməlini qoyub**
*(16 oktyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində idman kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 17 hektar olan kompleksin baş planına əsasən, burada 200 yerlik tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, badminton, minifutbol məşqlərinin və yarışların, eyni zamanda, idmanın müxtəlif növləri üzrə turnirlərin keçirilməsinə imkan verən universal zal inşa ediləcək. Bundan başqa, kompleksdə 100 yerlik tamaşaçı tribunası olan üzgüçülük zalı, güləş, cüdo, boks, karate növü üzrə məşq və trenajor zalları yaradılacaq. Binada inzibati otaqlar, kafe, anbar və digər texniki sahələr də nəzərdə tutulub. Burada, həmçinin sauna və masaj otaqları, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar olacaq.

Diqqətə çatdırıldı ki, plana əsasən, ərazidə süni ot örtüklü minifutbol meydançası, açıq havada idman alətləri ilə təchiz edilmiş meydança və texniki bina da yaradılacaq.

Qeyd edək ki, bu idman kompleksi Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən inşa olunacaq.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Azərbaycan Prezidenti İlham Əliyev Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub**
*(16 oktyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, Füzuli şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. İnşa olunacaq ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Ümumilikdə 2288 nəfər üçün nəzərdə tutulan kompleks üçün 9 hektardan çox ərazi ayrılıb. İkinci yaşayış kompleksində ümumilikdə 653 mənzildən 13-ü birotaqlı, 209-u ikiotaqlı, 281-i üçotaqlı, 150-si dördotaqlı olacaq.

Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksək sürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməli qoyulub**
*(16 oktyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində 240 yerlik uşaq bağçasının təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına uşaq bağçası barədə məlumat verildi.

Bildirildi ki, uşaq bağçasının inşası üçün 2,4 hektar torpaq sahəsi ayrılıb. Layihəyə əsasən, uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq.

Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx olacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək. Uşaq bağçasının həyətində oyun meydançaları salınacaq və digər zəruri infrastruktur yaradılacaq.

Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Sonra dövlətimizin başçısı uşaq bağçasının təməlini qoydu.

Qeyd edək ki, Azərbaycanda uşaqların təlim-tərbiyəsinə, sosial müdafiəsinin gücləndirilməsinə, vətənpərvərlik ruhunda və sağlam yetişmələrinə daim xüsusi diqqət yetirilir. Bu məsələ işğaldan azad olunan ərazilərdə də diqqət mərkəzində saxlanılır.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Prezident İlham Əliyev Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoyub**
*(16 oktyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kompleks barədə məlumat verildi.

Bildirildi ki, üçüncü yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq.

Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Kompleksdəki binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

Dövlətimizin başçısı görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Sonra Prezident İlham Əliyev Füzuli şəhərində üçüncü yaşayış kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Füzuli şəhərində inzibati binanın təməli qoyulub**
*(16 oktyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli şəhərində inzibati binanın təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, inzibati binanın inşa olunacağı şəhərin mərkəzi ərazisində 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün isə 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada parad meydanı, bir hektar sahədə park inşa olunacaq. Bundan başqa, digər regional qurumlar üçün də ərazi nəzərdə tutulub. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.

Prezident İlham Əliyev görüləcək işləri əks etdirən videoçarxa baxdı.

Dövlətimizin başçısı inzibati binanın təməlini qoydu.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Prezident İlham Əliyev Füzuli rayonunun Cuvarlı kəndinin təməlini qoyub**
*(16 oktyabr 2023-cü il)*

Oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Füzuli rayonuna səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Füzuli rayonunun Cuvarlı kəndinin təməlinin qoyulması mərasimində iştirak etdi.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 291 fərdi ev və 2-4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək. Bu mərhələdə kəndə 129 ailənin - 508 nəfərin köçürülməsi planlaşdırılır.

Qeyd edildi ki, kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, çörək sexinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 312 şagird yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin, kitabxananın, ticarət obyektinin, bazarın, qonaq evinin tikilməsi planlaşdırılıb.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.

Prezident İlham Əliyev Cuvarlı kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Prezident İlham Əliyev Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlini qoyub**
*(16 oktyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Füzuli rayonunun Qoçəhmədli kəndinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Qoçəhmədli kəndinin layihələndirilən ümumi ərazisi 94,62 hektardır. Kəndə 1364 nəfərin köçürülməsi nəzərdə tutulub. Burada ümumilikdə 341 fərdi evin tikilməsi planlaşdırılıb. Kəndin birinci mərhələsi üçün 18,1 hektar torpaq sahəsi ayrılıb və burada 204 fərdi ev inşa olunacaq. Bu mərhələdə kəndə 204 ailənin - 710 nəfərin köçürülməsi nəzərdə tutulub.

Qeyd olundu ki, kənddə çoxfunksiyalı inzibati binanın, bayraq meydanının, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. Qoçəhmədli kəndində 264 şagird yerlik məktəb, 25 yerlik uşaq bağçası da inşa olunacaq.

Diqqətə çatdırıldı ki, kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Burada da enerjiyə qənaət məqsədilə alternativ enerjidən istifadə olunacaq və istilik tutumlu evlər tikiləcək.

Prezident İlham Əliyev Qoçəhmədli kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 16 oktyabr**

**Füzulidə Şəhər Günü qeyd olunur**

Bu gün Füzuli Şəhəri Günüdür. Bu münasibətlə Füzuli şəhərində ilk dəfədir ki, Şəhər Gün qeyd edilir.

AZƏRTAC xəbər verir ki, Şəhər Günü bayram tədbirində deputatlar, xarici ölkələrin diplomatları, Füzuli sakinləri, şəhid ailələri, qazilər və veteranlar, itimaiyyət nümayəndələri iştirak edirlər.

Ölkəmizin tanınmış incəsənət nümayəndələri konsert proqramı ilə çıxış edirlər.

Qeyd edək ki, Füzuli Şəhəri Gününün təsis olunması Füzuli şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır. Oktyabrın 17-də şəhərin erməni işğalçılarından təmizlənməsindən 3 il ötür.

Prezident İlham Əliyevin bu il iyulun 31-də imzaladığı Sərəncama əsasən, hər il oktyabrın 17-də Füzuli Şəhəri Günü təntənəli şəkildə qeyd ediləcək.

Füzuli rayonunda bərpa və yenidənqurma işləri sürətlə davam etdirilir. Şəhər ərazisində infrastruktur bərpa olunur, yaşayış binaları tikilir, kəndlər yenidən qurulur, həmçinin beynəlxalq hava limanı açılıb. Artıq Böyük Qayıdış proqramı çərçivəsində Füzuli şəhərinin sakinlərinin bir qrupunun qayıdışı təmin edilib.

**A.Yavərzadə**

**AZƏRTAC**
**2023, 17 oktyabr**

**Füzuli şəhərində 2040-cı ilədək 50 min sakin məskunlaşacaq**

Bu ilin sonuna qədər 3500-ə yaxın Füzuli sakininin şəhərə qayıdışı nəzərdə tutulur. Füzuli son 3 ildə, işğaldan azad olunduqdan sonra yenidən qurulur və bərpa edilir. Artıq Füzuli sakinləri öz doğma yurdlarına qovuşur. Təxminən 1000-ə yaxın sakin Füzuli şəhərində məskunlaşıb. Ümumiyyətlə, 2040-cı ilədək Füzuli şəhərində 50 min vətəndaşımız məskunlaşacaq.

Bunu Füzuli şəhərində AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov bildirib.

"Bu gün möhtəşəm gündür, Füzulinin işğaldan azad olduğu gündür. Eyni zamanda, Prezident İlham Əliyevin Sərəncamı ilə Füzuli Şəhəri Günü qeyd olunur", - deyən deputat qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət Qarabağ və Şərqi Zəngəzurun daha intensiv və daha qısa müddətdə bərpasına imkan yaradır. "Məskunlaşma prosesinin sürətlənməsi də bunun göstəricisidir", - V.Bayramov vurğulayıb.

**A.Yavərzadə**

**AZƏRTAC**
**2023, 17 oktyabr**

**Prezident İlham Əliyev "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb**
*(17 oktyabr 2023-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də "Füzuli Şəhəri Günü"ndə Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

**Prezident İlham Əliyev:** Salam-əleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz. Sizi görməyimizə çox şadıq.

**Şəhid bacısı:** Salam, xoş gəlmisiniz.

**Kişi sakin:** Təbrik edirik, cənab Prezident. Var olasınız. Allaha şükür ki, Füzulidə də görüşə bildik.

**Prezident İlham Əliyev:** Əlbəttə. Sağ olun.

**Qadın sakin:** Təşəkkür edirik, Sizi xoş gördük.

**Prezident İlham Əliyev:** Salam. Siz də xoş gəlmisiniz.

**Sakinlər:** Hər şey üçün minnətdarıq. Qürurumuzsunuz.

**Kişi sakin:** Salam, cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Necə də gözəl bir gündür. Siz mənə "Xoş gəlmisiniz!" deyirsiniz. Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi. Bu gün Füzulidə bayram günüdür, şəhər günüdür və eyni zamanda, Füzuli şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident, təşəkkür edirik. Sağ olun.

**Prezident İlham Əliyev:** Arzu edirəm ki, Füzulidə - doğma Vətəndə rahat yaşayasınız, firavanlıq, rifah içində yaşayasınız.

Şadam ki, gənc nəsil də - füzulililərin gənc nəsli də öz doğma torpağına gəlməyə qərar verdi. Bu, doğrudan da böyük hadisədir, çünki uşaqlar, yeniyetmələr, gənc nəsil bu torpaqları görməyiblər. Onlar bu torpaqlar barədə ancaq sizin onlara danışdıqlarınızı ürəklərində saxlamışdılar. Bu, xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, biz öz doğma diyarımıza bağlı olan xalqıq.

İşğal dövründə bəziləri, xüsusilə xaricdəki bəzi dairələr hesab edirdilər ki, illər keçdikcə Azərbaycan xalqı öz torpaqlarını unudacaq, gənc nəsil, ümumiyyətlə, tam başqa bir tərzdə tərbiyə alacaq. Qloballaşan dünya haqqında bir çox fərziyyələr irəli sürülürdü. Ancaq o təhlilçilər və eyni zamanda, siyasi müstəvidə olanlar bir şeyi anlaya bilməmişlər ki, Azərbaycan xalqının öz doğma diyarına nə qədər böyük sevgisi var, biz nə qədər doğma diyara bağlıyıq.

Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır. Füzulinin yeni siması göz oxşayır.

Onu da bildirməliyəm ki, bu gün həm Füzulidə, həm bütün başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələr dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit edir və bunu təkcə mən yox, bir çox beynəlxalq ekspertlər qeyd edir. Xüsusilə, bildiyiniz kimi, Azərbaycanda iki dəfə Milli Şəhərsalma Forumu keçirilmişdir, Ağdamda və Zəngilanda və orada bizim bütün layihələrimiz təqdim edilmişdir. Beynəlxalq təşkilatlar bunu çox yüksək qiymətləndirirlər, çünki doğrudan da burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, binaların bir-birindən aralı olması, məsafə, hər şey gözlənilib. Yəni, rahat yaşamaq üçün bütün infrastruktur, şərait var. Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik. Düzdür, laçınlılar füzulililərdən bir qədər tez öz doğma yurduna qayıtmışlar. Amma Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma apardıqları üçün orada binaların

bəziləri qalmışdı və biz o evləri sadəcə olaraq bərpa etdik, ən gözəl şərait yaratdıq. Deməli, Laçının əvvəlki şəhərsalma mənzərəsi yerindədir. Burada isə şəhər tamamilə yenidən qurulur.

Füzulinin timsalında, eyni zamanda, bütün dünya, hətta bunu görmək istəməyənlər görürlər və görməlidirlər ki, erməni vəhşiliyi nədən ibarətdir. Biz uzun illər Qarabağ dərdimizin həqiqətlərini dünya birliyinin diqqətinə çatdırmağa çalışanda bəziləri inanmırdı, elələri də var idi ki, inanmaq istəmirdi. Bizim əlimizdə o qədər də böyük sübutlar yox idi. Biz bilirdik ki, hər şey dağıdılıb, viran qoyulub, ancaq bu dərəcədə hətta biz təsəvvür edə bilmirdik. Çünki işğalçı dövlət heç kimi o vaxt bu bölgəyə buraxmırdı, qadağan etmişdi. Nə üçün? Çünki buraya gələn hər bir insan görəcəkdi, erməni vəhşiliyi nədən ibarətdir. Onun təzahürləri hər yerdə görünür.

Mən bunu dəfələrlə demişəm, indi bir çoxları bunu bilir, bir daha demək istəyirəm, Füzuli azad olunanda bir salamat bina tapa bilmədik ki, Bayrağımızı qaldıraq, bir hərbi hissədən başqa. Onun da həyətində dirəkdə Bayrağımızı ucaltdıq və buraya ilk dəfə gələndə, vallah, hər bir azərbaycanlı kimi adamın ürəyi ağrıyırdı, məəttəl qalırdı, dəhşətə gəlirdi insan ki, bu dərəcədə düşmənçiliyin mənbəyi nədir?! Axı biz ermənilərə nə etmişdik?! Biz onlarla yanbayan yaşamışdıq. Onlar bizim çörəyimizi yeyiblər, bizim hesabımıza onlar üçün şəhərlər, kəndlər qurulmuşdu, infrastruktur yaradılmışdı. Sovet dövründə bütün bu işlərin hamısı Azərbaycan büdcəsi hesabına görülmüşdür. İnsanlara zülm etmək, onlara işgəncə vermək, Azərbaycan xalqına qarşı etnik təmizləmə aparmaq, görünür, onların ürəyində olan o qara ləkələr idi. Biz onu bilməmişik o vaxt. Biz bir növ sadəlövh olmuşuq. Ona görə mən deyirəm, biz heç vaxt işğalı, əzab-əziyyəti unutmamalıyıq. Gənc nəsil də bunu bilməlidir. Bu gün bu məktəbdə oxuyan uşaqlar da bunu bilməlidir. Bilməlidir ki, bizim xalqımız hansı çətin sınaqlardan çıxıb, əyilməyib, sınmayıb, özünə inanıb, ordusuna inanıb. İnanıb ki, bu gün gələcək, biz burada durub sizinlə bu bayram gününü qeyd edəcəyik.

Füzuli indi tamamilə yenidən qurulur. Dünən burada olarkən bir neçə önəmli obyektin təməlini qoyduq. İki kəndin, uşaq bağçasının, idman kompleksinin, yeni yaşayış məhəllələrinin, inzibati mərkəzin təməli qoyuldu. Yəni, aylar keçdikcə burada yaşayanların sayı da təbii ki, artacaq. Mənə dünən məlumat verildi ki, 800-dən çox insan artıq yerləşib. İlin sonuna qədər burada təqribən 2 minə yaxın insan yaşayacaqdır. Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni, bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər. Məsələn, mən həm Zəngilanda, həm Laçında uşaqlarla söhbət əsnasında maraqlanırdım. Yəni, Bakıda doğulmuş, böyümüş, necə deyərlər, böyük şəhərin ab-havasına öyrəşmiş uşaq, yeniyetmə gəlib indi bir qədər uzaqda yerləşən şəhər və kənddə necə yaşayır? Onlar ürəkdən deyirdilər ki, bu, böyük xoşbəxtlikdir. Bu, o cümlədən sizin, yəni, böyük nəslin tərbiyəsidir. Çünki onlar evlərdə də, məktəblərdə də bu tərbiyəni görüblər. Ona görə məktəb və ailə bizim buraya qayıtmağımızın vacib amilidir. Çünki qoymadıq ki, gənclər unutsun. Qoymadıq ki, Qarabağ mövzusu silinsin. Halbuki bunu bizə aşılamaq istəyən bir çox ölkələr, qüvvələr var idi, yəni, barışmaq lazımdır, Ermənistanla əməkdaşlığa başlamaq lazımdır. Bir çoxları təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Biz göstərdik ki, var və bu yaxınlarda bir daha göstərdik, bu mövzu bağlandı! Qarabağ münaqişəsi mövzusu bağlandı birdəfəlik! Separatçıların kitabı bağlandı birdəfəlik! Bu, böyük xoşbəxtlikdir.

İndi isə qalıb ki, insanlar burada rahat yaşasınlar. Onu da bildirməliyəm ki, biz bütün layihələri icra edərkən, o cümlədən məşğulluq məsələlərinə də böyük diqqət yetiririk. Aidiyyəti dövlət qurumları bu məsələ ilə də bağlı ciddi addımlar atır ki, burada yerləşən insanların məşğulluq imkanları da olsun. Şəhərin özünəməxsus məşğulluq imkanları var. Əlbəttə ki, kəndlərdə yerləşən və yerləşəcək vətəndaşlar, ənənəvi məşğulluqla məşğul olacaqlar, dövlət isə öz tərəfindən onlara kömək göstərəcək – texnika ilə, mal-qara ilə, bütün lazımi vasitələri onlara təqdim etməklə. Özünüməşğulluq proqramı icra ediləcək ki, burada həyat qaynasın. Əminəm ki, müəyyən müddətdən sonra Qarabağ Azərbaycan iqtisadiyyatında bir təkanverici qüvvəyə çevriləcək. Çünki bizim iqtisadiyyatımızın, bax, buradan qalxması ümumi inkişafa da böyük töhfə olacaqdır.

Bu gün bu bayram gününü qeyd edərkən, təbii ki, əziz şəhidlərimizin xatirəsinə hamımız bir daha öz dərin ehtiramımızı ifadə edirik. Mən iki gün əvvəl Xankəndinin əsas, mərkəzi meydanında xalqa müraciət edərkən demişdim ki, bu günə görə biz onlara borcluyuq. Bu, həqiqətdir. Dövlətin nə qədər gücü olsa, nə qədər silahı olsa, nə qədər düzgün hərbi əməliyyatlar planlaşdırılsa da, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim

yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək. Bu gün onların ruhu şaddır ki, biz buradayıq, siz buradasınız və nə qədər acı olsa da, onların yaxınları üçün, doğmaları üçün bir təsəlli var. O da odur ki, onlar canlarını fəda edərək tarixi Zəfər çalıblar. Biz Birinci Qarabağ müharibəsində 15 minə yaxın şəhid verdik, amma torpaqlar da getdi. Əlbəttə, həlak olan hər bir insan əvəzolunmazdır. Ancaq İkinci Qarabağ müharibəsində əməliyyatlar elə planlaşdırılırdı ki, itkiləri minimuma endirək və buna da nail olduq.

Bir daha demək istəyirəm ki, biz hər zaman, onlara borclu olmalıyıq. Gənc nəsil də daim bu ruhda tərbiyə almalıdır. Onların qəhrəmanlığı unudulmazdır, belə ağır coğrafi məkanda bu tarixi Qələbəni qazanmağın misli-bərabəri yoxdur. Düşmən bütün yüksəklikləri götürmüşdü. Buradan istənilən istiqamətə getsən görərsən ki, hər təpədə demək olar ki, onların postları, döyüş məntəqələri, bir neçə müdafiə xətti, tikanlı məftil və minalar, bunu yarmaq, atəş altında qabağa getmək nə qədər böyük cəsarət tələb edir. Bu, bəlkə də dünya hərb tarixində olmayıb. Olubsa, qoy, bizə desinlər harada olub. Olmayıb, bunu Azərbaycan xalqı göstərmişdir. Biz işğal dövründə elə gənc nəsil yetişdirdik ki, onlar Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdilər.

Əziz bacılar, qardaşlar, dostlar, bir daha təbrik edirəm. Bu gün həm sevincli, həm kədərli gündür. Qızımızın göz yaşları da təbii ki, heç vaxt dayanmayacaq. Bunu biz bilməliyik, 10 il keçsə də, 20 il keçsə də. Hamımız göz yaşları tökmüşük və tökürük.

Təbrik edirəm, cansağlığı arzulayıram, uşaqlara yaxşı baxın, yetişdirin, vətənpərvər olsunlar, Vətənə bağlı olsunlar, bizim qəhrəmanlar kimi olsunlar, şöhrətimizi göylərə qaldırsınlar. Sağ olun.

**x x x**

Sonra dövlətimizin başçısı tədbir iştirakçıları ilə söhbət etdi, xatirə şəkilləri çəkdirdi.

**x x x**

**Kişi sakin:** Çox sağ olun. Allah Sizi var eləsin, cənab Prezident.

**Qadın sakin:** Allah Sizi qorusun, Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun. Bütün kəndlərə gedəcəyik. Füzuli rayonunun artıq 5-6 kəndinin təməli də qoyulub.

**Sakinlər**: Çox şükür.

**Kişi sakin:** Cənab Prezident, ən əsası odur ki, Xankəndi, Xocalı, Xocavənd, Ağdərə sevincini bizə yaşatdınız.

**Prezident İlham Əliyev:** Bəli.

**Sakin**: Ən böyük fəxr etdiyimiz odur ki, bizim Prezidentimiz dünyada məşhurdur, onu dünya qəbul edir, dünya onun sözünü eşidir.

**Prezident İlham Əliyev:** Bilirsiniz, dünya belədir ki, bəziləri qəbul edir, bəziləri.

**Sakin:** Edə bilmir.

**Prezident İlham Əliyev:** Etmir. Amma əsas odur ki, biz istədiyimizi edək. Çünki biz haqq yolundayıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur.

**Qadın sakin:** Artıq yol Zəngəzuradır.

**Prezident İlham Əliyev:** Zəngəzura da, əlbəttə ki, qayıdacağıq, amma sülh yolu ilə. Mən demişəm, məni bəziləri ittiham etməyə çalışırlar, mən dedim ki, biz oraya tanklarla yox, minik maşınları ilə qayıdacağıq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Necə ola bilər, bizim əsrlər boyu qurduğumuz məkandır. Amma bu gün.

**Kişi sakin:** Ruhu şad olsun, Ulu Öndər deyirdi, mən fəxr edirəm ki, azərbaycanlıyam. İndi hər bir azərbaycanlı fəxr edir ki, sözün həqiqi mənasında, biz azərbaycanlıyıq.

**Prezident İlham Əliyev:** Bəli, elədir.

**Sakin:** Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var, cənab Prezident.

**Prezident İlham Əliyev:** Ulu Öndər bunu deyəndə tam haqlı idi. Ancaq bilirsiniz, o vaxt işğal dövrü idi və bəziləri hesab edirdi ki, azərbaycanlılar bu işğalla barışacaq. Bəziləri belə çirkin təbliğat aparırdı xüsusilə xarici dairələrdə ki, biz bunu unutmuşuq, biz vəziyyətlə barışmışıq. O isə heç vaxt barışmırdı bu vəziyyətlə və bizə qoyduğu, necə deyərlər, bu yol da məhz azadlıq yolu idi, qurtuluş yolu idi. Ona görə biz bu tarixi Zəfəri çalandan sonra artıq bütün dünya gördü ki, O, o vaxt, o ağır dövrdə nə qədər haqlı idi.

**Sakin:** Uzaqgörən idi, haqlı idi.

**Prezident İlham Əliyev:** Bəli, bilirdi, xalqın, necə deyərlər, qəlbini, qəlbindəki bütün duyğularını bilirdi və əlbəttə ki, həm sevinirik, həm heyfsilənirik ki, O və onun kimi yüz minlərlə insan bu həyatdan getdi, bu günü görmədi.

**Sakinlər:** Ruhları şaddır.

**Prezident İlham Əliyev:** Əlbəttə, ruhları şaddır. Buna inanıram və inanmaq lazımdır, onların - həyatdan getmiş, bu günü görməmiş yüz minlərlə keçmiş köçkünün, şəhidlərimizin ruhları şaddır.

**Sakin:** Hörmətli Prezidentimiz, biz füzulililər üçün çox qürurvericidir ki, Qarabağın azad olunması 30 il öncə Ulu Öndərin Prezidentliyi dövründə - 1994-cü ildə Horadiz əməliyyatı ilə başlayıb.

**Prezident İlham Əliyev:** Bəli.

**Sakin:** Bizim üçün qürurvericidir ki, Böyük Qayıdışın ilk addımı da Sizin Prezidentliyə başladığınız dövrdə Horadiz qəsəbəsinin böyük şəhərə çevrilməsi, Haramıda, Zobucuqda abad qəsəbələrin inşa edilməsi sayəsində baş veribdir.

**Prezident İlham Əliyev:** Düzdür.

**Sakin:** İki il öncə biz burada - Füzulidə təməlqoyma mərasimində iştirak edəndə burada heç nə yox idi. Doğrudan da hər yan xaraba idi. İndi çox şükür, var olun, böyük, abad bir şəhərə çevrilibdir, qürurvericidir. Özü də təkcə Füzuli yox, bütün Qarabağ tikinti meydanıdır, hər yerdə yollar çəkilir, şəhərlər salınır, kəndlərin bünövrəsi qoyulur, infrastruktur layihələri icra edilir.

**Prezident İlham Əliyev:** Elədir.

**Sakin:** Cənab Prezident, nağıllarımızda Qarabağa "Cənnətməkan Qarabağ" deyirlər, Sizin sayənizdə doğrudan cənnətə çevrilir. Allah canınızı sağ eləsin, işiniz avand olsun. Biz Sizə bu böyük işdə uğurlar diləyirik.

**Prezident İlham Əliyev:** Çox sağ olun, indi bütün şəhərlərdə ya tikinti gedir, ya da tikintiyə hazırlıq gedir. Mən əminəm ki, gələn il Cəbrayılda şəhər günü qeyd ediləcək. Bu il qeyd edilmədi, çünki orada hələ ki, vətəndaşlar yerləşməyib. Amma gələn ilin oktyabr ayına qədər, - çünki birinci azad olunmuş şəhər Cəbrayıl olmuşdu, - oktyabrın 4-də orada da şəhər günü keçiriləcək, hər yerdə - Şuşada birinci yaşayış məhəlləsi yəqin ki, 5-6 aya hazır olacaq. Birinci qrup keçmiş köçkünlər qayıdacaq. Ağdam da böyük tikinti meydançasıdır. Bu yaxınlarda Zəngilanda olarkən orada da, Qubadlıda, Kəlbəcərdə gələn ilin sonuna qədər keçmiş köçkünlər artıq şəhərə yerləşəcəklər. Bizdə bütövlükdə 8 şəhər, 92 kənd və qəsəbə Birinci Qayıdış Planına salınıb. Onların da böyük əksəriyyəti 2026-cı ilin sonuna qədər başa çatacaq. Yəni, üç ildən sonra azad edilmiş ərazilərdə minimum, - biz belə təxmin edirik, - 140 min insan yaşayacaq.

**Sakin:** Çox böyük göstəricidir.

**Qadın sakin:** Üç ildir. Amma onlar otuz ildə bir mismar belə çalmamışdılar. Bilirdilər ki, onların deyil.

**Sakin:** Onlar dağıdırdılar.

**Prezident İlham Əliyev:** Bəli, onlar nəinki, buraları dağıtmışlar, vaxtilə yaşadıqları yaşayış məntəqələrində də heç bir iş görülməyib, sovet vaxtında necə var idisə, elə də qalıb. Mən oranın hər tərəfini dəfələrlə gəzmişəm. Adam o kəndlərin vəziyyətinə baxanda, özünə sual verir ki, bəs, bunlar hər il yüz milyonlarla dollar pul yığırdılar, telemarafon düzəldirdilər, Los-Ancelesdə, Fransada, bəs, o pulları hara xərcləyiblər? Onlardan gərək soruşsunlar.

**Sakin:** Serjik Sarkisyanın cibindədir, Robert Köçəryan xərcləyibdir.

**Prezident İlham Əliyev:** Orada bir dənə də daş-daş üstə qoyulmayıb, indi yəqin ki, insanlar oraya gedib görəcəklər, elə necə var idi, dağılmış, çox bərbad vəziyyətdə.

**Qadın müəllim:** Cənab Prezident, bu gün - oktyabrın 17-si Füzuli bayramı – "Füzuli Şəhəri Günü" biz füzulililər üçün həqiqətən də həm sevindirici, həm də qürurverici bir gündür. Bu gün Füzulimizin – 30 il işğal altında olan, erməni vandalizminə məruz qalan gözəl Füzulimizin yenidən daha gözəl, daha müasir şəkildə qurulması həqiqətən də bizim üçün çox xoşbəxt anlardır. Artıq biz Füzuli sakiniyik, artıq burada daimi yaşayırıq və Sizi, eyni zamanda, Mirzə Uluqbəy adına 1 nömrəli məktəbin kollektivi adından salamlayırıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın müəllim:** Mən otuz il bundan öncə 13-14 yaşlarında bir yeniyetmə məktəbli kimi çıxdığım Füzulimə bu gün müəllim kimi qayıtmışam. Buna görə, əlbəttə ki, Sizə, başda Siz Ali Baş Komandanımız olmaqla, bütün Azərbaycan Ordusuna minnətdarıq. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Məhz onların qanı-canı bahasına, - özünüz gözəl dediyiniz kimi, - qazilərimizin şücaəti bahasına biz bu gün öz doğma yurdumuzdayıq. Buna görə bir daha Sizə cansağlığı, uzun, sağlam ömür arzu edirik, Allah Sizi və Ordumuzu qorusun!

**Sakinlər:** Amin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Sakin:** Cənab Prezident, bu gün Siz çıxışınıza bayram əhvali-ruhiyyəsi ilə başladınız. Çünki 2023-cü il Azərbaycanda bayramlar ilidir. Birincisi, “Heydər Əliyev İli” elan olunması, bununla bağlı respublikanın bütün regionlarında keçirilən tədbirlər, Heydər Əliyev irsinin öyrənilməsi və gənclərə öyrədilməsi bir bayram əhvali-ruhiyyəsidir. İkincisi, Azərbaycan xalqının dəstəyi ilə Sizin apardığınız 20 illik ardıcıl siyasətin bu gün hesabat günüdür. Hesabatdan hər şey görünür, hər şey bilinir. Sizin apardığınız siyasətin ən kulminasiya nöqtəsi erməni separatizminin belini qırmağınızdır. Bütün dünya ermənilərinə “dəmir yumruğu” göstərdiniz ki, yadınızda saxlayın, hamınızın beli burada qırılar Azərbaycanda başqa bir şey olsa. Artıq bu gün yoldaşlar dedilər, biz iki il bundan qabaq Sizinlə burada görüşəndə, binanın təməli qoyulanda biz deyirdik ki, yəqin bir on ilə burada bir bina tikilər-tikilməz. Ancaq bu gün bu binalar tikilib. Bu, bizim üçün çox qürurvericidir. Artıq Füzulidə yenidənqurma işlərinə, quruculuq işlərinə böyük start verilib. Biz bayaqdan camaatla söhbət edirik, deyirik ki, bu quruculuq işləri kosmik sürətlə gedir, Allah xalqımızı xatadan-bəladan uzaq eləsin, Sizə cansağlığı versin.

**Sakinlər:** Amin.

**Sakin**: Biz Sizin ətrafınızda çox sıx birləşmişik. Biz Sizin apardığınız siyasəti dəstəkləyirik. Füzulidə bugünkü bayram - “Füzuli Şəhəri Günü” münasibətilə biz Füzuli camaatı adından Sizi təbrik edirik və Sizin apardığınız siyasətdə uğurlar arzu edirik. Allah Sizi qorusun!

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Bu gün Füzulidə, Qarabağın digər bölgələrində və Şərqi Zəngəzurda yerləşən şəhərlərdə gedən işlər, doğrudan da genişmiqyaslı işlərdir. Bunun mənbəyi də Azərbaycan mənbəyidir, yəni, biz heç kimdən bir manat kömək istəməmişik. Sağ olsun özbək qardaşlarımız gözəl məktəb tikdirdilər və qazax qardaşlarımız da indi Yaradıcılıq Mərkəzini inşa edirlər. Ondan başqa bizə bir dənə də mismar da hədiyyə edilməyib.

Biz bu illər ərzində həm iqtisadiyyatı qurduq, həm ehtiyatlar yığdıq. Nə üçün? Bilirdik ki, bu gün gələcək, o vəsait bizə lazım olacaq və biz haraya xərcləyirdik - orduya. Birinci yerdə ordu xərcləridir, ikinci təhsil xərcləridir. Həmişə bizim büdcəmizdə, bu iki əsas prioritet var idi. İndi ordu xərclərinə biz yenə də vəsait ayırmalıyıq. Çünki yumruq daim yerində olmalıdır. Ancaq, eyni zamanda, indi vəsaitin əsas hissəsi Qarabağın bərpasına gedir.

Ona görə heç kimdən asılı deyilik, heç kimdən heç nə istəmirik. Ona görə bəlkə də bəzi böyük dövlətlər bizdən narazıdırlar. Çünki onlar öyrəşiblər ki, gəlsinlər onların qabağında baş əysinlər, o da icazə versin, verməsin. Bəziləri hesab edirdilər ki, biz antiterror tədbirlərini apararkən heç kimdən soruşmamışıq. Yəni, biz kimdən soruşmalıyıq?! Nəyi soruşmalıyıq?! Bəziləri indi deyirlər ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq. Bu da qəribədir ki, bir qrup ölkə özünü beynəlxalq ictimaiyyət sayır. Axı, beynəlxalq ictimaiyyət deyəndə, 200-dən çox ölkə var, 20-30 ölkə beynəlxalq ictimaiyyət sayıla bilməz. Onlar elə öyrəşiblər, özlərindən başqa heç kimi ictimaiyyət saymırlar və belə bir ittiham indi irəli sürülür ki, biz beynəlxalq ictimaiyyəti aldatmışıq, antiterror tədbirləri keçirməklə onları aldatmışıq. Bu, çox zərərli məntiqdir. Biz öz doğma torpağımızda suverenliyi bərpa etmişik haqlı olaraq, bütün norma və prinsiplərə, beynəlxalq müstəvidə təsbit olunan prinsiplərə uyğun şəkildə. İndi bizi ittiham etməyə heç kimin haqqı yoxdur. Düzdür, cəhdlər var, yəqin ki, siz də izləyirsiniz, olub və olacaq.

**Sakin:** Özlərini ifşa edirlər.

**Prezident İlham Əliyev:** İfşa edirlər, əlbəttə, biabır edirlər özlərini. Ona görə biz indi öz yolumuza davam edəcəyik. Yenə də deyirəm, biz bütün doğma torpaqlarımızı yenidən quracağıq. Buradan o dağlara baxanda belə bir gözəl mənzərə açılır, kənd təsərrüfatı üçün çox yaxşı imkanlar var. Yəqin ki, ilin sonunda Köndələnçay su anbarları artıq istifadəyə veriləcək. İki gün əvvəl Sərsəng su anbarının üstündə idim. Onu da atam o vaxt inşa etdirib.

**Sakinlər:** Allah rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Allah ölənlərinizə rəhmət eləsin. İnşa etdirib ki, yüz min hektar sahə, altı rayon - azərbaycanlıların yaşadıqları rayonlar su ilə təmin edilsin. Amma ermənilər nə etdilər, suyumuzu kəsdilər. Qışda açırdı ki, bütün yeri su bassın, yayda kəsirdi. Bax, erməni xisləti budur. Onu görsünlər, bu gün onların yanında yer alanlar, qoy görsünlər onlar nə ediblər. Biz indi bir kanal çəkmişik, ikinci sağ kanal da çəkiləcək, yəqin ki, maksimum ilyarım ərzində. Biz 100 min hektar torpağa su verəcəyik. İndi suyumuza da sahib olduq. Bizim su mənbələrimizin 25 faizi Qarabağ və Kəlbəcər-Laçın zonasında formalaşır. İndi Köndələnçay qayıtdı, Sərsəng, Suqovuşan qayıtdı, Xaçınçay qayıtdı, Həkəri suyu, indi Zabuxçay su anbarı inşa edilir, bir ilə hazır olacaq.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Bəli, suvarma ilə bağlı başqa layihələr də icra edilir. Onsuz da burada torpaqlar münbitdir.

**Sakin:** Çox bərəkətlidir.

**Prezident İlham Əliyev:** Bərəkətlidir, özü də Füzuli torpağı xüsusilə. Amma su olandan sonra bura cənnət olacaq, gülüstan olacaq.

**Sakinlər:** İnşallah. Allah Sizi var eləsin. Sizə uzun ömür, cansağlığı arzulayırıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, Vətən üçün üç oğul böyütdüm. Böyük oğlum Nicat Zalov Füzuli rayonu uğrunda gedən döyüşlərdə yaralanıb. Kiçik oğlum Fəqan Zalov 44 gün yaralı olaraq döyüşdü, müharibənin qurtarmasına saatlar qalmış Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Sakin:** Cənab Prezident, mən Sizə dərin təşəkkürümü bildirirəm ki, mənim oğullarımın şücaətini, qəhrəmanlığını yüksək qiymətləndirmisiniz. Bir də cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm, biz şəhid ailələrinə diqqət və qayğı göstərdiyinizə görə çox sağ olun, minnətdaram. Sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun. Salamat qalın.

**Sakinlər:** Sağ olun.

**AZƏRTAC**
**2023, 17 oktyabr**

**Diplomatik korpusun nümayəndələri "Füzuli Şəhəri Günü" tədbirlərində**

İşğaldan azad olunan Füzuli şəhərində "Füzuli Şəhəri Günü" tədbiri davam edir. Füzuli şəhərinə səfər edən Azərbaycanda akkreditə olunan diplomatik korpusun nümayəndələri tədbir çərçivəsində açılan sərgilərlə tanış olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, mədəniyyət naziri Adil Kərimli, diplomatik korpusun nümayəndələri, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və qonaqlar əvvəlcə dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunmuş "Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!" adlı sərgiyə baxıblar. Sonra "Ümumilli Lider Heydər Əliyev və Füzuli" adlı sərgi nümayiş olunub. Bundan başqa, "Yedditəpə kurqanları" abidəsində aşkarlanmış arxeologiya nümunələrinin sərgisi, "Azərxalça" ASC-nin sərgisi, "100 Tar" adlı kompozisiya da qonaqlar tərəfindən maraqla qarşılanıb.

Daha sonra qonaqlar milli mətbəximizin təamlarından dadıblar.

Qeyd edək ki, səfərdə 70-ə yaxın diplomat, o cümlədən 30-a yaxın səfir iştirak edir. Onlar həmçinin işğaldan azad edildikdən sonra Füzuli şəhərində aparılan tikinti, quruculuq işləri ilə tanış olacaqlar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 17 oktyabr**

**“Füzuli Şəhəri Günü” təntənəli şəkildə qeyd olunub**

Prezident İlham Əliyevin imzaladığı 2023-cü il 31 iyul tarixli Sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncama əsasən, 17 Oktyabr - Füzuli Şəhəri Günüdür.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu münasibətlə Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə oktyabrın 17-də Füzulidə təntənəli “Şəhər Günü” tədbiri keçirilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, deputatlar, diplomatik korpusun nümayəndələri və digər qonaqlar iştirak ediblər.

“Füzuli Şəhəri Günü” çərçivəsində geniş qala-konsert təqdim olunub. Tanınmış incəsənət ustalarının ifasında xalq və bəstəkar mahnıları səsləndirilib.

Dahi Azərbaycan şairi Məhəmməd Füzuliyə həsr olunmuş “Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!”, “Ümummilli Lider Heydər Əliyev və Füzuli”, “Füzuli rayonu – işğaldan öncə və işğaldan sonra” adlı, həmçinin Füzuli ərazisindəki Yedditəpə kurqanları arxeoloji abidəsindən aşkar edilmiş maddi mədəniyyət nümunələrinin yer aldığı sərgilərlə tanışlıq olub.

Daha sonra qonaqlar “Füzuli” guşəsinə baş çəkiblər. Burada Məhəmməd Füzulinin müxtəlif əsərləri əsasında hazırlanmış kompozisiyalar nümayiş olunub, şairin şeirləri səsləndirilib. Rəssam tərəfindən dahi şairin portreti yaradılıb.

Tədbir məkanında “100 tar” adlı kompozisiya təqdim olunub. Ustad tarzənlər, uşaq, yeniyetmə və gənclərdən ibarət 100 nəfər tarzənin ifası maraqla qarşılanıb.

Sonra tədbir iştirakçıları və qonaqlar Azərbaycan milli təamlarını dadıblar.

Sonda atəşfəşanlıq və konsert proqramı olub.

**A.Yavərzadə**

**AZƏRTAC**
**2023, 17 oktyabr**

**Milli Məclis sədrinin müavini: Füzulililər doğma evlərindədirlər**

Xalqımız tarixi hadisələrə şahidlik etməyə davam edir. Oktyabrın 15-də Prezident İlham Əliyev tərəfindən Xankəndi şəhərində ucaldılan Azərbaycan Bayrağı suverenliyimizin bərpa edilməsinin yekun nəticəsi idi. Uzun illər düşmən işğalında qalmış tarixi torpaqlarımız Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Dövlət başçısının diplomatiya sahəsində atdığı uğurlu addımlar nəticəsində şəhər və kəndlərimiz bir güllə belə atılmadan düşməndən azad edildi.

Bu ilin sentyabrında 24 saatdan da az davam edən lokal xarakterli antiterror tədbirləri suverenliyimizin bərqərar edilməsi ilə yekunlaşdı. Hələ İkinci Qarabağ müharibəsinin gedişində dövlət başçısı günahkarların cəzalandırılacağını və törətdikləri cinayətlərə görə məsuliyyətə cəlb ediləcəyini bildirmişdi. Bu gün əli həmvətənlilərimizin qanına batmış dırnaqarası rejimin rəhbərləri məhkəmələrimiz qarşısında törətdikləri cinayətlərə görə cavab verirlər.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirib.

Onun sözlərinə görə, tarixi ədalətin bərpa edilərək, Xankəndi şəhərində bayrağımızın ucaldılması həm də tarixi Qələbəmizə kölgə salmağa cəhd edənlərə ən tutarlı cavab idi. Zəfərimizi qəbul edə bilməyən və buna qısqanclıqla yanaşan xaricdə ermənipərəst Fransadırsa, təəssüf ki, daxildə də marjinal müxalifətdir. Tarixi Qələbəmizə dil uzadanlar həm də Vətən yolunda canlarını qurban verən şəhidlərimizin əziz ruhlarını narahat edirlər. Zəfərimizi yarımçıq Qələbə kimi qiymətləndirənlərin, Xocalısız, Xankəndisiz qələbənin tam olmadığını qeyd edənlərin bugünkü susqunluğunun yalnız bir cavabı var: 1991-1993-cü illərdə bu ölkənin başına gətirdiyiniz fəlakətin həll edilməsi üçün 30 il vaxt lazım oldu. Azərbaycan xalqı hakimiyyət uğrunda apardığınız savaş zamanı düşmənin işğalına göz yummağınızı heç zaman unutmayacaq.

Dövlət başçısı 20 il əvvəl xalqa verdiyi sözü yerinə yetirərək, ölkəmizin ərazi bütövlüyünü tam bərpa və suverenliyini bərqərar etdi. İşğaldan azad edilmiş ərazilərdə böyük abadlıq və quruculuq işləri aparılır.

Milli Məclis sədrinin müavini qeyd edib ki, bu gün həm də Füzuli şəhərinin düşmən işğalından azad olunduğu gündür, 3 ildən də qısa müddətdə işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi Füzuliyə də həyat qayıdıb. 30 il doğma yurd həsrəti çəkmiş məcburi köçkünlər artıq öz evlərindədir. "Füzuli Şəhəri Günü"ndə yurd-yuvalarına qayıtmış füzulililərlə görüşdə dövlət başçısı görülən işlərin uğurla davam etməsindən bəhs edib.

"Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Qarabağda başlamış genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində Füzuli şəhərində ilk Beynəlxalq Hava Limanı tikilmişdir. Şəhər və kəndlərin təməli qoyulmuş, təhsil, tibb müəssisələri yaradılmış, vətəndaşların rahat yaşaması üçün bütün infrastruktur qurulmuşdur. Nəzərə alsaq ki, məhz Ermənistan hakimiyyəti 30 il ərzində işğal altında saxladığı bütün rayon və şəhərlərimizdə olduğu kimi, Füzulini də tam istismar edib, daş üzərində daş saxlamayıblar. Mümkün olan bütün vandallıq aktlarını törədiblər.

Bu gün isə Böyük Qayıdış Proqramı uğurla icra edilir və hər kəs doğma yurda dönür. Artıq ölkəmizdə yeni inkişaf mərhələsi başlayıb, Qarabağa və Şərqi Zəngəzura uzun illərdən sonra həyat qayıdıb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Xankəndi şəhərində və Füzulidə dediyi kimi qələbəmizə görə Vətən övladlarına borcluyuq. Məhz dövlətimizin gücü ilə bərabər qəhrəmanlarımızın cəsarəti və şücaəti bizi tarixi Qələbəmizə apardı",- deyə Adil Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2023, 17 oktyabr**

## Füzulinin Cuvarlı kəndi tarixi ənənələri qorunmaqla müasir üslubda tikiləcək

Füzuli rayonunun Cuvarlı kəndi tarixi ənənələri qorunmaqla müasir üslubda inşa ediləcək. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə olunması nəzərdə tutulub.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunan ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov deyib.

Onun sözlərinə görə, Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 291 fərdi ev və 2-4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək. Bu mərhələdə kəndə 129 ailənin - 508 nəfərin köçürülməsi planlaşdırılır.

Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, çörək sexinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 312 şagird yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin, kitabxananın, ticarət obyektinin, bazarın, qonaq evinin tikilməsi nəzərdə tutulur.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 18 oktyabr**

**İşğaldan azad olunan Füzuli rayonunda 2026-cı ilin sonuna qədər 22 min nəfərin yaşaması planlaşdırılır**

İşğaldan azad olunan Füzuli rayonunda 2026-cı ilin sonuna qədər 22 min nəfərin yaşaması planlaşdırılır.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunan ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov deyib.

"Füzuli şəhərindəki yaşayış məhəllələri ilə yanaşı, rayon ərazisində 10 kəndin bərpası gözlənilir", - deyə E.Seyidov bildirib.

**T. Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 18 oktyabr**

**Şəhid anası: "Füzulidə bizimlə görüşdə Prezidentin kövrəlməsi mənə çox təsir etdi"**

"Artıq bir neçə gündür ailə üzvlərimlə birgə Füzuli şəhərində yeni salınmış yaşayış kompleksində yaşayıram. Mənim oğlum Ülvi antiterror tədbirlərində iştirak edərkən şəhid olub. Mən nə qədər kədərlənsəm də, Füzulimin azad olunmasına görə bir o qədər də qürurluyam".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Füzuli Şəhəri Günündə Prezident İlham Əliyevin Füzuli şəhərinə köçmüş sakinlər və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə iştirak etmiş, şəhid Ülvi Mikayılovun anası Günel Abbasova deyib.

Prezident İlham Əliyev ilə görüşünün ona əvəzolunmaz hiss bəxş etdiyini vurğulayan G.Abbasova bildirib ki, Ali Baş Komandanı yaxından görmək qürurverici idi:

"Bu görüşün təsirindən həm də kövrəldim. Prezidentimiz bizimlə görüşdə bildirdi ki, Qələbəni əldə edən əsgərdir, zabitdir. O gedir, o, sinəsini qabağa verir, o, ölümə gedir və Bayrağı da qaldıran odur. Onların qəhrəmanlığı bizim yaddaşımızdan heç vaxt silinməməlidir və silinməyəcək. Prezident İlham Əliyev bu sözləri deyərkən oğlumun timsalında bütün şəhidlərimiz gözümün önündə canlandı. Dövlət başçısının nitq söyləyərkən kövrəlməsi mənə çox təsir etdi. Azərbaycan Prezidentinin halımı bir çox insandan yaxşı başa düşməsi məni sakitləşdirdi. Mən canlı şahidi oldum ki, o, şəhid analarına necə diqqət və qayğı ilə yanaşır. Dövlətin qayğısını daim hiss edirik. Mən şəhid anası kimi övladımla fəxr edirəm. Arzum budur ki, Uca Yaradan Prezident İlham Əliyevi daim var etsin. Mən Prezidentimizlə qürur duyuram".

**Səlim Rəhimzadə**

**AZƏRTAC**
**2023, 18 oktyabr**

## Düşmənin viran qoyduğu Füzuli yenidən qurulur

Vətən müharibəsindən ötən dövr ərzində Qarabağ və Şərqi Zəngəzur əraziləri tikinti, quruculuq, abadlıq meydanına çevrilib. İşğaldan azad olunmuş digər ərazilərdə olduğu kimi, Füzulidə də genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, kəndlər, qəsəbələr yenidən qurulur, avtomobil və dəmir yolları çəkilir.

AZƏRTAC-ın bölgə müxbirinin işğaldan azad edilmiş ərazilərə növbəti səfərinin ünvanı Füzuli rayonu olub.

**Füzulinin sürətlə dirçəldilməsi istiqamətində fasiləsiz işlər görülür**

Prezident İlham Əliyevin oktyabrın 16-da Füzuli rayonuna səfəri zamanı ikinci və üçüncü yaşayış komplekslərinin, 240 yerlik uşaq bağçasının, inzibati binanın, idman kompleksinin, Cuvarlı və Qoçəhmədli kəndlərinin təməlini atması, Ağdam-Füzuli avtomobil yolunun tikintisi ilə tanış olması bölgənin sürətlə dirçəldilməsi istiqamətində fasiləsiz işlərin görüldüyünü göstərir.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunan ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov bildirib ki, Füzuli şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Prezident İlham Əliyev tərəfindən təməli qoyulan ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Ümumilikdə 2288 nəfər üçün nəzərdə tutulan kompleks üçün 9 hektardan çox ərazi ayrılıb.

İkinci yaşayış kompleksində ümumilikdə 653 mənzildən 13-ü birotaqlı, 209-u ikiotaqlı, 281-i üçotaqlı, 150-si dördotaqlı olacaq. Üçüncü yaşayış kompleksinin inşası üçün isə 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub. Mənzillərin 18-i birotaqlı, 276-sı ikiotaqlı, 370-i üçotaqlı, 199-u dördotaqlı olacaq.

Hər iki yaşayış kompleksində binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək. Binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

Oktyabrın 16-da təməli qoyulan uşaq bağçası 2,4 hektar sahədə inşa ediləcək. Layihəyə əsasən, uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq. Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx olacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək. Uşaq bağçasının həyətində oyun meydançaları salınacaq və digər zəruri infrastruktur yaradılacaq.

Füzuli şəhərində təməli qoyulan inzibati bina üçün isə 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın inşası üçün 4,4 hektardan çox ərazi nəzərdə tutulub. Burada parad meydanı, bir hektar sahədə park inşa olunacaq. Bundan başqa, digər regional qurumlar üçün də ərazi nəzərdə tutulub. Beş mərtəbədən ibarət inzibati binada ən müasir şərait yaradılacaq.

**Qoçəhmədli və Cuvarlı kəndləri tarixi ənənələri qorumaqla müasir üslubda inşa ediləcək**

İşğaldan azad olunan Füzuli rayonunda 2026-cı ilin sonuna qədər 22 min nəfərin yaşaması planlaşdırılır. Füzuli şəhərindəki yaşayış məhəllələri ilə yanaşı, rayon ərazisində 10 kəndin bərpası gözlənilir.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunan ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov bildirib ki, oktyabrın 16-da təməli qoyulan Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada 291 fərdi ev və 2-4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək.

Bu mərhələdə kəndə 129 ailənin - 508 nəfərin köçürülməsi planlaşdırılır. Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, çörək sexinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, 312 şagird yerlik orta məktəbin, 50 yerlik uşaq bağçasının, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin, kitabxananın, ticarət obyektinin, bazarın, qonaq evinin tikilməsi nəzərdə tutulub.

Füzuli rayonunda təməli qoyulan Qoçəhmədli kəndinin layihələndirilən ümumi ərazisi isə 94,62 hektardır. Kəndə 1364 nəfərin köçürülməsi nəzərdə tutulub. Burada 341 fərdi evin tikilməsi planlaşdırılıb.

Qoçəhmədli kəndində birinci mərhələdə 204 fərdi ev inşa olunacaq. Bunun üçün 18,1 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kəndə 204 ailə - 710 nəfər köçürüləcək.

Kənddə çoxfunksiyalı inzibati binanın, Bayraq meydanının, kafe-restoranın, mərasim evinin, aptekin, idman klubunun, ailə sağlamlıq mərkəzinin, istirahət və yaşıllıq zonalarının, klub-icma mərkəzinin və kitabxananın, ticarət obyektinin, qonaq evinin tikintisi planlaşdırılıb. Burada əhalinin məşğulluğu üçün hər cür şərait yaradılacaq. 264 şagird yerlik məktəb, 25 yerlik uşaq bağçası da inşa olunacaq.

Hər iki kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Burada da enerjiyə qənaət məqsədilə alternativ enerjidən istifadə olunacaq və istilik tutumlu evlər tikiləcək.

**Ağdam-Füzuli avtomobil yolu azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq**

2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam edən Ağdam-Füzuli avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır. Bərdə-Ağdam avtomobil yolunun davamı olan bu yol Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazisindən keçir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşı Fərid Qədirov bildirib ki, uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun inşa edilir. Avtomobil yolunun üzərində 5 ədəd körpü, 2 ədəd yolötürücü layihələndirilib. Artıq 1 yolötürücü və 2 körpünün tikintisi başa çatdırılıb, tamamlanma işləri aparılır. Digər körpülərin tikintisi isə davam etdirilir.

Torpaq işlərinin icrası çərçivəsində yararsız süxurun çıxarılması, qazma, yatağın genişləndirilməsi işləri görülür. Həmçinin yol boyunca suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin tikintisi aparılır. Yol əsasının inşası bitən hissələrdə asfalt-beton örtüyünün döşənməsi işləri görülür.

Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

**İşğaldan azad edilmiş ərazilərdə ilk idman kompleksi Füzulidə inşa olunacaq**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən Füzulidə idman kompleksi də inşa olunacaq. Füzuli idman kompleksi işğaldan azad edilmiş ərazilərdə təməli qoyulan ilk idman obyektidir.

Gənclər və İdman Nazirliyinin şöbə müdiri Elmir Mehdiyev qeyd edib ki, ümumi sahəsi 17 hektar olan kompleksin baş planına əsasən, burada 200 yerlik tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, badminton, minifutbol məşqlərinin və yarışların, eyni zamanda, idmanın müxtəlif növləri üzrə turnirlərin keçirilməsinə imkan verən universal zal inşa ediləcək. Bundan başqa, kompleksdə 100 yerlik tamaşaçı tribunası olan üzgüçülük zalı, güləş, cüdo, boks, karate növü üzrə məşq və trenajor zalları yaradılacaq. Binada inzibati otaqlar, kafe, anbar və digər texniki sahələr də nəzərdə tutulub. Burada, həmçinin sauna və masaj otaqları, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar olacaq. Plana əsasən, ərazidə süni ot örtüklü minifutbol meydançası, açıq havada idman alətləri ilə təchiz edilmiş meydança və texniki bina da yaradılacaq.

Artıq Qarabağımızın, Füzulimizin yeni - bərpa, yenidənqurma, inkişaf, çiçəklənmə dövrü başlayıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun düşmən üzərində qazandığı şanlı Qələbə nəticəsində azadlığına qovuşmuş digər ərazilərimizdə olduğu kimi, buraya da yeni nəfəs gəlib. İllərdir düşmənin yağmaladığı, dağıdaraq viran qoyduğu yerlər indi geniş tikinti meydançasına çevrilib. Böyük Qayıdış Proqramı çərçivəsində qısa müddətdə Füzuli şəhərində 258 ailə olmaqla, 928 nəfərin daimi məskunlaşması təmin edilib. Onlar Azərbaycan dövləti tərəfindən müasir üslubda tikilən evlərlə təmin olunublar. Oktyabrın 17-də Füzuli Şəhəri Günü də böyük təntənə ilə keçirildi, sakinlər bir-birilərini təbrik etdilər, doğma yurdlarına qayıtmağın sevincini bölüşdülər. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

Beləliklə, əminliklə demək olar ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü uğurlu və qətiyyətli siyasət, işğaldan azad olunan ərazilərdə fasiləsiz davam etdirilən quruculuq işləri Qarabağ və Şərqi Zəngəzurun hər bir guşəsi kimi Füzulinin də cənnətə çevriləcəyindən xəbər verir.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 18 oktyabr**

**Xarici səyyahlar Füzulidə minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyiblər**

Xudafərin körpüsü ilə tanışlıqdan sonra Füzuli rayonuna səfər edən xarici səyyahlar Horadiz kəndi ərazisində minatəmizləmə prosesi barədə məlumatlandırılıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səyahətçilərə Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, minaların və digər sursatların təmizlənməsi işləri barədə məlumat verilib. Bildirilib ki, Füzuli rayonu mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ərazilərdən biri hesab edilir.

Xarici səyyahlar sonra ərazidən tapılan minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyiblər.

Qeyd edək ki, dünyaşöhrətli 4 əsas səyahətçilər şəbəkəsindən biri olan NomadMania klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və sair) təmsil edən 50 nəfərə yaxın geniş heyətinin Qarabağ və Şərqi Zəngəzura səfəri təşkil olunub. Qrupa NomadMania klubunun rəhbəri, dünyanın səyyah elitasının əsas simalarında biri olan Harry Mitsidis başçılıq edib.

Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels", İsveçin "Club 100" klublarının geniş tərkibdə heyətləri ötən iki ildə 8 dəfə Qarabağ və Şərqi Zəngəzura səfər edib. Bu, sayca 9-cu analoji səfərdir. Onlardan 1-i 2021-ci ildə, 4-ü 2022-ci ildə, 4-ü isə 2023-cü ildə reallaşıb.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**2023, 6 noyabr**

**Füzuli rayonunun Əhmədbəyli kəndində "Ölümə qənşər-2" filminin təqdimatı keçirilib**

Füzuli rayonunun Əhmədbəyli kəndində "Ölümə qənşər-2" bədii-sənədli filminin təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, film döyüşçü Qamət İnşallahlı və onun ailəsinə həsr edilib.

Təqdimat mərasimində Füzuli Rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülbahar Eyvazova, "Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" İctimai Birliyinin sədri Venera Əsgərova, Vətən Müharibəsi Qəhrəmanı şəhid Fəqan Zalovun atası Amil Zalov, Birinci Qarabağ müharibəsi veteranı Əlövsət Məmmədov, Vətən müharibəsi qazisi Anar Azadov və başqaları çıxış ediblər.

Bildirilib ki, film Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının bir yumruq kimi birləşərək torpaqlarımızın azadlığı uğrunda hər bir ailənin, vətən övladının göstərdiyi şücaətdən bəhs edir.

Qeyd olunub ki, bu Zəfəri bizə qazandıran, canlarını Vətənə bağışlayan şəhidlərimizin xatirəsi qəlbimizdə əbədi yaşayacaq. Tarix yazan igidlərimizin hər biri haqqında film çəkmək, kitab nəşr etdirmək və gələcək nəsillərə ötürmək qarşıda duran vəzifələrdir.

Hazırda Qamət İnşallahlı azadlığı uğrunda döyüşdüyü torpaqlarda aparılan quruculuq işlərində fəallıq göstərir. O, "Azərişıq" ASC-də yüksək gərginlik xətti üzrə elektrik ustası işləyir və müharibə meydanında ölümün gözünə dik baxaraq vuruşduğu kimi, bu riskli sahədə də qorxmadan çalışır.

Xatırladaq ki, "Ölümə qənşər-2" bədii-sənədli filmi "Vətəndaşların Sosial Rifahının Gücləndirilməsinə Dəstək" İctimai Birliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə ərsəyə gəlib.

**AZƏRTAC**
**2023, 8 noyabr**

**Füzulidə keçirilən bayram tədbiri atəşfəşanlıqla başa çatıb**

Füzulidə 8 Noyabr- Zəfər Günü ilə əlaqədar tədbir keçirilib. Zəfər Günü tədbiri Özbəkistan Prezidentinin özbək xalqı adından Qarabağa hədiyyə olaraq inşa etdirdiyi Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, "Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin əməkdaşları, şəhid ailələri, qazilər, hüquq-mühafizə orqanlarının əməkdaşları, Füzulidə məskunlaşan ailələr və məktəbin kollektivi iştirak edib.

Əvvəlcə Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Prezidentin xüsusi nümayəndəliyinin rəsmisi Bəşir Hacıyev, şəhid bacısı Könül Məmmədova, qazi Vüsal Cümşüdzadə çıxış edərək, əldə olunan parlaq Qələbədən danışıblar. Qeyd edilib ki Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və müzəffər Azərbaycan Ordusunun gücü sayəsində torpaqlarımız 44 gündə azad edilib və ərazi bütövlüyümüz təmin olunub. Həmçinin diqqətə çatdırılıb ki, işğaldan azad olunan digər rayonlarımız kimi, Qarabağın dilbər guşələrindən olan Füzuli torpaqlarında da həyat canlanmağa başlayıb və bu günlər Füzuli sakinləri üçün gələcək firavan həyatın başlanğıcıdır.

Daha sonra Zəfər Gününə həsr olunmuş video nümayiş etdirilib.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra konsert olub, xanəndələrin vətənpərvər ruhlu ifaları dinlənilib.

Sonda bayram tədbiri atəşfəşanlıqla başa çatıb.

**16:38**

Füzulidə 8 Noybar- Zəfər Günü ilə əlaqədar tədbir keçirilir. Zəfər Günü tədbiri Özbəkistan Prezidentinin özbək xalqı adından Qarabağa hədiyyə olaraq inşa etdirdiyi Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları və digər rəsmi şəxslər, şəhid ailələri, qazilər, hüquq-mühafizə orqanlarının əməkdaşları, Füzulidə məskunlaşan ailələr, məktəb kollektivi iştirak edir.

Tədbirin rəsmi hissəsindən sonra Zəfər Gününə həsr olunmuş videoçarx təqdim ediləcək, həmçinin muğam konserti və sonda atəşfəşanlıq olacaq.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 8 noyabr**

**"Azərişıq" ASC Füzuliyə köçürülən sakinləri işlə təmin edir**

"Azərişıq" ASC Füzuliyə köç edən sakinləri işlə təmin edir, artıq bir neçə sahə üzrə işlə təmin edilənlər var.

ASC-dən AZƏRTAC-a bildirilib ki, dövlətimizin başçısının iştirakı ilə rəsmi açılışı olan Füzuli Rəqəmsal Yarımstansiyası və İdarəetmə Mərkəzi vasitəsilə rayon ərazisində bütün lazımi obyektləri elektrik enerjisi ilə təmin etmək mümkündür. Füzuli Rəqəmsal Yarımstansiyası və İdarəetmə Mərkəzində daha çox yerli sakinlər çalışır.

Qeyd edək ki, düşmən işğalından azad edilən torpaqlarımızda sürətlə davam edən yenidənqurma işlərinin nəticəsidir ki, 30 ildən sonra doğma sakinlər Zəngilanda, Laçında, Füzulidə yaşayır. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən aparılan işlər çərçivəsində "Azərişıq" ASC də üzərinə düşən vəzifəni böyük həvəs və məsuliyyətlə yerinə yetirir.

Bildirilir ki, ASC-nin məqsədi xoş gələcəyi qarşıda olan tarixi torpağımız Qarabağın yenidən qurulmasında, qayıdan sakinlərin firavan yaşamasında qurumun payının olmasıdır.

Elektrik təsərrüfatının yenilənməsi yeni güc mərkəzlərinin inşası istiqamətində işlər bu gün də davam etdirilir.

**AZƏRTAC**
**2023, 9 noyabr**

## Füzuli rayonu 27 nömrəli tam orta məktəbdə üç sinfə şəhidlərin adları verilib

Füzuli rayonu İkinci Zobucuq qəsəbəsində yerləşən 27 nömrəli tam orta məktəbdə üç sinfə şəhid Cəfərov Elşad Malik oğlunun, Məmmədov Vüsal Qüdrət oğlunun və Cəfərli Əli İsa oğlunun adları verilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə Füzuli Rayon İcra Hakimiyyətinin, Füzuli Rayon Təhsil Sektorunun rəsmiləri, şəhid ailələri, qazilər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra şagirdlərin böyük ruh yüksəkliyi ilə hazırladıqları rəngarəng çıxışlar izlənilib.

Sonra çıxış edən tədbir iştirakçıları və şəhid ailələrinin üzvləri İkinci Qarabağ müharibəsindəki tarixi Qələbəmizin memarı Ali Baş Komandan İlham Əliyevin, yenilməz Ordumuzun və "dəmir yumruq" kimi birləşən xalqımızın qəhrəmanlığından danışıblar.

Tədbir "Yaşasın azad Azərbaycan!" və "Qarabağ Azərbaycandır!" şüarları ilə başa çatıb.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2023, 11 noyabr**

**Füzuli şəhərinə daha 25 ailə yola salınıb**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC xəbər verir ki, növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı “Qobu park 3” yaşayış kompleksindən yola salınıb.

Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə (72 nəfər) köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb.

Daha da gözəlləşən və abadlaşan Füzuli şəhərinin sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad ediblər.

Köçürülən ailələr Füzuli şəhərində yenidən tikilən evlərdə məskunlaşacaqlar.

Bununla da Füzuli şəhərində 283 ailə, yəni 1 000 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2023, 24 noyabr**

**Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb**

Füzuli şəhərinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, Abşeron rayonunda, Bakı və Sumqayıt şəhərləri ərazisindəki yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkünlərdən ibarət növbəti köç karvanı noyabrın 27-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 106 nəfər köçürülür.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda yola düşən Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

İndiyədək Füzuli şəhərində 308 ailənin, yəni 1106 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2023, 27 noyabr**

**Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb.

AZƏRTAC xəbər verir ki, Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə dekabrın 7-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 80 nəfər köçürülüb. Bununla da indiyədək Füzuli şəhərində 333 ailənin (1186 nəfərin) daimi məskunlaşması təmin edilib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

**AZƏRTAC**
**2023, 27 noyabr**

**Füzuli sakini: Otuz ildən çoxdur bu xoş günün gələcəyini gözləyirdik**

Bu gün çox sevincli və qürurlu günlərdən biridir. Doğma el-obama - Füzuli rayonuna qayıdıram. Otuz ildən çoxdur hamımız bu xoş günün gələcəyini gözləyirdik. Bizə bu şərəfli günləri yaşadan Ali Baş Komandan İlham Əliyevə minnətdarlığımı bildirirəm. Qəhrəman şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə səbir və şəfa diləyirəm.

Bu sözləri AZƏRTAC-a müsahibəsində noyabrın 27-də Bakıdan Füzuli rayonuna yola düşən keçmiş məcburi köçkün Fatma Əliyeva deyib.

“Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı. Nəhayət, bizim doğma yurd həsrətimiz sona çatdı. Füzulidən gənc yaşlarımda çıxmışam, ata-anamla Bakıya köçmüşdük. İndi isə öz ailəmlə doğma ata ocağıma qayıdıram. Sevincimizin həddi-hüdudu yoxdur", - deyə Fatma Əliyeva bildirib.

**AZƏRTAC**
**27 noyabr, 2023**

**Bu gün Füzuliyə yola salınan daha 25 ailə doğma yurduna çatıb**

İşğaldan azad olunan Füzuliyə sakinlərin qayıdışı davam edir. Noyabrın 27-də səhər saatlarında növbəti köç karvanı ilə Bakı şəhərinin Qaradağ rayonundan yola salınan keçmiş məcburi köçkünlər Füzuliyə çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bununla da daha 25 ailə (106 nəfər) doğma yurduna qovuşub. Yenidən çiçəklənən Füzuli şəhərinə çatan ailələr Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən böyük coşqu ilə qarşılanıblar.

Daha əvvəl Füzulidə məskunlaşan həmyerliləri ilə görüşən keçmiş məcburi köçkünlər Vətənə qovuşmağın sevincini yaşayıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**27 noyabr, 2023**

**Füzulidə daha 25 ailəyə evlərinin açarları təqdim olunub**
**VİDEO**

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

Bu gün 25 ailə olmaqla 106 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıb. Onlar doğma yurda qovuşmağın sevincini yaşayıblar, daha əvvəl Füzulidə məskunlaşan həmyerliləri ilə görüşərək Vətənə qovuşmağın sevincini paylaşıblar. Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Ailələr qarşılandıqdan sonra keçirilən açarların təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak ediblər. Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq öz evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 308 ailə olmaqla 1106 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**27 noyabr, 2023**

**https://video.azertag.az/site/video/193689**

## Eşqi Bağırov: 2024-cü ildə Ağdam, Cəbrayıl, Füzuli rayonlarında yeni məktəb binaları tikiləcək

“Növbəti il üçün əsaslı təmir və yenidən tikintisi nəzərdə tutulan 50-yə yaxın məktəb var”.

AZƏRTAC xəbər verir ki, bunu Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov “Effektiv kommunikasiya” mövzusunda keçirilən seminarda söyləyib. O bildirib ki, işğaldan azad olunan ərazilərdə yeni məktəblərin tikintisi nəzərdə tutulub.

“2024-cü ildə Ağdam, Cəbrayıl, Füzuli rayonlarında yeni məktəblərin tikintisi aparılacaq”, - deyə Eşqi Bağırov qeyd edib.

**AZƏRTAC**
**28 noyabr, 2023**

**Füzulidə şəhid Elşad Cəfərovun xatirəsi anılıb**

Füzulidə şəhid Cəfərov Elşad Malik oğlunun doğum günündə xatirəsi yad edilib. Şəhidin məzarı ziyarət olunub, ruhuna dualar oxunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhid Cəfərov Elşad Malik oğlunun xatirəsini yad edənlər arasında ailəsi ilə bərabər, Füzuli Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin əməkdaşları, şəhid ailələri, veteran və qazilər, döyüş yoldaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Çıxışlarda qeyd olunub ki, torpaqlarımız 44 günlük döyüşlərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşməndən azad edilib. Elşad kimi vətənpərvər oğullar 30 illik Vətən həsrətinə son qoymaq üçün canlarını fəda edərək şəhidlik zirvəsinə ucalıblar, qəhrəmanlıq dastanına çevriliblər.

Elşad Cəfərovun həyatından, Vətənə həsr etdiyi ömür yolundan da danışılıb. Bildirilib ki, Elşad Cəfərov 1999-cu il noyabrın 27-də Sabirabadın Qalağayın kəndində anadan olub. Əslən Füzuli rayonunun Dövlətyarlı kəndindəndir. Hələ uşaqlıq çağlarından torpaqlarımızın azad ediləcəyi ümidi ilə yaşayan Elşad Cəfərov Vətən müharibəsində böyük igidliklə iştirak edib. Füzuli və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə şücaətlə vuruşub. O, "Füzulinin işğaldan azad olunmasına görə", "Xocavəndin işğaldan azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

2022-ci ilin oktyabr ayında könüllü olaraq komando kurslarına qatılıb və “N” saylı komando hərbi hissəsində kəşfiyyatçı kimi xidmətini davam etdirib. 2023-cü il 19-20 sentyabr tarixində həyata keçirilən uğurlu lokal antiterror tədbirində iştirak edən Elşad bir neçə yüksəkliyin terrorçulardan təmizlənməsində xüsusi ilə fərqlənib və bu döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 noyabr, 2023**

**Füzulidə ağacəkmə aksiyasında 100 ədəd Eldar şamı və sərv ağacı əkilib**

Füzuli rayonunda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilən ağacəkmə aksiyası təşkil edilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, aksiyada Füzuli Rayon İcra Hakimiyyətinin, YAP Füzuli rayon təşkilatının rəhbərliyi, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilat rəhbərləri, şəhid ailələri, qazilər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Ağacəkmə aksiyası zamanı Horadiz şəhəri ərazisində salınmış yaşıllıq zolağında 100 ədəd Eldar şamı və sərv ağacı əkilib. Yeni əkilən ağaclara aqrotexniki qulluq göstərilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**28 noyabr,2023**

**Füzulidə yerin təkindən qanunsuz istifadə halı aşkarlanıb**

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən yerin təkindən qanunsuz istifadə hallarının, o cümlədən qeyri-qanuni qum-çınqıl daşınmasının qarşısının alınmasının təmin edilməsi məqsədi ilə tədbir keçirilib.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, keçirilən tədbir zamanı rayonun Kürdmahmudlu kəndi ərazisində yerin təkindən qeyri-qanuni istifadə halı müəyyən edilib. Qayda pozuntusu ilə əlaqədar bir nəfər barəsində İnzibati Xətalar Məcəlləsinin 228-ci (İcazə olmadan və ya icazə şərtlərini pozmaqla yerin təkindən istifadə etmə) maddəsi ilə protokol tərtib olunub.

**AZƏRTAC**
**30 noyabr, 2023**

**Füzulidə "Nar şirəsi" tamaşası nümayiş olunub**

Füzuli Dövlət Dram Teatrı cari ilin repertuarında olan Səbinə Haqverdiyevanın "Nar şirəsi" tamaşasını təqdim edib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tamaşada həyatı sevmək, yaşamaq mübarizəsi, cəmiyyətin fiziki qüsurlu insanlara mövqeyi, onların təsiri altında belə insanların sağalması ön plana çəkilib.

Quruluşu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Sənan Sevindikzadə olan tamaşada rolları Sehran Xanlarov, Sevinc Məmmədova, İntizar Quliyeva, Emin Abışov, Vüqar Babayev və başqaları ifa edib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2 dekabr, 2023**

**Füzuli rayon sakini tapdığı avtomat silahı polisə təhvil verib**

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən odlu silahların aşkar edilərək götürülməsi və ya könüllü təhvil verilməsinin təmin olunması istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, keçirilən növbəti tədbir zamanı rayon sakini tapdığı "AK-74" markalı avtomatı polis əməkdaşlarına təhvil verib.

**AZƏRTAC**
**4 dekabr, 2023**

**Özbəkistan parlamentinin nümayəndə heyəti Füzuli şəhərinə səfər edib**

Dekabrın 5-də ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayevin başçılıq etdiyi parlament nümayəndə heyəti Füzuli şəhərində olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində qonaqlara torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalı barədə məlumat verilib.

Nümayəndə heyəti Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüşlər zamanı həlak olan ilk şəhidlərimizin xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər. Füzuli şəhərinin ermənilər tərəfindən viranə qoyulmuş yaşayış məntəqələri ilə tanış olan qonaqlara, işğaldan sonra Azərbaycan hökuməti tərəfindən Füzuli rayonunda aparılan irimiqyaslı bərpa-quruculuq işləri barədə geniş məlumat verilib.

Daha sonra qonaqlar Özbəkistan hökuməti tərəfindən inşa edilmiş Mirzə Uluqbəy adına Füzuli şəhər 1 nömrəli tam orta məktəbə gələrək, müəllim və şagird kollektivi üçün yaradılmış şəraitlə yaxından tanış olublar.

Səfər çərçivəsində qonaqlar Füzuli Beynəlxalq Hava Limanında da olublar. İnzibati bina ilə tanışlıqdan sonra qonaqlara hava limanının texniki parametrləri barədə məlumat verilib.

**AZƏRTAC**
**5 dekabr, 2023**

**Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb**
**VİDEO**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb.

AZƏRTAC xəbər verir ki, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə dekabrın 7-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

Bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 80 nəfər köçürülüb. Bununla da indiyədək Füzuli şəhərində 333 ailənin (1186 nəfərin) daimi məskunlaşması təmin edilib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

**AZƏRTAC**
**7 dekabr, 2023**

**https://video.azertag.az/site/video/194237**

**Füzuli sakini: Uzun illər ayrı qaldığımız doğma yurdumuza qayıdırıq**

Mən bu günə kimi Qaradağ rayonunun Sahil qəsəbəsindəki yataqxanada məskunlaşmışdım. Amma artıq məcburi köçkünlük həyatı sona çatdı, uzun illər ayrı qaldığımız doğma yurdumuza qayıdırıq.

Bu sözləri AZƏRTAC-a müsahibəsində doğma yurduna qayıdan Füzuli sakini Xatın Şirinova söyləyib.

O, 1992-ci ildə məcburi köçkün düşdüyünü xatırladıb: "Füzuliyə yoldaşımla birlikdə qayıdırıq, uşaqlarım isə avqust ayında gediblər. 64 yaşımda doğulub boya-başa çatdığım yerlərə qayıtdığım üçün çox sevinirəm".

Xatın Şirinova onlara yaradılan şəraitə görə, dövlətimizin başçısına minnətdarlığını bildirib. Torpaqlarımızın işğaldan azad edilməsində əməyi olan hər kəsə təşəkkür edib, şəhidlərə rəhmət diləyib.

**AZƏRTAC**
**7 dekabr, 2023**

**Füzuliyə köçən sakin: İndiyədək Binə qəsəbəsindəki yataqxanada yaşayırdıq**

İndiyədək Binə qəsəbəsindəki yataqxanada yaşayırdıq. Amma bu gün öz yurduma, doğulub boya-başa çatdığım yerlərə- Füzuliyə gedirik. Hər bir insan üçün onun anadan olduğu yer xüsusi əhəmiyyət daşıyır. Ona görə də çox sevinirəm, hisslərimi ifadə etməkdə çətinlik çəkirəm.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində doğma yurduna qayıdan Füzuli sakini Rima İbrahimova söyləyib.

O deyib: “Biz hər zaman dövlətimizin diqqət və qayğısını hiss etmişik. Bu gün 57 yaşımda Füzuliyə gedirəm, bu günləri bizə yaşadan şəhidlərimizə Allah rəhmət etsin".

**AZƏRTAC**
**7 dekabr, 2023**

**Füzuli rayonunda traktor minaya düşüb, xəsarət alan var**

Dekabrın 7-də saat 10 radələrində Füzuli rayonu Horadiz kəndi ərazisində təsərrüfat sahəsində əkin işləri aparan traktorun minaya düşməsi ilə bağlı polisə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin regional qrupundan AZƏRTAC-a bildirilib ki, traktorun sürücüsü, 1994-cü il təvəllüdlü Həsənli Zamin xəsarət alıb. O polis əməkdaşlarının köməyi ilə ərazidən çıxarılaraq xəstəxanaya təxliyə edilib.

Araşdırma aparılır.

**AZƏRTAC**
**7 dekabr, 2023**

**Baş Prokurorluq: Füzuli rayonunda mina partlayışı nəticəsində xəsarət alması faktı üzrə araşdırma aparılır**

Dekabrın 7-də saat 10 radələrində Füzuli rayonunun Horadiz kəndi ərazisində təsərrüfat işləri aparan zaman traktorun minaya düşməsi nəticəsində 1994-cü il təvəllüdlü Zamin Həsənlinin xəsarət alması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, digər zəruri istintaq hərəkətləri aparılıb.

Hazırda faktla bağlı Füzuli Rayon Prokurorluğunda araşdırma aparılır.

**AZƏRTAC**
**7 dekabr, 2023**

**Bu gün Füzuliyə köçən ailələrə mənzillərinin açarları təqdim olunub**
**VİDEO**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

Açarların təqdim edilməsi mərasimində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq öz evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 333 ailə olmaqla, 1186 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

İşğaldan azad olunan Füzuli rayonuna sakinlərin qayıdışı davam edir. Səhər saatlarında növbəti köç karvanı ilə Bakı şəhərinin Qaradağ rayonundan yola salınan 25 ailə Füzuliyə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yenidən çiçəklənən Füzuli doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 25 ailə olmaqla, 80 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıb, onlar doğma yurduna qovuşmağın sevinc hisslərini yaşayıblar. Yeni köçən ailələr daha öncədən Füzulidə məskunlaşan həmyerliləri ilə görüşərək Vətənə qovuşmağın sevincini paylaşıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 dekabr, 2023**

**https://video.azertag.az/site/video/194265**

**Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb – VİDEO**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dekabrın 13-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuli şəhərinə daha 25 ailə - 112 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Füzuli şəhərinə 358 ailənin, yəni 1298 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**13 dekabr, 2023**

**https://video.azertag.az/site/video/194659**

**Doğma ocağına qayıdan Füzuli sakini: Sevincimizin həddi-hüdudu yoxdur**

“Bu gün çox sevincli və qürurlu günlərdən birini yaşayırıq. Doğma el-obama - Füzuli rayonuna qayıdıram. Hamımız bu xoş günün gələcəyini ümid edirdik. Bizə bu şərəfli günləri yaşadan Ali Baş Komandan İlham Əliyevə öz minnətdarliğımı bildirirəm. Qəhrəman şəhidlərimizə Allahdan rəhmət, məğrur qazilərimizə isə səbir və şəfa diləyirəm".

Bu sözləri AZƏRTAC-a müsahibəsində dekabrın 13-də Bakıdan Füzuli rayonuna yola salınan keçmiş məcburi köçkün Cəmilə Quliyeva söyəlyib.

Keçmiş xoş günlərini yada salan həmsöhbətim deyib: “30 il əvvəl doğma Füzuli rayonundan erməni hərbçiləri tərəfindən zorla çıxarılıb. Allaha çox şükür ki, haqq-ədalət öz yerin tapdi. Bizim doğma yurd həsrətimiz sona yetdi. Bu hadisələri mən gənc yaşlarımda yaşamışam. O vaxt ata-anamla Bakıya köçdük. İndi isə öz ailəmlə doğma ata ocağıma qayıdıram. Sevincimizin həddi-hüdudu yoxdur".

Qeyd edib ki, otuz ildən çoxdur məcburi köçkün kimi Xırdalan şəhərində yaşayıb.

**AZƏRTAC**
**13 dekabr, 2023**

**Füzuli sakini: Bu xoş günləri bizə yaşadan Prezidentimizə minnətdarıq**

Bu xoş günləri bizə yaşadan Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığımızı bildirirəm. Şəhidlərimizə də Allahdan rəhmət diləyirəm, onlar Vətən uğrunda şəhid oldular. Valideynlərinə öz təşəkkür bildirirəm ki, belə oğul böyüdüblər. Bu gün bizim Füzuliyə qayıtmaq arzumuzu reallaşdıran onlardır.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Füzuli rayonundan olan keçmiş məcburi köçkün Rövşən Quliyev deyib.

Bildirib ki, onun özü Birinci Qarabağ, oğlu isə İkinci Qarabağ döyüşlərində iştirak edib. “1991-1995-ci illərdə Füzuli, Qubadlı, Zəngilan, Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Uzun illərdir Sumqayıt şəhərində yaşayıram. Arzu edirəm ki, bütün məcburi köçkünlər öz doğma el-obalarına qayıtsınlar. Allah Ali Baş Komandanımızı və ölkəmizi qorusun”, - deyə Füzuli sakini qeyd edib.

**AZƏRTAC**
**13 dekabr, 2023**

**Füzuli sakini: Doğma evimizə qayıtmağın sevincini yaşamaqdan xoşbəxtəm**

Gənc yaşlarımı, gözəl günlərimi Füzulidə yaşadım. Sonra rayonun işğalı nəticəsində Bakıda məskunlaşmalı olduq. İndi isə ailəliklə doğma torpağımıza, evimizə qayıtmağın sevincini yaşamaqdan xoşbəxtəm. Bundan böyük sevinc hissi ola bilməz.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Füzuli rayonuna yola salınan keçmiş məcburi köçkün Güldəstə Nəsirova deyib.

"Azərbaycanın hər diyarı bir sərvətdir, gözəl guşədir. Amma Füzuli şəhəri mənim üçün daha əzizdir. Şəhidlərimizin qəhrəmanlıqları və qazilərimizin şücaəti sayəsində bu gün biz öz doğma elimizə, obamıza qayıdırıq. Bizə bu sevinci, qüruru yaşadan Prezident, Ali Baş Komandan İlham Əliyevə, Ordumuza minnətdarıq", - deyə Füzuli sakini əlavə edib.

**AZƏRTAC**
**13 dekabr, 2023**

**Füzulidə silah-sursat aşkarlanıb**

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları işğaldan azad edilmiş rayonun ərazisində silah-sursatın aşkarlanması istiqamətində tədbirləri davam etdirirlər.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan bildirilib.

Polis əməkdaşlarının keçirdikləri tədbirlər zamanı 12 avtomat, 5 pulemyot, 1 tapança və digər sursatlar götürülərək aidiyyəti üzrə təhvil verilib.

**AZƏRTAC**
**13 dekabr, 2023**

**Bu gün Füzuliyə köçən ailələrə evlərinin açarları təqdim olunub – VİDEO**

Növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu gün Füzuliyə qayıdan 25 ailə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Açarların təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq, yeni evlərinə yerləşiblər.

Bununla da Füzuli şəhərində 358 ailə olmaqla, 1298 nəfərin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan daha 25 ailə - 112 nəfər Füzuliyə çatıb.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar. Onlar doğma yurdlarına qovuşmağın sevincini bir-biriləri ilə bölüşüblər.

**AZƏRTAC**
**13 dekabr, 2023**

**https://video.azertag.az/site/video/194731**

**Füzuliyə ümumilikdə 846 ailənin köçürülməsi planlaşdırılır**

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən genişmiqyaslı bərpa və quruculuq işləri aparılır.

AZƏRTAC xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin məsləhətçisi Faiq Hacıyev Ağdam rayonunda “İşğaldan azad olunmuş ərazilərdə turizmin bərpası və inkişafı” mövzusunda keçirilən elmi-praktiki konfransda bildirib.

F.Hacıyev qeyd edib ki, Füzuli şəhərinə 358 ailə, Tərtər rayonunun Talış kəndinə 20 ailə köçürülüb.

"Füzulidə birinci yaşayış məhəlləsinin tikinti işlərinin tamamlanması və ümumilikdə ora 846 ailənin köçürülməsi planlaşdırılır",- deyə o əlavə edib.

**AZƏRTAC**
**14 dekabr, 2023**

**Füzuli Musayev: Ulu Öndərin arzuları Prezident İlham Əliyevin rəhbərliyi altında reallaşdı**

Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman-sağlamlıq klubunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 və Prezident İlham Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyi ilə əlaqədar tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, FHN əməkdaşları əvvəlcə Ulu Öndərin əziz xatirəsinə həsr olunmuş guşədə yerləşən büstü ziyarət ediblər.

Tədbir Ümummilli Lider Heydər Əliyevin, eləcə də ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.

FHN İdman-sağlamlıq klubunun rəisi Füzuli Musayev görkəmli siyasi xadim Heydər Əliyevin idman sahəsinin inkişafı yolunda göstərdiyi misilsiz xidmətlərdən bəhs edib. Bildirilib ki, daim Azərbaycanın ərazi bütövlüyü üçün mübarizə aparan Ulu Öndərin arzuları bu gün dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu və xalqının əzmi ilə reallaşıb. Ölkəmizin ərazi bütövlüyünü tam bərpa edərək regionda əsas söz sahibi olan dövlətə çevrilməsinin məhz İlham Əliyevin uzaqgörən siyasəti sayəsində həyata keçdiyi diqqətə çatdırılıb.

Milli Məclisin deputatı Vüqar İsgəndərov təkcə Azərbaycanda deyil, ölkə xaricində də Ulu Öndərə həsr edilən tədbirlərin keçirilməsinin qürurverici hal olduğunu vurğulayıb. O, Sovet İttifaqı dövründə Azərbaycan dilinin respublika konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olan, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi ölkəmizin mənafelərini qətiyyətlə qoruyaraq xalqımızın rifahı və firavanlığı naminə vacib işlər görən Liderin Azərbaycan gənclərinin təhsilinə verdiyi diqqət və qayğıdan da danışıb. Nəinki idman, bütün sahələrdə təkmilləşmə prosesinin başlanması xalqın dahi şəxsiyyət Heydər Əliyevin ətrafında sıx birləşməsi ilə əlaqəli olduğu bildirilib. Millət vəkili Ulu Öndərin yetirməsi, varisi İlham Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın regionda aparıcı güc mərkəzinə və lider dövlətə, ən əsası isə qalib ölkəyə çevrildiyini diqqətə çatdırıb. O, FHN İdman sağlamlıq klubu və akademiyasının təşkilatçılığı ilə keçirilən tədbirlərin yaddaşlardan silinməyəcəyini əlavə edib.

Fövqəladə Hallar Nazirliyi Akademiyasının rəisi, general mayor Baba Salayev 2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Qələbənin bütün dünyaya əyani olaraq milli ruhda tərbiyə almış, vətənpərvər gənc nəsil yetişdiyinin göstəricisi olduğunu söyləyib. O, cəmiyyətin bütün təbəqələrini təmsil edən vətənpərvər insanlar kimi, Azərbaycan gəncliyinin də bu gün Ulu Öndərin ideyalarının reallaşmasında mühüm rola malik olduğunu qeyd edib.

Sonda Ümummilli Liderin zəngin həyat yolundan və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

**AZƏRTAC**
**14 dekabr, 2023**

**“Füzuli” SES-də 309 milyon kilovat-saat elektrik enerjisi istehsal edib**

“Füzuli” Su Elektrik Stansiyasında istismara verildiyi gündən cari il dekabrın 1-dək 309 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hər biri 6,25 MVt-lıq 4 ədəd hidroaqreqatdan ibarət olan basqılı derivasiya tipli su elektrik stansiyasının ümumi qoyuluş gücü 25 MVt-dır.

Açılışı 2012-ci il dekabrın 15-də olan “Füzuli” Su Elektrik Stansiyası 2022-ci il dekabrın 1-dək 295 milyon kilovat-saat elektrik enerjisi istehsal etmişdi.

**AZƏRTAC**
**15 dekabr, 2023**

## Akademik İsa Həbibbəyli Daşkənddəki Füzuli Tədqiqatlar Mərkəzi ilə tanış olub

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəyli Özbəkistan Respublikasına səfəri çərçivəsində Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində olub, burada fəaliyyət göstərən Məhəmməd Füzuli Tədqiqatlar Mərkəzini ziyarət edib.

Bu barədə AZƏRTAC-a AMEA-dan məlumat verilib. Bildirilib ki, akademik İsa Həbibbəyli Mərkəzin fəaliyyəti ilə yaxından tanış olub, universitetin rəhbərliyi və tələbələrlə görüşüb. AMEA rəhbəri görüşdə iki qardaş ölkənin alimləri arasında qurulmuş əməkdaşlıq əlaqələrinin əhəmiyyətindən bəhs edib. Daşkənddə fəaliyyət göstərən Füzuli Mərkəzinin, eləcə də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yaradılmış Əlişir Nəvai Mərkəzinin ölkələrimizin tədqiqatçıları arasında etibarlı körpü rolu oynadığını diqqətə çatdırıb.

Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetinin rektoru professor Şuxrat Sirociddinov tədqiqatçılar arasındakı əlaqələrin inkişaf etdiyini bildirib, bununla da yüksək elmi nəticələrin əldə olunduğunu xüsusi vurğulayıb.

Sonra tələbələr Azərbaycan dilində şeirlər səsləndiriblər.

AMEA-nın prezidenti İsa Həbibbəyli Füzuli Mərkəzinə bir sıra kitablar bağışlayıb, xatirə hədiyyələri təqdim edib.

**AZƏRTAC**
**15 dekabr, 2023**

**Füzuliyə köçürülən sakinlər ilk dəfə aktivlərlə təmin edilib**

İşğaldan azad olunan ərazilərdə məskunlaşan sakinlərin məşğulluğunun təmin edilməsi istiqamətində genişmiqyaslı tədbirlər görülür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən bir qrup Füzuli şəhər sakini istehsal, xidmət sahəsi üzrə özünüməşğulluq proqramına cəlb edilərək lazımi avadanlıqlarla təmin olunub.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, vətəndaşlara öz müraciətləri əsasında qadın gözəllik salonu, kişi bərbəri və kiçik dərzi sexi zərfləri üzrə aktivlər təqdim edilib.

Bununla da Böyük Qayıdış proqramı çərçivəsində öz yurdlarına qayıdan vətəndaşlar üçün yaradılan təsərrüfatların sayı 28-ə çatıb.

Ümumilikdə indiyədək Böyük Qayıdış proqramı çərçivəsində 1000-dən artıq vətəndaş aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlar müvafiq vakansiyalar üzrə işlə təmin olunub, özünüməşğulluq proqramına və peşə hazırlığı kurslarına cəlb edilib.

**AZƏRTAC**
**15 dekabr, 2023**

**Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb – VİDEO**

Dekabrın 18-də respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuli şəhərinə daha 22 ailə - 94 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Füzuli şəhərinə 380 ailənin, yəni 1392 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**18 dekabr, 2023**

**https://video.azertag.az/site/video/195070**

**Sakin: Füzuli rayonunu daha gözəl, abad vəziyyətə gətirəcəyik**

Bu gün bizim üçün gözəl gündür. Füzulidən gənc yaşımda çıxmışam. İndi doğma yurduma qayıtmağın sevincini yaşayıram.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Füzuliyə geri qayıdan keçmiş məcburi köçkün Zəminə Əliyeva deyib.

"Uzun illərin həsrəti bitir. Doğma yurdumuzda hər bir işi görməyə hazırıq. Füzulini yenidən qurub-yaradacağıq, əvvəlkindən daha gözəl, abad vəziyyətə gətirəcəyik", - deyə o qeyd edib.

Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən Füzuli sakini doğma yurduna qayıtdığına görə Müzəffər Ali Baş Komandan İlham Əliyev minnətdarlığını bildirib.

**AZƏRTAC**
**18 dekabr, 2023**

**Füzuli sakini: Sevincimi sözlə ifadə etməkdə çətinlik çəkirəm**

Təəssüratlarımı, sevincimi sözlə ifadə etməkdə çətinlik çəkirəm. Çünki bu gün uzun illər ayrı qaldığımız doğma el-obamıza qayıdırıq. Çox sevincliyəm, eyni zamanda, fərqli hisslər yaşayıram. Artıq məcburi köçkünlük həyatım bitdi.

Bu sözləri AZƏRTAC-a müsahibəsində keçmiş məcburi köçkün, Füzuli sakini Nuriyyə Cənnətəliyevə söyləyib.

Füzuliyə qayıdan sakin torpaqlarımızın azad olunmasında əməyi olan Azərbaycan Ordusuna təşəkkür edib, yaralılara şəfa, şəhidlərə rəhmət diləyib.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi Qələbə qazandı, torpaqlarımızı işğaldan azad etdi. Bizə yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarıq",- deyə N. Cənnətəliyeva bildirib.

Bundan sonrakı ömrünü doğulub boya-başa çatdığı yerdə yaşamaq istədiyini deyən N.Cənnətəliyeva ailəsi ilə birgə getdiyini vurğulayıb.

O qeyd edib ki, 44 günlük Vətən müharibəsində canından keçərək şəhidlik zirvəsinə yüksələn bir neçə qohumu var.

**AZƏRTAC**
**18 dekabr, 2023**

**Füzulidə daha 22 ailəyə evlərinin açarları təqdim olunub – FOTO**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 22 ailə olmaqla, 94 nəfər Füzuli sakini bu gün doğma yurduna qovuşub. Füzuliyə qayıdan köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Ailələr Füzulidə böyük coşqu ilə qarşılanıblar. Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə ediblər.

Sonra evlərin açarlarının təqdim edilməsi mərasimi olub. Mərasimdə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər şəxslər iştirak ediblər. Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq yeni evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 380 ailə olmaqla, 1392 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**18 dekabr, 2023**

**Şaxta baba Füzulidə balacalara bayram hədiyyəsi paylayıb – FOTO**

Otuz ildən sonra işğaldan azad olunan Füzulidə daha bir əlamətdar gün qeyd edilir. Füzuli sakinləri 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd etməyə və Yeni ili öz doğma yurdlarında qarşılamağa hazırlaşır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bayram ərəfəsində Yeni il bayramının simvolları olan Şaxta baba və Qar qız Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbə gəlib.

Şagirdlər Şaxta baba və Qar qızı sevinc və həyəcanla qarşılayıblar. Şən kloun şagirdlərlə söhbət edib, onları duzlu-məzəli zarafatları ilə güldürüb.

Maraqlı görüşdən sonra Şaxta baba balacaları bayram hədiyyəsi ilə sevindirib.

Qeyd edək ki, hazırda Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə 300-dən çox şagird təhsil alır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**27 dekabr, 2023**

**Otuz il düşmən tapdağında qalan Füzuli torpaqlarından indi ətrafa çal-çağır sədası yayılır – VİDEO**

Sonuncu dəfə 1991-ci ilin 31 dekabr tarixini öz doğma yurdlarında qeyd etdikdən sonra doğma yurdlarından məcburi köçkün düşdülər. Nə az-nə çox, 30 ilə yaxın doğma yurdlarına qovuşmağı gözlədilər. Vətən həsrəti uzun çəksə də, ümidləri ölmədi, inamla yaşadılar öz yurdlarına qayıtmaq üçün. Nəhayət, 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 illik həsrətə son qoydu, torpaqlarımızı yağı düşməndən azad etdi. İndi yurd yerlərimizdə geniş tikinti-quruculuq işləri aparılır, keçmiş məcburi köçkünlər mərhələ-mərhələ dədə-baba torpaqlarına qayıdırlar. Onlar uzun illərdir ayrı düşdükləri doğma torpaqlarında indi xoşbəxt günlərini yaşayırlar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, erməni işğalı zamanı daşı-daş üstə qalmayan, xarabalığa çevrilən Füzuli yenidən dirçəlir – binalar, evlər tikilir, infrastruktur yaradılır, yaşıllıqlar, istirahət zonaları salınır. İndi Füzulidə 380 ailə olmaqla, 1392 sakin Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili doğma yurdunda qarşılamağa hazırlaşır.

Bu gün Füzulidə Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarə Xidmətinin birgə təşkilatçılığı ilə keçirilən bayram konserti böyük coşqu ilə qarşılanıb. Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə gerçəkləşən konsert tədbirində Prezidentin Xüsusi nümayəndəliyinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarə Xidmətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, şəhid ailələri qazilər, məktəb kollektivi, Füzuli sakinləri iştirak ediblər.

Əvvəlcə Dövlət Himni səsləndirilib, şəhidlərin xatirəsi anılıb.

Çıxış edən Prezidentin Xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov işğaldan azad olunan ərazilərdə həyatın yenidən qaynamasından, Füzulidə aparılan tikinti-quruculuq işlərindən danışıb. O, müasir müstəqil Azərbaycanın memarı Heydər Əliyevin 100 illik yubileyinin təntənə ilə qeyd edildiyi 2023-cü ilin əlamətdar hadisələrlə yadda qaldığını bildirib. Vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev azərbaycanlıların birliyini daha da gücləndirməyin əhəmiyyətini nəzərə alaraq, 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edib. İndi Azərbaycan xalqı bu bayramı tarixi Zəfərdən sonra qalib xalq kimi qeyd edir.

Diqqətə çatdırılıb ki, 2023-cü il həm də Füzuliyə qayıdışın başlanması kimi yaddaşlara həkk olub. İndi Füzulidə həyat yenidən canlanır, sakinlər bayramları öz doğma yurdlarında qarşılayırlar.

Çıxışlardan sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramına həsr edilən konsert proqramı olub. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının ifaları və rəqsləri nümayiş olunub, tanınmış müğənnilər və rəqqaslar çıxış ediblər.

**A. Yavərzadə**

**AZƏRTAC**
**27 dekabr, 2023**

https://video.azertag.az/site/video/196264

**Aqrar Xidmətlər Agentliyinin sədri Füzulidə vətəndaşları qəbul edəcək**

Aqrar Xidmətlər Agentliyinin sədri Sərdar Hacıyev 2024-cü il yanvar ayının 9-da, saat 10:00-da Füzuli Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında vətəndaşları qəbul edəcək.

AZƏRTAC xəbər verir ki, qəbul zamanı vətəndaşların Kənd Təsərrüfatı Nazirliyinin səlahiyyət dairəsinə aid məsələlərlə bağlı müraciətləri cavablandırılacaq, müraciətlərdə əksini tapan məsələlərin həlli ilə əlaqədar tədbirlər görüləcək.

Vətəndaş qəbulunda iştirak etmək istəyən şəxslər Kənd Təsərrüfatı Nazirliyinin "Çağrı Mərkəzi"nə (1652) və Füzuli Dövlət Aqrar İnkişaf Mərkəzinə (050-577-44-83) zəng etməklə qeydiyyatdan keçə bilərlər.

Qəbula gələn vətəndaşlar əvvəlcədən qeydiyyatdan keçməli və şəxsiyyətlərini təsdiq edən sənədləri özləri ilə gətirməlidirlər.

**AZƏRTAC**
**29 dekabr, 2023**

**Füzulidə "Bayramınız mübarək, əziz şəhid ailələri" adlı tədbir təşkil edilib**

Füzuli rayonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə şəhid ailələrinin və şəhid övladlarının iştirakı ilə "Bayramınız mübarək, əziz şəhid ailələri" adlı tədbir keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Horadiz şəhərində keçirilən tədbirdə şəhid ailələri ilə bərabər rayon icra hakimiyyətinin əməkdaşları, rayonun hüquqmühafizə orqanlarının rəhbərləri, qazilər, ziyalılar da iştirak ediblər. Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev çıxış edərək Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusunun qazandığı böyük Zəfərdən söz açıb, əsasında Ulu Öndər Heydər Əliyev siyasəti dayanan və Zəfərə aparan yolun şəhidlərimizin və qazilərimizin qəhrəmanlıq dolu döyüş yolundan keçdiyini diqqətə çatdırıb. Bütün şəhid ailələri səmimi-qəlbdən təbrik edilib, qarşıdan gələn illərin dövlətimiz, xalqımız üçün uğurlu xeyirli olması arzulanıb.

Füzuli Dövlət Dram Teatrının hazırladığı şou proqram şəhid övladlarının böyük marağına səbəb olub.

Sonda rayon icra hakimiyyəti tərəfindən şəhid övladlarına hədiyyələr təqdim edilib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**30 dekabr, 2023**

## Aqrar Xidmətlər Agentliyinin sədri Füzuli rayonunda vətəndaşların ərizə və şikayətlərinə baxıb

Aqrar Xidmətlər Agentliyinin (AXA) sədri Sərdar Hacıyev yanvarın 9-da Füzuli Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Füzuli və Beyləqan rayonlarından olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, qəbulda vətəndaşların müraciətləri əsasən işlə təmin olunma, subsidiyanın verilməsi, subartezian quyusunun qazılması və digər məsələlərlə bağlı olub. AXA sədri Sərdar Hacıyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi üzrə müvafiq izahatlar verilib, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Sərdar Hacıyev vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb.

Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**
**9 yanvar, 2024**

**Füzuli şəhərini içməli su ilə təmin etmək üçün 20 min kubmetr həcmində su anbarları inşa edilir**

Ötən il mayın 5-də Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin yaradılması layihəsinin birinci mərhələsi icra olunur.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən AZƏRTAC-a bildirilib ki, qurum tərəfindən icra olunan layihə 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. İlkin mərhələdə şəhərin xarici su təchizatı sistemlərinin və mərkəzi anbarların tikintisi işləri həyata keçirilir. Füzuli şəhərini dayanıqlı içməli su ilə təmin etmək məqsədilə Zərgər kəndi yaxınlığında ümumi tutumu 20 min kubmetr olan mərkəzi su anbarları inşa edilir. Layihəyə əsasən, Füzuli şəhərinin su mənbəyindən götürülən suyun şəhərə çatdırılmasını təmin etmək üçün 10,7 km uzunluğunda magistral su kəmərinin inşası yekunlaşıb.

Füzuli şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə növbəti mərhələdə Gövşadlı kəndi yaxınlığında 15 subartezian quyusu qazılacaq. Bu mənbə hesabına Füzuli şəhəri ilə yanaşı, rayonun bir neçə kəndi də içməli su ilə təmin olunacaq.

Layihə çərçivəsində Füzuli şəhərində 103 km içməli, 87 km tullantı və 100 km yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşacaq tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 15 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikiləcək. Füzuli şəhərində yaradılan yeni infrastruktur “Ağıllı su” sistemi əsasında idarə olunacaq. Layihə çərçivəsində hər bir infrastruktur elementi SCADA sistemilə təmin ediləcək.

Qeyd edək ki, Füzuli şəhərinin içməli və tullantı su sistemlərinin yaradılması layihəsi icra olunana qədər burada məskunlaşan əhalinin, eləcə də dövlət və özəl sektora aid binaların və obyektlərin içməli su ilə təmin edilməsi məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilib. Bu məqsədlə 1980-ci illərdə Quruçayın məcrasında tikilmiş və işğal dövründə yararsız hala salınmış drenaj sistemləri bərpa edilərək istismara qaytarılıb. Eyni zamanda su mənbəyində ümumi tutumu 100 kubmetr olan 2 sutoplayıcı rezervuar və nasos stansiyası, magistral su kəməri inşa edilib. Şəhərdə formalaşan tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə təxirəsalınmaz tədbir kimi ümumi məhsuldarlığı sutkada 600 kubmetr olan 4 ədəd modul tipli təmizləyici qurğu da quraşdırılıb.

**AZƏRTAC**
**9 yanvar, 2024**

**Prezident İlham Əliyev: Yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının açılışını edəcəyik**

Yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının açılışını edəcəyik. Zabuxçay Su Anbarının inşası bu il tamamlanacaq, o da böyük ərazini suvarma suyu ilə təmin edəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində deyib.

Özəl sektoru Qarabağa və Şərqi Zəngəzura daha fəal investisiya qoymağa çağıran dövlətimizin başçısı bildirib ki, artıq Hadrut qəsəbəsində, Daşaltı kəndində və Ağdam şəhərində bir neçə layihə özəl sektor tərəfindən icra edilir.

**AZƏRTAC**
**10 yanvar, 2024**

**QDF: Füzuli Mərkəzi Parkında təmizlik işləri zamanı ağaclar qorunur**

Qarabağ Dirçəliş Fondunun sifarişi əsasında Füzuli şəhərində salınacaq Mərkəzi Parkın ərazisinin tikili qalıqlarından və digər tullantılardan təmizlənməsi və ərazinin müvəqqəti hasara alınması işləri davam etdirilir.

Fonddan AZƏRTAC-a bildiriblər ki, görülən işlər zamanı ərazidə mövcud olan ağacların qorunmasına xüsusi diqqət yetirilir. Belə ki, "Yaşıllıqların mühafizəsi haqqında" Qanunun tələblərinə uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Parkın salınacağı ərazidə monitorinq keçirilib.

Monitorinqin nəticəsi ilə bağlı verilən müvafiq rəyə uyğun olaraq Qarabağ Dirçəliş Fondunun təşəbbüsü ilə Fondun əməkdaşlarının, Parkın tikintisi üçün layihə-smeta sənədlərini hazırlayan "By Medgalchi" şirkətinin cəlb etdiyi ekspertlərin və təmizlik işlərinin icraçısı olan "RAMCO" QSC şirkətinin müvafiq əməkdaşlarının iştirakı ilə ərazidə aparılan növbəti monitorinqlər zamanı saxlanılması tələb olunan 80-dən çox ağac müəyyənləşdirilib və onların qorunması üçün müvafiq işlər görülüb.

Ərazidə olan dağdağan, göyrüş, zoğal, fındıq, sofora, ağcaqayın, qoz, o cümlədən Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına düşmüş Şərq çinarı, əncir və nar ağacları xüsusi nəzarətə götürülərək işarələndikdən sonra ətrafı hasara alınıb və onlara zəruri aqrotexniki qulluğun göstərilməsi qərara alınıb.

Qeyd edək ki, Füzuli şəhərinin yeni Baş plan layihəsinə əsasən, orada məskunlaşacaq əhalinin kütləvi istirahətinə olan tələbatını nəzərə alaraq 22,47 hektar ərazidə Mərkəzi Parkın salınması nəzərdə tutulur.

Park şəhər sakinlərinin asudə vaxtlarının səmərəli keçirilməsinə imkan yaradan məkana çevrilməklə yanaşı, sağlam və təbii ekoloji mühitin yaranmasına və qorunub saxlanmasına da şərait yaradacaq, müasirliyin və milli-mədəni irsin vəhdəti Füzuli şəhərinin daha da gözəlləşməsinə xidmət etməklə yanaşı, bölgənin ekoloji tarazlığının bərpasına da böyük töhfə verəcək. Burada istirahət zonaları, multifunksional açıq yaşıllıq sahələri, iaşə zonaları, piknik və idman məqsədilə istifadə ediləcək zonalar, eyni zamanda, qaçış üçün cığırlar, velosiped yolları, amfiteatr və digər obyektlərin yaradılması nəzərdə tutulub.

**AZƏRTAC**
**12 yanvar, 2024**

**Füzuli şəhərinə köçürüləcək ailələr arasında növbəti püşkatma keçirilib**

Yanvarın 12-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə növbəti mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib.

Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəliyinin, Füzuli Rayon İcra Hakimiyyətinin və Dövlət Komitəsi yanında İctimai Şuranın nümayəndələri iştirak ediblər.

Püşkatmada 147 ailə iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 57-i ikiotaqlı, 75-i üçotaqlı, 15-i dördotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək respublikanın müxtəlif ərazilərində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Püşkatmanın keçirilməsi məcburi köçkünlərin yerləşdirilməsində obyektivliyi və şəffaflığı təmin etmək məqsədi daşıyır. Məcburi köçkün ailələrin nümayəndələri tərəfindən püşkatma vasitəsilə onlara verilən evlərin dəqiq ünvanı müəyyənləşdirilir.

Tezliklə daimi yaşayış üçün Füzuli şəhərinə qayıdacaq keçmiş məcburi köçkünlər çox böyük sevinc hissi keçirdiklərini, işğaldan azad olunmuş ərazilərdə yaradılan şəraitə və onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Püşkatmada iştirak etmiş ailələr yaxın günlərdə Füzuli şəhərinə yola salınacaqlar.

**AZƏRTAC**
**12 yanvar, 2024**

**Böyük Qayıdış: Füzuli şəhərində 1519 nəfərin daimi məskunlaşması təmin edilib**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Füzuli şəhərinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə - 127 nəfər köçürülüb.

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə yanvarın 18-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bununla da indiyədək Füzuli şəhərində 410 ailənin (1519 nəfər) daimi məskunlaşması təmin edilib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

**AZƏRTAC**
**18 yanvar, 2024**

**Keçmiş məcburi köçkün: Uzun illər Füzulinin həsrəti ilə yaşamışam**

Mən 17 yaşım olarkən Füzulidən məcburi köçkün düşdüm. Bu gün isə 47 yaşımda övladlarımla birlikdə öz doğma yurduma- Füzuliyə qayıdıram.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində doğma yurduna qayıdan Füzuli sakini Aynur İbrahimova söyləyib.

O, bütün itirdiyi keçmişini, cavanlığını, yaddaqalan xatirələrini təzələməyə getdiyini deyib.

Uzun illər Füzulinin həsrəti ilə yaşadığını bildirən A. İbrahimova doğulub boya-başa çatdığı yerlərə qayıtdığı üçün özünü xoşbəxt hiss etdiyini vurğulayıb.

Keçmiş məcburi köçkün Xəzər rayonu Binə qəsəbəsində məskunlaşdıqlarını bildirib.

**AZƏRTAC**
**18 yanvar, 2024**

**Elnur Məmmədov: Füzuliyə qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur**

Füzuliyə qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur. Oradan ayrılanda 12-13 yaşım olardı və çox ağrılı-acılı günləri yaşamışıq. Allaha şükürlər olsun ki, çətin günlər geridə qaldı.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuliyə qayıdan keçmiş məcburi köçkün Elnur Məmmədov söyləyib.

Ailəsi ilə birlikdə Füzuliyə qayıtdığını vurğulayan keçmiş məcburi köçkün Xəzər rayonu Binə qəsəbəsində məskunlaşdıqlarını bildirib.

Füzulidəki xatirələrini unutmadığını, doğma yerləri görmək üçün səbirsizləndiyini deyən E. Məmmədov sevincini sözlə ifadə edə bilmədiyini söyləyib.

**AZƏRTAC**
**18 yanvar, 2024**

**Füzuli sakini: Doğma yerlərə getdiyim üçün sevincli və bir o qədər də həyəcanlıyam**

Bu gün ailəmlə birlikdə öz doğma yurdumuza qayıdırıq. Füzulidən çıxmağa məcbur olanda 16 yaşım var idi. Hazırda isə 47 yaşında uşaqlığımın və gəncliyimin keçdiyi doğma yerlərə getdiyim üçün sevincli və bir o qədər də həyəcanlıyam.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuliyə qayıdan keçmiş məcburi köçkün Habil İbrahimov söyləyib.

O, torpaqlarımızı işğaldan qurtaran Azərbaycan Ordusuna minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, diləyib.

H. İbrahimov istər məcburi köçkünlük zamanında, istərsə də indi dövlətin diqqət və qayğısı ilə əhatə olunduqlarını bildirib.

O, Bakıda Xəzər rayonu Binə qəsəbəsində məskunlaşdıqlarını vurğulayıb.

**AZƏRTAC**
**18 yanvar, 2024**

**Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim olunub FOTO**

Bu gün Füzuliyə qayıdan keçmiş məcburi köçkün ailələrə (30 ailə) mənzillərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuliyə qayıdan köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Ailələr qarşılandıqdan sonra mənzillərin açarları təqdim edilib. Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak edib.

Bununla da Füzuli şəhərində 1519 nəfərin (410 ailə) daimi məskunlaşması təmin olunub.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün Yeni ilin ilk köç prosesi həyata keçirilib. Səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan ailələr işğaldan azad olunan Füzuliyə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu gün 30 ailə olmaqla, 127 nəfər doğma yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar.

Yeni köçən ailələr daha öncədən Füzulidə məskunlaşan həmyerliləri ilə görüşərək, doğma yurdlarına qayıdışın sevinc hisslərini paylaşıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**18 yanvar, 2024**

**Füzuli sakini: Evimizin bir eyvanından erməni vandalizmini, digərindən isə abad şəhəri görürük – FOTO**

Yenidən qurulan Füzuli şəhərində həyat öz axarına qayıdır. Şəhərdə artıq 410 ailə olmaqla, 1519 nəfərin daimi məskunlaşması təmin edilib. Ailələr üçün yenidən inşa olunan binalarda yaşayış üçün hər cür şərait yaradılıb.

AZƏRTAC-ın bölgə müxbirinin Füzuli şəhərinə səfəri ilə bağlı qeydlərini təqdim edirik.

2020-ci ildə, Vətən müharibəsində Azərbaycan Ordusunun qələbə qazandığı Zəfər yolu ilə irəliləyirik. Ətrafda erməni işğalı dövründə qurulan istehkamlar, minalı sahələr, erməni vandalizmi nəticəsində dağıdılan kəndlər, viran qoyulan yurd yerləri görünür. Nəhayət, Füzuli şəhərinə çatırıq, köhnə şəhər mərkəzi viran qoyub, yolun digər tərəfində isə yenidən ucalan binalar diqqət çəkir.

Artıq həyatın qayıtdığı Füzulidə uşaqların sevinc səsləri eşidilir. Məhəllə ilə irəliləyərkən sakinlərdən birinə yaxınlaşırıq. Rəna Hümbətova Füzulidən 7 yaşında çıxıb, ailəsi ilə birlikdə məcburi köçkün həyatı yaşayıb. 1994-cü ildə uğurlu Horadiz əməliyyatı zamanı azad olunan kəndlərdən birinə qayıdaraq orada məskunlaşıblar. Deyir ki, 2020-ci ildə digər torpaqlarımızla yanaşı, Füzulinin də azad edilməsini toy-bayram kimi qarşılayıblar.

Rəna Hümbətova Füzuli şəhərinin bərpasına başlanıldıqdan sonra peşəsi üzrə fəaliyyətini burada davam etdirmək qərarına gəlib: “Bu yerlərə yaşadığımız kənddən həsrətlə baxırdıq, qayıdacağımız günü gözləyirdik. Nəhayət qəhrəman ordumuz tarixi Qələbə qazandı. İndi Füzuli şəhəri bərpa olunur. Fəaliyyətimi buradakı məktəbdə davam etdirmək üçün müraciət etdim və hazırda Füzuli şəhər məktəbində çalışıram. Məktəb illərində şagirdlərimə torpaqlarımızın işğal tarixləri barədə dərs keçmək çox çətin idi. Amma indi azad Füzulidə şagirdlərə işğal tarixindən deyil, Zəfər yürüşündən, torpaqlarımızın qəhrəman oğulların sayəsində azad edilməsindən danışırıq. Bu, bizə böyük qürur verir".

Füzuli şəhərində məskunlaşan sakinlərdən biri də həyat yoldaşı ilə doğma şəhərinə qayıdan Nazilə Əliyevadır. O, 1958-ci ildə Füzuli şəhərində dünyaya göz açıb və ailəsi birlikdə mərkəzi küçələrdən olan Qaqarin küçəsində yaşayıb. Doğma şəhəri ilə bağlı xoş xatirələri olsa da, sonuncu dəfə Füzulidən top səsləri altında çıxmalı olublar.

“Füzuli Qarabağın dilbər guşələrindən biridir. Çox gözəl günlərimiz olub burada, amma işğal arzularımızı yarımçıq qoydu, darmadağın xəyallarla məcburi köçkün düşdük... 1992-ci il martın 16-da ermənilər Füzulini, dinc əhalini top atəşinə tutmağa başladı və biz bir il mərmi səsləri ilə yaşamalı olduq. Lakin 1993-cü ildə doğma elimizi tərk etməli olduq. İki körpə qız övladım və həyat yoldaşımla birlikdə çətin anlar yaşadıq. Düzdür, bizlərə dövlətimiz tərəfindən qayğı və diqqət göstərildi, amma yurd həsrəti ilə yaşamaq bizə mənəvi əziyyət verirdi. Nəhayət, Zəfər bizlərə qismət oldu, qələbə sevinci yaşadıq. Döyüşlərin ən qızğın getdiyi bu yerlərdə minlərlə şəhidimizin qanı axıb, ona görə bu torpaqlar bizim üçün and yeridir”, - deyir Nazilə xanım.

Füzuliyə, yenidən qurulan şəhərə sevinc göz yaşları ilə qayıdan həmsöhbətimiz burada dövlətimiz tərəfindən hər şəraiti olan iki otaqlı evlə təmin edilib: “Evimizin iki eyvanı var. Bir tərəfə baxanda Füzulidə erməni vandalizminin izlərini görürük. Uşaqlıq illərimin şən keçdiyi o məhəllə artıq viran olub, gəlin köçdüyüm evimiz dağıdılıb. Amma digər tərəfə baxanda abad şəhəri, uşaqların sevinc dolu səslərini, həyatın yenidən canlanmağını görürəm”.

Yusif Əliyev də Füzuli şəhər sakinidir, 1947-ci ildə burada dünyaya göz açıb. Erməni işğalı zamanı doğma yurdundan didərgin düşüb. 76 yaşında Füzuli şəhərində qayıdanda isə yeni, firavan həyata başladığını hiss edib. “30 ildən sonra işğaldan azad edilən şəhərimizə qayıdanda yol boyu ermənilərin bizim evləri sökərək səngər qazdıqlarını, istehkam düzəltdiyini, sahələri necə minaladıqlarını gördükdə dəhşətə gəldim. Həmin an düşündüm ki, güclü ordumuz, qəhrəman oğullarımız bu çətin relyefdə düşmənin illərdir nəzarətində olan əraziləri necə azad edib..? Şəhərimizə çatdıqda isə yeni qurulan Füzuli məni heyrətə gətirdi. Dövlətimiz qısa müddətdə bizlər üçün yeni binalar inşa edib, bütün infrastruktur yaradılıb, qardaş Özbəkistan tərəfindən şəhərimizdə tam müasir yeni məktəb binası inşa olunub. Həmçinin istirahət parkı, uşaqların əyləncəsi üçün meydançalar yaradılıb. Evlərimiz də tam müasir standartlara uyğun inşa olunub,

istilik, elektrik enerjisində kəsilmə yoxdur. Bizlərə bu xoşbəxt günləri bəxş edən şəhidlərimizə rəhmət diləyir, qazilərimə şəfa arzu edirəm”, - deyə Yusif Əliyev düşüncələrini bizimlə paylaşır.

Qeyd edək ki, yaxın günlərdə Füzuliyə ailələrin köçürülməsi davam etdiriləcək. Hazırda bu şəhərdə yeni binaların tikintisi sürətlə davam edir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**19 yanvar, 2024**

**Füzuliyə köçürülən daha bir qrup şəxsə avadanlıqlar təqdim edilib**

*İndiyədək işğaldan azad olunan ərazilərə köçürülən 1315 vətəndaş aktiv məşğulluq tədbirləri ilə əhatə olunub*

Böyük Qayıdış proqramı üzrə Füzuli şəhərinə köçürülən sakinlərin də məşğulluğuna dəstək işləri davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən Füzuli rayonuna köçürülən daha bir qrup şəxsə özünüməşğulluq proqramı çərçivəsində avadanlıqlar təqdim edilib.

Avadanlıqlar avtoşinlərin təmiri xidmətləri, avtoyuma xidmətləri, kişi bərbəri, kiçik dərzi sexi, qadın gözəllik salonu, dönərxana və un məmulatları istehsalı zərflərini əhatə edib.

Proqram iştirakçılarına qeyd edilən istiqamətlər üzrə öz işlərini qurmaları üçün bütün zəruri avadanlıqlar təqdim edilib.

Bununla da Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına qayıdan vətəndaşlar üçün yaradılan təsərrüfatların sayı 36-ya çatıb.

Ümumilikdə, indiyədək işğaldan azad olunan ərazilərə köçürülən 1315 vətəndaş aktiv məşğulluq tədbirləri ilə əhatə olunub.

**AZƏRTAC**
**19 yanvar, 2024**

**Füzulidə silah-sursat aşkar edilib**

Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş ərazilərində silah-sursatın aşkar olunması istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyi mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri tədbirlər zamanı 8 avtomat və 3 qumbaraatan götürülərək aidiyyəti üzrə təhvil verilib.

Bundan əlavə, keçirilən profilaktiki tədbirlərlə rayon sakinləri tapdıqları 1 ədəd snayper və 1 ədəd ov tüfəngini polis əməkdaşlarına təqdim ediblər.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**20 yanvar, 2024**

**Böyük Qayıdış: Füzuli şəhərinə daha 30 ailə yola salınıb**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yanvarın 22-də Bakı şəhərinin Qaradağ rayonundan Füzuli şəhərinə yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə - 106 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb.

Xatırladaq ki, indiyədək Füzuli şəhərinə 440 ailə, 1625 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**22 yanvar, 2024**

**Füzuli sakini: Doğma torpağıma qayıtmağıma görə çox sevincliyəm**

Füzuliyə qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur. Oradan gənc yaşlarımda ayrıldım, çox ağrılı-acılı günlər yaşadıq. Allaha şükürlər olsun ki, çətin günlər geridə qaldı.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuliyə qayıdan keçmiş məcburi köçkün Ağgül Məmmədova söyləyib.

Ailəsi ilə birlikdə Füzuliyə qayıtdığını vurğulayan keçmiş məcburi köçkün Sumqayıt şəhərində məskunlaşdıqlarını bildirib. Füzulidəki xatirələrini unutmadığını, doğma el-obalarını görmək üçün səbirsizləndiyini deyib.

“Bu gözəl günləri bizə yaşadan Prezidentimizə öz minnətdarlığımı bildirirəm. Şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyirəm", - deyə o qeyd edib.

**AZƏRTAC**
**22 yanvar, 2024**

**Keçmiş məcburi köçkün: Hamımız bu xoş günün gələcəyinə inanırdıq**

“Bu gün çox sevincli və qürurlu günlərdən biridir. Doğma el-obamıza - Füzuli rayonuna qayıdırıq. Hamımız bu xoş günün gələcəyinə inanırdıq. Bizə bu günləri yaşadan qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyirəm”.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Bakıdan Füzuli rayonuna yanvarın 22-də yola salınan keçmiş məcburi köçkün Taleh Əhmədov deyib.

"Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı. Otuz il düşmən tapdağında olan torpaqlarımız azad olundu və doğma yurd həsrətimiz sona çatdı. Hələ gənc yaşlarımda yurdumuzdan köçkün düşdük. İndi isə ailəmlə ata ocağıma qayıdıram. Sevincimizin həddi-hüdudu yoxdur”, - deyə Füzuli sakini bildirib.

Məcburi köçkün kimi Abşeron rayonunda yaşadığını söyləyən Taleh Əhmədov Birinci Qarabağ müharibəsinin də iştirakçısı olduğunu qeyd edib.

**AZƏRTAC**
**22 yanvar, 2024**

**SOCAR Füzulidə yeni yanacaqdoldurma stansiyasını istifadəyə verib**

İşğaldan azad olunmuş torpaqlarımızda bərpa və yenidənqurma işlərinə dəstək olmaq məqsədlə "SOCAR Petroleum" QSC tərəfindən növbəti yanacaqdoldurma stansiyası (YDS) istifadəyə verilib.

SOCAR-ın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, SOCAR brendli modul tipli YDS Füzuli şəhərində yerləşir.

Yanacaqdoldurma stansiyası Hacıqabul-Bəhramtəpə-Mincivan avtomobil yolundan istifadə edən avtonəqliyyat vasitələri üçün əlverişlidir. Bu yol Beyləqan, və Füzuli rayonlarının ərazisindən keçir.

"Aİ-92", "Aİ-95" Premium və "Dizel" markalı yanacaq məhsullarının satışının həyata keçiriləcəyi stansiyada 2 yanacaqpaylayıcı kolonka quraşdırılıb. Bununla da 2 kiçik və iritutumlu avtonəqliyyat vasitələrinin yanacaqla təmin edilməsi üçün müvafiq şərait yaradılıb.

Artıq Qarabağ və Şərqi Zəngəzurda - Füzuli, Şuşa, Ağdam, Laçın, Xankəndi şəhərləri, Qubadlı (Eyvazlı kəndi), Xocavənd (Hadrut qəsəbəsi) və Cəbrayıl (Şükürbəyli) rayonlarında fəaliyyət göstərən SOCAR brendli YDS-lərin sayı 9-a, ümumilikdə isə ölkə ərazisində 59-a çatdırılıb.

**AZƏRTAC**
**22 yanvar, 2024**

**Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim olunub – FOTO**

Növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 30 ailə olmaqla 106 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Bu gün Füzuliyə qayıdan köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıb. Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarını bildiriblər. Ailələr qarşılandıqdan sonra keçirilən açarların təqdim edilməsi mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak edib. Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq yeni evlərində məskunlaşıblar. Bununla da Füzuli şəhərində 440 ailə olmaqla 1625 nəfərin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün növbəti köç prosesi həyata keçirilib. Səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan ailələr Füzuliyə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, işğaldan azad olunan Füzuliyə doğma sakinlərinin qayıdışı davam edir. Bu gün 30 ailə olmaqla, 106 nəfər Füzuli sakini doğma yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar. Onlar daha öncədən Füzulidə məskunlaşan həmyerliləri ilə görüşərək, Vətənə qovuşmağın sevincini paylaşıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**22 yanvar, 2024**

**ANAMA Füzuliyə köçən sakinlərə maarifləndirmə təlimi keçib**

Füzuli şəhərinə növbəti mərhələdə köç edən sakinlərə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) nümayəndələri tərəfindən partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə təlimi keçirilib.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, təlimlərdə sakinlərə əsas təhlükəsizlik qaydaları, şübhəli ərazilərin əlamətləri, xəbərdarlıq nişanları barədə məlumat verilib, təhlükəsizliyinə əmin olmadıqları ərazilərə daxil olmamağa, eləcə də şübhəli əşyalara toxunmamağa dair çağırışlar edilib.

Agentlik nümayəndələri tərəfindən sakinlərə müxtəlif növ xəbərdaredici və maarifləndirici çap materialları paylanılıb.

**AZƏRTAC**
**22 yanvar, 2024**

**Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb**

Yanvarın 24-də Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Füzuli şəhərinə yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuliyə daha 30 ailə (125 nəfər) köçürülüb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, indiyədək Füzuli şəhərində 470 ailənin (1750 nəfər) daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**24 yanvar, 2024**

**Füzuli şəhər sakini: Doğma yurduma çatmaq üçün səbirsizlənirəm**

Nəhayət bu gün dədə-baba elimə, doğma yurduma qayıdıram. Sevincimin həddi-hüdudu yoxdur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli şəhərinə qayıdan Arzu Salmanova deyib.

O, şəhidlərə rəhmət, qazilərə can sağlığı diləyib: "Prezident, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə güclü Ordumuz torpaqlarımızı düşməndən azad etdi. Mənim Füzuli ilə bağlı xoş xatirələrim var. Ümid edirəm ki, gözəl günlərimiz yenə davam edəcək".

**AZƏRTAC**
**24 yanvar, 2024**

**Keçmiş məcburi köçkün: Füzulini yenidən qurub yaradacağıq**

Şükür ki, bu günləri görmək bizə nəsib oldu. Mən Füzulidən çıxanda 18 yaşım var idi, artıq hər şeyi dərk edirdim. Bütün gəncliyim, xatirələrim, xoş günlərim Füzulidə, tapdaq altında qaldı. Bütün bunlara baxmayaraq, oraya qayıdanda yenidən qurub, yaradacağıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkün Pənah Mirzəyev deyib.

Bakıda yaşayış kompleksində evlə təmin olunduğunu bildirən müsahib əlavə edib: “Hər cür şərait yaradılmasına baxmayaraq, yurd həsrəti, Vətən sevgisi məni daim Füzuliyə çəkirdi. Bu günləri bizə yaşatdığı üçün Müzəffər Ali Baş Komandanımıza, rəşadətli Ordumuza minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin”.

Qeyd edək ki, yanvarın 24-də növbəti köç karvanı Füzuli şəhərinə yola salınıb. Daha 30 ailə (125 nəfər) öz doğma yurduna köçürülüb. Bununla da ümumilikdə 470 ailənin (1750 nəfər) Füzuli şəhərində məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**24 yanvar, 2024**

**Füzuli sakini: Doğma yurdumda hər şey daha gözəl olacaq**

Füzulidən çıxanda 11 yaşım var idi, balaca məktəbli idim. Uşaq olsam da, hər şeyi xatırlayıram. O günlər yadıma düşəndə, Füzulidən danışanda həmişə qəhər məni boğurdu. Xatırlayıram, qızlarla bulaq başına gedərdik, - xına daşı deyirdilər biz tərəfdə, - xına otunu o daşın üstündə hazırlayıb, əlimizə xına qoyurduq. Çox gözəl günlər idi. Allah bu günləri bizə çox görməsin.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkün Aidə Zülfüqarova deyib.

Uşaqlığını, xatirələrini qoyub gəldiyi el-obasına qayıtmağın sevincini yaşayan Füzuli sakini əlavə edib: "Bu günləri bizə yaşatdığı üçün Müzəffər Ali Baş Komandanımıza, şanlı Ordumuza minnətdarıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Doğma yurdumda - Füzulimdə hər şey daha gözəl olacaq".

Qeyd edək ki, bu gün növbəti köç karvanı Füzuli şəhərinə yola salınıb. Daha 30 ailə (125 nəfər) öz doğma yurduna köçürülüb. Bununla da ümumilikdə 470 ailənin (1750 nəfər) Füzuli şəhərində məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**24 yanvar, 2024**

**Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim olunub - FOTO VİDEO**

Bu gün növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuliyə qayıdan keçmiş məcburi köçkünlər respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Ailələr qarşılandıqdan sonra onlara mənzillərinin açarları təqdim olunub.

Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə mənzilllərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 470 ailə olmaqla, 1750 nəfərin daimi məskunlaşması təmin edilib. Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**16:00**

Füzuli şəhərinə növbəti köç həyata keçirilib. Səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan ailələr artıq işğaldan azad olunan Füzuliyə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu gün 30 ailə olmaqla, 125 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar. Onlar doğma yurda qovuşmağın sevinc hisslərini yaşayıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**24 yanvar, 2024**

**https://video.azertag.az/site/video/198505**

**Nüşabə Ağayeva: Tamamilə dağıdılmış şəhərlərin, kəndlərin sürətlə bərpası böyük sevinc doğurur**

Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımız azad edildi. Tamamilə dağıdılmış şəhərlərin, kəndlərin bərpası böyük sevinc doğurur. Artıq iki ildir ki, insanlar öz yurdlarına qayıdırlar. Bu günləri görmək bizə də nəsib oldu. Çox sevinirik ki, bu gün biz də Füzuliyə qayıdırıq.

Bu sözləri AZƏRTAC-a müsahibəsində doğma yurduna qayıdan Füzuli sakini Nüşabə Ağayeva söyləyib.

O, torpaqlarımızın azad olunmasına görə Azərbaycan Ordusuna minnətdarlığını bildirib, şəhidlərimizə rəhmət diləyib, qazilərə isə cansağlığı arzulayıb.

N. Ağayeva Xəzər rayonunda yerləşən 981 saylı hərbi hissədə məskunlaşdıqlarını bildirib.

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Keçmiş məcburi köçkün: Azərbaycan Ordusu şəhidlərimizin qisasını aldı**

Zəfər Gününü bizə yaşadan Azərbaycan Ordusuna, dövlətimizə təşəkkür edirəm ki, onların sayəsində doğulub boya-başa çatdığımız yerlərə qayıdırdıq.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Füzuliyə qayıdan keçmiş məcburi köçkün Fazil Ağayev söyləyib.

Müharibə veteranı olduğunu deyən F.Ağayev şəhid olan döyüş yoldaşlarını xatırlayıb.

F. Ağayev Vətən müharibəsində qəhrəman Azərbaycan Ordusunun şəhidlərimizin qisasını alındığını vurğulayıb.

O, Xəzər rayonunda yerləşən 981 saylı hərbi hissədə məskunlaşdıqlarını bildirib.

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Füzuliyə köçən sakin: Doğma yurdumuza çox böyük həvəslə qayıdırıq**

Doğma yurdumuza çox böyük həvəslə qayıdırıq. Uzun illərdən sonra Füzuliyə qayıtdığım üçün sevincimin həddi-hüdudu yoxdur.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində doğma yurduna qayıdan Füzuli sakini Nərminə Quliyeva söyləyib.

Məcburi köçkün düşəndə 30 yaşlarında olduğunu bildirən N. Quliyeva Füzulidə xoş günlər keçirdiklərini bildirib.

O, Füzulidə bundan sonra şad günlər görəcəyinə inandığını və övladını orada evləndirəcəyini vurğulayıb.

Keçmiş məcburi köçkün Xətai rayonunda yataqxanada məskunlaşdıqlarını bildirib və onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə təşəkkür edib.

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Böyük Qayıdış: Füzuli şəhərinə növbəti köç karvanı yola salınıb**

Bu gün Füzuli şəhərinə növbəti köç karvanı yola salınıb.

AZƏRTAC xəbər verir ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yanvarın 26-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Füzuli şəhərinə daha 30 ailə - 104 nəfər köçürülüb.

Bununla da indiyədək Füzuli şəhərində 500 ailənin, 1854 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Füzulidə daha 30 ailəyə evlərinin açarları təqdim edilib**

Bu gün növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə dövlət tərəfindən tikilən mənzillərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 30 ailə olmaqla, 104 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuliyə qayıdan köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Yeni köçən ailələrə ANAMA əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə mənzilllərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 500 ailə olmaqla, 1854 nəfərin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**12:31**

Bu gün Füzuli şəhərinə növbəti köç prosesi baş tutub. Səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan ailələr Füzuliyə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu gün 30 ailə olmaqla, 104 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıb, onlar doğma yurda qovuşmağın sevincini yaşayıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**26 yanvar, 2024**

**Məftun Ramazanov: Füzulidə səs verməyə hazırlaşan seçici olmaq mənim üçün şərəfdir**

Bizim üçün yeni tarix başlayıb. Bir vaxtlar dinc sakinlər olaraq erməni işğalı nəticəsində məcburi köçkün düşdüyümüz yurdumuza indi müzəffər Ordumuzun sayəsində qalib ölkənin qalib vətəndaşları kimi qayıtmışıq. Füzulidə səs verməyə hazırlaşan seçici olmaq mənim üçün şərəfdir.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə açıqlamasında Füzuli şəhər sakini Məftun Ramazanov söyləyib.

1981-ci ildə Füzuli şəhərində dünyaya göz açan Məftun 12 yaşı olarkən ailəsi ilə birlikdə doğma yurdundan məcburi köçkün düşüb. Otuz il müddətində yaşadığı həsrət artıq bitib. Doğma yurdundan yeniyetmə kimi çıxan Məftun indi Füzuliyə ailə başçısı olaraq qayıdıb. Deyib ki, əvvəlki illərdə seçkilərdə iştirak edərkən ən böyük arzusu öz doğma yurdunda səs vermək olub və bu arzu gerçəkliyə çevrilib. “Ərazi bütövlüyünü bərpa edən Azərbaycanın vətəndaşı olaraq seçkilərdə iştirak etmək və Füzulidə ilk dəfə səs verənlər sırasında yer almaq mənim üçün qürurvericidir. 2020-ci ildən başlayaraq tarixi günlərə şahidlik etdik. Zəfər tariximiz, Böyük Qayıdışın başlanması və bu Qayıdışın ilk nümayəndələrindən olmaq sözlə ifadə edilə bilinməyən bir xoşbəxtlikdir. Bizlərə bu günləri yaşadan şəhidlərimizə rəhmət, qazilərimizə isə şəfa diləyirəm. Füzuli ən gərgin döyüşlərin getdiyi bir ərazi olub. İlk dəfə Füzuliyə qayıdanda ətrafdakı düşmən səngərlərini, onların yaratdıqları istehkamları, minalanmış sahələri gördükdə Ordumuzun bu yerləri hansı çətinliklə azad etdiyi bir anlıq gözümün önünə gəldi. Buna görə də bu yerlərin hər qarışı bizlər üçün müqəddəsdir. Şəhidlərimizin bizə əmanət etdiyi bu yerlərdə yaşadığımız hər gün bizlər üçün tariximizin şanlı bir səhifəsidir”.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**27 yanvar, 2024**

**Füzuli şəhərinə növbəti köç karvanı yola düşüb**

Yanvarın 29-da respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan Füzuli şəhərinə yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuliyə daha 27 ailə (115 nəfər) köçürülüb.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, indiyədək Füzuli şəhərində 527 ailənin (1969 nəfər) daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**29 yanvar, 2024**

**Keçmiş məcburi köçkün: Doğma yurduma çatmaq üçün səbirsizlənirəm**

Nəhayət bu gün dədə-baba elimə, doğma yurduma qayıdıram. Sevincimin həddi-hüdudu yoxdur.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkün Cavanşir Ucayev deyib.

O, şəhidlərə rəhmət, qazilərə can sağlığı diləyib: "Mənim Füzuli ilə bağlı xoş xatirələrim var. Övladlarımla çıxdığım rayona nəvələrimlə qayırdıram. Ümid edirəm ki, gözəl günlərimiz bundan sonra daha çox olacaq".

**AZƏRTAC**
**29 yanvar, 2024**

**Füzuli sakini: Biz illərdir bu günü gözləyirdik**

Füzuliyə qayıdırıq və hissləri sözlərlə ifadə etmək mümkün deyil. Biz illərdir bu günü gözləyirdik.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli şəhərinə qayıdan Nigar Məmmədova deyib.

O, şəhidlərə rəhmət, qazilərə can sağlığı diləyib: "Ölkəmizin Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə güclü Ordumuz torpaqlarımızı düşmən işğalından azad etdi. İllərdir Füzuli həsrəti ilə yaşayanlar indi geri qayıdır. Hər şey çox gözəl olacaq".

**AZƏRTAC**
**29 yanvar, 2024**

**Füzuli sakini: Uzun illərin həsrəti bitir**

Bu gün bizim üçün çox gözəl və özəl gündür. Çünki doğma yurdumuza qayıdırıq və mən də bu qayıdışın sevincini yaşayıram.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Füzuliyə geri qayıdan keçmiş məcburi köçkün İldırım Hüseynov deyib.

“Nəhayət, uzun illərin həsrəti bitir. Füzulini yenidən qurub-yaradacağıq, əvvəlkindən daha gözəl, abad vəziyyətə gətirəcəyik”, - deyə keçmiş məcburi köçkün qeyd edib.

Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən Füzuli sakini doğma yurduna qayıtdığına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya da minnətdarlığını bildirib.

**AZƏRTAC**
**29 yanvar, 2024**

**Keçmiş məcburi köçkün: Otuz ildir bu xoş günün gələcəyini gözləyirdik**

Bu gün çox sevincli və qürurlu günlərdən biridir. Çünki 30 ildən sonra doğma el-obama qayıdıram. Vətən uğurunda şəhidlik zirvəsinə ucalanlara Allahdan rəhmət, ailələrinə səbir, qazilərimizə isə şəfa diləyirəm. Bizə bu şərəfli günləri yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığımı bildirirəm. Otuz ildir hamımız bu xoş günün gələcəyini gözləyirdik.

Bu sözləri AZƏRTAC-a müsahibəsində yanvarın 29-da Bakıdan Füzuli rayonuna yola düşən keçmiş məcburi köçkün Günel Hüseynova deyib.

“Allaha çox şükür ki, haqq-ədalət öz yerini tapdı. Nəhayət, bizim doğma yurd həsrətimiz sona çatdı. Füzulidən gənc yaşlarımda çıxmışam, indi isə öz ailəmlə doğma elimə qayıdıram”, - deyən Günel Hüseynova sevincinin həddi-hüdudu olmadığını bildirib.

**AZƏRTAC**
**29 yanvar, 2024**

**Növbəti köç karvanı Füzuliyə çatıb**

Bu gün səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan növbəti köç karvanı ilə yola salınan ailələr Füzuli şəhərinə çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Qarabağın dilbər guşələrindən olan Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 27 ailə olmaqla, 115 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**29 yanvar, 2024**

**Füzulidə daha 27 ailəyə mənzillərinin açarları təhvil verilib**

Bu gün Füzuliyə çatan ailələrə mənzillərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuliyə qayıdan köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Naməlum əşyalar və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Ailələr mənzillərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 527 ailə olmaqla, 1969 nəfərin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**12:02**

Bu gün səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan növbəti köç karvanı ilə yola salınan ailələr Füzuli şəhərinə çatıblar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Qarabağın dilbər guşələrindən olan Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 27 ailə olmaqla, 115 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**29 yanvar, 2024**

**ATƏT/DTİHB-nin müşahidəçiləri Füzuli rayonundakı seçki məntəqələri ilə maraqlanıblar**

84 saylı Füzuli seçki dairəsində seçkiyə hazırlıq prosesi ilə tanış olan ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) müşahidəçiləri işğaldan azad edilmiş ərazilərdə yerləşən seçki məntəqələrindəki vəziyyətlə də maraqlanıblar.

AZƏRTAC "secki-2024.az" saytına istinadla xəbər verir ki, bu barədə 84 saylı Füzuli dairə seçki komissiyasının (DSK) sədri Ramiz Teymurov məlumat verib.

O bildirib ki, ATƏT/DTİHB-nin uzunmüddətli müşahidəçiləri olan Lars Nyholm və Evgeniy Loginov işğaldan azad edilmiş ərazilərdəki seçki məntəqələrində səsvermə prosesini izləmək istədiklərini deyiblər. Bu baxımdan, həmin ərazilərdə təhlükəsizliyin necə təmin edildiyi ilə maraqlanıblar.

"Bizim dairədə mövcud olan 77 məntəqənin üçü 44 günlük müharibədə azad edilmiş ərazilərdə yerləşir. Dairə üzrə ümumilikdə 54 min 457 seçici qeydiyyatdadır. 1257 seçici ilk dəfə səsvermə hüququndan istifadə edəcək. Yeddi seçki məntəqəsində veb-kameralar quraşdırılıb. Dairə üzrə 1015 müşahidəçi qeydiyyatdan keçib", - R.Teymurov qeyd edib.

DSK sədri seçkilərə hazırlıq prosesinin qanunvericiliyin tələblərinə uyğun aparıldığını diqqətə çatdırıb

**AZƏRTAC**
**2 fevral, 2024**

**Yenidən qurulan Füzuli şəhərində 1292 nəfər səs verəcək**

Füzuli şəhərində 527 ailə olmaqla, 1969 nəfərin daimi məskunlaşması təmin edilib. Həmin sakinlərdən səsvermə hüququ olan 1292 nəfər doğma yurdunda ilk dəfə səs verəcək.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində səsvermə prosesi işğaldan azad olunan Füzuli şəhərində 3 məntəqədə baş tutacaq. 84 saylı Füzuli seçki dairəsi dairə seçki komissiyasının sədri Ramiz Teymurovun verdiyi məlumata görə, dairədə, ümumilikdə, 77 seçki məntəqəsi üzrə 54457 seçici qeydə alınıb. Onlardan 3619 nəfəri işğaldan azad olunan ərazilərdəki 75, 76 və 77 saylı seçki məntəqələrində səs verəcək. 77 saylı seçki məntəqəsində qeydə alınan 1292 nəfər Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkünlərdir. 75 saylı seçki məntəqəsində səs verəcək 1351 nəfər, 76 saylı seçki məntəqəsində isə 976 nəfər işğaldan azad olunan ərazilərdə çalışanlardır.

Dairə üzrə seçki prosesini izləyəcək 1020 müşahidəçi qeydə alınıb ki, bu müşahidəçilərdən 24 nəfəri işğaldan azad olunan seçki məntəqələrində iştirak edəcək.

Səsvermədə iştirak edəcək sakinlərdən biri də Elmir İsmayılovdur. O, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərində həvəslə səs verəcəyini bildirib: "Biz Füzuli sakinləri hər bir azərbaycanlı kimi bir çox tarixi hadisələrə şahidlik etdik. Qüdrətli ordumuzun gücü sayəsində Qələbə sevincini yaşadıq. Doğma şəhərimiz qısa müddətdə dövlətimiz tərəfindən yenidən quruldu və bizlər də qalib ölkənin qalib vətəndaşı olaraq doğma yurdumuza qayıtdıq. Daha bir tarixə günə öz elimizdə şahid olacağıq".

Vaqif Xanlarov da Füzuli şəhərinə qayıdan sakinlərdəndir. O, Birinci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak edib. Bildirib ki, bu torpaqların hər qarışı uğrunda qəhrəman oğullarımızın qanı axıb, ona görə burada yaşamaq, tikib-qurmaq qürurvericidir. "Özümü dünyanın ən xoşbəxt adamı hiss edirəm, çünki Füzulidə ilk dəfə səsvermədə iştirak edənlərdən biri də mənəm. Bir vaxtlar uğrunda döyüşdüyümüz torpaqlarda indi daha bir tarixi günə hazırlaşırıq. Biz 30 il bu dağların, dərələrin, doğma yurdumuzun hər qarışına həsrət qaldıq. Amma indi artıq qalib xalq olaraq öz elimizə qayıtmışıq. Yenidən qurulan Füzuli şəhərində bizim üçün hər bir şərait yaradılıb. Bir çox bayramı Füzulidə sevinc və qürur hissi ilə qarşıladıq. İndi də qarşıdan prezident seçkiləri gəlir. Bu seçkilərdə böyük həvəslə iştirak edəcəyəm”, - deyə o əlavə edib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**4 fevral, 2024**

**Səhiyyə Nazirliyi işğaldan azad olunan Füzuli şəhərində uşaqların kompleks tibbi müayinəsini təşkil edib**

Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar arasında sağlam həyat tərzinin təşviqi ilə bağlı aksiyalara və müxtəlif istiqamətlərdə tibbi müayinələrin keçirilməsinə başlayıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu tədbirlərin başlıca məqsədi işğaldan azad olunan ərazilərə köçürülən əhali arasında fiziki aktivliyin təbliği, eyni zamanda, vətəndaşların sağlamlığının daha da gücləndirilməsinə töhfə verməkdən ibarətdir.

Səhiyyə Nazirliyinin K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu tərəfindən keçirilən ilk belə tədbir fevralın 5-də işğaldan azad olunan Füzuli şəhərində baş tutub, uşaqların kompleks tibbi müayinələri aparılıb.

Tibbi müayinə aksiyası uşaqların sağlamlıq vəziyyətinin müəyyən edilməsi və qiymətləndirilməsi, xəstəliklərin səbəblərinin erkən aşkar edilməsi, aradan qaldırılması və profilaktik tədbirlərin hazırlanması məqsədilə keçirilib.

Aksiya zamanı Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Pediatriya İnstitutunun pediatrları, uşaq cərrahı, kardioloq, nevroloq və oftalmoloq, o cümlədən funksional diaqnostika mütəxəssisləri (USM və Exokardioqrafiya üzrə mütəxəssislər) tərəfindən kiçik və böyük yaş qrupuna aid olan uşaqların müayinəsi aparılıb. Eyni zamanda, yerində tibbi məsləhətlər verilib, profilaktik baxışlar keçirilib və müvafiq müalicə təyin edilib.

Tədbir zamanı 150-dən çox uşaq həkimlər tərəfindən ümumi müayinədən, həmçinin ultrasəs və exokardioqrafiya müayinələrindən keçib.

**A Yavərzadə**

**AZƏRTAC**
**5 fevral, 2024**

**İşğaldan azad olunan Füzulidə məskunlaşan sakinlər 3 məntəqədə səs verirlər – VİDEO**

İşğaldan azad olunan Füzuli şəhərində məskunlaşan sakinlər, eləcə də burada çalışanlar növbədənkənar prezident seçkilərinin səsvermə prosesində ruh yüksəkliyi ilə iştirak edirlər. Onlar burada yaradılan 3 məntəqədə səs verirlər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzulidə seçici fəallığı müşahidə edilir. 84 saylı Füzuli seçki dairəsinin sədri Ramiz Teymurovun verdiyi məlumata görə, dairə üzrə ümumilikdə 77 seçki məntəqəsi üzrə 54457 nəfər seçici var və seçki prosesini izləmək üçün 1020 müşahidəçi qeydə alınıb. Seçicilərdən 3619 nəfəri işğaldan azad olunan ərazilərdə qeydiyyata alınanlardır. Belə ki, seçkilərin davam etdiyi 77 saylı seçki məntəqəsində qeydə alınan 1292 nəfər Füzuli şəhər sakinidir. 75 saylı seçki məntəqəsində 1351 nəfər, 76 saylı seçki məntəqəsində 976 nəfər qeydiyyata alınan seçicilər isə işğaldan azad olunan ərazilərdə çalışanlardır.

Füzuli şəhərində seçicilər arasında ilk dəfə səs verən gənclər də var. Onlardan biri də Amin İsmayılzadədir. O, AZƏRTAC-a müsahibəsində deyib: “Keçən ilin avqustundan Füzuli şəhərinə köçmüşük. Füzuli şəhərində ilk seçki keçirilir. On səkkiz yaşım yeni tamam olub. Bir azdan seçki məntəqəsinə daxil olub, ilk dəfə səs verəcəyəm. Bu, mənim üçün qürurverici hissdir”.

Qeyd edək ki, budəfəki seçkilər ilk dəfə Azərbaycanın beynəlxalq səviyyədə tanınan bütün ərazilərində keçirilir.

Ölkə üzrə səsvermə hüququ olan 6 milyon 478 min 623 seçici qeydə alınıb. Seçicilər 6537 məntəqədə səs verəcəklər. İşğaldan azad edilmiş ərazilərdə 26 məntəqə fəaliyyət göstərir. Həmçinin 37 ölkədə 23 minə yaxın seçici 49 məntəqədə səs verə biləcək.

Seçkiləri izləmək üçün 90 mindən artıq müşahidəçi qeydə alınıb. Bunun 790 nəfəri beynəlxalq müşahidəçidir. Müşahidəçilərin 50 mindən çoxu isə 19 siyasi partiyanın nümayəndəsidir. Bundan əlavə, Azərbaycanda fəaliyyət göstərən 83 qeyri-hökumət təşkilatı da müşahidələr aparır. Həmçinin seçkiləri 109 beynəlxalq media qurumunun 216 nümayəndəsi izləyir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 fevral, 2024**

**https://video.azertag.az/site/video/199666**

**İlham Əliyevin seçkilərdə inamlı qələbəsi Füzuli şəhərində bayram əhvali-ruhiyyəsi ilə qeyd olunur – VİDEO**

Bütün ölkə ərazisində olduğu kimi, işğaldan azad edilən və yenidən qurulan Füzuli şəhərində də sakinlər növbədənkənar prezident seçkilərində İlham Əliyevin inamlı qələbəsini bayram əhvali-ruhiyyəsində qeyd edirlər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 30 ildən sonra doğma yurdlarında məskunlaşan Füzuli sakinləri Zəfər qazanılan torpaqlarda Zəfər seçkisinin nəticələrini böyük sevinclə qarşılayıblar.

Qeyd edək ki, ABŞ-ın “Oracle Advisory Group” təşkilatı, “Rəy” Monitorinq Mərkəzi və Sosioloji Tədqiqatlar Mərkəzi Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində apardıqları exit-polların nəticələrini açıqlayıblar. “Oracle Advisory Group” təşkilatı Prezident İlham Əliyevin seçicilərin 93,9 faizinin, “Rəy” Monitorinq Mərkəzi 92,6 faizinin, Sosioloji Tədqiqatlar Mərkəzi isə 92,4 faizinin səsini qazandığını bildiriblər.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 fevral, 2024**

**https://video.azertag.az/site/video/199936**

**Füzulidə şagirdlərə "Web 2" alətləri ilə işləmək və İKT bacarıqları aşılanıb**

Füzulidə "Weblə kəşf edirəm, öyrənirəm, tətbiq edirəm" adlı layihə üzrə təlimlər başa çatıb. Layihə çərçivəsində 4-6-cı sinif şagirdləri bir çox biliklərə yiyələniblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Təhsildə İnkişaf və İnnovasiyalar üzrə VII qrant müsabiqəsinin qalibi olan "Weblə kəşf edirəm öyrənirəm, tətbiq edirəm" adlı layihənin yekun nəticələri müzakirə edilib.

59 nömrəli məktəbdə keçirilən tədbirdə Füzuli rayon Təhsil sektorunun, nümayəndələri, təhsil üzrə ekspert, layihə rəhbəri, müəllim və şagirdlər iştirak ediblər. Layihə rəhbəri Aytəkin Bayramova bildirib ki, 4 ay davam edən və iki məktəbdə tədris olunan 15 təlimdə 30 şagird mövzu üzrə biliklərə yiyələnib.

Layihənin əsas məqsədi şagirdlərdə dərs zamanı idrak fəallığını və əməkdaşlıq həvəsini artırmaqdan, kəşf etmək bacarığını formalaşdırmaqdan ibarət olub. Təlimlərdə iştirak edən şagirdlərə "Web 2" alətləri ilə işləmək, İKT bacarığını mütəmadi olaraq təkmilləşdirmək, həmçinin "Etwining" portalında işləmək, "Kahoot" ilə interaktiv və əyləncəli testlər hazırlamaq kimi bacarıqlar aşılanıb.

Ekspert Vəfa Vəliyevanın sözlərinə görə, son bir ildə qrant müsabiqədə qalib olan layihələrdən yeddisi məhz Füzuli rayonu üzrə məktəblərdə tədris edilib. Təlimlərdə iştirak edən şagirdlər bir çox bacarıqlara sahib olublar. Qarşıdakı hədəf isə qalib layihələr üzrə təlimlərin işğaldan azad olunan Füzuli şəhərində yerləşən məktəbdə tədris edilməsidir.

Layihə üzrə təlimlərdə iştirak edən şagirdlərə sertifikatlar təqdim olunub.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**10 fevral, 2024**

**Füzulidə torpaq uçqunu altında qalan şəxs xilas edilib - VİDEO**

Fövqəladə Hallar Nazirliyinin (FHN) "112" qaynar telefon xəttinə Füzuli şəhəri ərazisində torpaq uçqunu nəticəsində vətəndaşın uçqun atında qalması barədə məlumat daxil olub.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, məlumatla əlaqədar dərhal FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri əraziyə cəlb olunub.

Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən məlum olub ki, yeraltı qaz boru xəttində bərpa işləri aparılan zaman baş vermiş torpaq uçqunu nəticəsində bir nəfər uçqun altında qalıb.

Həyata keçirilən təcili və təxirəsalınmaz tədbirlər nəticəsində vətəndaş uçqun altından çıxarılaraq xilas edilib.

**AZƏRTAC**
**11 fevral, 2024**

**https://video.azertag.az/site/video/200434**

**“Azercell” Füzulidə!**

*Lider mobil operator Qarabağda xidmət mərkəzləri şəbəkəsini genişləndirir*

“Azercell Telekom” MMC azad edilmiş ərazilərin yenidən qurulması və bərpası istiqamətində aparılan işlərə öz töhfəsini verməyə davam edir. Şirkət Füzulidə telekommunikasiya xidmətləri göstərən ilk və yeganə rəsmi mağazanı təqdim edir.

Füzuli şəhərinin mərkəzində, Heydər Əliyev prospektində yerləşən “Azercell”in satış və xidmət məntəqəsində nömrə ilə bir çox əməliyyatları rahatlıqla həyata keçirmək mümkündür. Ən müasir avadanlıqla təmin edilmiş mağazada həmçinin, gündəlik istifadə üçün nəzərdə tutulmuş bir sıra cihazları, eləcə də smartfonları kredit və ya nağd şəkildə əldə etmək də olar.

Xatırladaq ki, Qarabağda ilk mobil şəbəkə infrastrukturunu qurmaqla yanaşı, burada müştəri xidmətləri mərkəzini və rəsmi diler mağazasını açan ilk mobil operator məhz “Azercell” olub. Şirkət Şuşa şəhərində eksklüziv ofisini, Zəngilanın Ağalı kəndində və Laçında isə diler mağazalarını istifadəyə verib. Eyni zamanda, “Azercell” bu günə kimi azad edilmiş ərazilərdə 150-yə yaxın 4G baza stansiyasını və bir neçə günəş enerjisi ilə çalışan “yaşıl stansiyaları” işə salıb.

**AZƏRTAC**
**19 fevral, 2024**

**Agentlik: Füzulidə 50 min nəfərin içməli su təchizatı üçün mərkəzi anbarların tikintisi həyata keçirilir**

Laçın şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində qısa müddətdə böyük işlər görülüb. Perspektiv inkişaf nəzərə alınmaqla şəhəri dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Sus kəndi ərazisində 6 subartezian quyusu bərpa edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin müşaviri Çingiz Abdullayev "Qarabağ bölgəsində su və kanalizasiya infrastrukturunun yenidən qurulması" ilə bağlı keçirilən konfrasda çıxışı zamanı deyib.

Ç. Abdullayev qeyd edib ki, quyu zonasında sutoplayıcı anbar və nasos stansiyası, zərərsizləşdirici qurğu inşa olunub.

"Su mənbəyindən 10 kilometr uzunluğunda yüksəktəzyiqli magistral su kəməri çəkilib, nasos stansiyası və ümumi tutumu 4 min kubmetr olan 9 anbar inşa edilib. Laçın şəhərində 58 km içməli, 49 km tullantı, 4 km yağış su şəbəkələri yaradılıb, 7 km kanalizasiya kollektoru və 4 kanalizasiya nasos stansiyası tikilərək istismara verilib. 2023-cü il may ayında Füzuli şəhərinin içməli su təchizatı, kanalizasiya və yağış suları sistemləri kompleksinin təməli qoyulub. 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla Füzuli şəhərində 50 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanmış layihə çərçivəsində ilkin mərhələdə şəhərin xarici su təchizatı sistemlərinin və mərkəzi anbarların tikintisi işləri həyata keçirilir", - deyə Çingiz Abdullayev əlavə edib.

**AZƏRTAC**
**21 fevral, 2024**

**İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub**

Hidrometeoroloji şəbəkənin bərpası üzrə işğaldan azad edilmiş ərazilərdə yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay (Araz, Bəsitçay, Oxçuçay, Həkəriçay, Barguşadçay, Zabuxçay, Tutqunçay, Tərtərçay, Kircələnçay, Quruçay) üzərində 11 avtomat hidroloji stansiya yaradılıb və həmin stansiyalardan mütəmadi qaydada məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Əkbər Əsgərov "Qarabağ bölgəsində su kanalizasiya infrastrukturunun yenidən qurulması" adlı tədbirdə çıxışı zamanı bildirib.

Rəis müavini qeyd edib ki, "İşğaldan azad edilmiş ərazilərdə meteoroloji müşahidələrin öyrənilməsi" layihəsi çərçivəsində Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında bütün lazımi sensorlarla təchiz edilmiş 5 avtomat meteoroloji stansiya quraşdırılıb və həmin stansiyalardan mütəmadi qaydada daxil olan məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

“Proqramın icrası çərçivəsində 1 dast dopler hava radarının və 1 dəst aeroloji stansiyanın quraşdırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə tədqiqat işləri aparılıb. Həmin stansiyaların 2024-cü ildə quraşdırılması nəzərdə tutulur. Bu stansiyaların fəaliyyət göstərməsi regionun iqlim şəraitinin qiymətləndirilməsinə, əldə olunan məlumatların kəmiyyət və keyfiyyətinin, meteoroloji proqnoz və xəbərdarlıqların dəqiqliyinin alınmasına və həmin ərazilərdə fəaliyyəti nəzərdə tutulan sahələrdə drometeoroloji xidmət səviyyəsinin artırılmasına imkan verir”, - deyə Əkbər Əsgərov vurğulayıb.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Qarşıdakı iki ayda Füzuli şəhərinə 300-dən çox ailə köçürüləcək**

Füzuli şəhərində artıq 527 ailə məskunlaşıb. Bu, təqribən 2000 nəfərə yaxın insan deməkdir.

AZƏRTAC xəbər verir ki, bunu Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev "Qarabağ bölgəsində su və kanalizasiya infrastrukturunun yenidən qurulması" mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib.

Bəşir Hacıyev əlavə edib ki, qarşıdakı iki ayda Füzuli şəhərinə köçən ailələrin sayı 846-a çatacaq.

Qeyd edək ki, hazırda köç prosesi davam edir.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Füzuli şəhərində sağlam həyat tərzinə həsr olunan maarifləndirici aksiya keçirilib - VİDEO**

İşğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar arasında Səhiyyə Nazirliyi tərəfindən Böyük Qayıdış Proqramı çərçivəsində sağlam həyat tərzinin təşviqi ilə bağlı tədbirlər davam etdirilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, nazirliyin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən fevralın 23-də Füzuli şəhərində məktəbyaşlı uşaqlar və onların valideynləri üçün sağlam həyat tərzinin təbliğinə həsr olunan maarifləndirici tədbir və aksiya keçirilib.

İSİM nümayəndələri "Sağlamlığın qorunması", "Sağlam həyat tərzi" və digər mövzularla bağlı təqdimatlarla çıxış ediblər. Məktəbyaşlı uşaqların hərtərəfli inkişafı üçün erkən yaşlardan sağlam həyat tərzi seçməyin, hər gün fiziki aktiv olmağın və sağlam qidalanmanın vacibliyi barədə tövsiyələr verilib. Ölkəmizdə aparılan məqsədyönlü maarifləndirmə tədbirlərinin əhəmiyyəti və gənc nəslin sağlam inkişafının daim diqqət mərkəzində saxlanıldığı vurğulanıb.

Mərkəz tərəfindən hazırlanaraq istifadəyə verilən "Sağlam uşaq" internet portalı https://saglamusaq.az/ və mobil əlavəsi barədə geniş məlumat təqdim olunub. Bildirilib ki, şagirdlər, müəllimlər və valideynlər üçün nəzərdə tutulan portalda sağlamlığın qorunması və möhkəmləndirilməsi ilə bağlı faydalı məlumatlar, maarifləndirici materiallar, videoçarxlar və interaktiv oyunlar toplanılıb.

Tədbirdən sonra keçirilən maarifləndirici aksiyada sağlam həyat tərzi geniş təbliğ və təşviq olunub, zərərli vərdişlərin fəsadlarını təsvir edən rəsmlər sərgilənib. Həmçinin şagirdlər arasında əldə edilən biliklərin möhkəmləndirilməsi istiqamətində sağlam həyat tərzinə dair interaktiv viktorina təşkil edilib. Aksiya iştirakçılarına sağlam həyat tərzini təbliğ edən hədiyyələr təqdim olunub.

Maarifləndirici tədbir və aksiyada 300-ə yaxın şagird, müəllim və valideyn iştirak edib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**23 fevral, 2024**

**https://video.azertag.az/site/video/201629**

**Füzulidə 32 ildən sonra ilk Su çərşənbəsi - məktəblilərin sevinci**

İşğaldan azad olunan bütün ərazilər kimi, Füzuli şəhərində də həyat öz axarına qayıdıb. İndi Füzuli sakinləri illər sonra Su çərşənbəsini məhz öz doğma yurdlarında adət-ənənələri üzrə qeyd edirlər. Bayram ab-havası məktəbliləri də sevindirir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzulidə Su çərşənbəsi 32 ildən sonra yenidən məktəblilər tərəfindən qeyd olunur. Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbdə Növruz çərşənbələrinin keçirilməsi üçün tədbirlər planı hazırlanıb.

Sinif otaqlarında adət-ənələrimizi əks etdirən milli atributlar və əşyalar yer alıb. Məktəblilər milli geyimlərdə dərsə gəliblər. Şagirdlər tərəfindən hazırlanan səhnəciklər maraqla qarşılanıb. Şagirdlərə Su çərşənbəsi, eləcə də illər öncə Qarabağda keçirlən Novruz adət-ənənələri haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, hazırda Füzuli şəhər məktəbində 450-yə yaxın şagird təhsil alır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**27 fevral, 2024**

**Füzuli şəhərinə köçürüləcək ailələr arasında növbəti püşkatma keçirilib**

Martın 1-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Füzuli şəhərinə növbəti mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, tədbirə Dövlət Komitəsinin rəhbər şəxsləri, Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəliyinin, Füzuli Rayon İcra Hakimiyyətinin və Dövlət Komitəsi yanında İctimai Şuranın nümayəndələri qatılıblar.

Füzuli şəhərindəki yeni yaşayış yerlərinə indiyədək müvəqqəti məskunlaşma binalarında ağır şəraitdə yaşayan və bu şəhərdə daimi qeydiyyatda olan ailələr ilkin mərhələdə köçürülür. Bugünkü püşkatmada 139 ailə iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 49-u ikiotaqlı, 73-ü üçotaqlı, 17-i dördotaqlı mənzil təqdim olunub.

Püşkatmanın keçirilməsi məcburi köçkünlərin yerləşdirilməsində obyektivliyi və şəffaflığı təmin etmək məqsədi daşıyır. Məcburi köçkün ailələrinin nümayəndələri tərəfindən püşkatma vasitəsilə onlara verilən evlərin dəqiq ünvanı müəyyənləşdirirlir.

Tezliklə daimi yaşayış üçün Füzuli şəhərinə qayıdacaq keçmiş məcburi köçkünlər çox böyük sevinc hissi keçirdiklərini, işğaldan azad olunmuş ərazilərdə yaradılan şəraitə və onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Püşkatmada iştirak etmiş ailələr yaxın günlərdə Füzuli şəhərinə yola salınacaqlar.

**AZƏRTAC**
**1 mart 2024**

**İllər sonra Füzulidə keçirilən Od çərşənbəsi maraqlı məqamlarla yadda qalıb – VİDEO**

Düşmənin od-alovlu silahları ilə xarabalığa çevrilən və 30 il işğal altında qalan Qarabağ torpaqları düşmən əsarətindən xilas edilib və azadlığının 4-cü ilindədir. Artıq bu torpaqlarda həyat canlanır və toylu-büsatlı günlər yaşanır, bayram tonqalları alovlanır. Həmçinin Novruzun çərşənbələri də sevinclə qarşılanır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, işğaldan azad olunan digər ərazilər kimi, Qarabağın dilbər guşəsi olan Füzuli şəhərində də həyat öz axarına qayıdıb. Füzuli sakinləri illər sonra Od çərşənbəsini doğma yurdlarında bayram edirlər. Bayram ab-havası məktəblilər tərəfindən də coşqu ilə qeyd olunur.

Füzuli şəhəri Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbdə keçirilən Od çərşənbəsi tədbiri də yaddaqalan olub. Çərşənbələrin ikincisi sayılan Od çərşənbəsi tədbirində adət-ənənələrimizi əks etdirən milli atributlar və əşyalar, həmçinin şirniyyatlar yer alıb. Məktəblilər milli geyimlərdə yallı oynayıblar. Hazırlanan səhnəciklər maraqla qarşılanıb. Şagirdlər yumurta döyüşüb, digər oyunlar oynayıb, şən musiqi sədaları altında rəqslər ediblər.

Məktəblilərə Od çərşənbəsi haqda ətraflı məlumat verilib və bu çərşənbənin insanlar tərəfindən oda, Günəşə olan inamdan irəli gələrək illərdir qeyd edildiyi bildirilib. Onlara əvvəlki illərdə Qarabağda təkcə Od çərşənbəsinin deyil, digər çərşənbələrin də adət-ənənələrimizə uyğun olaraq necə keçirilməsi barədə danışılıb.

Qeyd edək ki, hazırda Füzuli şəhər məktəbində 450-yə yaxın şagird təhsil alır.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**5 mart, 2024**

**https://video.azertag.az/site/video/202371**

**DİM ilk dəfə Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanları keçirəcək**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) işğaldan azad olunmuş Laçın, Füzuli və Zəngilan rayonlarında da buraxılış imtahanı keçiriləcək. DİM ilk dəfə yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəb, Zabux kənd tam orta məktəbi və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə buraxılış imtahanı keçirəcək.

Xatırladaq ki, martın 10-da respublikanın 33 şəhər və rayonunda təşkil olunacaq imtahanda 53 min 102 şagirdin iştirakı nəzərdə tutulur.

**AZƏRTAC**
**7 mart, 2024**

**Nazir müavini: İşğaldan azad olunmuş ərazilərdə 4G şəbəkəsinin əhatə dairəsi 79 faizdir**

Bakı şəhərində və regionlarda, o cümlədən ucqar kəndlərdə yüksəksürətli sabit genişzolaqlı internet xidmətlərinin əhatə dairəsinin və xidmət keyfiyyətinin artırılması, əhalinin internetə çıxışının təmin edilməsi istiqamətində "Onlayn Azərbaycan" layihəsi davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov "Biznes mühitinin yaxşılaşdırılması üzrə iqtisadi islahatlar və müasir çağırışlar" mövzusundakı konfransda deyib.

S.Məmmədov qeyd edib ki, görülmüş işlər çərçivəsində 2 milyondan artıq ev təsərrüfatı ve biznes subyekti yüksəksürətli genişzolaqlı internet xidmətləri ilə təmin edilib. Bununla da ölkədə mövcud ev təsərrüfatı və biznes subyektlərinin təxminən 70 faizi yüksəksürətli genişzolaqlı internetlə əhatə olunub.

"İşğaldan azad edilmiş ərazilərdə yaşayış təmin edilmiş məntəqələrdə və iş yerlərində, binalarda, təhsil və səhiyyə mərkəzlərində rabitə xidmətlərinə çıxış təmin edilib. Şuşa - Xankəndi, Xankəndi - Xocalı, Ağdam - Xocalı - Xankəndi, Ağdam - Bərdə, Beyləqan - Füzuli - Şuşa, Horadiz - Şükürbəyli, Xocavənd - Xankəndi arasında magistral fiber-optik kabel xətləri çəkilib və ya bu istiqamətdə işlərə başlanılıb", - deyə nazir müavini bildirib.

Onun sözlərinə görə, həmin ərazilərdə mobil rabitə şəbəkələrinin, o cümlədən dördüncü nəsil LTE baza stansiyalarının quraşdırılması istiqamətində işlər davam etdirilir: "Qeyd olunan ərazilərdə ümumilikdə 300 ədədə yaxın mobil radio-baza stansiyası fəaliyyət göstərir. Nəticədə işğaldan azad olunmuş əraziləri 2G şəbəkəsi 90 faiz, 3G şəbəkəsi 87 faiz, 4G şəbəkəsi isə 79 faiz əhatə edir".

**AZƏRTAC**
**2024, 7 mart**

**DİM Laçın şəhərində, Zabux kəndində və Füzulidə yerləşən məktəblərdə buraxılış imtahanı keçirir**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) Laçın, Füzuli və Zəngilan rayonlarında buraxılış imtahanı keçirir. DİM ilk dəfə yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəbdə, Zabux kənd tam orta məktəbində və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə buraxılış imtahanı keçirir.

Bu barədə AZƏRTAC-a DİM-dən məlumat verilib.

Xatırladaq ki, bu gün DİM respublikanın 33 şəhər və rayonunda tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirir və bu imtahanlarda 53 min 102 şagirdin iştirakı nəzərdə tutulur.

**AZƏRTAC**
**10 mart, 2024**

**Buraxılış imtahanı işğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada təşkil edilib**

Martın 10-da Dövlət İmtahan Mərkəzi (DİM) işğaldan azad olunan ərazilərdə tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib.

Dövlət İmtahan Mərkəzinin Bərdə regional bölməsindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, buraxılış imtahanı Füzuli rayonu Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəb, Laçın rayonu 2 nömrəli tam orta məktəb, Laçın rayonu Zabux kənd tam orta məktəbi və Zəngilan rayonu Ağalı kənd tam orta məktəblərində təşkil edilib. İmtahanın idarə olunmasına 4 ümumi rəhbər, 4 imtahan rəhbəri, 4 nəzarətçi-müəllim, 4 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb olunub. İşğaldan azad olunan ərazilərdə ümumilikdə 4 binada keçirilən imtahanlarda 18 şagird iştirak edib. İmtahan bütün binalarda eyni vaxtda başlanıb və 3 saat davam edib.

İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, imtahanın keçirildiyi binalarla müntəzəm əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, şagirdlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

Martın 11-dən etibarən DİM-də imtahan protokollarının və cavab vərəqlərinin emalı aparılacaq.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**10 mart, 2024**

**Sabah Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olacaq**

Sabah Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olacaq.

AZƏRTAC xəbər verir ki, bunu Prezident İlham Əliyev Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasında deyib.

Qazaxıstan Prezidentinə Qarabağın bərpasında göstərilən qardaş köməyinə, məhz qazax xalqının Azərbaycan xalqına hədiyyəsi və Prezident Tokayevin təşəbbüsü olan Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə görə təşəkkürünü bildirdiyini deyən dövlətimizin başçısı, həmçinin qeyd edib: “Azərbaycanın suverenliyinin bərpası məsələsində həmrəylik sözlərinə görə minnətdarıq. Əlbəttə, zənnimcə, Azərbaycanda hamı bilir ki, Qazaxıstan bizim etibarlı dostumuz və müttəfiqimizdir”.

**AZƏRTAC**
**11 mart, 2024**

**Azərbaycanda dövlət səfərində olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Füzuli rayonuna gəlib - VİDEO**

**Azərbaycan Respublikasında dövlət səfərində olan Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Füzuli rayonuna gəlib.**

**AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.**

**AZƏRTAC**
**12 mart, 2024**

**https://video.azertag.az/site/video/202791**

**Füzuli şəhərinin Baş planı ilə tanışlıq**

**Martın 12-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərinin Baş planı ilə tanış olub.**

**AZƏRTAC**
**12 mart, 2024**

**Azərbaycan və Qazaxıstan prezidentləri Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər - VİDEO**

**Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçıları tədbirdə Azərbaycanın mədəniyyət və incəsənət xadimləri, Füzuli şəhər sakinləri və Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alacaq uşaqlarla görüşüblər.**

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dedi:**

**- Sizi burada, müqəddəs Azərbaycan torpağında görməyimə çox şadam.**

**Bildiyiniz kimi, mən dünən və bu gün ölkənizdə dövlət səfərindəyəm. Çox şadam ki, bu səfər tam uğurla - dövlətlərimiz arasında çoxşaxəli əməkdaşlığın gələcək inkişafına ən ciddi təkan verəcək son dərəcə mühüm sənədlərin imzalanması ilə başa çatır. Biz qardaş xalqlarıq, müttəfiqik, strateji tərəfdaşıq. Bunlar təkcə sözlər deyil, həm də ölkələrimizin hökumətlərinin görəcəyi böyük iş həcmləridir, çünki razılaşmalar çox ciddidir, çox böyükdür və şübhəsiz, onlar iqtisadiyyatlarımızın inkişafına impuls verəcək ki, bu da çox vacibdir. Ona görə də dövlətlərimiz arasında əməkdaşlığın gələcəyinə böyük nikbinliklə baxıram.**

**Mədəni–humanitar sahədə əlaqələrin inkişafına, möhkəmləndirilməsinə böyük diqqət yetiririk. Burada Qazaxıstan mədəniyyət günləri böyük müvəffəqiyyətlə keçirildi. Dünən səmimi qəbula görə minnətdarlığımı bildirdim. Azərbaycanın mədəniyyət xadimlərini Qazaxıstanda gözləyirik.**

**Azərbaycanın hörmətli Prezidenti İlham Heydər oğlu Əliyevin Sumqayıt şəhərində bir küçəyə Qazaxıstanın məşhur maarifçisi Axmet Baytursınovun adının verilməsi qərarına görə ona çox minnətdaram. Eyni zamanda, ötən il biz hörmətli Prezidentlə paytaxtımızda dahi dövlət xadimi Heydər Əliyevin şərəfinə adlandırılmış küçənin açılışını etdik. Belə təmaslar, şübhəsiz ki, davam edəcəkdir.**

**Sizi bir daha müqəddəs Ramazan ayı münasibətilə təbrik edirəm. Sizə ən xoş arzularımı çatdırıram.**

**Bu Mərkəz Qazaxıstan xalqı adından bizim hədiyyəmizdir. Hökumətin tapşırığına və mənim şəxsi göstərişimə əsasən "BI Group" özəl şirkəti bu hədiyyəni səmimi-qəlbdən, bütün xalqın adından təqdim edir. Zənnimcə, bu obyekt şübhəsiz ki, ölkələrimiz arasında rifahın, bütün əlaqələrin, hərtərəfli münasibətlərin möhkəmləndirilməsinə töhfə olacaq.**

**Sizə uğurlar, tərəqqi arzulayıram. Heç bir şübhə yoxdur ki, Azərbaycanın müqəddəs regionu güclü inkişaf edəcək. İndicə gələcəyə dair planla tanış olduq və əlbəttə ki, o, miqyası və intensivliyi ilə bizi valeh edir. Sağ olun.**

**x x x**

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

**- Hörmətli Kasım-Jomart Tokayev, çox sağ olun.**

**Füzulililər, ictimaiyyətimiz və bütün Azərbaycan xalqı adından Sizə bu qardaş hədiyyəsinə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Azad olunmuş torpaqlarda Uşaq Yaradıcılıq Mərkəzinin yaradılması Sizin şəxsi təşəbbüsünüzdür. Ötən dəfə - ilyarım əvvəl Azərbaycana səfəriniz zamanı bu Mərkəzin təqdimatı oldu və bir il ərzində Mərkəz tikildi, bu gün onun rəsmi açılışıdır. Mərkəz qazax xalqının böyük oğlu Kurmanqazının adını daşıyır. Dünən biz Sizinlə danışırdıq ki, bu, təkcə Uşaq Yaradıcılıq Mərkəzi deyil, həm də Qazaxıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq mərkəzi olacaq. Hər bir belə layihə Azərbaycan xalqının qəlbini riqqətə gətirir, çünki 30 il ərzində bu balaca uşaqların valideynləri, babaları və nənələri bir arzu ilə - öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayıblar. Onlar qayıtdıqda dağıdılmış, yerlə-yeksan edilmiş Qarabağı gördülər, əlbəttə, çox acı hisslər yaşadılar. Bu qayıdışın ağrılı-acılı və eyni zamanda, sevinc hissləri bir-birinə qarışmışdı. İndi qardaş Qazaxıstanın köməyi ilə Füzulidə çox gözəl Uşaq Yaradıcılıq Mərkəzi açılır.**

**Bu təşəbbüsə görə Sizə səmimi–qəlbdən minnətdarıq. Bu, azərbaycanlıların, burada yaşayanların və yaşamayanların, buraya gələn və bu gözəl binanı görən hər kəsin yaddaşında qalacaq. Ən başlıcası, buraya gələn, əksəriyyəti Bakıdan, Sumqayıtdan və digər böyük şəhərlərdən olan uşaqlar öz qəlblərinin səsi və əcdadlarının çağırışı ilə tədbirdə iştirak edirlər. Diqqət yetirdikdə görürük ki, burada - Füzulidə yaşayan insanlar, onların əksəriyyəti Füzulinin işğalı dövründə dünyaya gəliblər, yaxud çox balaca olublar. Demək olar ki, onlar öz doğma şəhərini, öz rayonunu görməyiblər, amma bu torpağa məxsus olduqları, uğrunda mübarizə apardığımız, döyüşdüyümüz, qan tökdüyümüz və uşaqlarımızı itirdiyimiz müqəddəs Qarabağ torpaqlarına aid olduqları üçün buraya qayıdıblar.**

**Bu gün, Qarabağın dirçəldiyi bir vaxtda əziz qardaşımızı, Türk dünyasının ən böyük ölkəsinin, sürətli inkişafa malik, beynəlxalq arenada iri aktor olan, Azərbaycanın müttəfiqi qardaş Qazaxıstanın Prezidentini salamlamaqdan böyük şərəf hissi duyuruq. Siz yəqin ki, bizim dünənki görüşlərimizi izləmisiniz, həmçinin axşam da bizimlə birlikdə olmusunuz. Yəqin ki, bu ab-havaya nüfuz etmisiniz. Ünsiyyətimizin bütün işgüzar komponenti ilə yanaşı, məhz mənəvi bağlar bizə güc verir. Sizi təbrik edirəm və sizin adınızdan bir daha Kasım-Jomart Tokayevə təşəkkürümü bildirmək istəyirəm.**

**Prezident Kasım-Jomart Tokayev: Azərbaycanın gənc vətəndaşlarına, müqəddəs Füzuli sakinlərinə ayrıca səadət, uğurlar arzulamaq istəyirəm.**

**Prezident İlham Əliyev: Mən bizim nümayəndələri təqdim edim. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar.**

**Prezident Kasım-Jomart Tokayev: Bəli, tanıyıram.**

**Prezident İlham Əliyev: Konservatoriyanın rektoru. Xalq yazıçısı, yəqin ki, Siz onun da kitablarını bilirsiniz.**

**Xalq yazıçısı Çingiz Abdullayev: Mən onun atası haqqında yazmışam.**

**Prezident Kasım-Jomart Tokayev: Sizə təşəkkür edirəm.**

**Prezident İlham Əliyev: Milli Konservatoriyanın rəhbəri. Memarlar İttifaqının sədri.**

**Memarlar İttifaqının sədri Elbay Qasımzadə: Mən qazax adı daşıyıram, adım Elbaydır. Atam mənə cəbhədə həlak olmuş dostunun adını qoyub.**

**Prezident İlham Əliyev: Məşhur kinorejissor Oqtay Mirqasımov, Rəssamlıq Akademiyasının rektoru Xalq rəssamı Natiq Əliyev, bizim gənc füzulililərimiz, istedadlarımız buradadırlar.**

**Müəllim Məhin Orucova: Hörmətli cənab prezidentlər. Sizi Azərbaycan mədəniyyətinin qədim tarixi mərkəzi olan Qarabağ torpağında salamlayırıq. Cənab Prezident İlham Əliyev, Sizə minnətdarıq ki, bizi öz torpağımıza qaytarmısınız. Biz Sizə və şanlı Ordumuza minnətdarıq.**

**Bu gün bizim və uşaqlarımız üçün əlamətdar gündür. Bu gün Qazaxıstan milli mədəniyyətinin böyük nümayəndəsi, qazax xalq musiqisinin patriarxı Kurmanqazı Saqırbayulının adını daşıyan Füzuli Uşaq Yaradıcılıq Mərkəzinin açılışıdır. Biz Qazaxıstan Prezidenti cənab Kasım-Jomart Tokayevə və onun simasında bütün Qazaxıstan xalqına belə gözəl Mərkəzə görə minnətdarıq. Bütün füzulililər adından uşaq yaradıcılığı fəaliyyətinə göstərilən qayğıya görə iki dövlətin liderlərinə çox təşəkkür edirik.**

**Bu Mərkəzdə uşaqlar təkcə Azərbaycan deyil, həm də qazax mədəniyyətini öyrənəcəklər. Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi Qazaxıstan ilə Azərbaycan arasında dostluğun rəmzi olacaq.**

**Prezident Kasım-Jomart Tokayev: Sağ olun. Həqiqətən Kurmanqazı qazax musiqisinin nəhəngidir, demək olar ki, Türk mədəniyyətinin ayrılmaz hissəsidir. Kurmanqazının adı olmadan qazax musiqisini təsəvvür etmək çətindir. Ona görə də deməliyəm ki, onun musiqisi çox dinamikdir və indiyədək çox müasirdir. Məşhur "Küy Sarı Arka" indiyədək böyük həyəcanla dinlənilir.**

**Prezident İlham Əliyev: Əlbəttə, uşaqlar burada onun yaradıcılığını öyrənəcəklər.**

**x x x**

**Dövlət başçıları Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdilər.**

**Sonra xatirə şəkli çəkdirildi.**

**Prezidentlər Uşaq Yaradıcılıq Mərkəzində yaradılan şəraitlə tanış oldular.**

**Qeyd edək ki, Prezident Kasım-Jomart Tokayevin təşəbbüsü ilə inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi qardaş qazax xalqının Azərbaycan xalqına hədiyyəsidir. Təməli 2023-cü ilin martında qoyulan Mərkəz 1,5 hektar ərazidə yaradılıb. Obyektin tikinti sahəsi 2700 kvadratmetrdir. İkimərtəbəli binada 600 uşağın bir neçə növbədə məktəbdənkənar təhsil alması üçün hər cür şərait yaradılıb. Burada mühazirə zalı, şahmat və kulinariya sinifləri, incəsənət və heykəltaraşlıq studiyası, xoreoqrafiya və idman zalı, səsyazma kabineti, musiqi və vokal sinfi, foto-video montaj, veb-dizayn və robototexnika kabinetləri, akt zalı, 3D modelləşdirmə sinfi var. Mərkəzdə IT-startaplara və Azərbaycanın milli mədəniyyətinə, o cümlədən xalçaçılıq sənətinə xüsusi diqqət yetiriləcək.**

**Vurğulandı ki, layihəni “BI Group” şirkəti hazırlayaraq həyata keçirib. Tikintidə qabaqcıl texnologiyalardan və şirkətin illər ərzində qazandığı təcrübədən istifadə olunub. Şirkət müasir mühəndis həlləri və təhsil obyektlərinin tikintisi nöqteyi-nəzərindən yüksək səviyyəli peşəkar təcrübəyə malikdir.**

**Qeyd edək ki, yeni təhsil kompleksi üçün Kurmanqazı adının seçilməsi də təsadüfi deyil. Görkəmli musiqiçinin əfsanəvi əsərləri bütün Türk dünyasının mirasına çevrilib. Mərkəzin yaradılması Azərbaycan və Qazaxıstan arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, gənclərin keyfiyyətli təhsilinə, regionda yaradıcılığın, idmanın və elmin inkişafına töhfə vermək məqsədi daşıyır.**

**x x x**

**Prezident Kasım-Jomart Tokayev: Bu avtobus bizim hədiyyəmizdir. Qazaxıstanın uşaqlara ərməğanıdır, istifadə etmələri üçündür. Üzərində “Balalar” yazılıb.**

**Prezident İlham Əliyev: Sağ olun.**

**Qazaxıstan nümayəndəsi: Qazaxıstanda yığılıb.**

**Prezident İlham Əliyev: Çox sağ olun.**

**Prezident Kasım-Jomart Tokayev: Çox şadam ki, Sizin xoşunuza gəldi. Bu, bizim Azərbaycan xalqına səmimi hədiyyəmizdir. Bilirəm ki, Azərbaycanın potensialı böyükdür və Siz özünüz də bütün bunları edə bilərsiniz, amma biz həmişə qardaşlıq hisslərimizi ifadə etməliyik və belə maddi formada.**

**Tədbirin iştirakçıları: Sizə təşəkkür edirik.**

**AZƏRTAC**
**12 mart, 2024**

**https://video.azertag.az/site/video/202837**

**Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanışlıq – VİDEO**

**Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanış olublar.**

**AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev dövlət başçılarına xəstəxanada yaradılacaq şərait barədə məlumat verdi.**

**Bildirildi ki, Baş plan layihəsinə əsasən 180 çarpayılıq yeni xəstəxana 4,5 hektar ərazidə inşa olunacaq. Xəstəxananın inşasında Qazaxıstanın "BI Group" və bir sıra Azərbaycan şirkətləri iştirak edəcək. Bu tibb ocağında inzibati bina, qəbul, terapiya, kardiologiya, nevrologiya, cərrahiyyə, travmatologiya-ortopediya, oftalmologiya, otorinolorinqologiya, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək.**

**Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq. Müalicə ocağı ən müasir tibbi avadanlıqlarla təchiz ediləcək.**

**Diqqətə çatdırıldı ki, xəstəxana ilə yanaşı, eyni ərazidə Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Yardım Stansiyası və Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzi də inşa ediləcək.**

**Burada rayon sakinlərinə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılacaq. Beləliklə, öz doğma yurdlarına qayıdacaq rayon sakinləri bu tibb ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.**

**AZƏRTAC**
**12 mart, 2024**

**https://video.azertag.az/site/video/202839**

**Füzulidə məktəblilərin Yel çərşənbəsi sevinci**

İşğaldan azad olunan digər ərazilər kimi, Qarabağın dilbər guşəsi Füzuli şəhərində də həyat öz axarına qayıdır. Füzuli sakinləri illər sonra Yel çərşənbəsini doğma yurdlarında qarşılayırlar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə qeyd edilən Yel çərşənbəsi maraqlı anlarla yadda qalıb.

Çərşənbələrin üçüncüsü olan Yel çərşənbəsində məktəblilər milli geyimlərdə adət-ənənələrimizi nümayiş etdiriblər. Şagirdlər Keçəl və Kosanı canlandırıblar. Açılan çərşənbə süfrəsi şəkərbura, paxlava, qoğal və digər şirniyyatlarla bəzədilib. Şagirdlər yumurta döyüşdürüb, müxtəlif oyunlar oynayıb, şən musiqi sədaları altında rəqs ediblər.

Məktəblilərə Yel çərşənbəsi barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, hazırda Füzuli şəhər məktəbində 450-yə yaxın şagird təhsil alır.

**AZƏRTAC**
**12 mart, 2024**

**Tokayev: Qazaxıstanla Azərbaycan arasında əməkdaşlığın gələcəyinə böyük nikbinliklə baxıram**

**Biz qardaş xalqlarıq, müttəfiqik, strateji tərəfdaşıq.**

**AZƏRTAC xəbər verir ki, bu sözləri Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Azərbaycanın mədəniyyət və incəsənət xadimləri, Füzuli şəhər sakinləri və Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində təhsil alacaq uşaqlarla görüş zamanı söyləyib.**

**Qazaxıstan Prezidenti, həmçinin deyib: "Bunlar təkcə sözlər deyil, həm də ölkələrimizin hökumətlərinin görəcəyi böyük iş həcmləridir, çünki razılaşmalar çox ciddidir, çox böyükdür və şübhəsiz, onlar iqtisadiyyatlarımızın inkişafına impuls verəcək ki, bu da çox vacibdir. Ona görə də dövlətlərimiz arasında əməkdaşlığın gələcəyinə böyük nikbinliklə baxıram".**

**AZƏRTAC**
**12 mart, 2024**

**Adil Əliyev: Füzulidəki Yaradıcılıq Mərkəzi Azərbaycan-Qazaxıstan münasibətlərinin simvoludur**

Bu gün Azərbaycanın əsas məqsədlərindən biri Türk Dövlətləri Təşkilatı çərçivəsində quruma üzv ölkələrlə ikitərəfli və çoxtərəfli sıx münasibətlər qurmaq, qarşılıqlı fəaliyyət göstərərək dövlətlərimizin güclənməsidir. Xüsusilə Azərbaycan-Qazaxıstan münasibətləri bu gün ən parlaq dövrünü yaşayır, iki qardaş xalqın ortaq tarixi dəyərlərə, mədəniyyətə malik olması ilə bərabər, əməkdaşlıq da ən yüksək səviyyədədir. Məhz iki qardaş ölkə istər ikitərəfli, istərsə də beynəlxalq aləmdə bir-birinə böyük dəstək nümayiş etdirir. Türk Dövlətləri Təşkilatında, eləcə də digər beynəlxalq qurumlarda hər iki ölkənin bir-birinə dəstəyi qarşılıqlı mənafelərə uyğundur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

O qeyd edib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş ölkələrimiz arasındakı dostluq münasibətləri prezidentlər İlham Əliyevin və Kasım-Jomart Tokayevin səyləri nəticəsində daha da dərinləşib. Məhz dövlət başçılarının qarşılıqlı çoxsaylı səfərləri iqtisadi, ticari və siyasi münasibətlərimizə geniş töhfə verməkdədir. Prezident İlham Əliyevin ilyarım ərzində qardaş ölkəyə 4 səfəri, eləcə də Qazaxıstan Prezidentinin çoxsaylı səfərləri ölkələrimizin münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edən amildir.

“Bu gün Qazaxıstanla bir çox sahələrdə qarşılıqlı əlaqələr hər iki ölkənin mənafeyinə uyğundur. Məhz Trans-Xəzər marşrutunun işə salınması ölkəmizin tranzit əlaqələrinə mühüm töhfə verməklə yanaşı, həm də rəsmi Bakının vacib aktor olduğunu göstərir. Qeyd etməliyəm ki, Azərbaycan bu gün tranzit yükdaşımalara ev sahibliyi edir, ölkəmiz Şərqdən-Qərbə ticarət dövriyyəsinin əsas halqası hesab olunur. Bu, təkcə iqtisadi sahədə deyil, həmçinin bir çox digər istiqamətlərdə Azərbaycanın strateji önəmini dünyaya nümayiş etdirir.

Təbii ki, tranzit əlaqələrdə qardaş Qazaxıstanın rolu da olduqca vacibdir. Bütün məsələlərdə ölkəmizlə həmrəylik nümayiş etdirən və strateji tərəfdaşımız olan Qazaxıstan Azərbaycan üçün mühüm tərəfdaşdır”, - deyə Milli Məclis sədrinin müavini qeyd edib.

Diqqətə çatdırılıb ki, Qazaxıstanın Prezidentinin təşəbbüsü ilə Füzuli şəhərində inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi həm də dövlətlərimiz arasındakı dostluğun, qardaşlığın əsas rəmzlərindən birinə çevriləcək. Martın 11-də Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasının keçirilməsi olduqca mühüm tarixi hadisədir. Səfər zamanı imzalanmış sənədlər bir çox sahələrdə əməkdaşlığımızın inkişafına xüsusi töhfə verəcəkdir. Mətbuata birgə açıqlamalar zamanı qarşılıqlı münasibətlərə verilən dəyər bir daha özünü göstərdi.

“Qardaş ölkənin hər zaman ərazi bütövlüyümüzü dəstəkləməsi və münaqişənin dinc yolla nizama salınması ilə bağlı verdiyi ciddi mesajlar olduqca mühümdür. Qeyd etməliyəm ki, Azərbaycan tarixinin ən böyük hadisələrindən biri olan tarixi torpaqlarımızın düşməndən azad edilməsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsində ölkəmizin Zəfəri həm də Azərbaycanın dostlarının qələbəsi idi”, - deyən Adil Əliyev əlavə edib ki, məhz 30 ilə yaxın müddət ərzində məcburi köçkün kimi yaşamış vətəndaşlarımız artıq öz dədə-baba yurdlarına geri dönürlər. Bu gün Azərbaycanın və Qazaxıstanın dövlət başçılarının birlikdə Füzuli və Şuşa şəhərlərinə səfər etmələri, Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olduqca əlamətdar hadisələrdir. Qazaxıstan tərəfindən tikilərək xalqımıza hədiyyə olunmuş Mərkəzi Azərbaycan xalqı da yüksək qiymətləndirir, dövlətimizin və xalqlarımızın arasındakı dostluğun simvolu hesab edir.

Milli Məclis sədrinin müavini, həmçinin vurğulayıb ki, Azərbaycanla Qazaxıstanın qanunverici orqanlarında parlamentlərarası işçi qrupları fəaliyyət göstərir. Azərbaycan-Qazaxıstan parlamentlərarası işçi qrupu tərkibində ən çox üzv olan işçi qruplardan biridir. Qarşılıqlı təcrübənin öyrənilməsi, parlamentlərarası əməkdaşlıq mənafelərimizə uyğun olmaqla bərabər, hər iki dövlətin dostluğuna da xüsusi töhfə verir.

**AZƏRTAC**
**12 mart, 2024**

**Qazaxısan Prezidentinin Azərbaycana dövlət səfəri xarici mətbuatda da geniş şəkildə işıqlandırılıb**

**Qazaxısan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana dövlət səfəri xarici mətbuatda da geniş şəkildə işıqlandırılıb.**

**AZƏRTAC xəbər verir ki, "Kazinform" İnformasiya Agentliyi (rus dilində), habelə "The Astana times" (ingilis dilində), "The times of Central Asia" (ingilis dilində), "Nova news" (italyan dilində) saytları və digər media qurumları səfər haqqında geniş materiallar dərc ediblər.**

**Materiallarda qeyd olunub ki, Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi yenidən və böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilməsi münasibəti ilə təbrik edib. Nəzərə çatdırılıb ki, prezidentlər Ali Dövlətlərarası Şuranın birinci iclasında iştirak ediblər. İclasda tranzit yükdaşımalar və Qazaxıstanda hasil olunan neftin Xəzər dənizi vasitəsi ilə Azərbaycan üzərindən ixrac olunması məsələləri diqqətdə saxlanılıb.**

**Martın 11-də hər iki prezident videobağlantı vasitəsi ilə Çinin Sian şəhərinin Qazaxıstan-Çin terminalından Bakının Abşeron stansiyasına gələn konteyner qatarının gəlişi mərasimini izləyiblər.**

**Qeyd olunub ki, konteyner qatarının Çinin Sian şəhərində istismara verilmiş Qazaxıstana məxsus Nəqliyyat-Logistika Mərkəzi tərəfindən yola salınması Orta Dəhlizin bütün iştirakçıları üçün böyük əhəmiyyət kəsb edir. Altmış bir konteynerdən ibarət qatar uzunluğu 7 min kilometr olan marşrutu 11 günə qət edib. Multimodal daşıma zamanı konteynerlər Qazaxıstan limanında yenidən yüklənərək Xəzər dənizi ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, oradan isə Abşeron stansiyasına çatdırılıb. Orta Dəhlizin inkişaf etdirilməsi və yeni yüklərin cəlb edilməsi baxımından bu günlərdə Çində fəaliyyətə başlamış Qazaxıstanın Nəqliyyat-Logistika Mərkəzi marşrut üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artırılmasına hədəflənib. İlkin razılaşmaya əsasən, bu Mərkəz vasitəsilə Azərbaycana ayda 10 konteyner qatarının yola salınması planlaşdırılır.**

**Qarşılama mərasimində prezident Kasım-Jomart Tokayev bildirib ki, geosiyasi gərginliklərə baxmayaraq yeni nəqliyyat strukturunun yaranması Qazaxıstan ilə Azərbaycan arasındakı əməkdaşlıq əlaqələrinin səmərəsini daha da artırır. Bu marşrut strateji xarakter daşıyır və olduqca əhəmiyyətlidir. "Biz Xəzər dənizinin dibi ilə optik-lif rabitə xəttinin də çəkilməsi məsələsini müzakirə etmişik" - deyən Qazaxıstan Prezidenti gələcəkdə birgə yeni iqtisadi layihələrin də həyata keçiriləcəyini vurğulayıb.**

**Materiallarda Prezident İlham Əliyevin də çıxışına geniş yer ayrılıb. Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, ikitərəfli əməkdaşlığıq həm TransXəzər nəqliyyat marşrutu, həm də Orta Dəhliz layihələrinin həyata keçirilməsi çərçivəsində çoxtərəfli əməkdaşlığın bir hissəsidir.**

**Qeyd edilib ki, Xəzər dənizi Qazaxıstan ilə Azərbaycanı ayırmır, əksinə, iki dövlətin yaxınlaşması üçün körpü rolunu oynayır.**

**Dərc olunan materiallarda göstərilib ki, 2023-cü ildə tranzit yükdaşımaların həcmi 65 faiz artıb və 4,2 milyon tona çatıb. Ötən ilin yanvar ayı ilə müqayisədə cari ilin yanvar ayında yükdaşımalar 2,5 dəfə artıb. Çindən konteyner daşınması isə 3 dəfə artıb.**

**Vurğulanıb ki, səfər çərçivəsində Qazaxıstanın "KazMunayQaz" və Azərbaycanın SOCAR neft şirkətləri arasında Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəqlinin həcminin 2,2 milyon tona çatdırılması barədə Saziş imzalanıb.**

**Saytlar Qazaxıstan Prezidentinin Azərbaycan Prezidenti İlham Əliyev ilə birlikdə işğaldan azad olunmuş Füzuli şəhərinə səfərini xüsusi vurğulayıb. Prezidentlər yenidən qurulan şəhərin Baş planı ilə tanış olublar. Baş planda 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1 943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Şəhərdə rahat və müasir həyat şəraitinin təmin edilməsi üçün orta və azmərtəbəli yaşayış binaları, həyətyanı torpaq sahələri olan fərdi evlər inşa ediləcək, təhsil, səhiyyə, mədəniyyət, istehsalat müəssisələri, rekreasiya və digər təyinatlı zonalar yaradılacaq.**

**Nəzərə çatdırılıb ki, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin istifadəyə verilməsi füzulilələr üçün unudulmaz hədiyyə olmaqla yanaşı, ölkələrimizin dostluğunun göstəricisidir.**

**AZƏRTAC**
**13 mart, 2024**

## Səfir: Qazaxıstan Füzuli rayonunda xəstəxana inşa etməyi planlaşdırır

Qazaxıstan Füzuli rayonunda xəstəxana inşa etməyi planlaşdırır.

AZƏRTAC xəbər verir ki, bunu Qazaxıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alim Bayel Azərbaycan-Qazaxıstan Ekspert Şurasının martın 13-də Bakıda keçirilən üçüncü iclasında səsləndirib.

Onun sözlərinə görə, Azərbaycan-Qazaxıstan Ekspert Şurasının 3-cü iclasının Prezident Kasım-Jomart Tokayevin dövlət səfərindən sonra keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ölkələrimiz arasında həyata keçirilən enerji layihələrindən ətraflı bəhs edən diplomat birgə əməkdaşlıq çərçivəsində xeyli sayda sənədin imzalandığını da diqqətə çatdırıb.

**AZƏRTAC**
**13 mart, 2024**

## Professor: Qazaxıstanla qardaşlığımız əbədidir

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin ölkəmizə dövlət səfəri, imzalanan sənədlər, Füzuli və Şuşaya gediş, mətbuata bəyanatlar münasibətlərimizin yüksək səviyyəsini göstərir. Bu məsələləri geniş və dərin təhlil etmək olar. Həmçinin dövlət başçılarının mətbuata bəyanatı mövcud vəziyyətdən və perspektivlərdən xəbər verir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı professor Musa Qasımlı deyib. O bildirib ki, Prezident İlham Əliyevin Qazaxıstanı Azərbaycan üçün qardaş ölkə, strateji tərəfdaş və müttəfiq adlandırması hər şeyi ifadə edir.

“Dövlətimizin başçısı işğaldan azad edilmiş Füzuli şəhərində Prezident Kasım-Jomart Tokayevin şəxsi təşəbbüsü ilə inşa edilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzini dostluğumuzun və qardaşlığımızın mərkəzi, Azərbaycana qardaş köməyi, hədiyyəsi və azad edilmiş ərazilərin bərpasına dəstəyi kimi qiymətləndirdi.

Prezident Kasım-Jomart Tokayevin “müqəddəs Azərbaycan torpağında olduğumuz ilk dəqiqədən ev sahibinin səmimi münasibətini hiss etdik. Bu dövlət səfəri dövlətlərimiz arasında əməkdaşlığın inkişaf perspektivləri nöqteyi-nəzərindən çox mühümdür” deməklə sanki bütün Türk dünyasının fikrini ifadə etdi. Onun Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı qələbəni böyük tarixi qələbə, uzun illər ərzində Azərbaycan rəhbərinin dövlət suverenliyinin bərpasına yönəlmiş, son Nəticədə tarixi həqiqətin bərpası ilə nəticələnən səylərinin qanunauyğun yekunu olaraq qiymətləndirməsi bu qələbənin bütün Türk dünyasına başucalığı gətirdiyini və əhəmiyyətini göstərir”, - deyə Musa Qasımlı vurğulayıb.

**AZƏRTAC**
**13 mart, 2024**

**Dövlət Məşğulluq Agentliyi Laçın, Füzuli və Ağdamda peşə kursları təşkil edib**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərə köçürülən vətəndaşlar üçün aktiv məşğulluq tədbirlərini davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu istiqamətdə növbəti tədbir olaraq agentlik Laçın şəhərində qaz avadanlıqlarının təmiri və istismarı üzrə çilingər, Füzuli şəhərində mebel ustası və Ağdam şəhərindəki “Ağdam Sənaye Parkı”nda genişprofilli dəzgahçı peşələri üzrə peşə hazırlığı kursları təşkil edib.

Qarabağ Peşə Hazırlığı Mərkəzi və işəgötürənlərlə birgə təşkil edilən kurslara Laçın, Füzuli və Ağdam rayonları üzrə 30 nəfər cəlb olunub.

Təlimlər xüsusi meyarlar üzrə qiymətləndirilmiş mütəxəssislər tərəfindən həyata keçirilir. Kursları uğurla başa vuran şəxslərin yeni yiyələndikləri peşələr üzrə işlə təminatına da dəstək göstəriləcək.

**AZƏRTAC**
**2024, 13 mart**

**Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu**

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Diplomatiya Akademiyası İnkişaf və Diplomatiya İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu tərəfindən "Əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi məqsədilə məcburi köçkünlər arasında sosioloji sorğunun keçirilməsi və ilkin proqnozların hazırlanması" layihəsi həyata keçirilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mətbuat xidməti departamentindən AZƏRTAC-a bildiriblər ki, layihənin Dövlət Komitəsində təşkil olunmuş təqdimatında onun məqsəd və məramı barədə ətraflı məlumat verilib. Layihənin koordinatoru Rəsmiyyə Abdullayeva diqqətə çatdırıb ki, sorğu zamanı məcburi köçkünlərin qayıdışla bağlı arzu və təklifləri öyrənilib, onların doğma yurda dönüş barədə qərarlarına təsir edən amillər müəyyənləşdirilib, ilkin proqnozlar hazırlanıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma, iqtisadi dirçəliş üçün bütün zəruri şəraitin yaradılmasını nəzərdə tutur. Hazırda Dövlət Proqramının Tədbirlər Planı üzrə intensiv iş aparılır, qayıdış prosesi uğurla davam etdirilir.

Layihə çərçivəsində "fokus-qrup" sorğular tədqiqatın əsas metodu kimi seçilib. Sorğulara Şuşa, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Füzulidən olan 170 respondent cəlb olunub.

Sorğu zamanı keçmiş məcburi köçkünlərin 95 faizinin öz doğma yurd-yuvasına qayıtmaq niyyətində olduğu bir daha təsdiqlənib.

Dövlət Komitəsinin məsul əməkdaşlarının iştirakı ilə keçirilən təqdimatda tədqiqatın nəticələri geniş müzakirə edilib, rəy və təkliflər bildirilib. Tədqiqata dair yekun hesabatda bunların nəzərə alınacağı bildirilib.

**AZƏRTAC**
**2024, 13 mart**

**“Füzuli Könüllüləri” qrupuna qəbula start verilib**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, “Böyük Qayıdış” Gənclər Təşkilatının təşkilatçılığı ilə “Qayıdış Könüllüləri” Proqramı çərçivəsində “Füzuli Könüllüləri” qrupuna qeydiyyat başlanıb.

AZƏRTAC xəbər verir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb olunması çağırışına uyğun olaraq başladılan “Qayıdış Könüllüləri” proqramının əsas məqsədi, işğaldan azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən həmin bölgələrdən olan gənclərin öz doğma torpaqlarında yenidənqurma və bərpa işlərində, eləcə də bölgənin zəngin tarixi-mədəni irsinin təbliğində iştirakını təşviq etmək və Böyük Qayıdış prosesinə töhfə verməkdir.

Tədbirdə “Böyük Qayıdış” Gənclər Təşkilatının sədri Nail Şükürov, Azərbaycan Respublikasının Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşı iştirak ediblər.

Bildirilib ki, proqrama qoşulmaq istəyən, 18-29 yaş arası, əslən Füzuli rayonundan olan hər bir gənc təhsil səviyyəsindən asılı olmayaraq “qayidish.konullu.az” saytında qeydiyyatdan keçə bilər.

Qeydiyyat cari il aprelin 1-nə kimi aparılacaq.

Müraciəti müsbət dəyərləndirilmiş gənclər ardıcıl olaraq müsahibə, baza təlimləndirmə kursu və imtahan mərhələsindən keçəcəklər. Seçilmiş gənclər müvafiq təlim və hazırlıq keçdikdən sonra Füzuli rayonu ərazisində müxtəlif könüllü fəaliyyəti göstərəcək, o cümlədən tədbirlərin təşkilində iştirak edəcək, bölgəyə səfər edən yerli və xarici qonaqlarla işləyəcək, bərpa və yenidənqurma işlərinə dəstək verəcək, qayıdışa hazırlıq və məskunlaşmaya könüllü dəstəyinin göstərilməsinə cəlb olunacaqlar.

Könüllülərin hazırlanması üçün baza təlimləri peşəkar təlimçilər tərəfindən “Könüllülük fəaliyyətinin əsasları”, “Könüllü xidmətin təşkili”, “Gənclərin ideoloji hazırlığı”, “Yumşaq bacarıqlar”, “Psixoloji inkişaf”, “Liderlik və natiqlik bacarıqları” və “Minalardan qorunma qaydaları” mövzularında həyata keçiriləcək. Təlimlərin keçirilməsində məqsəd gənclərin könüllülüyün prinsip və dəyərləri, könüllülük kodeksi, vətəndaşlar və xarici qonaqlarla ünsiyyət qaydaları, tapşırıqların yerinə yetirilməsi və subordinasiya, peşəkar fəaliyyətlərdə emosiaların idarəolunması, situasiyalardan çıxış yolları, effektiv ünsiyyət, Azərbaycan Gənclər siyasətinin prioritetləri, həmçinin təhlükəsizlik qaydaları haqqında bilik və bacarıqlarının artırılmasıdır.

Qeyd edək ki, hazırda “Qayıdış Könüllüləri” Proqramı çərçivəsində “Şuşa Könüllüləri”, “Ağdam Könüllüləri” və “Zəngilan Könüllüləri” qrupları fəaliyyət göstərir. Sözügedən qruplar üzrə fəaliyyət göstərən könüllülər müvafiq ərazilərdə müxtəlif könüllü fəaliyyətlərinə cəlb olunur və aktiv iştirak edirlər.

**AZƏRTAC**
**2024, 14 mart**

**Daha 153 nəfər Füzuli şəhərinə yola salınıb**

Ermənistanın işğalından azad edilmiş Füzuli şəhərinə martın 15-də daha 35 ailə (153 nəfər) yola salınıb.

AZƏRTAC xəbər verir ki, köçürülən ailələrdən 22-si (90 nəfər) Bakı şəhərindən, 5-i (20) Sumqayıt şəhərindən, 4-ü (24) Füzuli rayonundan, 2-si (12) Beyləqan rayonundandır. İmişli (3 nəfər) və Abşeron (4 nəfər) rayonlarının hər birindən isə bir ailə köçürülüb.

Bakı və Sumqayıt şəhərlərindən, Abşeron rayonundan köçürülən 28 ailə (114 nəfər) Qaradağ rayonu "Qobu Park-3" köçkün şəhərciyindən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Füzuli Rayon İcra Hakimiyyətinin nümayəndələri tərəfindən yola salınıb.

Beyləqan, İmişli və Füzuli rayonunda məskunlaşmış 7 ailə (39 nəfər) məskunlaşdıqları ərazidən yola salınacaq və Füzuli rayonunun Əhmədbəyli kəndində köç karvanına qoşularaq bir yerdə hərəkət edəcəklər.

Köçürülənlərin nəqliyyat karvanları Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları tərəfindən qarşılanacaq və onların yaşayış sahələrində yerləşdirilməsi ilə bağlı zəruri tədbirlər görüləcək.

Beləliklə, budəfəki köç də daxil olmaqla Füzuli şəhərində 562 ailənin (2120 nəfər) məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 15 mart**

**Füzuli sakini: İntizardayam, oraları yenidən gəzib görmə marağındayam**

İnanana bilmirik ki, bu gün köçürük. Doğrusu, çox həyəcanlıyıq. Uzun müddət keçib. Rayondan çıxanda cavan adam idim, artıq 65 yaşım var, təqaüdçüyəm. Rayondakı axırıncı günüm hələ də yadımdadır: sürücüm var idi, onunla birlikdə şəhərin demək olar, bütün ərazisini son dəfə gəzib, görüb çıxdım. İndi intizardayam, oraları yenidən gəzib görmə marağındayam.

AZƏRTAC xəbər verir ki, bu sözləri martın 15-də Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkün Tofiq Məhərrəmov deyib.

T.Məhərrəmov ona bu fürsəti verən Azərbaycan Ordusuna minnətdarlığını bildirib, şəhidlərə rəhmət, qazilərə cansağlığı diləyib.

**AZƏRTAC**
**2024, 15 mart**

**Qazi: Çox xoşdur ki, uğrunda vuruşduğum, mübarizə apardığım torpaqlar bu gün azaddır**

Mən Birinci Qarabağ müharibəsi qazisiyəm, həm də Prezident təqaüdçüsüyəm. Çox xoşdur ki, uğrunda vuruşduğum, mübarizə apardığım torpaqlar bu gün azaddır. Bu işdə əməyi olan hər kəsə təşəkkürümü bildirirəm. Allah Prezidentimizi qorusun, şəhidlərimizə rəhmət eləsin.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Füzuli sakini, Birinci Qarabağ müharibəsi qazisi İntiqam Miriyev söyləyib.

O yurduna döndükdən sonra ilk görəcəyi işdən də söhbət açıb: "Füzuliyə çatan kimi ilk işim doğma yurduma - dağlarıma doya-doya tamaşa eləmək olacaq"

**AZƏRTAC**
**2024, 15 mart**

**Keçmiş məcburi köçkün: Hər birimiz bu günü gözləyirdik**

Doğma yurda qayıtmaq, oranı yenidən görmək çox sevindiricidir. Sonuncu dəfə orada 5 yaşımı qeyd etmişik, indi isə 36 yaşım var. Bundan sonra, inşallah, doğum günlərimi orada qeyd edəcəyəm.

AZƏRTAC xəbər verir ki, bu sözləri martın 15-də Füzuli şəhərinə köç edən keçmiş məcburi köçkün Elçin İsmayılov deyib.

Ailə üzvləri ilə birlikdə qayıtdığını bildirən Füzuli sakini bu günü onlara yaşadanlara minnətdarlığını bildirib: “Şükür ki, bu gün bütöv bir ailə olaraq doğma yurda qayıdırıq. Atam, anam və mən - hər birimiz bu günü gözləyirdik. Allah ümidlərimizi doğruldan Prezident İlham Əliyevə uzun ömür, qazilərimizə cansağlığı versin. Şəhidlərimizin ruhu şad olsun!”.

**AZƏRTAC**
**2024, 15 mart**

**Füzuliyə qayıdan sakin: Rayonu tərk edəndə 10 yaşım var idi, indi övladım eyni yaşdadır**

Mən rayonu tərk edəndə 10 yaşım var idi, indi övladım eyni yaşdadır. Bu, həm kədər, həm də sevinc hissi yaşadır.

AZƏRTAC xəbər verir ki, bunu doğma yurdu Füzuliyə qayıdan keçmiş məcburi köçkün Əlvan Əliyev söyləyib.

Artıq Füzuli rayonunda işlə təmin edildiyi bildirən sakin belə bir şəraiti yaradan dövlətə, dövlətimizin başçısı İlham Əliyevə öz təşəkkürünü çatdırıb, Vətən uğurunda sağlamlıqlarını itirən qazilərimizə cansağlığı, şəhidlərimizə rəhmət, yaxınlarına isə səbir diləyib.

**AZƏRTAC**
**2024, 15 mart**

**Füzulidə daha 35 ailəyə mənzillərin açarları təqdim olunub**

Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Füzuli şəhərinə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 35 ailə olmaqla, 153 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuliyə köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Yeni köçən ailələrə ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman müvafiq qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşı Tural Qasımov və digər şəxslər iştirak ediblər.

Ailələr mənzilllərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 562 ailə olmaqla, 2122 nəfərin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

12:17

Bu gün səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan, Sumqayıt şəhərindən, eləcə də Abşeron, Beyləqan, İmişli və Füzuli rayonlarından yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Qarabağın dilbər güşələrindən olan Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 35 ailə olmaqla, 153 nəfər Füzuli şəhər sakini öz yurduna qovuşub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar. Onlar doğma yurda qovuşmağın sevincini yaşayıblar.

Bununla da Füzuli şəhərində 562 ailənin, yəni 2122 nəfərin məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 15 mart**

**Füzuli şəhərinə daha 34 ailə yola salınıb**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı martın 18-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuli şəhərinə daha 34 ailə - 123 nəfər köçürülüb.

Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Füzuli şəhərinə 596 ailənin, yəni 2245 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 18 mart**

**Füzuli sakini: Ən böyük arzum Novruz bayramını doğma yurdumda qeyd etmək idi**

Doğma yurdumuza qayıdırıq və mən də bu qayıdışın sevincini yaşayıram. Çox təəssüf ki, atam bu günləri görmədi. Vətən deyib dünyasını dəyişdi. Ancaq nə xoşdur ki, bu gün onun yadigarı olan bizlər doğma yurdumuza qayıdırıq.

AZƏRTAC xəbər verir ki, bu sözləri martın 18-də Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkün Almaz Cəfərova deyib.

Qeyd edib ki, ən böyük arzularından biri Novruz bayramını Füzulidə qeyd etmək olub. İndi onun bu arzusu reallaşır.

Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyən Füzuli sakini doğma yurduna qayıtdığına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya da minnətdarlığını bildirib.

**AZƏRTAC**
**2024, 18 mart**

**Keçmiş məcburi köçkün: Xatirələrimə - uşaqlığıma doğru gedirəm**

Doğma el-obamıza qayıtdığıma görə çox sevinirəm. Oradan çıxanda uşaq idim, indi övladlarımla birgə qayıdıram.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Füzulidən olan keçmiş məcburi köçkün Raquf Cənnətəliyev söyləyib.

"Düzdür, hər yer Vətənin bir parçasıdır. Ancaq xatirələr insanı özünə çəkir. Xatirələrimə - uşaqlığıma doğru gedirəm", - deyə o qeyd edib.

Füzuli sakini bu günü onlara yaşadanlara minnətdarlığını bildirib: “Allah ümidlərimizi doğruldan Prezident İlham Əliyevə uzun ömür, qazilərimizə cansağlığı versin. Şəhidlərimizin ruhu şad olsun!”.

**AZƏRTAC**
**2024, 18 mart**

**Füzuli sakini: İnanıram ki, şəhid qardaşımın ruhu şaddır**

Doğma yurda qayıdışın sevincini yaşayırıq. Bu sevinci bizə yaşatdığına görə Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm. Allah Ordumuzu qorusun, qazilərə can sağlığı versin, şəhidlərimizin ruhu şad olsun. Mənim qardaşım İslam Əliyev də Birinci Qarabağ müharibəsində şəhid olub. İnanıram ki, onun ruhu bu gün şaddır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkün Məleykə Bağırova söyləyib.

"Sevinirəm, bu gün övladımla birgə yurduma gedirəm. Artıq orada yaşayacağam. Bundan böyük xoşbəxtlik ola bilərmi? Mən təsəvvür edə bilmirəm", - deyə o vurğulayıb.

**AZƏRTAC**
**2024, 18 mart**

**Sakin: Füzuliyə çatan kimi torpağı öpəcəyəm**

Otuz ildən çoxdur ki, bu günü gözləyirik. Doğma el-obamıza qayıtmaq ən böyük arzum idi. Çox sevincliyəm. Allah bu işdə əməyi keçən hər kəsə uzun ömür versin.

AZƏRTAC xəbər verir ki, bu sözləri Füzuli şəhərinə qayıdan keçmiş məcburi köçkün Gülarə İsmayılova deyib.

"Evimə çatan kimi torpağı öpəcəyəm, sonra da Asəf Zeynallının "Ölkəm" romansını oxuyacağam. Bu ölkənin belə gözəlliyini, böyüklüyünü görəsən, necə sevinməyəsən, oxumayasan?!", - deyə keçmiş məcburi köçkün bildirib.

Sonda keçmiş məcburi köçkün dövlətimizin başçısına təşəkkür edib, qazilərə can sağlığı, şəhidlərə rəhmət, ailələrinə səbir diləyib.

**AZƏRTAC**
**2024, 18 mart**

**Füzulidə daha 34 ailəyə mənzillərin açarları təqdim olunub – FOTO**

Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Füzuli şəhərinə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 34 ailə olmaqla, 123 nəfər Füzuli sakini doğma yurduna qovuşub. Füzuliyə köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Yeni köçən ailələrə ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman müvafiq qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşı Tural Qasımov və digər şəxslər iştirak ediblər.

Ailələr mənzillərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**12:05**

Bu gün səhər saatlarında Bakı şəhəri Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Qarabağın dilbər güşələrindən olan Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 34 ailə olmaqla, 123 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıb, onlar doğma yurda qovuşmağın sevincini yaşayıblar.

Bununla da Füzuli şəhərində 596 ailənin, yəni 2245 nəfər məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 18 mart**

## Mirzə Uluqbəy adına Füzuli şəhər tam orta məktəbdə Novruz şənliyi

Qarabağın əsl sakinləri illər sonra Baharı doğma yurdlarında qarşılayırlar. Ötən gün Mirzə Uluqbəy adına Füzuli şəhər tam orta məktəbdə möhtəşəm Novruz şənliyi təşkil olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Novruz şənliyində məktəb kollektivi ilə bərabər, valideynlər, qazilər də iştirak ediblər. Məktəbin həyətində açılan sərgilərdə baharın gəlişini bildirən atributlar yer alıb. Həmçinin bir çox milli adətlərimizi əks etdirən əşyalar nümayiş olunub, süfrələr şəkərbura, paxlava, qoğal və digər şirniyatlarla bəzədilib, Qarabağ çeşniləri ilə toxunulan xalçalar sərilib. Cəhrə, qədim məişət əşyaları, toxuculuq alətləri, səhəng, nehrə və digər alətlər Novruz şənliyində şagirdlərin maraqlarına səbəb olub.

Novruzun rəmzləri olan keçəl və kosa şənliyə gələrək uşaqlarla maraqlı oyunlar oynayıb, duzlu-məzəli zarafatları ilə şənliyə rəng qatıb. Uşaqlar yumurta döyüşdürüb, milli geyimlərdə rəqs ediblər.

Daha sonra təhlükəsizlik qaydaları nəzərə alınmaqla tonqal qalanıb, uşaqlar tonqal ətrafında yallı gediblər.

Qeyd edək ki, Füzuli şəhərində 596 ailə olmaqla, 2245 nəfərin daimi məskunlaşması təmin edilib. Məktəbdə 450-dən çox şagird təhsil alır.

**AZƏRTAC**
**2024, 18 mart**

**Füzuli şəhərində İlaxır çərşənbə qeyd olunub - FOTO VİDEO**

Uzun illər düşmən tapdağı altında qalan qaranlığa qərq olan yurd yerlərimiz artıq azadlığının baharına qədəm qoyub. Novruzun gəlişi bu il digər bölgələrdə olduğu kimi, Qarabağda da doğma sakinləri tərəfindən qeyd edilir. Füzuli sakinləri də Novruzu öz doğma elində böyük coşqu ilə qarşılayırlar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuli şəhərində İlaxır çərşənbə olan Torpaq çərşənbəsinin tonqalı qalanıb. Pəhləvanların və kəndirbazın çıxışları maraqla qarşılanıb. Qədim məişət əşyaları, kilim və xalçalar digər sənət nümunələri sərgilənib. Milli geyimdə olan gənclər cəngi sədaları ilə Qarabağ atları belində Azərbaycan Bayrağını dalğalandıraraq meydana gəliblər. Kosa və Keçəlin duzlu-məzəli söhbətləri insanların gülüşünə səbəb olub.

Çıxışlarda hər bir ailəyə ruzi-bərəkət, sevinc arzulanıb. Bildirilib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq qələbəyə nail olan Ordumuzun sayəsində torpaqlarımız işğaldan azad edilib və artıq Novruz ölkəmizin hər yerində qeyd olunur. Həmçinin çıxışlarda düşmən tapdağından azad olunan rayonlarda aparılan tikinti-quruculuq işlərindən danışılıb.

Şənliyə gələn Bahar qız təbrikini çatdırıb. Bayram şənliyi incəsənət ustalarının konsert proqramı ilə davam edib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**2024, 19 mart**

**https://video.azertag.az/site/video/203613**

**Füzuli şəhərinə daha 35 ailə yola salınıb**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı martın 27-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuli şəhərinə daha 35 ailə - 134 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Füzuli şəhərinə 631 ailənin, yəni 2379 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 27 mart**

**Füzulidə daha 35 ailəyə mənzillərin açarları təqdim olunub**

Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə mənzillərin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 35 ailə olmaqla, 134 nəfər Füzuli sakini doğma yurduna qovuşub.

Yeni köçən ailələrə ANAMA əməkdaşları tərəfindən, mina və partlamamış silah sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman müvafiq qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşı Tural Qasımov və digər şəxslər iştirak ediblər.

Ailələr mənzilllərinin açarlarını təhvil alaraq, Azərbaycan dövləti tərəfindən yenidən tikilən evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 631 ailə olmaqla, 2379 nəfərin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

**12:11**

Bu gün səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, erməni işğalından azad olunan Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 35 ailə olmaqla, 134 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar. Onlar doğma yurda qovuşmağın sevincini yaşayıblar.

Bununla da Füzuli şəhərində 631 ailənin, yəni 2379 nəfərin məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 27 mart**

**Naxçıvandan Qarabağa yollanan şəhid ailələri Füzuli rayonunda olublar**

Bu gün Naxçıvandan Qarabağa yola düşən şəhid ailələri Füzuli rayonunda olublar.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, səfərin ilk günündə şəhid ailələrinin üzvləri Füzuli rayonunun Yuxarı Alxanlı, Merdinli, Qaraxanbəyli kəndlərində olub, övladlarının şəhidlik zirvəsinə ucaldıqları yerləri ziyarət ediblər. Həmçinin səfər zamanı onlar Füzulidə aparılan quruculuq işləri ilə də tanış olublar. Şəhid ailələrinin üzvləri həmin gün Xocavənd rayonu Qırmızı Bazar qəsəbəsinə də səfər ediblər.

Qeyd edək ki, Naxçıvandan yola düşən şəhid ailələri sabah Şuşa şəhərinə və Xocavənd rayonuna da səfər edəcəklər. Səfər Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi tərəfindən təşkil edilib.

**AZƏRTAC**
**2024, 28 mart**

**Füzuli şəhərinə növbəti köç karvanı yola salınıb**

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı martın 29-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

AZƏRTAC xəbər verir ki, bu mərhələdə Füzuli şəhərinə daha 35 ailə - 138 nəfər köçürülüb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Füzuli sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Xatırladaq ki, indiyədək Füzuli şəhərinə 666 ailənin, yəni 2517 nəfərin daimi məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 29 mart**

**Keçmiş məcburi köçkün: Düşünürəm ki, artıq bütün şəhidlərimizin ruhu şaddır**

Çox sevinirik ki, ümidlərimiz doğruldu. Otuz illik arzumuz gerçəkləşdi. Rayonu tərk edəndə 10 yaşım var idi. Orada uşaqlığımla bağlı xatirələrim var. Onlara doğru gedirəm. Belə bir hadisəyə sevinməmək necə ola bilər?! Məncə əsl xoşbəxtlik elə budur.

AZƏRTAC xəbər verir ki, bu sözləri bu gün Füzuli rayonuna yola düşən keçmiş məcburi köçkün Gülnarə Talıbova deyib.

Mən bir şəhid bacısıyam, qardaşım I Qarabağ müharibəsində şəhid olub. Düşünürəm ki, artıq qardaşımın və bütün şəhidlərimizin ruhları şaddır, onların qanı yerdə qalmadı.

Keçmiş məcburi köçkün ona bu hissləri yaşadan Ali Baş Komandana, Ordumuza təşəkkürünü bildirib, şəhidlərə rəhmət, ailələrinə səbir diləyib.

**AZƏRTAC**
**2024, 29 mart**

**Füzuli sakini: Gözəl günlərimiz bundan sonra daha çox olacaq**

Doğma yurduma çatmaq üçün səbirsizlənirəm. Ümid edirəm ki, gözəl günlərimiz bundan sonra daha çox olacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Bakıdan Füzuli şəhərinə yola düşən keçmiş məcburi köçkün Elmira Hacıyeva söyləyib.

"Dövlətimiz bizim üçün Bakıda bütün şərait yaratsa da, doğma torpaq məni çəkir. Doğma el-obama - Füzuli rayonuna qayıdıram. Bizə bu günləri yaşadan Ali Baş Komandan İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Qəhrəman şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm", - deyə Füzuli sakini əlavə edib.

**AZƏRTAC**
**2024, 29 mart**

**35 ailədən ibarət növbəti köç karvanı Füzuliyə çatıb**

Bu gün səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 35 ailə olmaqla, 138 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar, onlar doğma yurda qovuşmağın sevincinj yaşayıblar.

Bununla da Füzuli şəhərində 666 ailənin, yəni 2517 nəfərin məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 29 mart**

**Füzulidə daha 35 ailəyə mənzillərinin açarları təqdim olunub**

Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu gün növbəti köç karvanı ilə Füzuliyə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, 35 ailə olmaqla, 138 nəfər Füzuli sakini doğma yurduna qovuşub.

Yeni köçən ailələrə ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman müvafiq qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşı Tural Qasımov və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar.

Bununla da Füzuli şəhərində 666 ailə olmaqla, 2517 nəfərin daimi məskunlaşması təmin edilib.

Qarşıdakı günlərdə Füzuli şəhərinə ailələrin köçürülməsi davam edəcək.

11:53

Bu gün səhər saatlarında Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Füzuli şəhərinə çatıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Füzuli şəhəri doğma sakinlərini qarşılamağa davam edir. Bu gün 35 ailə olmaqla, 138 nəfər Füzuli sakini öz yurduna qovuşub.

Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Füzuli şəhərinə çatan ailələr böyük coşqu ilə qarşılanıblar, onlar doğma yurda qovuşmağın sevincini yaşayıblar.

Bununla da Füzuli şəhərində 666 ailənin, yəni 2517 nəfərin məskunlaşması təmin edilib.

**AZƏRTAC**
**2024, 29 mart**

**Avstriya Teleradiosunda Azərbaycanın işğaldan azad edilmiş əraziləri barədə geniş reportaj yayımlanıb – VİDEO**

Avstriyanın ən böyük telekanalı - Avstriya Teleradiosunun (ORF) əsas xəbərlər buraxılışında işğal başa çatdıqdan sonra azərbaycanlıların doğma yurdlarına qayıdışından bəhs edən reportaj yayımlanıb.

AZƏRTAC xəbər verir ki, ORF-in çəkiliş qrupu bu məqsədlə Azərbaycanın işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarına səfər edib, erməni vandallığı nəticəsində dağıdılmış yaşayış məntəqələri və xarabalıqları lentə alıb, aparılan bərpa və quruculuq işləri, ərazilərin minalardan təmizlənməsi ilə tanış olub, bir sıra şəxslərdən müsahibələr götürüb.

ORF-in təcrübəli jurnalisti Karola Şnayderin hazırladığı reportajın əvvəlində 2020-ci ildə Vətən müharibəsi və müharibədən sonra yaranmış vəziyyət, hazırda həmin ərazilərdə aparılan işlərdən söz açıb. Bildirilib ki, Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş əraziləri azad etdikdən sonra həmin torpaqlarda sürətli bərpa-quruculuq işləri aparılır və 30 il əvvəl erməni işğalından qaçmağa məcbur olmuş insanlar artıq öz yurdlarına geri qayıdırlar.

Ağdamda çəkiliş aparan avstriyalı qrup tamamilə dağıdılmış və talan olunmuş şəhəri tamaşaçılara “ruhlar şəhəri” kimi təqdim edir. Bildirilir ki, Ermənistan bu əraziləri işğal etdikdən sonra buranı bufer zonasına çevirib. Lakin üç il əvvəl Azərbaycan tarixdə yeni səhifə açaraq Ağdamı və digər əraziləri işğaldan azad edib.

Diqqətə çatdırılır ki, bərpa və quruculuq işləri sürətlə aparılmasına baxmayaraq, ərazinin minalarla çirkləndirilməsi böyük əngəl olaraq qalmaqdadır. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin müavini Samir Poladov ilə müsahibədə qeyd olunub ki, minaların təmizlənməsi çətin və mürəkkəb prosesdir, lakin işlər davam edir. Ermənistan tərəfindən minalarla bağlı qeyri-dəqiq xəritələr təqdim edilib və buna görə də minaların hansı ərazilərdə basdırılması dəqiq bilinmir, bu isə öz növbəsində minatəmizləmə işlərini ləngidir.

Avstriyalı jurnalistlər Füzuli şəhərində də olub, çəkilişlər aparıblar. Bildirilib ki, xarabalıqlar içərisində artıq yeni həyat qaynayır, yeni tikilmiş ilk yaşayış binalarında iki mindən çox sakin məskunlaşıb. Keçmiş məcburi köçkün bir ailə doğma vətənlərində yenidən yaşamağın sevincini mənzilində qonaq olan avstriyalı jurnalistlərlə bölüşüb. Diqqətə çatdırılıb ki, vaxtilə tərk etməyə məcbur olduqları şəhərin xarabalıqlar içərisində olmasına baxmayaraq, Füzuliyə geri dönən sakinlərin xoşbəxt olduqları üzlərindən oxunur.

Reportajda qeyd edilib ki, Füzulidən məcburi köçkün düşmüş minlərlə sakinin bir neçə il ərzində geri qayıtması təmin ediləcək və bunun üçün hazırda böyük tikinti işləri həyata keçirilir.

Reportajın sonunda Ermənistanla aparılan sülh danışıqlarının hazırkı vəziyyətinə də nəzər salınıb. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə açıqlamasında bildirib ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edib və Ermənistanla münaqişəni artıq başa çatmış hesab edir. Lakin yekun sülh sazişi istiqamətində hələlik maneələr qalmaqdadır, Ermənistan Azərbaycanın səkkiz kəndini hələ də işğal altında saxlayır və həmin kəndlər azad edilməlidir.

Sonda sülh danışıqlarının ləng getdiyi, bir çox sualların hələ də cavabsız qaldığı diqqətə çatdırılır, müharibədən zəfərlə çıxmış Azərbaycanın qalib tərəf kimi irəli sürdüyü şərlər əsasında sülh müqaviləsi imzalamaqda israrlı olduğu vurğulanır.

**Elgün Niftəli**

**AZƏRTAC-ın xüsusi müxbiri**
**Vyana**

**AZƏRTAC**
**2024, 30 mart**
**https://video.azertag.az/site/video/204189**

**Nazir: Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb**

İndiyədək 5 mindən artıq sakin işğaldan azad edilmiş bölgələrə qayıdıb. Onların 2500 nəfərdən çoxunu əmək qabiliyyətli əhali təşkil edir və həmin ərazidə öz həyatlarını qurmaq üçün sakinlərin məşğulluğu təmin edilməlidir. Təkcə mənzillərin verilməsi və sosial ödənişlərlə həyatı təmin etmək olmur. Ona görə də Böyük Qayıdış Proqramı çərçivəsində çoxsaylı məşğulluq tədbirlərinin həyata keçirilməsi də nəzərdə tutulub.

AZƏRTAC xəbər verir ki, bunu yeni fəaliyyətə başlayan DOST TV-nin ilk efirinin "Sosial saat" verilişinin qonağı olan əmək və əhalinin sosial müdafiə naziri Sahil Babayev deyib.

Nazir daha sonra deyib: "İndiyədək 2500 vətəndaşla bu sahədə iş aparılıb. Onların 1500 nəfəri daimi işlə təmin olunub və 1000 nəfərlə aktiv iş aparılır. Nəzərə alsaq ki, bu il daha 20 min nəfər öz doğma yurduna, ev-eşiyinə qayıdacaq, onda qarşıda çox böyük iş dayandığı aydın olar. Ona görə də bütün aidiyyatı dövlət qurumları və özəl sektorla birlikdə ən böyük üstünlüyü məskunlaşan əhalinin məşğulluğuna veririk. Həmçinin onlar üçün özünüməşğulluq proqramları çərçivəsində xüsusi kvota ayrılıb, digər aktiv məşğulluq tədbirləri vasitəsilə onlara dəstək vermək istəyirik. Öz doğma ocağına geri qayıdan şəxslərin bir çoxunun ixtisassız olması əsas çətinliklərdən biridir. Xüsusi olaraq Qarabağ və Şərqi Zəngəzura köç edənlər üçün peşə hazırlığı proqramları hazırlanıb. Hər il təxminən 3 min nəfərə peşə hazırlığı vasitəsilə ixtisas və bilik veriləcək. Artıq həmin ərazilərdə Həm Qarabağ Peşə Hazırlığı Mərkəzi, həm də ona qədər özəl peşə hazırlığı mərkəzləri fəaliyyətə başlayıb. Vətəndaşlar həm onlayn, həm DOST və məşğulluq, həm "Cağrı" mərkəzləri vasitəsilə müraciət edə bilərlər. Bununla əlaqədar bir neçə dəfə Füzuli, Cəbrayıl, Laçın, Şuşa və Xankəndi sakinləri üçün elanlar vermişik. Ən azı ildə 3 min nəfər təlim keçməklə 12 min nəfərin məşğulluğunu təmin etməyi nəzərdə tutmuşuq. Paralel olaraq Elm və Təhsil Nazirliyinin peşə məktəbləri də analoji proqram elan ediblər və təxminən o qədər də vətəndaşın peşələrə yiyələnməsini onlar həyata keçirəcəklər. Məqsəd ondan ibarətdir ki, ən azı 20-25 min nəfərə peşə təhsili verilsin".

**AZƏRTAC**
**2024, 2 aprel**

**İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün aktiv məşğulluq proqramlarını davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin proqramların bir istiqaməti olaraq, Agentlik:

- Laçın şəhəri və Laçının Zabux, Sus, Bəylik, Güləbird kəndləri,
- Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi,
- Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi,
- Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri,
- Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri,
- Kəlbəcər şəhəri,
- Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi,
- Xankəndinin Kərkicahan qəsəbəsi,
- Qubadlının Mahruzlu, Zilanlı kəndləri,
- Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri,
- Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri,
- Xocavəndin Xocavənd kəndi üzrə peşə hazırlığı kursları təşkil edir.

Peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrinə aid peşələr üzrə təşkil olunan kurslarda iştirak etməklə əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmək və həmin peşələr üzrə işlə təmin olunmaq imkanına yiyələnmək mümkündür.

Peşə hazırlığı kurslarına, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək və ya “sosial.gov.az” saytındakı “Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı” bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək olar.

Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Peşə hazırlığı kursları işğaldan azad edilmiş digər ərazilərin sakinləri üçün də təşkil olunacaq.

**AZƏRTAC**
**4 aprel, 2024**

**Füzulidə, Laçında və Zabuxda orta təhsil səviyyəsi üzrə ilk dəfə buraxılış imtahanı keçirilib**

Xəbər verildiyi kimi, Dövlət İmtahan Mərkəzi aprelin 7-də ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib.

AZƏRTAC xəbər verir ki, həmçinin işğaldan azad olunmuş Laçın, Füzuli və Zəngilan rayonlarında da buraxılış imtahanı təşkil edilib. Belə ki, yeni istifadəyə verilmiş Laçın şəhər 2 nömrəli tam orta məktəbdə, Zabux kənd tam orta məktəbində və Füzulidə M.Uluqbəy adına 1 nömrəli məktəbdə ilk dəfə ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirilib.

**AZƏRTAC**
**7 aprel, 2024**

**Laçında ödənişsiz peşə hazırlıq kursları təşkil olunur**

Böyük Qayıdış proqramına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərin fəal məşğulluq proqramları ilə əhatə olunması tədbirləri davam etdirilir. Yaxın zamanlarda sakinlər üçün həm də ödənişsiz peşə hazırlığı kurslarının təşkili nəzərdə tutulub və bu istiqamətdə işlərə start verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün peşə hazırlığı kursları təşkil edilir. Həmçinin Laçın şəhəri və rayonun Zabux, Sus, Bəylik, Güləbird kəndləri üzrə kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələri üzrə peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Peşə hazırlığı kurslarına yazılmaq üçün işaxtaranlar, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək, yaxud “sosial.gov.az” saytındakı “Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı” bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçə bilərlər. Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Qeydə edək ki, proqramın tərkib hissəsi olaraq Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi, Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi, Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri, Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri, Kəlbəcər şəhəri, Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi, Xankəndinin Kərkicahan qəsəbəsi, Qubadlının Mahruzlu, Zilanlı kəndləri, Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri, Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri, Xocavəndin Xocavənd kəndi üzrə də peşə hazırlıq kursları təşkil olunur.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**7 aprel, 2024**

**Füzulidə Mirzə Uluqbəyin 630 illiyinə həsr olunan elmi konfrans keçirilib**

Füzuli şəhərində görkəmli dövlət xadimi Mirzə Uluqbəyin 630 illiyinə həsr olunmuş elmi konfrans keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbdə təşkil olunan konfransda Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəyli, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı Eldar Seyidov, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələri şöbəsinin müdiri filologiya elmləri doktoru Almaz Ülvi Binnətova, Qarabağ Regional Təhsil İdarəsinin nümayəndələri, məktəb direktoru Həcər Mahmudova və müəllim kollektivi iştirak edib.

Tədbirdə çıxış edən səfir Bahrom Aşrafxanov iki ölkə arasında sıx münasibətdən və əlaqələrin inkişafından danışıb. O, Mirzə Uluqbəyin 630 illik yubileyinin gözəl və füsunkar şəhərə çevrilən Füzulidə böyük alim və astronomun adını daşıyan müasir məktəbdə keçirilməsinə görə Azərbaycan Prezidentinin Administrasiyasına, Xarici İşlər Nazirliyinə, məktəb rəhbərliyinə və Azərbaycan Milli Elmlər Akademiyasına dərin təşəkkürünü bildirib.

Konfransda dünya elminin və ümumbəşəri sivilizasiyanın inkişafına böyük töhfələr vermiş astronom, riyaziyyatçı, tarixçi, musiqi və poeziya bilicisi, dövlət xadimi Mirzə Uluqbəyin həyat və fəaliyyətindən danışılıb.

Digər çıxış edənlər, həmçinin iki ölkə arasında olan qardaşlıq münasibətindən söhbət açıblar. Vurğulanıb ki, son illərdə Azərbaycanın qarşılıqlı münasibətləri daha da dərinləşdirdiyi dövlətlərdən biri Özbəkistandır. Respublikamız bu ölkə ilə əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli platformalarda, o cümlədən Türk Dövlətləri Təşkilatında intensiv şəkildə inkişaf etdirir. Diqqətə çatdırılıb ki, iki ölkəni bir sıra tarixi bağlar, dövlətlərin siyasi iradəsi və cəmiyyətlərin istəyi birləşdirir. Azərbaycanın və Özbəkistanın siyasi dialoqu, iqtisadi və humanitar sahələrdə əməkdaşlığı yüksək səviyyədədir.

Tədbirin sonunda özbək dilinə tərcümə olunmuş 100 cildlik "Türk ədəbiyyatı inciləri" toplusu, habelə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən bir çox kitablar məktəbə hədiyyə edilib.

Daha sonra qonaqlar məktəbdə yaradılmış şəraitlə tanış olublar.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**8 aprel, 2024**

**ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 8-dən 14-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 5 mina və 725 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 476.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**AZƏRTAC**
**15 aprel, 2024**

https://video.azertag.az/site/video/205023

**Füzuli şəhərinə daha 156 ailə köçürüləcək – VİDEO**

Aprelin 16-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Füzuli şəhərinə növbəti mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirilib.

Komitədən AZƏRTAC-a bildirilib ki, tədbirdə komitənin rəhbər şəxsləri, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Füzuli Rayon İcra Hakimiyyətinin və komitə yanında İctimai Şuranın nümayəndələri iştirak ediblər.

Diqqətə çatdırılıb ki, Füzuli şəhərindəki yeni yaşayış yerlərinə ilkin mərhələdə indiyədək müvəqqəti məskunlaşma binalarında ağır şəraitdə yaşayan və bu şəhərdə daimi qeydiyyatda olan ailələr köçürülür. Qeyd edilib ki, bugünkü püşkatma 156 ailə arasında keçirilib və ailə tərkibinə uyğun olaraq, onlardan 59-na ikiotaqlı, 80-nə üçotaqlı, 17-nə dördotaqlı mənzil təqdim olunacaq.

Tezliklə daimi yaşayış üçün Füzuli şəhərinə qayıdacaq keçmiş məcburi köçkünlər çox böyük sevinc hissi keçirdiklərini, işğaldan azad olunmuş ərazilərdə yaradılan şəraitə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Püşkatmada iştirak etmiş ailələr yaxın günlərdə Füzuli şəhərinə yola salınacaqlar.

**AZƏRTAC**
**16 aprel, 2024**

https://video.azertag.az/site/video/205067

**Füzuli məktəbinin şagirdi buraxılış imtahanında ən yüksək nəticə göstərib**

Buraxılış imtahanında ən yüksək bal toplayan məktəblilərdən biri də Füzuli rayonu Zobucuq qəsəbəsi 33 nömrəli tam orta məktəbin şagirdi olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu il buraxılış imtahanlarında Füzuli rayonu üzrə 64 şagird 200-300 arasında bal toplayıb.

Zobucuq qəsəbəsi 33 nömrəli tam orta məktəbin şagirdi Əlizadə Sevinc Fuad qızı isə buraxılış imtahanında 300 bal toplamaqla ən yüksək nəticə göstərib.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**16 aprel, 2024**